LÜTFİYAR NƏSİBOV

GÖYÇƏ:

Sədənağac-Güney

BAKI - 2019

Redaktor:
İSMAYIL UMUDLU

Bədii tərtibat:
MÜRSƏL BƏHMƏN

LÜTFİYAR NƏSİBOV.

GÖYÇƏ: SƏDƏNAĞAC-GÜNEY

Bakı, «Apostrof-A» MMC, 2019, 696 səhifə.

Kitab Azərbaycan Türklərinin tarixi bölgələrindən olan Göyçə mahalının, Basarkeçərin Sədənağac (sonrakı adı Güney) kəndinin məskunlaşma tarixindən, elin həyatında baş vermiş dramatik hadisələrdən, bütün olub-keçənlərə rəğmən kənd əhalisinin əzəli ata-baba yurdlarında möhkəmlənmək üçün inadkar yaşam mücadiləsindən bəhs edir. Burada Sədənağacın təsərrüfat həyatından, gün-güzəranından, kənddə məskun olan soyların şəcərəsindən, ənənəvi mətbəxindən, camaatın adət-ənənəsindən, mənəvi dünyasından söz açan bölmələr yer alır. İkinci Dünya savaşında, Əfqanıstan müharibəsində, Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmiş Sədənağaclılar barədə məlumat verilir, elin dəyərli övladlarının mənalı ömür yoluna işıq salınır.

"Göyçə: Sədənağac -Güney" ciddi bir tədqiqat əsəri olmaqla, türk əhalinin 1988-ci ildə üzləşdiyi elliklə deportasiyadan sonra Azərbaycanın bölgələrinə, yaxın və uzaq xarici ölkələrə səpələnmiş olan Sədənağaclılar arasında mənəvi bağların qorunub saxlanmasına, yeni yetişən gəncliyi müvəqqəti itirilmiş tarixi torpaqlara yenidən sahiblənmək mücadiləsinə kökləyir.

ISBN 978-9952-527-16-2

© *Lütfiyar Nəsibov,*
2019

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz 5
Müəllifdən 9

Göyçənin keçmişinə ekskurs 13
Göyçə inzibati ərazi vahidi kimi 16
Xanlıqlar dönəmində baş verən hadisələr və Göyçə 18
Rusiyanın Güney Qafqazda ekspansiyası və Göyçə 21
Gülüstan sülhündən sonra 23
Türkmənçay sülhündən sonra 47
Çar devriləndən sonra 51
Sovetləşmədən sonra baş verənlər 54
Sədənağac kəndi qanlı hadisələrdə 58

Sədənağac-Hacı Qərib-Güney 98
Kəndin yenidən dirçəlişi 104
Yaşayış mədəniyyəti 109
Təsərrüfat 112
Kolxoz illəri 124
Təhsil 127
Səhiyyə 130
Mətbəximiz 132
Mərasimlər 138

Nəsillər (soylar): 150
Babalılar 151
Çəkmələlər 178

Əmirlilər 191
Əmrahlılar 197
Hacı Ramazanlılar 206
Hüsənlilər 217
Koluxlular 245
Qəhrəmanlılar 275
Məşədi Hüseynlilər 286
Mirzalılar. 307
Rüstəmuşağı 319
Tatlar 327
Sədənağaca sonralar kənardan qoşulmuş ailələr 334

Sədənağaclılar Böyük Vətən müharibəsi illərində 345
Əfqanıstan müharibəsi qəhrəmanları 392
Qarabağ savaşında şəhid olmuş eloğlular 398
Unudulmaz müəllimlər 401
Bizim elin alimləri 424
Rəhbər vəzifələrdə çalışanlar 449
Yaradıcı eloğlular 465
Hərbçi oğullar 475
Peşəkar həkimlərimiz 491
Ölkənin iş adamları sırasında 502
Bu gün məsul vəzifələrdə 523
Sədənağac - uzunömürlülər yurdu 530
Sədənağac bu gün 532

İstifadə edilmiş ədəbiyyat 537
Xülasə 543
Əlavələr 545

Ön söz

İSMAYIL UMUDLU,
Azərbaycan MEA Arxeologiya və
Etnoqrafiya İnstitutu

...Elm adamı, yurdsevər aydınlarımızdan olan Lütfiyar Nəsibovun böyük bir əməyin məhsulu olan "Göyçə: Sədənağac-Güney" əsəri adından da göründüyü kimi, ulu Göyçə mahalının - Basarkeçərin keçmişdə Sədən-ağac, sonralar isə Ermənistan SSR rəhbərliyi tərəfindən nəyə görəsə Güney adlandırılmış bir kəndinin həyatına və insanlarına həsr olunmuş sanballı tarixi-etnoqrafik tədqiqatdır. Özəl dəyər daşıyır ona görə ki, 30 ildir əhalisi tərəfindən tərk olunmuş bir kəndə həsr olunub və bir zamanlar dolğun təsərrüfat-mənəvi həyatı olan bu kəndin əhalisi etnik təmizləmədən sonra indi Azərbaycanın onlarca bölgəsinə, yaxın və uzaq xarici ölkələrə səpələnib. Təsəvvür edək ki, müəllif başladığı bu işi tamamlamaqdan ötrü dəfələrcə Azərbaycanın bölgələrini kəndbəkənd gəzib, adamlarla görüşüb-danışıb, məlumatlı şəxsləri dinləyib, uzaq ölkələrdə olanlarla əlaqə saxlayıb, yazılı qaynaqlara üz tutub, arxiv sənədlərini səhifə-səhifə vərəqləməkdən yorulub usanmayıb.

Xeyli gecikmə ilə olsa da, vacib və zəruri sayılmalı bu iş yekunlaşdırılaraq oxucuların mühakiməsinə verilir, elmin yaddaş bazasına yazılmış olur. Gecikmə dedikdə, bu kimi işlər planlı qaydada hələ 1990-cı illərin əvvəllərindən - necə deyərlər isti-isti aparılmalı idi. Bu tədqiqat işi isə son üç ilin məhsuludur. Daha geniş informasiyaların daşıyıcıları olan yaşlı nəsil deportasiyadan sonrakı dönəmdə dünyasını dəyişmiş, bildiklərini də özləri ilə aparmışlar. Zamanın sərt üzü öz sözünü deyib. Ümumiyyətlə, Ermənistan SSR ərazisində mövcud olmuş hər bir türk yaşayış məntəqəsinin tarixçəsi yazılmalı və bunlar bir bazada əldə hazır saxlanmalıdır. Bu materiallar bir gün gərək olacaqdır. Bu, işin bir tərəfidir. Digər önəmli tərəfi bunda görü-

lür ki, Sədənağaclılar nə qədər geniş bir coğrafiyaya səpələnmiş olsalar da, bu kitab onların arasındakı qohumluq və eloğluluq bağlarının zəifləməsinə, özəlliklə yeni yetişən gəncliyin doğma mənəvi mühitdən uzaq düşməsinə yol verməyəcək, ona tarixi düşmənin simasını daha yaxşı tanıdacaq, tarixi yurdlara yenidən sahiblənmək əzmini, qətiyyətini möhkəmlədəcək, gəncliyi bu hədəfə kökləyəcəkdir.

"İtirilmiş torpaqlar" məsələmizə fəlsəfi yanaşsaq, insanlığın tarixi əslində başqasından yeni torpaq qoparmaq, yaxud üstündə yaşadığın torpaq sahəsini başqasına qapdırmamaq, onu itirməməyə çalışmaq, əldən çıxanı geri qaytarmaq uğrunda sonu görünməyən mücadilə tarixidir. Bu tarix bizə kitablardan yaxşı tanışdır. Ələlxüsus da XX yüzildə baş verənlər daha yaxın tarix olduğundan məzmunu və təfsilatı bizə yaxşı bəllidir. Son 30 ilin hadisələrini isə biz - nisbətən yaşlı nəsil öz taleyimizdə, ürək ağrılarımızda, şəxsi itkilərimizdə yaşamışıq, hər şey gözümüzün qarşısında cərəyan edib, bütün bu olub keçənlərin canlı şahidləriyik. Bu bitmiş, nöqtəsi qoyulmuş məsələ deyildir, əzəli və əbədidir.

Dünya işlərinin gedişatı elə şəkil aldı ki, gücümüz yetməyən böyük dövlətlərin, ilk sırada Rusiyanın qayçısı öncə bizim əzəli torpaqların xəritəsində köndələn uzanmış bir "Ermənistan" biçdi, sonra onu tədricən böyütməyə, dirçəltməyə başladılar. Elə bir fitnə-fəsad yuvası formalaşdırdılar ki, dönüb onların Qafqaz siyasətini iflasa uğratdı, qonşulara isə baş bəlası oldu. Böyük dövlətlər öz aralarında bir-biri ilə nə qədər rəqabət aparsalar da, ermənipərəstliyə havadarlıqda hər zaman həmrəy oldular. 1988-ci ildə Ermənistan SSR-in əzəli və köklü türk əhalisi sivil dünyanın gözü qarşısında öz ata-baba yurdlarından elliklə deportasiya ediləndə hər zaman insan haqlarından danışanlar beynəlxalq hüququn müddəalarını sanki yoxmuş kimi gözardı edərək, bu antibəşəri aksiyaya seyrçi qaldılar və bu gün də seyrçidirlər.

Bu 220 minlik türk insanı Ermənistan SSR-ə qarşı heç bir qəbahət iş görməmişdi (bütün olub-keçən məşum hadisələrdən sonra bu qədər sayda toplumun Ermənistan SSR-də hələ də yaşamına davam etməsi o vaxt üçün özü bir möcüzə idi). Onlar sadəcə türk olduqlarına görə ya köçüb getmək, ya da min bir işgəncə ilə öldürülmək dilemması qarşısında qoyulmuşdular. 1918-20-ci illərdə yaşananlar, cildini dəyişmiş şəkildə 1948-ci ildə bir də təkrarlandı. Bu alınmadısa, aradan 40 il ötəndən sonra - 1988-ci ildə "Türksüz Ermənistan" niyyəti açıqcasına gerçəkləşdirildi. Bu, o zamankı sovet rəhbərliyinin və bu gün də pul-para müqabilində ermənipərəstliyin ya-

nında yer alanların qara vicdanlarına yazılmış ən mənfur antibəşəri aksiyalardan biri idi.

O vaxt dirənişə gücümüz yetmədi. Bəlkə də yetərdi, bunu təşkil edəsi siyasi qüvvə, təşkilat, ideoloji dəstək ortada yox idi. Gücümüz yalnız ona yetdi ki, bunu "oldu-bitdi" deyə sinirmədik. Biz bu haqsızlıqla heç cür barışmadıq. Bunu tarixin ironiyası hesab edir və mücadiləmizi bacardığımız qədər sürdürürük. Eynilə alman Keniqsberqdən, yapon Kuril və Saxalindən vaz keçmədiyi kimi, biz də əzəli torpaqlarımıza yenidən sahiblənmək əzmindəyik, bu ümidlə yaşayır və səbirsizliklə revanş gününü gözləyirik.

İnsan ömrü biz düşündüyümüzdən də qısadır. Odur ki, qan yaddaşı, yurd yaddaşı hər zaman canlı saxlanmalı, nəsildən nəsilə ötürülməli və hər birimizin ürək tellərindən keçən savaş bir an belə səngidilməməlidir. Tarixi düşmənlə mücadilə bitməyib, bütün parametrləri ilə davam edir. Hər şey sürətlə dəyişir, heç gözləmədiyimiz halda bizə də tarixi fürsət düşə bilər.

Hər halda, biz inadla, beynimizdə, ürəyimizdə tarixi uğurlarımız, qan yaddaşımız həmin hədəfə doğru yürüyür və yürüyəcəyik. Bu kitab da belə bir nəcib qayədən doğulub.

Yazılanları oxuduqca, Göyçənin keşmişinə ekskursun fonunda 1988-ci ilin Fəlakətinə gətirən yolları addım-addım yenidən keçib gəlirik. Son 200 ildə Azərbaycan Türkünün başına gələn bütün bəlaların təməlinin Çar Rusiyasının Qafqazdakı ekspansiyası ilə qoyulduğunu bir daha əyani şəkildə izləyə bilirik. Çox az adam bilir ki, Sədən-ağac kəndi ikinci Rus-İran savaşının cəbhə xətti olmuşdu. İrəvan quberniyasına daxil olan qəzalarda, Göyçə mahalında baş vermiş məlum qanlı hadisələr Sədənağacdan da yan ötməyib və canlı şahidlərin dilindən yazıya alınmış materiallara isnad edən bölmələri oxuyub başa çıxmaq üçün oxucunun əsəbləri gərək dəmirdən olsun...

Sədənağac və Göyçənin digər kəndləri Qaf dağındakı əfsanəvi Ənqa quşu (Feniks) kimi sönmüş od-ocağın külündən silkinib canlana bilmişdi. Ruhunda nə qədər qüvvə olmalıdır ki, bunu bacara biləsən.

Keçmiş kəndin təsərrüfat sahələri, yaylaq-qışlaq həyatı, kənd insanının günü-güzəranı, onun mətbəxi, kənd qadınlarının toxuduqları misilsiz gözəlliyə malik xalı-xalçalar, mayası saflıqdan yoğrulmuş adət-ənənə, indi şirin bir xatirəyə çevrilmiş toylar-düyünlər, eləcə də yas adətləri, yerli mətbəx, təhsilin, səhiyyənin bu elata ayaq açması və bunun nəticələri, yerli toponimika bir peşəkar etnoqraf səriştəsi ilə təqdim olunur.

Göyçə gölünün yaxasında, qosqoca dağlarımızın ətəyində yerləşən Sədən-ağacın qurub-yaratma mühitinin hakim olduğu kənd idilliyasını təsəvvürümüzə gətirir, onun dəyərli aydınları, əməksevər insanları, igid

oğulları, saza-sözə söykənən mənəvi dünyası ilə tanış oluruq. Türk insanının normal təhsillə əhatə olunduqda nələrə qadir olduğuna yəqinlik hasil etməkdən ötrü Sədənağac məktəbi, onun fədakar xalq müəllimləri, səsi-sədası dünyanın hər bucağından eşidilən məzunların nailiyyətləri, uğurları haqqında bölmələr heyrət doğuran intellektual mənzərə yaradır.

Sədənağacda 1988-ci ilə qədər 12 nəsil (soy) yaşayıb. Kənddə yaşamış olan bu soylara dair təqdim olunan şəcərəvi təsvirlər, cədvəllər, köhnə fotoşəkillər, bu kimi işlərin mahiyyətindən baş çıxara bildiyim üçün, mənim gözümdə olduqca qiymətlidir. Şəcərə - hər kəsin marağında olan məsələdir. Hər kəs öz keçmişini, əslini-kökünü dəqiqliklə bilmək istər. Şəcərə - biz Türklərin Oğuz xaqan dönəmindən bəri milli gələnəyidir. Heç şübhəsiz, bu elementlər tədqiqat işinin etnoqrafik dəyərini xeyli artırır.

Mövzuya "heç nə unudulmasın, heç nə yaddan çıxmasın" prinsipi ilə yanaşan müəllif buna nail ola bilmişdir. İkinci Dünya müharibəsində iştirak etmiş Sədənağaclıların hər biri haqqında Rusiya arxivlərindən əldə edilmiş bilgiləri olduğu kimi təqdim etməklə, faydalı bir iş görmüşdür.

"Göyçə: Sədənağac-Güney" Qərbi Azərbaycandan deportasiyanın mənəvi əzablarını yaşamış hər kəsi bir daha dərindən düşünməyə məcbur edəcək. Təbii ki, özünü bilən hər kəsin yaraları yenidən qövr edəcək. Fəqət qoy dostlarımız və düşmənlərimiz bilsin ki, "itirilmiş torpaqlar" bizdən ötrü müvəqqəti anlam daşıyır. O torpaqların hər qarışı yenidən Azərbaycanın siyasi coğrafiyası daxilində olacaq. Biz günlərin birində, gecələrin bir vaxtında qəfildən, heç gözlənilmədən gələcək və hər şeyin hesabını istəyəcəyik. Bədəl çox ağır olacaq, çox...

Bu el o yurdu tərk etməyə məcbur edilmişsə də, sərhəd xəttinin beş-altı km o tərəfindəki bu kənd hələ də məskunlaşdırıla bilməyib, kosmik fotoşəkillərdən də açıq göründüyü kimi, yarımxaraba vəziyyətə salınıb. Çox yaxşı bilirlər ki, Sədənağac onların deyil, onun bu tərəfdə məqam gözləyən gerçək sahibləri vardır.

Söyləmək istərdim ki, bu kimi kitablar diletantların deyil, elmi təfəkkürü, araşdırma səriştəsi, ictimai rəylə, xarici auditoriya ilə işləmək bacarığı olanların qələmindən çıxanda ciddi bir iş kimi qəbul olunur. Lütfiyar Nəsibov bu işin öhdəsindən səviyyəli bir şəkildə gəldiyi üçün ona yalnız təşəkkür etmək qalır.

Müəllifdən

Əziz eloğlular!

Diqqətinizə təqdim olunan bu kitab üçillik əməyin nəticəsi olsa da, əslində bu ideya 2009-cu ildə doğulmuşdu. Rusiyada yaşayan vaxtlarım idi. Elmi işimi təzəlikcə müdafiə etmişdim. Rəhmətlik atam, hamınızın yaxşı tanıdığı Qulu müəllim zəng vurub bu münasibətlə məni təbrik edəndə bir söz dedi: "Gün o gün olsun, kəndimizin, uzaqlarda qalmış yurd yerimizin tarixçəsini, elimizin şəcərəsini də yaza biləsən!".

Atam göz açıb ömür sürdüyü o yerləri heç zaman unuda bilmirdi. Orada göz açmış olanlar o yerləri unuda bilməz, unuda bilməyəcək. Deportasiyadan sonra neçə-neçə ağsaqqalımız, ağbirçəyimiz Göyçə, Sədənağac həsrəti, nisgili ilə gözünü əbədiyyətə yumdu. O yerlər - Göyçə mahalı, onun axarlı-baxarlı kəndləri yüzillərdən bəri bizim yurdumuz olub, onu necə unuda, bu itkilər ilə barışa bilərik? Əlbəttə, o yerlər yenə də bizim olacaq, yetər ki, biz, indiki nəsil bunu unutmayaq və hədəfimiz bu olsun. Tarixin gedişatını kim bilir?

Rusiyadan qayıtdıqdan sonra doğma kəndimiz - Sədənağac barədə nələrsə yazmaq fikri mənə rahatlıq vermirdi. Əvvəlcə Məşədi Hüseynlilərin qısa şəcərəsini yazmaq istədim. Bir az keçəndən sonra anladım ki, bu yetməz. Görürdüm ki, taledən bəxtinə didərginlik, qaçqınlıq payı düşən, Azərbaycanın rayon və kəndlərinə yayılmış ailələr - Sədənağaclılar deportasiyadan (1988) 30 il (!) ötsə də, hələ də bir-birlərinə sıx bağlıdırlar, məsafənin yaxınlığına-uzaqlığına baxmayaraq imkan düşəndə bir arada olmağa, sevinclərini-kədərlərini bölüşməyə çalışırlar. Bu görüşlər sanasan onlara bir dünya bəxş edir. Gənclərimizdə kəndimizin keçmişinə maraq güclüdür. El-oba haqqında xırda bir söhbətin ətrafına adamların, xüsusən də gənclərimizin necə toplaşdığını gördükcə Sədənağac barədə daha əhatəli bir şeylər yazmaq fikrim qətiləşdi. Niyyətimi uşaqlıq illərindən bu günə-

dək dostluq etdiyim kimyaçı alim Mehman Qurbanovla bölüşəndə bu fikrimi çox bəyəndiyini, ondan asılı olan hər köməyi göstərəcəyini dedi. Hər dəfə görüşəndə: "İşlər necə gedir?" sualı ilə məni daha da həvəsləndirirdi.

Düşünürdüm ki, kəndimizin yaşlı sakinləri ilə söhbətlər çoxlu faktlar verər. Ürək ağrısı ilə müəyyən etdim ki, bu gün yaşlı kənd sakinlərinin çoxu həyatda yoxdur. Gecikmişdim. Zaman öz sözünü deyib. Halbuki bir zamanlar Sədənağac özünün çoxsaylı uzunömürlüləri ilə fərqlənərdi. Bütün bunlara baxmayaraq müraciət etdiyim hər bir sədənağaclı yaddaşında qalanları, səhih bildikləri təfsilatları mənimlə bölüşür, bilmədiklərini başqalarından öyrənib, dəqiqləşdirib mənə çatdırırdılar.

Bakı şəhərindən - mərhum Xanım Əhməd qızı Rəhimova, Şövkət Ocaqverdi qızı, Gümüş Nəsib qızı, Müşavirə Ziyad qızı, Firuddin Ələkbər oğlu və onun həyat yoldaşı Sona Gülalı qızı, Nəcəf müəllim Ziyad oğlu, Əbülfət Məcid oğlu, Müsəllim Dünyamalı oğlu, Knyaz Xanlar oğlu, Sahib Məcnun oğlu, Xasay Pirverdi oğlu, Əli Zeynalabdı oğlu, Vahid Qiyas oğlu, Məhəbbət Salman qızı; Gəncə şəhərindən - Səhər Qurban qızı (bu yaxınlarda rəhmətə gedib. Allah qəbrini nurla doldursun!), Gəncə Həmid oğlu, Müseyib müəllim İsmayıl oğlu, Şamil müəllim Dıvış oğlu, Goranboy rayonunun Dəyirmanlar kəndindən - Məmməd Bəylər oğlu, kəndimizin ən qocaman sakini İsə Əli oğlu, İzzət İsə oğlu, Bakir Mahmud oğlu və oğlu Siyab, Göygöl rayonunda yaşayan sevimli dostum, qardaşım Maksim Camal oğlu, rayonun Göyçəkənd kəndində yaşayan İbrahim müəllim, İsəxan Müsüd oğlu, Eldar Mahmud oğlu, Şəmkir rayonundan Arif həkim Valeh oğlu, Xasay həkim Abbas oğlu, Veyis Həmid oğlu, Samux rayonundan hörmətli İsfəndiyar müəllim İsrafil oğlu və onlarla digərləri, hər zaman dərin minnətdarlıq hissi ilə xatırladığım eloğlular, el qızları ilə söhbətlərin mənə çox köməyi oldu. Onların hər birinə dərin minnətdarlığımı bildirir və möhkəm can sağlığı arzu edirəm.

Son yüzilləri əhatə edən zaman kəsimində Ulu Göyçəmizin, onun daxil olduğu İrəvan Xanlığının tarixinə dair oxucularımız üçün maraqlı ola biləcək bəzi əlaqəli faktları qısa da olsa təqdim etməkdə məqsədimiz bizim elləri tədricən həmin məşum 1988-ci il deportasiyasına gətirən səbəbləri bilmək, yaddaşımıza həkk etmək və bunlardan dərs götürməkdir.

Bu kitabı oxuyan hər kəs, Sədənağac kəndinin, Göyçə mahalının, İrəvan Xanlığının tarixi keçmişinə aid maraqlı faktlarla qarşılaşa-

caq, kəndin çıxacağındakı təpənin nəyə görə "Qarovul təpəsi" adlandığını biləcək. İkinci İran-Rusiya müharibəsinin başlanmasına səbəb olan ərazi iddialarından birinin məhz Gilli çayı ilə kəndimizin ortasından keçən Böyük Sədənağac çayı arasındakı torpaqların olmasını bilirikmi? Sədənağaç sözünü 200 il öncə Qafqazı işğal etmiş rus generallarının məktublarında, məruzələrində, Fətəli şah Qacarın, şahzadə Abbas Mirzənin apardığı diplomatik yazışmalarda oxumaq sizcə hər bir Sədənağaclıya maraqlı olmazmı?

Məqsədim bir daha öz keçmişimizə nəzər salmaq, doğulub boya-başa çatdığımız, ləpələrinin pıçıltısı ilə yuxuya daldığımız, dağlarının səhər mehi ilə yuxudan oyandığımız ana torpağın - o unudulmaz diyarın başına gələnləri bir daha xatırlatmaqdır. Ruhları Göyçə dağlarında, Sədənağac göylərində olan babalarımızı, nənələrimizi, bütün bu olub-keçənləri xatırlamaqla acılı-şirinli keçmişimizi, Ata Yurdumuzu unutmadığımızı, unuda bilməyəcəyimizi və o torpaqları yenidən Ana Vətənin sınırları daxilində görmək əzmimizi - dosta da, düşmənə də bir daha bildirməkdir. Balaca bir çərçivəyə bənzər bu kitabın imkan verdiyi qədər o müqəddəs məkana xəyalən səfər etmək, özü orada olmasa da, qəlbi o yerlərdə qalmış qardaş-bacılarımızı xəyalların qanadında öz doğma yurd-yuvasına, ev-eşiyinə qaytarmaq, yayın qızmar günündə kölgəsində sərinləndiyi, indi kimsəsiz qalmış uca söyüdlərin kölgəsinə çatdırmaqdır. Orada hamını bir ocaq başına yığmaq, Tanrının rəhmətinə getmiş ata-babalarımızın, qardaş-bacılarımızın müqəddəs xatirəsini həmin ocağın başında anmaqdır. O cənnət bucağının gözümüz dolusu seyrinə dalmaqdır. Və ölüncə o yerlərdən bir daha qopmamaqdır.

Keçmişə qayıtmaqda, el-obamızın necə bir yaşam tərzi keçirdiyini xatırlamaqda məqsədimiz keçmişimizdən ayrılmamaqdır. Keçmişini bilməyənin gələcəyi də olmur - deyiblər. Son iki yüz ildə zaman bizimlə kəc rəftar etdi, Göyçənin elləri-obaları ağır sınaqlardan, min bir çətinlikdən keçməli oldu. Lakin o torpaqlarda öz varlığını 1988-ci ilə qədər qorumağı bacardı.

Tarix divar hörməyə bənzədilir - bir daşın divara hörülməsi üçün altında daş olması gərəkdir. Boşluğun üzərinə daş qoymaq olmaz. Tarix də eləcə, bugünkü tarix, dünənkinin üzərində dayanır. Dünəni bilməsək, sabahı necə qurub-yarada bilərik?

Gənc oxucum, bu kitabı mütaliə etdikdə, özünün kimliyini görəcək, hansı ağacın köküdən, hansı budağın qolundan olduğunu biləcəksən. Sədənağac kəndində yaşamış nəsillərin (soyların) şəcərəvi

təsvirini verməyi, gözünü dünyaya Sədənağacda açmış olanların hamısını bir araya gətirməyi qərara alarkən bunun çox ağır bir iş olduğunu öncədən bilirdim. Lakin bunu etməli idim. Bir yerə cəm olaq və heç vaxt ayrılmayaq. Yeni nəsil də uzaqda-yaxında yaşamaqdan asılı olmayaraq bir-birini tanısın.

Qərbi Azərbaycanın Göyçə mahalının bir elatı olan Sədənağacda yaşamış soyların şəcərəsini yazmaqla istəmişəm ki, insanlarımızın qan yaddaşını oyadım, onları əvvəlki kimi yenidən doğmalaşdırım, küsülülər barışsın, uzaq düşənlərin yolu yaxın olsun. Umu-küsü, inciklikər varsa, onları unudaq getsin. Əzəli səmimiyyət bərqərar olsun, Sədənağac yenidən canlansın, bir olsun - axı, orada bizə yad bir kimsə yox idi.

Kəndimizin təşəkkül tarixini araşdırmaq, onun isti qoynundan dünyaya baxmış dəyərli insanlarını gənc nəslə örnək qismində göstərmək istədim. Camaatımızın riayət etdiyi milli adət-ənənələri olduğu kimi təsvir etməyə çalışdım. Deyim ki, bu araşdırma, kəndimiz barədə ilk etnoqrafik təsvirdir.

Əziz eloğlularım, əziz elqızları, sizə ərməğan olunan, hər səhifəsində kədərli xatirələr, nisgil oyadan bu kitab bizim Öz Kitabımızdır. Sizin hər biriniz üçün nəzərdə tutulmuşdur. Böyük fransız yazıçısı Viktor Hüqonun bir sözü var: kitabı müəllif yaradır, onun aqibətini isə cəmiyyət təyin edir. Əgər oxuyub razı qalsanız, deməli mənim özümü xoşbəxt hiss etmək haqqım var!

Əgər kimsə məlumat qıtlığından yaddan çıxıbsa, kimisə, hansı bir məsələni, təfərrüatı unutmuşuqsa, buna görə dönə-dönə üzr istəyirik. Hər hansı bir yanlışlığı, düzgün olmayan məlumatı müəllifin səhvi kimi yox, sadəcə məlumatı vermiş mənbənin yanlışı kimi qəbul etmənizi xahiş edirəm. Nə kimi iradınız, arzu və təkliflniz olsa, yazıb ünvanımıza göndərin. Bunlar təkrar nəşrdə, əlbəttə, nəzərə alınar.

GÖYÇƏNİN KEÇMİŞİNƏ EKSKURS

TARİXİNİ UNUDAN XALQIN BƏLALARI HƏMİŞƏ TƏKRAR OLUNUR

Qərbi Azərbaycanın böyük bir ərazisini əhatə edən Göyçə mahalını tarixin dərinliklərinə endikcə Türklərlə məskun olan bölgə kimi görürük. Yaxın tarixdə həm ərazicə, həm də əhali sayına görə İrəvan bəylərbəyiliyinin, sonralar xanlığının ən böyük mahalı olmaqla, Göyçə gölünün bütün ətrafını - Göyçə vadisini əhatə edirdi. Göyçə mahalı quzeydən Qazax və Şəmsəddin mahallarına aid dağlarla, şərqdən Gəncə, şimal-qərbdən Dərəçiçək, güneydən Qarabağ, qərbdən isə Qırxbulaq, Gərnibasar və Vedibasarla həmsərhəd idi. Öz suyunu Göyçə gölünə axıdan bütün ətraf dağlar və dərələr bu mahala aid idi.

Göyçə adının xatırlandığı ilk qaynaqlardan biri Oğuz Türklərinin böyük tarixi-ədəbi ensiklopediyası olan "Kitabi-Dədə Qorqud"dur. Burada rast gəlinən Göyçə gölü, Göyçə dağı, Ağlağan dağı, Ayğır bulağı, Altuntaxt toponimləri bu diyarın Oğuzların doğma yurdlarından biri olduğunu göstərir.

"Kitabi-Dədə Qorqud" dastanında Göyçə gölünün adı aydın deyilir: Andan Şirö-küruz ucundan Gökçə dənizə dəkin el çapdı (35, s.134).

"Kitabi-Dədə Qorqud"un müxtəlif illərdəki nəşrlərində Göyçə gölünün adının "Göyçə dəniz" (35, s.134), "Gökcə dəniz" (36, s.110), "Gökçə dəngiz" (Göqce Denqiz) (65, s.225) formalarında ifadə edildiyini görürük. Bir yazılı qaynaq kimi "Gökçə dağ" ifadəsinin meydana çıxdığı ilk yazılı əsər də məhz "Kitabi-Dədə Qorqud"dur (55, s.12; 6, s.433).

VII yüzilə dair mənbələrdən hesab edilən "Albaniya tarixi" əsərində Moisey Kalankatuklu Göyçə gölünün adını qeyd etmişdir: Artakses Yervanda hücum edəndə, Yervand Albaniyanın Uti vilayətində idi. Ordusunu orada saxlayıb, Artakses öz şəhərinə qayıdır. Orada Alban ordusunu yanına dəvət edir, onlar Göyçə gölünün sahilinə gəlir (34, s.20).

Azərbaycanın görkəmli orta əsr tarixçisi İsgəndər bəy Münşi Türkmanın "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində gölün adı Gökcə (Göycə) dənizi və ya Gökcə Təngiz kimi ifadə olunmuşdur (30, s.56; 31, s.1201-1205, s.1299).

İsgəndər bəy Münşi öz əsərində Göycə dənizinin təbiəti haqqında yazır: "... Təbiətin paklıq və xürrəmlik vaxtı olan bahar günlərində əlahəzrət zilləllah şah *(I Şah*

Abbas - müəllif) havasının lətafəti, suyunun bolluğu, gül-çiçəyinin çoxluğu, çay və bulaqları ilə göz oxşayan və cənnət gülzarına bənzəyən Göycə dəniz yaylağında işrətlə məşğul olub ov edirdi" (31, s.1204).

Səfəvi dövrünün anonim müəllifi "Tarix-i aləmara-yi Səfəvi" əsərində bu gölün adını "Göyçə dəryası" adlandıraraq yazır: "İsmayıl *(Səfəvi- müəllif)* Ərdəbildən Göyçə dəryası kənarına getmək, oradan isə Şərqi Anadoluya keçmək fikrində idi" (53, s.124).

Yaxın Şərq ölkələri tarixinin ən qədim zamanlardan başlayaraq XIV əsrin birinci yarısına (1330-cu illərə) kimi yığcam şəkildə təsvir olunduğu, mühüm qaynaqlardan biri hesab edilən Həmdullah bin Əbu Bəkr bin Nəsr Mustovfi Qəzvininin (1281-1344) "Tarixe-güzide" əsərində və onun davamı olaraq Həmdullah Mustovfi Qəzvininin oğlu Zeynəddin tərəfindən davam etdirilmiş və elmə "Zeyl-e tarixe-güzide, ("Seçilmiş tarixə əlavə") təlif-e Zeynəddin bin Həmdullah Mustovfi Qəzvini" kimi məlum olan və 1343-1344-cü illərdə baş vermiş tarixi hadisələrin işıqlandırıldığı bu əsərlərdə Göyçə gölündən bəhs edilir, Göyçə mahalı bir inzibati-ərazi vahidi kimi göstərilir (64, s.16-18, s.52).

Başqa ilk mənbələrlə yanaşı, Həsən padşah Ağqoyunlunun (1454-1478) tapşırığı ilə Əbu Bəkr əl-Tehrani əl-İsfahaninin yazdığı "Kitabi-Diyarbəkriyyə" adlanan Oğuznamədə verilən faktlar da çox mühüm əhəmiyyət kəsb edir. Əl-İsfahaninin yazdıqları sübut edir ki, Oğuz Türkləri, o cümlədən xalqımızın soykökündə duran Ağqoyunlu və Qaraqoyunlular Azərbaycanın, eləcə də bütövlükdə Güney Qafqazın və Ön Asiyanın ən qədim sakinlərindən biridir. Müəllif Həsən padşahın nəsil şəcərəsini, babası - Ağqoyunlu dövlətinin banisi Qara Yuluk Osman bəydən başlayaraq Oğuz xaqana qədər dəqiqliklə araşdırır və onun başçılıq etdiyi böyük Türk dövlətinin tərkibinə daxil olan əraziləri sadalayarkən, Oğuz xaqanın soyundan olan bu böyük hökmdarın Göyçə dənizi ətrafında vəfat etdiyini göstərir (16, s.245).

Göyçə adının əmələ gəlməsini "gözəl", "göyçək" sözü ilə əlaqələndirən bir xalq deyimi də var. Rəvayətə görə, Əmir Teymur ordusu ilə bu yerlərdən keçən vaxt Məlik Mənüçöhrdən sərvətinin nə qədər olduğunu soruşub. Cavabında Mənüçöhr "Sayənizdə o qədər sərvətim var ki, bütün Məzrə düzənliyini kətan yağı ilə suvararam" deyə cavab verdikdə, Əmir Teymur heyrətlə "Göyçək" (Gözəl) deyə qışqırıb. Elə o vaxtdan da bu göl Göyçə adlanıb (95, s. 81; şəkil 1).

Göyçə adının etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi alimlərin fikrincə, bu ad Göyçə gölünün adından götürülmüş, Göyçay sözünün tədricən dəyişilərək Göyçə formasına düşməsi əsasında əmələ gəlmişdir. Gölün suyunun rəngi göy (təmiz, duru) olduğu üçün Göyçay adlandırılmışdır. İ.Şopen də "Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinin tarixi abidəsi" ("Исторический памятник состояние Армянской области в эпоху ее присоединение к Российской империи") əsərində Göycə sözünün etimologiyasını "Göy", "mavi" sözü ilə bağlamağa çalışır (134, s.249, s.395; şəkil 2)

Görkəmli tarixçi, etnoqraf alim, professor Q.Qeybullayev "Qədim türklər və Ermənistan" adlı əsərində Sevan gölünün adının Urartu dilindən erməni dilinə keçmiş sue "su" sözündən olduğunu yazır. O, göstərir ki, qədim erməni mənbələrində Sevan adına rast gəlinmir,.." Urartu mənbələrində Qelakuni V-XIII əsr erməni mənbələrindəki Qelakuni toponimi ilə eynidir, demək bu toponim Qelak sözündən və Urartu dilində "uni" şəkilçisindən ibarətdir. Maraqlı odur ki, keçən əsrdə Göyçə gölü hövzəsində, onun cənub sahilində əhalisi azərbaycanlılardan ibarət olan Göbqran kəndi vardı. Məhz "Qelakuni" adı çəkilən Urartu yazısı da Göbqran kəndinin ərazisində tapılmışdır" (40, s.27). Urartu çarı I Rusanın yazısında Sevan hövzəsində Qelakuni adı çəkilir. Qədim tarixçilərin yazdığına görə, Qelakuni həm göl, həm də Göyçə hövzəsini əhatə edən dağların adıdır (40, s.40).

V yüzildə yaşamış erməni tarixçisi Moisey Xorenli göstərir ki, ermənilər bu əraziyə eramızdan əvvəl II yüzildə, erməni çarı Artaşesin dövründə köçüblər (41, s.47; 13, s.246).

Erməni və gürcü qaynaqlarında isə əksər hallarda bu gölün adı Göyçay (Sinaya-Voda), Sevank, Qeqam, Qeqarkuni kimi qeyd edilir (12, s.282), gölün qədim adının "Qelam gölü", "Qeqarkuni" gölü olduğunu sübut etmək cəhdləri nəzərə çarpır (14, s.822- 827). XVIII yüzilin sonları, XIX yüzilin əvvəllərində əksər rus məmurlarının məktublarında gölün adı "Qoqça (Qeqam)" kimi göstərilir (92, s.119; 107, s.127; 120, s.89).

Qafqazın 5-verstlik xəritəsində bu su hövzəsinin adı "Gökcə" (Qekça) gölü kimi göstərilir (101, s.64).

K.F.Qanın fikrincə, "Göyçə gölü" mavi, göy su mənasını bildirməklə yanaşı müxtəlif mənalar da ifadə edir. O yazır: "...Müsəlmanlar bu gölü "Gek-çay"-mavi, göy su, həm də "Göycə-dərya" - göy dəniz - "Şirin-dəniz" - şirin su adlandırırlar. Ruslar tərəfindən Gek-çay Qokça kimi dəyişdirilmişdir. Lakin bir sıra tədqiqatçıların fikrincə, bu göl adını ətraf yerə uyğun olaraq almışdır ki, qədim zamanlarda Göyçə aricə (pod ariyskim imenem Qet-dja) kimi (erməni yazıçılarının əsərlərində Kotayk) tanınmışdır və Get torpağı deməkdir (79, s.38).

Türk tədqiqatçısı M.Fahrettin Çelikə görə, "Atalarımız "Göyçə dəniz - Göyçə göl"ə rənginə görə bu adı vermişlərdir (66, s.455).

M.Fahrettin Kırzıoğlu gölün adı ilə bağlı yazır: "Arsakların mərkəzi əyaləti Araratın cənubunda yerləşdiyi üçün qədim türk dininə və ənənəsinə görə "Gökcə//Kökçə (Kökçe//Gökçe) rəngi ilə adlandırılmışdır (67, s.102).

Q.Məşədiyev yazır ki, Göyçə gölü əsasən göy su kimi tərcümə edilir (47, s.119).

B.Budaqov və Q.Qeybullayev Göyçə gölünün adını, onun suyunun açıq havada göy (mavi) rəngə çalması ilə əlaqədar yarandığı fikrində dayanırlar (13, s.321).

Böyük alim, filologiya elmləri doktoru, professor, həmyerlimiz, Göyçə mahalının Toxluca kəndində doğulub boya-başa çatmış İbrahim Məhəmməd oğlu Bayramov "Qərbi Azərbaycanın toponimlər sistemi" kitabında yazır: "Göyçə gölü

hidronimi "Göyçay gölü" adı əsasında formalaşmışdır. Yəni "Göyçə" "Göyçay" deməkdir. "Göyçay" sözünün sonundakı "y" samiti səs düşümü hadisəsinə uğramışdır və həmin söz Azərbaycan dilinin qayda-qanunlarına uyğunlaşaraq "Göyçə" kimi sabitləşmişdir. Deməli, "Göyçə gölü" hidronimi üç komponentdən ibarətdir: Göy +çə və göl. Hidronimin birinci komponenti "göy", "təmiz", "duru", "şəffaf" mənalarını ifadə edir. "Çə" isə çay sözünün fonetik formasıdır. Deməli, gölün suyu təmiz, duru olduğuna görə, göy (təmiz mənasında) rəngə çaldığına görə göl, "Göyçə gölü" adlandırılmışdır" (12, s. 286).

XIX yüzildə indiki Ermənistan ərazisi çar Rusiyası tərəfindən işğal edildikdən sonra ermənilər bu torpaqlarla bağlı məkrli niyyətlərini həyata keçirməyə girişdilər. 1930-cu ildə Göyçə gölünün adını dəyişdirib, gölün ortasında yerləşən "Sevank" kilsəsinin adına uyğun olaraq Sevan qoydular (11, s. 211).

Sevvank sözündəki iki "v" hərfi bir "v" kimi tələffüz edilmiş, sondakı vənk (kilsə) sözündəki "k" samiti düşmüş və beləliklə "Sevvank" əvəzinə "Sevan" sözü yaranmışdır (12,s. 286). Beləliklə, Göyçə gölü ermənilərin uydurması ilə "Sevan" gölü adlandırılmışdır.

• *Göyçə inzibati ərazi vahidi kimi*

"Göyçə" adlanan inzibati ərazi vahidinin mövcudluq tarixi yüzillərə söykənir. "Göyçə vilayəti" ifadəsinə ilk dəfə Qaraqoyunlu sülaləsindən Cahanşah padşahın imzaladığı, tarixi olmayan - 1449-1462-ci illər arasında verilmiş fərmanda rast gəlinir (55, s.12).

Həsən padşah Ağqoyunlunun 1468-ci il, Şah İsmayılın isə 1503-cü il tarixli fərmanlarında Göyçə ayrıca bir inzibati ərazi vahidi kimi qeyd edilmişdir (52, s.47).

Bu torpaqların hansı dövlətə mənsubiyyətinə gəldikdə, bilinən tarix boyunca Göyçə vilayətinin ərazisi türk mənşəli Sacilərin, sonra Salari və Rəvvadilərin qurmuş olduğu dövlətlərin, Səlcuq İmperiyasının, Atabəylər, Hülakülər, nəhayət XV yüzildən Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi sülalələrinin hakimiyyət dönəmlərində tarixi Azərbaycana aid torpaqların sırasında olmuşdur. Göyçə mahalı Səfəvilər çağında Çuxur-Səəd bəylərbəyiliyinin tərkibində idi.

Çuxur-Səəd bəylərbəyiliyi barədə İ.P.Petruşevski yazır: "XVI əsrdə Çuxur-Səəd (İrəvan) bəylərbəyiliyinə əmirlər həmişə Qızılbaş Ustaclı tayfasından təyin olunur və bu tayfanın ayrı-ayrı əşirətləri İrəvan vilayətində ulkalar alırdılar"(106, s.121).

Qaraqoyunlu padşah sülaləsinin hakimiyyətinin ilk dönəmlərində Çuxur-Səəd vilayətini Səədli əmirləri idarə edirdi. Lakin Qaraqoyunlu İsgəndərin padşahlığı dövründə Səədli əmirləri idarəçilikdən uzaqlaşdırılmış və Çuxur-Səəd birbaşa mərkəzi hakimiyyətə tabe edilmişdir (29, s.38-39).

Səfəvilər dönəmində qurulan Çuxur-Səəd bəylərbəyiliyinin inzibati mərkəzi İrəvan şəhəri idi və İrəvan bəylərbəyiliyi kimi də tanınırdı. Bu ərazi müəyyən vaxtlarda Osmanlı İmperiyasının tərkibində olmuş və İrəvanın əyalət statusu saxlanmışdır.

Strateji cəhətdən böyük önəm kəsb edən bu bölgənin iki dəfə Osmanlı imperiyasının tərkibində olması məlumdur. Birinci dəfə, 1590-cı il martın 21-də bağlanmış İstanbul sülh müqaviləsinə görə, Çuxur-Səəd bəylərbəyiliyinin ərazisi Osmanlı imperiyasının tabeliyinə keçdi. Zəbt olunmuş ərazilərdə paşalıq və sancaqlıqlar təşkil olundu (53, s.18). İkinci dəfə 1724-cü ildə bu ərazi Osmanlılar tərəfindən işğal edildi və hadisələrin gedişində ciddi dağıntılara məruz qaldı. Osmanlılar burada iki dəfə məlumat xarakterli icmal və müfəssəl dəftərləri tərtib etmiş və əyalətin vergi ödəmə imkanını müəyyənləşdirmişlər (28, s.6-9).

Osmanlı məmurlarının 1590-cı ildə tərtib etdikləri "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Çuxur-Səəd bəylərbəyiliyi ərazisinin iki livaya: 10 nahiyədən ibarət İrəvan və 16 nahiyədən ibarət Naxçıvan livalarına bölündüyü göstərilir (28, s.7).

1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndən aydın olur ki, əyalət ərazi-inzibati bölgü baxımından bu hissələrə bölünür: İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göycə, Məzrəə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri, Şoragöl livası və Naxçıvan sancağı (28, s.8).

Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyəti dövründə (1501-ci ildə Şah İsmayılın qurduğu Səfəvilər dövləti 1736-cı ilə kimi 236 il mövcud olmuşdur) Çuxur-Səəd bəylərbəyiliyini mərkəzdən şahların təyin etdikləri xanlar - Ustaclı və Rumlu klanlarının təmsilçiləri, Şah I Abbasın (1587-1629) dönəmindən isə Qacar klanından olan hakimlər idarə edirdi (29, s. 40).

Həsən bəy Rumlu "Əhsənüt-təvarix" əsərində göstərir ki, Çuxur-Səəd bəylərbəyiliyinin 1538-ci ildə ilk bəylərbəyi Bədir xan Ustaclu olmuşdur. 1554-cü ildə Sultan Süleyman İrəvana hücum edərkən Çuxur-Səəd bəylərbəyi Hüseyn xan Rumlu idi. Şah I Abbasın dövründə isə Əmirgünə xan Qacar (1604-1625) bəylərbəyi təyin olunmuşdu (43, s.121-122).

XVII yüzilin 30-cu illərindən XVIII yüzilin 20-ci illərinə qədər Çuxur-Səəd bəylərbəyiliyi İrəvan, Şərqi Şoragöl, Naxçıvan və Maku əyalətlərini əhatə edirdi (29, s.42).

XVIII yüzilin 20-ci illərində Səfəvi dövlətini bürüyən siyasi böhrandan istifadə edən Rusiya və Osmanlı imperiyası Güney Qafqaza - Səfəvi dövlətinin şimal bölgələrinə hərbi müdaxiləyə başladılar. 1724-cü ildə bağlanan Rusiya-Osmanlı müqaviləsinə görə, Səfəvi dövlətinin şimal bölgələri tərəflər arasında bölüşdürüldü. Bu müqavilədən sonra Azərbaycanın digər əraziləri ilə yanaşı, Çuxur-Səəd bəylərbəyiliyinin əraziləri də çəkişmə meydanına çevrilmişdi.

XVIII yüzildə Azərbaycan Səfəvi dövlətinin süqutundan sonra bu bölgə Nadir şah Əfşarın qurduğu imperiyanın hüdudları daxilində Azərbaycan inzibati ərazisinin tərkibində olmuşdur.

• *Xanlıqlar dönəmində baş verən hadisələr və Göyçə*

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, Çuxur-Səəd bəylərbəyiliyi ərazisində Naxçıvan və İrəvan xanlıqları yaranır.

Nadir Şah qətlə yetirildikdə İrəvan bəylərbəyi Pir Mahmud xan hakimiyyəti əldən verməməyə cəhd göstərmişdisə də, İrəvanda mərkəzi hakimiyyətə qarşı üsyana başçılıq edən yerli feodal Mir Mehdi xan özünü xan elan edərək, müstəqil İrəvan xanlığının əsasını qoyur (38, s.53).

İrəvan xanlığı keçmiş Çuxur-Səəd bəylərbəyiliyinin bütün ərazisini əhatə edə bilmədi. Onun bir hissəsi Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi, xanlığın ərazisinə Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsi və Araz çayından cənub-qərbə doğru uzanan ərazilər daxil idi. Xanlıq paytaxtı İrəvan şəhəri olmaqla inzibati cəhətdən naiblərin idarə etdiyi 15 mahala: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Saatlı, Talin, Seyidli-Axsaxlı, Sərdarabad, Karpi, Abaran, Dərəçiçək, Göyçəyə bölündü.

Qeyd etmək lazımdır ki, digər Azərbaycan xanlıqlarında olduğu kimi, tərkibinə Göyçə mahalı da daxil olan İrəvan xanlığının siyasi tarixində müharibələr xüsusi yer tutur. Azərbaycan tarixşünaslığında bu müharibələr geniş şəkildə öyrənilmiş və bu haqda bir-birindən maraqlı çox sayda kitablar yazılmışdır. Ona görə də burada bütün bunlar haqqında geniş söhbət açmağa ehtiyac yoxdur. Lakin bu çəkişmələrin Göyçə mahalına təsiri, onunla əlaqəli məqamlarının üzərində dayanmaya bilmirik.

Bəzi faktları xatırladaq: XVIII yüzilin ikinci yarısı - XIX yüzilin əvvəllərində digər Azərbaycan xanlıqları kimi de-fakto müstəqil olan İrəvan xanlığının ərazisi qonşu dövlətlərlə arası kəsilməyən çəkişmə meydanına çevrilir. Mir Mehdi xan (1747-1752) vilayətin ərazisini genişləndirmək üçün 1748-ci ildə Urmiya xanlığına hücum etdi və Urmiya hakimi Fətəli xan Əfşarı məğlub edərək xanlığın müəyyən ərazilərini zəbt etdi (21, s.52; 29, s.83; 38, s.53).

Az keçməmiş İrəvan xanlığının özü hücuma məruz qaldı. 1749-cu ilin yayında Qarabağ xanı Pənahəli xan 4 minlik qoşunla İrəvan xanlığının sərhədlərini keçərək Üçmüəzzin (Üçkilsə, Eçmiədzin) - ətrafındakı torpaqlara hücuma keçdi. Xanlığın ərazisində yaşayan və sayca azlıq təşkil edən ermənilər hay-küy salaraq "müsəlmanlardan qorunmaq" məqsədilə, kömək üçün Kaxetiya çarı II İrakliyə müraciət etdilər. II İrakli İrəvan xanlığının ərazisinə güclü qoşun göndərdi. Bu qoşunlara qarşı döyüşlərdə məğlubiyyətə uğrayan Pənahəli xan geri çəkildi (29, s.171-172).

Mir Mehdi xan ermənilərin bu xəyanətini nəzərdən qaçırmadı, Kartli-Kaxetiya sarayı ilə gizli əlaqə saxlayan ermənilər cəzalandırmaq haqqında qərar verdi. İrəvanın daxili işlərinə qarışmağa bəhanə axtaran Kartli-Kaxetiya çarı Teymuraz ermənilərin müraciətini bəhanə gətirərək, 1749-cu ilin sentyabr ayında 25 minlik qoşunla İrəvana yürüş etdi. Müqavimət göstərmək iqtidarında olmayan Mir Mehdi xan ermənilərə di-

van tutmağı dayandırmaq və Teymurazla sülh bağlamaq məcburiyyətində qaldı. Noyabrın 22-də Teymurazın qoşunu xanlığı tərk edərək geri qayıtdı.

Mir Mehdi xanın hakimiyyətinin zəifləməsindən istifadə edən Fətəli xan Əfşar 1751-ci ildə İrəvana hücum edərək Mir Mehdi xanı devirərək öldürtdü və yerinə Xəlil xan Özbəyi hakim təyin etdi (38, s.52).

Xəlil xanın dönəmində İrəvan xanlığı yeni hücumlara məruz qaldı. Xanlığın ərazicə daha geniş olan Göyçə mahalının Göyçə gölündən şimalda və şərqdə yerləşən torpaqlarının bir hissəsi qarabağlı Pənahəli xan (1748-1763) tərəfindən işğal olunaraq, Qarabağ xanlığına birləşdirildi. "Qarabağnamə" müəllifləri qeyd edirlər ki, Pənahəli xan kolanıların məskəni olan, "Uşacıq kəndindən Göyçə sərhədinə qədər uzanan Tərtər çayı sahilindəki yerləri İrəvan hakimindən aldı" (48, s.42), "O ...Təbriz bəylərbəyisindən Uşacıq kəndinin yuxarısınadək, Kolanıların məskəni olan Tərtər çayı sahilindən Göyçə sərhədinə kimi İrəvan hakimindən aldı (49, s.22), "...Tərtər çayı (sahilindəki) Uşacıq günbəzindən yuxarı, ta Göyçə sərhədinədək ki, Kolanı məskənidir və İrəvana tabedir, İrəvan hakimindən zəbt eylədi" (26, s.135).

1754-1755-ci illərdə Avar xanı Nusal xanın başçılığı altında Dağıstan qoşunu Kartli-Kaxetiya ərazisinə yürüş təşkil edərək, oradan da İrəvan xanlığı ərazisinə hücum etdilər. Bu hücum zamanı Göyçə, Dərəçiçək, Qırxbulaq və Abaran mahallarının kəndləri yerlə-yeksan, əhalisinin var-dövləti yenidən talan edildi (38, s.58-59).

Dağıstan qoşunu çəkilib gedəndən sonra, Həsənəli xan Qacar xalq arasında nüfuzdan düşmüş Xəlil xana qarşı 1755-ci ildə qiyam qaldırdı və Xəlil xanı devirərək hakimiyyəti ələ keçirdi (20, s.90).

Vaxtilə Nadir şah tərəfindən gözləri çıxarılmış Həsənəli xan az müddətdə hakimiyyətdə qaldı. 1759-cu ilin əvvəllərində vəfat edən Həsənəli xanın yerinə qardaşı Hüseynəli xan hakimiyyətə gəldi (29, s.89; 46, s.60).

İrəvan xanlığının iqtisadi cəhətdən möhkəmlənməsi və siyasi müstəqilliyə nail olması üçün Hüseynəli xanın misilsiz xidmətləri olmuşdu. Uzun illər ciddi xarici təhlükə ilə üzləşən İrəvan xanlığı, daimi olaraq müdafiə tədbirləri görürdü.1760-cı ilin avqustunda Dağıstan qoşunu İrəvan yaxınlığında yerləşən Kənəkir kəndinə hücum etdi. Hüseynəli xanın başçılığı ilə İrəvan qoşunu, baş vermiş döyüşdə Dağıstan qoşununu məğlub edərək onları geri çəkilməyə məcbur etdi. Əlavə qüvvə alan dağıstanlılar geri qayıdaraq Üçmüəzzinə qədər irəliləyirlər. Onlar burada çox qalmayaraq qəflətən Göyçə gölü istiqamətində geri çəkilir və az bir vaxtda oranı qarət edir, kəndləri viran qoyur, əhalisini isə əsir götürürlər.

Qısa müddətdən sonra yenidən yürüşlərini davam etdirən dağıstanlılar Araz çayına qədər gəlib çatırlar. Dağıstan qoşunu çoxlu əsir və qənimət ələ keçirərək geri qayıdır. Onlar geri qayıdarkən Kartli-Kaxetiya qoşunu qəflətən onlara hücum edir. Döyüş nəticəsində dağıstanlılar məğlub olur və nəticədə əsirlər İrəvana qaytarılır (38, s.62).

1785-ci ilin sentyabrında Osmanlı sultanının təhriki ilə Avar hakimi Ümmə xan 11.000 nəfərlik qoşunla Kartli-Kaxetiyaya hücuma keçdi. Dağıstanlıların Kartli-Kaxetiyaya hücumu İrəvan xanlığına da öz təsirini göstərmişdi. Yerli əhalinin bir hissəsi İrəvan qalasına sığınmış, digər hissəsi isə Qars paşalığına köç etməyə başlamışdı. Bu da Ahısqa hakimi ilə İrəvan xanı arasında düşmənçiliyə səbəb oldu. Ahısqa hakimi Süleyman paşa Dağıstan qoşununa arxalanaraq, Məhəmməd xana təzyiq göstərməyə başladı. O, İrəvan hakimini hədələyərək köç etmiş pəmbəklilərə məxsus əmlakın ona verilməsini tələb etdi. Məhəmməd xan onun tələbini qəbul etmədi, bütün qaçqınları əmlakları ilə birlikdə öz himayəsinə aldı (38, s.101).

Dağıstan qoşunlarının yürüşünün xanlıq üçün ağır nəticə verəcəyini başa düşən Məhəmməd xan Ümmə xan və Süleyman paşa ilə əlaqə yaradaraq yaxın adamını məktub və qiymətli hədiyyələrlə Ahısqaya göndərdi. İrəvan hakiminin bu tədbirləri müəyyən qədər müvəffəqiyyətli oldu və xanlığı güclü dağıntıdan xilas etdi. Qışı Ahısqada istirahət edən Ümmə xan 1786-cı il aprelin 25-də 7.000 nəfərlik qoşunla Arpa çayını keçərək İrəvan xanlığı ərazisinə daxil oldu. Ümmə xanın qoşunu İrəvan ərazisində çox ləngimədi. Dağıstan qoşunu Abarandan keçib, Göyçə gölünün sahilini dolanmaqla, Gəncə istiqamətində hərəkət edərək Şuşaya qədər gəlib çatdı. Qoşunlar yol boyu qarşılarına çıxan bütün kəndləri çapıb taladı, əhalini qarət etdi və çoxlu dağıntılara səbəb oldu.

Ağa Məhəmməd xan Tiflisi işğal etdikdən (1795) sonra Pəmbək və Borçalı sultanlarını İrəvana, Qazax və Şəmsəddin sultanlarını isə Gəncəyə itaət etmələri haqda əmr verdi. Məhəmməd xan vəziyyətdən istifadə edərək Pəmbək və Borçalı əhalisinə xəbər göndərib ona tabe olmalarını tələb etdi (38, s.118-120).

1797-ci ildə Ağa Məhəmməd şahın qətlindən sonra, ədalətsiz rəftarından, xalqı soyub talamağından səbri tükənən İrəvan əhalisi üsyan edərək Əliqulu xanı qovdular (20, s.123; 93, s.431).

Ağa Məhəmməd şahın yerinə taxt-taca sahib olan qardaşı oğlu Fətəli şah (1797-1834) hakimiyyətinin ilk günlərindən Tehranda həbsdə olan xanları, o cümlədən Məhəmməd xanı da azad etdi və Qacarlar dövlətinə sədaqətini saxlaması şərtilə, yenidən onu İrəvana hakimiyyətə qaytardı. Lakin Məhəmməd xan Qacarların müti vassalı olmadı. Əksinə, xoylu Cəfərqulu xanla birləşərək yeni şaha tabe olmaqdan imtina etdi. Lakin onlar şahzadə Abbas Mirzənin və sərdar Süleymanın başçılıq etdiyi Qacar qoşunu tərəfindən məğlubiyyətə uğradıldılar. Bundan bir neçə il sonra Abbas Mirzə İrəvan xanlığına hücum edərək İrəvan qalasını 40 gün mühasirədə saxladı. Bu müddətdə xanlığın demək olar ki, bütün mahallarının kəndləri çapılıb-talandı. Şah qoşunlarının bu yürüşü çoxlu insanın ölümünə və əhalinin bir hissəsinin xanlıqdan köçürülməsinə, didərgin düşməsinə səbəb oldu. Təsərrüfata külli miqdarda ziyan dəydi. Fətəli şah İrəvan hakimindən girov və təzminat almaqla kifayətlənərək, Xorasanda baş vermiş qiyamı yatırmaq üçün 1800-cü ilin sentyabrında qoşunu İrəvandan geri çağırdı və İrəvan xanlığı bu dəfə də təhlükədən qurtara bildi (38, s.130; 39, s.96).

• *Rusiyanın Güney Qafqazda ekspansiyası və Göyçə*

Kartli-Kaxetiya çarlığı Rusiyaya birləşdirildikdən sonra bölgəni narazılıq və həyəcanlar bürüdü. Bölgədəki qarışıqlığı yatırmaqda, əmin-amanlıq yaratmaqda baş komandan K.F.Knorrinqin gördüyü işlərdən narazı qalan Rusiya çarı I Aleksandr 1802-ci il sentyabrın 8-də K.F.Knorrinqin yerinə P.D.Sisianovun Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilməsi haqda fərman imzaladı.

1796-cı ildə V.A.Zubovun başçılığı ilə rus qoşunlarının Quzey Azərbaycana yürüşündə iştirak edən, 1796-1797-ci illərdə Bakının komendantı olmuş P.D.Sisianovun Qafqazdakı rus qoşunlarına baş komandan təyin edilməsi, Güney Qafqazın geniş miqyaslı işğalında Rusiyanın atdığı mühüm addımlardan biridir.

1804-cü il mayın 23-də Qacar şahının baş vəziri Mirzə Məhəmməd Şəfi Yaqub bəy Gəraylını məktubla P.D.Sisianovun yanına göndərdi. Şah hökuməti baş komandandan rus qoşunlarının hansı məqsədlə Tiflisə gəlişini xəbər alır və Kartli-Kaxetiyanın ona məxsus olmasını iddia edirdi. P.D.Sisianova məsləhət görülürdü ki, rus qoşunu oranı tərk etsin, əks təqdirdə onlar silahla oradan qovulacaqdır (148, 807-808). Lakin baş komandan elçini söyüşlə qarşılayaraq şahın tələblərinə məhəl qoymadı. Əvəzində baş vəzirə təhqiramiz məktub yazaraq bildirdi ki, "mən sizi Kür çayı və Göyçə gölündə... süngü və mərmi ilə qarşılamağa hazıram" (70, s.267; 87, s. 298; 130, s.808-809).

P.D.Sisianov belə təhqiramiz cavabla 1804-cü il iyunun 10-da iki dövlət arasında diplomatik münasibətlərin kəsilməsinin səbəbkarı oldu, Qacar dövləti ilə Rusiya arasında uzunmüddətli müharibə başladı (10, s.21). Bu müharibədə İrəvan xanlığının ərazisi döyüş meydanına çevrildi və bu illər əhali üçün ağır və həyəcanlı keçdi.

1812-ci il mayın 16-da Buxarestdə Osmanlı Türkiyəsi ilə sülh müqaviləsi bağladıqdan sonra, Rusiya hərbi maşınının əsas gücü Güney Qafqaza yönəldi. Hər cəhətdən rus qoşunlarından geri qalan Qacar ordusu cənuba doğru sıxışdırıldı. 1812-ci il oktyabrın 19-dan 20-nə keçən gecə baş vermiş Aslandüz döyüşü rus qoşunlarının cənuba doğru yolunu açdı (121,s. 465-467).

Qacar hökumətinin yerli xanlarla birləşərək rus qoşunlarını Güney Qafqazdan sıxışdırıb çıxarmaq niyyəti baş tutmadı.

1813-cü il yanvarın 1-də Lənkəranın işğalından (121, s.487- 491) sonra rus qoşunlarının cənuba doğru irəliləməsindən qorxan ingilis diplomatları şahı sülh danışıqlarına başlamağa məcbur etdilər. 1813-cü il yanvarın sonlarında şahın nümayəndəsi Mirzə Şəfi Qacar dövlətinin sülh danışıqlarına hazır olduğunu bəyan etdi. Uzun danışıqlardan sonra 1813-cü il sentyabrın 27-də Qarabağ xanlığı ərazisində, Zeyvə çayı sahilində yerləşən Gülüstan kəndində Qacar dövləti ilə Rusiya arasında sülh danışıqları başladı. Şah hökuməti bu danışıqlarda Mirzə Əbülhəsən xan Şirazlı başda olmaqla 354 nəfərlə təmsil olunmuşdu. Rusiya hökuməti tərəfindən isə bu danışıqlarda baş komandan Rtişşev bir qrup nümayəndə ilə iştirak edir-

di. İki həftədən bir qədər çox davam edən danışıqlardan sonra oktyabrın 12-də Gülüstanda müqavilə bağlandı (70, s. 624; 85, s. 739-747; 121, s. 506-508; 137, s. 208- 214).

Müqaviləyə görə, İran Rusiyanın qələbəsini, Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqlarının ərazisinin, habelə Şərqi Gürcüstan və Dağıstanın Rusiyanın ixtiyarına keçməsini tanıdı. İrəvan və Naxçıvan xanlıqları İranın hakimiyyəti altında qaldı. İran eləcə də Rusiyanın Xəzər dənizində hərbi gəmilər saxlamaq hüququnu tanıdı. 5%-lik gömrük tarifinin qoyulması, İranın daxilində isə daxili gömrük rüsumlarını ödəməkdən azad olunmaları rus tacirlərinin İrana yolunu açdı və Rusiya-İran ticarətinin inkişafı üçün əlverişli şərait yaratdı. Gülüstan müqaviləsi Şimali Azərbaycan və bütün Zaqafqaziyanın çar Rusiyası tərəfindən istilasını təsdiq edirdi. Bu müqavilənin bağlanılması ilə Şimali Azərbaycanın Rusiya tərəfindən istilasının birinci mərhələsi başa çatdı (20, s.157; 29, s.313; 38, s.137; şəkil. 5).

Gülüstan müqaviləsi preambuladan, 11 maddədən və Seperat aktdan ibarət idi (23).

İkinci maddə tərəflər arasındakı sərhədləri müəyyən edirdi. Müqavilənin qüvvədə olduğu müddətdə Rusiya ilə İran arasında ən mübahisəli maddə ikinci maddə oldu. Maddə özü də dəqiqliyinə görə diplomatik standarta cavab vermirdi. Bu maddə Seperat aktla birlikdə sərhədlərin dəyişdirilməsinə cəhd edilməsinə əsas verirdi. Seperat aktda Gülüstan müqaviləsinə yenidən baxılması haqqında İranın Rusiya imperatoruna xahişlə müraciət etmək hüququ təsdiq olunurdu.

Mövzumuz İrəvan xanlığının ərazisini əhatə etdiyindən, Gülüstan müqaviləsinin ikinci maddəsinə uyğun olaraq sərhəd xətlərindən bəhs etdikdə, İrəvan xanlığı ilə Rusiya imperiyası arasındakı sərhəd xətlərindən söhbət açmağı daha məqsədəuyğun hesab edirik. Həmin sərhəd xətti aşağıdakı kimi müəyyən olunmuşdu:

> *"...Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muran düzü, Araz çayındakı Yeddibulaq keçidinədək, oradan da üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmsəddin torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan sıra dağlarla Həmzəçimən çayının axını və yolu istiqamətində Pəmbək sıra dağları ilə Şuragölün tininə qədər; həmin tindən Alagöz dağının qarlı yüksəkliyinə, buradan sıra dağlarla Şoragöl sərhədindən Məstərə və Artik arasından Arpaçay çayına qədər davam edir..." (137, s.209).*

Müqavilənin bu bəndində qeyd edilmişdir ki, yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kənara nə isə çıxarsa, hər iki Ali Dövlətin Komissarlarının təhlilindən sonra hər iki tərəfin razılığı əsasında həll ediləcəkdir.

Müqaviləyə görə, müstəqil İrəvan xanlığının Pəmbək, Şoragöl və vaxtilə Qarabağ xanlığı tərəfindən Göyçə gölünün işğal edilmiş şimal-şərq sahilləri boyu yerləşən ərazilər də Rusiyaya qatılırdı (121, s.506).

• *Gülüstan sülhündən sonra*

Gülüstan sülh müqaviləsi bölgədə nə sakitlik yarada bildi, nə də tərəflər arasında əmin-amanlığı təmin etdi. Çünki, müqavilədə sərhədlərin ümumi şəkildə göstərilməsi müəyyən vaxtdan sonra onun dəqiqləşdirilməsini tələb edirdi. İlk vaxtlar sərhədlərin dəyişdirilməsinə ümid edən Qacar sarayı bir müddət bu məsələni qaldırmadı. Zaman keçdikcə, Rusiyanın heç bir ərazini güzəştə getməyəcəyini başa düşən Qacar tərəfi sərhəd xətlərinin dəqiqləşdirilməsi ilə əlaqədar müəyyən sərhəd problemlərini ortaya çıxardı və Göyçə diqqət mərkəzinə gəldi, tərəflər arasındakı yazışmaların əsas mövzularından birinə çevrildi.

Rus hərb tarixçisi, general-leytenant, uzun illər boyu davam edən ədəbi-tarixi yaradıcılığına görə, "Qafqaz tarixinin Nestoru" fəxri ləqəbini almış V.A.Potto yazırdı ki, "...1813-cü il oktyabrın 12-də bağlanan Gülüstan sülh müqaviləsi Rusiya və İran arasında on il davam edən müharibəyə son qoydu. Lakin on üç il davam edən sülh müvəqqəti barışığın ancaq davamı idi. Sakitlik, hər iki ölkə arasında bərpa olunmuş zahiri dostluq əlamətləri aldadıcı və ancaq yeni hərbi əməliyyata başlamaq üçün fürsət idi" (123, s.1).

Gülüstan sülh müqaviləsini imzalamağa məcbur olmuş Qacar sarayı Güney Qafqazı əldən verməsi ilə heç cür razılaşmaq istəmirdi, Rusiya ilə yeni müharibəyə hazırlaşırdı. Bu işdə İngiltərə bütün vasitələrlə ona kömək edirdi. 25 noyabr 1814-cü ildə Qacar dövləti ilə İngiltərə hökuməti arasında saziş imzalandı. Sazişin şərtlərinə görə, İngiltərə hökuməti külli miqdarda pul xərcləyərək öz hərbi mütəxəssislərinin iştirakı ilə Qacar ordusunu Avropa hərbi qaydasına uyğun olaraq təşkil etməyə başladı, qoşunların silahla təchiz edilməsində, başqa şəhərlərdə silah zavodlarının tikilməsində yaxından köməklik göstərdi. Bu kimi məsələlərlə Qacar dövlətində böyük nüfuz qazanmağa çalışan İngiltərə, şah hökuməti ilə Rusiya arasında nifaq yaratmaq üçün bütün vasitələrdən istifadə edirdi. İngiltərənin təhriki ilə şah hökuməti saysız-hesabsız danışıqlar yolu ilə Rusiyadan itirdiyi ərazilərin heç olmasa az bir hissəsini geri qaytaracağını düşünürdü (121, s.3).

Gülüstan müqaviləsindən irəli gələn və hələ də dəqiq olmayan sərhəd xətləri tərəflər arasındakı daimi mübahisənin əsas səbəbi idi. Hər iki dövlət mübahisəli ərazi məsələlərini həll etmək üçün nümayəndələrini tez-tez mərkəzə göndərir və öz siyasi

məqsədlərini həyata keçirmək üçün sərhəd məsələlərindən bir vasitə kimi istifadə edirdilər.

Qacarların tabeçiliyində olan İrəvan xanlığına məxsus Göyçə gölünün şimal və şərq sahilləri, Şoragöl və Pəmbək əraziləri də əsas mübahisə obyekti idi. İtirilmiş ərazilərin heç olmasa bir qisminin geri qaytarılmasına gizli ümid bəsləyən şah ingilis diplomatiyasının təhriki ilə, Separat aktın verdiyi səlahiyyətdən istifadə edərək, 1813-cü ilin noyabrında Mirzə Əbdülhəsən xana Gülüstan müqaviləsi üzrə müəyyən edilmiş sərhədlərin dəyişdirilməsinə nail olmaq məqsədilə I Aleksandra müraciət etmək üçün Peterburqa yola düşməyi tapşırdı. Elçilik 1814-cü il iyulun 21-də Tiflisə gəldi, sentyabrın 15-də müqavilənin ratifikasiya mübadiləsindən sonra, rus imperatoruna sülh müqaviləsinin bağlanması münasibətilə hədiyyələr bağışlamaq və təbrik etmək adı ilə Peterburqa yola düşdü.

Tarixçilərin yazdıqlaına görə, səfir Peterburqda hədsiz dərəcədə təmtəraqla qarşılandı, gətirdiyi hədiyyələri və şahın təbriklərini Rusiya imperatoru I Aleksandra çatdırdı. Əslində səfirin əsas məqsədi imperatoru təbrik etmək və hədiyyələr vermək deyildi. Səfir rus imperatorunu inandırmağa çalışırdı ki, Gülüstan müqaviləsi çox qısa yazılmışdır, bütün sərhəd xətlərini əks etdirmir və bu da tərəflər arasında haqlı narazılığa səbəb olur. Eyni zamanda səfir çalışırdı ki, müqaviləyə dəyişiklik etməklə rus imperatoru şahın arzusuna uyğun olaraq Gürcüstan və Dağıstanı özlərinə saxlasın, Qarabağ və Talış xanlıqlarını böyük pul mükafatı qarşılığında İrana güzəştə getsin. Çar sarayındakı ingilis elçisi də İran diplomatını müdafiə edərək İran və Rusiya arasındakı sərhədləri Terek çayı boyunca olması tezisini irəli sürdü. İmperatordan heç bir güzəşt ala bilməyən Mirzə Əbdülhəsən xan Şoragölü tələb etdi. Lakin heç bir ərazini güzəştə getmək fikrində olmayan Rusiya İran şahının bu xahişini də zərif şəkildə rədd etdi, qaldırılan məsələyə yalnız Rusiyanın Tehran elçiliyi zamanında cavab veriləcəyi bildirilirdi. Mirzə Əbdülhəsən xan bununla missiyanın başa çatdığını görüb, mayın 22-də geriyə döndü.

1816-cı il may ayının sonunda İran səfiri Tehrana qayıtdı. Hələ görüş zamanı İran səfirinə bildirildi ki, imperator qeneral A.P.Yermolovu Qafqaza yeni Ali Baş komandan təyin edib və bütün sərhəd məsələlərini həll etmək üçün ona səlahiyyət və tapşırıq verilib (121, s.5-6).

Sərhəd xətlərinin təyin edilməsində və bəzi ərazi məsələlərində hər iki dövlət fərqli mövqe nümayiş etdirirdi. Mənbələrin təhlili göstərir ki, bu mövqelərin ortalığa çıxmasında İrəvan xanlığının xüsusi yeri var. Çünki, çar Rusiyasının iki dövlət arasındakı sərhəd xətlərini öz mövqelərinə uyğun olaraq təyin etmək cəhdinə qarşı İrəvan xanı Hüseynqulu xan barışmaz mövqe nümayiş etdirmişdi. Onun rus komandanlığı və rus sərhəd məntəqələrinin başçıları ilə məktublaşması, tez-tez ruslara məxsus gözətçi məntəqələrinə hücumu, şah hökumətinin bəzi hallarda Rusiyaya güzəştə getməsinə qarşı etirazı və İran şahının bu haqda verdiyi göstərişlərlə razılaşmaması belə deməyə əsas verir. İrəvan sərdarı Hüseynqulu xan bütün

hallarda xanlığın müstəqilliyinin qorunmasını ön planda saxlamış, hər hansı bir dövlətin ona məxsus torpaqlara sahib çıxmasına icazə verməmişdi (39, s.207; 40, s.150).

Rusiya imperiyasının tabeliyinə keçmiş Yelizavetpol, Şəmsəddin və Qarabağ vilayətlərinin əraziləri ilə Göyçə gölü və onun şimal-qərb sahillərindəki ərazilər, o cümlədən Gilli çayından Böyük Sədənağac çayına qədər *(Gilli düzü - müəllif)* olan ərazilər arasında dəqiq sərhəd xəttinin olmamasını bəhanə gətirən rus qoşunları tərəfindən bu ərazilərdə qeyri-qanuni gözətçi məntəqələri yaratmaq, əhali məskunlaşdırmaq cəhdi, Rusiya qoşunlarının İrəvan xanlığının ərazisi hesab edilən və Abarana məxsus Karvansara kəndindən Şoragölə uzanan əraziləri də zəbt etməsi tərəflər arasındakı problemi daha da gərginləşdirirdi.

Bu məsələlərin həllini tapmaq üçün 1816-cı il iyun ayının 29-da general-leytenant A.P.Yermolov çar I Aleksandrın fərmanı ilə İran şah sarayına Rusiya imperatorunun Fövqəladə və Səlahiyyətli səfiri, bir az müddətdən sonra isə Gürcüstanın baş komandanı (Əlahiddə Gürcüstan korpusunun), Qafqaz və Həştərxan quberniyaları üzrə mülki idarənin rəisi təyin edildi (72, s.2; 90, s.675; 121,s.518; 122, s.11; 131, s.6).

A.P.Yermolov 1816-cı il oktyabrın 10-da Tiflisə çatdı və ilk növbədə İranla Rusiya arasında *(əslində Rusiya ilə İrəvan xanlığı arasında - müəllif)* sərhəd xəttindəki vəziyyəti öyrənmək üçün baxış keçirmək qərarına gəldi. Bu məqsədə 1816-cı ilin noyabr ayında səfirliyin nəzdindəki Əlahiddə Gürcüstan korpusunun ober-kvartirmeysteri *(rus ordusunda təsərrüfat işləri ilə məşğul olan yüksək rütbəli zabit - müəllif)* polkovnik İvanovu Lənkəran xanlığına, baş ştabın zabiti, ştabs-kapitan Muravyov 2-cini Borçalı, Pəmbək, Şuragöl, Şəmsəddin və Qazax distansiyalarına göndərdi. Özü isə noyabrın 19-da əsas sərhəd məntəqələri olan Gəncə və Qarabağa yollandı. A.P.Yermolov 1816-cı il dekabrın 12-də, İvanov dekabrın 20-də, Muravyov 2-ci isə 1817-ci il yanvarın 7-də Tiflisə qayıtdılar. Sərhədlərə keçirilmiş baxışların nəticəsini bir yerə toplayaraq, onları analiz etdikdən sonra A.P.Yermolov İmperatora məruzə göndərdi və bu məruzədə bildirdi ki, Qacar hökumətinin tələb etdiyi əraziləri heç cür güzəştə getmək olmaz. Eyni zamanda İmperatora məruzə ilə yanaşı, qraf Nesselroda sərhəd məsələlərindəki vəziyyət barədə məlumat da göndərildi (131, s.7).

Sərhəd xətləri və ərazi iddiaları ilə bağlı bütün məsələləri şah və hökumət ilə müzakirə etmək üçün Tehrana yola düşən baş komandan 1817-ci il iyulun 31-dən avqustun 3-ə qədər şahın qəbulunda oldu.

Qacar tərəfi ilə danışıqlarda Rusiya-İran sərhəd xətlərinin dəqiqləşdirilməsi və konkretləşdirilməsi işlərinə 1818-ci il aprel ayında başlamağı razılaşdılar.

Tehran səfəri ruslar üçün əhəmiyyətli oldu. Çətin danışıqlar nəticəsində A.P.Yermolov Qacar hökumətinin Şimali Azərbaycana olan iddiasını tamamilə rədd etdi və Rusiya imperatorluğu üçün ən vacib məsələlərdən biri olan, Qacar tərəfinin Gülüstan sülh müqaviləsinin şərtlərini qəbul etməsinə müvəffəq oldu.

Eyni zamanda Yermolov səfirliyinin bu səfəri çar Rusiyasını İranın müharibə təhdidindən xilas etmək əvəzinə, tezliklə baş verə biləcək müharibənin katalizatoruna çevirdi. Gülüstan müqaviləsinin bütün bəndlərini qəbul edən şah sarayı əslində bir sıra Güney Qafqaz vilayətlərinə olan iddialarından əl çəkməmişdi.

Danışıqlar yolu ilə Rusiyanı güzəştə getməyə məcbur edə bilməyən Qacar hökuməti çox fəal şəkildə müharibəyə hazırlaşmağa başladı. Ona görə də yuxarıda qeyd etdiyimiz kimi, İran böyük sürətlə ordusunu müasirləşdirməyə, təkmilləşdirməyə başladı. Bu məsələ Qacar dövlətinin Avropa dövlətləri ilə apardıqları danışıqların əsas mövzusuna çevrildi. İran yaxşı bilirdi ki, onun sərhədlərinə tam yaxınlaşmış və ərazilərinin bir qismini zəbt etmiş, Rusiya kimi belə bir güclü dövlət qazandığı nailiyyətlərlə qane olmayacaq və irəli gedəcək. İranın özünün varlığı real təhlükə altında idi.

Mübahisəli məsələlərin həllində İranla razılığa gələ bilməyən Rusiya, sərhəd xəttlərinin təyin edilməsində və dəqiqləşdirilməsində inadkarlıq göstərərək, qanunsuz tutduqları əraziləri boşaltmaq istəmirdi, Göyçə gölünün şimal və şimal-şərq hissəsindəki əraziləri işğal altında saxlamaqda davam edirdi. Bu torpaqlar İrəvan xanlığına məxsus olduqlarına görə İrəvan sərdarı Hüseynqulu xanın rus komandanlığı ilə həmişə gərgin olan münasibətləri daha da pisləşmişdi. Hüseynqulu xanın hərbi dəstələri tez-tez sərhəd zolaqlarındakı rus gözətçi məntəqələrinə hücumlar edir, məntəqələri yandırır və müəyyən təzyiqlərlə rusları bu ərazilərdən çıxarmağa çalışırdı. Rus komandanlığı Abbas Mirzədən bu cür halların dayandırılmasını tələb etdi. Şahzadə isə cavabında bildirir ki, əksinə bizim təbəələr rus qoşunu tərəfindən talana məruz qalır. O, bunun səbəbini dəqiq sərhədin təyin olunmamasında görürdü (88, s. 555-557).

1814-cü ildə Fətəli şah İrəvan sərdarı Hüseynqulu xana göndərdiyi fərmanda sərhəd məsələlərində diqqətli olmağı, sərhəddəki rus qoşunlarının komandirləri ilə dostluq münasibətləri yaratmağı və rus sərdarı general Rtişşevin minnətdarlığını qazanmağı tövsiyə edirdi (132, s.549).

Hüseynqulu xan general Rtişşevə məktub yazaraq sərhəddə sakitlik yaratmağa dəvət edirdi. O yazırdı: " Sizdən soruşuram: Siz razısınızmı ki, Pəmbək və Şorayeldə bizim sərhədçi dəstələrimiz danışıqlar davam etdirilib tam barışığa və sülh bağlanana qədər bir-birinə qarşı hərbi müdaxiləni dayandırsınlar və ya onlar keçmiş hərəkətlərində qalsınlar? Əgər siz özünüzünkülərə düşmənçilik hərəkətlərini dayandırmaq haqqında əmr versəniz, mən tərəfdən də bu barədə ciddi əmr göndəriləcəkdir..." (110, s.547).

Hələ Yermolovun Tehran səfərində olduğu zaman şahın göstərişi ilə bütün sərhəd məsələləri Abbas Mirzənin səlahiyyətinə aid edilmişdir. Tarixi sənədlərdən aydın olur ki, şahzadə Abbas Mirzə heç də ruslarla sülh şəraitində qonşuluq etmək, torpaqların itirilməsi ilə barışmaq istəmirdi. İkinci bir səbəb də Yermolovla Abbas Mirzə arasında olan kin-küdurətdən, fitnə-fəsaddan irəli gəlirdi. Abbas Mirzə öz tələblərinin ölçülərini qəsdən o qədər şişirtdi ki, münasibətlərin gec-tez pozulması qaçılmaz oldu (123, s.11).

Yuxarıda qeyd etdik ki, sərhəd məsələsinin əksər hissəsi İrəvan xanlığı ilə bağlı olduğundan, İrəvan sərdarı bu məsələnin həllində daha çox çalışır, həm Rusiya ilə, həm də İran hökuməti ilə yazışmalar aparır və mübahisəli sərhəd xətlərində rus gözətçi məntəqələrinin yaradılmasına qarşı silahlı çıxışlar edirdi.

Gülüstan müqaviləsinə görə Çuğundur və Qapan mahallarının bir hissəsi, Araz çayı və onun qolu Qapan çayından Mehrinin şimalına doğru uzanan xətt arasında üçbucaq formasında olan ərazi Qarabağ vilayətinin tərkibində Rusiyaya keçdi. Bu ərazi sərhəd xətti ilə ayrılmadığından hələ də İrəvan sərdarının sərəncamı altında idi. Ruslar isə bu ərazinin yerinə İrəvan xanlığına məxsus "gözəl Göyçə gölünün" şimal-qərb sahillərini tutmuşdular (123, s.12).

Hüseynqulu xan bu torpaqları İrəvan xanlığının ərazisi hesab edirdi. Həm Rusiya hökuməti, həm də şah ilə yazışmalarında bu barədə çəkinmədən yazır, bu torpaqları kiməsə güzəştə gedəcəyinin mümkün olmadığını bildirir və tezliklə sərhəd xətlərinin dəqiqləşdirilməsini hər iki tərəfdən tələb edirdi.

1823-cü ildə hər iki dövlətin nümayəndələrindən ibarət komissiya təşkil edildi. Bu komissiyanın tərkibinə general Yermolovun Abbas Mirzəyə yazdığı 18 iyun 1823-cü il tarixli, 129 saylı məktubundan görünür ki, Rusiya tərəfindən general-mayor Yermolov, həqiqi mülki müşavir Mogilevski və polkovnik Ağabəy Sadıqov, İran tərəfindən isə Mirzə Məhəmmədəli Mustafa, İrəvan sərdarı Hüseynqulu xan, onun qardaşı oğlu və kürəkəni Sübhanqulu xan daxil idi.

Komissiya üzvləri *(komissarlar - müəllif)* Qarakilsə kəndində və Göyçə ətrafında mübahisə doğuran ərazidə görüşdülər. Yermolov birinci olaraq İrəvan xanlığı ilə olan sərhədlərin dəqiqləşdirilməsini təklif etdi. Tərəflərin mübahisəli məsələlərin həllində bir-birinə zidd mövqeləri və güzəştə getmədikləri komissiyanın işini beş aydan sonra yarımçıq qoydu. Bu fasilənin yaranmasında tərəflər bir-birini təqsirləndirirdilər.

V.Potto Yermolovun qənaətinə əsasən, bu haqda yazırdı: "Sağlam düşüncə tərzinə əks olaraq, iranlılar hər addımda rus komissarlarına qarşı qürurla ziddiyyət yaradırdılar, müqavilənin hərfi mənasının özləri üçün əlverişli təfsir əvəzinə tələb edirlər ki, çayın sağ və sol sahili üzü çayın mənsəbinə doğru, axarı istiqamətində durmaqla yox, əksinə durmaqla təyin edilsin. Bunda hətta çox savadlı hesab edilən Abbas Mirzə də təkid edir..." (123, s.14).

Danışıqların bir nəticə verməyəcəyini görən Yermolov Qarabağın idarəçisi knyaz Mədətova o vaxtlar Araz çayının sahillərində ov edən şahzadə Abbas Mirzə ilə görüşməyi və bu sərhəd xəttinin müəyyənləşmə məsələlərini müzakirə etməyi tapşırdı. Görüş Xüdafərin körpüsünün yanında baş tutdu. Böyük qüvvə ilə burada düşərgə salan knyaz Mədətov Abbas Mirzəni çox böyük təmtəraqla, ətəşfəşanlıqla qarşıladı, böyük ziyafət təşkil etdi. Danışıqlardan demək olar ki, boyun qaçıran Şahzadə ümumi sözlərlə tərəflər arasında sülhün qorunub saxlanılmasından bəhs edərək əsas məsələdən uzaqlaşdı, Yermolovun gözlədiyi danışıqlar baş tutmadı.

Qışın yaxınlaşması ilə əlaqədar Qacar dövləti ilə sərhəddəki dağlar qarla örtüldü, havalar soyudu. Sərhəd məsələlərini həll etmək üçün toplaşmış komissarlar heç nəyə nail olmadan dağılışdılar (123, s.16).

Rus ordusunun komandanlığı ərazi məsələsində çox qətiyyətli və hiyləgərcəsinə hərəkət edərək qanunsuz tutduqları bu əraziləri müəyyən bəhanələrlə əldə saxlamağa çalışır, əsasən də İrəvan xanlığına məxsus torpaqları geri qaytarmaq istəmirdilər.

Göyçə gölü sahilləri boyunca Barat-gədikdən Sədənağaca, oradan Gilliyə qədər torpaqların rus komandanlığı üçün nə dərəcədə əhəmiyyətli olduğu rus sərhəd qoşunlarının rəisi polkovnik, knyaz Savarzamidzenin 26 iyul 1824-cü ildə qeneral Yermolova yazdığı 239 №-li məruzəsində öz əksini tapmışdır: "...Gilli bütün Gürcüstanın təhlükəsizliyi üçün hədsiz dərəcədə lazımlı və əhəmiyyətli bir yerdir. Meydandan *(Eşşəkmeydandan - müəllif)* 100 verst məsafədə Göyçə gölü qurtarır və həmin yerə Gəncə və Qarabağ dağlarından başlayan və 12 verstdən uzun olmayan Zod çayı tökülür. Qeyd olunan yer gözəl sahəyə malikdir, bir tərəfdən Qarabağ, Yelizavetpol və Şəmşədil dağları ilə, Şəmşədil distansiyasına doğru, 25 verst məsafədə iki tərəfdən meşə ilə əhatə olunmuş Zəngi cayı, digər tərəfdən həmin məsafədə Qarabağa doğru - Tərtər cayı. Əgər bu yerləri tutmaq əmri versəniz və burada alay və ya tabor yerləşdirilsə, dürüst bir zabit kimi, siz Zati-aliləri əmin edə bilərəm ki, gələcəkdə bunun üç istiqamətdə mühüm əhəmiyyəti olduğunu görərik: Birinci, hərbi hissələr sağlam olacaq və özlərini yaxşı ərzaq məhsulları ilə təmin etmək imkanları olacaq; bostanlardan başqa bütün il boyu tamamilə zərərsiz olan balıq əldə etmək imkanları olacaq. 6 ildən artıqdır ki, mənə etibar edilmiş və Meydanda yerləşən alayın bir bölüyü, indi də 42-ci yeger alayında hər gün balıq yemələrinə baxmayaraq bir nəfər də olsun xəstə əsgər olmayıb və nə də yoxdur. İkinci, nə vaxt ki, bu yerlər tam tutulacaq, burada əhali də məskunlaşdırmaq lazımdır ki, bu distansiyalardan çıxıb başqa yerlərə getmək arzusu heç kimdə olmasın; üçüncüsü, bu yerlər tutulandan sonra yerli qarapapaqlar mal-heyvan saxlamaqdan məhrum olacaqlar, bu da İrəvan sərdarını oğruları dəstəkləməkdən, bizim əhali ilə təmasda olub, onları öz tərəfinə çəkməkdən məhrum edəcəkdir.

Bütün bunlar da bu distansiyalarda sakitlik yaradacaq və hərbçilər də rahat olduqlarına görə həmişə yaxşı əhval-ruhiyyədə olacaqlar. Əgər bu yerlər iranlılara qalsa, özümdə cəsarət tapıb Siz Zati-alilərə bildirirəm ki, çoxları Qarabağdan, Yelizavetpoldan, Şəmsəddin və Qazaxdan çıxıb gedəcəklər və iki bölüyün saxladığı Meydan və Gillini heç alay da caxlaya bilməyəcək..." (127, s. 294; şəkil 8).

İrəvan xanlığının bu ərazilərinin əhəmiyyətini baş komandan Yermolov da dəfələrlə hökumətə, imperatora yazdığı məlumatlarında vurğulamışdır. 1820-ci il 4 may tarixli 124 saylı məktubunda qraf Nesseldorfa yazırdı: "...İranlılar bizim tatarlarla (azərbaycanlılarla) daimi əlaqədə olmaq və onları qaçmağa sövq etmək məqsədilə Pəmbək mahalından torpaq istəyirlər. İllərdən bəridir həmin ərazilərdə güclü

gözətçi məntəqəsi yaradaraq oranı güclə əldə saxlayıram. Buranı güzəştə getmək heç cür mümkün deyil.

Traktata görə Göyçə gölü ilə Tatarların *(azərbaycanlıların - müəllif)* Şəmsəddin distansiyası arasındakı əhali ilə məskunlaşmamış ərazi də *(Göyçə gölünün şimal və şimal-qərb sahilləri - müəllif)* iranlılara məxsusdur. Ancaq bu əraziləri bizim tatarlar yaylaq yeri kimi istifadə edirlər. Ona görə də onların iranlılarla əlaqə yaratmaları və münasibət qurmaları çox zərərlidir.

Hər iki ərazinin əvəzinə iranlılara Qarabağ xanlığının Mehri şəhərciyindən axan Qapan-çay və Kəpənək-çayları arasındakı əraziləri vermək bizə daha sərfəlidir. Mən hələ də başa düşə bilmirəm ki, məndən əvvəlki canişin müqavilədən dərhal sonra o əraziləri nəyə görə tutmayıb və indiyədək oranı iranlıların əlində saxlayıb. Çoxlu əhalisi olan bu torpaqlar bizə lazım deyil...Ona görə də bu əraziləri dəyişmək bizə çox sərfəlidir... " (98. s.228).

Qeyd etmək lazımdır ki, Rusiya tərəfi mübahisəli ərazilərin həqiqətən də İrəvan xanlığına, İrana məxsus olduğunu heç vaxt inkar etmirdilər. Bu hadisələrə aid Rusiya hökumətinin, Güney Qafqaz üzrə hərbi komandanlığın, sərhəd qoşunları rəislərinin, İranla danışıqlarda iştirak edən məmurların məktublarında bu ərazilərin həqiqətən də İrəvan xanlığına məxsus olduğu etiraf edilir, ancaq İran ordusunun Mehri və Qapan ərazilərini tutduqlarını bəhanə gətirərək Göyçə ətrafı ərazilərdən əl çəkmək istəmədiklərini də etiraf edirlər.

1823-cü ilin dekabrında birinci sərhəd xəttinin təyin edilməsilə bağlı keçirilən əməliyyatda general-mayor Yermolov və polkovnik Ağabəy Sadıqovun baş komandan A.P.Yermolova yazdıqları hesabatda etiraf edirdilər ki, şah hökuməti Göyçə gölünün şimal və şimal-şərq sahilləri ilə birlikdə Gilli düzənliyini inadla tələb etməkdə haqlıdır. Kifayət qədər əhalisi olan Gilli düzənliyi 70 il hələ bundan əvvəl də İrəvan xanlığına məxsus olmuşdur (39, s.204).

Baş komandan Yermolov general-leytenant Velyaminova göndərdiyi başqa bir yazılı təlimatında qeyd edirdi ki, "İranlılar təsdiq edirlər ki, Göyçə boyu **Böyük Sədənağac** çayından Barat-Gədiyinə qədər torpaq sahəsi onlara məxsusdur. Onların bu fikri ilə mübahisə etmək lazım deyil. Əksinə onlara bildirmək lazımdır ki, biz də elə hesab edirik. Ancaq sərhəd xətlərinin ayrılmasına qədər status-kvo olaraq bu əraziləri özümüzdə saxlayarıq, necə ki, onlar Qapan çayı ilə Kəpənək çayı arasındakı əraziləri tutmuşlar...." (125, s. 325; şəkil 15).

1825-ci il iyul ayının 13-də baş komandan Yermolov İrəvan sərdarı Hüseynqulu xana yazırdı: "...O ki, qaldı Gilli ərazisinə, mən heç vaxt o ərazinin bizə məxsus olduğunu hesab etməmişəm və fərəhlə yada salıram ki, köç vaxtı sizin icazənizlə bizim gözətçilər orada dururdular. Onu da yaddan çıxarmağa icazə verməzsiniz ki, sizin Qapançaydan Kəpənəkçaya qədər olan əraziləri tutduğunuz əsaslarla da bizim tutduğumuz Barat-Gədikdən **Sədənağaca** qədər olan ərazidə qışlaq yaratmağa İrəvan əhalisi ancaq 1821-ci ildə buraxıldı.

Bizim gözətçilərin kəndlərə ziyan vurmamaq şərtilə Zod və Gillidə yerləşmələrinə icazə verdiyiniz üçün təşəkkür edirəm. Onlara kəndlərə girməmək haqqında mən göstəriş vermişəm..." (116, s.892; şəkil 10).

Hüseynqulu xan rus komandanlığı ilə yanaşı, bu ərazilərin İrəvan xanlığına məxsus olmağına şah hökumətini də inandıra bilmişdi. Rus sərhəd qoşunlarının başçısı knyaz Savarsamidze 1825-ci il avqustun 26-da general-leytenant Velyaminova göndərdiyi məruzədə yazırdı ki, "...Sərdar İrəvana gedib, şahın razılığı ilə Abbas Mirzədən Göyçənin şimal-şərq sahillərinin Gillidən Meydana qədər onlara qalması haqqında raqam alıb və yazır ki, sərdar burada əhalini məskunlaşdırmağa tələssin. Sərdar oraya köçkünlər göndərməyi əmr etmişdi. Gillidən **Sədənağaca** qədər olan ərazini Nağı xana, Meydandan Balıqçaya qədər ərazini isə İsmayıl ağaya vermişdi..." (129, s.51-52).

Rusların onlara məxsus olmayan ərazilərdə qeyri-qanuni gözətçi məntəqəsi yaratmağı, tikintilər aparmağı Hüseynqulu xanı çox narahat edirdi. Knyaz Sevarsamidzeyə göndərdiyi məktubda yazırdı: "Sizin məktubunuzu aldım və məzmunu ilə tanış oldum. Yazırsınız ki, mənim əmrimlə bizim gözətçi dəstəmiz sizin gözətçi dəstənizi Gillidən qovub. Sizin kimi yüksək dərəcəli alimənsəbin belə yazması məni təəccübləndirdi. Çünki Rusiya dövlətinin səlahiyyətli nümayəndələri tərəfindən təsdiqlənib ki, Göyçənin şərq hissəsi İrəvana məxsusdur və siz ali məqam bir neçə dəfə mənə yazmısınız ki, sizin gözətçilər Poluxludan balıq tutduqlarına görə, bizim məmurlar onlardan vergi almasınlar. Sizə olan hörmətimə görə, güzəştə getdim. İndi hansı səbəbə görə, siz Gilliyə və Poluxluya adam göndərərək tikinti işləri aparırsınız? Əgər həmin yerlərdə sizin gözətçi dəstəniz yerləşərsə, bizim tərəfimizdən heç bir təzyiq ola bilməz. Lakin sərhəddən hər hansı bir səbəbə keçməyə icazə verə bilmərəm" (115, s. 52).

İrəvan sərdarı Hüseynqulu xan sərhəd məsələlərinin həllindəki qətiyyətli mövqeyi Rusiyanı hədsiz dərəcədə narahat edirdi və ikiüzlü siyasət yürüdən rus komandanlığı bu məsələnin həllində İran şahının mövqeyini dəyişməyə, istədiklərinə onun vasitəsilə nail olmağa çalışırdılar və tez-tez Vəliəhd Abbas Mirzəyə müraciət edirdilər.

Ayrıca Qafqaz korpusunun qərargah rəisi, Baş komandan A.P. Yermolovun yaxın köməkçisi, general-leytenant A.A.Velyaminov 1825-ci il sentyabrın 25-də İran şahzadəsi Abbas Mirzəyə yazdığı məxfi məktubda İrəvan sərdarı Hüseynqulu xanın hərəkətlərindən narazılığını bildirməklə yanaşı, guya bu torpaqların Gülüstan müqaviləsinə əsasən ruslara məxsusluğunu bir daha iddia etmişdir (112, s.322; şəkil 12).

Abbas Mirzədən cavab gözləməyərək, Velyaminov rus sərhəd qoşunlarının komandiri, polkovnik knyaz Savarsamidzeyə 13 oktyabr 1825-ci il tarixli, 80 №-li yazılı təlimatda göstəriş verdi: "İranlıların Göyçə gölünün sahillərində bizə məxsus məntəqələrdəki zorakı hərəkətlərinə dair İrəvan sərdarına aşağıdakı kimi cavab verməyi tövsiyə edirəm: Göyçə sahilləri ərazisinə **Sədənağacdan** Barat-Gədiyə qədər

iranlılar heç vaxt buraxılmayıb və burada heç bir müəssisələri olmayıb. İranlılar Çuğundur və ya Qapan çayından Kəpənək çayına qədər əraziləri hansı əsaslarla tutmuşlarsa, biz də o əsaslarla Barat-Gədikdən Sədənağaca qədər olan əraziləri tutmuşuq və iranlılara bu ərazilərdə 1821-ci ildən başlayaraq qoyun otarmağa və qışlaq yaratmağa icazə vermişik. Sərdarı əmin edin ki, Baş idarəedicidən sərhəd haqqında məsələlərin həllinə qədər, sizə Sədənağacdan Barat-Gədiyə qədər olan əraziləri bir daha tutmamaq, heç bir yaşayış məntəqəsi yaratmamaq, burada ancaq gözətçiləri saxlamaq əmri verilib..." (112, s.322; şəkil 13).

Abbas Mirzə isə general Velyaminova yazdığı məktubda onun iradının əsassız olduğunu, əksinə bu torpaqların müqaviləyə əsasən şah hökumətinə məxsusluğunu bildirmişdi. O, yazırdı: "Rusiya dövlətinin sərhəd rəisləri İran hökuməti sarayında saxlanılan general Yermolovun məktubuna və rus komissarlarının tərtib etdiyi xəritələrə əsasən bəzi əraziləri istəyirlər. Əgər ali İran dövləti tərəfindən sizin dövlətə ərazi güzəşt edilsə, onda gözətçi məntəqəsi yaratmalısınız. Lakin o dövlət tərəfindən sizə bu icazə verilməyib, öz-özünə gözətçi məntəqəsi yaratmaq sülh müqaviləsinə ziddir. Mən təəccüb edirəm ki, Rusiya hökumətinin məmurları sülh müqaviləsinin əksinə olaraq belə hərəkətə cəsarət edirlər..." (38, s.156).

21 oktyabr 1825-ci ildə Velyaminov Şahzadənin məktubuna cavab olaraq yazırdı: "...Siz Zati-aliləri bilməmiş deyilsiniz ki, Gilli mərzində bizim tərəfdən olan gözətçilər Sizin iki böyük dövlət arasındakı dostluq münasibətləri çərçivəsində verdiyiniz razılığa əsasən yerləşdirilmişdir. Məlum olmamış deyil ki, ölkələrimiz arasındakı sərhəd xəttini Qarabağ tərəfdən Mehri dağlarının belinə qədər Kəpənək çayı təyin edir. Əhali ilə sıx məskunlaşmış və yaxşı gəlir verən bu ərazilərdən hal-hazırda İran tərəfi istifadə edir. O ki, qaldı Barat-Gədik hündürlüyündən Böyük **Sədənağac** çayının mənsəbinə qədər olan ərazilərə, bu ərazilər, Kəpənək-çay ilə Mehri dağları arasındakı ərazilərin iranlılar tərəfindən istifadəsi kimi, status-kvo olaraq, həmişə Rusiya tərəfində olub və istifadə olunub. Lakin, Rusiya tərəfi bütün mümkün olan imkanlardan istifadə edərək, iki böyük dövlət arasında möhkəm dostluq və razılıq yaratmaq məqsədilə, 1821-ci ildə İrəvan sakinlərinə orada qışlaq düzəltməyə və qoyun otarmağa güzəşt edərək icazə verib..." (113, s.323; şəkil 14).

İrəvan sərdarı Hüseynqulu xanın ruslarla sərhədboyu ərazilərdəki mübahisələrinin əsas səbəbi, əslində heç də dəqiqləşdirilməyən sərhəd xətləri deyildi. Rusların gələcək işğalçılıq planlarını tam mahiyyəti ilə başa düşərək, Sərdar xanlığın sərhədlərini möhkəmləndirmək üçün tədbirlər görürdü. Buna görə də sərhəd xətlərində rusların gözətçi məntəqələrini daimi nəzarətdə saxlamaq üçün, İranla Rusiya arasında sərhəd xətləri məsələsinin həllini gözləmədən, öz gözətçi məntəqələrini yaradırdı. İrəvana məxsus torpaqların heç cür əldən çıxmasını istəməyən Hüseynqulu xan, rusların qəti etirazına baxmayaraq, bütün mübahisəli əraziləri əhali ilə məskunlaşdırmağa çalışırdı, ayrı-ayrı elatları sərhəddə yerləşdirməklə rus qoşununa qarşı mübarizədə onlardan istifadə etməyi düşünürdü. Yuxarıda qeyd etmişdik ki,

Hüseynqulu xan Qars paşalığı tərəfdən Şoragöllə sərhəddə Qafar xanın başçılığı ilə ayrumları və talınlıları, Abaran sərhədində İsmayıl xanın başçılığı ilə seyidli və axsaqqallı tayfalarını, Pəmbək sultanlığı və Qazax distansiyaları ilə sərhəd xətti boyunca İsmayıl xanın və Mərdan xanın başçılığı ilə qarapapaq tayfalarını, Göyçə mahalı tərəfdən, Şəmsəddin distansiyası, Yelizavetpol dairəsi və Qarabağla sərhəd boyunca Nağı xanın başçılığı ilə digər qarapapaq elatlarını yerləşdirmişdi (136,s.450; 105, s.51-52).

Bu elatları sərhəd məntəqələrində məskunlaşdırmaqla, gələcəkdə rus qoşunları tərəfindən ola biləcək hücumun qarşısını almaq üçün onlardan hərbi dəstələr də yaratmağı fikirləşən Hüseynqulu xan, məskunlaşdırılmış ərazilərə darbaxt, sultan, yüzbaşılar təyin edir və onlara hədiyyələr verməklə silah və miniklərinin qayğısına qalmasını tapşırırdı. Eyni zamanda yeni yaşayış məskənlərinə köçürülən tayfaları bütün vergilərdən azad edirdi. Bunun əvəzinə isə həmin tayfalar lazım gələrsə, xan ordusuna silahlı süvari döyüşçülər verməli idilər. Buna görə də qısa bir zamanda sərhəd xəttində 200 nizami piyadadan və 800-dən çox süvari dəstədən ibarət qoşun təşkil edildi. Məskunlaşan əhalinin yerlərdə sayı artdıqca, hər gün qoşun da yeni-yeni adamlar hesabına sayca artırılırdı (128, s.45-46).

Mübahisəli ərazilərdə əhalini məskunlaşdırmaqla xanlığın müdafiə sistemini gücləndirmək üçün görülən tədbirlər sırasında, rusları bərk narahat edən məsələlərdən biri də Göyçə gölünün sahilindəki ərazilərdə, dağıdılmış Zod, Başkənd və Daşkənd kəndlərinin əhali ilə məskunlaşdırılması idi. Sərdarın bu hərəkətindən bərk qəzəblənən rus komandanlığı Fətəli şaha, vəliəhd Abbas Mirzəyə yazdıqları məktubların əksəriyyətində bu məsələyə toxunur, Sərdarın hərəkətlərinin dayandırılmasını tələb edirdilər.

Baş komandan A.P.Yermolovun 1825-ci il sentyabrın 13-də general-leytenant Velyaminova yazılı təlimatında göstərirdi: "...Bizə məxsus olmayan torpaqlarda əhalinin məskunlaşmasını qadağan etməyə hüququmuz yoxdur. Bizə məlum deyil ki, bu əmri Abbas Mirzə verib. Siz Zati-aliləri sərdarın hərəkətinə onun özbaşınalığı kimi yanaşsanız da, sözlərinizdə Abbas Mirzəyə hörmətlə yanaşın. Göyçə gölü ətrafı və bizə məxsus digər ərazilərin mənsubiyyəti haqda danışıqların getdiyi və dostluq münasibətlərinin yarandığı bir vaxtda, sərhəd məsələləri həll edilənədək Böyük Sədənağac çayının mənsəbinə qədər bizə yaşayış məskənləri salmaq lazım deyil. Bizim izahlarımıza baxmayaraq, iranlıların yaşayış məskənləri salmaqda inad edəcəklərini gözləmək olar. Onda Qazax pristavına yazmaq olar ki, Dilican dərəsində gözətçilərin sayını artırsın, yaxınlıqda kənd salsın. O vaxta qədər polkovnik Savarsamidze qar yağanda Balıqçay çayının ətrafında bir topa malik 200 piyada əsgərdən ibarət gözətçi məntəqəsi yaratsın. Belə vəziyyətdə İrəvan kəndlilərinin hərəkəti azalacaq, kəndlilərin özü burada qalmaq istəməyəcəkdir. Əgər sərdar bizə ehtiraz etsə, ona cavab vermək olar ki, onlar gölün sahilini və Balıqçay çayının mənsəbini tutduğundan, sonrakı torpaqları tutmağa hüquqları yoxdur..." (117, s. 54-56).

1825-ci ilin mart ayında sərhəd məsələlərini müzakirə etmək, sərhədlərin delimitasiya və demarkasiyasının yekun şərtlərini razılaşdırmağa və imzalamağa təhkim edilən Təbriz hakimi Fətəli xan, şah tərəfindən Tiflisə göndərildi. Danışıqlar zamanı Yermolov Qarabağın bir hissəsini - Qarabağ xanlığına məxsus Mehri və Qapan ərazilərini İrana verməklə, Göyçə gölü ətrafındakı əraziləri Rusiyaya güzəştə getməyi təklif etdi. Bu dəfə danışıqlar uğurla başa çatdı. Tərəflər razılığa gələ bildilər və 1825-ci il martın 28-də Fətəli xanla general-leytenant Velyaminov arasında akt tərtib edildi. Akta görə, tərəflər arasında sərhəd xətti belə müəyyən olunmuşdu: "Rusiya imperiyasını İran dövlətindən ayıran sərhəd xətti, Qars çayının mənsəbinin əks tərəfində yerləşən Arpaçay çayının sol sahilindən başlayaraq, dağıdılmış Daşqala qalasından və oradan dağıdılmış Söyütlü kəndi istiqamətində Balıqçayı düz xəttlə kəsərək, bu nöqtədən Balıqçayın sağ sahili boyunca Alagöz dağının zirvəsinədək uzanır; Balıqçay özünün kifayət qədər böyük məsafəli axını və oradan çəkilən Adyaman arxı ilə İranla sərhəd olacaqdır. Lakin Şuragöl dairəsinin tarlaları Balıqçay ilə suvarılanda, onun qarşısı alınmamalı, əvvəlki vəziyyətində qalmalıdır. Cünki İrəvan xanlığı ərazisində yerləşən kəndlər üçün Adyaman arxı kifayətdir; Sonra sərhəd xətti Alagöz dağının zirvəsindən sıra dağlarla Cala gölünə, sonra gölün yaxınlığından keçərək dağıdılmış Mirək kəndinə, oradan Qaraboğaz dağının Dəvəboynu yüksəkliyinə doğru, Qaraboğaz dağından Pəmbək sıra dağlarında Dəvədaş, Maymaq, Altuntaxt, Arxaşan və Kömürlü yüksəkliklərini keçməklə, oradan həmçinin Sülumbulaq və Ağrıdağ yüksəkliyi ilə Atmeydan və Eşşəkmeydanın yanından keçərək Barat-Gədik yüksəkliyinə doğru uzanır; Sonra Barat-Gədik yüksəkliyinin Göyçə gölünə bitişik yerindən, gölün şimal, şimal-şərq sahillərindən Böyük Şədənağac çayının mənsəbinə və üzüyuxarı Şişqaya, Göyçay *(Göysu - müəllif)*, Oğruca, Ağyoxuş və Urumbasar kimi yüksəkliklərindən olan sıra dağlardan keçərək düz xəttlə dağıdılmış Zod kəndinə, oradan Gilli, Surfa çaylarını düz kəsən və Başkənd çayının sağ sahili ilə dağıdılmış Başkənd kəndinə və yaxud Çınqılkənd kəndinə doğru, o kənddən dağıdılmış Daşkənd kəndinə, oradan yol ilə Allahlılar dağından düz Bərkləmiş gölünə qədər, oradan gölə tökülən çayın sağ sahili ilə Qaraxaçın zirvəsinə qədər, oradan Sarıyar-Sırçalı sıra dağlarına və Dəvəgöz dağına qədər: daha sonra Bazarçayın sol sahili boyunca Kisir dağının ətəklərinə və onun zirvəsinə, həmin zirvədən Keçbək, Arıxlı, Əlikarvansara, Salvartyurt, Kabargədik, Gədik (Geyük), Ağrı, Sarımsaxlı sıra dağları ilə, Sarımsaxlıdan Baja dağından keçməklə Qapıcıq dağına, Oxçu çayının axdığı sıra dağlardan, başlanğıcını götürdüyü Gözətçi dərə və Yağlıdərə dərələrinə qədər uzanır. Daha sonra Qapıcıq dağının zirvəsindən Yağlıdərə dərəsi ilə axan çayın sol sahili ilə Oxçu kəndinə qədər və sonra Qapançay və yaxud Çuğundur çayının sol sahili ilə onun Tiri yerinin yaxınlığında Araz çayına töküldüyü yerə və oradan Şabadin, Gecalan, Oxçu kəndlərinə qədər. Ümumiyyətlə, Qapançay və yaxud Çuğundur çayının sol sahilində yaşayan əhali Rusiyaya, sağ sahilində yerləşənlər isə İrana mənsubdur (69, s.53-56).

Sərhəd xəttinin birinci dəfə dəqiqləşdirilməsində mübahisə doğuran əraziləri şah hökuməti Rusiyaya güzəştə getdi və bu həmin aktda öz əksini tapmışdır. İrəvan sərdarı Hüseynqulu xan bu vəziyyətlə barışmaq istəmirdi. Ona görə də baş komandan A.P.Yermolova xüsusi məktub yazaraq narazılığını bildirmişdi: "Hər şeydən əvvəl, Rusiya hökumətinin mühəndisləri göstərirlər ki, guya Göyçə gölünün şərq tərəfi Gəncə və Qarabağın hüdudları çərçivəsindədir. Nəzərdə tutmalısınız ki, Dərələyəzdən Eşşəkmeydana qədər, İrəvan torpağı olan ərazini də Gəncə ilə, eyni zamanda İrəvan sərhədlərini də Qarabağla qarışdırıblar. Ancaq əllərdə olan, qalaların sənədlərində (qəbalə), həmçinin əvvəlki şahların fərmanlarında və jurnallarında *(təfsir dəftərlərində - müəllif)* Göyçənin ətrafında yerləşən torpaqların İrəvan ağaları tərəfindən alınıb-satılması qeyd olunub. Vəziyyətin belə olmağı siz tərəfdən baxıldı və göstərilənlərin həqiqət olduğuna əmin olduqdan sonra bildirdiniz ki, Göyçə və Abaranın sərhədlərinə aid iradınız yoxdur. Sizin narahatçılığınız Mehri və Qapana aiddir. Buna görə də bəylərbəyi Fətəli xana bəyan etdiniz ki, "əgər Abbas Mirzə Göyçənin şərq tərəfini bizə güzəştə gedərsə, biz də Mehri və Qapandan imtina edəcəyik". Bu məsələ hələlik həll edilməmiş qalır. Fətəli xan ikinci dəfə sizin yanınıza ezamiyyə olanda, onunla danışıqlar zamanı hətta Gilli torpaqlarının da bir hissəsini güzəştə getdiniz və **Sədənağacdan** Barat-Gədiyə qədər ərazini gözətçiləri yerləşdirmək üçün xahiş etdiniz. O ki, qaldı Abbas Mirzənin sizdən xahiş etdiyi Talışın bəzi hissələrinə, hələ bu məsələ də həll edilməmiş qalır. Birinci il sizin gözətçilər Gilliyə gələndə, mən bu göstərişin səbəbini soruşanda siz mənə cavab verdiniz ki, hələ ki, orada heç bir yaşayış yoxdur, suyun yaxınlığını nəzərə alaraq məndən dostcasına, mane olmamağımı xahiş etdiniz. Mən də gələn il sərhədlər ayrılar deyə düşünərək, sizin xahişinizə hörmət etməkdə utanmadım. Bir də ki, mən fikirləşirdim ki, gözətçilər orada ən çoxu 40-50 gün qalacaqlar. Ancaq sərhədlərin təyin edilməsi ləngidi. 7-8 il ərzində mən heç vaxt dostluq münasibətləri hüdudlarından kənara çıxmadım. Mən hətta Mazaroviçə və sizin yanınıza qayıdan Şamir xana (Beqlyarova) da dedim ki, gözətçilərin keçən illərdə olduğu kimi **Sədənağacda** qalmasına da etiraz etmirəm.

İndi məlumat alıram ki, sizin gözətçilər yenidən Gilliyə və Zoda gəliblər. Bu vəziyyətə aid iki ehtimalım var. Ola bilsin ki, onlar sizin göstərişiniz olmadan gəliblər və ya da sizə yanlış məlumat veriblər. Çünki, bəylərbəyi Fətəli xanla ikinci görüş zamanı aparılan danışıqlarda siz Gilli ilə Zodu **Sədənağacın** əvəzinə bizə güzəştə getdiyinizi bildirmişdiniz. Bu səbəbə görə hələlik sizinlə əlaqə yaratmayınca, gözətçilərinizin orada yerləşmələrini mən qadağan etmədim.

Ona görə də Sizdən soruşuram: gözətçilər ora sizin icazənizləmi gəliblər? Əgər belədirsə, qoy hələ bir neçə gün orada qalsınlar. Bizim gözətçilər də onların yaxınlığında olacaqlar. Mazaroviçin şah sarayına səfərindən sonra bu məsələ orada həll ediləcəkdir. Eyni zamanda öz gözətçilərinizə əmr verin ki, oradakı kəndlərə zərər verməsinlər və dağıdıb tökməsinlər. Yox, əgər gözətçilər ora sizin tapşırıq ol-

madan gəliblərsə, onda əmr edin, **Sədənağaca** getsinlər. Mən dostluq hisslərimin xatirinə sərhəd məsələləri həll edilənə qədər orada qalmalarına razılıq verirəm" (111, s.891-893; şəkil 9).

Gülüstan müqaviləsindən 10 ildən çox keçməsinə baxmayaraq, rus komandanlığı Göyçə gölü ətrafındakı əraziləri əldən vermək istəmirdi. Hər dəfə bu ərazilərdən söhbət açılanda ruslar Qapan və Mehri ərazilərini misal gətirərək məsələnin həllindən qaçırdılar. Vəziyyəti belə görən Hüseynqulu xan rusların təşkil etdikləri gözətçi məntəqələrini dağıtmaq qərarına gəldi. Bu haqda P.Potto yazırdı: "1825-ci il noyabr ayının əvvəllərində Göyçə gölünün sahilində duran tatar *(azərbaycanlı - müəllif)* süvarilərindən ibarət kiçik bir gözətçi dəstəsi gözlənilmədən İran qoşunu tərəfindən hücuma məruz qaldı. Gözətçilər geri çəkildilər. Bundan istifadə edən iranlılar məntəqəni yandırdılar. Bu xəbəri eşidən baş komandan A.P.Yermolov dərhal oraya topla təchiz edilmiş piyada bölük göndərmək əmri verdi. Əlavə qüvvənin gəldiyini görən iranlılar aradan çıxdılar. Göyçə sahilləri yenidən rus gözətçi bölüyü tərəfindən tutuldu. Bunu görən İrəvan sərdarı, sərhəd məntəqələri rəisi polkovnik Saversamidzeyə hər iki tərəfdən atlı gözətçilərin təyin edilməsini təklif etdi. Saversamidze bununla razılaşdı və köməyə gətirdiyi toplu piyada bölüyünü oradan çəkib apardı. Bundan istifadə edən sərdar, dörd topa malik iki tabor nizami hərbi qüvvə ilə Göyçə sahillərini tutmaq üçün yenidən hücuma keçdi. Lakin bu xəbəri eşidən polkovnik həmin bölük ilə geri qayıtdı və iranlılara *(İrəvan hərbi dəstəsinə - müəllif)* xəbərdarlıq etdi. Nəticədə İrəvan qoşunu ruslarla döyüşməkdən çəkinərək geri qayıtdı (123, s.18-19).

Hüseynqulu xanın sərhəd məsələlərindəki tutduğu mövqe şah hökumətini, əsasən də şahzadə Abbas Mirzəni qane edirdi. A.Potto bu barədə yazırdı: "...Belə işlərin Abbas Mirzənin iradəsi olmadan görülməsini təxmin etmək də çox çətindir. Əgər nəzərə alsaq ki, həmin vaxtlar Abbas Mirzə ov etmək adıyla, sərhədləri gəzirdi və hətta İrəvanda da olmuşdur, dediklərimiz aydın olur. O, bu haqda heç Yermolovu da xəbərdar etməmişdi ki, bu da iranlıların adətlərinə görə böyük kobudluq hesab edilirdi..." (123, s.19).

İrəvan sərdarı Hüseynqulu xan səbirsizliklə rusların qeyri-qanuni tutduqları ərazilərdən nə vaxt çıxacaqlarını gözləyirdi. Çünki həmin ərazilərdə əhalini məskunlaşdırmaqla sərhədləri möhkəmləndirmək və onun müdafiəsini asanlıqla təşkil etmək mümkün olacaqdır.

Rus komandanlığı isə qeyri-qanuni tutduğu əraziləri boşaltmaq əvəzinə, Qazax pristavı polkovnik Saqinov Dilican dərəsində yerləşən keşikçi məntəqəsini A.P.Yermolovun əmrinə əsasən, gücləndirərək, bu məntəqəni irəvanlıların yaşayış məntəqəsinə yaxınlaşdırdı. Balıqçay ətrafında isə artilleriyası olan bir alay yerləşdirildi (89, s.576).

Hüseynqulu xanın rus gözətçi dəstələrini Gillidən, Göyçə gölünün ətrafından və **Sədənağacdan** sıxışdıraraq, bu ərazilərdə yaşayış məskənləri yaratmaq cəhdi rusları bərk təşvişə salmışdı. General Velyaminovun yuxarıda geyd etdiyimiz,

1825-ci il sentyabrın 25-də Abbas Mirzəyə yazdığı gizli məktubunda, İrəvan sərdarı Hüseynqulu xanın hərəkətlərindən narazı olduğunu bildirirdi: "... bütün razılaşmaları pozaraq bizim gözətçiləri Göyçə gölündən, Gillidən və **Sədənağacdan** qovaraq, indiyədək rus ordusunun tutduğu ərazilərdə yaşayış məntəqələrinin təşkili ilə məşğul olur... Belə qənaətə gəlirəm ki, qərəzli zorakılıq hərəkətləri sərdar Hüseynqulu xanın özbaşınalığının nəticələridir. Baş komandan yerində olmadığına görə, üzərimə düşən vəzifə borcunu yerinə yetirərək, Siz Zati-alilərin nəzərinə çatdırıram və ümidvaram ki, sərhəd məsələlərinin həll edilib qurtarmadığı bir zamanda, Göyçə gölünün sahillərində yerləşən ərazilərin də sərhəd xətlərinin dəqiqləşdirilməsi üçün danışıqların getdiyi və İran hökumətinin Gülüstan müqaviləsinə görə Rusiyaya məxsus başqa yerlərdəki torpaqlarını tutduğu bir zamanda, İrəvan sərdarının bu hərəkətlərini bəyənməyəcəksiniz. Ona görə də tam əminliklə qeyd edə bilərəm ki, Siz Zati-aliləri öz hökmünüzlə İrəvan sərdarının iki böyük dövlət arasındakı münasibətlərə layiq olmayan hərəkətlərinə son qoyacaqsınız" (112, s.322; şəkil 12).

Hadisələrin tarixi xronologiyası göstərir ki, tərəflər arasındakı mübahisələrin həll edilməməsi, getdikcə münasibətlərin kəskinləşməsinə aparırdı. Rusiya imperatoru I Nikolay hakimiyyətə gəldikdən sonra istər daxili, istərsə də beynəlxalq vəziyyətin mürəkkəbliyini əsas götürərək İranla sülhü qorumağa, vaxt qazanmağa çalışırdı. Ona görə də, 1826-cı ilin yanvarında knyaz Menşikovun başçılığı ilə Tehrana səfirlik göndərməyə qərar verdi. Səfirliyin rəsmi vəzifəsi yeni çarın taxta çıxması haqqında qonşu dövlətə məlumat vermək, I Nikolayın məktubunu şaha çatdırmaq, son vaxtlar gərginləşən sərhəd məsələsinə dair müqavilə bağlamaq idi. Rusiyadakı dekabristlər üsyanı haqqında xəbər dünyanın müxtəlif yerləri kimi qısa bir zamanda Tehrana da çatmışdı. Şah hökuməti bu hadisələrin nə kimi dəyişiklik yaradacağını, onun İrana münasibəti dəyişdirib-dəyişdirməyəcəyini bir müddət izləyərək, başa düşdü ki, I Nikolayın hakimiyyətə gəlməsi İrana dair siyasətdə heç bir yenilik yaratmadı. Menşikovun elçilik səfəri də bu gümanı doğrultdu. İran şahı Rusiya səfirini Sultaniyyədə qəbul etdikdən sonra işğal edilmiş torpaqların azad edilməsi və ya digər torpaqların güzəşt edilməsi haqqında Rusiyanın vədlərinin həqiqətə uyğun olmadığını, atdıqları diplomatik addımların vaxt qazanmaq üçün bir vasitə olduğunu aydın etdi və 1826-cı ilin iyul ayında vəliəhd Abbas Mirzə, baş nazir Allahyar xan və başqa dövlət adamları, o cümlədən ingilis diplomatı Uillokun iştirakı ilə gizli müşavirə keçirdi. Bu gizli müşavirədə Rusiya ilə müharibə məsələsi müzakirə olundu. Rus səfiri Menşikovun şah tərəfindən ikinci qəbulu rus diplomatiyasının İranda yeni məğlubiyyəti oldu. Səfir sərhəd məsələsinin müzakirəsində geniş səlahiyyətləri olmadığını bəyan etdikdə, İran tərəfi Rusiya xarici siyasət idarəsinin ona belə bir səlahiyyət verildiyini təsdiq edən məktubu onun nəzərinə çatdırdı, ikibaşlı oyun ifşa olundu. Şah bütün bunlardan sonra Menşikovla danışıqları davam etdirməyi lazım bilmədi. Bütün xarici elçilərin qəbulu zamanı olduğu kimi Menşikov Şiri-Xurşid ordeni ilə təltif olunmadan Sultaniyyəni tərk etdi.

Qeyd etmək lazımdır ki, Rusiya tərəfi Hüseynqulu xanın sərhəddə gördüyü tədbirlərin onlar üçün təhlükəli olduğunu bəhanə gətirərək əks tədbirlər görürdü. Dağıdılmış Mirək kəndini öz ərazisi hesab edən rus komandanlığı 1826-cı ilin yazında sərhəd qoşunlarının iki piyada bölüyünə Mirək kəndində hərbi istehkam xətti qurmaq əmrini verdi. Bunun ardınca Balıqçay sahilində istehkam tikintisinə başlayan rus hərbçiləri, bu əraziləri Şoragölə qədər əhali ilə məskunlaşdırmağa başladılar (123, s.23; 89, s.604).

Hadisələrin bu şəkildə inkişafı tərəflər arasında münasibətlərin daha da gərginləşməsinə səbəb oldu. Rus komandanlığının qanunsuz hərəkəti haqqında İrəvan xanı Abbas Mirzəyə xəbər verdi. Xəbərdən bərk qəzəblənən İran şahzadəsi, həmin vaxtlar knyaz Menşikovun başçılığı ilə İrana, Şah sarayına göndərilmiş səfirliyin nümayəndəsi polkovnik Bartolomeyi yanına çağıraraq Mirək hadisəsi haqqında öz narazılığını bildirmiş və demişdi ki, "...ruslar bir tərəfdən səfir göndərir, digər tərəfdən isə qoşun..." (123, s.23).

Hələ yolda olarkən, polkovnik Bartolomeydən Mirəklə bağlı məlumatları alan knyaz Menşikov, Velyaminovdan istehkamın tikintisini dayandırmağı və qoşunların Mirəkdən çıxarılmasını xahiş etdi. Velyaminov Tiflis alayının komandiri knyaz polkovnik Savarsamidzeyə Mirəkdən çıxmaq, Balıqcaydakı istehkamların tikintisini və Şoragöl ətrafına əhali köçürülməsini dayandırmaq əmrini verdi (123, s.23; 89, s.604).

Eyni zamanda, knyaz Menşikov Abbas Mirzədən İrəvan qoşunlarının da Mirək ətrafından və ümumiyyətlə Göyçə sahillərindən geri çağırılmasını xahiş etmişdi. Lakin rus qoşunlarının Göyçə ətrafı ərazilərdə möhkəmlənməsindən və getdikcə xanlığın mərkəzinə yaxınlaşmasından narahat olan İrəvan xanı, artıq gözləməyin yersiz olduğunu yəqin edib, Şahzadənin qoşunları geri çəkmək tapşırığının əksinə olaraq, öz qoşunlarını sərhəddə cəmləşdirməyə başladı.

Hüseynqulu xanın başçılığı ilə altı topa malik iki tabor, üç min atlıdan ibarət süvari taboru Mirək kəndi ətrafında, "bütün Asiyada məşhur minici kimi tanınan, İrəvan sərdarının qardaşı Həsən xanın başçılığı ilə beş mindən çox süvari qoşun birləşməsini Gümrü istiqamətində" (167, s.42), min nəfərə yaxın digər dəstə Göyçə gölü ətrafında, daha bir min nəfərə yaxın dəstə isə Balıqçayın əks tərəfində cəmləşdirildi (38, s. 208).

Şoragöl və Pəmbək ərazilərini rus qoşunlarından təmizləməyi qarşısına məqsəd qoyan Hüseynqulu xan, 1826-cı il iyulun 16-da səhər tezdən beş min nəfərlik qoşunla Mirək kəndində yerləşən rus gözətçi məntəqəsinə hücum etdi. Həmin vaxt bu məntəqədə polkovnik knyaz Savarsamidzenin başçılığı ilə 3 topa malik 650 nəfərdən ibarət rus hərbi dəstəsi yerləşirdi. İrəvanlıların qəfil hücumu və qüvvələrin qeyri-bərabərliyi rusları geriyə, Gümrüyə çəkilməyə məcbur etdi. İrəvan süvariləri isə kəndi ələ keçirdilər, 9 kazakı və bir neçə gözətçi əsgəri əsir götürdülər, keşikçi məntəqəsini yandırdılar. Eyni vaxtda İrəvan sərdarının qardaşı Həsən xanın başçı-

lığı altında böyük süvari dəstəsi Kiçik Qarakilsə kəndinə hücum edərək kənddəki keşikçi məntəqəsini dağıtdılar və 150-dən çox əsir aldılar, çoxlu mal-qara və ruslara məxsus ilxını qənimət kimi götürdülər. Eyni vaxtda, İrəvan xanlığının min nəfərdən ibarət digər süvari dəstəsi Böyük Qarakilsə kəndindən 18 verst aralıda, Həmzəçimən çayı kənarında yerləşən rus keşikçi məntəqəsinə hücum edərək məntəqəni dağıtdılar, 15 rus əsgəri öldürüldü və Tiflis piyada alayına, əsgər və zabitlərə məxsus 450 baş atı olan ilxı ələ keçirildi. Həmin gün Göyçə gölünün şimal sahilində, **Sədənağac** *(rusca - "Саданагач" - müəllif)* mərzindəki azsaylı kazak gözətçi məntəqəsi də dağıdıldı və 10 nəfər rus keşikçi əsgəri öldürüldü (71, s.355; 123, s.34-37).

Burada oxucularımızın diqqətini çox maraqlı bir fakta cəlb etmək istəyirəm. Bizim **Sədənağac** kəndindən qonşu Şişqaya kəndinə gedən yolun sağ tərəfində, yoldan 250-300 m aralı, Ziyad Şərifovun evinin arxa tərəfində, evdən təxminən 300 m məsafədə, təpənin üstündə yerləşən, iri çay daşlarından hörülmüş tikintinin xarabalığı yəqin ki, yaşlı nəslin yadındadır. İllər keçdikdən sonra, bu gün məlum oldu ki, həmin xarabalıq, haqqında söhbət gedən, rus qoşunlarının tikdiyi **"Sədənağac"** (rusca - *"Саданагач" - müəllif)* sərhəd keşikçi məntəqəsinin xarabalığıdır. Həmin yerin el arasında "qarovul təpəsi *(rus dilindəki "карауп" sözünün təhrif edilmiş forması- müəllif)*" kimi adlanmasının da səbəbi bununla bağlıdır. Oradan sola tərəf Cəmşid Şərifovun evinin arxa tərəfindən təxminən 200-300 m məsafədə "Quru dərə"yə doğru təpənin yamacındakı xırda xristian qəbiristanlığının qalıqları da bu keşikçi məntəqəsi ilə bağlıdır. Qəbiristanlıqda xidmət vaxtı vəfat edən və döyüşlərdə ölən xristian əsgərlərinin dəfn olunduğu indi aydın olur. Bu yerdən bir az aralı **Sədənağac** kəndinin birinci qəbiristanlığı, eyni zamanda uşaq qəbiristanlığının da qalıqları deportasiyaya (1988) qədər dururdu.

İrəvanlıların bu reydləri haqda general-leytenant, baş komandan A.P.Yermolov, knyaz, general-mayor Menşikova yazırdı: "Dünən birinci məlumatı, bu gün də ardınca bir neçəsini aldım. İran *(İrəvan - müəllif)* qoşunlarlı sizə məlum olan Mirək məntəqəsinə hücum ediblər və Şoragölə giriblər. Sədənağacda bizim gözətçiləri qırıb və Qazax tatarlarının *(azərbaycanlıların - müəllif)* köç yerlərinə hücum ediblər. Həmzəçiməndə əsgərlərin və dövlətin at ilxısını aparıblar" (99, s.354).

Hüseynqulu xanın başqa bir silahlı dəstəsi Sadıqlı kəndində yerləşən rus keşikçi məntəqəsini dağıtdıqdan sonra Balıqçay kənarındakı məntəqəni mühasirəyə aldı. Balıqçay keşikçi məntəqəsinin rus komandanlığı üçün əhəmiyyəti çox böyük idi. Qazax, Borçalı, Şəmsəddin əyalətlərinə gedən yolun üzərində mühüm bir strateji əhəmiyyətə malik olan bu məntəqədə kapitan Pereverzyevin başçılığı ilə Tiflis alayının bir bölüyü yerləşmişdi. Məntəqənin mühasirəyə alınması xəbərini alan baş komandan A.P. Yermolov, iyulun 26-da Tiflis alayının 160 nəfərdən ibarət bir dəstəsini kapitan Voronkovun başçılığı ilə Balıqçaya göndərdi. Bu dəstə oraya ərzaq və artilleriya aparırdı. İyulun 27-də onlar məntəqəyə çatmadan min nəfərdən ibarət

İrəvan süvarisi tərəfindən mühasirəyə alındı və döyüş nəticəsində məhv edildi. Onlardan 17 nəfər, o cümlədən komandir Voronkov da yaralanaraq əsir düşdü, 40 nəfər isə qaça bildi, qalanları məhv edildi (38, s.209; 75, s.363).

Bu hadisə Balıqçayda olan rus dəstəsini çıxılmaz vəziyyətə saldı. Ərzaq və sursatsız qalmış kapitan Pereverzyev 2 topa malik 300 nəfər piyada dəstəsi ilə iyulun 28-də gecə ikən Balıqçayı tərk edərək Böyük Qarakilsə kəndinə çəkildi (38, s.209; 123, s.52).

Qısa bir müddətdə İrəvan xanlığının qoşunları Gümrü və Böyük Qarakilsəni çıxmaqla, bütün sərhəd boyu rus keşikçi məntəqələrini ələ keçirərək dağıtdı və həmin əraziləri öz nəzarəti altına götürdü. İrəvan qoşunu iki həftə ərzində bütün Pəmbəyi və Şörəyeli rus qoşunundan təmizləyə bildi. İrəvanlıların genişmiqyaslı yürüşü nəticəsində rus qoşunu ağır itkilər verərək Cəlaloğlu qalasında gizlənməyə məcbur oldu.

İlk vaxtlar Hüseynqulu xanın ruslara qalib gəldiyi güman edilirdi. Lakin bir az keşmiş bu fikrin yanlış olduğu aydın oldu. Gözətçi məntəqələrinə hücum edən qoşunlar arasında əlaqənin olmaması, Hüseynqulu xanın Zəyəm çayı sahilində yerləşən yüksəklikdə düşərgə salması və fəaliyyətsiz olaraq şah qoşununu gözləməsi, bu qələbəni məntiqi sonluğa çatdıra bilmədi, bu vəziyyət gələcək məğlubiyyətin səbəblərindən biri oldu.

Müharibənin ilk günlərində Qacar ordusu Şimali Azərbaycanın içərilərinə, hətta Şəmkirə qədər gəlib çıxsa da, rus qoşunlarının güclü təzyiqi altında tezliklə geri çəkilməyə məcbur oldu.1827-ci ilin əvvəli üçün, demək olar ki, Şimali Azərbaycanın bütün əyalətlərində üstünlüyü ələ alan rus ordusu İrəvan xanlığının da tutulmasını gündəmə gətirdi. Üç dövlətin sərhədində yerləşən xanlığın siyasi-coğrafi mövqeyi Rusiyanın strateji maraqlarını özündə əks etdirirdi. Məhz buna görə də bu əraziyə sahib olmaqla Rusiya həm işğal etdiyi digər Azərbaycan xanlıqlarının ərazilərinin qorunmasını təmin etmiş, həm də qonşu dövlətlərin ərazisində nələrin baş verdiyini nəzarət altına almaq imkanı qazanmış olurdu.

1827-ci ilin əvvəllərində Yermolov İrəvanın işğal planını hazırlayıb rus ordusu Baş Qərargahının rəisi general-adyutant Dibiçə təqdim etdi. Bu plana görə, rus qoşunlarının əsas zərbəsi İrəvan qalası üzərinə yönəldilməli idi. Onun konkret icra mexanizminə gəldikdə, Yermolov təklif edirdi ki, aprel ayının əvvəllərində rus qoşunlarının avanqardı Üçmüəzzin monastırını tutsun və onu təxliyə bazasına çevirsin. Baş komandanın fikrincə, İrəvan qalası üzərinə hərəkət edən qüvvələrin kiçik bir hissəsi İrəvan qalası ətrafında dayanmalı, qalan qüvvə isə Naxçıvanın işğalına yollanmalı idi.

İmperator I Nikolay Yermolovun planı ilə tanış olub onu bəzi əlavə təkliflərlə təsdiq etdi. Bu hücumun hazırlanmasına konkret kömək göstərilməsi üçün rus ordusu Baş Qərargahının rəisi general-adyutant Dibiç də Tiflisə göndərildi. Rusiya çarının 29 mart 1827-ci il tarixli əmri ilə Yermolovun yerinə general-adyutant İvan

Fyodoroviç Paskeviç Qafqazdakı rus qoşun korpusunun baş komandanı təyin edildi və İrəvan üzərinə hücumun təşkili də ona həvalə olundu (124, s.283).

Baron Dibiç imperatora göndərdiyi məruzəsində mart ayının sonlarında İrəvan qalasının ətrafını, aprel ayında isə İrəvan və Naxçıvan xanlıqlarını işğal etməyin mümkün olduğunu bildirirdi. Baron Dibiç bu kampaniya zamanı ermənilərin ruslara sədaqətlə xidmət edəcəyinə böyük ümid bəsləyirdi. Həm Dibiç, həm də Paskeviç ermənilərin İrəvan xanı əleyhinə qaldırılmasına xüsusi diqqət yetirirdilər. Xüsusilə də rus generalları erməni keşişlərinin fəaliyyətinə böyük əhəmiyyət verirdilər.

1827-ci ilin aprel ayının 2-də Paskeviçin əmri ilə rus qoşunlarının ön dəstəsi general-adyutant K.X.Benkendorfun komandanlığı altında erməni arxiyepiskopu Nersesin müşayiəti ilə Borçalıdan İrəvana doğru hərəkət etdi. Beləliklə, rus qoşunları İrəvan xanlığına növbəti genişmiqyaslı yürüşə başladılar. Aprel ayının 9-da Benkendorfun dəstəsi Pəmbək dağlarını aşıb İrəvan xanlığı ərazisinə daxil oldu. Aprel ayının 13-də isə rus qoşunları heç bir müqavimətə rast gəlmədən Üçmüəzzin kilsəsinə gəlib çatdılar. Onlar burada ermənilər tərəfindən təntənə ilə qarşılandılar və onların şərəflərinə ziyafət verildi (82, s.13; 124, s.287; 135, s.233). Beləliklə, Rusiya İmperiyasının böyük hərbi gücə malik maşını İrəvan xanlığına qarşı işə salındı.

Rusiya imperatoru İrəvan qalasının işğalını ləngitməməyi baş komandan Paskeviçdən tələb etdi və bu əmrin tezliklə yerinə yetirilməsi üçün onun ixtiyarına kifayət qədər qüvvə verdi. Paskeviçin əmri ilə qalanın mühasirəsi üçün lazım olan iriçaplı toplar və təcrübəli istehkamçılar da artıq Üçmüəzzinə gəlib yetişmişdilər.

General-adyutant K.X.Benkendorfun başçılığı altında rus qoşunları aprel ayının 24-də Zəngi çayını keçərək İrəvan qalası üzərinə hücuma keçdi və qalanı qərb tərəfdən mühasirəyə aldı. Aprel ayının 27-də İrəvan şəhərinin şərq tərəfdən şəhərətrafı hissəsini də ələ keçirən rus qoşunu, İrəvan qalası ətrafında qurduqları mühasirə dairəsini qapatdılar (124, s.310; 135, s.258).

İrəvan qalası əzmkarlıqla müdafiə olunurdu. Qalanın mühasirədə olmasına baxmayaraq qala müdafiəçiləri tez-tez qaladan çıxır, rus qoşunlarına güclü zərbələr vururdu. Onların inadkarlığı general-adyutant K.X.Benkendorfu Hüseynqulu xanla və qala rəisi, Hüseynqulu xanın qardaşı oğlu, kürəkəni Sübhanqulu xanla danışıqlara girməyə məcbur etsə də, bu danışıqlar heç bir nəticə vermədi (124, s.309).

Bütün danışıqlar nəticəsiz qaldı. General-adyutant K.X.Benkendorf Hüseynqulu xanı pulla ələ almağa çalışsa da, buna nail ola bilmədi. Rus komandanlığının şirnikləndirici təklifləri də bir nəticə vermədi. Hüseynqulu xan rusların heç bir təklifini qəbul etmədi. Qala rəisi ilə danışıqlar da nəticəsiz qaldı (124, s.311).

1827-ci il mayın 12-də 500 nəfər gürcü və erməni əyanının müşayiəti ilə baş komandan general-adyutant Paskeviçin başçılığı ilə 15.000 nəfərdən ibarət əsas qüvvələrin cənub istiqamətində yürüşü başladı. Onlar İrəvana doğru hərəkət edərək, iyunun 8-də Üçmüəzzinə gəlib çatdı. Bu qoşunun ardınca general-leytenant Kra-

sovskinin başçılığı ilə 20-ci piyada alayı da İrəvan ətrafına gəldi. Rus qoşunlarının tərkibində çarın razılığı ilə Tiflisdə ermənilərdən təşkil olunmuş iki alay da fəaliyyət göstərirdi. Mayın 17-də Tiflisdən hərəkət edən bu alaya yolda ikən çoxlu erməni qoşulmuşdu. Onların sayı təxminən 1000 nəfərə çatırdı (38, s.226; 124, s.323-327, s.332-333).

Lakin qala müdafiəçilərinin qətiyyətli, əzmkarlıqla vuruşduqlarını görən Ali baş komandan başa düşdü ki, İrəvan qalasını tezliklə ala bilməyəcək. Ona görə də Naxçıvana yürüş əmrini verdi. Baş komandan uzun müddət İrəvan ətrafında ləngiməklə, sələfləri Sisianov və Qudoviçin səhvlərini təkrarlamaq istəmirdi. O, mühasirənin uzanmasının rus qoşunu üçün acınacaqlı nəticə verəcəyini yaxşı anlayırdı. Digər tərəfdən, Paskeviç qala müdafiəçilərinin Naxçıvandan və Arazın cənubundan kömək alacağından ehtiyat edirdi. O, bu haqda çara yazırdı: "Beləliklə, məni Arazın cənubuna getmək və hər şeydən əvvəl Naxçıvanı işğal etməyə məcbur edən səbəb İrəvan qarnizonunu o tərəfdən hər hansı kömək almaq imkanından məhrum etmək istəyidir..." (124, s.332).

Baş komandan Naxçıvana yürüşdən əvvəl mühasirə başçısı general-adyutant K.X.Benkendorfu general-leytenant Krasovski ilə əvəz etdi. Onun başçılıq etdiyi 20-ci piyada diviziyası, Sevastopol, Krım piyada alayları, 39 və 40-cı yeger alayları, 6-cı batalyon 38 topla qalanın mühasirəsində saxlanıldı (124, s.332-333). Qalan bütün qoşun hissələri İrəvandan 50 verst aralıda, Gərni çayının sahilində toplaşaraq, bir neçə gün hazırlıqdan sonra iyunun 19-da Naxçıvan xanlığı istiqamətində yürüşə başladı. 1827-ci il iyunun 26-da Naxçıvan döyüşsüz ələ keçirildi (20, s.97; 38, s.228; 124, s.342).

Naxçıvanı ələ keçirən rus qoşunları iyulun 1-də Naxçıvanın ən güclü istehkamı olan Abbasabad qalasını mühasirəyə aldılar. 3-4 min nəfərlik qala qarnizonuna şahın kürəkəni Məhəmmədəmin xan başçılıq edirdi, naxçıvanlı Əmin xan və təbrizli Rza xan isə onun köməkçiləri idilər (135, s.279). Qala müdafiəçiləri rusların güclü təzyiqinə davam gətirərək Abbas Mirzədən kömək almaq ümidində idilər. Lakin Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının Cavanbulaq döyüşündə məğlubiyyəti iyulun 7-də qalanın təslim olmasına gətirib çıxardı (20, s.98-99; 124, s.349-357; 135, s.284;).

İrəvan qalası ətrafındakı rus qoşunlarının vəziyyəti gərgin olaraq qalırdı. İsti hava şəraiti, əsgərlər və zabitlər arasında yayılmış ağır xəstəliklər, hələ avqust ayında gəlib çatmalı olan qaladağıdan topların olmaması rus qoşununun vəziyyətini ağırlaşdırırdı.

Güclü müqavimət göstərən İrəvan qalasının müdafiəçiləri qarşısında aciz qalan general-leytenant Krasovski mühasirəni götürməyi qərara aldı.

1827-ci il iyunun 21-də gecə yarısı İrəvan qalasını mühasirəyə alan dəstələr gizli surətdə əvvəlcə Üçmüəzzinə çəkildilər. Burada bir neçə gün ərzində ərzaq, odun və mal-qaranın yemlənməsi üçün ot tədarükü ilə məşğul olduqdan sonra, Üç-

müəzzindən 35 verst aralı, Abaran çayı sahilində yerləşən dağ kəndi Cəngiyə çəkilərək, iyulun 1-də burada düşərgə saldılar. Geri çəkilərkən irəvanlılar tərəfindən təqibə məruz qalan rus qoşunları azacıq itkilərlə Cəngi kəndinə gəlib çatdı. Bu düşərgədən 10 verst aralıda Alagöz dağının ətəyində isə İrəvan süvariləri dayanaraq onları nəzarətə götürdülər (110, s.6; 168, s.452-453).

Tərəflər arasında bir neçə ay davam edən qısa müddətli döyüşlərdə gah ruslar, gah da İran qoşunları ilə Hüseynqulu xanın qoşunları üstünlük əldə etsələr də, ciddi bir dəyişiklik olmadı. Avqustun 17-də tərəflər arasında, qaynaqlarda "Uşaqan döyüşü" adlandırılan döyüşdə, general-leytenant Krasovskinin başçılığı ilə rus qoşununun məğlubiyyəti general-adyutant Paskeviçi 1827-ci il avqustun 20-də İrəvana doğru hərəkət etməyə vadar etdi. Sentyabrın 3-də rus qoşunu Gərni çayına gəlib çatarkən, Abbas Mirzə Sərdarabaddan 15 verst aralıda yerləşən Qaraqala qalasına, sonra isə Makuya çəkilmişdi. Rus qoşununun əsas qüvvələri sentyabrın 5-də Üçmüəzzinə gəlib çatdı (97, s.561; 124, s.491-494; 135, s.309).

General-adyutant Paskeviç əsas qüvvələri ilə Üçmüəzzinə gələn günü çoxdan gözlənilən mühasirə topları da gəlib çıxdı. Sərdarabad qalasında çoxlu ərzaq ehtiyatı toplandığı xəbərini alan baş komandan gələcək yürüşünü təmin etmək üçün ilk zərbəni bu qalaya vurmağı qərara aldı.

1827-ci il sentyabrın 11-də general-adyutant Paskeviç əsas qüvvələri ilə Sərdarabad qalasına doğru hərəkət edərək, sentyabrın 14-də qalanı güclü mühasirəyə aldı. General-leytenant Krasovski mühasirə qoşunlarının başçısı təyin edildi (84, s.31). Rus komandanlığı qalanı tezliklə ələ keçirmək üçün qalanın cənub hissəsində yerləşən sərdar bağları tərəfindən dövrün güclü silahlarından olan mühasirə topları ilə qalanı güclü top atəşinə tutmağı planlaşdırdı.

Altı günlük mühasirədən sonra sentyabrın 20-də rus qoşunu Sərdarabad qalasına daxil oldu. Qalanı işğal edən rus qoşunu 13 top, 14 min çetvert buğdası olan anbar, çoxlu pambıq parça, barıt və digər sursat ələ keçirdi (97, s.561-562; 76, s.563-564).

Qalanı qorumaq üçün Paskeviç polkovnik Xamutovun başçılığı ilə bir piyada batalyonu, ermənilər və kazaklardan ibarət böyük bir dəstə qoyaraq Üçmüəzzinə qayıtdı. Sərdarabad qalasının mühasirəsi zamanı cəmisi 8 rus əsgəri həlak olmuş, 3 zabit və 15 əsgər isə yaralanmışdı (101, s.564;105, s.146).

İrəvan qalasının alınmasına mane ola biləcək strateji obyektlərdən birinin - Sərdarabad qalasının süqutundan sonra Paskeviçin bütün səyləri İrəvan qalasının alınmasına yönəldildi.

Sentyabrın 23-də rus qoşunları Üçmüəzzindən İrəvan qalasına doğru hərəkət edərək Zəngi çayı yaxınlığında düşərgə saldılar (102, s.565; 168, s.505). Sentyabrın 24-də Paskeviçin çağırdığı Hərbi Şuranın iclasında (168, s.506) qalaya hücumun onun cənub-şərq tərəfindən başlanması qərara alındı. Bu məqsədlə ayın 24-dən 25-nə keçən gecə həmin istiqamətdən qalaya bir neçə top mərmisi atıldı.

Sentyabrın 25-də qalanın mühasirəsi başlandı. Mühasirənin iri miqyasda aparılması məqsədilə həm topların yerləşdirilməsi üçün mövqelər düzəldilir, həm də böyük qüvvə ilə mühəndis-istehkam işləri aparılırdı. Qalanın şimal-şərqində səngər və xəndəklər qazılmasına iki mindən artıq adam cəlb edilmişdi.

Sentyabrın 26-da bütün günü yüngül və ağır toplardan qalaya mərmi yağdırılmasına baxmayaraq, qala müdafiəçilərinin iradəsi sarsılmadı. Onlar qala divarlarında yaranan uçuqları dərhal bərpa edir, dağılan bürcləri möhkəmləndirir və orada yeni toplar yerləşdirirdi.

Sentyabrın 27-dən 28-nə keçən gecə başlayan güclü top atəşi, ayın 29-da da davam etdirildi. Ruslar qalanın şərqindəki və cənub-şərqindəki bürcləri dağıda bildilər. Həmin gün Paskeviç qalanın komendantı Həsən xana məktub göndərib qalanın təslim olunmasını ondan tələb etdi. Əvəzində vəd verdi ki, Həsən xan və onun döyüşçülərinə toxunulmayacaq və onlar istədikləri yerə gedə biləcəklər.

Həsən xan bu məktuba cavab vermədi, əksinə, qalanın yenidən möhkəmləndirilməsi üçün əlavə tədbirlər gördü. Sentyabrın 29-dan 30-na keçən bütün gecəni xan döyüşçüləri qala divarlarının bərpası ilə məşğul oldular. Divarlar üzərində toplar üçün yeni mövqelər düzəldildi. Gecə istehkam işləri aparan rus əsgərləri güclü atəşə tutuldular. Lakin rusların uzaqvuran topları cavab verərək qala üzərində mövqe tutan döyüşçüləri dərhal geri çəkilməyə məcbur etdilər.

Sentyabrın 30-da səhər tezdən Paskeviçin əmri ilə qalanın mühasirəsi daha da sıxışdırıldı, toplar yeni mövqelərə gətirilərək divarlar bütün nöqtələrdən atəşə tutuldu. Günortaya yaxın Həsən xan qalanın şimal-şərq bürcündə yeni toplar qurdurdu. Həmin toplardan rus artilleriyasının cəmləşdiyi əsas mövqelər beşpudluq mərmilərlə atəşə tutuldu. Bununla ruslar müəyyən itkilərə məruz qoyulsa da, artıq onların qarşısını saxlamaq mümkün deyildi. Günortaüstü Həsən xan Paskeviçə məktub göndərdi. O bildirirdi ki, qalanı təslim etməyə hazırdır. Ancaq bunun üçün möhlət verilməsini xahiş edirdi. Paskeviç isə bu təkliflə razılaşmadı və Həsən xandan qalanı qeyd-şərtsiz təslim etməyi tələb etdi (77, s.566).

Oktyabr ayının 1-nə keçən gecə Həsən xan İrəvan qalasının xilas edilməsi üçün bir də cəhd göstərdi. Onun döyüşçüləri hamılıqla qala divarları üzərində mövqe tutaraq bütün gecəni dayanmadan işləyən çoxsaylı rus istehkamçılarını güclü atəşə tutdular. Qala müdafiəçilərinin bu atəşləri elə güclü idi ki, hətta Paskeviç bütün istehkam işlərini dayandırmağı və rus döyüşçülərinin geri çəkilməsi barədə əmr vermişdi. Yəni Paskeviçdə İrəvan qalasını tuta biləcəyində bir şübhə yaranmışdı. İstehkam işlərinə rəhbərlik edən M.Puşşin bu əmri yerinə yetirməkdən imtina edərək Paskeviçin yanına gəlmiş və onu inandıra bilmişdi ki, İrəvan qalasının taleyi istehkam işlərinin aparılması ilə həll olunacaqdır. Onun sözlərindən sonra Paskeviç anladı ki, İrəvan qalasını işğal etmək üçün istehkam işlərini dayandırmaq olmaz və ona görə də İrəvan qalasının fatehi kimi tanınmağa çalışan Paskeviç öz əmrini geri götürdü. O, istehkam işlərinin davam etdirilməsinə razılıq verdi və eyni zamanda

əmr etdi ki, qala fasiləsiz olaraq atəşə tutulsun. Nəticədə qalanın divarlarında və daxilində güclü dağıntılar oldu.

Elə həmin gün qalanın qarnizonu qalanı tərk etməyə cəhd göstərdi. Xan qoşunlarının bir dəstəsi qalanın şimalında olan rus mövqelərini yarmağa çalışdı. Paskeviç bu məsələni əvvəldən nəzərə alaraq qoşunları qalanın dövrəsi boyunca bir neçə xətdə düzdürmüşdü. Ona görə də onların müdafiə xəttini yarıb keçmək qeyri-mümkün idi.

Həsən xan özü də bir dəstə ilə rusların müdafiəsini yarıb keçməyə cəhd göstərdi. O, birinci mühasirə xəttini yarıb keçməyə nail olsa da, ikincisini keçə bilmədi. Onda Həsən xan geri çəkilməyə məcbur oldu. Rus qoşunları isə addım-addım irəliləyərək qalanın şimal divarlarına yaxınlaşdılar.

1827-ci il oktyabrın 1-də İrəvan qalası süqut etdi. Ancaq son ana kimi qala müdafiəçiləri müqaviməti dayandırmadılar. Səhər hər iki tərəfin qarşılıqlı atəşləri ilə başladı. Qalanın şərq divarlarındakı mövqelər susdurulduqdan sonra rus qoşunları bura yaxınlaşa bildilər. Qalanın cənub tərəfində isə atışma davam edirdi. Az sonra bura yeni qüvvələr gətirildi və qalanın cənub-şərqindəki bürclər də dağıdıldı. Divarlarda yaranmış uçuqlardan rus əsgərləri qalaya daxil oldular. Həsən xan Qacar son anda qalanı düşmənə təslim etməkdənsə, partlatmaq məqsədilə barıt qülləsinə yanan fitil qoymuşdu. Lakin poruçik Lemyakin bunu vaxtında görmüş və əli ilə yanan fitili götürmüşdü. Rusların başqa bir dəstəsi isə şimal darvazasından qalaya daxil oldu. M. Şerbatovun yazdığına görə, ruslar qapını sındırıb içəri girmişdi (192, s.329).

Qalanın süqut etdiyini başa düşən Həsən xan, ətrafındakı 200-dək əyanla bərabər qaladakı məscidlərdən birinə çəkildi. Qaladakı atəş mövqeləri nəzarət altına alındıqdan sonra general Krasovski iki bölük döyüşçü ilə Həsən xanın ardınca məscidə yollandı. Rus qoşunlarının döyüşçüləri məscidin qapısını sındıraraq Həsən xanı və onunla bərabər qalanın komendantı, Hüseynqulu xanın kürəkəni Sübhanqulu xanı, Abbas Mirzənin ən yaxşı qvardiyasının başçısı Qasım xanı, Mərəndli Cəfərqulu xanı, Təbrizli Əlimərdan xanı, Əhərli Aslan xanı, Həsən xanın nəvəsi Fətəli xanı və başqa əyanları əsir götürdülər. Krasovski şəxsən Həsən xanı tərksilah etdi. Rus generalı ondan bir tapança və bir qılınc götürüb yanındakı yavərə verdi.

İrəvan müdafiəçilərinin qaladakı bütün silahları rusların əlinə keçdi. Rus qoşunu İrəvan qalasında 4 bayraq, 37 top, 2 haubitsa, 9 mortir, 50-ə qədər falkonet, çoxlu top mərmisi, 14.000 çetvert buğda və beş aylıq digər ərzaq ehtiyatı ələ keçirmiş, 3000 nəfərdən çox adamı əsir götürmüşdü. İrəvanın mühasirəsi zamanı rus qoşunlarından cəmisi 1 zabit və 8 əsgər ölmüş, 2 zabit və 44 əsgər isə yaralanmışdı (77, s.564-567; 80, s.146; 81, s.33-34;100, s.487; 124, s.514-517; 135, s.328-330).

1827-ci il oktyabrın 11-də Rusiya komandanlığı əsir edilmiş digər xanlarla birlikdə Həsən xanı da Tiflisə gətirdi. Həsən xanın igidliyindən məlumatları olan çar sarayı, onu görmək arzusunda olduğunu bildirmiş və Çar I Nikolay igid sərkərdənin Sankt-Peterburqa gətirilməsini tələb etmişdi. Bu xəbəri sakitliklə qəbul edən Həsən

xan hesab edirdi ki, öz dövlətinə sədaqətlə qulluq etdiyinə görə, çar tərəfindən bağışlanmalıdır. Həsən xan general-leytenant Krasovskiyə demişdi: "Mən bilirdim ki, böyük rus imperatoru osmanlıların qorxaraq adını çəkdiyi layiqli qoca hərbiçini görmək istəyəcəkdir. Mən böyük hökmdarın qarşısında durmaqdan qorxmuram. O, genişürəklidir, öz padşahıma sədaqətlə qulluq etdiyimə görə məni bağışlayacaqdır" (124, s.515-516).

İrəvandan yola salınmazdan əvvəl Həsən xan qalanın mühasirəsini yarmağa cəhd etdiyi zaman, qala divarından kəndirlə düşərkən itirdiyi qılıncının tapılıb ona verilməsini general Krasovskidən xahiş etdi. Həmin qılınc göstərdiyi şücaətlərə görə İran şahı tərəfindən ona bağışlanmışdı. Mənbələrdə mövcud olan məlumatlara görə həmin qılınc vaxtilə şərqin böyük sərkərdəsi Teymurləngə məxsus imiş. 1402-ci ildə Əmir Teymur bu qılıncla Osmanlı sultanı İldırım Bayazidi məğlub etmişdi. Əmir Teymurdan Səfəvi şahlarına keçən qılınc Nadir şah hakimiyyətə gələrkən Səfəvilərin digər qiymətli əmlakı ilə bərabər onun əlinə keçmişdi. Nadir şahdan sonra Qacarlar sülaləsinin əlinə keçən bu qılınc Fətəli şah Qacara çatmışdı. XIX əsrin 20-ci illərində Osmanlı ilə müharibədə Həsən xanın sonsuz qəhrəmanlığına görə, Fətəli şah bu qılıncı Həsən xan Qacara bağışlamış, üstəlik də ona "Aslanlar başı" titulunu vermişdi (124, s.515).

Qalada yaranan qarışıqlıqlar zamanı bir azərbaycanlı döyüşçünun tapdığı, Həsən xanın itmiş bu qılıncını rus generalları qiymətli hədiyyə verərək geri alıb sahibinə qaytardılar. Lakin əsirlik zamanı bahalı qılıncı yanında saxlaya bilməyəcəyini başa düşən Həsən xan qılıncı yenidən rus generallarına qaytararaq, onu rus imperatoruna bağışlamaq arzusunda olduğunu bildirdi. Qılınc rusların əlinə keçdikdən bir müddət sonra onun dəstəyindəki qiymətli daş yoxa çıxdı (46, s.245). Rus generalları əvəzində qılıncın dəstəyini qızıldan düzəltdirib poruçik Buxmeyerlə Rusiya imperatoru Riqa şəhərində olarkən ona çatdırdılar. O, imperatorun çox xoşuna gəldi və Riqada olmasından xatirə olaraq onu şəhər ratuşuna bağışladı (29, s.350; 38, s.246; 124, s.518).

Mənbələrin verdiyi məlumata görə, Türkmənçay sülh müqaviləsindən sonra əsirlərin dəyişdirilməsi nəticəsində Həsən xan da sağ-salamat Qacar dövlətinə qayıtdı. A.Qriboyedov 1828-ci il avqustun 10-da A.Q.Çavçavadzeyə yazdığı məktubda bildirirdi ki, Həsən xan azadlığa buraxıldıqdan sonra İrəvanda olmuş, ona xidmət edənləri ailəsi ilə birlikdə özü ilə götürmüşdü (108, s.588). Həsən xan Qacar dövlətinə qayıtdıqdan sonra da şah hökumətinin inanılmış sərkərdələrindən biri olmuşdu. Belə ki, 1828-ci il oktyabrın 23-də A.Qriboyedov qraf K.V.Nesselrodeyə yazdığı məktublarının birində göstərirdi ki, Xorasanda şah hökumətinə qarşı qaldırılmış qiyamı yatırmaq üçün keçmiş İrəvan sərdarı Hüseynqulu xan ora göndərilmişdi. Onun yanında qardaşı Həsən xan da olmuşdu (83, s.619).

Təəssüflə qeyd etməliyik ki, məlumatların azlığından, Azərbaycan xalqının bu böyük sərkərdəsinin həyatının sonrakı dövrü barədə fikir söyləmək çətindir. Lakin,

bu çətinliyə baxmayaraq, gələcək yaradıcılıq planlarımızda Həsən xanın həyat yolunu geniş işıqlandırmağı nəzərdə tuturuq. Bu məqsədlə araşdırmalara başlamışıq.

İrəvan xanlığının 1827-ci ilin oktyabr ayının 1-də Rusiya tərəfindən ələ keçirilməsi ilə Quzey Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı başa çatdı.

İrəvan xanlığının işğalından dərhal sonra, 1827-ci il oktyabrın 6-da general İ.F.Paskeviçin əmri ilə müvəqqəti idarə üsulu yaradıldı.1827-ci ilin sonlarında mənşəcə erməni olan X.Y.Lazarev I Nikolaya Azərbaycan ərazisində Rusiya imperiyasının tərkibində "Erməni dövləti" yaradılması haqqında layihə təqdim etmişdir.

1828-ci ilin fevralın 9-dan 10-a keçən gecə, Təbriz şəhəri yaxınlığındakı Türkmənçay kəndində İranla Rusiya arasında sülh müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən İrəvan və Naxçıvan xanlıqları Rusiyanın tərkibinə daxil edildi. Rusiya Xəzər dənizində maneəsiz olaraq üzmək səlahiyyəti qazandı və İran tərəfi Rusiyaya 20 milyon rubl gümüşlə pul verdi. Eyni zamanda İran tərəfi öz ərazilərində yaşayan ermənilərin maneəsiz olaraq Rusiya hüdudlarına köçmələrində maneçilik törətməməyi öz öhdəsinə götürdü (124, s.581).

Rus qoşunlarının baş komandanı İ.F.Paskeviç, hələ müharibə başa çatmamış, 1827-ci il oktyabr ayının 6-da İrəvan vilayətinin idarə edilməsi haqqında 19 maddədən ibarət olan ümumi qaydalar tərtib etdi. Bu qaydaların 1-ci maddəsində İrəvan vilayətinin Müvəqqəti İdarəetmə Komitəsinin üç üzvdən: general-leytenant Krasovski (sədr), İrəvan qalasının komendantı, podpolkovnik Borodin və bir də erməni yepiskopu Nerses Aştaraketsidən ibarət tərkibi müəyyən edildi (85, s.480). Müvəqqəti İdarəetmə Komitəsi adından da göründüyü kimi, müvəqqəti olaraq, keşmiş Xanlığın ərazisində idarəetmə işlərini həyata keçirməli, ərazidə Rusiyanın mənafeyinə uyğun gələn qayda-qanunları bərqərar etməli, sərhədlərin, İrəvan və Sərdarabad qalalarının mühafizəsini təşkil etməli, bu ərazidə yerləşən rus qoşunlarının təminat və təchizat məsələlərini həll etməli, keçmiş xanlıq ərazisində təhlükəsizliyi təmin etməli, xanlıq daxilində gözətçilik xidmətinin təşkili üçün erməni əhalidən piyada və süvari drujinalar təşkil etməli, Gürcüstanla Dilican və Abarandan keçməklə işlək əlaqələrin yaradılmasını, ticarət əlaqələrinin bərpa edilməsini, pambıqçılığın inkişaf etdirilməsini və duz mədənlərində duz hasilatının artırılmasını təmin etməli idi (96, s.481).

Xanlıq ərazisində azərbaycanlı əhali mütləq çoxluğa malik olmasına baxmayaraq, Müvəqqəti İdarəetmə Komitəsinin tərkibinə azərbaycanlıların nümayəndəsi salınmamışdı.

1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi bağlandıqdan sonra, Naxçıvan və İrəvan xanlıqlarının idarəçiliyi dəyişdirildi. Çar I Nikolayın fərmanı ilə 1828-ci ilin martın 21-də həmin xanlıqlar əsasında "Erməni vilayəti" adlı müvəqqəti inzibati - idarə yarandı. Bu fərmanda deyilirdi: "İranda bağlanan traktata uyğun olaraq İrandan Rusiyaya birləşdirilmiş İrəvan və Naxçıvan xanlıqları bundan sonra bütün işlərdə "Erməni vilayəti" adlandırılsın və o, bizim titula daxil edilsin. Bu vilayətin

quruluşu və onun idarə edilməsi qaydaları haqqında hökumət öz vaxtında lazımi göstərişlər alacaqdır" (78, s.487).

Göründüyü kimi, Rusiya hakimiyyəti dövründə bu torpaqlar Ermənistan deyil, "Erməni vilayəti" adlandırılmışdı. Vilayət idarəsi vilayət rəisindən, biri polis, digəri maliyyə üzrə olmaqla, iki rus müşavirindən və iki asessordan *(müşavirdən - müəllif)* ibarət idi. Asessorlardan biri azərbaycanlı, digəri erməni icmasından idi.

I Pyotrdan başlayaraq çar Rusiyası ermənipərəst siyasətini həyata keçirməkdə davam edirdi. Tarixi Azərbaycan torpaqları əsasında "Erməni vilayəti"nin yaradılması bunun parlaq təzahürüdür.

"Erməni vilayəti" iki əyalətdən: İrəvan və Naxçıvan əyalətlərindən və Ordubad dairəsindın ibarət idi. İrəvan əyalətinə keçmiş İrəvan xanlığında olduğu kimi 15 mahal, Naxçıvan əyalətinə 5 mahal, Ordubad dairəsinə isə 5 mahal daxil idi. Erməni vilayətinin idarə rəisi general-leytenant Aleksandr Çavçavadze təyin edildi. Buraya həm də iki nəfər rus hərbi qulluqçu və əhalinin imtiyazlı təbəqəsindən bir erməni və bir azərbaycanlı nümayəndə daxil idi (100, s.487).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin imzaladığı 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında deyildiyi kimi, "...İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə bir süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu" (1).

• *Türkmənçay sülhündən sonra*

Türkmənçay sülhündən sonra baş komandan general Paskeviç Rusiya İmperiyasına yenicə birləşdirilən keçmiş Naxçıvan və İrəvan xanlıqlarının, sonradan onların yerində yaradılmış "Erməni Vilayəti"nin ərazisində bu bölgəni Rusiyanın xammal bazasına çevirmək, gəlir mənbələrini dərindən öyrənmək üçün əhalinin etnoqrafiyasını, sosial-iqtisadi vəziyyətini araşdırmağı fransız mənşəli rus səyyahı və etnoqrafı İvan İvanoviç Şopenə tapşırır. Şopen 1829-cu ilin aprel ayında tapşırığı yerinə yetirməyə başlamış, "Erməni Vilayəti"ni qarış-qarış gəzərək İrəvan bölgəsinin siyasi tarixi, coğrafiyası, iqlimi, iqtisadiyyatı, kənd təsərrüfatı, sənətkarlığı, məişəti, adətləri, suvarma sistemi, bitkiləri, yerli çəki və ölçü vahidləri, vergilər, inzibati-ərazi bölgüsü, əhalinin sayı, etnik və dini tərkibi və s. haqqında zəngin statistik məlumatlar toplayaraq, 1832-ci ilin mayında bu işi başa çatdırmışdır. Toplanan materiallar əsasında 1852-ci ildə Sankt-Peterburqda "Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinin tarixi abidəsi" (*"Исторu-*

ческий памятник состояния Армянской области в эпоху ее присоединение к Российской империи") əsəri meydana çıxmışdır. Bu əsərdə, başqa ərazilərlə yanaşı, Göyçə mahalı da kəndbəkənd araşdırılmış, hər kənddə yaşayanlar adbaad göstərilmişdir.

Yeri gəlmişkən, Şopenin rus qafqazşünaslığının ruhuna uyğun olaraq yazılan bu əsəri, müəyyən ziddiyyətlərlə fərqlənməsinə baxmayaraq, bu gün də tarixi qiymətini saxlayan böyük bir əsər kimi qalmaqdadır. Kitab ilə tanışlıq göstərir ki, onun qarşısına qoyduğu problemin tədqiqində tətbiq etdiyi konseptual yanaşma tamamilə səhvdir. O, "Erməni Vilayəti"ndən bəhs etməli olduğu halda, kitabın birinci hissəsini qədim erməni çarlığına coğrafi, tarixi, ədəbi və arxeoloji cəhətdən baxışlar adlandırmış, heç bir əsas olmadan "erməni vilayəti"ni Ermənistan tarixi kimi təqdim etmişdir. İrəvan və Naxçıvan tarixi də bu konsepsiyaya uyğun nəzərdən keçirilmişdir.

İ.Şopenin kitabının nisbətən diqqəti cəlb edən cəhəti onda vilayətə daxil olan torpaqların Rusiya işğalı dövrünə və ilk illərə aid statistik məlumatların yer almasıdır. Açıq qeyd etmək lazımdır ki, müəllif konsepsiyasını nəzərə alsaq, buradakı statistik materialın da ermənilərin xeyrinə təhrif edildiyini söyləmək olar. Lakin bu halda belə, istər İrəvan, istərsə də Naxçıvan torpaqlarının tarixi Azərbaycan ərazisi, onun əhalisinin isə azərbaycanlılardan ibarət olmasını ört-basdır etmək olmur. İ.Şopenin ermənilərin bu torpaqlara köçürülməsi haqqında məlumatları, həmin ərazilərin zor gücünə ermənileşdirilməsi siyasətinin tərkib hissəsi olduğunu sübut edir. Bütün bunları nəzərə alaraq İ.Şopenin kitabına tənqidi yanaşma zərurəti ortaya çıxır.

İ.Şopenin siyahıyaalma nəticəsinə görə, Göyçə mahalında ümumilikdə 59 kənd mövcud olmuşdur.1.Bığlı Hüseyn, 2.Zeynalağalı, 3.Rəhmankənd, 4.Ağqala, 5.Əyrivəng, 6.Qızılcıq (Abulkəndi), 7.Noradüz, 8.Qışlaq, 9.Kəvər, 10.Qul Əli, 11.Kosa Məmməd, 12.Paşakəndi, 13.Dəli Qardaş, 14.Küzəcik, 15.Başkənd, 16.Heyranıs, 17.Hətəmxan, 18.Vəli Ağalı, 19.Təzəkənd, 20.Dəlikdaş, 21.Gölkəndi, 22.Aşağı Adyaman, 23.Yuxarı Adyaman, 24.Əbdül Ağalı, 25.Gözəldərə, 26.Ağqıraq, 27.Aşağı Qaranlıq, 28.Yuxarı Qaranlıq, 29.Zolağac, 30.Kolanlıqırılan, 31.Alçalı, 32.Qarasaqqal qışlağı, 33.Yarpızlı, 34.Zağalı, 35.Qızılbulaq, 36.Qırxbulaq, 37.Qanlı Allahverdi, 38.Basarkeçər, 39.Qoşabulaq, 40.Aşağı Keyti (Salman kəndi), 41.Baş Keyti, 42.Ellicə, 43.Daşkənd, 44.Daş Keyti, 45.Tatlı Qışlağı, 46.Zərzibil, 47.Zod, 48.Ağyoxuş, 49.Əyricə, 50.Böyük Məzrə, 51.Kiçik Məzrə, 52.Kəsəmən, 53.Şişqaya, 54.Cil, 55.Ardanış, 56.Adatəpə, 57.Şor Əli, 58.Ağbulaq, 59.Toxluca (136, s.515).

1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri nəticəsində Göyçə mahalında 67 kənd dağıdılmış və əhali didərgin düşmüşdür. Buraya: Buğdatəpə, Hacı Mumuxan, Allahverdibəy, Üçtəpə və onunla qonşuluqda yerləşən, adı unudulmuş bir kənd, Kərim kəndi və onunla qonşuluqda yerləşən, adı unudulmuş dörd kənd, Yuxarı Altuntaxt, Aşağı Altuntaxt, Dəmirçi-poqos və onlarla qonşuluqda yerləşən adı unudulmuş beş kənd, Ağrıca, Atdaş, Axsaqtovuz, Kar-

vansara və onunla qonşu olan, adı unudulmuş bir kənd, Qasımbaşı, Mədinə və adı unudulmuş 6 kənd, Baş Gözəldərə, Xan-Çingizoğlu və adı unudulmuş 4 kənd, Qızılkilsə və adı unudulmuş 5 kənd, Böyükağa və adı unudulmuş 9 kənd, Ağkilsə və adı unudulmuş 2 kənd, Göyçay (Göyçə), Sultanəli, **"Sədənağac"** *(rusca "Саманагач" kimi yazılmışdır - müəllif)*, Karvansara, Ağrıca və adı unudulmuş 2 kənd, Kərimağa kəndi, Dəli-Arutyun, Qamasar kəndləri daxil idi (136, s.515-517).

1833-cü il iyunun 23-də "Erməni Vilayəti"nin inzibati quruluşu qanunu qəbul edildi. Bu qanuna əsasən, İrəvan qəzası dörd dairəyə (*"округ" - rus dilində*) bölündü: İrəvan, Şərur, Sürməli və Sərdarabad. Dairələrin rəisi vəzifəsinə rus məmurları təyin edildi. İrəvan dairəsinə Göyçə, Dərəçiçək, Qırxbulaq mahalının ərazisi, Şərur dairəsinə isə Vedibasar, Zəngibasar və Gərnibasar mahalları daxil idi. Sürməli dairəsinə Dərə kənd-Parçenis mahalı, Gərnibasar və Vedibasar mahallarına Arazın sağ sahilində olan torpaqları daxil idi. Sərdarabad dairəsinə Saatlı, Talın, Seyidli-Axsaxlı, Abaran, Karpi və Sərdarabad mahallarının əraziləri daxil idi. XIX əsrin 30-40-cı illərində Azərbaycanda çarın idarə sisteminə uyğun olaraq keçmiş xanlıqlar və sultanlıqlar əyalətlərə və dairələrə çevrildi. İndiki Ermənistan ərazisində yerləşən Şəmsəddin (sonralar Berd rayonu adlandırıldı) keçmiş Şəmsəddin mahalının dağlıq qismini təşkil edirdi.

Yeri gəlmişkən, Güney Qafqazda möhkəmlənmək məqsədilə çar Rusiyası yerli inzibati idarəetmə sistemində qısa bir vaxtda bir-birinin ardınca islahatlar keçirməyi lazım bilmişdi.

Bu məqsədlə,1837-ci ilin martında rus çarı I Nikolay senator K.F.Qanı Zaqafqaziyaya göndərdi. O, Tiflisə gedib müəyyən məlumatlar topladı və 1838-ci ildə öz layihəsi ilə birlikdə çara təqdim etdi. Çar I Nikolay müəyyən dəyişikliklər etməklə 1840-cı il aprel ayının 10-da K.F.Qanın təklif etdiyi layihəni təsdiq etmək haqqında qanun qəbul etdi. Yeni qanuna əsasən, Zaqafqaziya iki böyük inzibati əraziyə bölündü: Mərkəzi Tiflis şəhəri olan Gürcüstan-İmeretiya quberniyası və mərkəzi Şamaxı şəhəri olan Xəzər-Kaspi vilayəti. Bunlar 18 qəzadan və 782 rayondan ibarət idi. Bu qanuna əsasən Erməni vilayəti ləğv edildi. İrəvan, Naxçıvan qəzaları, Ordubad dairəsi yaradıldı və yeni təşkil edilmiş Aleksandropol qəzası ilə birlikdə Gürcüstan-İmeretiya quberniyasına daxil edildi (118, s.51-73).

Bu islahatdan bir az sonra aydın oldu ki, Güney Qafqazın idarə edilməsi ilə bağlı çarizmin həyata keçirdiyi islahatlar özünü doğrultmur, bu idarəetmə forması əhalinin ciddi narazılığına səbəb olur. Ona görə də çar I Nikolay Qafqazda canişinlik sisteminin yaradılması haqqında 1843-cü ildə fərman imzaladı. Həmin fərmana uyğun olaraq 1844-cü ildə qraf M.S.Vorontsov bu diyara canişin təyin edildi. İki ildən sonra, 1846-cı il dekabr ayının 14-də daha bir yeni inzibati-ərazi bölgüsü aparıldı: Güney Qafqazda Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaları yaradıldı. İrəvan bir qəza kimi Tiflis quberniyasının tərkibində qaldı (119, s.312).

1849-cu il iyunun 9-da Güney Qafqazda daha bir inzibati-ərazi bölgüsü həyata keçirildi: mərkəzi İrəvan şəhəri olmaqla İrəvan quberniyasının yaradılması haqqın-

da, 1850-ci il yanvarın 1-dən qüvvəyə minən, Rusiya çarı II Nikolay tərəfindən Ali fərman imzalandı. Fərmana uyğun olaraq, İrəvan, Naxçıvan və Aleksandropol qəzaları Tiflis quberniyasından ayrılaraq İrəvan quberniyasının tərkibinə verildi.

İnzibati cəhətdən İrəvan quberniyası İrəvan, Yeni Bəyazid, Naxçıvan, Ordubad, Aleksandropol qəzalarına bölündü. Naxçıvan və Ordubad qəzalarından başqa bütün qəzalar keçmiş İrəvan xanlığının ərazisi idi. Hər bir qəzaya müəyyən dairələr daxil idi. İrəvan qəzasına (mərkəzi İrəvan şəhəri) Göyçə mahalını çıxmaqla yuxarıda göstərilən ərazilər; Yeni Bəyazid qəzasına (mərkəzi Yeni Bəyazid şəhəri) keçmiş Göyçə mahalı və Göyçə gölü ətrafında olan ərazilər; Aleksandropol qəzasına (işğaldan sonra adı dəyişdirilmiş keçmiş Gümrü şəhəri mərkəz olmaqla) Şörəyel və Pəmbək dairələri daxil idi (119, s.312).

1862-ci ildə Aleksandropol qəzasından ayrılan Loru Tiflis quberniyasına, 1867-ci il fərmanı ilə Ordubad qəzası ləğv edilərək Naxçıvan qəzasına birləşdirildi və Eçmiədzin qəzası yaradıldı, Aleksandropol, Naxçıvan, Yeni Bəyazid də bu quberniyanın tərkibinə daxil edildi.

1874-cü ildə yeni inzibati-ərazi bölgüsü aparıldı. Əlavə olaraq iki qəza - Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı. Beləliklə, İrəvan quberniyasına daxil olan qəzaların sayı yeddi oldu: İrəvan, Aleksandropol, Naxçıvan, Yeni Bəyazid, Eçmiədzin, Şərur-Dərələyəz və Sürməli.

Yuxarıda qeyd olunanlar sübut edir ki, XVII yüzilin sonu - XIX yüzilin ortalarına qədər İrəvan bölgəsi siyasi vəziyyətlə və mərkəzi hakimiyyətin keçirdiyi inzibati-ərazi islahatları ilə əlaqədar olaraq dəfələrlə inzibati ərazi dəyişikliyinə məruz qalmışdı. Əslində bu addımı atmaqda çar hökumətinin əsl məqsədi heç də inzibati-idarəçilik sistemini təkmilləşdirmək deyildi. Hökumət bu tədbirlə daha çox, Azərbaycanın tarixən formalaşmış ərazi bütövlüyünə növbəti dəfə qəsd etmək, azərbaycanlıların əksəriyyət təşkil etdiyi əraziləri ermənilər yaşayan ərazilərlə birləşdirib birincilərin təsir dairəsini azaltmaq, idarə aparatında ermənilərin nümayəndələrini yerləşdirmək, beləliklə, ərazini tədricən, planlı şəkildə ermənileşdirmək niyyəti güdürdü və özü üçün böyük yanlışlığa yol verdiyinin fərqində deyildi.

Yeni Bəyazid qəzası (4239 kv. verst) ərazisinə görə quberniyanın ən böyük qəzası idi. Göyçə gölü ilə birlikdə İrəvan və Şərur-Dərələyəz qəzalarının ərazisindən böyük olmuşdur (102, s.40-42).

Qəza inzibati cəhətdən 4 nahiyəyə bölünürdü: I. Dərəçiçək, II. Göyçə III. Gözəldərə, IV. Məzrə.

Ümumilikdə, Yeni Bəyazid qəzasının 4 nahiyəsinə 16 kənd icması, bu kənd icmalarına da 127 kənd daxil idi.

XIX əsrin sonunda İrəvan qubernıyasında dövlət kəndlilərin iqtisadi həyatını tədqiq edən V.A. Parvitskinin əsərlərində Göyçə hövzəsinin coğrafi mövqeyini əks etdirən qiymətli məlumatlara rast gəlinir. Qeyd edək ki, tədqiqatçının Yeni Bəyazid qəzasında apardığı müşahidələr və tədqiqatlar 1886-1888-ci illərdə Tiflisdə nəşr olunan "Zaqaf-

qaziya diyarında dövlət kəndlilərinin iqtisadi həyatının öyrənilməsi üçün materiallar" adlı topluda çap olunub. V.A.Parvitski Yeni Bəyazid qəzasının şimal-şərq və cənub-qərb ərazilərini ayrı-ayrılıqda tədqiq edib. Onun araşdırmalarından aydın olur ki, Yeni Bəyazid qəzasının şimal-şərq hissəsi şimal, qərb və cənub-qərbdən İrəvan qubernıyasının Aleksandropol, Eçmiədzin, İrəvan qəzaları ilə, şimal və şimal-şərqdən Yelizavetpol qubernıyasının Qazax, Yelizavetpol, Cavanşir qəzaları ilə həmsərhəd idi. Rayonun sərhədləri Aleksandropol qəzasından Pəmbək dağları ilə, Eçmiədzin qəzasından Alıbəy silsiləsi və Zəngi çayı ilə, İrəvan qəzasından Ağmanqan dağları ilə, Qazax və Yelizavetpol qəzalarından Güneydağla, Cavanşir qəzasından isə Məzrə dağları ilə ayrılırdı. Göyçə gölü və gölün sahilyanı əraziləri qəzanın şimal-şərq və cənub-qərb ərazilərini bir-birindən ayırırdı (103; s.2-4; 104, s.3-5).

Yeni Bəyazid qəzasının cənub-qərb hissəsi isə Kəvərçayın mənsəbindən başlayaraq Ağmanqan dağlarına qədər, qərbdən və cənubdan Paltəpə dağlarından Alağöllərinbaşı dağlarına qədər uzanmaqla, İrəvan və Şərur-Dərələyəz, Cavanşir qəzaları ilə, şərqdən Gilli və Göyçə göllərini birləşdirən çaylara qədər, şimal və şimal-şərqdə isə Göyçə gölü sahili və Şorgöl meşələrinə qədər uzanırdı (103, s.315).

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində də İrəvan bölgəsinin inzibati-ərazi bölgüsündə nəzərə çarpacaq əhəmiyyətli dəyişiklik baş vermədi. Bütün bu dövr ərzində Göyçə mahalı Nova Bayazid (Yeni Bəyazid) qəzasının tərkibində qaldı.

• *Çar devrilməndən sonra*

Rusiyada 1917-ci ilin fevral inqilabından sonra imperiyanın dağılması ilə əlaqədar olaraq Güney Qafqazda yeni ərazi-idarəetmə formasının yaranma zərurəti meydana çıxdı. Belə bir şəraitdə 23 fevral 1918-ci ildə Tiflisdə Güney Qafqazın qanunvericilik orqanı sayılan Zaqafqaziya seymi fəaliyyətə başladı. Bir az sonra, 22 aprel 1918-ci ildə Zaqafqaziya seyminin azərbaycanlı, erməni və gürcü deputatları paytaxtı Tiflis olmaqla Zaqafqaziya Demokratik Federativ Respublikasının yarandığını elan etdilər. Lakin federasiya bir ay sonra dağıldı. Mayın 26-da öncə Gürcüstan, mayın 28-də isə Azərbaycan və Ermənistan öz müstəqilliyini elan etdilər. Güney Qafqazda üç dövlət: Azərbaycan Cümhuriyyəti, Ararat (Ermənistan) Respublikası və Gürcüstan Demokratik Respublikası (GDR) yaradıldı.

Həmin dövrdə: Azərbaycan Xalq Cümhuriyyətinin əhalisi 4 mln. 617 min 671 nəfər, ərazisi 113895. 97 kv. km idi. Bu ərazinin 97297,67 kv.km. mübahisəsiz ərazilər, 16598,30 kv.km. isə mübahisəli ərazilər hesab edilirdi. Gürcüstan Demokratik Respublikasının (GDR) əhalisi 2500000 nəfər, ərazisi 107,6 min kv km idi (7, s.11).

Qafqazda heç bir zaman mövcud olmayan dövlətin - Ararat Respublikasının ərazisi isə cəmi 9 min kv km, əhalisi isə 321 min nəfər (o cümlədən 230 min erməni, 80 min müsəlman, 5 min yezidi kürd, 6 min digər millətlər) təşkil edirdi. Bu respubli-

kanın ərazisinə Yeni Bəyazid qəzası, İrəvan qəzasının beşdə üçü, Eçmiədzin qəzasının dörddə biri, Aleksandropol qəzasının dörddə biri daxil idi.

İrəvan şəhərinin Ermənistanın paytaxtı elan edilməsinə icazə verilməsi barədə erməni nümayəndələrinin Azərbaycan hökumətinə israrlı müraciətindən sonra Batumda 1918-ci ilin mayın 29-da iki dövlətin nümayəndələri arasında danışıqlar keçirildi. Osmanlı dövlətinin və digər böyük dövlətlərin ciddi təzyiqlərindən sonra Azərbaycan tərəfi İrəvanın, eləcə də, Eçmiədzin qəzasının Ermənistana verilməsinə razılaşdı və bununla bağlı Azərbaycanın Müvəqqəti Milli Şurasının iclasında qərar qəbul edildi. Lakin bunun əvəzində ermənilər Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkməli idilər.

Elə həmin bu qərarla da tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş, sonralar İrəvan xanlığının ərazisi olan - Göyçə mahalının qərb hissəsi faktiki olaraq əldən çıxdı. Göyçə gölü iki respublika: Azərbaycan və Ermənistan arasında sərhəd zonasına çevrildi. Gölün şərq hissəsi "Göyçə dairəsi" statusu ilə Azərbaycan Cümhuriyyətinin tərkibində qaldı. Xarici İşlər Nazirliyinin məlumatına görə, "Göyçə dairəsi" adı altında Göyçə gölü və Kiçik Qafqaz dağları arasında yerləşən İrəvan quberniyası Yeni Bəyazid qəzasının şərq hissəsi nəzərdə tutulurdu. Göyçə mahalının əhalisi özünü Azərbaycan Cümhuriyyətinin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmlənməsi uğrunda çalışırdı (7, s.429).

1920-ci il avqustun 5-də hazırlanmış arayışda Azərbaycanın Ermənistan ilə mübahisəsiz ərazisi belə göstərilirdi: sərhəd Qazax və Borçalı qəzalarının köhnə inzibati sərhədlərindən başlayır, sonra Qazaxdan, Aleksandropoldan (Gümrü) və Yeni Bəyaziddən Maralca dağlarına qədər, oradan birbaşa Göyçə gölünə enir, təxminən 11/2 verst şimala Çubuqlu kəndindən sonra Göyçə gölünü ikiyə bölür, onun cənub sahili ilə qərb istiqamətinə gedir, Göyçə gölünün cənub sərhədində sərhəd Zağalı və Gödəkbulaq kəndləri arasından başlayır, sonra Yarpızlı, Qızılvəng və Yuxarı Alçalı kəndlərinin yuxarısından Göyçə gölünün cənub sahillərinin dağlıq rayonlarından-Qızıl Xaraba və Ağmahan yüksəkliklərindən keçir, qərbdə İrəvan və Yeni Bəyazid qəzalarının sərhədlərindən Kiçik Ağdağa doğru gedir, müsəlmanların (azərbaycanlıların) yaşadığı dağlıq rayonları ermənilərin məskunlaşdığı kəndlərdən ayırır. Sonra sərhəd Kiçik Ağdağ dağlarından şimal-qərbə Toğmahan gölü istiqamətində Təzəkənd kəndinə doğru gedir, oradan Gərni çayı ilə Yuxarı Ağbaş kəndinə çatır və onun qarşısından şimala doğru 3620 yüksəkliyə qalxır, oradan cənub-qərbə Uluxanlıya gedir, Uluxanlı kəndi və Uluxanlı dəmiryol stansiyasının arasından keçərək Araz çayına qədər uzanır və şimalda Rəncbər kəndinə çatır, Rəncbər kəndindən Araz çayınadək sərhəd birbaşa qərbə, Sürməli qəzası ilə Eçmiədzin və Kars vilayətlərinin keçmiş inzibati sərhədləri ilə qovuşur və Təndürək dağlarına, keçmiş rus-türk sərhədinə doğru gedir.

O vaxt üçün ərazi problemləri məsələsinin həllində böyük çətinliklərlə qarşılaşan və güclü təzyiqlərə məruz qalan Milli Şura Göyçə gölünün şərq hissəsini əldə

saxlamağa və burada Göyçə dairəsi adlı inzibati vahidin yaradılmasına nail ola bildi. Bölgəyə nəzarətə tam nail olunmamasının səbəbini isə heç də milli hökumətin qətiyyətsiz mövqeyi ilə yox, o zamankı gərgin beynəlxalq vəziyyətdə, Güney Qafqazda cərəyan edən proseslərdə, Osmanlı dövlətinin zəifliyində, ən əsası isə Çar Rusiyasının yüz illik məqsədyönlü fəaliyyətində axtarmaq doğru olardı.

Azərbaycan Cümhuriyyətinin son günlərində parlamentin qəbul etdiyi sonuncu qanun da bu qəbildən əhəmiyyətli məzmun daşıyır və yuxarıda dediklərimizin parlaq sübutudur.

1920-ci il aprelin 22-də Şamxor qəzasının yaradılması barədə beş bənddən ibarət xüsusi qanun qəbul edildi. Şamxor qəzası Gəncə qəzasının qərb hissəsində və keçmiş İrəvan quberniyasının Novobəyazid (Yeni Bəyazid) qəzasının ona bitişik hissələrində yaradılırdı. 34 kənd icmasının daxil edildiyi Şamxor qəzasına İrəvan quberniyasının Yeni Bəyazid qəzasının, yəni tarixi Göyçə mahalının kəndləri:Toxluca, Cil, Ardanış, Babacan Dərəsi, Quşçu Dərəsi, **Sədənağac**, Şişqaya, Bala Məzrə, Məzrə, Zod, Basarkeçər, Sarıyaqub da daxil idi. Lakin beş gün sonra cümhuriyyət hakimiyyətinin devrilməsi bu qanunun gerçəkləşməsinə imkan vermədi (18, s.63).

Bu faktlar aydın şəkildə göstərir ki, bütün beynəlxalq təzyiqlərə və daxili gərginliyə baxmayaraq Cümhuriyyət rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünün sabitləşməsi və qorunub saxlanmasında nə dərəcədə israrlı mövqe nümayiş etdirirdi.

Demokratik Azərbaycan Cümhuriyyəti dönəmində ümumi sahəsi təxminən 16,6 min kv. km olan mübahisəli ərazilərin əsas hissəsi Ermənistanla mübahisələrin obyektinə çevrilmişdi. 1920-ci ildə tərtib olunmuş xəritədən göründüyü kimi, Ermənistanla mübahisəli ərazilər İrəvan quberniyasının qərb hissələri - xüsusilə Göyçə gölünün bir az cənubundan, Naxçıvan və Şərur-Dərələyəzin qərbindən tutmuş Kasak çayına kimi Arazın hər iki sahili - Böyük Vedi, Eçmiədzin, İqdır və s. ərazilər idi. Yeni Bəyazid qəzasının 1-ci və 2-ci polis sahələri mübahisəsiz Azərbaycan ərazisi, 3-cü polis sahəsinin bir hissəsi isə mübahisəli ərazilər sırasına daxil edilmişdir (68, s.124).

Ermənistan Azərbaycanın tarixi torpaqlarına olan iddialarını həyata keçirmək üçün Qarabağ, Zəngəzur, Naxçıvan və digər ərazilərdə soyqırımları daha da genişləndirdi. Naxçıvanda bu siyasətin qarşısını almaq üçün 1918-ci ilin noyabrında Araz Türk Cümhuriyyəti yaradıldı və bu Cümhuriyyət sonra Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti ilə birləşdirildi. Cənubi Qafqaz dövlətləri arasındakı ərazi mübahisələrini müzakirə etmək üçün, nəhayət, 1919-cu il aprelin 25-də Tiflisdə konfrans çağırıldı. Lakin konkret nəticə verməyən Tiflis konfransı da iyunda işini dayandırdı. Son dərəcə mürəkkəb beynəlxalq və daxili vəziyyətə baxmayaraq, Azərbaycan Cümhuriyyəti ərazi və sərhəd məsələlərinə həyati əhəmiyyət verirdi. Cümhuriyyət Hökuməti Güney Qafqazdakı bütün tarixi Azərbaycan torpaqlarını öz nəzarəti altında saxlamağa çalışırdı. 1920-ci ilin ünvan təqvimində Xarici İşlər Na-

zirliyinin təqdim etdiyi xəritə və məlumatlar əsasında Azərbaycan Cümhuriyyətinin ərazisini əks etdirən cədvəl nəşr olunmuşdu. Bu cədvəldə Cümhuriyyətin ərazisi 113,9 min kv. km, o cümlədən, mübahisəsiz ərazi 97,3 min kv. km, mübahisəli ərazi 16,6 min kv. km göstərilmişdir (68, s.124).

• *Sovetləşmədən sonra baş verənlər*

Aprel işğalı (1920) və demokratik Azərbaycan Cümhuriyyətinin devrilməsindən sonra Sovet Rusiyasının yeritdiyi ayrı-seçkilik siyasəti əvvəlkilərdən heç nə ilə fərqlənmədi və nəticədə Azərbaycan əraziləri daha da azaldıldı.

Ermənistan sovetləşdirildikdən sonra da mərkəzi bolşevik hakimiyyəti çarizm dövründəki siyasəti davam etdirməyə, Azərbaycana məxsus tarixi əraziləri heç bir əsas olmadam bir-bir Ermənistana verməyini davam etdirirdi. Buna misal olaraq 1920-ci il noyabrın 30-da 123 min 95 nəfər azərbaycanlının, 99 min 257 nəfər ermənin yaşadığı Zəngəzur qəzasının qərb hissəsinin Ermənistana verilməsini göstərmək olar. Bu addımla Rusiya bolşevik hökuməti Azərbaycanın Naxçıvan bölgəsi ilə, Türkiyənin isə Azərbaycandan keçməklə türk dünyası ilə quru əlaqəsini kəsdi.

Ermənistanın da sovetləşməsinə və orada kommunistlərin iş başına gəlməsinə baxmayaraq, İrəvan hökuməti əvvəlki illərdə tarixi torpaqlarından qovulan azərbaycanlıların daimi yaşayış yerlərinə qayıtmalarına torpaq çatışmazlığı bəhanəsi ilə qəti şəkildə etiraz edirdi. Belə ki, ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Daimi Komissiyasının üzvü İsaakyan Zaqafqaziya Diyar Partiya Komitəsinin Rəyasət Heyətinə geri qayıtmaq istəyən azərbaycanlı qaçqınları yerləşdirmək üçün Ermənistanda bir qarış da torpaq olmadığını yazaraq qeyd edirdi ki, azərbaycanlı qaçqınların Zəngəzur qəzasına qaytarılması böhranlı vəziyyət yaradar, buna görə də məsələni Azərbaycanın sərbəst torpaq fondu hesabına həll etmək olar. Zəngəzurdan qovulmuş azərbaycanlı qaçqınların Azərbaycan SSR-in Qubadlı rayonundan geri qaytarılaraq daimi yaşayış yerlərinə yerləşdirilməsinə yerli hakimiyyət orqanlarının mane olmasına dair məsələ hətta ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Komissiyasının 1922-ci il iyunun 12-də (protokol № 17) və iyulun 9-da keçirilən iclaslarında (protokol № 18) müzakirə edildi. Qəbul edilən qərarda deyilirdi: "Ermənistan SSR-də sərbəst torpaq fondu olmadığı üçün Ermənistan SSR-dən olan və hazırda Azərbaycan SSR Naxçıvan diyarı ərazisində olan 28 min nəfər müsəlman (azərbaycanlı) qaçqını yerləşdirmək Azərbaycan SSR hökumətinə tövsiyə olunsun". Beləliklə, Zəngəzurdan qovulmuş və tarixi torpaqlarına qayıda bilməyən azərbaycanlıları Azərbaycan hökuməti respublika ərazisində yerləşdirməli oldu.

1920-ci il dekabrın 1-də Azərbaycan Xalq Komissarları Şurası Qarabağ, Zəngəzur, Naxçıvan, Dilican, Göyçə mahallarını və Göyçə gölünün yarısını Ermənistanın XI Qızıl Ordu tərəfindən işğalından üç gün sonra Rusiyanın təzyiqi ilə ermənilərə

vermişdir. Yeri gəlmişkən, Göyçə ətrafı ərazilərin ermənilərə "bağışlanması" orada yaşayan əhalini ciddi şəkildə narahat etmişdi.

Sovet hakimiyyəti şəraitində cildini dəyişib bolşevik donu geymiş daşnaklar yerli əhaliyə aramsız təzyiqlər göstərir, onları sıxışdırır, ağır olan dolanışığı daha da ağırlaşdırmağa calışırdılar ki, azərbaycanlılar bu torpaqları tərk etsin və boşalmış əraziləri ermənilərlə məskunlaşdırsınlar.

Ermənistanın Azərbaycanla sərhəd rayonlarında yaşayan, güclü təzyiqlərə məruz qalan azərbaycanlı əhali çıxış yolunu bu torpaqların yenidən Azərbaycana birləşdirilməsində görürdü. Bu haqda Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan, Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığı tərəfindən 4 may 1921-ci il tarixli Azərbaycan İnqilab Komitəsinə göndərilmiş məktub ətraflı məlumat verir.

Həmin məktubda deyilir:

"Bu günlərdə Ermənistan zonasında yerləşən 21 kənd icmasının səlahiyyətli nümayəndələri Daxili İşlər Komissarlığına gələrək, həmin kəndlərin Azərbaycana birləşdirilməsi haqda qəbul etdikləri qərarı təqdim etdilər. Həmin 21 kəndin və onlarla qonşu olan digər başqa kənd icmalarının da səlahiyyətli nümayəndələri yaşadıqları kəndlərin Azərbaycana birləşdirilməsi zərurətini gündəliyə gətirmişlər.

Bu kəndlər öz coğrafi mövqeyinə görə iki qrupa bölünür, bunlar: 1) Göyçə gölünün şimal-şərq sahilində yerləşən, 1195 evdən ibarət və əhalisinin sayı 7159 nəfər olan: Toxluca, Ağbulaq, Ardanış, Cil, Babacan Dərəsi, Quşçu Dərəsi, Sədənağac kəndləri. 2) Təxminən və qismən Tərsə çayının sahilləri boyu, qismən də bu çayla Göyçə gölü arasında yerləşən, 615 evdən ibarət və əhalisinin sayı 2170 nəfər olan: Cıvıxlı, Gölkənd, Çaykənd, Əmirxeyir, Qaraqaya, Yanıqpəyə, Salah, Göyərçin, Polad Ayrım, Ağkilsə, Mırteyil, Haqqıxlı, Daş Ayrım, Hərrəd Kaha kəndləri idi.

Kənd icmaları səlahiyyətli nümayəndələrinin qəbul etdikləri qərardan görünür ki, göstərilən kəndlər Ermənistanın tabeliyinə verilməndən dərhal sonra yerli əhali daimi olaraq sıxışdırılır, təqiblərə məruz qalır, bəzən daşnaklar tərəfindən tam məhv edilmək təhlükəsi ilə üzləşirlər. Səlahiyyətli nümayəndələrin bəyanatlarına görə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra həm siyasi, həm də milli zəmində münasibətlərin yaxınlaşmasına baxmayaraq, onların yaşadıqları kəndlərin coğrafi mövqeyindən asılı olaraq həm iqtisadi, həm də mədəni münasibətlərin inkişafında əvvəllər olduğu kimi indi də əzab çəkməyə məhkumdurlar. Ən əlverişli və layiqli

uğurlu sülh şəraitində belə kənd təsərrüfatının inkişafından söhbət gedə bilməz. Ermənistandakı iri və kiçik yaşayış məntəqələri arasındakı əlaqələrdə böyük çətinliklər var.

ADR hökumətinə Azərbaycana birləşmək xahişi ilə müraciət etməmələrinin səbəbi aşağıdakılardır: 1) axırıncı üç ildə ac və çılpaq arvad-uşaqları ilə birlikdə qorxudulmuş və ürküdülmüş vəhşi heyvanlar kimi vəhşiləşmiş "mauzerçilərdən" müxtəlif mağaralarda gizlənirdilər, yəni kəndlərdə yaşamırdılar; 2) öz vəsatətləri ilə azğınlaşmış daşnakları daha da qızışdırmaq istəmirdilər.

Yuxarıdakı kəndlərin siyahısında bir neçə erməni kəndi və bir molakan kəndi də var, o cümlədən, Nadejdino kəndinin sakinləri də (bunu gizli olaraq bildiriblər), Azərbaycana birləşməyin vacibliyini təsdiqləyir və onlar da Azərbaycana birləşmək istəyirlər.

Hal-hazırda yuxarıda göstərilən kəndlərin sakinləri qardaş Ermənistanda fəhlə-kəndli hökumətinin yaranması ilə əlaqədar olaraq ümid edirlər ki, daşnakların və müsavatçıların hər hansı bir millətçi, şovinist hərəkətlərinə həmişəlik son qoyulacaqdır.

Yuxarıda qeyd olunan məlumatları Az.İnqilab komitəsinin nəzərinə çatdırmaqla, Daxili İşlər Xalq Komissarlığı qeyd edir ki, yuxarıda göstərilən kəndlərin sakinləri tədricən müflisləşiblər, demək olar ki, dilənçi vəziyyətinə düşüblər. Hətta əkin üçün toxumları belə yoxdur, ərzaq və geyimlə təmin olunmağa böyük ehtiyac duyurlar. Buna görə də Azərbaycan İnqilab Komitəsindən həmin müraciətdə qaldırılan məsələni tezliklə həll etmələrini və əhaliyə 1200 pud toxum, arpa toxumuna dəyişmək üçün 300 pud kişmiş, kəfən üçün 1000 arşın ağ göndərilməsində köməklik göstərilməsini xahiş edirlər.

Daxili işlər komissarı *(imza).*
Baş idarə rəisi *(imza).*

"Əslinə uyğundur."

Məktub göndərən ümumi şöbənin müdiri Axundov. 14 aprel 1921-ci ildə kənd icmalarının səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış 12 səhifəlik yığıncaq qərarı Krasnoselo rayonunun İnqilab komitəsinin üzvü Səməd Mustafayev və katib Seyidov tərəfindən imzalanmış və Qazax Qəza İnqilab Komitəsinin möhürü ilə təsdiqlənmişdir (26, s.13).

Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan hökuməti əvəzsiz olaraq qonşulara min ton yanacaq, taxıl, ərzaq və parça göndərdi. Lakin bu kömək azərbaycanlılara çatmadı. Basarkeçər və Karvansara rayonları kəndlərinin səlahiyyətli nümayəndələrinin kömək haqqında müraciəti nəticəsiz qaldı. Ancaq Azərbaycan hökumətinin müdaxiləsindən sonra Ermənistan Xalq Komissarları Soveti 15 dekabr 1921-ci il tarixli qərarı ilə Basarkeçər rayonunun əhalisinin təsərrüfat vəziyyətini yaxşılaşdırmaq məqsədilə 27 kəndi ərzaq vergisindən azad etdi. Bundan əlavə Bakıdan İrəvana kömək məqsədilə göndərilmiş 35 vaqon taxıl və ərzaqdan Basarkeçər rayonunun qaçqınları üçün 27 dekabr 1921-ci ildə 1000 pud taxıl ayrıldı. (1920-ci ildə İrəvan qəzasının Vedibasar mahalı, Qazax qəzasının cənub hissəsi də Ermənistana verildi. Qazax qəzasının Ermənistana "bağışlanmış" torpaqlarında Dilican qəzası yaradıldı.

Azərbaycan SSR 1922-ci ildə ZSFSR-ə qəbul olunanadək, yuxarıda göstərdiyimiz kimi, Yeni Bəyazid qəzasının Basarkeçər bölgəsi Rusiya imperiyasının müəyyənləşdirdiyi sərhədlərində və Şərur-Dərələyəz qəzasının üçdə iki hissəsi artıq Ermənistana verilmişdi.

1923-cü ildə Naxçıvanın azərbaycanlılar yaşayan 9 kəndi Ermənistana verildi. İki il sonra, 1925-ci il mayın 19-da Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin (MİK) Kiçik Rəyasət Heyətinin iclas qərarına uyğun olaraq (protokol № 12) bu kəndlərdə xaricdən köçürülən ermənilər yerləşdirildi.

Sayca Azərbaycandakı ermənilərdən çox olmalarına baxmayaraq, Ermənistanda tarixi ərazilərində yaşayan azərbaycanlılara muxtariyyət verilmədi. Azərbaycanda isə ermənilər üçün muxtariyyət yaradıldı.

1923-cü il iyulun 7-də Qarabağın dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) təşkil edildi. Muxtariyyətin inzibati mərkəzi Xankəndi şəhəri müəyyənləşdirildi. Həmin ilin sentyabr ayında şəhərin adı dəyişdirilərək azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri olan Stepan Şaumyanın adı ilə Stepanakert adlandırıldı.

DQMV-nin təşkili Lenin və Stalinin ermənilərə və Azərbaycan xalqına olan münasibətinin göstəricisi idi. Sonrakı illərdə də Ermənistan Azərbaycanın əraziləri hesabına öz sərhədlərini genişləndirməkdə davam edirdi.

18 fevral1929-cu ildə Moskva rəhbərliyinin qərarı ilə Naxçıvan MSSR-in on yaşayış məntəqəsini əhatə edən 657 kv. km olan ərazi - Qurdbulaq, Hörədiz, Oğbun, Almalı, İtqıran, Sultanbəy, Qarsevən, Kilid və digər kəndlər, həmçinin Qazax rayonunun 4400 hektarlıq meşə sahəsi Ermənistana "bağışlandı".

Yenə həmin ildə Zəngilan rayonunun üç kəndi: Nüvədi, Ernəzir və Tuğud kəndləri Ermənistana verildi və burada Mehri rayonu təşkil olundu, nəticədə Naxçıvanı Azərbaycandan ayıran dəhliz qapandı.

İki respublika arasında ərazi məsələləri hər dəfə erməni tərəfinin xeyrinə yekunlaşırdı, nəticə etibarilə Xalq Cümhuriyyəti dövründəki bütün "mübahisəli" ərazilər və bundan əlavə 11 min kv. km Azərbaycan ərazisi Ermənistana bağışlandı.

Yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri 86,6 min kv. km müəyyən edildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin 27,2 min kv. km-i Azərbaycan xalqının əlindən alındı (24, s.9-17; 58, s.61-69).

Ümumiyyətlə, tarixi Azərbaycan torpağı olan İrəvan quberniyası XIX əsrin sonu - XX əsrin əvvəllərində tarixi-coğrafi və siyasi vəziyyətinə görə öz strateji əhəmiyyətini saxlayırdı. İrəvan bölgəsi Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra, bu ərazilərə ermənilərin köçürülməsi bölgənin tamamilə ermənileşməsi ilə nəticələnməmişdir. Erməni-rus siyasi və hərbi birliklərinin sistemli şəkildə bu bölgədə yerli türk əhalisinə qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində İrəvan bölgəsində "Erməni dövləti" yaradılmış və bu ərazilər Azərbaycanın siyasi və hüquqi ərazilərindən zorla qoparılmışdır.

• *Sədənağac kəndi qanlı hadisələrdə*

Tarixi sənədlərə əsasən, Sədənağac kəndində:

1873-cü ildə	132 nəfər,
1886-cı ildə	214 nəfər,
1897-ci ildə	299 nəfər,
1908-ci ildə	343 nəfər,
1914-cü ildə	659 nəfər,
1916-cı ildə	430 nəfər,
1919-cu ildə	360 nəfər,
1922-ci ildə	300 nəfər,
1926-cı ildə	327 nəfər,
1931-ci ildə	411 nəfər,
1939-cu ildə	481 nəfər,
1959-cu ildə	562 nəfər,
1979-cu ildə	1223 nəfər,
1987-ci ildə	1890 nəfər

əhali yaşamış və bunlar yalnız azərbaycanlılardan ibarət olmuşlar (14, s.291).

1988-ci ilin noyabrın sonlarında və dekabrın əvvəllərində Ermənistan dövləti kəndin köklü sakinləri olan azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya

etmiş və kəndin adını dəyişərək Arequni adlandırmışdır. İndi bu kənddə ermənilər yaşayır. Ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırım siyasətinin xronologiyasında bu, kənd əhalisinin beşinci deportasiyasıdır (1905-1907, 1918-1920, 1937-1938, 1948-1953, 1988-1989).

Çar Rusiyasının qəsbkarlıq siyasətinin məhsulu olan və hadisələrin tarixi xronologiyasının zirvəsində duran, qədim Azərbaycan torpaqlarında yaradılmış "Erməni dövləti" XX əsrdə Qafqazda planlı şəkildə etnik təmizləmə həyata keçirmiş və mərhələ-mərhələ, soyqırım aktları ilə müşayiət olunmaqla, bu əraziləri köklü sakinlərindən - azərbaycanlılardan təmizləmiş, onları öz tarixi ərazilərindən çıxarmışdır. Xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmiş və ya mənimsənilmişdir.

Bütün bunlar öz mənşəyini 1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsindən götürür. Bu müqavilədən dərhal sonra ermənilərin İrəvan xanlığının ərazisinə köçürülməsi prosesinə təkan verilir. Müqavilənin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə *"...bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətlərindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya onun haqqında öz xoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir...." (9, s.283).*

Ruslar özlərinin Qafqaz siyasəti üçün nə kimi təhlükəyə baş vurduqlarının fərqində deyildilər. Bu bəsirətsizliyin nəticəsidir ki, köçürmə siyasəti ruslar tərəfindən çox böyük canfəşanlıqla aparılır, külli miqdarda pul xərclənir, köçürülən ermənilərə hər cür güzəştlər, imtiyazlar verilir, köçürülənlərin əksəriyyəti azərbaycanlılar yaşayan kəndlərdə, bəzən də yaylağa getmiş və evlərini boş qoymuş azərbaycanlıların evlərində yerləşdirilirdi. Ermənilər köçürülən zaman müsəlman ailələrinin əksəriyyəti yaylaqda olmuşdu və gəlmələrin onların evlərində yerləşdiklərindən xəbərləri yox idi (4, s.26).

İ.Şopenin verdiyi məlumata görə, İrəvan əyalətinin 119 kəndinə, o cümlədən İrəvan şəhərinə, 35560 nəfər tərkibi olan 6949 ailə köçürülmüşdür (136, s. 636-642).

İrəvan xanlığının işğalından və Qacar şahı üzərində qələbə ilə qane olmayan işğalçı rus ordusu 1828-ci il iyun ayının 14-də İ.F.Paskeviçin komandanlığı altında 12 minlik qoşunla Gümrü tərəfdən Arpaçayı keçərək Şərqi Anadolu istiqamətində hücuma keçdi və iyun ayının 23-də Qars qalasını ələ keçirdi. Güclü döyüş qabiliyyətinə malik olan, müasir silahlarla silahlanmış rus ordusu az bir vaxtda, iyulun 24-də Axılkələyi, avqustun 15-də Ahıskanı, 22-də Ərdahanı, 28-də Bəyazidi, 1829-cu ilin yazında isə Ərzurumu, daha sonra Muş, Oltu, Bayburtu işğal etdi (4, s.28).

İ.Şopenin apardığı siyahıyaalmanın nəticələrinə görə, 1828-29-cu illərdə Erməni vilayətinin (keçmiş İrəvan və Naxçıvan xanlıqlarının, Ordubad dairəsinin) əra-

zisində 81.749 müsəlman və 25.131 yerli erməni qeydə alınmışdır (136, s.542). Rusiya-Türkiyə müharibəsindən sonra isə əlavə olaraq, bu əraziyə 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürd köçürülmüşdür. Köçürülən ermənilər Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndində yerləşdirilmişdir (136, s.636-642).

Rəsmi statistikaya görə, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra "Erməni vilayəti"nə İran və Türkiyədən 57266 nəfər erməni (10631 ailə) köçürülmüşdü. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmi 25131 nəfər (4428 ailə) erməni yaşamışdır. Rus tarixçisi N.N. Şavrov Rusiyanın Zaqafqaziyadakı müstəmləkəçilik siyasəti haqqında yazırdı ki, *"...biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1828-1830-cu illər müharibəsi qurtardıqdan sonra biz 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürüb, onları demək olar ki, ermənilər yaşamayan Yelizavetpol və İrəvan quberniyalarında, Tiflis, Borçalı, Ahısqa, Axılkələk qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Onların məskunlaşması üçün 200.000 desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdır. Həmin ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsi* (Dağlıq Qarabağ, Xanlar və Şəmkir rayonları nəzərdə tutulur - müəllif) *və Göyçə gölünün sahillərində məskunlaşdırıldılar. Bunu da nəzərə almaq lazımdır ki, rəsmi olaraq köçürülən 124 min ermənidən başqa, buraya qeyri-rəsmi köçənlərlə birlikdə onların sayı 200 min nəfərdən çoxdur" (25, s.59-61).*

Müharibənin gedişində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən türklərin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81749 nəfər (17078 ailə) müsəlman *(azərbaycanlılar - müəllif)* qalmışdı. Köçürmələrdən sonra isə ermənilər 82397 nəfər (15059 ailə) təşkil etmiş, nəticədə müsəlmanları sayca üstələmişdilər (136, s.642).

Bu haqda N.N.Şavrov yazır: *"1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstərmişdir. 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən artıq çoxalmışlar. Hal-hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyil. Onları buraya biz köçürmüşük" (134, s.63).*

Erməni alimi Züaven Korkodyan yazır ki, İrəvan - indiki Ermənistan ərazisində mövcud olmuş İrəvan quberniyasının İrəvan, Üçmüəzzin, Yeni Bəyazid, Aleksandropol və Gəncə quberniyasının Zəngəzur, Qazax, Tiflis quberniyasının Loru-Pəmbək qəzalarındakı 2310 kəndin 2000-ni azərbaycanlılara məxsus olmuşdur. 1833-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1866-cı ildə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2%-i azərbaycanlı olmuşdur.

1831-ci ildə Basarkeçər rayonu ərazisində 44 kənd olmuş, bu kəndlərdə 4367 nəfər azərbaycanlı və cəmi 9 erməni yaşamışdır (42, s.112).

Bu statistik məlumatlar getdikcə dəyişməyə başlamışdır: 1873-cü ildə bölgədə 11746 nəfər azərbaycanlı, 3145 nəfər erməni, 1886-cı ildə müvafiq surətdə 16139 və 4148 nəfər, 1897-ci ildə 20395 və 5116 nəfər təşkil etmişdir. 1914-cü ildə bölgənin bütün millətlərdən olan əhalisi cəmi 33918 nəfər olmuşdur (58, s.272).

1916-cı il yanvarın 1-nə olan məlumata görə, bu bölgədə əhalinin etnik tərkibi azərbaycanlıların xeyrinə çoxluq təşkil edirdi. İrəvan qəzasında 74,2 min nəfər, Zəngəzur qəzasında 119,5 min nəfər, Yeni Bəyazid qəzasında 50,7 min nəfər, Sürməli qəzasında 45 min nəfər azərbaycanlı yaşamışdır.

Gətirdiyimiz rəqəmlər əyani surətdə sübut edir ki, XX əsrin əvvəllərində indiki Ermənistanın ərazisində yerli əhali olan azərbaycanlılar əksəriyyət təşkil etmişlər.

Lakin sayca azlıq təşkil etmələrinə baxmayaraq, erməni millətçiləri qısa bir vaxtda "Daşnaksütyun" partiyasının proqramında qarşıya qoyduğu "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırım siyasətini həyata keçirməyə başladılar.

XX əsrin əvvəllərində Rusiya imperiyasını bürüyən siyasi və maddi böhranlar imperiya ərazisində iğtişaşlar yaratdı, imperiyanın hər yerində inqilabi hadisələrə səbəb oldu, milli ucqarlarda çarizmi devirmək şüarı altında inqilabi qüvvələr ayağa qalxmağa başladılar. Rusiyanın hər yerində olduğu kimi, çarizmdən narazılıq dalğası Zaqafqaziyada da güclü əks-səda doğurdu. Rusiyanın hakim şovinist dairələri, zərbəni özlərindən yayındırmaq məqsədilə milli-dini ayrı-seçkilik, xalqların bir-birinin üzərinə qaldırılması siyasətini ortalığa ataraq imperiyanı saxlamaq üçün hər cür eybəcər üsul və vasitələrdən istifadə edirdi.

Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst rus məmurları da bu siyasətin davamçısı olaraq Osmanlıdan, İrandan və digər ölkələrdən Qafqaza köçürülən ermənilər silahlandırıb azərbaycanlı əhaliyə qarşı qaldırmağa çalışırdı.

Qeyd etmək vacibdir ki, Zaqafqaziyada başlayan qanlı hadisələrin bütün səbəblərini yalnız çar hökumətinin mürtəce siyasəti ilə bağlamaq düzgün deyildir. Çünki bu münaqişədə təməli Avropada qoyulan, xətti-hərəkəti oradan yönlənən və oradan maliyyələşən "Daşnaksütyun" partiyasının başçılığı altında erməni millətçilərinin yeritdiyi siyasət xüsusi rol oynamışdır və problemi bu ciddi amilin üzərindən keçərək araşdırmaq mümkün deyildir.

Zaqafqaziyada ermənilər və müsəlmanlar (azərbaycanlılar) arasında kütləvi toqquşmalar "Daşnaksütyun" partiyasının proqramında irəli sürülən "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində atılan ilk addımlardan biri olaraq, öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırım siyasətini həyata keçirməyi, boşalmış ərazilərdə isə Osmanlıdan köçürülmüş erməniləri məskunlaşdırmaq məqsədini güdürdü.Yetərincə siyasi və hərbi hazırlığı olan "Daşnaksütyun" partiyasının bu planını

inqilabın doğurduğu hərc-mərcliklər dövründə reallaşdırmaq onlara daha asan görünürdü.

Erməni-azərbaycanlı münaqişəsinin ilk təbili Bakı şəhərində vuruldu. 1905-ci ildə fevral ayının 2-də daşnak terrorçuları Bakıda qarşıdurma yaratmaq məqsədi ilə Parapet bağında əliyalın şəhər sakini Ağarza Baba oğlunu qətlə yetirdilər (63, s.149). Bundan dörd gün sonra fevral ayının 6-da isə müttəhim Babayev erməni əsgərlərinin əli ilə qətlə yetirildi. Bu iki hadisə ilə bağlı xəbər yayılaraq, bütün Bakı şəhərini atışmalara qərq etdi. Fevral ayının 7-də silahlanmış və hazırlıq görmüş erməni daşnakları əsil hərbi qiyam qaldırır və şəhərin azərbaycanlı əhalisini cavab tədbirləri görməyə məcbur edirlər.

Bakıda baş vermiş fevral hadisələrindən sonra münaqişənin hüdudları sürətlə genişləndi, erməni daşnaklarının və erməni millətçilərinin törətdikləri qırğınlar, demək olar bütün Zaqafqaziyanı əhatə edirdi. Bakıda, Şuşada, Tərtərdə, Qarabağda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Göyçə mahalında, Borçalıda, Qazaxda, Lənkəranda, Salyanda və bir çox yerlərdə, yəni türk-müsəlmanlar yaşayan ərazilərdə ağılasığmaz qanlı hadisələr törətmişdilər (73, s.10).

1905-ci il may ayının 10-da Daşnak terrorçuları Naxçıvan şəhərində qırğın törədərək 100 nəfər dinc sakini qətlə yetirmişlər. Bir neçə gün sonra, may ayının 23-də ermənilərin Qarsaçay bağçasında müsəlman gənclərə hücumu ilə İrəvanda növbəti qırğın başlanır. Mayın 31-də İrəvandakı qırğınlar dayandırılsa da, ermənilər ətraf müsəlman kəndlərinə hücum etdilər. Elə həmin axşam silahlı erməni dəstələri İrəvan qəzasının Qırxbulaq mahalının Gözəcik kəndinə hücum edirlər.

İyun ayının 2-də 10 min nəfərlik erməni alayı Məngüs kəndi istiqamətində hücuma keçir. Dağıdılmış 12 azərbaycanlı kəndinin əhalisi Təzəkəndə qaçır. Ermənilər iyunun 3-də Güllücə kəndinə hücum edirlər. Silahsız əhali Tutiyə, Damagirməz, Kamal kəndlərinə qaçır. Qırğınlar 18 gün davam edir. Nəhayət, ermənilər Gözəcik, Güllücə, Məngüs, Damagirməz, Tutiyə, Kamal və Məsimli kəndlərini darmadağın edir, əmlaklarını talan edirlər ki, bir də azərbaycanlılar geri qayıda bilməsinlər.

İyun ayının 3-də Abaran, Şörəyel, Pəmbək və Aleksandropoldan gələn silahlı dəstələrin köməyi ilə ermənilər Eçmiədzin (Üçkilsə) qəzasının Üşü kəndinə hücum etdilər, nəticədə yerli əhali - azərbaycanlılar kəndi tərk edir. Bir neçə gün sonra, iyun ayının 9-da ermənilər Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrku, Əngirsək, Təkiyə kəndləri də daxil olmaqla 10 kəndi dağıdırlar. Silahsız kənd əhli dağlara qaçmaqla xilas ola bilmişdir. Kəndlər isə yandırılaraq tamamilə məhv edilmişdir (4, s.37-63).

1905-ci ilin mart ayından başlayaraq erməni quldur dəstələri Göyçə gölü ətrafında azərbaycanlılar yaşayan kəndlərə də basqınlar edir, evləri yandırır, əhalinin mal-qarasını qarət edirlər. Rus hakimiyyətinin hərbi və polis sistemi müşahidəçi mövqeyi tutmuşdu və baş verənlərə göz yumurdu.

Mart ayının əvvəllərindən başlayaraq erməni quldur dəstələri Göyçə gölünün cənub-qərb hissəsində yerləşən Aşağı Qaranlıq (Martuni) rayonunun Qızıl Xaraba (Əyricə), Yanıx, Yuxarı Alçalı, Karvansara, Mədinə və Xartlıq, Yeni Bəyazid (sonralar Kamo) rayonunun Ağqala, Ağzıbir, Başkənd (Göyçəli), Əyrivəng, Əfəndi (Rəhman), Kosaməmməd, Hacı Muğan kəndlərində yaşayan azərbaycanlı əhalisinə qarşı dəhşətli, insan obrazına yaraşmayan azğınlıq, vəhşilik etmişdir. Yüzlərlə azərbaycanlı qoca, qadın, uşaq, kişi qətlə yetirilmiş, mülkləri qarət edilmiş, sağ qalan əhalinin bir qismi dağlara qaça bilsə də, orada aclıqdan, soyuqdan məhv olmuş, bir qismi isə İrana, Osmanlıya qaçmalı olmuşdu.

Bu bölgədə azğınlıq edən erməni quldurları bir neçə gündən sonra Basarkeçər səmtdəki kəndlərə basqın etmişlər. Bunu demək kifayətdir ki, təkcə mart ayının 25-dən aprel ayının 4-ə qədər təpədən dırnağadək silahlanmış daşnak əsgərləri silahsız, dinc əhaliyə qarşı vəhşiliklər göstərərək, qısa bir vaxtda bu səmtin Ağkilsə, Babacan, Böyük Məzrə, Qanlı, Qaraiman, Qoşabulaq, Qızılvəng, Canəhməd, Göysu, Kərkibaş, Kiçik Məzrə, İnəkdağı, Pəmbək, Sarıyaqub, Sədənağac, Subatan, Yarpızlı, Yuxarı Zağalı, Yuxarı Şorca, Zərkənd, Zod kəndlərinin sakinlərini öz doğma yurdlarını tərk etmək məcburiyyətində qoymuşdular. Əhali dağları aşaraq indiki Gədəbəy, Şəmkir, Daşkəsən, Goranboy, Tərtər, Kəlbəcər istiqamətindəki kəndlərdə sığınacaq tapdılar. Kənd əhalisini yerində tapa bilməyən quldurlar evləri yandırır, əmlakı qarət edirdilər.

1905-ci ilin hərc-mərcliyində Sədənağac kəndinin əhalisi Azərbaycanın indiki Şəmkir rayonunun Atabəylər kəndinə, Qapanlı kəndinə, indiki Gədəbəy rayonunun Xarxar, Arıqıran, indiki Samux rayonunun Eldar və başqa kəndlərinə köçmüşdülər. 1907-ci ilin yazında kənd əhalisi yenidən doğma yurduna qayıtdı. Həmin vaxt kənddə 45-50 ev, əhalinin sayı isə təxminən 280-300 nəfər olmuşdur. Bu hadisələr zamanı kənd əhalisinin vaxtında gördüyü tədbirlər nəticəsində, başqa kəndlərdən fərqli olaraq ölüm-itki olmadı.

M.S.Ordubadi 1905-ci ildə indiki Ermənistan ərazisində ermənilərin törətdikləri soyqırımı belə səciyyələndirmişdir: *"...İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda və boğmaqda idi" (57, s.25).*

Ermənilərin qanlı cinayətlərini ürək ağrısı ilə qələmə alan M.S.Ordubadi öz əsərində yüzlərlə fakt gətirir. Həmin tarixi faktlardan birini oxuyanda insanı dəhşət bürüyür. Çünki **ermənilik qəddarlığın ali dərəcəsinin təcəssümü olduğunu tutduğu əməllərlə sübut edir,** erməni vəhşiliyini faktlarla dünyaya çatdırır: Zəngəzurun Qafan dairəsində ermənilər azərbaycanlılar yaşayan kəndi talan edir, yandırır, 62 nəfər qadın, uşaq və ahılı doğrayaraq daşların arasına doldururlar. Daşların arasından damcı-damcı axan qan gölməçə əmələ gətirmişdir. Bir qədər aralıda isə 15 nəfər körpə cocuq, başları kəsilmiş, cəsədləri doğranmış, üst-üstə yığılmışdı. Ermənilər həmin ərazidə yaşayan bütün müsəlmanları qılıncdan keçirmişdilər (57, s.107).

Ümummilli Lider Heydər Əliyevin bu xüsusda imzaladığı məlum Prezident fərmanında deyilir:

> *"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi" (1).*

Faktlar və qaynaqlar bir daha təsdiq edir ki, 1905-1907-ci illərdə ermənilər azərbaycanlılara kütləvi şəkildə divan tutmuş, şəhər və kəndlərimizi yandırmış, uşaqları, qadınları, qocaları amansızcasına və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə İrəvan quberniyasında 200, Gəncə quberniyasında 200, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi erməni vəhşiləri tərəfindən yerlə-yeksan edilmiş, kəndlər bir yaşayış məntəqəsi kimi viran edilərək yararsız hala salınmışdır. Erməni vəhşilərindən qaçıb canını qurtaran on minlərlə azərbaycanlı öz doğma yurd-yuvasını və isti ocağını tərk etmək məcburiyyəti qarşısında qalmış, bununla da Azərbaycanda qaçqınlıq və məcburi köçkünlük prosesinin əsası qoyulmuşdur.

Beləliklə, zaman-zaman gerçəkləşdirilən və planlı şəkildə həyata keçirilən erməni niyyətləri, əslində dənizdən-dənizə, sonra isə dünya okeanlarına çıxmaq üçün "xəyali böyük Ermənistan" dövləti yaratmaq siyasətinin bir hissəsidir. Həm də bu yolda erməni millətçiləri ən iyrənc metodlardan istifadə etməkdən belə çəkinməmişlər (73, s.10).

Erməni-müsəlman qırğınlarına son qoymaq məqsədilə 1906-cı ildə Tiflisdə Qafqaz canişini Vorontsov-Daşkovun təşəbbüsü ilə sülh konfransı (məclisi) keçirilir. Həmin konfransda müsəlman nümayəndələri Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, İbrahim ağa Vəkilov, Adil xan Ziyadxanov və başqaları "Daşnaksütyun" partiyasının niyyətlərini ifşa edir, onun Qafqazda törədilən qırğınların, terrorçuluğun təşkilatçısı və icraçısı olduğunu göstərir, rəsmi hökumət dairələrinin bu təşkilatın əməllərinə göz yumduğunu sübuta yetirməyə çalışırdılar (2, s.60; 57, s.84-104).

1915-ci il mayın 14-də rus ordusu Van şəhərini elə keçirdikdən sonra, az bir vaxtda bura 250 min erməni toplaşdı. Onlar yerli müsəlman əhalisini kütləvi surətdə qırmağa başladılar. Rusların himayəsi altında Van şəhərində erməni hökuməti quruldu.

Vəziyyəti belə görən Türkiyə hökuməti, ermənilərin türk ordusuna arxadan zərbə vurmasının, terror və təxribatlar törətməsinin qarşısını almaq məqsədilə məcburiyyət qarşısında qalıb, müharibə rayonundan ermənilər ölkənin içərilərinə köçürmək (təhcir) haqqında qərar qəbul etdi. 1915-ci il mayın 28-də köçürmə işlərinə başlandı.

Qeyd etmək lazımdır ki, hərb bölgəsindən kənarda yaşayan ermənilərə köçürmə işləri şamil edilməmişdi.

Maraqlı bir faktı da burada qeyd etmək yerinə düşərdi. Məlumdur ki, 1965-ci ildən etibarən ermənilər hər il aprelin 24-nü uydurma "soyqırım günü" kimi qeyd edirlər. Onların iddiasına görə, guya, 1915-ci ildə türklər 1,5 milyon ermənini qırmışlar. Əslində isə həmin gün sadəcə olaraq İstanbulda və digər şəhərlərdə Osmanlı dövlətinə xəyanət edən erməni təşkilatlarının təcili olaraq bağlanması, onların rəhbərlərinin həbs edilməsi və sənədlərin ələ keçirilməsi haqqında daxili işlər naziri əmr vermişdi. Bundan sonra 2345 erməni xəyanətə görə həbs edilmişdi.

Burada maraqlı digər məqam da orasıdır ki, bu əmrin veriləcəyini Eçmiədzin katolikosu qabaqcadan bilirdi. Hələ aprelin 22-də ABŞ prezidentinə teleqram vurmuşdu ki, ermənilərı "türk fanatizminin özbaşınalığından xilas edin". Həmin teleqram aprelin 24-də, yəni əmr verilən gün artıq ABŞ prezidentinə çatdırılmışdı (4, s.49).

Köç haqqında qərar ermənilərin dövlət yaratmaq istədikləri ərazidə onların onsuz da az olan sayını heçə endirdi. Müstəqil erməni dövlətinin yaradılması xülyaları iflasa uğradı. Ola bilsin ki, ermənilər 24 aprel tarixini məhz elə buna görə "genosid" (soyqırım) kimi qiymətləndirirlər.

Şərqi Anadoluda müstəqil erməni dövləti yaratmaq niyyətləri baş tutmadı. Rus qoşunlarının 1917-ci il çevrilişindən sonra Türkiyə torpaqlarından geri çəkilməsi Güney Qafqazda erməni dövləti yaratmaq ideyasını gündəmə gətirdi. Birinci Dünya müharibəsi dövründə təbəəsi olduqları Türkiyəyə qarşı vuruşan ermənilər Rusiya dövlətinə xidmət göstərərək, Türkiyə daxilində ikinci cəbhə açmaq, əvəzində bu ərazilərdə muxtar dövlətçilik qurmaq məqsədlərinə çata bilmədilər. Onların bu arzusu bolşevik hakimiyyətinin ilk aylarında həyata keçdi. Bu qədər acı təcrübə ortada ikən ruslar bu dəfə də özlərinin Qafqaz siyasətinin gələcəyi üçün nə kimi yanlış yola getdiklərinin fərqində olmadılar və sonrakı tarixin də göstərdiyi kimi bəsirətsizlik etdilər.

Sovet Rusiyası Xalq Komissarları Sovetinin "Türkiyə Ermənistanı" haqqında 1917-ci il 29 dekabr tarixli dekreti meydana çıxdı *(bu dekret 1918-ci il yanvarın 15-28-də III Ümumrusiya Sovetlər qurultayında təsdiqlənmişdir).* Həmin dekretlə bolşeviklər "ermənilərin hamisi" olduqlarını və bununla da çar Rusiyasının siyasətini təkrar etdiklərini göstərdilər. Bu sənədin arxasında ermənilərin yaşadıqları türk torpaqlarında rus himayəsində oyuncaq erməni dövləti qurmaq və gələcəkdə həmin əraziləri Rusiyaya ilhaq etmək məqsədi dururdu. Lakin Birinci Dünya müharibəsinin çar Rusiyası üçün ağır siyasi nəticələri, ermənilərin iddia etdikləri "Türkiyə Ermənistanı" planlarını puça çıxardı. 1917-ci il Oktyabr çevrilişindən sonra Rusiyada hakimiyyətə gələn bolşeviklər, 1918-ci il martın 3-də Brest-Litovsk müqaviləsi ilə Osmanlı dövlətinin 1877-1878-ci illərə qədərki sərhədlərini tanıyaraq, əslində, "Türkiyə Ermənistanı" haqqında 29 dekabr 1917-ci ildə elan olunmuş dekretdən imtina etdiklərini bildirdilər.

Bundan sonra erməni millətçiləri öz dövlətlərinin məhz Qafqazda yaradılmasını cinayət fəaliyyətlərinin əsas məqsədi kimi seçdilər. Təbii ki, həmin dövlətin yaradılması qonşu torpaqlar (Azərbaycan və Gürcüstan əraziləri) hesabına təmin olunmalı idi. Erməni daşnakları bolşeviklərin siyasi hakimiyyətinə arxalanaraq Türkiyədə yarada bilmədikləri Erməni dövlətini Qafqazda Azərbaycan türklərinin dədə-baba torpaqları hesabına yaratmaq fikrinə düşdülər (3, s.61).

Ermənilərə bu niyyətlərinin həyata keçirilməsinə bir sıra amillər şərait yaradırdı. Bu amillərdən ən başlıcası Güney Qafqazda, əsasən də İrəvan quberniyasının ərazisində ermənilərin qısa bir vaxtda sayca külli miqdarda artması idi. Çünki, hələ Birinci Dünya müharibəsi dövründən başlayaraq rus qoşunlarının tərkibində Qafqaz cəbhəsində Türkiyəyə qarşı vuruşan minlərlə erməni əsgər və zabiti, habelə hər birində 10 min silahlını birləşdirən 4 erməni könüllü birliyi (drujinalar) əllərində silah Güney Qafqaza, əsasən də İrəvan quberniyasına qayıtdılar. Üstəlik, 1915-1916-cı illərdə erməni silahlı dəstələrinin Şərqi Anadoluda dinc türk-müsəlman əhalisinə qarşı törətdikləri soyqırımına cavab olaraq Osmanlı hökumətinin gördüyü tədbirlər nəticəsində 200 minə yaxın erməni qaçqının "Qərbi Ermənistan" adlandırdıqları ərazilərdən İrəvan quberniyasına köçürülməsi gələcək hərbi qarşıdurmalar baxımından ermənilərə çox böyük üstünlüklər verdi (64, s.94-95). Böyük miqdarda insan axının harada gəldi yox, məhz İrəvan quberniyasının ərazisində yerləşdirilməsi regionda erməni əhalisinin sayını qısa müddətdə dəfələrlə artırdı. İkincisi, 1917-ci il fevral inqilabından sonra erməni siyasi təşkilatları açıq fəaliyyətə keçdilər və onların nümayəndələri Güney Qafqazın bütün seçkili orqanlarında azərbaycanlılar və gürcülərlə yanaşı təmsil olundular.

Bütün bunlar ermənilərin İrəvan quberniyasında silah gücünə azərbaycanlıların yaşadıqları yaşayış məntəqələrini ələ keçirmək planlarını reallaşdırmağa şərait yaratmışdı.

1917-1920-ci illərdə İrəvan quberniyasının bütün ərazisi daşnak terror qruplarının fəaliyyət meydanına çevrilir.

1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülüb, Şamaxıda 58 kənd dağıdılmış, 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilmişdir. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə-yeksan olunmuş; əhali üzərində yaş və cinsə məhəl qoymadan qətliam həyata keçirilmişdir. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər isə öldürülmüşdür.

1918-ci ilin əvvəlindən başlayaraq erməni silahlı qüvvələri İrəvan quberniyası ərazisində yerli azərbaycanlılara qarşı kütləvi qırğınlar törədərək, mart ayınadək

İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Yeni Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kəndi, cəmi 198 kəndi darmadağın etmiş, həmin qəzalarda təqribən 135 min nəfər soydaşımızı soyqırıma məruz qoymuşdu.

Vəhşicəsinə, insan ağlına sığmayan üsullar ilə qocaların, qadınların, uşaqların öldürülməsi təkcə Türkiyə ərazisində deyil, eləcə də Ermənistanda, habelə Azərbaycanın bir çox yerlərində amansızcasına həyata keçirilirdi. "Daşnaksütyun" partiyasının geniş proqramı əsasında həyata keçirilən bu qırğınlar, əsasən, etnik təmizləmə məqsədi daşıyır, azərbaycanlılara qarşı açıq soyqırım siyasəti yeridilirdi. Hadisələrin xronologiyası dediklərimizin əyani sübutudur:

20-21 mart 1918-ci ildə erməni silahlı dəstələri Novruz bayramı günlərində İrəvan quberniyasının Pəmbək kəndinə və Pəmbək qəzasının başqa doqquz kəndinə basqınlar etmişlər. Pəmbək kəndində yaşı 13-dən yuxarı 400-dən artıq dinc sakini diri-diri yandırmışlar. Kəndlərdə üst-üstə 1000-dən çox Azərbaycan türkünü vəhşicəsinə öldürmüşlər. Təkcə Arqut kəndində 60 nəfər qətlə yetirilmiş, onlardan 12 nəfərin başı kəsilmişdir. Vartanlı kəndində isə 13 yaşından yuxarı 411 kişini tövləyə doldurараq yandırmışdılar. Həmin kənddən yalnız bir nəfər qaçaraq canını qurtara bilmişdi. Erməni silahlı dəstələri həmçinin 1918-ci ilin Novruz bayramı günlərində Əştərək yaxınlığındakı Gözəldərə kəndinə basqın etmiş, 600 nəfərdən çox sakini qətlə yetirmiş, bütün tikililəri yandırmışdılar. Həmin kənddən yalnız üç nəfər gənc qaçaraq canlarını qurtara bilmişdi.

1918-ci il mart ayının əvvəllərində güclü silahlanmış erməni qoşun birləşmələri Andranikin yaxın silahdaşlarından olan mayor Vahramın rəhbərliyi altında, 1829-30-cu illərdə Türkiyənin Bitlis, Alaşkerd, Muş, Sasun vilayətlərindən Yeni Bayazid ərazisinə köçürülmüş ermənilərin yaxından iştirakı ilə Novo-Bəyazid (Kəvər) qəzasının (bu kəndlər 1922-ci ilədək Aşağı Qaranlıq, 1926-cı ildən isə Martuni rayonunun ərazisini təşkil ediblər) Aşağı Gözəldərə, Vəli Ağalı, Qızıl Xaraba, Yanıx, Yuxarı Alçalı, Karvansara, Kəsikbaş, Mədinə, Xartlıq kəndlərinə hücum edərək, yerli sakinlər olan azərbaycanlılara qarşı insanlıqla bir araya sığmayan vəhşiliklər etmiş, qırğınlar törətmiş, onları öz ata-baba yurdlarından didərgin salmışdır. Qısa bir vaxtda boşalmış kəndlərdə, didərgin salınmış azərbaycanlı evlərinə Türkiyədən Alaşgerd vilayətindən gəlmiş ermənilər yerləşdirilmişdir. Bu kəndlər sırasındakı Mədinə kəndi öz münbit torpaqları ilə bütün quberniyada məşhur idi. Erməni qoşun dəstəsinin önündə gedən qonşu Aşağı Gedaşen kəndinin sakinləri olan ermənilər bu kənddə yaşayan 800 nəfərə yaxın azərbaycanlıya divan tutmiş, sağ qalanları kəndi tərk etməyə məcbur etmiş və boşalmış evləri zəbt edərək özləri buraya köçmüşlər.

Bu kəndləri darmadağın etdikdən sonra, 1918-ci ilin mart ayının qarlı-boranlı günlərində erməni qoşun dəstəsi İrəvan quberniyasının Göyçə gölünün cənub-qərb sahilində yerləşən, azərbaycanlılar yaşayan: Ağzıbir, Ağqala, Əyriveng, Ərzəkənd, Bığlı, Hacı Muğan, Rəxşəkənd yaşayış məntəqələrinə basqınlar etmişlər *(bu kəndlərdən 1930-cu ildə Yeni Bəyazid (Novo-Bayazid) rayonu təşkil edildi - müəllif)*, kəndləri yan-

dırmış, əhalisini isə zorla doğma torpaqlarından qaçmağa məcbur etmişlər. Erməni vəhşilərindən canlarını qurtarmağa çalışan əhalinin bir qismi Ağmağan yaylaqlarına doğru qaçmağa çalışırlar. Erməni cəlladlarının əlindən birtəhər xilas olub qaçanları isə gözlənilmədən başlayan qar-boran yollarda məhv edir, digər qismi isə Göyçə gölünün sahilində yerləşən Ağqala kəndi tərəfdən kiçik qayıqlarla Göyçə gölünün şimal-şərq sahilinə keçməyə çalışsalar da, güclü top atəşlərindən və erməni tüfənglərindən atılan atəşlərlə buz kimi suya tökülmüş, kütləvi şəkildə həlak olmuşlar.

Azərbaycan dövlət arxivinin sənədlərində 1918-ci ilin martınadək İrəvan quberniyasının müsəlman kəndlərinin qarət edilib dağılması barədəki siyahıda göstərilmişdir: *"Yeni Bəyazid qəzasının I və II milis sahəsindən aşağıdakı kəndlər göstərilən əhalisi ilə dağıdılmışdır: sıra nömrəsi 192, ümumi təsərrüfatın sayı 80, əhalisinin ümumi sayı 593 nəfər: 295 kişi və 298 qadından ibarət olan Ərzəkənd; sıra nömrəsi 193, ümumi təsərrüfatın sayı 116, əhalisinin ümumi sayı 755 nəfər: 413 kişi və 342 qadından ibarət olan Ağzıbir kəndi; sıra nömrəsi 194, ümumi təsərrüfatın sayı 112, əhalisinin ümumi sayı 658 nəfər: 338 kişi və 320 qadından ibarət olan Bığlı kəndi; sıra nömrəsi 195, ümumi təsərrüfatın sayı 62, əhalisinin ümumi sayı 424 nəfər: 218 kişi və 206 qadından ibarət olan Ağqala kəndi; sıra nömrəsi 196, ümumi təsərrüfatın sayı 96, əhalisinin ümumi sayı 706 nəfər: 380 kişi və 326 qadından ibarət olan Əyrivəng kəndi; sıra nömrəsi 197, ümumi təsərrüfatın sayı 130, əhalisinin ümumi sayı 1035 nəfər: 530 kişi və 505 qadından ibarət olan Hacı Muğan kəndi; sıra nömrəsi 198, ümumi təsərrüfatın sayı 72, əhalisinin ümumi sayı 479 nəfər: 253 kişi və 226 qadından ibarət olan Rəxşəkənd kəndi" (8, s.220).*

Həmin hadisələrin canlı şahidi olan İdris Sadıqov söyləyirdi ki, *"qarlı-boranlı bir gündə, günortadan bir az keçmiş, eşitdik ki, başda Andranik öz dəstəsi ilə olmaqla ətraf kəndlərdəki ermənilər azərbaycanlıların yaşadığı kəndlərə hücum ediblər. Erməni vəhşiliyindən, qəddarlığından xəbərdar olan yerli əhali Ağmanqan dağına tərəf qaçdılar. Məqsəb bu idi ki, hamı burada bir yerə yığışsın və Göyçə gölünün şimal sahillərinə Basarkeçərə və Çəmbərəyə getsinlər. Yollarda soyuqdan və şaxtadan 2500-dən çox qadın, uşaq, qoca qırıldı. Qarın üstündə uşaq, qadın meyidlərindən tərpənmək olmurdu. Erməni quldurları ölən qadınların paltarlarını soyundurub çılpaq halda qarın üstünə yıxır, döşlərini kəsirdilər. Öz ölülərimizə sahib durmağa, onları dəfn etməyə belə icazə verilmirdi. Çox çətinliklə, saysız-hesabsız qırğınlar verərək özümüzə yol açdıq. Ağqala kəndinin dağlıq hissəsindən gecə keçib Göyçə gölünə çatdıq. Qayıqlarla üzüb Toxlucaya, Şorcaya, Ağbulağa keçdik. Gölü keçən zaman da xeyli insan tələfatı oldu. Çünki, ermənilər arxadan topla, tüfənglə bizə atəş açır, qayıqları batırırdılar. Gölün üstü insan cəsədləri ilə dolu idi. Azərbaycanlılara edilən bu divanı heç nə ilə ölçmək olmaz" (14, s.297).*

Həmin qanlı günlərin canlı şahidlərindən biri də Hacı Muğanlı kənd sakini, sonralar Basarkeçər rayonunun Dərə kəndində yaşayan, Sədənağac kəndindən Hacı Ramazanlılardan Kübra Allahverdi qızı ilə ailə qurmuş Cəmil kişi idi. (Onun söylə-

diklərini rəhmətlik atam Qulu müəllim 1974-cü ildə öz gündəliyində qeydə almışdır). O söyləyirdi:

"Erməni qoşununun Aşağı Qaranlıq rayonunun kəndlərinə hücum xəbəri ildırım sürətilə Bəyazid qəzasının bütün kəndlərinə yayıldı. Bizim yaşadığımız Hacı Muğan kəndi böyük kəndlərdən biri idi. Kənddə 1000-dən çox azərbaycanlı yaşayırdı. Ermənilərin hücum xəbərini alan kənd camaatı müdafiə tədbirləri görməyə başladılar. Silahı olan sakinləri bir yerə yığıb özünümüdafiə dəstələri təşkil etmişdilər ki, onlar gecələr kəndin keşiyində dursunlar. Kənd camatının bir çoxu arvad-uşağı, qocaları Ağqala kəndinə aparmağa çalışırdı ki, oradakı xırda qayıqlardan istifadə edərək Göyçə gölünün şimal sahillərinə keçə bilsinlər. Lakin, erməni quldurları hiylə işlədərək kənd camaatını aldatdılar. Gecə ilə kəndə hücum edib kəndi mühasirəyə aldılar və kənd camaatının çox hissəsini qaçmaq imkanından məhrum etdilər. Səhər açılanda xəbər göndərdilər ki, əgər müsəlmanlar silahları yerə qoysalar, heç kimə toxunulmayacaq, onlara kəndi sərbəst surərdə tərk etmək imkanı veriləcək. Bu yalana uyanlar çox oldu. Onlar onsuz da az olan silahları yığıb ermənilərə təhvil verdilər. Ancaq silah verməyənlər də oldu. Onlar da atışa-atışa Ağqala kəndinə qaçmağa çalışırdılar. Erməni cəlladları kənddə qalan silahsız sakinlərin arasındakı cavan qızları, qadınları seçib başqa yerə apardılar. Sayı 200-dən çox olan: qocaları, uşaqları, cavan oğlanları isə kənddəki bir neçə iri "qara dama" doldurub qapılarını bağladılar və söz verdilər ki, sabah sizi buraxacağıq. Hava qaralmağa başlayanda gördük ki, evləri otla, bəlimlə örtürlər. Başa düşdük ki, evlərə od vurmağa hazırlaşırlar. Hamı təlaş içində necə xilas olmağı düşünürdü. Mən də cavanların arasında idim. O vaxt mənim 17 yaşım təzəcə tamam olmuşdu. "Qara damın" bir qapısı tövləyə açılırdı. Mən həmin qapıdan tövləyə girdim və tövlədə dərin bir at axırının içinə girib gizləndim. Bu zaman hər yer işıqlandı. Başa düşdüm ki, evi yandırıblar. Ev tez alışıb gurhagur yanmağa başladı. İnsanların ah-naləsi, uşaqların, qocaların, qadınların qışqırtısı bütün Ağmanqan dağına yayılmışdı. Ev yandıqca dağılmağa başladı, tavandakı karanlar tökülürdü, qapı da yanmışdı. Xilas olmağa çalışan insanlar özlərini bayıra atıb xilas olmağa çalışırdılar. Lakin çöldə dayanan cəlladlar onları güllələyərək məhv edirdilər. Ermənilər hər tərəfdən yanan evi gülləyə tutmuşdular, bayıra çıxanları güllə ilə vuraraq öldürürdülər. Alovun təsiri azalmışdı. Artıq evin tavanındakı karanlar da aşağı tökülmüşdü. İçəridə qan su yerinə axırdı. Mən bir neçə meyidi çəkərək tövlədəki axıra saldım. Özüm isə onların arasında gizləndim. Bir müddət keçəndən sonra bir neçə silahlı erməni əsgərləri içəri doluşdular. Adamları bir-bir təpiklə vurur, sağ və ya

ölü olmalarını yoxlayırdılar. Yaralıları, salamat qalmış adamları güllə ilə vuraraq öldürürdülər. Mən meyidlərin altına girdim və ermənilər mənim sağ qaldığımı başa düşmədilər. Xeyli gözlədim, səs-səmir kəsilmişdi. Yavaşca meyidlərin altından cıxdım. Ətrafı dinlədim. Evin kilarında kimsə zarıyırdı. Ehtiyatla ona yaxınlaşdım. Bu 15-16 yaşında bir oğlan idi. Evin tavanı yananda karanların üstündəki torpaq döşəməyə töküləndə onu altına almışdı. Buna görə də erməni qaniçənləri onu görməmişdilər. Mən yavaşca qazıyıb onu torpağın və karanın altından çıxardım. Həmin oğlana tapşırdım ki, ehtiyatla və səs salmadan arxamca gəlsin. Yenə tövləyə qayıtdıq. Axırın üstündən aşaraq evin divarının üstünə çıxdıq və yavaş-yavaş qaçmağa başladıq. Mən yolları yaxşı tanıyırdım. Əvvəllər Ağqalaya tez-tez gedirdim. Bir neçə saat dayanmadan qaça-qaça Ağqala kəndinin Göyçə gölünün sahili olan hissəsinə çıxdıq. Mən bilirdim ki, kəndin gölə tərəf hissəsində qayalıqlar arasında bir mağara var. Kənd camaatı həmişə bu mağarada balaca taxta qayıq gizləyirdilər ki, lazım olanda istifadə edə bilsinlər. Qayığı mağaradan çıxarıb suya saldıq. Lakin heç birimiz kürək çəkməyi bacarmırdıq. Əvvəlcə əllərimizlə, sonra isə kürəklə avar çəkməyə başladıq. Hava artıq işıqlanmağa başlayırdı. Sahildən biz xeyli aralanmışdıq. Birdən bizi atəşə tutdular. Başa düşdük ki, Ağqala kəndini də ermənilər tutublar. Lakin sahildən çox aralı olduğumuzdan bizə güllə çatmadı. İşıqlaşanda gördük ki, ətrafımızda suyun üzərində onlarla insan cəsədi üzür. Biz çox qorxduq, yanımdakı uşağın qorxudan dili tutulmuşdu, bir söz belə deyə bilmirdi. Axşama yaxın Göyçə gölünün şimal sahilindəki Ada təpə deyilən yerə çıxdıq. Oradan isə Ağbulaq kəndinə qohumlarımızın yanına qaçdıq..."

Qeyd etdiyimiz hər iki epizod daşnak quldurlarının, erməni vəhşilərinin Yeni Bəyazid qəzasında törətdikləri cinayətlərin nə qədər qəddarlıqla, amansızlıqla, insanlığa yaraşmayan hərəkətlərlə törədildiyini sübut edir.

1918-1920-ci illərdə erməni qoşun hissələri tərəfindən vəhşicəsinə, insan ağlına sığmayan ölüm üsulları tətbiq etməklə, qocaların, qadınların, uşaqların öldürülməsi ilə törədilmiş qanlı hadisələrin qısa xronoloji təsviri sübut edir ki, azərbaycanlılara qarşı soyqırımı siyasəti təkcə Göyçə mahalının kəndlərini yox, qədim İrəvan torpağının, habelə Qafqazın bir çox yerlərində Azərbaycan türkləri yaşayan əksər bölgələri tarixi zamanlar fərqi ilə əhatə etmişdir. "Daşnaksütyun" partiyasının geniş proqramı əsasında həyata keçirilən bu qırğın, əsasən, etnik təmizləmə məqsədi daşıyırdı.

Həmin hadisələrin qısa xronoloji təsvirinə keçməzdən əvvəl, qeyd etmək vacibdir ki, Ermənistan ərazisində azərbaycanlılara qarşı soyqırımı siyasəti 1916-cı ildə Dərələyəz mahalının bir çox kəndlərinin ermənilər tərəfindən yandırılması ilə başladı.

1917-1918-ci illərdə isə bu mahalın bir sıra kəndlərinin əhalisi ermənilər tərəfindən amansızcasına qırılmışdır. Dərələyəz mahalında quldurluqda, azərbaycanlıların qanına susamaqda ad çıxarmış Yaponun dəstəsi Zeytə, Qabaqlı, Qurdqulax, Yengicə, Əmağu kəndlərinin əhalisinə hiylə işlədərək qalib gəlmişdi. Kənd camaatının birliyini qıra bilməyən Yapon onlarla barışıq etdiyini, daha vuruşmayacağını bildirmiş və bütün kəndlərdən silahları yığdırmışdı. Sadəlövh kənd camaatı silahları təhvil verdikdən sonra aldandıqlarını başa düşür. Yapon verdiyi barışıq vədini pozur, qadınları və uşaqları kişilərdən ayırır, onlara işgəncələr verdirməyə başlayır. Ermənilər qadınları soyundurub musiqi səsləri altında yallı getməyə məcbur eləyiblər. Oynamayanları yerindəcə doğrayıblar. Kişiləri soyundurub sağ və sol nahiyyələrdən budunu kəsib əlini də kəsilən yerə qoydurub soruşurmuşlar: hə, necədi təzə şalvarın? Kişilərin və qadınların böyük bir hissəsini kəndin ayağında olan, hündürlüyü təxminən 200 metr olan Arpa qayasından aşağı atıblar. Şahidlərin dediyinə görə 2 min adamdan, cəmi iki nəfər sağ çıxıb. Bir kişi və bir qadın. Qarahaça kəndinin aqibəti daha ağır olub. Ermənilər 500-dən artıq kənd sakinini bir yerə yığıb qılıncdan keçiriblər, zavallı, müdafiəsiz əhalinin bir qismini isə böyük bir dama doldurараq od vurub yandırıblar. Samson və Matos Qazaryan qardaşlarının vəhşilikləri bu günə qədər yerli azərbaycanlı əhalinin yaddaşındadır. Bu vəhşilər körpə uşaqları süngüyə keçirir, yuxarı qaldıraraq yerə vururmuşlar (5, s.43).

Erməni qoşun birləşmələrinin azərbaycanlı kəndlərinə hücumları 1918-ci ilin əvvəllərindən etibarən güclənməyə başladı.

1918-ci il yanvar ayının 6-dan 9-na qədər Zəngəzur qəzasının Qarakilsə, Mülk, Pilkənd kəndləri yerlə-yeksan olundu, dinc kənd sakinləri amansızlıqla qətlə yetirildi.

1918-ci il yanvar ayının 17-də Naxçıvanın Əznəbürd kəndində yuva qurmuş daşnak terrorçuları azərbaycanlıların evlərinə hücum etmiş, 22 nəfər dinc, silahsız kənd sakini qətlə yetirilmişdir.

1918-ci il yanvar ayının 25-də Mülkədərəli Avşar və Cilanlı Markarın başçılıq etdiyi daşnak terror qrupu Cəbrayıl qəzasının Eyvatlı kəndinə basqın etmişdir. Evlər talan edilmiş, mal-qara qovulub aparılmışdır. Girov götürdükləri kənd sakini Hüseyn Allahverdi oğlunu Xələf dağının gündoğan üzündəki daşarmud ağacına sarıyıb bədənindən nişangah kimi istifadə edərək qətlə yetirmişlər (22, s.150).

1918-ci il aprel ayının 29-da 500 araba ilə Gümrüdən Axılkələyə qaçan 3000-ə qədər qadın, qoca, uşaq və kişi öldürülərək yox edilmişdir.

1918-ci il may ayının 1-də yüzə qədər erməni atlısı Şiştəpə və Düzkənd ətrafında (indiki Amasiya rayonunun ərazisində) altmış uşaq, qadın və kişini qırmışlar.

1918-ci il iyun-avqust aylarında erməni qoşun birləşmələri Naxçıvanda, Zəngəzurda, Göyçay, Ağdaş, Hacıqabul, Nuxa, Quba rayonlarında öz vəhşiliklərini davam etdirmiş, kəndləri talan edib dağıtmış, çoxsaylı qətliamlar törətmişlər.

1918-ci ilin payız aylarında cəllad tayqulaq Andranikin başçılığı altında qoşun birləşmələri Göyçə gölünün şimal-şərq sahilində yerləşən və Gəncə quberniyası-

nın ərazisi olan (Göyçə mahalı) kəndləri tutmaq üçün bir neçə istiqamətdən hücuma keçir.

Əsas hücum istiqamətlərindən biri də Dilican dərəsindən başlayaraq Qaraqoyunlu dərəsinə çıxmaq, oradan isə Göyçə gölünün şimal-şərq sahili boyunca irəliləmək seçilmişdi.

Qeyd etmək lazımdır ki, həmin vaxtda Göyçə mahalının şimal-şərqində Göyçə gölü sahilləri boyunca yerləşən azərbaycanlı kəndlərinin əhalisi doğma torpağın müdafiəsi üçün mütəşəkkil müdafiə dəstələri yaratmışdılar. Bu dəstələrin hərbi sursatla təchizatı ermənilərə nisbətən çox zəif idi. Lakin buna baxmayaraq, Toxlucadan Cığal Həsən, Topal Oruc, Ardanışdan Məşədi Hümbət, Dəli İsmayıl, Cildən Abutalıb oğlu Cavad (Cilli Cavad), Qaraimandan Məşədi İsə, Zoddan Səməd ağa, Kor Hümbət, Sədənağacdan Yekə Vəli, Bağıroğlu Usuf, İbrahimoğlu Nəsib, Şişqayadan Kor Tanrıverdi, Daşkənddən Hacı Rəhim, Məşədi Qasım, Qayabaşından Zəvvar Kərbəlayı Əfsər, Qaraqoyunludan Haxoy, Kərbəlayı Cəfər, Yaqublu dərəsindən (Gədəbəy) Məcid ağa Şəkibəyov, Gədəbəyin Qala kəndindən Seyid Abuzərin rəhbərlik etdikləri özünümüdafiə dəstələri ilə düşmənə qarşı qəhrəmanlıqla döyüşür, "təpədən-dırnağadək" müasir silahlarla silahlanmış erməni ordusunu vahiməyə salırdı. Azərbaycanlılardan ibarət özünümüdafiə dəstələri düşmənə tutarlı müqavimət göstərsələr də, onun qarşısını tam ala bilmirdilər.

Başqa kəndlərdə olduğu kimi, Sədənağac kəndinin də əli silah tutan oğulları doğma torpağın müdafiəsində yaxından iştirak etmişlər.

Erməni təcavüzü ilə əlaqədar olaraq döyüş qabiliyyəti olan kişilər bir yerə yığışaraq hərbi özünümüdafiə dəstəsi yaratmışdılar. Kənd camaatının xeyli silahı vardı. Bu dəstəyə Gədəbəyin Düzyurd kənd sakini, çar ordusunun təqaüddə olan mayoru Seyid Abuzər də qoşulmuşdu. Göyçənin təhlükə altında olduğunu eşidən bu namuslu, vətənpərvər, cəsur və qorxmaz insan ətrafına döyüş qabiliyyətli bir qrup Gədəbəy sakinini toplayaraq Göyçəyə köməyə gəlmişdi.

Göyçə mahalının şimal-şərq hissəsindəki kəndlərin əksəriyyəti: Ağbulaq, Toxluca, Cil, Ardanış, Babacan, Pəmbək, Dərə, Sədənağac özünümüdafiə dəstələri təşkil etmişdi. Bu dəstələr gecələr kəndlərin keşiyini çəkir, doğma torpağı qoruyur, gündüzlər isə Sədənağac kəndi ilə Şişqaya kəndi arasında Seyid Abuzərin rəhbərliyi altında hərbi təlimlər keçir, ordu nizam-intizamına yiyələnir, müxtəlif silahlardan istifadə qaydalarını öyrənir, atıcılıq məharətini məşq etdirirdilər. Qısa bir vaxtda nizam-intizamlı, döyüş qabiliyyətinə malik hərbi dəstə yaranmışdı. Bu dəstə Sədənağac və Şişqaya kəndləri arasında döyüş istehkamları qurmuşdu.

Sədənağac kəndindən Kərbəlayı Məhəmməd oğlu Vəli (Yekə Vəli), Bağıroğlu Usuf və Nəsib qardaşları, İbrahimoğlu Nəsib və Qəşəm qardaşları, Rüstəmoğlu Qoşunalı, Oruc və Sarı qardaşları, İbrahimoğlu Sayad, Cəliloğlu Bilal, Məhəmmədoğlu Allahverdi, Məhərrəmoğlu Nağı, Hacı oğlu Səməd, Mikayıl oğlu Abbas, Çəkmələlər tayfasından Cəmil oğlu Teymur, Mustafa oğlu Xıdır, Şəmil oğlu Qara və

onlarla başqaları özünümüdafiə dəstəsinin tərkibində erməni quldurlarına qarşı döyüşlərdə şücaətlə döyüşmüşlər. Bu döyüşlərin canlı şahidi olan Xıdır Mustafa oğlu söyləyirdi ki, Yeprem adlı bir erməni Vəli Kərbalayı Məhəmməd oğlunun evində həmin günlərdə qonaq qalır. Yaxşı yeyib-içəndən sonra Vəli kişi onu sorğu-suala tutanda Yeprem dilindən qaçırır ki, Aşağı Qaranlıq kəndindən *(Yeni Bəyazid qəzası, sonralar Martuni rayonunun mərkəzi)* Sədənağac kəndinin üstündəki Yolçıxandan aşaraq dağ yolu ilə Şamxor rayonunun *(indiki Şəmkir rayonu - müəllif)* Bada *(indiki Ələsgərli - müəllif)* və Barsum *(indiki Çaykənd - müəllif)* kəndlərində yaşayan ermənilər üçün bir neçə at yükü silah aparacaqlar. Ermənini bir az da içirəndən sonra silah aparılan günü və dəqiq vaxtını öyrənəndən sonra Vəli Məhəmməd oğlu bu silahları ələ keçirmək üçün kənd özünümüdafiə dəstəsinin üzvləri ilə birlikdə plan hazırlayır. Silah gətirilən gecə "Kərkibaşın komu" deyilən yerdə pusqu qurub bu silah karvanını tuturlar, ermənilərdən 61 ədəd tüfəng və xeyli başqa sursat qənimət olaraq ələ keçirilir və həmin an da özünümüdafiə dəstəsinin əsgərləri arasında bölüşdürülür.

Yaxşı silahlanmış müdafiəçilərimiz erməni dəstələrindən birinin Ağkilsədə istirahət etdiyini öyrənirlər. *(Bu Aşıq Ələsgərin yaşadığı Ağkilsə kəndi deyil, bu Göyçə gölünün şimal-şərqində, sahil sularına çox yaxın bir yerdə yerləşən və VII əsrə aid olan qədim Alban kilsəsidir. Şişqaya kəndindən Gilli çayına doğru təxminən 3 km məsafədə yerləşir - müəllif)*. Nizami daşnak qoşunu gecə ikən üç tərəfdən mühasirəyə alınır. Səhər açılar-açılmaz qızğın döyüş başlayır, daşnaklar böyük itki verərək Zağaya (Basarkeçərdə erməni kəndi) doğru qaçmağa başlayırlar. Xeyli tüfəng, iki hərbi araba və bir kiçik çaplı top qənimət götürülür. Bu döyüşdə Sədənağac kəndinin igid oğulları xüsusilə fərqlənmişlər (32, s.130).

1918-ci ilin sonlarında düşmən Dilican dərəsində Qazaxa tərəf ən axırıncı, azərbaycanlılar yaşayan Haqqıxlı kəndini yandırıb dağıtdıqdan və bir neçə saat ərzində 71 adamı qəddarlıqla məhv etdikdən sonra Qaraqoyunlu dərəsinin Polad və Salah kəndləri istiqamətində hücuma keçirlər. Bu hücum xəbəri qısa bir vaxtda bütün mahala yayılır. Göyçə mahalının bir çox kəndlərindən buraya köməyə gəlirlər. Tez bir zamanda düşmən hərəkəti istiqamətində gözləmədiyi müqavimətlə qarşılaşır, ağır tələfat verərək geri oturulur. Polad və Salah kəndləri ətrafındakı döyüşdə Qaraqoyunlu camaatı ilə yanaşı, Göyçənin və Şınığın yaxın kəndlərindən çoxlu kömək gəlmişdi. Xüsusilə, Yaqublu dərəsindən Məcid ağanın, Göyçədən Cığal Həsənin, Topal Orucun, Məşədi Hümbətin, Dəli İsmayılın başında gələn dəstələr böyük şücaət göstərmişlər. Cığal Həsənin və Topal Orucun dəstəsi bir gündə 74 erməni qaniçənini məhv etmişdi. Bunu görən, mükəmməl silahlanmış nizami qoşun hissəsi ermənilərin köməyinə gəlir. Qaraqoyunlu dərəsində qabağı kəsilən daşnak qoşunu strateji manevr keçirərək Göyçə gölünün şimalına Çubuqlu istiqamətindən hücum etməyi qərara alır (33, s.59-60).

Şaxtalı, qarlı qış aylarından istifadə edən daşnak quldur dəstələri bütün Göyçə gölü boyunca həm şimal-şərqdən, həm cənub-qərbdən Basarkeçərə doğru hücumlar təşkil edir, nəyin bahasına olursa-olsun, Gəncə quberniyasına məxsus bu tor-

paqlarda yaşayan azərbaycanlı əhalini doğma ev-eşiyindən qovmaq, buraya başqa yerlərdən ermənilər köçürmək planını həyata keçirməyə çalışırdılar.

1919-cu il yanvar ayının 24-də Pilimyan və Hişanyanın başçılıq etdikləri, güclü silahlanmış daşnak terror hərbi hissələri Yeni Bayazid qəzasının (Göyçə mahalının) Çamırlı kəndinə basqın edərək kəndi dağıtmış, dörd kişinin başını, altı qadının döşlərini kəsərək on nəfər dinc sakini vəhşicəsinə qətlə yetirmişlər. Kənd əhalisinin çox hissəsi mal-qarasını, var-dövlətini ataraq qaçıb başqa kəndlərə getmişlər. Bu hadisədən dörd gün sonra, yanvar ayının 28-də, həmin qoşun hissəsi Yuxarı Zağalı kəndinə basqın edir. Azğınlaşmış düşmən 15 nəfər kənd sakinini qətlə yetirir və 311 nəfər əhalisi olan kəndi darmadağın edir. Öldürülənlər arasında qadınlar və uşaqlar da var idi.

1919-cu il fevral ayının 2-də azğınlaşmış erməni hərbi dəstələri Göyçə gölünun cənub-qərb sahilləri tərəfdən Basarkeçərə doğru hərəkətə başlayırlar. Azərbaycan Respublikasının sərhədini keçərək Gəncə quberniyasının kəndlərinə hücum edirlər. Qızılvəng, Subatan, Yarpızlı və digər kəndləri darmadağın edir, evləri yandırır, dinc əhaliyə divan tuturlar (22, s.156).

Bu hadisə "Azərbaycan" qəzetinin 9 fevral (27 yanvar) 1919-cu il 30-cu sayında belə təsvir edilmişdir: *"Yeddi gün bundan əvvəl Qulu adlı bir kəndli bizim Qaraiman kəndinə gəlib bildirdi ki, zabitlər Filimonov və Nişanevin başçılığı ilə erməni dəstələri gecə Qızılvəng, Subatan və Zağalı kəndlərini mühasirəyə aldılar. Guya pristav çağırır bəhanəsilə bütün kişiləri kənddən çıxardılar, özləri isə kəndi talan etməyə başladılar. Kəndlilər yalvarıb xahiş etdilər ki, nə istəsələr, onların tələbini ödəyərlər, təki onları azad etsinlər. Cavabında ermənilər bildirdilər ki, iki-üç müsəlman kəndini məhv etməklə biz qisas almaqdan doymarıq. Əgər biz 30 kənd də dağıtsaq, bu, sentyabr ayında Bakının kiçik bir küçəsində axıdılan erməni qanı və qurbanları ilə müqayisə edilə bilməz" (22, s.297-298).*

1919-cu il fevral ayının 5-də daşnaklar Daşkəndə hücum edir və 21 dinc sakini qətlə yetirirlər. Bu kəndi darmadağın etdikdən sonra qonşu Şorca kəndinə basqın edən cəlladlar kənddəki kişilərin böyük bir qismini qılıncdan keçirmiş, uşaqları isə yanan təndirlərə ataraq məhv etmişlər, 8 cavan qadını isə kənddən aparıb 20 gün saxlamış, şərəflərinə toxunduqdan sonra buraxmışlar.

"Azərbaycan" qəzeti həmin dövrdə Göyçə mahalının Şorca kəndində başına min bir müsibət gətirilmiş bir qadının məlumatına əsaslanaraq yazır ki, ermənilər bu kənddə bütün kişiləri qırmış, uşaqları təndirə ataraq yandırmış, sonra isə bütün kənddən 8 nəfər qadın seçərək özləri ilə aparmışlar. Bu zavallıları 20 gün saxlayıb şərəfini alçaltdıqdan sonra buraxmışlar (6).

Yeni Bəyazid qəzasında daşnakların hərəkətini dayandırmaq, işğal edilmiş kəndləri onlardan geri qaytarmaq məqsədilə Seyid Abuzərin və Cilli Cavadın başçılığı ilə Cil, Ardanış, Ağbulaq, Toxluca, Babacan, Pəmbək, Hacı Qərib *(Sədənağac - müəllif)* və başqa kəndlərin özünümüdafiə dəstələri Basarkeçər ətrafındakı kəndlə-

rin camaatına kömək etmək məqsədilə bu istiqamətdə irəliləyirlər. 200 nəfərlik dəstəni Böyük Məzrə kəndində Məşədi İsa qarşılayır. Bura toplaşan əhali doğma kəndlərinin müdafiəsi üçün böyük mütəşəkkillik nümayiş etdirir. Dəstə komandirləri razılaşırlar ki, Daşkənd kəndini ermənilərdən geri almaq lazımdır. Bu məqsədlə də döyüş planı hazırlanır. Razılaşmaya görə, səhər Məşədi İsanın başçılığı ilə ətraf kəndlərin camaatı da köməyə gəlir. Daşkənd, Qoşabulaq, Məzrə istiqamətində döyüş xətti seçilir. Səhər tezdən Basarkeçər istiqamətində daşnaklara qarşı hücum başlayır. Döyüş çox ciddi şəkil alır. Daşnaklar təsəvvür etməzdilər ki, belə bir qüvvətli dəstə ilə qarşılaşmalı olacaqlar. Ona görə də bu döyüşdə tab gətirə bilməyib Qaranlıq-Kəvər istiqamətində mövqelərini itirərək geri çəkilirlər. Çaxırlı, Qızılvəng, Yarpızlı, Zağalı, Alçalı və başqa bir neçə azərbaycanlı kəndləri quldurlardan azad edilir. Daşnaklar xeyli itki verərək qaçmağa üz qoyurlar. Çoxlu hərbi sursat və vəsait qənimət götürülür (61, s.178).

Bu məğlubiyyətə baxmayaraq erməni komandanlığı Göyçə gölü ətrafındakı bütün kəndləri ələ keçirmək üçün fəaliyyətini gücləndirir, erməni ordusunun bəzi hissələrini yenidən Basarkeçərdə cəmləşdirməyə başlayırlar. Ərazilərin Azərbaycana aid olmasına baxmayaraq, Ermənistanda qurulmuş daşnak hökuməti - "Ararat Respublikası" Basarkeçər kəndində Hayrapetyan Ağacanın evində öz nümayəndəliyini yaradır və özlərini hökumət nümayəndəsi kimi qələmə verərək, azərbaycanlı kəndlilərdən vergi adı altında ərzaq toplamağa başlayırlar. Eyni zamanda daşnaklar azərbaycanlılar yaşayan kəndlərə pinəçi, dərzi, bənna, dülgər libası altında pərdələnmiş daşnak casuslarından ibarət emissarlar qrupu göndərirlər. Bu qrupun əsas vəzifəsi kəndlərdəki imkanlı və silahlı adamları, silahların miqdarını təyin etmək və "barışıq" şüarı altında azərbaycanlıları sakitləşdirib arxayın salmaq, silahlı özünümüdafiə dəstələrinin arasında nifaq yaratmaq idi.

Sədənağac kəndinə də Tatevosyan Ohancan adlı bir erməni dərzi gəlmişdi. Bu casus kənddəki silahları və silahlı adamları təyin etməli və rəhbərliyə xəbər verməli idi. Kənd ağsaqqallarının söylədiklərinə görə, o vaxtlar kənddə silah çox az adamda var idi. Silahların qiyməti çox baha olduğundan: "rus beşaçılanı" və ya "osmanlı mauzeri" iki inəyə dəyişdirilirdi, hər adam silah əldə edə bilmirdi (32, s.129).

Həmin dövrdə daşnak ordusunun qarşıya qoyduğu əsas məqsəd, əsrlərlə bu torpaqlarda yerli xalq olaraq yaşayan Azərbaycan türklərini öz doğma torpaqlarından qovmaq, boşalmış evlərə isə başqa ölkələrdə yaşayan ermənilər köçürmək və beləliklə də bu ərazilərin hesabına torpaqlarının sahəsini artırmaq idi. Lakin daşnak ordu rəhbərləri yerli sakinlərin güclü müqavimətinə rast gəlincə başa düşdülər ki, silah gücünə bu işin öhdəsindən gəlmək heç də asan olmayacaq. Ona görə də öz döyüş taktikalarında dəyişiklik etmək məcburiyyətində qaldılar. Bu məqsədlə, dinc əhali arasında "barışıq" ideyasını yaymağa başladılar. Güya ki, döyüşlər dayandırılır, yerli əhaliyə daha toxunulmayacaq, sülh bağlanacaq və ona görə də əhali silahları dövlə-

tə təhvil verməlidir. Ortalığa atılan bu ideya dinc əhalini sakitləşdirmək, onların silahlarını yığmaq və sonra da silahsız insanlara divan tutmaq üçün bir hiylə idi.

Təəssüflər olsun ki, o zaman özünümüdafiə dəstələrinə başçılıq edən rəhbərlər arasında bu fitvaya uyanlar çox olmuşdur. Ona görə də müqavimət hərəkatında müəyyən çaşqınlıq yaranır. Çoxları döyüşməkdən imtina etmək, silahını təhvil vermək qərarına gəlir. Demək olar ki, 1919-cu ilin mayına qədər özünümüdafiə dəstələrinin əksəriyyəti silahlarını yerə qoyur. Bundan səmərəli şəkildə istifadə edən daşnak ordusu bölgədəki kəndləri ələ keçirmək üçün hücumlarını daha da gücləndirir.

Fevral ayının 6-da erməni qoşunları azərbaycanlılar yaşayan Hüseynquluağalı kəndinə basqın edirlər. 29 kişi, 10 qadın, 12 uşaq işgəncələr verilməklə qətlə yetirilir, cəsədləri eybəcər hala salınır, gözləri çıxarılır, qulaqları kəsilir, 37 evə od vurub yandırırlar (106, s.31).

1919-cu il fevralın 28-də rotmistr Silikov və qardaşı, kornet Xaçaturov və adyutantı 57 əsgərlə müsəlman kəndlərindən ərzaq yığmaq üçün Basarkeçərə gəlir və birinci olaraq Zod kəndinə girirlər. Kəndin koxası Yunis bəy Silikovu və onun dəstəsini Qərbi Azərbaycanda, Naxçıvanda, Gəncədə adı hörmətlə çəkilən mesenat Səməd ağanın evinə aparır. Onlar yeyib-içəndən sonra Silikov Yunis bəyə bildirir ki, kənd camaatı daşnak ordusu üçün 40 xalvar taxıl, 12 araba ot verməlidir. Kənd ağsaqqalları götür-qoy edərək, ermənilərin tələbini yerinə yetirməməyi, Silikovu və onun dəstəsini öldürməyi qərara alırlar. Çünki Basarkeçərli Avanes ağanın qızı məlumat vermişdi ki, onlar türkləri qırmağa gəliblər. Ona görə də aranı qatmağa bəhanə axtarırlar.

Məşədi İsa, Hacı Rəhim, Məşədi Qasım, Səməd ağa, Kor Hümmət, Cavoy, Molla Həşim, Pullu Abbas, Mehralı oğlu Məhəmməd, Əkbər oğlu Həsən, Kalvayı Cəfər, Ələsgər oğlu Bəşir, Dəli Bayram və başqalarının iştirakı ilə bu daşnak dəstəsi məhv edilir. Daşkəndli Hacı Rəhim Silikovun başını kəsərək Daşkəndə gətirir və ac itlərə atır (19).

Bu hadisə daşnak ordusunun azərbaycanlılara qarşı olan qəddarlığını daha da artırır. Azğınlaşmış və güclü silahlanmış daşnak dəstələri yenidən Aşağı Qaranlıq istiqamətindən hücuma keçirlər.

1919-cu il mart ayının 14-də erməni ordusu Basarkeçərə gələrək, oradan Zod kəndini top atəşinə tuturlar. Ermənilər böyük qüvvə ilə kəndə hücuma keçirlər. Bu zaman qüvvələrin qeyri-bərabərliyini nəzərə alan kənd ağsaqqalları qərara gəlirlər ki, camaat təcili kəndi tərk etməlidir. Kəndin cəsur oğulları Kor Hümbət və Əkbər Molla Əli oğlu bir neçə həmkəndlisi ilə kəndin kənarında Qaratəpədə, Uçuq kilsə deyilən yerdə yolu kəsirlər, uzun müddət ermənilərlə atışırlar, onları kəndə yaxın qoymurlar. Camaat kənddən tam uzaqlaşdıqdan sonra dərə ilə çapıb aradan çıxırlar. Zod camaatı Zod aşırımından Söyüdlüyə, Dəmirçidamına, İstibulağa keçə bilir.

Həmin qaçhaqaç vaxtı Kəlbəcərlə Zod arasında Dardərə deyilən yerdə yüzlərlə adam qara-borana düşür, minlərlə mal-heyvan qırılır. Ona görə həmin dərə el arasında "Sümük tökülən" dərə adlanmışdır (19).

Artıq həmin vaxtda Basarkeçər ətrafı kəndlərin əhalisinin çox hissəsinin Kəlbəcər, Gədəbəy, Daşkəsən, Şamxor (Şəmkir), Qazax və başqa bölgələrə köçməsinə baxmayaraq, daşnaklar Göyçə özünümüdafiə dəstələrinin fəallarını ələ keçirmək və onlardan intiqam almaq üçün bütün imkanlardan istifadə etməyə çalışırdılar.

Yuxarıda qeyd etdiyimiz kimi, "barışıq" ideyasını ortalığa atan ermənilər Göyçə ağsaqqallarını Basarkeçərli zərgər Avanes ağa və başqa ermənilərin adı ilə Basarkeçərə çağırırlar. Ermənilərin bu "sülh" təklifini müzakirə etmək üçün özünümüdafiə dəstələrinin başçılarının bir çoxu Şişqayaya Kor Tanrıverdinin evinə məşvərətə toplaşırlar (61, s.180).

Yığıncaq zamanı ümumi razılığa gəlmək mümkün olmur. İştirakçıların bir qismi, başda Cilli Cavad olmaqla, ermənilərin "sülh" təklifinə inanmadıqlarını bildirir və "barışığı" rədd etmək fikrini irəli sürürlər. Başda Səməd ağa olmaqla Aşıq Nəcəf, Kor Tanrıverdi və digər bir neçə nəfər müvəqqəti də olsa barışıq əldə etməyə üstünlük verirlər və ermənilərin "sülh" təklifini qəbul edirlər.

Göyçə ağsaqqallarından sülh təklifinin fırıldaq olduğunu israr edən və "barışıq" əleyhinə çıxan iclas iştirakçıları öz kəndlərinə qayıdırlar. Səməd ağa isə 11 nəfərlik dəstəsi ilə: Aşıq Nəcəf, Kor Tanrıverdi, Səməd ağanın bir neçə qohumu: Məsim, Rza, Baba, Şişqayadan Məhərrəm Allahverən oğlu, Bala Məzrədən Saleh Mustafa oğlu (qardaşı Vəzir Mustafa oğlu imtina edir, getmir) Basarkeçərə, ermənilərlə görüşməyə gedirlər (61, s.180). Ermənilərlə döyüşlər başladığı ilk günlərdən bu adamlar "barışıq" fitvasına uymuşdular və güman edirdilər ki, həqiqətən də ermənilər barışmaq istəyirlər. Ona görə ağsaqqalların etirazına baxmayaraq ermənilərin dəvətini qəbul edirlər. Səməd ağa bir neçə qoç götürüb, Məsim, Baba və Rza ilə Avanes ağanın evinə, onların "qızıl yumurta" bayramını təbrik etməyə gedirlər. Səməd ağanın Basarkeçərə gəlməsini əvvəlcədən bilən daşnak qoşun başçısı polkovnik Hələbyan onların həbsi barədə əmr verir. Həbs olunanlardan Məsimi, Rzanı və Babanı "Tülkü təpə" deyilən yerdə güllələyirlər. Kor Tanrıverdini, Aşıq Nəcəfi, Bala Məzrəli Saleh Mustafa oğlunu isə Basarkeçərə gətirib işgəncə ilə öldürürlər (19).

Aşıq Nəcəfi 2 gün ac-susuz çalıb-oxumağa məcbur etmişlər. Sonra isə Çaxırlı kəndi ilə Basarkeçər kəndləri arasındakı Kültəpə adlanan yerdə ağır işgəncə ilə qətlə yetirirlər. Belə ki, onun kürəyinə qaynar samovar bağlayaraq küləyin əks istiqamətində qaçmağa məcbur etmişlər. Səməd ağanın isə bu hadisəyə ürəyi davam gətirmir.

1919-cu il mart ayının 18-dən 19-na keçən gecə, ilaxır çərşənbəsi günü, Polkovnik Hələbyanın başçılıq etdiyi daşnak terror dəstələri Sədənağac kəndindən 7 km məsafədə yerləşən Şişqaya kəndində xususi qəddarlıq aktı törətmişdir. 650 nəfər dinc, əliyalın kənd sakinini "barışıq" adı ilə iclas keçirmək üçün bir neçə iri mal tövləsinə, evlərə doldurараq yandırmışlar.

Bu yerdə oxucuların diqqətinə bir əhvalatı çatdırmaq istəyirəm. Həmin əhvalatı Qumu nənə *(kəndin yaşlı sakinlərindən biri, Hacı Ramazanlılar tayfasından, Qumu Hacı Rza qızı)* 1974-cü ildə mənə ilk dəfə olaraq danışmışdı, sonralar isə Şişqaya kəndindən soyadını unutduğum meşə idarəsinin işçisi, Minəvvər xaladan eşitdim.

1919-cu ilin mart ayının 18-də, Sədənağac kənd sakini, mahalda "loğman" kimi tanınan və həkimlik fəaliyyətilə məşğul olan Hacı Rza Ramazan oğlu qanlı faciənin törədildiyi zaman, Şişqaya kəndində olmuşdur.

Erməni qaniçənlərinin əlinə keçməmək üçün Sədənağac kəndinin camaatı 1919-cu ilin mart ayının ortalarından başlayaraq, dağ yolu ilə Gədəbəyə və dağların bu tərəfindəki digər bölgələrə köçməyə başlamışdılar. Mart ayının 18-dək kənd artıq boşalmışdı. Sonuncu olaraq Hacı Rzanın ailəsi və başqa bir neçə ailə də həmin gün dağ yolu ilə kəndi tərk edirlər. Yolda Hacı Rza onlardan ayrılaraq, ağır bir xəstəsinə baş çəkmək üçün Şişqaya kəndinə getməli olduğunu bildirir. Ailəsindən ayrılaraq onu "Böyükyoxuşun" başında gözləmələrini tapşırıb Şişqaya kəndinə gələn Hacı Rza, heç nədən xəbərsiz halda kəndə girir. Kənddə onu erməni daşnak quldurları qarşılayıb atdan düşürür, sorğu-suala tutaraq kim olduğunu, nə üçün gəldiyini soruşurlar. Hacı Rza özünü təqdim edib həkim olduğunu və nə məqsədlə gəldiyini bildirir. Hacı Rzanı daşnakların başçısının yanına gətirirlər. Quldurların başçısına polkovnik deyə müraciət edildiyini Hacı Rza eşidir. Həmin polkovnik qolundakı bir yaranı göstərərək onu necə müalicə etməyi soruşur. Ondan bəzi məsləhətlər alan həmin "polkovnik" Hacı Rzanı da camaatla qarışıq, kişilər olan bir evə salmağı əmr edir. Sonralar Hacı Rzanın söylədiklərinə görə həmin gün hava çox soyuq idi. Erməni quldurları kənddə saysız-hesabsız tonqallar yandırıb ətrafında isinir, qaranlığın düşməsini gözləyirdilər.

Hacı Rza tələyə düşdüyünü hiss etmişdi. Bu qaniçənlərin əlindən necə qurtarmağı düşünür, yollar axtarırdı. Bir xeyli düşündükdın sonra məni "belqovnikin" yanına aparın, ona vacib bir şey deməliyəm, deyə hay-küy salan Hacı Rzanı həmin zabitin yanına gətirirlər. Hacı Rza onun yarasını bəhanə gətirərək, ona əlavə məsləhətlər verməyə çalışır və hətta onu müalicə edə biləcəyini bildirir. Söhbət əsnasında ondan axşam namazının vaxtı olduğunu bildirərək namaza icazə verməsini xahiş edir. Quldurların başçısı öz əşgərlərinə göstəriş verir ki, bu kişini boş evlərin birinə salın və ona namaz qılmağa mane olmayın. Erməni quldurları onu yaxındakı bir evə buraxırlar. Hacı Rza həyətə çıxanda görür ki, kəndin hər bir yerində güclü tonqallar yanır. Erməni quldurları dəstə-dəstə yığışaraq tonqalların ətrafında oturub öz ağalarından əmr gözləyirdilər.

Hacı Rza göstərilən evə daxil olduqda orada xeyli qadın, kişi olduğunu görür. Danışıqlardan Hacı Rza başa düşür ki, kənd camaatı da bu gecənin nə qədər dəhşətli bir gecə, bəlkə də kənd camaatı üçün sonuncu gecə olduğunu artıq hamı bilir. Evdəki qadınlar astadan ağlayır, xilas olunmaqları üçün Tanrıya dua edir, kişilər isə

dinmədən bir-birlərinə baxır, necə xilas olmağı düşünürdülər. Bu məqamda bayırda güclü yağış başlayır. Yağan yağış çox güclü olduğundan bütün tonqalları söndürür. Hacı Rza astadan hamıya sakit olmağı və onu dinləmələrini xahiş edir. Bir az keçdikdən sonra hamı Hacı Rzanın qaçmaq planına qoşulur.

Qara dama bitişik tövlədə təzəcə doğmuş bir at var idi. Hacı Rza atın ayağına keçə bağlatdırır, qışqırmaması üçün qulunun və atın ağzını bağlayırlar. Qadınlar qiymətli nə varsa ata yükləyirlər. Evlərə keşik çəkən quldurlar yağışdan qorunmaq üçün boş evlərə, tövlələrə doluşmuşdular. Bu da qaçmaq planı üçün əlverişli bir məqam yaradırdı.

Hacı Rza bayıra çıxır, ətrafı nəzərdən keçirir, yağış bir az da güclənmişdi. Keşikçilərin nə özləri görünür, nə də səsləri gəlirdi. Hacı Rza işarə verir, adamlar bir-birinin ardınca səs salmayaraq sakit-sakit Hacı Rzanın arxasınca getməyə başladılar.

Bir xeyli keçmişdi. Yağış hələ də yağırdı. Bu da qaçanların işini xeyli asanlaşdırmışdı. Dəstədəki iki körpəni büküb atın üstündəki yükə bağlamışdılar. Hamı tələsirdi, qətl yerindən uzaqlaşdıqca sabaha ümid artırdı. Dəstə Göyçə gölünün sahilinə çatanda qaçanlar başa düşdülər ki, xilas olunublar. Səhərə yaxın onlar Dərə kəndinin ərazisinə çatdılar. Hacı Rza burada xilas etdikləri insanlara bildirir ki, Böyükyoxuşun başında ailəsi onu gözləyir. Bir az dincəlib ailəsi ilə birləşmək üçün yoluna davam edəcək. Ölümdən təzə qurtarmış insanlar isə bir dəqiqə də olsun vaxt itirməyərək Babacan kəndinə, qohumlarının yanına tələsirlər.

Dərə kəndində qaçanlar ayrılırlar. Hacı Rza Səməd ağanın "komu"nda bir az istirahət edərək üst-başını qurudur və "Böyükyoxuş"da ailəsinin onu gözlədiyi yerə gəlir. Oradan isə Gədəbəyə aşırlar.

Hacı Rzanın söhbətindən sonralar məlum olur ki, onun xilas etdikləri adamların arasında Cəfər kişi (Qara Cəfər ləqəbi ilə tanınırdı) də olub. Onun nəvəsi Cavanşir Zalov sonralar uzun müddət Sədənağacda kolxoz idarə heyətinin sədri vəzifəsində işləmişdir.

Səhərisi gün məlum oldu ki, gecə erməni qaniçənləri bütün kənd camaatını məhv edib. Bir gecənin qurbanı 650-dən çox uşaq, qadın - dinc mülki insanlar idi. Ermənilər kənd camaatını yığıncaq adı ilə evlərə doldurduqdan sonra qapıları arxadan bağlayaraq onları bayıra buraxmamış, gecə yağış dayanandan sonra evlərin bacasından çoxlu yaş ot yandırıb içəri töküblər. Qara damların bacasını bağlayaraq acı tüstünün bayıra çıxmasının qarşısını alaraq kənd camaatını dəm qazında boğublar, evlərin bəzilərini oradakı insanlarla birlikdə yandırıblar.

Martın 19-da səhər tezdən daşnaklar Sədənağac kəndinə hücum edirlər. Ancaq kənddə heç kimi və heç nəyi tapa bilməyərək, bir neçə evi yandıraraq geri qayıdırlar.

Sədənağac kəndinin əhalisi bu azğınlaşmış, qudurmuş erməni köpəklərinin dişlərinə keçməmək üçün, yuxarıda qeyd etdiyimiz kimi, 1918-ci ilin payızından başlayaraq dağ yolu ilə "Böyükyoxuş"u aşaraq ailələrini: qocaları, uşaqları, qadın-

ları Gədəbəyin Qala kəndinə, oradan isə Şəmkirə, Daşkəsənə, Gəncə şəhərinə, Tovuz mahalının kəndlərinə köçürmüşdülər.

Bu qaçqınlıq zamanı başqa kəndlərə nisbətən Sədənağac kəndinin itkiləri az olmuşdur. Əvvəlcədən görülmüş hazırlıq, dağ yolunun yaxınlığı onların köməyinə gəlmişdir. Əhali arasında ölüm-itim az olub. Ancaq Mirzalılar tayfasından İmamalı Məmmədvəli oğlunun adını müəyyənləşdirə bilmədiyimiz həyat yoldaşı və üç yaşlı oğlu "Böyükyoxuş" dağ aşırımında şaxtada donaraq həlak olmuşlar.

1919-cu ilin martın 23-də güclü silahlanmış daşnak qoşun dəstəsi mayor Bahramın başçılığı altında Böyük Məzrə, Kiçik Məzrə, İnəkdağı, Sarıyaqub kəndlərində kütləvi qırğınlar törədərək minlərlə dinc insanı - qadınları, qocaları, uşaqları məhv etmişlər.

Kiçik Məzrə kəndində, bəşər tarixində analoqu olmayan vəhşiliklər edən erməni cəlladları 90 nəfər adamı diri-diri su quyularına tökərək daş-qalaq etmişdilər.

Erməni müəllifi A.A.Lalayan özünün 1936-cı ildə Moskvada nəşr etdirdiyi "Əksinqilabçı Daşnaksütyun və 1914-1918-ci illərin imperialist müharibəsi" məqaləsində daşnakların törətdikləri bu vəhşiliklər haqqında yazmışdır: "Yeni Bayaziddən olan Bahram adlı bir daşnak "qəhrəmanı" 1920-ci ildə öz "igidliyini" belə təsvir edir: *"Mən Basar-Keçərdə (Basar-Keçər Ermənistanın rayonlarından biridir - Lalayan A.), türk əhalisini heç bir şeyə fərq qoymadan məhv edirdim deyə, - "daşnak başkəsəni" özünü tərifləyir. Amma bəzən gülləyə heyfim gəlirdi. Bu itlərə qarşı ən yaxşı vasitə odur ki, döyüşdən sonra salamat qalanların hamısını yığıb su quyularına doldurasan və üstlərinə də ağır daşlar tökəsən ki, onlardan daha əsər-əlamət qalmasın. Mən, - bandit davam etdi, - elə də etdim: Bütün kişiləri, qadınları və uşaqları quyulara doldurub üstlərinə daş tökməklə məhv etdim ..." (93, s.87).*

1919-cu ilin fevral-mart aylarında Çubuqlu istiqamətindən Basarkeçərə doğru hərəkət edən erməni qoşun birləşmələri Basarkeçərdə cəmləşmək, Göyçə gölü ətrafı bütün kəndlərə yiyələnmək planını reallaşdırmağa başlamışdır. Mart ayının əvvəllərində daşnaklar Ağbulaq kəndini dağıdırlar, kənd əhalisi Qaraqoyunlu dərəsi ilə Qazax istiqamətində qaçmağa məcbur olur. Bir neçə gün sonra, Toxluca kəndi ermənilər tərəfindən güclü top atəşinə tutulur, kənddəki bütün evlər dağıdılır, talan edilir.

Aprel ayında erməni qoşunları hücuma keçərək Cil, Ardanış, Babacan kəndlərini darmadağın edərək Basarkeçər istiqamətində irəliləyir.

Dağlıq zolağın 5-ci sahəsinin müsəlman əhalisi üzrə müvəkkili İsmail Sultanovun 1919-cu ilin may ayında Gəncə qəzası rəisinin adına göndərdiyi məlumatdan çıxarış:

> *"Bu ilin 13 aprel tarixindən başlayaraq Ararat respublikasının qoşunları Göyçə rayonunun Yeni Bəyazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişlər. Məqsəd, Göyçə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləməkdir.*

Hal-hazırda 60000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhalisi isə qırılmışdır. Bədbəxt müsəlman əhalisi, Göyçə müsəlmanlarını qırmağı qarşısına məqsəd qoymuş və bunu yerinə yetirən erməni qoşunlarının ateşləri ilə rəhmsizcəsinə məhv olur. Erməni hökumətinin və ermənilərin keçmiş qonşularına və təbəəliyində olan müsəlman vətəndaşlarına qarşı belə vəhşiliklərini gördükdə adam dəhşətə gəlir. Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə sağ buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edir, bəzi qadınları və yeniyetmə qızları çıxmaq şərtilə, uşaqları, qocaları və gəncləri öldürürlər: əhalinin malı, dövləti acgöz erməni qoşunları tərəfdən ələ keçirilib, öz aralarında bərabər bölüşdürülür, sağ qalanlar isə qoşunlar tərəfindən təqib edilir, çox az miqdarda adam Gəncə qəzasının beşinci sahəsinin kənarlarına axışıb gəlir. Qalan 17 kəndin sakinləri isə Cavanşir qəzasının dağlıq hissəsinə qaçır, daha doğrusu, 7-8 kəndin sakinləri erməni qoşunları tərəfindən təqib olunan Gəncə qəzasının 5-ci sahəsinin qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb kütləvi şəkildə məhv olurlar. Ararat respublikasının məsələsi artıq həll olunub, artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hal-hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22-i aprel ayının 1-20 tarixlərində dağıdılmışdır: Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Soğanqulu-Ağalı, Ağkilsə, Zod, Qulu Ağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzəbil, Canəhmədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Böyük Məzrə, Şişqaya, Baş Hacı, Qərib, (burada Hacı Qərib-Sədənağac kəndi nəzərdə tutulmuşdur, lakin onun adını təhrif etmişlər - müəllif), *kəndlərinin 15 mindən artıq əhalisi bütün malını, dövlətini başlı-başına buraxıb qaçmışdır. Bütün bu mal-dövlət hal-hazırda ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir" (8, s.304-305).*

Q.Muradyan erməni hökumətinin Göyçə gölünün şimal sahilində olan azərbaycanlı kəndlərini dağıdan bandit dəstələrinin bədii təsvirini verərək yazmışdır: *"...Bizim hökumətin gördüyü tədbirlər nəticəsində... bu kəndlərin (Toxluca, Ağbulaq, Ardanış və b.) əhalisi Ermənistanın sərhədlərini tərk etmişdir. Mən sahibsiz qalan kəndləri gördüm, orda bir neçə pişik, habelə sarsıdıcı sakitlikdən heyrətlənən itlərin qəribə şəkildə uladığını gördüm. Bu kəndlərin əhalisi çox böyük sahələrdə kartof, buğda və arpa əkini qoyub getmişlər. Hökumət bu kəndlərdən iki milyon pud buğda və yarım milyon pud kartof götürə biləcək" (46, s.41).*

Yeri gəmişkən, ermənilərin bu soyqırım siyasəti bir çox erməni müəllifləri tərəfindən təsvir edilmiş, hadisələrin xronoloji qaydada gedişatı qeydə alınmış və bunların arxasında kimlərin dayandıqlarının açıqlanmasına cəhdlər edilmişdir.

Erməni müəllifi A.A.Lalayan özünün yuxarıda qeyd etdiyimiz "Əksinqilabçı *"Daşnaksütyun"* və 1914-1918-ci illərin imperialist müharibəsi" məqaləsində yazır: *"Könüllülər" hərəkatı qana həris hmbabetlər (Andranik paşa, Hamazasp və başqaları) başda olmaqla daşnak dəstələrinin türk qadın və uşaqların, qoca və xəstələrin məhv edilməsində maksimum "cəsarətlilik" göstərməsi ilə səciyyələnir. Daşnak dəstələrinin tutduqları türk kəndləri canlı insanlardan "azad olunur" və eybəcər hala salınmış meyitlərlə doldurulmuş xarabalıqlara çevrilir".*

Həmin müəllif "Daşnaksütyun Partiyasının İnqilabda rolu" məqaləsində yazırdı: *"Daşnaksütyunun diktatorluğu dönəmində (1918-1920) qeyri-erməni əhalisinə qarşı qanunsuzluqlar baş verirdi. Daşnaksütyunun "fikri" erməni torpaqlarında yaşayan azərbaycanlıları və kürdləri məhv edərək ölkəni "ermənileşdirməkdi".*

Beləliklə, A.Lalayan daşnak könüllülər hərəkatının nəticələrindən birinin on minlərlə türk əməkçisinin qırılması ilə nəticələndiyi qənaətinə gəlir.

Lalayan daha sonra yazır: *"Ermənilər tərəfindən azərbaycanlıların qırılması çoxdan başlamış, dövlət siyasəti səviyyəsinə qaldırılmış və Azərbaycanın hüdudlarından kənara çıxmışdır. Onda təəccüblənməyə dəyərmi ki, ancaq Ermənistanda daşnak hökuməti "özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918 - noyabr 1920) azərbaycanlı əhalinin 60 faizini qırmışdır.*

İki il yarımlıq hökmranlığı dövründə Daşnaksütyun Ermənistanda yaşayan azərbaycanlıları öldürüb yağmalayaraq, kənd və qəsəbələrə od vurub yandırırdılar.

1918-1919-cu illərdə daşnak hökuməti "dövlətin tələblərini yerinə yetirmədilər" bəhanəsi ilə azərbaycanlı və kürd kəndlərinin insanlarını bombaladı (həmçinin erməni kəndlərini də bombaladı). 1920-ci ildə isə ermənilər fəhlə və kəndlilərinin may qiyamının yatırdılmasından sonra Daşnaksütyun "müsəlmanlar bizim düşmənimizdir" şüarı altında azərbaycanlı və kürd kəndlərini bombalayaraq sadə insanları məhv etdi" (94, s.164).

Digər erməni müəllifi T.Haçikoğlyanın Sovet Ermənistanı Qızıl Ordu atıcı diviziyasının 10-cu ildönümü münasibəti ilə Qızıl Ordu tərəfindən nəşr edilən kitabçasında yazırdı: *"Şərəfsiz daşnak "cümhuriyyəti"nin qısa dövründə Azərbaycan, Gürcüstan və Türkiyə ilə aparılan döyüşlərdə daşnakların qanlı əlləri ilə minlərlə türkü məhv etdikləri, kəndlərini yandırıb külə çevirdikləri Zəngəzur, Şərur, Dərələyəz, Meğri, Ağbaba, Zəngibasar, Böyük Vedidəki türk kəndlərində yaşanan vəhşiliklər, qətliamlar, soyğunçuluqlar hələ də yaddaşlardan silinməyib.*

Əsgərlərdə yaltaqlıq, keyfiyyətsizlik, çalıb-çapmaq, başqasının hesabına yaşama, günahsız və çarəsiz insanları öldürmə psixologiyası kök atmışdı" (132, s.165).

1918-ci ilin mayından 1920-ci ilin noyabrına qədər hakimiyyətdə olan Daşnak hökuməti azərbaycanlıların qanına susamışdı. Bu müddətdə onlar 440-dan artıq azərbaycanlı kəndini yandırıb məhv etmiş, yüz minlərlə azərbaycanlının qaçqına çevrilməsinə səbəb olmuşdular. 1920-ci ilin əvvəllərinə kimi 220 mindən çox azər-

baycanlı daşnak siyasətinin qurbanına çevrildi. 1919-cu ilin noyabr-dekabr aylarında Türkiyəyə və İrana 250 minə qədər qaçqın axışıb getmişdi.

Azərbaycan parlamenti 1919-cu il yanvarın 8-də İrəvan quberniyası əhalisinin bir qrupunun və İrəvan millət vəkillərinin bəyanatını müzakirə etdi. Bəyanatın sonunda deyilir: *"İrəvan quberniyasının bütünlüklə müsəlmanlar yaşayan hissələrinin tarixi, məişəti və digər cəhətlərdən Azərbaycanın ayrılmaz hissəsini təşkil etdiyini, bu ərazinin zorla müsəlmanlardan təmizlənməsi və erməni qaçqınlarının buraya köçürülməsinin yolverilməz olduğunu, bu ərazinin müqəddəratının sülh konfransı tərəfindən həll olunacağını nəzərə alaraq biz İrəvan quberniyası müsəlmanlarının aşağıda adları göstərilən nümayəndələri möhtərəm cənab sədr, sizdən xahiş edirik ki, İrəvan quberniyası müsəlman əhalisinin cismani məhvinin qarşısını almaq üçün tədbirlər görəsiniz."*

1919-cu ilin martın sonlarında bütün cəbhə boyu üstünlüyü ələ alan erməni caniləri aprelin 13-dək Göyçədə 61 kəndi dağıdıb viran qoymuş, minlərlə Azərbaycan türkünü qəddarcasına məhv etmişlər.

Yeni Bəyazid qəzasının 26 azərbaycanlı kənd icması nümayəndələrinin 1919-cu il martın 26-da keçirdikləri yığıncağında Azərbaycan hökumətinə və xalqına qəbul olunmuş müraciətdə qeyd edilirdi: *"Ararat Respublikasının qoşunları, erməni şovinist və quldur dəstələri tərəfindən dəfələrlə dinc müsəlman kəndlərinə hücumlar edilərək kəndlər dağıdılır, sakinlərin başlarına görünməmiş müsibətlər açılır və qeyri-insani hərəkətlərlə təhqir edilirlər. 270-dən çox müsəlman kəndi dağıdılmışdır ki, bundan başlıca məqsəd İrəvan quberniyasında qalan müsəlman əhalisini sıxışdırıb tamamilə qovmaqdan ibarətdir. Müsəlman qardaşlar! Sonuncu dəfə sizə müraciət edirik. Ümidsiz vəziyyətimizi nəzərə alın, nə ilə kömək etmək mümkündürsə bizə kömək edin. İrəvan quberniyası ərazisində qalan 60 minlik bədbəxt müsəlman əhalisinin tiran, şovinist daşnaksakanlar tərəfindən məhv edilməsinə yol verməyin" (54).*

4 iyun 1919-cu ildə Azərbaycan Xarici İşlər nazirinin müavini A. Ziyadxanov Ermənistandakı diplomatik nümayəndəsi M. Təkinskiyə göndərdiyi məktubda Fövqəladə Parlament Komissiyası yaratmaq üçün İrəvan qubernıyasında ermənilərin törətdikləri qırğınlar barədə məlumat toplamağı tapşırır. İyunun 23-də Azərbaycan Xarici İşlər naziri əvəzi Adil xan Ziyadxanov Ermənistan XİN-ə göndərdiyi teleqramda qaçqınlar probleminin həlli üçün və Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması üçün hər iki respublikanın nümayəndələrindən ibarət qarışıq parlament-hökumət komissiyasının yaradılmasını təklif edir. 25 iyun 1919-cu ildə Ermənistan XİN Azərbaycan hökumətinə göndərdiyi cavab məktubunda bildirir ki, Ermənistanla Azərbaycan arasında mehriban qonşuluq münasibətləri qurulması üçün Azərbaycan hökumətinin təklifini qəbul edir və hökumətlərarası qarışıq parlament komissiyasının yaradılmasına razıdır. Hər iki tərəfdən 2 nəfər və müttəfiq dövlətlərin nümayəndəsinin iştirakı ilə yaradılacaq komissiya Azərbaycanda ermənilərin və

Ermənistanda müsəlmanların vəziyyətini yoxlamaq məqsədilə təşkil edilir. Əslində, Ermənistan hökumətinin bu cavabı Azərbaycan hökumətinin başını diplomatik yazışmalarla qatmağa xidmət edirdi.

1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra, dekabr ayında Rusiyanın bilavasitə səyi və təkidi nəticəsində Zəngəzur, Göyçə, Dərələyəz mahalları və yuxarıda göstərdiyimiz bir çox ərazilər, rəsmən Ermənistan ərazisi elan olundu.

1918-ci il 15 iyul tarixdə Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən Ələkbər bəy Xasməmmədovun rəhbərliyi altında yaradılan, əvvəl Xarici İşlər, sonra Ədliyyə nazirliyi yanında fəaliyyət göstərən, Fövqəladə Təhqiqat Komissiyası İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı soyqırımı törədildiyini təsdiq edən çoxlu sayda sənədlər toplamışdır. Aparılan gərgin əməyin nəticəsində müəyyən edilmişdir ki, İrəvan quberniyasında 211 azərbaycanlı kəndi amansızlıqla talan edilib yandırılmışdır. Təkcə İrəvan bölgəsində azərbaycanlılar yaşayan 88 kənd dağıdılmışdır. Daşnak hakimiyyətinin "Türksüz Ermənistan" yaratmaq siyasətinin nəticəsi olaraq, İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir (7, s.409-410).

1918-ci ildə Sədənağac kəndini tərk edən sakinlərin sayı 360 nəfər idi. 1921-ci ildən başlayaraq onlar geri qayıtmağa başladılar. Kənddə həyat yavaş-yavaş bərpa olunurdu. 1922-ci ildə kənd əhalisinin sayı 300 nəfərə çatdı. Geri qayıdan əhali tez bir zamanda təsərrüfat işlərinin bərpasına qoşuldu. Yandırılıb dağıdılmış evlər bərpa olundu, kənd təzədən canlandı və inkişaf etməyə başladı. Zahiri bir sakitlik yarandı. Lakin bu sakitlik müvəqqəti idi.

Azərbaycan türklərinə qarşı deportasiya siyasətini "dostluq", "qardaşlıq" və "beynəlmiləlçilik" pərdəsi altında aparan erməni millətçiləri fürsət axtarır, əlverişli şəraitin yaranmasını gözləyirdilər.

1930-1937-ci repressiya illərində də Ermənistanda yaşayan azərbaycanlılara qarşı güclü təzyiqlər başladı. 50 minə yaxın azərbaycanlı repressiyaya məruz qalaraq həbs edilmiş, Qazaxıstan və Sibir çöllərinə sürgün edilmişlər (50, s.135).

Repressiya "maşını" Basarkeçər rayonunda da yüksək sürətlə işə salındı. Əvvəlcə rayonun milis şöbəsi tərəfindən kolxoz quruluşuna, dövlətin siyasətinə qarşı "zidd çıxan" insanların siyahısı tərtib edildi. Rayonun 38 kolxozundan 157 nəfərin tutulması haqda qərar verildi. Bu adamların 85 %-ni azərbaycanlılar, 15%-ni isə ermənilər təşkil edirdi (51, s.103).

Yeri gəlmişkən, ağsaqqalların söylədiklərinə görə repressiyaya uğrayan azərbaycanlıların əksəriyyəti daşnaklara qarşı döyüşən, doğma torpaq uğrunda misilsiz xidmətlər göstərmiş vətən övladları idi. Əllərinə girəvə düşmüş ermənilər 20-ci illərdə azərbaycanlılardan tam qisas ala bilmədikləri üçün indi fürsəti əldən vermədilər. Repressiyanın gedişində Zod kəndindən 15, Nərimanlı kəndindən 10, Qaraiman

kəndindən 8, başqa kəndlərdən 2-3 nəfər olmaqla dəyərli şəxslər həbs edildilər (51, s.104).

Sədənağac kəndindən Vəli Kərbəlayı Məhəmməd oğlu (Yekə Vəli) və ana babam Yusif Bağır oğlu xalq düşməni kimi həbs edilərək "gedər-gəlməzə" göndərildilər. Çünki kəndin bu cəsur oğulları 1919-cu ildə erməni daşnak dəstələrinə qarşı qəhrəmanlıqla vuruşmuş, Ağkilsə ətrafında böyük bir erməni hərbi dəstəsinin məğlub edilməsində misilsiz xidmət göstərmişdilər. Bu haqda yuxarıda məlumat vermişik. Onların bu hərəkətlərini kommunist libası geymiş daşnaklar heç cür yaddan çıxara bilməmişdilər. Ona görə də fürsət düşən kimi intiqam aldılar. 1956-cı ildə ölümlərindən sonra bunların hər ikisinə "bəraət" verildi. Məlum oldu ki, millətin "Türk" adının "Azərbaycanlı" adlandırılması vaxtı etiraz etdiklərinə görə iki nəfər ermənin - kənddə nalbənd işləyən Y.Assaryan və A.Akopyanın izahatı əsasında təqsirləndirilib həbs edilib və gedər-gəlməzə göndəriliblər (32, s.93).

Erməni millətçilərinin 1905-1906-cı, 1918-1920-ci illərdə həyata keçirdikləri kütləvi qırğınlara, 1930-1937-ci il repressiya aksiyalarına baxmayaraq, azərbaycanlılar Ermənistan ərazisinin, demək olar bütün sərhəd boyu rayonlarında yaşayırdılar. Torpaqlarının münbitliyi ilə digər rayonlardan fərqlənən İrəvan şəhərinin ətraf rayonlarında da əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Daşnak libasını "kommunist" bileti ilə əvəz edən Ermənistan rəhbərliyinin qarşıya qoyduğu ən başlıca məqsəd azərbaycanlıları həmin torpaqlardan qovmaq idi. Bu məkrli siyasəti həyata keçirmək üçün ermənilər hay-küy salaraq, xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi planını Stalinlə razılaşdırdılar.

1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsatətini əsas götürərək SSRİ hökuməti xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsi işinin təşkili haqqında qərar verdi. Bu qərardan sonra, 1946-cı ildə 50,9 min, 1947-ci ildə 35,4 min erməni daimi yaşamaq üçün Sovet Ermənistanına gəldi. Ermənistan hökuməti onların yerləşdirilməsini gecikdirərək bəhanə edirdilər ki, Ermənistanın kiçik ərazisində xaricdən gələn ermənilərı yerləşdirmək üçün yer çatışmır, şərait yoxdur. Azərbaycanlıları kütləvi şəkildə bu torpaqlardan köçürməklə ermənilər və onların Moskvadakı havadarları məsələnin həllini tapdılar.

Bu məqsədlə Moskvaya müraciət edən ermənilər tez bir zamanda istədiklərinə nail oldular. Stalin SSRİ Nazirlər Soveti adından 23 dekabr 1947-ci ildə "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar qəbul etdi. Azərbaycan SSR Nazirlər Soveti bu qərara müvafiq olaraq 2 fevral 1948-ci ildə köçürülmə haqqında qərar qəbul etdi. Həmin qərarda göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipi əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər So-

vetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər. 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarı 150 min azərbaycanlının tarixi-etnik torpaqlarından - indi Ermənistan adı altında yaradılmış respublikadan deportasiya edilməsində erməni millətçilərinə əsas verdi.

1948-ci il yeni faciələrin başlanğıc ili oldu, "köçürülmə" planı Ermənistanda yaşayan azərbaycanlılara qarşı yeni genosid proqramının əsasında dayandı.

1948-1953-cü illərdə "könüllü" köçürülmənin üç mərhələ: I mərhələ 1948-1950, II mərhələ 1951-1952-ci illər, III mərhələ 1953-cü il üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdu.

Lakin "könüllü köçürülmə" elə birinci mərhələdən uğursuzluqlara düçar oldu. Köçürülənlərin qəbulu üçün hazırlıq işlərinin qeyri-qənaətbəxş olması, köçürülənlərin əksəriyyətinin əsasən Ermənistanın dağlıq rayonlarında yaşadıqlarından, hədsiz dərəcədə isti olan Muğan çöllərində kütləvi surətdə yoluxucu xəstəliklərə tutulması, Kür-Araz ovalığı rayonlarında yaşayış evlərinin olmaması, torpağın yararlı hala salınmaması əhalini çıxılmaz vəziyyətə saldı. Köçürülmədən imtina halları çoxaldı. Bir çox rayonlarda əhali Azərbaycanın dağlıq rayonlarına, xüsusən Dağlıq Qarabağa köçmək arzularını bildirdilərsə, buna nail ola bilmədilər.

Köçürülmə işini tezləşdirmək məqsədilə Ermənistanda dövlət komissiyası yaradılmışdı. Komissiyanın tərkibinə həmin dövrdə Ermənistanda rəhbər vəzifələrdə işləyən azərbaycanlılar da daxil edilmişdi. İrəvan şəhər Spandaryan rayon Soveti İcraiyyə Komitəsinin sədri Rza Şeyxzadə, Qarabağlar rayon komitəsinin katibi İbiş Abbasov, "Sovet Ermənistanı" qəzetinin redaktoru Cəfər Vəlibəyov, Keşişkənd (Mikoyan, sonralar Yeğeqnadzor) rayon partiya komitəsinin ikinci katibi Əziz Cəfərov, Basarkeçər rayon partiya komitəsinin birinci katibi Talıb Musayev həmin komissiyanın üzvü kimi əhali arasında təbliğat işi aparmağa təhkim edilmişdilər. Komissiya üzvləri köçürülməsi nəzərdə tutulan kəndlərdə olur, bu qərarın icrasının məcburiliyini xalqa başa salır, Azərbaycanda yerləşdirilməsi nəzərdə tutulan rayonlara nümayəndələr göndərir, Azərbaycan SSR Nazirlər Sovetinin köçürmə məsələləri ilə əlaqədar Ermənistan SSR-də yaradılan nümayəndəliyinin əməkdaşları ilə məsləhətləşmələr aparırdılar. İrəvan Pedaqoji Texnikumunun və İrəvan Pedaqoji İnstitutunun təhsil Azərbaycan dilində olan fakültələrinin Azərbaycana köçürülməsinə yardım etmək üçün Azərbaycan Pedaqoji İnstitutunun rektoru Əhməd Seyidov, Azərbaycan Dövlət Universitetinin rektoru Cəfər Xəndan da Ermənistana göndərilmişdilər.

Kommunist partiyasının təbliğat-təşviqat maşını işə salınıb bu köçürməni belə əsaslandırmağa cəhd göstərirdi ki, Ermənistandan köçürülən azərbaycanlılar Azər-

baycanın geniş və münbit torpaq sahələrində maddi durumlarını xeyli yaxşılaşdıra, mədəniyyət, təhsil sahəsində inkişaf edə biləcəklər. Sovet Azərbaycanında məkrli erməni kələyini heç kim dərk etməmiş, əksinə, Azərbaycandan onlarca rəsmi nümayəndə, o cümlədən Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev və digər məsul şəxslər Ermənistana gəlmiş, köçürülməsi nəzərdə tutulan kəndlərin əhalisi ilə görüşüb söhbətlər aparmış, onlar üçün Azərbaycanda lazımi şərait yaradılmasına, mənzillə, həyətyanı torpaq sahəsi ilə, ev heyvanları ilə təmin ediləcəklərinə zəmanət vermişdilər. Köçürməni Lenin-Stalin milli siyasətinin yeni bir təzahürü kimi qələmə verərək, prosesi sürətləndirməyə çalışmışdılar. Eyni zamanda Azərbaycandan gəlmiş nümayəndə heyəti Azərbaycanın daxili imkanlarının məhdudluğunu nəzərə alaraq, köçürülmə prosesinin tədricən həyata keçirilməsini Ermənistan rəhbərlərindən xahiş etmişdi. Lakin, onların bu xahişi yerinə yetirilmədi.

Qeyd etmək lazımdır ki, Basarkeçər rayonunda, o vaxtlar raykomun birinci katibi işləmiş Talıb Musayevin gördüyü tədbirlər nəticəsində, Ermənistan hökuməti bu rayondan azərbaycanlıları deportasiya edə bilmədi.

1947-ci ilin noyabr ayının 27-28-də Ermənistan Kommunist Partiyasının Mərkəzi Komitəsinin büro iclasında köçürmə ilə əlaqədar məsələlər müzakirə olunurdu. Həmin iclasda Talıb Musayev çox kəskin şəkildə köçürülmənin zərərindən bəhs edərək bu planın yanlış olduğunu sübut etməyə çalışıb deyirdi ki,"İndi Ermənistanda 100-dən çox boş kənd var. Yalnız İrəvandan 40- 50 km uzaqda olan Vedi və Qarabağlar rayonlarında 25 boş kənd var" (51. s.166). Xaricdən gələn ermənilərin bu kəndlərdə yerləşdirilməsini təklif edən Talıb Musayev güclü təzyiqlərə məruz qalmasına baxmayaraq Ermənistan Kommunist Partiyasının rəhbərliyini onunla hesablaşmağa və Basarkeçər rayonunun köçürülməsinin son mərhələyə salınmasına nail ola bildi.

Talıb Musayevin "Köçürülmə" siyasətinə qarşı bu barışmaz mövqeyini görən ermənilər, o vaxtlar Azərbaycan KP MK birinci katibi M.C.Bağırova ondan şikayət etmişdilər. 1948-ci ilin yanvar ayında M.Bağırov Talıb Musayevi Bakıya görüşməyə dəvət etdi və onu çox sərt-soyuq qarşılayaraq: "Sənin neçə başın var ki, mənim, Arutyunovun, yoldaş Stalinin mövqeyinə qarşı çıxırsan? Nə üçün camaatı qoymursan köçüb gəlsin" (51, s.167-168) suallarını verdi.

Talıb Musayev Bağırova ermənilərin bu köçürmə planının arxasında hansı məkrli fikirlərin gizləndiyini, "köçürülmə" işini ermənilərin necə hiyləgərliklə təşkil etdiklərini, azərbaycanlılara məxsus ictimai əmlakı necə mənimsəmələrini izah etdikdən sonra Bağırovun ona qarşı münasibəti dəyişdi və "nə istəyirsən?" sualını verdi.

"....Yoldaş Bağırov, bizim camaat dağlıq və dağətəyi rayonda yerləşir. 1919-cu ildə daşnaklar onları qırıb qovan zaman sağ qalan ailələr əsasən Kür-Araz sahillərində yerləşmişdilər. Onlardan çox böyük miqdarda ailələr qırıldı. Ona görə də xahiş edirəm imkan dairəsində bizim camaatı dağ-

lıq-dağətəyi rayonlarda yerləşdir. Nə vaxt deyirsən, o vaxt da köçək gələk. Əgər mənə inanmaq istəyirsənsə, Xanlarda boş nemes (alman) evləri var. O evləri ver bizə. Oraya bir kəndi tez köçürdüm. Dedi, razılıq verirəm, ora köçürəcəyin kəndin rəhbərlərini mənim yanıma göndər. Mən sonra dedim: Yoldaş Bağırov, bizdə Qaraqoyunlu kəndi var. Bu kənd Basarkeçərdən 20 km, Kəlbəcərdən 8 km aralı yerləşir. Onların 8 min baş qoyunu, 1000 baş malı, 150 baş atı var. Mən bu əmlakı necə ermənilərə verim. Qoy onlar da Kəlbəcərə baxsın - o əraziyə tabe olsun. Bu suala başqa yolla razılıqla cavab verdi" (51, s.169).

Bağırov Xanlar rayonu ərazisinə köçürüləcək kəndin rəhbərlərinin onun yanına göndərilməsini tapşırdı. T.Musayev rayona qayıdan kimi Zod kənd soveti sədri Bala Hacıyevi və ilk partiya təşkilatının katibi Gürzalı Nəsirovu Bakıya, Bağırovun qəbuluna göndərir. Bağırov onları qəbul edir və Xanlar rayonundakı boş alman evlərinə köçməyə icazə verdi. Zod camaatının bir hissəsi, təxminən 100 ailə, Xanlar şəhərinə gəlib həmin boş evlərdə məskunlaşdılar.

1948-ci ildə ermənilər əməli işə keçərək "köçürməni" tezləşdirmək məqsədilə Qarabağlar rayonunu ləğv edib onu Vedi rayonu ilə birləşdirdilər, hər iki rayonun Azərbaycanlı katib və icraiyyə komitəsinin sədrləri vəzifədən uzaqlaşdırıldı. Birləşmiş Vedi rayonuna milliyyətcə erməni olan rəhbərlər təyin edildi.

Respublikanın 7 rayonunda olan 7 ikinci və üçüncü katib, 6 rayonda olan İcraiyyə Komitə sədri bu və ya başqa ad altında işdən çıxarıldı, onların yerinə ermənilər təyin edildi, mərkəzi aparatlarda işləyən bir neçə azərbaycanlı bu və ya başqa adlarla işdən kənarlaşdırıldı. Respublikadakı Azərbaycan dilində olan Pedaqoji, Kənd Təsərrüfatı və Ticarət texnikumları bağlandı.

1928-ci ildə təşkil edilmiş C.Cabbarlı adına Teatrı respublikanın ən ucqar rayonuna, heç elə bir geniş klubu olmayan, rayon mərkəzi erməni kəndi olan Basarkeçərə göndərdilər (51, s.169-170).

Rayonlarda 2 dildə nəşr olunan 13 rayon qəzetindən 9-u bağlandı, dördündə isə Azərbaycan dilinə qəzetin səhifələrində olduqca az yer verildi.

1948-ci ilin məhsul yığımı başa çatdıqdan sonra Vedi, Zəngibasar, Üçkilsə, Qəmərli, Paşalı, Axta, Qaranlıq, Yeni Bəyazid, Böyük Qarakilsə və digər rayonlarda camaatı zor-xoş köçürməyə başladılar. Kəndlərdə olan ictimai əmlaka ermənilər sahibləndi. Zavallı azərbaycanlıların ev-eşik əşyaları, eyni zamanda uşaqlar, qadınlar, qocalar İrəvan, Qəmərli, Şirazlı, Dəvəli dəmiryol stansiyalarına töküldü. Payızın soyuq aylarında həftələrlə stansiyalarda qalandan sonra ancaq heyvan daşınan üfunətli vaqonlar verildi (60, s.32). Kimi maşın, kimi ulaq, kimi isə nə ilə bacarırdı onunla köçünü vağzala daşıyırdı. Eyni zamanda Azərbaycana köçənləri də yaxşı qarşılamadılar. Həftələrlə stansiya, küçə və yollarda qalan əhalinin çox hissəsi özlərini qohumlarının, köhnə dost-tanışlarının, vicdanlı, öz xalqını sevən soydaş-

larının evində, həyətində müvəqqəti yerləşdilər. Çox əziyyət, korluq və aclıq çəkdilər. Bəzi hallarda xəstəliklər də yayıldı. Bir sözlə, öz xoşu ilə köçməyənləri zorla köçürdülər (51, s.170).

1948-ci ilin sonunda Ermənistan SSR rəhbərliyi T.Musayevi rayondan uzaqlaşdırmaq və kəndləri boşaltmaq məqsədilə oxumaq adı altında Moskvaya bir illik marksizm-leninizm kursuna göndərdilər və Basarkeçər rayonuna erməni Ağayan birinci katib təyin edildi. Həmin vaxt Basarkeçər rayonunun 37 kəndindən 30-u azərbaycanlı, 5-i erməni, 2-si isə qarışıq kəndlər idi.

Ağayanın gəlişi ilə rayonda köçürmə prosesinə başlandı. Ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları Yarpızlı və Qızılvəng kəndlərinin, ancaq azərbaycanlılar yaşayan Qanlı, Kərkibaş kəndlərinin camaatı zorla Azərbaycana köçürüldü, onların torpaqlarını, ictimai əmlakını, mal-qarasını qonşu Tüskülü erməni kəndinə verdilər.

Rayonda nəşr edilən "Stalin yolu" qəzetinin adını dəyişib "Stalinyan uği" qoydular. Bir az əvvəl Basarkeçərə göndərilmiş C.Cabbarlı adına teatrın bağlanması haqqında Ermənistan mədəniyyət nazirliyinə və Mərkəzi Komitəyə məktub göndərərək bu teatrın fəaliyyətinə son qoyuldu.

O dövrdə Basarkeçər rayonu Ermənistan SSR iqtisadiyyatında mühüm yer tutan aqrar rayonlardan biri idi. Həmin il rayonda nəzərdə tutulmuş dövlət planlarının heç biri yerinə yetirilmədi. Əkin üçün toxum çatışmırdı, rayon qeyri-mütəşəkkil formaya düşmüşdü, heç kim işləmək istəmirdi. Elə vəziyyət yaranmışdı ki, qışda mal-qaraya baxmağa adam tapılmırdı. Ermənistan hökumətinin baş naziri S.Karapetyanın rayona təhkim edilməsinə və onun 12 gün rayonda qalmasına baxmayaraq vəziyyət düzəlmirdi.

Vəziyyəti belə görən Ermənistan rəhbərliyi 1949-cu ilin sonunda T.Musayevi yenidən Basarkeçər rayonuna birinci katib təyin etmək məcburiyyətində qaldı.

Rayona qayıdan kimi T.Musayev ilk növbədə zorla köçürülən adamları geri qaytarmağa başladı. O zamanlar geri qayıdanların işə götürülməsinin qadağan edilməsinə baxmayaraq geri qayıdan hər bir adamı işlə təmin etdi, onlara torpaq verdi. Yarpızlı kəndindən köçürülən Şahbaz İbrahimovu rayonun Pəmbək kolxozuna idarə heyətinin sədri, Hüseyn Həsənovu Daşkənd kənd sovet sədri vəzifələrinə təyin etdi.

Çox geniş əraziləri və münbit torpaqları ilə başqa kəndlərdən fərqlənən Qaraiman kəndində xaricdən gələn ermənilərin yerləşdirilməsinin nəzərdə tutulmasına baxmayaraq, az məhsul verən kənd kimi Azərbaycana köçürülməsi nəzərdə tutulan və azərbaycanlılar yaşayan Babacan kəndinin camaatını bu kəndə köçürdü. Dağıdılmış Qanlı və Kərkibaş kəndinin əmlakını Tüskülü kəndindən alıb özlərinə qaytardı, kolxozlar bərpa olundu. Görülən işlərin sayəsində az bir vaxtda, rayonda nizam-intizam bərpa olundu, məhsuldarlıq artdı, 1950-ci ilin bütün planları yerinə yetirildi.

"Köçürülmə" planına uyğun olaraq Basarkeçər rayonunda azərbaycanlıların köçürülməsi 1951-ci ilin payızında nəzərdə tutulmuşdu. Oktyabr ayının ortalarında Ermənistan SSR Nazirlər Soveti sədrinin müavini Çarçuğulyan, respublika köç komissiyasının sədri Mudafyan, respublika avtomobil yolları naziri Aruşanyan və 6 nəfər başqa məsul şəxslərdən ibarət komissiya 150 ədəd yük maşını ilə rayona gəlib, 600 ailənin rayonun gözü olan Şişqaya, Qaraiman, Nərimanlı və Qaraqoyun kəndlərindən köçürülmələrini təklif etdilər (51, s.172).

Talıb Musayev bu gələn komissiya üzvlərinə bildirdi ki, köçürülmə Stalinin verdiyi qərara əsasən könüllüdür. Ona görə də kəndlərdə yığıncaq keçirmək lazımdır, kim istəsə onu da köçürərik. Bir xeyli mübahisədən sonra qərara alındı ki, köçürüləcək kəndlərdə yığıncaqlar keçirilsin və köçmək istəyənləri könüllü olaraq köçürsünlər.

Gecə ilə raykomun şöbə müdirləri: Tapdıq Əmiraslanov, Yunis Rzayev, Qara Məmmədov, Mirzə Şabanov birinci katibin tapşırığı ilə kəndlərə yola düşdülər və kənd ağsaqqalları ilə görüşüb sabahkı iclasda özlərini necə aparmalı olduqlarını, gələn komissiya üzvləri ilə necə davranmalarını başa saldılar. Kənd camaatına köçürmənin Stalinin qərarına əsasən könüllü olduğu izah olundu və bildirildi ki, komissiya üzvlərinin sərt danışıqlarından qorxmaq lazım deyil, əgər kənd sakinləri kütləvi şəkildə köçürmədən imtina etsələr, onda komissiya üzvləri heç bir qərar verə bilməyəcəklər.

Səhər tezdən raykomun birinci katibi T.Musayev və komissiya üzvləri iclas keçirmək üçün siyahı üzrə kəndlərə yola düşdülər. Hər bir kənddə camaatın güclü müqavimətinə rast gələn komissiya üzvləri nə qədər hədə-qorxu gəlsələr də, köçmək istəyirəm deyən olmadı. Çıxış edən kənd ağsaqqalları qeyd edirdilər ki, yoldaş Stalin köçürməni könüllü olaraq nəzərdə tutmuşdur. Heç kəsin ixtiyarı çatmır ki, yoldaş Stalinə qarşı çıxsın. Kim istəyirsə köçə bilər. Ancaq biz heç yerə köçmək istəmirik. Kəndlərdə köçürməni təşkil etmək üçün rayona gələn emissarlara deyirdilər: "Aramızda Şahdağı, o tərəfdə isə Kəlbəcər var. Niyə bu qədər əziyyət çəkib bizləri oraya köçürürsünüz? Yaxşı olmazmı ki, biz yerimizdə qalaq, sərhədi bu tərəfə - Göyçənin (Sevanın) ortasına çəkəsiniz?" Bu sual komissiya üzvlərini çox qəzəbləndirsə də, ona cavab verməyi bacarmadılar.

Gələnlərə aydın oldu ki, kənd camaatını təşkil ediblər. Səhərisi gün komissiya üzvləri başqa kəndlərə getdilər. Lakin bu kəndlərdə də əhali köçməkdən imtina etdi. 150 yük maşını üç gün rayon mərkəzində boş dayandıqdan sonra kor-peşiman Yerevana geri qayıtdı.

Bu hadisədən üç gün sonra Yerevandan rayona gələn 6 nəfərdən ibarət komissiya rayonun birinci katibinin köçürülmə işində apardığı antipartiya siyasətini, nöqsanlarını yoxlayıb, nəticəsini Mərkəzi Komitənin Kirovakan dairə komitəsinin bürosuna çıxardılar. Bu büronun qərarı ilə Talıb Musayevə köçürülmədəki antipartiya mövqeyinə görə, köçürülən əhalinin geri qayıdanlarını işlə təmin etdiyinə, əhalisi köçürülmüş Qanlı və Kərkibaş kəndlərində yenidən kolxoz təşkil etdiyinə, Azərbaycana köçürülməsi nəzərdə tutulan Babacan kəndini xaricdən gələn ermənilər yerləşdirmək üçün

nəzərdə tutulan münbit torpaqlı Qaraiman kəndində yerləşdirdiyinə, xaricdən gələn 40 erməni ailəsini Şişqaya, Qaraiman, Nərimanlı kəndində yerləşdirmək əvəzinə, onları ermənilər yaşayan Qırxbulaq, Gödəkbulaq və Basarkeçər kəndlərində yerləşdirdiyinə görə Basarkeçər rayon partiya komitəsinin birinci katibi Talıb Musayevə sonuncu xəbərdarlıq edilməklə şiddətli töhmət elan edildi.

150 maşının çox mötəbər komissiyanın rəhbərliyi altında, boş, Yerevana qaytarılması və birinci katibin işdə saxlanılması bütün respublikada böyük əks-səda doğurdu. Əhali köçürmənin könüllü olduğuna əmin olduqdan sonra zorla köçürülməyə qarşı müqavimət göstərməyə başladı, daha könüllü köçən olmadı.1951-ci ildən köçürülmə prosesinin sürəti azaldı və 1953-cü ildə Stalinin ölümündən sonra demək olar tam dayandırıldı. Azərbaycan Respublikası ərazisində məskunlaşmamış azərbaycanlılar ağır yaşayış şəraitinə dözməyərək, ermənilərin onlara qarşı göstərdiyi ayrı-seçkiliyə və təzyiqlərə baxmayaraq doğma yurdlarına qayıtdılar.

Köçürülmə ilə bağlı sənədlərin təhlili və analizi sübut edir ki, "azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından köçürülməsi (deportasiyası) haqqında" SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla, 1948-1953-cü illərdə Ermənistandan 144.654 nəfər doğma ev-eşiyindən zorla köçürülmüşdü.

Əlbəttə, ermənilər bu köçürülməni xaricdən gələn ermənilərin Ermənistanda yerləşdirilməsi ilə əlaqələndirsələr də, bunun həqiqətdən uzaq olduğunu, respublika ərazisindən azərbaycanlıların deportasiyasına yönəlmiş bir aksiya olduğunu gizlədə bilməzdilər. Çünki 1946-1950-ci illərdə xarici dövlətlərdən Ermənistana köçən ermənilərin sayı olduqca az idi. Azərbaycanlılardan azad edilmiş kəndlərin sonradan xarabalığa çevrilməsi, bu kəndlərdə xaricdən gələn ermənilərin məskunlaşmaması bu mülahizələrimizi bir daha təsdiq edir. Ermənistan ərazisində elə indinin özündə əvvəllər azərbaycanlıların yaşadığı yüzlərlə kənd xarabazarlığa çevrilmişdir. Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda qeyd olunmuşdur ki, respublika ərazisində 476 kənd istifadəsiz qalmışdır (37). Erməni millətçiləri 1990-cı ildə etiraf etmişlər ki, "Azərbaycanlıların köçürülməsi nəticəsində boşaldılmış torpaqlar və mənzil fondu xaricdən gəlmiş ermənilərin yerləşdirilməsi üçün istifadə edilməmişdir" (15).

Yuxarıda qeyd olunanlardan yalnız bir nəticəyə gəlmək olar ki, azərbaycanlıların Ermənistandan köçürülməsinə xaricdən gələn ermənilərin yerləşdirilməsi, nə də Azərbaycanda pambıqçılığın artırılması məqsədi güdürmüş, əsas məqsəd daşnakların çoxdankı arzusu olan təkmillətli dövlətin yaradılması siyasətinin reallaşdırılması olmuşdur.

Köçürmə dövründə bu siyasəti bütövlüklə həyata keçirə bilməyən erməni millətçiləri sonrakı illərdə yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, Azərbaycan dilində tədrisin ləğv edilməsi, rayonların birləşdirilməsi, azərbaycanlı rəhbər işçilərin ermənilərlə əvəz edilməsi,

azərbaycanlı kəndlərin məişət və təsərrüfat tələbatlarının nəzərə alınmaması, azərbaycanlılara qarşı kampaniyaların təşkili yolu ilə daşnak siyasətini açıq-aşkar reallaşdırmağa başladılar.

Azərbaycanlıların Ermənistan torpaqlarından qovulması Stalin-Mikoyan-Beriya siyasətinin məntiqi davamı olaraq totalitar rejimin hakimiyyətinin bütün illərində, xüsusilə türk və müsəlman aləminin qatı düşməni olan M.Qorbaçovun hakimiyyəti dövründə, geniş miqyasda tətbiq edilməyə başladı və erməni-daşnak siyasətinin ən incə metodları ilə həyata keçirildi, Ermənistan hakimiyyətinin rəsmi dövlət siyasətinə çevrildi.

Bu siyasətin məntiqi nəticəsi olaraq, 1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən 200 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etdi. Bunun da nəticəsində o torpaqların ərazisində qondarma Ermənistan dövləti yarana bildi.

Ermənistanda yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının bütün şəhər və kəndlərinə, o cümlədən keçmiş SSRİ respublikalarına səpələndilər.

Sovet rəsmi sənədlərində bir çox köçürülmələrə hüquqi-siyasi qiymət verildiyi halda, azərbaycanlıların deportasiyasının heç adı belə çəkilmirdi. Təəccüblüdür ki, SSRİ Ali Sovetinin 1989-cu ilin noyabrında (41 il sonra) məcburi köçürülməyə məruz qalmış xalqlara qarşı repressiya aktlarının qeyri-qanuniliyi, cinayətkarlığın etiraf olunduğu və onların hüquqlarının müdafiəsi haqqında bəyannamədə azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsinə toxunulmur, bu hadisə deportasiya hesab edilmir.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən kütləvi şəkildə deportasiyasına düzgün və obyektiv hüquqi-siyasi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verildi.

Ulu öndərin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanı böyük elmi-siyasi, tarixi əhəmiyyətə malik sənəddir.

Erməni millətçiləri və daşnakları tərəfindən Azərbaycan xalqının başına gətirilən müsibətlər nəticəsində təkcə XX yüzildə 2 milyondan çox azərbaycanlı erməni vandalizminin, soyqırım siyasətinin qurbanı olmuşdur. Azərbaycanlıların kütləvi şəkildə deportasiya edilməsi, 150 mindən çox dinc əhalinin zorakılıqla dədə-baba torpaqlarından qovulması, on minlərlə insanın ağır məşəqqətlərlə üzləşməsi, yüzlərlə və minlərlə günahsız adamın xəstələnməsi, həlak olması, bir sözlə, xalqımızın başına gətirilən dözülməz faciələr hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın 2-ci maddəsinə uyğun olaraq soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməlidir (86).

1988-ci ilin əvvəllərindən başlayaraq Ermənistan siyasi və dini dairələri respublikanın hər yerində olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. Bu məqsədlə, 1988-ci il mart ayının 26-sını "Sumqayıtın qisas günü" elan etmiş "Krunk" cəmiyyəti Türkiyə və İrandan köçürülən ermənilərin yaşadığı Martuni və

Kamo rayonlarının fəallarından təşkil edilmiş hərbi dəstələrin köməyi ilə qanlı aksiyalar törətmək niyyəti ilə Basarkeçərə yürüş etdilər, lakin Basarkeçərə gələn erməni "dığaları" gözlədiklərinin əksi olan vəziyyətlə qarşılaşdılar. Basarkeçərin yaxınlığındakı Zod kəndində yaxın məsafədə yerləşən "Zod ORS" qəsəbəsində yaşayan ermənilər gecə ikən qəsəbəni tərk edərək, təhlükəsiz evlərə çəkilmişdilər. Buna səbəb isə həmin gün Zod qızıl mədənində işləyən Nərimanlı kənd sakini Fizuli adlı cavan bir türk oğlu, onunla söyüşlə danışan bir ermənini ağır traktorun altına salaraq əzib öldürmüşdü, cəmi 11 türk ailəsinin yaşadığı Tüskülü kəndindən isə gənc bir türk balası onu hədələyən erməni yaşıdını bıçaqlamışdı (62, s.113). Bu hadisələrdən çəkinən ermənilər geri qayıtdılar.

1988-ci il iyun ayının 15-də Göyçə mahalında ermənilərin yaramaz hərəkətlərinə qarşı azərbaycanlılar öz etiraz səsini qaldırmağı qərara aldılar. Krasnoselo rayonunun Şorca və Gölkənd kəndlərində on min əhalinin mitinqi keçirildi. Səhərisi gün Basarkeçər rayonunun Şişqaya və Nərimanlı məntəqələrində də azərbaycanlılar mitinqə çıxdılar. Ümumilikdə bu mitinqlərdə iyirmi mindən çox adam iştirak etmişdir (33, s.22).

1988-ci ilin yazında azərbaycanlılar yaşayan 17 kəndin nümayəndələrinin iştirakı ilə Nərimanlı kəndi ərazisindəki Göy körpüdə və Krasnoselo rayonu ərazisindəki türk kəndlərinin birləşmiş səyi ilə Şorca kəndində başlamış mitinqlərdə "Göyçənin Ermənistan SSR-in tərkibindən çıxarılaraq, Azərbaycan SSR-in tərkibinə daxil edilməsi" tələbi irəli sürüldü. Çox təəssüflər olsun ki, Göyçə azərbaycanlılarının bu haqlı tələblərinə dəstək olaraq, noyabr ayının 17-də Bakıda "Azadlıq" meydanında yüz minlərlə insanın iştirakı ilə keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyat verilməsi tələbi ilə qətnamə qəbul olunsa da, bu tələb o zamankı Azərbaycan rəhbərliyi tərəfindən dəstəklənmədi (62, s.114).

1988-ci ildə erməni millətçiləri respublikanın bütün regionlarında mitinqlər keçirir, bu mitinqlərdə azərbaycanlıların respublika ərazisindən çıxarılmasını tələb edirdilər. SSRİ rəhbərliyinin laqeydliyi və hadisələrə göz yumması nəticəsində yerlərdə azərbaycanlıların yaşadığı kəndlərə "erməni saqqallıları" hücumlar təşkil edir, evlərə od vurur, əhaliyə qarşı qırğınlar törədilir, rayonlar iqtisadi blokadaya salınırdı.

1988-ci il noyabr ayının 22-də Ermənistanın SSR Ali Sovetinin sessiyası öz işini yarımçıq dayandıraraq, bütün stansiya rəhbərlərinə "noyabr ayının 28-dək respublikanın türklərdən təmizlənməsini təmin etmək" tapşırığı verildi. Ermənistanın bütün rayonlarına şamil edilən bu qərarın təsir dairəsinin mərkəzinə şübhəsiz ki, Göyçə mahalı və Ağbaba bölgəsi düşürdü. Çünki 1988-ci ilin noyabr ayınadək digər rayonlardan türklərin deportasiyası, demək olar ki, başa çatdırılmışdı. Odur ki, Göyçə və Ağbabadan türklərin deportasiyasına rəhbərlik Ermənistan Respublikasının ali rəhbərliyinə həvalə edildi (62, s.118).

Noyabr-dekabr aylarında Ermənistandan azərbaycanlıların çıxarılması üçün son hazırlıq işlərinə başlandı. Yüzillik tarixə malik "Türksüz Ermənistan" planının son mərhələsinə start verildi.

Bu planın həyata keçirilməsində bütün vasitələrdən istifadə olunmağa başlandı. Bu plana qarşı çıxan rayon rəhbərləri işdən azad edilirdi.

Azərbaycanlıların kompakt yaşadığı Basarkeçər rayonunda birinci katibi dəyişməyə ehtiyac olmadı. Çünki Razmik Yenqoyan ikinci katib Aşot Akopyanla birlikdə həyata keçirilməkdə olan fitnəkarlıq hərəkatının başında dayanmışdır. Rayon daxili işlər şöbəsinin rəisi Bahar Boxyan, Torf İstehsalat Birliyinin rəisi Qurgen Harutyunyan, Çaxırlı sovxozunun direktoru Arkadi Petrosyan, quşçuluq fabrikinin direktoru Albert Petrosyan "Türksüz Ermənistan" uğrunda başlanan avantürist kampaniyanın aparıcı ünsürlərindən idilər (33, s.26).

Bu daşnak-kommunistlərin rəhbərliyi sayəsində Göyçə əhalisi öz dədə-baba yurdlarından tamamilə qovularaq Azərbaycana "yola salındılar". Onlarla azərbaycanlı döyülərək yaralandı və qarlı-boranlı dağ yollarında həlak oldu.

Bu dövrdə ermənilərin Göyçədə törətdikləri vəhşilikləri görmüş yüzlərlə canlı şahidlər var. Göyçədə baş verən hadisələrin tam mənzərəsini təsəvvür etmək üçün o zaman Göyçə qızıl mədənlərində çalışan, milliyyətcə rus olan L.V.Tolstyakın şahid ifadəsindən bir məqama diqqət yetirmək kifayətdir. O, öz şahid ifadəsində deyir: "1988-ci il noyabr ayının 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonradan Ermənistan KP MK-nın birinci katibi olmuş V.Movsesyan Vardenis (Basarkeçər) rayonunun Zod kəndinə gələrək, yerli əhalinin kəndi tərk etməsi üçün 3 gün vaxt verdiyini, əks halda təhlükəsizliyə təminat verilməyəcəyini bildirdi. Elə həmin gün kəndə elektrik enerjisi və ərzaq verilməsi dayandırıldı, gecələr kənd atəşə tutuldu" (4, s.135).

1988-ci ilin payızından başlayaraq erməni millətçiləri Göyçə mahalında yaşayan azərbaycanlı əhaliyə qarşı güclü zorakılıqlar tətbiq etməyə başladılar. Noyabr ayının 26-da Sevan rayonunun Çubuqlu kəndində Nəsrəddin və Həbib Əliyevlərin şəxsi minik maşınlarını - "Jiquli" avtomobilini əllərindən alıb əzir, parça-parça edirlər. Özlərini isə vəhşicəsinə döyüb ölümcül hala salmışdılar.

Noyabrın 28-də daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqın etdilər. Nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfər döyülərək, işgəncə verilməklə qətlə yetirildi. Sağ qalanlar Gədəbəyə, Kəlbəcərə adlamaqçün Sarınər, Urumbasar gədiklərindən aşmalı oldular. Qarda-çovğunda borana, şaxtaya düşən qaçqınların 12 nəfəri donvurmadan həyatını itirmişdi.

Noyabr ayının 29-da Basarkeçərin Aşağı və Yuxarı Şorca, Qayabaşı, Qoşabulaq, Subatan, Zağalı, Sarıyaqub, Qaraqoyunlu, Nərimanlı, Ağkilsə, Zərkənd, İnəkdağı kəndlərinin əhalisi qarlı dağları aşıb Kəlbəcər rayonu ərazisinə qaçmalı

oldular. 44 nəfər yaşlı nəslin nümayəndələri, uşaq və qadın isə qarlı-çovğunlu havada donvurmadan həyatlarını itirmişdilər.

Noyabrın 30-da Sevan şəhərində yerləşən respublika psixiatriya xəstəxanasındakı azərbaycanlı xəstələrə rəhmi gəlməyən daşnak terrorçuları 22 nəfər Azərbaycan türkünü su ilə doldurulmuş quyuya ataraq boğub qətlə yetirirlər (45, s.179).

Ümumiyyətlə, 1988-ci ilin 27 noyabr 5 dekabr aralığında ermənilərin həyata keçirdikləri qətliamlar nəticəsində Göyçədə 56 nəfər (45 nəfər Basarkeçər, 11 nəfər Çəmbərək rayonu ərazisində) şəhid oldu, Göyçənin son 80 min nəfər əzəli sakini didərgin düşdü, əhaliyə şəxsi əmlak qismində 500 milyon, ictimai təsərrüfatların əmlakı qismində 1 milyard dollar həcmində ziyan dəydi (17). 1988-ci ilin noyabrında ermənilərin Göyçədə həyata keçirdiyi soyqırım və deportasiya siyasətinə o zamankı Azərbaycanın rəsmi hakimiyyət orqanları tam laqeydliklə yanaşdı. Göyçəlilərin kömək haqqında müraciətləri cavabsız qaldı. Öz doğma torpaqlarının müdafiəsində canlarını belə qurban verməyə hazır olan Göyçəlilərin silahla təchiz olunma xahişləri xaincəsinə rədd edildi (52, s.74).

Deportasiyanı həyata keçirmək üçün erməni tərəfinə nəqliyyat yardımı göstərən Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov bilavasitə ermənilərin tərəfdarı rolunda çıxış etdi. Həmin dövrdə Ermənistandan deportasiya edilən ailələrin çox hissəsi Şuşa şəhəri və ətraf rayonlarda daimi yaşamaq üçün Dağlıq Qarabağa gəlmişdilər. Onların əksəriyyəti müvəqqəti olaraq Şuşa şəhəri və Xocalı ətrafında çadırlarda yerləşdilər. Deportasiyaya məruz qalanların məqsədi yerli ermənilərlə evlərini dəyişmək, onları Ermənistana göndərmək və boşalmış evlərdə məskunlaşmaq idi. Lakin, Azərbaycan Respublikasının rəhbərliyi, şəxsən Ə.Vəzirov buna imkan vermədi. Ermənilərin Moskvadakı havadarlarının təhriki və rus hərbçilərinin köməyi ilə zor tətbiq edərək Ermənistandan deportasiya edilmiş minlərlə ailəni respublikanın aran rayonlarına köçürdülər.

Ermənistandan deportasiya edilən ailələrin Dağlıq Qarabağda yerləşdirilməsinin təşəbbüskarı və təşkilatçılarından biri olan Şuşa şəhər partiya komitəsinin birinci katibi N.Hacıyev tutduğu vəzifədən azad edildi.

1988-ci ilin payız-qış aylarında deportasiya edilmiş Sədənağac kəndinin 1890 sakini Tovuz, Şəmkir, Göygöl, Tərtər, Şamaxı rayonlarının kəndlərində, Gəncə, Sumqayıt və Bakı şəhərlərində və Rusiya Federasiyasının bir çox vilayətlərində məskunlaşdılar. Eyni zamanda Avropa ölkələrinə də üz tutmuş soydaşlarımız var. Bu gün belə bir pərakəndəliyə baxmayaraq kənd əhalisi xeyirdə-şərdə bir yerə toplaşmağa, doğma Sədənağacda olduğu kimi əziz və unudulmaz adət-ənənələrin qorunub saxlanılmasına çalışırlar.

Yuxarıda qeyd etdiyimiz bütün deportasiyaların nəticəsi olaraq bu gün Sədənağac kənd sakinlərinin məkana görə məskunlaşması aşağıdakı şəkildə təsvir olunur:

Cərgə sırası	*Yaşayış məntəqəsinin adı*	*Ailənin sayı*
1	**Bakı** şəhəri	323
2	**Sumqayıt** şəhəri	11
3	**Bərdə** şəhəri	5
4	**Gəncə** şəhəri	138
	Gədəbəy rayonu:	
5	Maarif kəndi	6
6	Slavyanka kəndi	17
	Goranboy rayonu:	
7	Dəyirmanlar kəndi	27
8	Xoylu kəndi	2
9	Sarov kəndi	30
	Göygöl rayonu:	
10	**Göygöl** şəhəri	14
11	Göyçəkənd kəndi	14
12	Çaykənd kəndi	3
13	Şəhriyar kəndi	3
14	**Qazax** şəhəri	7
15	**Samux** qəsəbəsi	14
	Şəki rayonu:	
16	Şəki sovxozu	11
	Şəmkir rayonu:	
17	**Şəmkir** şəhəri	50
18	Yeni Göyçə kəndi	28
19	Könüllü kəndi	11
20	Təzəkənd kəndi	9
21	Qapanlı kəndi	7
22	Posanlı kəndi	7
23	Ələsgərli kəndi	4
24	Çənlibel kəndi	12
25	Kür qəsəbəsi	5

Tərtər rayonu:		
26	Bəyimsarov kəndi	3
Tovuz rayonu:		
27	**Tovuz** şəhəri	2
28	Girzan kəndi	5
Türkiyə respublikası:		
29	**İstanbul** şəhəri	3
30	**Konya** şəhəri	5
Rusiya Federasiyası:		
31	**Moskva** şəhəri	14
32	**Sankt-Peterburq** şəhəri	14
33	**Arxangelsk** şəhəri	3
34	**Barnaul** şəhəri	4
35	**Biysk** şəhəri	3
36	**Krasnodar** şəhəri	6
37	**Nijni Novqorod** şəhəri	5
38	**Novosibirsk** şəhəri	8
39	**Yekaterinburq** şəhəri	4
40	**Xabarovsk** şəhəri	5
Digər ölkələr:		
41	**Praqa** şəhəri	3
42	**Frankfurt-Mayn** şəhəri	3
Cəmi		821

SƏDƏNAĞAC
HACI QƏRİB – GÜNEY

XIX əsrin ikinci yarısından 1928-ci ilə qədər, el arasında Hacı Qərib, rəsmi sənədlərdə "Satan-ağac", "Sadan-ağac", "Satanaxaç", "Sotonaxaç", bəzən də Sətənaxaç kimi qeyd edilən bu kənd, İrəvan quberniyasının Yeni Bəyazid qəzasında (Göyçə mahalı), indiki Basarkeçər (Vardenis) rayonunun ərazisində, Göyçə gölünün sahilində, Basarkeçər-Çubuqlu yolunun üstündə, rayon mərkəzindən 17 km şimal-qərbdə, dəniz səviyyəsindən 2016 m hündürlükdə yerləşir. 3 yanvar 1935-ci ildə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə bir çox azərbaycanlı kəndləri kimi bu kəndin də adı dəyişdirilərək Güney qoyulmuşdur. Ermənistan prezidentinin 19 aprel 1991-ci il tarixli fərmanı ilə yenidən adı dəyişdirilib Arequni adlandırılmışdır.

Sədənağac toponiminin elmi izahının oxucular üçün maraqlı olacağını nəzərə alaraq, bu haqda ətraflı söz açmağı vacib sayırıq. Bir coğrafi ad kimi bu kəndin toponiminə aid ədəbiyyatda bir-biri ilə uyğunlaşmayan müxtəlif mülahizələr mövcuddur.

Hələ XIX əsrin əvvəllərində, İrəvan xanlığının rus işğalına qədər, rus məmurları və Qacar şahı, eləcə də İrəvan sərdarı arasında gedən yazışmalarda bu toponimin "Sadanaxaç" və "Sadaqaqaç" *(rus dilində, "Саданахач", "Садагач")* kimi ifadəsinə rast gəlirik (74, s.355; 98, s.325; 99, s. 340; 111, s.891, s.893; 112, s.322-323;125, s.325).

Tarixi mənbələrdə apardığımız araşdırmalar göstərir ki, Sədənağac toponimi, bir yaşayış məskəni, bir kənd kimi, ilk dəfə olaraq İ.Şopenin yuxarıda göstərdiyimiz əsərində "Erməni Vilayəti"nin əhalisiz xaraba kəndləri sırasında, 303 saylı "Sadan-aqac" *(rus dilində,"Саðан-агач")* kəndi kimi qeyd olunmuşdur (136, s.517; şəkil 27).

Rəsmi sənədlərdə toponimin fərqli yazılışı onun elmi izahında da müəyyən çaşqınlıq yaratmışdır.

İbrahim Bayramovun "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" adlı əsərində kəndin adı "Satanağac" kimi göstərilərək, toponimin türk dilində "çəpər", "hasar" mənasında işlənən sadan (əsil sedan) sözünə, "Tir, dirək, taxta" mənasını ifadə edən ağac sözünün qoşulması əsasında formalaşması ehtimalı irəli sürülür (11, s.255).

Könül Səmədova "Qərbi Azərbaycan etnotoponimlərinin arealları" əsərində bu kəndin adını yanlış olaraq, digər komponentli mürəkkəb toponimlər sırasında Satanaxaç kimi göstərmişdir (59, s.107).

Sitarə Mirmahmudova "Ermənistanda türk mənşəli yer adları" kitabında isə bu kəndin Sovetlər dövründə dəyişdirilmiş "Güney" adının izahını vermişdir (50, s.31).

B.Ə.Budaqov və Q.Ə.Qeybullayev "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə bu toponimi "Sətənağac" kimi, türk dillərindəki sodon "ucu şiş" və xaç (xaçdaşı) sözlərindən yarandığını göstərərək, İrəvan quberniyasının Novobayazid qəzasındakı Satanaxaç dağ adı ilə mənaca eyni olduqlarını qeyd edirlər (13).

Q.Qeybullayev "Qədim türklər və Ermənistan" adlı kitabında bu kəndin adını Satan-Axnac kimi göstərmişdir (40, s.54).

"Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabında bu toponim "Sətənəxaç" kimi qeyd olunur (14, s.464).

Q.Məhərrəmov və İ.Məhərrəmov "Başı dumanlı Göyçə" kitabında kəndin adını "Sadanaxaç" kimi qeyd edir və bu toponimin mənasını "Fars dilində Seydanaxaç ("sey"-"uç", "dana"-"ədəd", "xaç") yəni, üç ədəd xaç daş..." kimi izah edirlər (44, s.239).

Araşdırmalar göstərir ki, Sədənağac toponiminin etimologiyasına aid mülahizələrin əksəriyyəti yanlış olaraq toponimin ikinci hissəsindəki ağac sözü ilə bağlıdır. Əksər müəlliflər sözün kökündə "xaç" sözünün olduğunu sübut etməyə və izahını verməyə çalışırlar. Bu olduqca yanlış yanaşmadır.

Toponimin izahına aid yuxarıda qeyd edilmiş fikirlər kəndin tarixini, coğrafi mövqeyini, relyefini, orada yaşamış insanların məişətini, həyatını əks etdirmir, tarixlə heç bir elmi bağlılığı yoxdur. Buna görə də göstərilən fikirlərə tənqidi yanaşmaqla, qeyd etmək lazımdır ki, onların yaranmasına səbəb bu toponimin izahında, onun rus və erməni mənşəli ədəbiyyatda və ya sənədlərdə yazılmış, bir-birinə oxşamayan və mənaca da müxtəlif olan yazılış formalarının əsas götürülməsi durur. Məlumdur ki, rus dilində "ə" "ğ" hərfləri yoxdur və bu səsləri almaq üçün, əksər hallarda "x" və "a" hərflərindən istifadə edirlər. Buna görə də "Sədənağac" toponimi mənbə hesab etdiyimiz sənədlərin və ya müxtəlif ədəbiyyatın müəlliflərinin "milli

mənsubiyyətindən" asılı olaraq müxtəlif formalarda yazılmışdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu uyğunsuzluğu bizim tədqiqatçı alimlər nəzərdən qaçırmışlar və toponimin izahında toponimin özünün yox, onun müxtəlif variantlarda təhrif edilmiş formasının "izahı"nı vermişlər.

Digər tərəfdən, kəndin adının Hinaldağ silsiləsindəki Satanaxaç təpəsinin adından yaranması ehtimalı da, fikrimizcə həqiqəti əks etdirmir. Cünki, Sədənağac kəndi Hinaldağ silsiləsindəki Satanaxaç təpəsindən çox aralıda, təqribən 70-80 km şimala doğru: bir tərəfdən İtkəlləsi, Sarı Nər kimi uca dağ təpələrinin, digər tərəfdən Murov dağ silsiləsindəki Qoca dağın ətəyində yerləşir. Əgər kəndin toponimi dağ adı ilə əlaqəli olsaydı, yaxınlıqda olan dağın və ya dağ təpələrinin adını daşıma ehtimalı daha məntiqəuyğun hesab edilə bilərdi.

Göyçə mahalının kəndləri haqqında çox dəqiq məlumat verən, ilk mənbələrdən hesab olunan və hər dəfə Osmanlı idarəçiliyi zamanı tərtib edilən təhrir: icmal və müfəssəl dəftərlərində (1590-1593, 1727-1728-ci illər) bu kəndin adının olmaması da toponimin izahındakı yanlışlığın bir səbəbidir.

Yeri gəlmişkən, bu dəftərlərdə "Sədənağac" toponiminin olmaması heç də kəndin yaranma tarixi ilə əlaqəli deyil. Aşağıda göstərilən araşdırmamızda bu kəndin tarixinin daha dərinlərə gedib çıxdığını görəcəyik.

Yuxarıda qeyd etmişik ki, Çuxur-Səəd bəylərbəyiliyinin tərkib hissəsi olan Göyçə mahalı əsrlər boyu Azərbaycanda mövcud olan dövlətlərin tərkib hissəsi kimi dövrün siyasi şəraitinə uyğun olaraq həmişə müharibə meydanına çevrilmiş, dəfələrlə dağıdılmış, yerlə-yeksan edilmiş, əhalisi əsir götürülmüş, başqa ölkələrə aparılmışdır. 1583-cü və 1724-cü illərdə Osmanlılara keçən bu mahal, birinci dəfə 1604-cü ildə I Şah Abbas tərəfindən geri qaytarılmış və onun əmri ilə də "yandırılmış torpaq siyasəti" adlandırılan əməliyyata məruz qalmışdır. İkinci dəfə isə, 1735-ci ildə tarixdə Nadirqulu bəy və Təhmasibqulu xan adları ilə də tanınan Nadir şah tərəfindən Osmanlıdan geri alınanda bu mahalın kəndlərinin bir çoxu boş, xaraba vəziyyətdə idi. Onu demək kifayətdir ki, qonşu xanlıqlarla və başqa dövlətlərlə ardı-arası kəsilməyən müharibələr nəticəsində Göyçə mahalı XVIII əsrin 30-cu illərindən Rusiya işğalına qədər 6 dəfə böyük dağıntılara məruz qalmış, əhalisi qarət edilmiş, başqa yerlərə köçürülmüş və ya qaçıb getmişdir.

Güman edilir ki, müfəssəl və icmal dəftərlər tərtib ediləndə Sədənağac kəndi dağıdılmış vəziyyətdə olub, bu kənddə yaşayanlar, yəni vergi ödəyiciləri olmadığına görə kənd həmin dəftərlərin heç birinə düşməyib.

Əvvəldə qeyd etmişdik ki, İ.Şopenin yazdığına görə, Göyçə mahalında yüzillərdən bəri (bəlkə də Şah I Abbasın məlum köçürmə aksiyasından sonrakı iki yüz ildə) boş qalmış həmin kəndləri 1814-cü ildə İrəvan sərdarı Hüseynqulu xan Qarapapaq elatları ilə məskunlaşdırmağa çalışsa da, xaraba qalmış kəndlərin çoxunun adını yada salmaq belə mümkün olmayıb, odur ki, 40-dan çox kəndin adı siyahıda "adsız kənd" kimi qeyd olunmuşdur (136, s.446).

Burada bir məqamı da oxucuların diqqətinə çatdırmağı vacib sayırıq. İrəvan sərdarının Göyçə gölünün şərq və qərb sahillərində yerləşən boş kəndləri Qarapapaq tayfasına mənsub elatlar ilə məskunlaşdırmaq cəhdləri 1827-ci ilə - sonuncu İran-Rusiya müharibəsinədək davam etmişdir.

Sədənağac kəndi Kiçik Qafqaz sıra dağları cərgəsindəki dağ silsilələrinin: soldan İtkəlləsi yüksəkliyi, sağdan Qoca dağın ətəyində, Gədəbəy rayonunu (Qalakənd kəndindən keçməklə) Göyçə gölü ilə birləşdirən "Böyük yoxuş" yol aşırımının Göyçə gölü tərəfində yolun başlanğıcında, dağa qalxan hissəsində yerləşir. Bu yol Göyçə gölünün şimal sahilindən başlayaraq kəndin ortasından keçir və kənd qurtardıqdan sonra Yolçıxan ilə (Yolçıxan - yolun qayalıqlardan ibarət, təxminən 3-4 km uzunluğunda, yuxarı - dağa qalxan hissəsini göstərən toponim) Maralbulağı düzənliyinə qalxır, oradan Şahdağ silsiləsinin suayrıcındakı Qocadağ zirvəsinin (hündürlüyü 3317 m) sinəsində yerləşən "Mədətin yurdu" deyilən düzənlikdən keçib Böyükyoxuşa çatır və Qoca dağın sinəsindən aşağı şimala doğru enərək Şəmkir çayının sol sahili ilə Qalakənd, oradan isə Azərbaycanın digər bölgələri ilə birləşir.

Doğma kəndimizin adının etimologiyasına gəldikdə, birmənalı hökm vermək bir az çətindir. Açıq və mübahisəsiz, birmənalı şəkildə görünən odur ki, toponimin ikinci hissəsi - ağac sözü - xalis türk sözüdür. Birinci hissəsi - "sədən" isə mənə görə, farscada və bizim dildə işlədilən "zədən" sözünün azca dəyişilmiş şəklidir. Mənaca "vurulmuş, zərbəyə məruz qalmış, yəni "ildırım vurmuş ağac" anlamındadır. Yaşlı nəslin dediklərinə görə, bu yerlər bir vaxtlar yüz illər yaşı olan nəhəng palıd və ardıc ağaclarından ibarət qalın ormanlıq imiş. Bu ormanlıq xalq arasında ildırım vurmuş, zədələnmiş nəhəng bir palıd ağacı ilə tanınırmış. Bizə elə gəlir ki, Sədənağac toponimin yaranması da bu rəvayətlə bağlıdır. Belə hesab etmək olar ki, "Zədən ağac" xalq dilində tədricən "Sədən ağac" şəklinə düşüb. Ağacla əlaqədar başqa nə baş verə bilərdi ki? Digər tərəfdən nə türk dilində, nə ərəbcədə və nə də farscada "sədən" deyə ayrıca sözcük yoxdur. Görünür, ildırım vurmuş bu nəhəng palıd ağacı uzun zaman relyefin, buradan keçən çoxəsrlik yolun və çayın kənarında başlıca təbiət əlaməti olaraq qalıb, yaşayış məskəni də onun yan-yörəsində təşəkkül tapmışdır. Ərazidən axan çay da yaşayış məntəqəsinin adı ilə tanınıb.

Sədənağac toponimi ilə yanaşı kənd ərazisində saysız-hesabsız türk toponimləri də mövcuddur: Qüzey, Qurudərə, Kərkibaşın komu, Beşbarmaqlar, Diliklər, Qanqallı, Pürənni, Şır-şır, Cövürmə, Yurd yeri, Yolçıxan, Göllüyurd, Palantökən, Sarıtəpə, Güney, Quştəpəsi, Hacıların dərəsi, Sarıqaya, Qoçqoruğu, Məşədilərin güneyi, Tüklütəpə, Qoşunalının qoruğu, Səkilər, Taxçayurd, Dolaylar, Mədədin yurdu, Malqəbri, Güdülün dərəyeri, Məmmədbağırın dərəyeri, Kirpilər, Arxacdərəsi, Sarınərin dərəsi, Yumrutəpələr, Qoruqçuqayası, Qarovul təpəsi, Güllüdərə, Daşlı təpə, Yalaxlı və s.

Sədənağac kəndinin ərazisində çoxlu sayda, bir-birindən xoş, içməli suyu olan bulaqlar: Nazlı bulaq, Hacıların dərəsinin bulağı, Maral bulağı, Qiblə bulağı, Pirənninin suyu, Ağbulaq, Abbasın bulağı, Dımışın bulağı, Novçalı bulağı, Daş bulaq, Qanqallı bulaq bütün regionda məşhur idi. Maral bulağından Mədətin yurduna qalxanda, Göllü yurddan bir az yuxarı Həmidin komuna doğru sıldırım qayaların arasından çıxan Qaya bulağının suyundan soyuqluğuna görə həmin an içmək olmurdu.

Uşaqlıq illərinin unudulmaz xatirələrindən biri bu bulaqla bağlıdır. Təzəcə sağılmış qoyun südünü bu suda bir az saxladıqdan sonra südün üzərinə yığılmış qaymağın dadını yəqin ki, heç vaxt unuda bilmərik.

Qeyd etmək lazımdır ki, Sədənağac kəndi həmişə türk mənşəli etnosun yaşayış məskəni olmuşdur. Kənd ərazisində dörd qəbiristanlığın qalıqları var idi.

Qəbiristanlıqdan biri Hacı Rzanın (Hacı Ramazannılar tayfasından) oğlu Kərimin evinin arxa tərəfində, bir qəbiristanlıq məktəbin bağı deyilən yerdə, biri isə Məriş İmran oğlu Qəhrəmanovun evinin arxa tərəfində, Quru dərəyə gedən cığırın sol tərəfində yerləşirdi. Dördüncü qəbiristanlıq müsəlman qəbiristanlığı idi. Bu qəbiristanlıq "Qarovul təpəsi"ndən sola doğru, Cəmşid Əliş oğlu Şərifovun evinin arxa tərəfindəki yamacda idi. Qəbiristanlıqda islam dininə aid rəmzlərin olması kənddə sonralar məskunlaşan əhaliyə buranı (XX əsrin əvvəllərinə kimi) əvvəlcə kənd qəbiristanlığı, sonralar uşaq qəbiristanlığı kimi istifadə etməyə imkan verdi.

Yeri gəlmişkən, bu qəbiristanlığın yaranma tarixinə dair yuxarıda qısa bir məlumat vermişdik. 1826-cı ildə "Qarovul təpəsi"ndə yerləşən rus keşikçi məntəqəsi İrəvan sərdarı Hüseynqulu xanın hərbi dəstəsi tərəfindən dağıdılır, burada yerləşən gözətçilər öldürülür. Həmin gözətçilərin müsəlman dininə aid olan hissəsi həmin yerdə müsəlman atributlarının istifadəsi ilə dəfn olunub və o yer, kənd əhalisi ilə məskunlaşandan sonra kənd qəbiristanlığına çevrilmişdir.

Kənd ağsaqqallarının söylədiklərinə görə, XX əsrin 30-cu illərində kənddəki qədim qəbiristanlıqdakı bir neçə qəbirüstü sinədaşı və başdaşını ermənilər, guya "tədqiqat məqsədi ilə" Yerevan və Sevan şəhərlərinə apardılar. Deyilənlərə görə, bu daşlar qədim Albaniya dövrünə aid xaçlı məzar daşları olmuşdur.

Bu əhvalatı yəqin ki, çoxları xatırlayır: 1974-cü ilin mayında məktəbin bağı deyilən ərazidə yer qazarkən qədim bir qəbir aşkar olundu. Bu qəbirdə tapılan əşyaları, insan skeletinin sümüklərini, böyük bir ölçüdə: uzunluğu təxminən 110 sm, eni 80 sm və qalınlığı 70 sm olan, məzar daşını təcili surətdə rayon mərkəzinə, oradan isə Yerevana apardılar. Bu daşın üzərində, ortaya yaxın hissəsində, at üstündə başında xüsusi dəbilqəyə bənzər geyim olan bir döyüşçü, ayaq hissəsində isə əllərini yuxarı qaldıran insan şəkli təsvir edilmişdi. Ekskavatorun çalovunun uc hissəsi daşın yuxarı hissəsini korladığından orada nə çəkildiyini başa düşmək olmadı. Sonralar bu daşın taleyi haqda məlumat verilmədi. Həmin hadisə zamanı orada olan kənd müəllimləri daşın fotoşəklini çəkmədiklərinə görə sonralar çox peşman idilər.

Bu gün böyük təəssüf hissi ilə qeyd etməli oluruq ki, kənddəki qəbiristanlıqlarda Azərbaycan alimləri tərəfindən heç bir araşdırma aparılmadı. Əksər qəbirüstü daşlar ermənilər tərəfindən mənimsənildi. Erməni arxeoloqları həmin daşlar üzərində müəyyən "cərrahi" əməliyyatlar apararaq, əsasən Albaniya dövrünə aid qəbir daşlarının üzərindəki xaçların qurtaracaq hissəsindəki ayşəkilli əyriləri silib düz kəsik halına salmaqla qriqoryanlaşdırırdılar...

KƏNDİN YENİDƏN DİRÇƏLİŞİ

İrəvan Xanlığının Rusiya tərəfindən böyük hərbi qüvvə yeritməklə işğalından bir neçə il sonra, 1831 və 1842-ci illərdə yeni kameral təsvir (əhalini siyahıyaalma - əyal dəftərləri) tərtib olundu. Bu sənədlərdə əhalinin ailə tərkibli adbaad siyahısı ilə yanaşı, kəndin yerləşdiyi məkan, əkinə yararlı torpaqların sahəsi, kəndlərdəki mal-qaranın ümum i sayı, əhalinin hər birinə məxsus mal-qaranın sayı da göstərilirdi.

Sədənağac kəndinin adı bu kameral təsvirlərin heç birində yoxdur. Bu onu göstərir ki, müharibənin bitməsindən 14 il keçməsinə baxmayaraq kənd hələ də məskun deyildir.

İ.Şopenin yuxarıda göstərilən əsərində keçmiş İrəvan xanlığının Göyçə mahalının viranə kəndləri siyahısındakı 67 kənddən biri də 303 saylı "Satanaqaç" (Сатанаrач) kəndidir (136, s.517; şəkil 27). Kəndin adının yaddaşlarda qalması, unudulmaması onu göstərir ki, çox da uzaq olmayan keçmişdə bu kənddə yaşayış olmuşdur. Qeyd etdiyimiz kimi, ardı-arası kəsilməyən müharibələr nəticəsində kənd dağılıb, lakin xalq arasında onun coğrafi mövqeyi, adı yaddaşlarda qalıb və bu məlumatlar İ.Şopenin əsərində ifadəsini tapmışdır.

Yuxarıda qeyd etmişdik ki, Gülüstan müqaviləsi tərəflər arasında sülh yarada bilmədi. Az keçməmiş bəlli oldu ki, sərhəd xətlərinin dəqiqləşdirilmədiyi, daha doğrusu dəqiq təyin edilmədiyi, Qacar hökuməti, İrəvan xanlığı və çar Rusiyası arasındakı mübahisələrin əsas səbəblərindən biri olmuşdur. Rus qoşunları Göyçə gölünün şərq sahilində, Gilli çayının sahilindən Böyük Sədənağac çayının mənsəbinə qədər olan əraziləri qanunsuz olaraq tutmuş, Sədənağacda və Gillidə keşikçi məntəqələri yaratmış (Sədənağac kəndindən Şişqaya kəndinə gedən yolun üstündə "Qarovul" təpəsi adı ilə məlum olan yer) və bu əraziləri, nəyin bahasına olursa-olsun əldə saxlamağa çalışmışdır.

İrəvan sərdarı Hüseynqulu xan bu əraziləri əkinə çevirmək, əhali ilə məskunlaşdırmaq üçün dəfələrlə cəhd etsə də, Rusiya tərəfinin ciddi müqavimətinə rast gələrək bu işi sona çatdıra bilməmişdi. İrəvan sərdarı Qarapapaq elatlarına mənsub ailələri Nağı xanın başçılığı altında Göyçənin dağılmış kəndlərində yerləşdirməklə, bu torpaqları ruslardan qorumaq istəyirdi.

Belə güman edirik ki, Hüseynqulu xan mahalın Daşkənd kəndində məskunlaşan 23 Qarapapaq ailəsini Sədənağac kəndində məskunlaşdırmaq istəyirdi, lakin rusların keşikçi məntəqəsi buna mane olmuşdu.

Əldə etdiyimiz məlumatlara əsasən, Sədənağac kəndinin bir yaşayış məskəni kimi, ikinci dirçəliş mərhələsi, 1831-ci ildə tərtib edilən kameral təsvirə görə Daşkənd kəndində yaşayan,1842-ci ildə isə mahalın Qanlı Allahverdi kəndində qeydə alınan, Qarapapaq tayfasına mənsub kəndxuda Məhəmməd Həsən oğlunun ailəsi (beş oğlu və 1 qızı) və qohum-əqrabası ilə birlikdə buraya köçməsindən sonra başlayır (55, s.81-82, s.163-164).

Babalarımızın söylədiklərinə görə, təxminən 1845-1847-ci illərdə böyük təsərrüfatı olan bu ailə (1842-ci il kameral təsvirdə bu ailənin 4 atı, 30 baş iribuynuzlu, 170 baş xırdabuynuzlu heyvanı olduğu göstərilir) daimi yaşayış məskəni üçün Sədənağac kəndinin yerləşdiyi məkanı bəyənir və burada məskunlaşmağı qərarlaşdırır.

Söylənənə görə, bu ailədə böyük qardaş olan Qəribin ailə üzvləri və qohumlar arasında böyük hörməti olub. Onun ağıllı, uzaqgörən, qabiliyyətli hərəkətləri qardaşlara da əsas verirdi ki, onun məsləhətləri ilə hərəkət etsinlər, onun dediyi ilə durub otursunlar.

Bizim fikrimizcə, 1842-ci ildə tərtib edilən kameral təsvirdə göstərilən 35 saylı Qanlı Allahverdi kəndində yaşayan Əmiraslan Bayraməli oğlu ailəsi ilə və İsmayıl Baba oğlu ailəsi və qardaşları ilə Sədənağac kəndinə köçənlər arasında olmuşlar (55, s.165).

Çünki, 1873-cü ildə tərtib edilmiş kameral siyahıda bu ailələr Sədənağac kəndində qeydə alınmışlar.

Sədənağac kəndi bir yaşayış məskəni kimi, mahalın başqa kəndlərindən bir sıra üstünlüklərinə görə çox fərqlənirdi. Ən başlıca fərq də kəndin coğrafi mövqeyi ilə bağlıdır.

Sədənağac kəndinin coğrafi və strateji əhəmiyyətindən yuxarıda bəhs etmişdik. Təkcə onu qeyd etmək kifayətdir ki, Gülüstan müqaviləsindən sonra İranla Rusiya arasındakı narazılığın əsas səbəblərindən biri rus hərbçilərin Göyçə gölü

ətrafında Sədənağac kəndindən Gilli çayına qədər olan ərazini qanunsuz olaraq zəbt etməsi və buna görə də baş verən toqquşmalar 1826-cı ildə yeni müharibənin səbəblərindən biri idi və bu müharibə nəticəsində İrəvan xanlığı 1828-ci ildə Rusiya tərəfindən işğal olunmuşdu.

Bir tərəfdən Göyçə gölü, digər tərəfdən kəndi əhatə edən Qocadağ, Sarınər, İtkəlləsi kimi dağ zirvələri kənddə daimi olaraq əlverişli iqlim şəraitini, insanların sağlam və gümrah yaşaması üçün normal təbii mühiti təmin edirdi.

Kəndi əhatə edən əkinə yararlı qaratorpaqdan ibarət geniş sahələr, təbii örüş və biçənək sahələri heyvandarlıq və əkinçiliklə məşğul olan insanlar üçün əvəzsiz imkanlar idi.

Yeri gəlmişkən, kənddə bu qədər münbit əkin torpağının olması heç də asanlıqla əldə edilməmişdi. Uzun müddət bu torpaqlar üstündə qonşu kəndlərin sakinləri ilə mübahisələr baş vermişdir. Kənd camaatı bu mübahisələrdə həmişə qətiyyətli, yekdil olmuş, torpaqların başqa kəndlərin sakinləri tərəfdən ələ keçirilməsinə imkan verməmişlər. Bu haqda kənd ağsaqqalları həmişə maraqlı söhbətlər edərdilər.

Sədənağac kəndinin tarixi ilə əlaqəli araşdırmalar zamanı maraqlı bir sənədlə, professor V.Rştuni tərəfindən "XIX əsrdə Ermənistanda kəndli hərəkatı" başlığı altında nəşr edilən arxiv sənədləri toplusunda Yeni Bəyazid qəzasının Quşçu Dərəsi kəndində yaşayan sakinlərin İrəvan qubernatorunun adına göndərdikləri 1870-ci il 9 yanvar tarixli şikayət ərizəsi ilə tanış oldum. Bu ərizəni yazan 21 ailədən ibarət kənd sakinləri 1858-ci ildə Aleksandropol qəzasının Vartanlı kəndindən köçüb gəlmiş və "Quşçu Dərəsi" adlanan kəndi salmışlar (sonralar bu kəndi "Pəmbək" adlandırdılar). Bu kənd Sədənağac kəndindən şimala doğru 6 km məsafədə yerləşirdi. Kəndin salındığı bu ərazilər - XVIII əsrdən Karvansara Dərəsi kimi tanınan və Zod ağalarına məxsus olan kəndin (sonralar Dərə kəndi kimi tanınıb) ərazisi olmuşdur. Karvansara Dərəsində sonralar böyük qoyun ferması tikilmişdir və bu ərazilərdən sürülərin saxlanılmasında istifadə edirdilər.

Ərizədə kənd camaatı Zodlu ağaların əkinə yararlı torpaqları mənimsəmələrindən şikayət edirlər.

Bu şikayətə baxmaq üçün Yeni Bəyazid qəzası rəisinin göstərişinə uyğun olaraq polis pristavı podporuçik Keqamov yoxlama aparmış və yoxlamanın nəticəsini yazılı məruzə ilə qəza rəisinə bildirmişdir.

Keqamov 16 aprel 1870-ci il tarixli məruzəsində yazırdı: "Mənə qəza rəisinin dərkənarı ilə daxil olan 1362 saylı sənədi götürüb Yeni Bəyazid qəzasının Quşçu Dərəsi kəndinə gəldim. Bu kənddə yaşayan Zodlu İbrahim ağa Vəli ağa oğlunun və

Sədənağac kənd sakini Məşədi Hüseyn Hacı Qasım oğlunun iştirakı ilə Quşçu Dərəsi və Karvansara Dərəsinə məxsus torpaq sahələrinin sərhədlərini yoxladım. Yoxlama zamanı aydın oldu ki, hələ 1859-cu ildə yerölçən Novitskinin, ərazilərin sərhədlərini təyin edərkən qoyduğu sərhəd nişanları dəyişmədən yerində durur, torpaqların mənimsənilməsi öz təsdiqini tapmadı. Quşçu Dərəsi kənd sakinlərinin şikayət ərizəsi yazmaqda məqsədləri Zod ağalarının taxıl əkini üçün yararlı torpaqlarını öz əllərinə keçirmək, yaxud da köçüb gəldikləri Vartanlı kəndinə qayıtmağa icazə almaqdır (126, s.168; şəkil 33).

Sədənağac kənd sakini, mənim ulu babam Məşədi Hüseynin də yoxlamada iştirak etməsini onun nəvəsi, bizim babamız Nəsib kişi həmişə bizə danışardı. Babalarımızın söylədiyinə görə, o vaxtlar həmin Quşçu Dərəsi kəndinin sakinləri tez-tez Sədənağac kəndinin əkin torpaqlarına göz dikir və hər dəfə torpaq sahələri arasındakı sərhəd nişanlarının yerini dəyişirdilər. Həmin nişanların yerini dəqiq bilmək üçün polis pristavı ilə ora gələn Məşədi Hüseyn, bütün sərhəd nişanlarının yerini öyrənərək, sonradan kənd qəbiristanlığının iki kəndin sərhədində "Tüklü təpə" yaxınlığında salınmasını təklif edib və beləliklə də kənd camaatı daimi mübahisələrdən, dava-dalaşdan canlarını qurtarıblar.

Sədənağac kəndinin, əhalisinin böyük çoxluğu etnik azərbaycanlılardan ibarət olan Qazax və Gəncə qəzalarının kəndləri ilə yaxın məsafədə olması və bu tərəflərlə, yuxarıda qeyd etdiyimiz kimi, dağ yolu vasitəsilə əlaqə saxlamağın mümkünlüyü Bakı-Tiflis dəmiryoluna çıxışı asanlaşdırırdı.

Kəndin üstündən dağları aşaraq az bir vaxtda, hətta piyada olaraq belə, Gədəbəyə, Qazağa, Tovuza, Gəncə şəhərinə və oradan Azərbaycanın digər bölgələrinə getmək olurdu.

Ayrıca qeyd etmək lazımdır ki, XIX yüzilin ortalarında indiki Gədəbəy ərazisindəki mis filizi yataqlarının kəşf edilməsi və yerli sahibkarlar tərəfindən misəritmə zavodunun tikilməsi ilə əlaqədar olaraq bu yolun əhəmiyyəti olduqca qiymətli idi. Bütün vilayətlərdən, o cümlədən Güney Azərbaycandan adamlar işləmək üçün bura axışıb gəlir və onların yolu əksər hallarda Sədənağac kəndinin içindən keçirdi. İlin bütün fəsillərində Sədənağac kəndi ilə Gədəbəy arasındakı Böyükyoxuş dağ aşırımı gedişli-gəlişli olurdu.

Sədənağacın digər bir üstünlüyü kəndin ortasından keçən mərkəzi yolun Göyçə gölünün şərq və qərb sahillərindəki kəndləri və digər yaşayış məntəqələrini, eyni zamanda yaylaqlara gedən yolları da birləşdirməsi ilə izah olunurdu. Qazax rayonunun bir çox kəndlərinin, o cümlədən Kəsəmən, Poylu, Salahlı, Qarabağlar kənd-

lərinin yaylaqları da bu kəndin üstündəki dağlarda yerləşdiyindən, onların da yolu çox vaxt bu kəndin ortasından keçirdi (27, s.36).

Yuxarıda qeyd olunanlar onu göstərir ki, Sədənağac kəndini daimi yaşayış məskəni seçməkdə Qərib Məhəmməd oğlu və onun ailəsi heç də yanılmamışdı. O zaman kəndin dağıdılmış vəziyyətdə olmasına baxmayaraq, sıx palıd və ardıc meşəliyinin içərisində yerləşməsi, sakinlərin odun təminatı üçün də çox əlverişli idi.

Bundan başqa, kəndin ortasından çay axırdı. Kənd camaatı arasında "Seloy" adlanan bu çay *(rəsmi sənədlərdə "Böyük Sədənağac" çayı kimi göstərilir - müəllif)* (109, s.306) mənbəyini yuxarıda adını çəkdiyimiz dağların bulaqlarından, təbii yağış, qar, buzlaq sularından alaraq axıb Göyçə gölünə tökülürdü. Bu çayın yatağı tikinti üçün yararlı çaydaşı ilə dolu olduğundan kənddə tikinti işi aparmaq o qədər də çətinlik yaratmırdı. Kəndin ərazisində tikinti üçün istifadə edilən "sarı torpaq" adlanan xüsusi gil yatağı da var idi. Bu gildən tikintidə geniş istifadə edirdilər.

Əsas tikinti materiallarının bolluğu xaraba qalmış kəndin qısa bir müddətdə abadlaşmasına təkan verdi. Əvvəlcə müvəqqəti yaşayış evləri, sonralar isə özülü möhkəm olan tikililər, yeni yaşayış evləri tikilməyə başlandı.

YAŞAYIŞ MƏDƏNİYYƏTİ

Məlumdur ki, ev insanların əsas yaşayış vasitələrindən biri olaraq, onların təbii və zəruri istirahətini, təsərrüfat, məişət və həyati tələblərini təmin edir. Buna görə də Qərib və qardaşları, o zaman tikintisi Göyçə mahalında geniş yayılmış, el arasında "Qaradam" adlanan evlər tikmişlər. Bu evlərin etnoqrafik əhəmiyyətini nəzərə alaraq, forması, arxitekturası, tikinti texnologiyası haqda danışmaq istərdik.

Adətən "qaradam"ın tikintisinə başlamazdan əvvəl, ərazinin güney hissəsində "kalafa" (torpaqda qazılmış böyük ölçülü çuxur) yerini ip çəkərək müəyyənləşdirirdilər. El arasında buna "çarpı tutmaq" deyirdilər. Sonra hər bir küncdə xəndək qazırdılar və bu xəndəklərə dörd ədəd ucu haçalı və enli diametrli dirək basdırılırdı. Bu direklər divardan 0,8 -1 m aralı olurdu. Direklərin üstünə, haçaya geyindirilmək şərtilə iki paralel kərən (tir) atırdılar. Qarşı tərəfdən paralel olaraq bu kərənlərin üzərinə digər iki kərən qoyulurdu və bu kərənlər yerdən təxminən 2-2,2 m hündürlükdə formaca düzbucaq və ya kvadrat şəklini alırdı.

Bu kərənlərin üzərinə getdikcə daralan və yaruslarla yuxarı qaldırılan, pilləvari, çoxmərtəbəli künbəz əmələ gətirən kərənlər qoyulurdu. Dam evinin tən ortasında kvadrat formasında baca alınana qədər kərənlər düzülürdü. Baca evə işıq salmaq, habelə evin tən ortasındakı ocağın tüstüsünü havaya çıxarmaq üçün qurulurdu. Günbəz çöl tərəfdən pərdilərlə örtülürdü. Pərdilərin üzərinə çarpılar döşənir və bunlar kövərlə (damın günbəzinə tökülən torpaq qatı) örtülürdü. Çox hallarda, köver salmaq üçün kalafanın içərisindəki torpaqdan istifadə edirdilər. Bir çox hallarda kövərin üstündən "sarı torpaq" deyilən gildən suvaq salınırdı. Qaradamın arxa və yan divarları torpaqla örtüldükdən sonra ön (fasad) divarı daşdan hörülürdü. Burada 1 m enində giriş qapısı qoyulurdu. İnşaat-tikinti mədəniyyəti inkişaf etdikcə qaradamın da tikintisində mühüm dəyişikliklər edilirdi.

XX yüzilin əvvəllərindən başlayaraq qaradamların üç divarını daşdan hörməyə başladılar. Divarlarda iç tərəfdən müəyyən səviyyələrdə daxilə çəkilmiş bir neçə çıxıntılar düzəldilirdi. Bu çıxıntılardan rəf kimi istifadə olunurdu. Orada məişət əşyala-

rı, o cümlədən misdən hazırlanmış səhəng, tabaq, boşqab, tava, sərnic və s. düzülürdü.

"Qaradam"ın ortasındakı təndirin yaxınlığında taxtadan hazırlanmış "kürsü" qoyulurdu. Soyuq havada əvvəlcə təndiri yandırıb isidir, sonra kürsünü irəli çəkərək üstündə oturub isinər, üst-başlarını qurudardılar, gecə yatanda isə kürsüdən çarpayı kimi istifadə edirdilər. Təndirdən eyni zamanda çörək bişirmək üçün də istifadə olunurdu.

Sədənağac kəndində usta olmadığından, təndiri başqa kəndlərdə sifarişlə düzəltdirirdilər. Məlumdur ki, təndir gildən qoyulur, bir neçə laydan ibarət olur. Birinci layı düzəltdikdən sonra onun qurumasını gözləyirlər. Tam olaraq təndirin hazır olması 20 gün vaxt aparırdı.

Təndir hazır olduqdan sonra onu kəndə gətirir, əvvəllər qaradamlarda, sonralar isə ayrıca təndir damında "yerdən" qoyurdular. Döşəmədə torpağı təndirin hündürlüyü səviyyəsində qazıb təndiri ora basdırar, arxasına isə xırda çay daşları doldurardılar ki, istiliyi uzun müddət özündə saxlasın. Sonralar təndir damlarında tüstü çıxması üçün təndirin dibindən maili vəziyyətdə uzunluğu 2.5-3 metr olan "külfə" qoyardılar.

Təndiri yandırmaq üçün əsas yanacaq kimi kərmə və təzəkdən istifadə olunurdu. Kənd əhalisinin böyük əksəriyyəti maldarlıqla məşğul olduğundan ən ucuz və tez başa gələn yanacaq növü kərmə idi. Kərməni qış aylarında hazırlayırdılar. Mal-qara qışda tövlədə saxlanılırdı. Hər dəfə tövləni təmizləmək üçün oradakı peyini həyətə gediş-gəlişin ən çox olduğu yerə ayaq altına tökürdülər. Peyin yavaş-yavaş ayaq altında tapdalanır, qatı kütlə şəklinə çevrilir, tədricən quruyur və bərkiyirdi. Yaz vaxtı istilər düşəndə bu kütləni düzbucaq formasında təqribən 40x40 sm ölçüsündə doğrayaraq qurudurdular. Kərmə quruyandan sonra onları üst-üstə qoymaqla piramida formasında 3-4 m hündürlüyündə "qalaq" tikilirdi. Piramidadakı kərmələr bütün yay ayları möhkəm quruyaraq qiymətli yanacağa çevrilirdi. Bundan əlavə kənd camaatı otlaqlardan iribuynuzlu heyvanların günəş şüaları altında qurumuş peyinini (bu "təzək" adlanırdı) yığıb qalağın içinə doldururdular və qışda yanacaq kimi istifadə edirdilər.

Qaradamda gündüzlər işıq yuxarıdakı bacadan düşür, gecələr isə neftdən istifadə edərək "cıra" yandırırdılar. O zaman neftin qiymətinin çox baha olduğuna görə ondan hamı istifadə edə bilmirdi. Əksər hallarda yerlərdə istehsal edilən bitki yağları: küncüt yağı, kətan yağı və s. nefti əvəz edirdi.

Sədənağac kəndində tikilən qaradamlar uzun ömürlü olmuş, onların tikintisi XX yüzilin əvvəllərinədək davam etmişdi. 1988-ci ilin deportasiyasına qədər bir neçə belə ev hələ qalmışdı. İslam Mehdi oğlunun, Abbasəli Ağamalı oğlunun və Qəşəm İbrahim oğlunun həyətindəki "qaradamların" vəziyyəti əla olaraq qalırdı və onlardan təsərrüfat işlərində istifadə edirdilər.

XX yüzilin əvvəllərindən etibarən qaradamlardan əlavə, daşdan ibtidai yaşayış otaqları da tikməyə başlamışlar. Ön tərəfdən, hər iki evləri birləşdirən küçə (dəhliz) düzəldilirdi. Otaq və qaradamın qapıları küçəyə açılırdı. Küçənin qapısı isə qaradama bitişik olan mal tövləsi və qoyun komunun qapıları ilə birlikdə həyətə açılırdı. Həyətə hasar (barı) çəkilirdi. Hasarı adətən sıx şəkildə kollar əkməklə və ya nazik ağac və kol budaqlarından həsir (buna "çətən" də deyirdilər) düzəltməklə inşa edirdilər. Barını bəzən çay daşlarından da çəkirdilər. Həyət adətən 100 kv metrədək olurdu. Buna "ağıl" da deyirdilər. Yayın isti günlərində qoyunlar burada saxlanılırdı.

Tikilən yaşayış otaqlarının sayı adətən ikidən çox olmurdu. Otağın birindən ev sahibləri yataq otağı kimi istifadə edir, digərini isə qonaq üçün ayırıb, xüsusi zövq ilə bəzəyir, ora yataq üçün yorğan-döşək qoyurdular. Yeri gəlmişkən, kənddə birinci dəfə iki belə ev tikilmişdi. Xıdır Mustafa oğlunun və Məsmalı Rəhim oğlunun evləri, haqqında söhbət gedən evlərdən idi.

Belə evlərdə qonaq otağının interyeri sadə olurdu. Evin bir küncünə taxtadan xüsusi bəzəklə düzəldilmiş sandıq qoyulurdu. Bu sandığın üstünə "yük" yığılırdı. "Yük" bir neçə dəst yorğan-döşək və yastıqdan ibarət olurdu. Otağın divarlarından "tikmələr" (parçaların üzərinə rəngli tikiş saplarından toxunmuş rəsmlər), kilimlər, xalçalar asılırdı.

Otaqların tikilməsi ilə əlaqədar olaraq sonralar "qaradamdan" ərzaq məhsullarının saxlanılması üçün istifadə etməyə başladılar. Eyni zamanda burada çörək bişirir və mətbəx kimi istifadə edirdilər. Qapısı "qaradama" açılan və ona bitişik kiçik bir təsərrüfat xarakterli otaq da inşa edilirdi. Buna "kilar" deyirdilər. Kilar soyuducunu əvəz edirdi. Adətən tez xarab olan məhsullar, o cümlədən qatıq-süd məhsulları burada saxlanılırdı. Bəzi evlərin kilarında su düşməyən yerdə dərin quyular qazılırdı. Bu quyularda əsasən kartof, soğan, kələm, alma-armud saxlanılırdı. Bəzi evlərdə isə quyunu həyətin gün və su düşməyən yerlərində, kilardan qıraqda qazırdılar.

Sədənağac kəndində tikilən evlər bir-birindən azacıq fərqlə, demək olar eyni formada olurdu. Bu evlərin bir çox elementləri Göyçə mahalının digər kəndlərində tikilən evlərlə oxşarlıq təşkil edirdi.

Zaman keçdikcə Sədənağac kəndi genişlənməyə, oradakı evlərin və əhalinin sayı artmağa başlayır. İrəvan quberniyasının 1869-cu ildə tərtib edilmiş kameral təsvirində və Qafqazın 5 verstlik topoqrafik xəritəsinə izahda Sədənağac kəndində 10 evin olduğu göstərilir. 1873-cü ildə bu evlərin sayı 15 olur. 1886-cı ildə Sədənağacda 35 evin olduğu məlumdur.

TƏSƏRRÜFAT

Sədənağacın yüksək məhsuldarlığı ilə fərqlənən, qaratorpaqdan ibarət, kənd ətrafında düzənliklərdə yerləşən 910 ha münbit torpaqlı əkin, 1000 ha örüş və biçənək sahəsi heyvandarlıq və əkinçilik üçün əlverişli şəraiti təmin edirdi.

• *Əkinçilik*

Sədənağacda əhalinin təsərrüfat fəaliyyətinin mühüm sahəsi taxılçılıq idi. Göyçə mahalının bütün kəndlərində olduğu kimi, Sədənağacda da ənənəvi əkinçilik üsullarından istifadə edilərək yerli taxıl növləri: qaraqılçıq, xırdabuğda, kərə, Qarabağ buğdası, yazlıq qırmızı buğda, ağ arpa, şeşəri arpa, qılıcı arpa növləri əkilib becərilirdi. Səpilmə və yetişmə vaxtına görə buğda və arpa payızlıq və yazlıq olurdu. Payız əkini sentyabrda başlayır, təqribən iyunun ortalarından, yazlıq taxıl isə mart ayının sonlarında əkilir, payızlıq taxıldan iki həftə sonra biçilməyə başlanırdı.

XIX yüzilin sonlarına qədər camaat ancaq yazlıq arpa və buğda əkirdi, sonralar isə payızlıq taxıl da əkməyə başladılar. Kəndin qocaman sakinlərindən biri olan İbrahim babanın söylədiklərinə görə, 1892-ci ildə kənddə ilk dəfə olaraq qardaşı Məşədi Əli Məşədi Hüseyn oğlu payızlıq buğda əkmişdir. Həmin ildən başlayaraq kənd camaatı bu işin nə qədər səmərəli olduğunu görərək, yazlıq buğda ilə bərabər, payızlıq buğda da əkməyə başlamışlar.

Taxılçılıqda arpa və buğda üstünlük təşkil edir, qismən darı və vələmir əkirdilər. Çox da böyük olmayan sahələrdə qarğıdalı və pərinc də əkib becərirdilər. Keçən əsrin 50-ci illərindən başlayaraq kolxozda yüksək məhsuldarlığı ilə fərqlənən çovdar əkinlərinə də yer ayrıldı. Yem bitkilərindən isə yonca və xaşa ("qorunca"- espartset) əkirdilər.

"Dolaylar"adlı ərazidə uzun illər darı əkilirdi. "Kərkibaşın komu" adlı sahədə əkilən çovdar yüksək məhsuldarlığı ilə seçilirdi. "Quru dərədə" becərilən pərincdən

yarma alınırdı. Həm fərdi təsərrüfatlarda, həm də kolxozda əkilib becərilən vələmir həm dənli bitki kimi, həm də yaşıl kütlə kimi qaramal üçün yemlərin hazırlanmasında geniş istifadə olunurdu. Atlar üçün vələmir ən yaxşı qida hesab edilirdi.

Torpağın məhsuldarlığını artırmaq üçün ata-babalarımız ənənəvi qaydalara riayət edərək torpağa gübrə (mal və qoyun peyini) verirdilər. Yorulmuş torpaq sahələri bir qayda olaraq dincə qoyulur, növbə ilə digər boş sahələr becərilirdi. Dincə qoyulmuş sahələrdə isə bəzən azotla zəngin olan yonca və xüsusi xaşa (qorunca) növü əkirdilər.

Hasil olunan taxıl məhsulları kənd camaatının çörəyə olan ehtiyacını tam ödəyirdi. Eyni zamanda taxıldan mal-qaranın yemlə təmin olunmasında istifadə edilirdi. Artıq qalan taxıl satışa çıxarılırdı. Kolxoz vaxtı istehsal olunan taxılın çox hissəsi dövlətə verilirdi.

Kənddə texniki bitkilər də becərilirdi. Həyətyanı sahələrin əksəriyyətində fərdi tələbatlarını ödəmək üçün kətan və tütün əkilirdi. Kolxoz qurulduqdan sonra, tütün istehsalı geniş miqyasda inkişaf etməyə başladı. Əvvəlcə tütün şitilini yetişdirmək üçün açıq havada quraşdırılan istixana Qərib Məsmalı oğlunun evinin yanında yerləşirdi. Sonralar bu istixana kəndin aşağı tərəfinə, tütün əkilən sahənin yaxınlığında Gülalı Cəlil oğlunun evinin arxasında yerləşdirildi. Tütünün becərilməsində bütün ailə üzvləri iştirak edirdi. Fevral ayından başlayaraq noyabrın sonlarına qədər becərmə işi davam edirdi. Hasil edilən tütün dövlətə satılırdı. Tütünçülüyün ağır və sağlamlıq üçün zərərli istehsalat sahəsi olmasına baxmayaraq, əhali bu işdən yaxşı gəlir götürürdü.

Kəndin təsərrüfat sahələrindən biri də bağçılıq və bostançılıq idi. Əlverişli iqlim şəraiti burada meyvəçiliyin inkişafına zəmin yaradırdı. Hər bir ailənin fərdi təsərrüfatında, həyətyanı bağ sahəsi vardı. Bağçılığın inkişafı Böyük Vətən müharibəsi illərindən sonra daha da geniş vüsət alır. Kənddə ilk meyvə bağını mənim babamın babası İbrahim Məşədi Hüseyn oğlu salmışdır. Qəşəm İbrahim oğlunun yaşadığı evin həyətyanı sahəsindəki bu bağı kənd camaatı yaxşı xatırlayır.

Kənddəki meyvə bağlarında alma, armud, gavalı, alça, gilas və digər yerli meyvələr yetişdirilirdi. Almanın kərbəlayı, cəfər, vahab, hacıhüseynəli, akska və il, armudun hacımehdi, malaça, qışarmudu və sini növləri geniş yayılmışdı.

Kolxozun 3 ha meyvə bağında yüzlərlə ağacdan meyvə yığılırdı. Kolxoz vaxtı hətta əməkgününə görə kolxozçulara meyvə bölünürdü.

Kənd camaatı bostançılıqla da məşğul olurdu. Bostanlarda müxtəlif göyərtilər, soğan, sarımsaq, çuğundur (pazı), lobya, xiyar, kələm, noxud, yer kökü və s. tərəvəz bitkiləri əkilirdi. Keçən əsrin 70-ci illərinin sonlarına yaxın kənddə payızlıq xiyar

yetişdirilməsi çox geniş yayıldı. İqtisadi cəhətdən böyük üstünlüyə malik olan bu işlə demək olar bütün ailələr məşğul olurdu.

Əkinçilikdə kənd camaatı müxtəlif kənd təsərrüfatı alətlərindən istifadə edirdi. Fərdi təsərrüfatlarda, həyətyanı sahələrdə torpağı şumlamaq üçün qalaqlı şum belindən istifadə edirdilər. Buna kənddə torpağı "belləmək" deyirdilər. Hamarlanmış, diametri təxminən 3-3,5 sm olan yumrulanmış ağac sapa küt üçbucaq formasında, burnu nazik və ensiz, sağ və ya sol yanında ayaqla basmaq üçün çıxıntısı olan (bu çıxıntı "təpkən" adlanır), dəmirdən düzəldilmiş bel taxılırdı. Əvvəlcə beli kənd dəmirçiləri düzəldirdilər. Sonralar sənayenin inkişafı ilə əlaqədar olaraq zavodda düzəldilmiş beldən istifadə etməyə başladılar.

Bellə yanaşı, bostan və tərəvəz sahələrində geniş istifadə edilən alətlərdən biri də kənd dəmirçiləri tərəfindən dəmirdən düzəldilən, küpünə ağac dəstək taxılan müxtəlif forma və quruluşa malik toxadır. Toxa ağır və kəsici olduğundan iş prosesində əkin sahəsinin dərin qatlarına keçə bilir, bununla da alaq otlarını kökündən vurub çıxarmağa və becərilən bitkinin dibini yaxşı yumşaltmağa imkan verirdi. Bostan bitkilərinin yetişdirilməsində və tütün istehsalında geniş yayılmış işlərdən biri də "toxalama" idi.

XX yüzilin ortalarına qədər əkinçilikdə qoşqu qüvvəsi ilə işlədilən şum alətlərindən istifadə edirdilər. Öküzlərə cüt və ya ikitəkərli qara kotan qoşaraq geniş torpaq sahələrini keyfiyyətlə şumlayırdılar.

Keçən əsrin ortalarında traktordan istifadə qara kotanla yer şumlamağı əvəz etdi.

Camaat məhsul yığımı zamanı taxılı biçib dərz vurur və bu dərzləri xırmana (taxıl döyülən yer) daşıyıb yığırdılar. Xırman diametri 50-70 m və bəzən daha böyük olan, külək tutan və hündür yerlərdə düzəldilərdi. Dərzlər xırmana öküz, at, eşşək qoşulmuş arabalar ilə daşınırdı. İri fərdi təsərrüfatların hər birinin öz xırman yeri olurdu. Xırda təsərrüfatlar isə bir neçə ailə bir yerə yığılaraq xırman yeri düzəldirdilər. Xüsusi xırmanlar onun sahibinin adı ilə də tanınardı. Məşədi İbrahimin xırman yeri, Məşədi Əlinin xırman yeri bu yaxınlara qədər yaşlı nəslin danışıqlarında tez-tez işlədilirdi.

Dəyirman üçün ayrılmış taxılı növbə ilə kənddəki su dəyirmanında üyüdürdülər. Bu dəyirman kəndin yuxarı hissəsində "Yolçıxana" gedən yolun sol tərəfində, su arxının üstündə XX əsrdə tikilmişdi. Su dəyirmanında, əsasən kənddə əkilib becərilən "qızıl buğda"nı üyüdərdilər. Qoşunalı Rüstəm oğlu, Xıdır Dünyamalı oğlu, Oruc Rüstəm oğlu, Hüseyn Səfəralı oğlu uzun illər kənddə dəyirmançı işləmişlər. 70-ci illərin əvvəllərində qonşu Şişqaya kəndində böyük elektrik dəyirmanı tikildi və kənd camaatı bu dəyirmandan istifadə etməyə başladı. Çünki bu dəyirmanda müxtəlif növ un üyütmək olurdu.

Taxılın miqdarından asılı olaraq saxlanc şəraiti də müxtəlif olurdu. Məhsul bol olduqda müxtəlif ölçüdə və müxtəlif formada yerdən qazılmış taxıl quyularından istifadə edilirdi. Az məhsulu isə əsasən çuvallarda və kisələrdə çox vaxt evdə, ya da xüsusi taxıl damında saxlayırdılar.

Əkinçilikdə bol məhsul əldə etməyin başlıca yollarından biri süni suvarma sisteminin olmasıdır. Bol şirin suyu olan Böyük Sədənağac çayından ("Seloydan") çəkilmiş arxlar suvarma əkinçiliyinə imkan yaradırdı. Su çıxarılması mümkün olmayan sahələrdə isə dəmyə əkinçiliyi tətbiq olunurdu. Subasar ərazilər ildə bir neçə dəfə biçilən yonca və qorunca sahələri üçün ayrılmışdı.

XIX-XX yüzillərdə bütün İrəvan qubernıyasının kənd təsərrüfatında süni suvarma sistemindən istifadə edilirdi. Bolsulu çayların olması kənd təsərrüfatının inkişafına təsir göstərən əsas amillərdən idi. Dağlıq ərazilərdə əsasən dəmyə üsulundan istifadə edilsə də, düzənlik yerlərində süni suvarma geniş yayılmışdı. Əkin sahələrini suvarmaq üçün yerli sakinlərin çəkdikləri əziyyətlərə toxunan İ.Şopen yazırdı ki, əhalinin nəzəri bilikləri olmasa da, gözəyarı üsulla süni arxlar çəkirlər (136, s.388).

• *Heyvandarlıq*

Sədənağacın ilk sakinləri Məhəmməd Həsən oğlu və onun beş oğlu, el arasında Hacı Qərib qardaşları kimi tanınan: Hacı Qərib, Hüsən, Hacı Ramazan, Kərbalayı Əmrah və Qəhrəman Qanlı Allahverdi kəndindən Sədənağaca köçərkən əvvəldə qeyd olunan 4 atdan, 30 baş iribuynuzlu, 170 baş xırdabuynuzlu heyvandan ibarət olan böyük təsərrüfatı da özləri ilə gətirmişdilər.

Sədənağac kəndinin ətrafında bitən türpəng, çöl vələmiri, dəmirdöyən, qızılbaldır, unnuca, tonqalotu, qırmızıçiçək xaşa, yonca, cülül, pişikquyruğu, toppuz, qaramuq və başqa yabanı bitkilərin çox olması, bu yerlərin maldarlıq üçün əlverişli olduğunu göstərirdi. Sonralar kənddə məskunlaşan əhalinin sayı artdıqca, təsərrüfatların sayı da artırdı. Kənd camaatının hər biri ev şəraitində mal-qara saxlayırdı. Hər ailənin inəyi, qoyunu, keçisi vardı. Bir çox ailələr isə köçmə heyvandarlıqla məşğul olurdular. Belə ailələrdə ailə üzvlərinin bir hissəsi yazda yaylaqlara köçür, payızın sonlarında isə kəndə qayıdırdılar. Ailənin digər üzvləri isə kənddə qalaraq əkinçiliklə məşğul olurdular. Əkinçiliklə əsasən ailənin cavanları məşğul olur, yaşlılar isə mal-qaraya baxırdılar.

Şahdağ silsiləsinin İtkəlləsi və Qoca dağ zirvələrinin arasında, dəniz səviyyəsindən 2700 m yüksəklikdə yerləşən, Maralbulağı adlanan böyük bir düzənlikdə kənd camaatı yaylağa çıxırdı. Yazda yaylağa gedən hər bir ailə burada dəyə (ala-

çıq) qurur, mal-qaranın gecələməsi üçün "ağıl" (hasarlanmış, çəpərlənmiş ərazi) düzəldirdilər. Yaylaq yerinin alp çəmənliklərində otlu biçənəklər az deyildi. Qoç qoruğu, Mədətin yurdu, Qanqallı, Qüzey deyilən otlaqlar və biçənəklər maldarların qolundan tuturdu. Payızın sonuna, havalar soyuyana qədər camaatın yaylaqdakı qismi burada yaşayır, sentyabrın ortalarında isə kəndə qayıdırdılar.

Qoyunçuluqla məşğul olanlar əsasən bozax və balbas qoyun cinsləri saxlayırdılar. Diri çəkisi əsasən 50-65 kiloqrama qədər olan bozax qoyun cinsi ətlik, südlük, yunluq və satış üçün bəslənilirdi. Bozax qoyunun yunu əsasən boz, bəzən ağ, qəhvəyi rəngdə olur. Xalçaçılıqda bu qoyun yunundan geniş istifadə edilirdi.

Balbas qoyun cinsi bozax qoyun cinsinə nisbətən boyca daha hündür, caydaq idi. Sağılma dövründə 125-140 kq-a qədər süd verən bu qoyun cinsi kənd əhli üçün çox əlverişli idi. İri quyruğu olan bu qoyunlardan 3-4 kq-a qədər yun qırxılır, hər yüz baş ana qoyundan 110-115 baş bala alınırdı.

Kənddə merinos qoyunu da saxlamağa başlamışdılar. Bu qoyun cinsini kəndə Gədəbəy rayonundan gətirmişdilər. Bu qoyunlar ətlik kimi, südünün yağlılığına, yüksək keyfiyyətli çox və zərif yununun olmasına görə kənd camaatı arasında yüksək qiymətləndirilirdi. Kolxoz dövründə sürülərin əksəriyyətini merinos qoyunları təşkil edirdi.

Kənd camaatının təsərrüfatlarında keçilər qoyunla müqayisədə az olurdu, əsasən südünə görə hər evdə 5-6 keçi saxlayırdılar, eyni zamanda keçinin əti də yüksək qiymətləndirilirdi. Keçinin yunundan (qəzilindən) iplik, qara çadra, çuval, xurcun, çadır, qoşqu üçün iplər toxuyurdular.

Babalarımız maldarlıqda qoyunçuluğu ən sərfəli və bol məhsul verən sahə hesab edirdilər. Hər ilin yazında və payızında qoyunlar qırxılırdı. Yazda qırxın sürülər yaylağa aparılmazdan əvvəl, payızda isə sürülər yaylaqdan dönən vaxt aparılırdı. Fərdi təsərrüfatlarda qırxını hər bir sakinin özü aparırdı, bu işi kişilər yerinə yetirirdi. Kolxoz təsərrüfatında isə qırxını çobanlar və onların köməkçiləri aparırdılar. Kolxoz vaxtı qırxın çox təmtəraqla təşkil olunur, bəzən qırxın yarışları təşkil edilirdi. Qalib gələnə mükafat verilirdi. Yaxşı yadımdadır, 1974-cü ilin yaz qırxınında kolxoz fermasının müdiri dayım Cəlal Yusif oğlu ilə yarışa girdik. Gün ərzində əl qırxılığı ilə Cəlal dayım 33 qoyun, mən isə 37 qoyun qırxa bildim və dayıma qalib gəldim. Mükafat olaraq mənə bir quzu verdilər. Ancaq əllərim bu işdən sonra bir neçə gün möhkəm ağrıdı.

Maldarlıq əhalinin ət, süd, yağ məhsullarına tələbatını ödəyir, gön tədarükünü təmin edirdi. Hər bir şəxsi təsərrüfatda inək saxlanırdı. Adətən iribuynuzlu heyvanların sayı 2-10 baş arası olurdu. Hər evin ən azından bir sağmal inəyi olmalı idi ki, ailənin südə və süd məhsullarına olan tələbatını ödəmək mümkün olsun.

Kənd naxırlarında ən çox gözə çarpan əsasən qızılı rəngli, bəzən, qara, boz və sarı rəngli Kiçik Qafqaz və əsasən qara rəngli, bəzən də başqa rəngli Böyük Qafqaz cinsi üstünlük təşkil edirdi. Sonralar molokanların bu ərazilərdə yerləşdirilməsi

ilə əlaqədar olaraq kənddə Rusiyadan gətirilmiş və ev şəraitində saxlanılan başqa qaramal cinsləri - "urset inəyi" də göründü.

Kiçik və Böyük Qafqaz cinsləri yarımköçmə maldarlıq şəraitinə tam uyğunlaşmış heyvanlardır, həm ev şəraitində saxlanılır, həm də yaylaqda otarılır. Yerli iqlimə tez uyğunlaşaraq, qışı sərt olan, çətin dağ şəraitində özünü örüşlərdə yemlə təmin etməsilə seçiyyələnir. Sədənağac kəndinin sıldırımlı dağ keçidlərindən keçərək otlaqlara gedib-gəlməyi bacarır, oturaq şəraitində isə kənd ətrafındakı örüşlərdə otarılırdı. Orta çəkisi 300-350 kq-a qədər olan bu cinslər məhsuldarlığına görə o qədər də fərqlənmirdi. Südü yağlı olsa da, nisbətən az idi.

Qoyunu və inəyi gündə iki dəfə sağırdılar. Bu işi həmişə qadınlar görürdü. Fərdi təsərrüfatlarda bu işi tövlədə görürdülər. Ailə üzvlərinin əksəriyyəti sağımda iştirak edirdilər. Kolxozun qoyun sürülərini və inəkləri yaylaq vaxtı arxaclarda sağırdılar. Həm qoyun fermasının, həm də inək fermasının bir neçə sağıcısı bu işlə məşğul olurdular, çobanlar, naxırçılar, quzuçular və onların köməkçiləri sağımda sağınçılara kömək edirdilər.

Sağılmış süd süzgəcdən kecirilərək süzüldükdən sonra təyinatı üzrə istifadə edilirdi.

Kənd camaatı qaramaldan: öküzdən qoşqu heyvanı kimi əkinçilikdə və nəqliyyatda geniş istifadə edirdilər. Məhsul yığımı zamanı xırmanlarda öküzlərin gördüyü işlər əvəzsiz idi. Eyni zamanda öküzlər arabalara qoşulur, nəqliyyat vasitəsi kimi yüklərin daşınmasında istifadə olunurdu. Kolxozun öküzlüyü var idi. Müxtəlif zamanlarda kənddəki öküzlərin sayı 70 başdan çox olurdu. Uzun illər kəndin həm fərdi, həm də kolxoz təsərrüfatı fəaliyyətində çoxsaylı öküz arabalarından istifadə edilmişdir.

Kənd sakinlərinin gündəlik məişətində atlardan həm nəqliyyat vasitəsi kimi, həm də təsərrüfat işlərində geniş istifadə edirdilər. Əsasən Ərəb və İran cinsindən olan atlar saxlanılırdı. İmkanlı kənd sakinləri isə bəzən Qarabağ cinsindən olan at alırdılar. Bu atların qiyməti çox baha olduğundan hamı ondan istifadə edə bilmirdi. Yaxşı atı yanı balalı inəyə dəyişirdilər. Kolxoz zamanı atçılıq təsərrüfatı böyümüş, 200 başdan çox olmuşdu.

Təsərrüfat işlərində eşşək və qatırdan da istifadə edilirdi. Bu heyvanların saxlanması ucuz başa gəldiyindən fasiləsiz ağır işlərdə böyük xeyir verirdi. Eşşək və qatırlardan su, odun, ot və ağır yük daşınmasında istifadə edilirdi. Nəqliyyat vasitəsi kimi qatırın əhəmiyyəti daha böyük idi.

Kənd əhalisinin ən mühüm və daha çox zəhmət tələb edən vəzifələrindən biri qış aylarında mal-qaranı yemlə təmin etmək olmuşdur.

Sədənağacın rəngarəng və zəngin bitki örtüyünə malik geniş otlaqları yazdan payıza qədər mal-qaranı lazımi qədər ot-alafla təmin edirdi. Ancaq qış ayları üçün tövlə şəraitində saxlanılan mal-qaraya alaf tədarük edilirdi.

Bu məqsədlə yay aylarında biçənəklərdən ot biçilirdi. Biçənəklərdə ot tərkibinə görə müxtəlif olurdu. Kənd sakinlərinin bir çoxu biçənəklərdə çoxillik ot bitkisi olan qorunca, bəzən də yonca əkirdilər. Otu əsasən kərənti ilə kişilər biçirdi. Kolxozda keçən əsrin 70-ci illərindən başlayaraq düzənlik yerlərdə otbiçən maşınlardan istifadə etməyə başladılar. Ot biçildikdən sonra hava şəraitindən asılı olaraq bir neçə gün sahədə tam qurudulurdu. Qurudulmuş ot dırmıqla toplanaraq "xotmaya" vurulurdu, yonca və ya qoruncadan isə "xorum" düzəldilirdi. Biçənək tam biçilib yığıldıqdan sonra münasib bir vaxtda otu lazım olan yerə daşıyır və taya vururdular. Fərdi təsərrüfatlarda tayanı dairəvi, 3-4 m diametrdə, şiş uclu, 5-6 m hündürlüyündə düzəldirdilər. Mal-qaranın sayından asılı olaraq tayaların da sayı müxtəlif olurdu. Kolxozda isə, xırman adlanan ərazilərdə uzunluğu 70 m, eni 14 m, hündürlüyü 8-10 m olan, "balıqbeli" tayalar düzəldilirdi. Bu tayalara ot texnikanın köməyi ilə vurulurdu.

Hər bir təsərrüfatın saman yığmaq üçün samanlığı olurdu. Samanlıq üstü və yanları bağlı, qara damlara yaxın yerdə düzəldilirdi. Xırmanda taxıl döyüldükdən sonra yerdə qalan samanı yığıb bu samanlıqlara doldururdular. Qış vaxtı isə səbətlərlə daşınaraq heyvana verilirdi.

Qış vaxtı tövlə şəraitində saxlanılan mal-qaraya gün ərzində bir dəfə su və üç dəfə yem verirdilər. İribuynuzlu mallara əsasən saman, kəpək, qoyunlara isə arpa, ot, qoşqu və nəqliyyat kimi istifadə edilən heyvanlara arpa, saman, bəzən də ot verirdilər.

Fərdi təsərrüfatların əksəriyyətində tövlə şəraitində toyuq, qaz, ördək və hind toyuğu saxlanılırdı.

Taxılçılığın geniş inkişaf etməsi kənddə kolxoz zamanı bir neçə il toyuq fermasının geniş fəaliyyət göstərməsinə şərait yaratdı. Bu ferma "Seloyun" (Böyük Sədənağac çayının) sağ sahilindəki hündürdə, Oruc Vəliyevin evinin qarşı tərəfində tikilmişdi. Sonralar rayon rəhbərliyinin göstərişi ilə bu ferma bağlandı və həmin ərazi maşın-traktor parkına ayrıldı.

• *Arıçılıq*

Sədənağac kəndinin əlverişli iqlimi, zəngin bitki örtüyü iqtisadi cəhətdən gəlirli olan arıçılığın inkişafını şərtləndirmişdi. Kolxozun arı fermasında 150 arı pətəyi saxlanılırdı. Kolxozda hər əməkgününə bal da verilirdi. Əhalinin çox hissəsi arıçılıqla məşğul olurdu. Hər bir evin həyətində arı pətəkləri dururdu. Uzun illər kənddə arıçılıq fermasının müdiri işləmiş Qəşəm İbrahim oğlu, Zeynalabdı Məsmalı oğlu, Zeynalabdı Muxtar oğlu, Şura Məmməd oğlu, Məmmədxan Nəsib oğlu kənddə təcrübəli arıçılar kimi tanınırdılar. Arıçılıq peşə kimi nəsildən-nəsilə ötürülərək bu günə qədər gəlib çatmışdır.

Deportasiyadan sonra Azərbaycanın kənd və rayonlarına yayılmış sədənağaclıların çoxu bu gün də arıçılıqla məşğul olurlar. Zirəddin Məmmədxan oğlu, Maksim Camal oğlu, Vahid Qiyas oğlu, İbrahim Əmirxan oğlu, Mübariz Məhərrəm oğlu, Kərəm Aslan oğlu, Nəcəf Ziyad oğlu və bir çox başqalarını misal göstərmək olar.

• *Xalçaçılıq*

XIX yüzilin ikinci yarısından başlayaraq kənd camaatının əsas məşğuliyyətinin bir qolu olan qoyunçuluğun sürətli inkişafı, evlərdə yun ehtiyatının çoxalması əhalinin ənənəvi məşğuliyyəti olan xalçaçılığı canlandırmışdı. Boyca hündür, caydaq, yağlı südü olan balbas və bozax qoyun cinslərinə üstünlük verən əhali, bu qoyunların birindən süddən əlavə, 3-4 kq yun qırxır və əldə edilən yunun bir hissəsi ticarət məhsulu kimi, xammal şəklində satılır, qalan hissəsi isə yerli istehsala sərf olunurdu. Yundan müxtəlif dekorativ sənət növlərində, məişətdə geniş istifadə edirdilər. Qadınlar yundan yorğan, döşək, mütəkkə düzəldirdilər. Kənddə hər evdə ailənin istifadəsindən əlavə qonaq-qara üçün bir neçə dəst əlavə yorğan-döşək saxlanırdı.

Əlbəttə, kənd qadınlarının məşğuliyyətləri arasında xalçaçılıq xüsusi yer tuturdu. Xalça, kilim, palaz, çuval və s. əşyalar toxumaqla demək olar bütün evlərdə məşğul olurdular. Məişətdə, yaylaq günlərində keçədən istifadə olunsa da, Sədənağacda keçəçiliklə məşğul olmurdular, lazım olanda keçəni kənardan alırdılar. Xalçaçılığın inkişafı onunla bağlı olan sahələrin: yunəyirmə, iplərin boyanması kimi köməkçi sahələrin də inkişafına təkan vermişdi.

Xalçaçılqda istifadə edilən yun bir neçə texnoloji emal prosesindən keçirilirdi. Yunu isti su ilə yuyaraq müxtəlif mineral duzlardan və kirdən təmizləyirdilər. Kənddə adətən yunu isti havalarda axar suda: bulaq başında, çay və su arxının kənarında yuyurdular. Yunu islatdıqdan sonra bükərək yekə bir daşın üstünə qoyur, ağır ağacla vururdular və ya ayaq altında döyəcləyirdilər. Bu proses yun təmizlənənə qədər davam edirdi. Yun yuyulduqdan sonra elə yuyulduğu yerdə daşların, otların və ya hər hansı bir palazın üzərində qurudulurdu.

Yun qurudulduqdan sonra onu elastik çubuqla çırpırdılar. Elastik çubuq (yun çubuğu) adətən itburnu kolunun və ya dağlarda bitən gərməşov ağacının nazik budağından olurdu. Sonra isə didişdirmə yolu ilə yad əşyalardan təmizləyirdilər. Təmizlənmiş və didilmiş yun dişli dəmir daraqlarda daranırdı. Bu daraqları kənd sənətkarları üçbucaq formasında taxta üzərində çoxlu sayda ucu itilənmiş, 9-11 sm uzunluğu olan dəmir dişlərdən düzəldir, çox vaxt da oturacaq üzərində quraşdırırdı-

lar. Kənddə hər bir evdə belə daraq var idi. Yun daranaraq "piltə" halına salınır, "çöpük"dən aralanırdı. Piltə yunun "kilkədən" təmizlənmiş hissəsidir. Yun daranan zaman daraqda ilişib qalmış yun qalığı "çöpük" adlanırdı. Bu çöpükdən sonralar çatı, sicim, xurcun və s. hörmək üçün istifadə edirdilər.

Xalçaçılıqda ipliklərin boyanması mühüm işlərdən biri hesab olunur. Adətən ipliklər xalq üsulu ilə təbii yolla, əsasən də bitki mənşəli boyaq tərkibləri ilə boyanırdı. Zahirən sadə görünən bu iş üsulu boyaqçıdan böyük məharət və bilik tələb edir. Kənddə ayrıca boyaqçılıqla məşğul olmurdular. Əsasən xalça toxumağı qərarlaşdıran hər kəs bu işi özü, daha təcrübəli qonşuların köməyi ilə görürdü.

Kənd ərazisində bitən müxtəlif bitkilərin yarpağı, çiçəyi, qabığı, kökü, oduncağı, meyvəsi, toxumu boyaq məhsullarının hazırlanmasında istifadə edilirdi. Məsələn, sarı rəngi almaq üçün "kol alması" (cır alma), soğan qabığından istifadə edirdilər. Yun ipliyi boyamaq üçün yovşan və zirincin qısa budaqları, təzəcə yetişən qozun yaşıl qabığından, palıd və söyüd ağacından istifadə edirdilər.

İplikləri boyama, həmçinin boyanmaya hazırlıq prosesi zamanı daha keyfiyyətli boyanmış ip almaqdan ötrü ipin keyfiyyətinə xüsusi fikir verilirdi, boyaq bitkilərini vaxtlı-vaxtında toplayırdılar. İplikləri boyanmaya hazırlamaq üçün aşqarlayırdılar. Aşqarlamaq üçün boyaqçılar adətən ip kələflərini turş qatı məhlula salırdılar. Bu məhlulu hazırlamaq üçün zəy, ayran, duz və ya sirkə kimi bərkidici maddələrdən istifadə edirdilər.

Kənddə ip boyamaq üçün bir neçə iri paxır mis qazanlar saxlanılırdı. Bu qazanlar Mehdi oğlu İslamın qara damında saxlanılırdı və lazım gəldikdə hər kəs oradan götürə bilirdi. Boyamaq üçün ipləri bu qazanlarda qaynadırdılar. Mis qazanda boyanmış iplərin keyfiyyəti çox yüksək olurdu, iplik boyanı daha yaxşı götürürdü.

Adətən ipliklərin boyanması payız fəslinin sonlarında başlayırdı. Çünki heyvandarlıqla məşğul olan kənd camaatının boş vaxtı qış fəslində daha çox olurdu.

Sədənağac kəndində xovlu (xalça, xalı, gəvə və s.) xalçalarla yanaşı, xovsuz xalçalar (palaz, kilim, cecim və s.) da toxunurdu. Eyni zamanda xovsuz və xovlu xalça texnologiyasından istifadə etməklə məişət əşyaları (mərfəş, xurcun, heybə, taxtüstü, yəhərüstü, duz qabı, çömçədan və s.) da toxunurdu (şəkil 41).

Bu toxunan xalçalar və xalça məmulatları naxış elementlərinin özünəməxsus incəliyi, rənglərinin zənginliyi, orijinallığı və fəlsəfiliyinə görə digər regionlarda toxunan xalçalardan seçilirdi. Əksər xalçalarda əsas ornamental xüsusiyyətlərdən birini mərkəzi gölün ətrafında geniş rəng fonunun yaradılması təşkil edir. Müxtəlif çalarda qırmızı, tünd sarı, yaşıl, mavi rənglərdən daha çox istifadə olunurdu. Bu xalçalarda

əfsanəvi epik heyvanlar, simurq quşu , dəvə və dəvə karvanları kimi qədim motivlər əks olunurdu.

Xalçaların üzərində türk mifologiyasına aid müxtəlif atributlar, flora və faunanı əks etdirən naxış kompozisiyaları müxtəlif süjetlər və ya ornamentlərlə təsvir olunurdu. Bir çox hallarda xalçanın üzərində onun toxunma ili və toxuyanın və ya həsr edildiyi şəxsin (kimin üçün toxunduğu) adı göstərilirdi. Göyçə mahalının əsrarəngiz və zəngin təbiəti bu kəndin xalçalarında xüsusi çalarlarla, müxtəlif rəng kompozisiyalarının çoxçeşidli boyaları ilə ifadə edilirdi.

Kənddə toxunan xalçalar adətən xovunun uzunluğuna görə başqa regionlardan fərqlənir.

Kənddə bir evdə xalça toxunanda, qədim adətə görə kənd qadınları xalça toxuyana köməyə ("iməci") gedirdilər. Hər gün hana arxasında ən azı üç toxucu əyləşirdi.

• *Dəmirçilik*

Sədənağac kəndinin təsərrüfat həyatında mühüm yer tutan vacib sənət növlərindən biri dəmirçilik idi. Kənd böyüdükcə, camaatın məişət və təsərrüfat həyatında dəmir məmulatına tələbat gündən-günə artırdı. Bu tələbatın ödənilməsi dəmirçiliyin inkişafına təkan verdi. Qədim el sənəti kimi formalaşaraq bu günümüzədək yol gələn dəmirçiliyin kənd təsərrüfatı işlərində ayrıca yeri vardı. Məişət və təsərrüfat alətlərinin əksər hissəsinin son illərə qədər dəmirçixanalarda hazırlanması təsadüfi deyildi. Çünki ən kustar üsulla balta, bel, kürək, dəhrə, dəryaz, oraq, çəkic, kərki, bıçaq və sair alətlər poladqatlı dəmirdən hazırlanırdı ki, onlar həm uzunömürlü, həm də ucuz olurdu. Dəmir ustaları təcrübə nəticəsində metalların xassələrini dərindən öyrənməklə istehsal texnologiyasını təkmilləşdirərək daha mükəmməl əmək alətləri hazırlayırdılar.

Kənddə ilk dəmirçixana Mirzalılar nəslindən olan Məşədi Məmmədvəli Mirzə oğlu tərəfindən təşkil edilmişdir. Bu dəmirçixananın yeri keçən əsrin 70-ci illərinin sonlarınadək dururdu. Həmin yer Şamil Rzayevin evinin arxa tərəfində Abduləli kişinin evinə doğru, Ziyadxan Rsayevin tövləsinin arxa tərəfində, küncdə, böyük alça ağacının altında idi. Məşədi Məmmədvəli mahir bir usta olaraq kənddə həm dəmirçilik, həm də ağac ustalığı edirdi.

O zaman dəmirçixananın istehsal ləvazimatı körüklü kürədən, onun yanında yerə bərkidilmiş qarağac kötüyündən, ona bərkidilmiş müxtəlif növ zindanlardan, xart çarxı və onun təknəsindən, məngənə, kirə və s. ibarət idi. Dəmirçixanada geniş

çeşiddə istehsal alətləri: cürbəcür ölçülü çəkiclər, müxtəlif formalı kəlbətinlər, çoxsaylı kəsici, deşici, yeyələyici, ovxarlayıcı və s. alətlər işlənirdi. Bu alətlərin əksəriyyətini Məşədi Məmmədvəlinin özü düzəltmişdi. Bu dəmirçixanada həm təmir işləri görülür, həm də kənd camaatı üçün lazım olan dəmir alətlər düzəldilirdi. O dövr üçün mühüm nəqliyyat növü olan arabalar, onların ehtiyat hissələri, əkinçilik və maldarlıq üçün lazım olan müxtəlif alətlər də bu dəmirçixanada düzəldilirdi.

XX əsrin əvvəllərində kənddə daha bir dəmirçixana açılır. Bu dəmirçixana "məktəbin bağı" adlanan sahənin sol küncündə Məmməd oğlu Allahverdinin evinin sol tərəfində yerləşirdi. Burada molokan Fyodor uzun müddət dəmirçi işləmişdir.

Sonralar 50-ci illərin əvvəllərində Eyvaz Sayad oğlu Cəlilovun evində (bu ev Xanlar Cəlilovun evinin ön tərəfində yerləşirdi) yeni bir dəmirçixana təşkil edildi. Eyvaz Sayad oğlu bu dəmirçixanada həm kənd camaatına xidmət edir, həm də kolxoz sifarişlərini yerinə yetirirdi. Sonralar, 1969-cu ildə Eyvaz Sayad oğlu Azərbaycana, Şəki rayonunun üzümçülük sovxozuna köçdüyündən, həmin dəmirçixana bağlandı.

Kənddə daha bir dəmirçixana Babalılar nəslindən Qiyas Mürsəl oğlu tərəfindən açıldı. Qiyas dayı (o zaman kənddə biz ona belə müraciət edirdik) kamil bir dəmirçi olaraq bütün mahalda ad qazanmışdı. Misilsiz bacarığı və qabiliyyəti olan bu sənətkar təzə məmulat düzəltməklə yanaşı, sınıb korlanmış, yaxud kütləşmiş alətləri təmir etməklə də məşğul olurdu. Eyni zamanda ağac məmulatları ilə bağlı olan bütün dülgərlik, xarratlıq işlərini bacarır və keyfiyyətlə yerinə yetirirdi.

Kənd əhalisinin əksəriyyəti əkinçiliklə məşğul olduğundan, dəmirçixanalar əsasən təsərrüfat alətlərinin istehsalı və təmiri üzrə ixtisaslaşırdılar. Ən zəruri təsərrüfat alətləri olan kotan hissələrini, bel, yaba, dırmıq, zəncir, oraq, kərənti (dəryaz), toxa və s. bütün il boyu təmir və tədarük olunurdu. Dəmirçixanalarda bəzən məişət əşyaları: sac, kəfkir və s. düzəldilirdi. Eyni zamanda kənd dəmirçiləri "carxatutma" əməliyyatları ilə də məşğul olurdular. Bu iş heç də asan başa gəlmirdi. Müəyyən qədər peşə məharəti tələb edən bu əməliyyata düzgün əməl etmədikdə alətin tiyəsi qızır və ağzının bir üzü çox yonulub əks tərəfə qatlanırdı. Kənd dili ilə buna "qılov" deyilirdi. Qılovlu alət kəsərdə küt və yorucu olur.

Kütləşmiş kəsici alətlər (balta, dəhrə, qiyməkeş və s.) ovxarlama üsulu ilə itilənib yenidən işlək hala salınırdı. Bu məqsədlə alətin ağac dəstəyini çıxarıb tiyəsini kürədə qızdırandan sonra məngənə arasında tutub isti-isti yeyələyirdilər. Əgər alətin künəsi çox qalın olarsa, onu bir-iki əl istidöymə yolu ilə döyüb nazildir, sonra ovxarlayırdılar. Ovxarlama əməliyyatı əvvəlcə iri dişli, sonra xırda dişli, nəhayət, sonda narın dişli yeyə ilə görülürdü.

Ölkənin sənaye inkişafı yoluna qədəm qoyması, ömrünü başa vurmaqda olan bir sıra kustar sənət sahələri kimi, dəmirçilik sənətinin də aradan çıxmasını sürət-

ləndirdi. İlk vaxtlar bəzi məhsulların istehsalının məhdudlaşması üzrə gedən həmin proses tədricən kustar dəmir məmulatı istehsalının bütün sahələrini bürüməyə başlamışdı. Bir tərəfdən təsərrüfat və ev məişətində işlənən əmək alətlərinin sənaye üsulu ilə istehsalının artması, digər tərəfdən isə kənd təsərrüfatı maşınlarının, alətlərinin kütləvi istehsalı qarşısında bu qədim sənət davam gətirmədi.

• *Nalbəndlik*

Kənddə əhali arasında nalbəndliklə məşğul olanlar da var idi. Mirzalılardan Məmmədvəli Mirzə oğlu, Allahverən Yusif oğlu, sonralar Xanlar və Eyvaz Sayad oğulları, yuxarıda adını çəkdiyimiz Qiyas dayı kamil nalbəndlərdən olaraq, kənd camaatının, eyni zamanda yaylaq vaxtı yaylağa çıxan elatın bu peşəyə olan tələbatını tam ödəyirdilər. Yaz-yay aylarında digər rayonlardan da kəndin dağlarındakı yaylaqlara gələnlərin sayı hədsiz dərəcədə çox olduğundan bu sənətə ehtiyac böyük idi.

Bu sənətkarların hər biri həm nalı, həm də onun mıxını özləri düzəldirdilər. Nal vurmaq üçün nalbəndlər çəkicdən, kəlbətindən, yonqardan istifadə edirdilər. Hər bir ustanın zindanı, müxtəlif çeşiddə və çəkidə çəkici olurdu. Bir atı nallamaq üçün nalbənd ona yarım saata qədər vaxt sərf edirdi. Əvvəlcə atın dırnaqları yonqarla yonulur, sonra ayağının ölçüsünə uyğun nallanır. Mıxı elə vururdular ki, mayaya düşməsin. Yoxsa at yeriyəndə axsayardı.

Kənd ərazisindəki otlaqlar daşlı olduğuna görə, kənd camaatı iribuynuzlu mal-qaranı da nalladırdı ki, hərəkət edəndə heyvanın dırnağı daşlardan qorunmuş olsun. Nallanmış heyvanların dağlıq şəraitdə otlaqlara qalxması da asan və rahat olurdu, heyvanların dırnaqları sınmırdı.

Sənaye istehsalı inkişaf etdikcə nal və mıx da istehsal olunmağa başladı. Nal və mıxı əhali hazır şəkildə mağazalardan alırdı. Buna baxmayaraq bu sənət mövcudluğunu davam etdirirdi.

KOLXOZ İLLƏRİ

Bütün Sovetlər İttifaqında olduğu kimi, Sədənağac kəndində də 1930-cu ildən başlayaraq, 1932-ci ilin sonunadək bolşeviklər yerli sakinlərin mal-qarasını, əkinçilik və maldarlıq üçün istifadə etdikləri avadanlıqları, alətləri zorla bir yerə toplamaqla, kolxoz quruculuğuna start verdilər.

Kolxoz quruluşuna qədər, təxminən 1928-ci ildən başlayaraq bolşeviklər kənddə yeni idarəetmə sistemi yaratmağa başlamışdılar. Bu sistemi Şura özəyi adlandırırdılar. Şura özəyinin birinci sədri Koluxlulardan Məmməd Xəlil oğlu İbrahimov seçildi. Kənd Şura özəyinin sədri eyni vaxtda kənd komsomol və kommunist (bolşeviklər) partiyasının təbliğat qrupunun sədri hesab edilirdi.

Kolxoz quruluşuna başlandıqdan sonra Şura özəyinin yerinə, yeni ərazi idarəetmə sistemi - kənd Sovetliyi yaradıldı. Rayonun Şişqaya, Göysu və Sədənağac kəndləri bir Sovetlikdə - Şişqaya kənd Sovetliyində birləşdirilərək, mərkəzi Şişqaya kəndi olmaqla, Şişqaya kənd Sovetliyi təşkil edildi.

Kənd Sovetini idarə etmək üçün onun sədri seçilirdi. Sovetlər dövründə bu vəzifəyə ancaq Şişqaya kənd sakinləri seçilmişdir. Kənd Soveti sədrləri aşağıdakı şəxslər olub:

1. *Bağır Abbasov*
2. *Bağış Sadıqov*
3. *Cavanşir Zalov*
4. *İbrahim Hüseynov*
5. *Qostan Yusifov*
6. *Güllər Süleymanova*
7. *Alışan Haqverdiyev*

Sədənağac kəndində kolxoz təşkil edildikdən sonra onun ilk idarə heyətinin sədri Hüsənlilərdən Mürsəl Məhərrəm oğlu təyin edilmiş və bu vəzifəni 1935-ci ilə

qədər icra etmişdir. Kolxozun ilk hesabdarı isə Hacı Ramazanlılardan Allahverdi Hacı Rza oğlu oldu. Sonralar kolxoz idarə heyətinin sədrlərini müəyyən səbəblərə görə dəyişməyə başladılar.

Sonrakı illərdə kənddə kolxoz idarə heyətinin sədri vəzifəsinə seçilmişlər:

1. İslam Xıdırov, 1935-1937-ci illər, Kiçik Məzrə kənd sakini.
2. Məhəmməd Mazanov, 1937-1939-cu illər, Çəmbərək (Krasnoselo) rayonunun Cil kənd sakini.
3. Musa Bayramov, 1939-1941-ci illər, Şişqaya kənd sakini.
4. Mehbalı Qazıyev, 1941-1943-cü illər, Zod kənd sakini.
5. Ziyaq Şərifov, 1943-1945-ci illər, Güney kənd sakini.
6. Cavad Həsənov, 1945-1949-cu illər, Kiçik Məzrə kənd sakini.
7. Ziyaq Şərifov, 1949-1952-ci illər, Güney kənd sakini.
8. Abbas Əhmədov, 1949-1952-ci illər, Dərə kənd sakini.
9. Məmmədsöyün Allahverdiyev, 1952-1953-cü illər, Kəsəmən kənd sakini.
10. Abbas Əhmədov, 1953-1957-ci illər, Dərə kənd sakini.
11. Tapdıq Cəfərov, 1957-1961-ci illər, Şişqaya kənd sakini.
12. İsmayıl Əliyev, 1961-1965-ci illər, Güney kənd sakini.
13. Abbas İbrahimov, 1965-1969-cu illər, Güney kənd sakini.
14. Cavanşir Zalov, 1969-1973-cü illər, Şişqaya kənd sakini.
15. Firidun Məmmədov, 1973-1977-ci illər, Güney kənd sakini.

Yeri gəlmişkən, 17 oktyabr 1946-cı ildə Güney kənd kolxoz idarə heyətinin sədri Cavad Musa oğlu Həsənov SSRİ Ali Sovetinin fərmanı ilə "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir (X № 351847; şəkil 35).

Kolxozun əsas təsərrüfat sahələri əkinçilikdən və heyvandarlıqdan ibarət idi.

Heyvandarlıqda maldarlıq və qoyunçuluq üstünlük təşkil edirdi. Kolxozun həm maldarlıq, həm də qoyunçuluq fermaları var idi.

Kolxoz inkişaf etdikcə istehsal sahələri də genişlənirdi. Müəyyən vaxtlarda kolxozda quşçuluq, donuz fermaları və 150 arı pətəyindən ibarət arıçılıq fermaları təşkil edildi. Kolxoz üç hektara yaxın ərazidə meyvə bağı saldı. Arpa və buğda ilə yanaşı çovdar istehsalı da inkişaf etdirilməyə başladı.Yem bitkilərindən xaşa (qorunca) əkməyə başladılar. 50-ci illərdən başlayaraq kənddə tütünçülüklə də məşğul olmağa başlamışdılar.

1950-ci illərin əvvəllərinədək kolxozda maddi-texniki baza çox zəif idi. Lazım olan traktorlar, texnika, avtomobillər demək olar yox idi. Əkin sahələrini öküz qoşul-

muş kotanla şumlayır, yükləri öküz arabaları ilə daşıyırdılar. Bütün ağır işlər insanların fiziki gücünün hesabına görülürdü. Buna baxmayaraq kolxoz inkişaf edirdi. Kolxoz inkişaf etdikcə maddi təchizatı güclənir, istehsal sahələri genişlənir, texnika ilə təminatı möhkəmlənirdi.

Kolxozun orta hesabla hər il 400 baş iri (onun 120-150 başı sağmal) və 3000 baş xırda buynuzlu heyvanı, 150 arı ailəsi olurdu. Kolxozda 750 hektar sahədə taxıl, 130 hektar sahədə çoxillik otlar: yonca, xaşa, 18 hektar sahədə isə tütün əkilib becərilirdi. 3 hektar meyvə bağı var idi.

Kolxozun iqtisadi imkanları artdıqca mal-qoyun tövlələri, anbarlar, müxtəlif təsərrüfat əhəmiyyətli tikililər, texnika üçün qarajlar, kolxoz idarə heyətinin inzibati binası, poçt, məktəb, mağaza, müasir klub binası tikilmişdi.

Kolxoz idarə heyətinin yerləşdiyi inzibati bina yaşlı nəslin yaxşı yadındadır. Həsən Məmmədovun məhləsinin ayaq tərəfində təzə məktəbin sol tərəfində, kəndin mərkəzi arxından Süleyman müəllimin çəpərinə doğru, bir-birinə bitişik olaraq kolxoz idarəsi, kənd kitabxanası və poçt yerləşirdi. 1960-cı illərin sonlarında oranı sökdülər və həmin ərazidə məktəbin idman meydançasını düzəltdilər.

İlk məktəb binası isə kəndin ortasında, kənd mağazasının qabaq tərəfində, "məktəbin bağı" ilə üzbəüz, birmərtəbəli, 3 otaqdan ibarət tikili idi. Təzə məktəb binası inşa edildikdən sonra buradan, müxtəlif vaxtlarda məktəbin əmək təlimi dərslərini keçmək üçün emalatxana, feldşer məntəqəsi, klub kimi istifadə edirdilər.

1970-ci ildə kolxoz idarə heyətinin sədri Cavanşir Zalovun rəhbərliyi ilə kolxozun təzə inzibati binası, kitabxana və müasir tələblərə cavab verə biləcək klub tikildi.

İllər keçdikcə kəndin görünüşü də dəyişirdi. Yeni müasir evlər tikilir, abadlıq işləri görülürdü. Kolxoz varlandıqca təzə texnika, kombayn, traktor alırdılar.

1977-ci ildə kənddə kolxozun bazası əsasında sovxoz yaradıldı. Sovxozun ilk direktoru rayonun Çaxırlı kəndindən Səfxan Abdullayev oldu. Bu vəzifəyə 1982-ci ildə rayonun Şişqaya kəndindən, əvvəllər də Sədənağac kəndində kolxoz idarə heyətinin sədri işləmiş Tapdıq Cəfərov təyin edildi. 1988-ci ilin yanvar ayından deportasiyaya qədər sovxozun direktoru Güney kənd sakini, Əmirlilərdən, əvvəllər də kolxoz idarə heyətinin sədri olmuş Firuddin Ələkbər oğlu Məmmədov idi.

TƏHSİL

Sədənağac kəndində ilk ibtidai məktəb (1-4 siniflər) 1930-cu ildə təşkil edilmişdir. İnzibati məktəb binasında siniflərin az olduğuna görə dərslər kənddəki bir neçə imkanlı adamın evində təşkil edilirdi.

Kənddə 1936-1961-ci illər yeddiillik, 1961-1974-cü illər səkkizillik, 1974-1975-ci tədris ilindən 1988-ci ilin dekabr ayınadək orta məktəb oldu.

1964-cü ildə kənddə yeni məktəb binası istifadəyə verildi. Yuxarıda göstərdiyimiz kimi, bu bina layihə üzrə kənd klubu üçün nəzərdə tutulmuş və inşa edilmişdir. Sonralar İsmayıl Əliyevin kolxoz idarə heyətinin sədri olduğu dövrdə (1961-1965), bu bunadan məktəb kimi istifadə etməyi qərarlaşdırdılar və bina rayon maarif şöbəsinin balansına verildi. Binada müəyyən konstruktiv dəyişikliklər edilərək sinif otaqları tikildi və həmin bina kənd səkkizillik məktəbinə verildi. Bu bina sonrakı illərdəki orta məktəbin sağ tərəfi, birmərtəbəli olan "Г" şəkilli hissəsi idi. Həmin binanın zirzəmisində qış aylarında siniflərdə qoyulan sobaları isitmək üçün istifadə olunan daş kömür və odun saxlanılırdı.

1969-cu ildə məktəb binasının sol hissəsinə bitişik olaraq, ikimərtəbəli, bir bina da inşa edilərək məktəbə verildi. Bu hissənin birinci mərtəbəsində məktəb bufeti, siniflər, ikinci mərtəbəsində isə direktor üçün kabinet, müəllimlər otağı, kimya-biologiya laboratoriyası və siniflər təşkil edildi. Məktəbin binası "П" şəklini aldı (şəkil 37).

1932-ci ildən, ilk ibtidai məktəbdən başlayaraq, 1988-ci ilin deportasiyasına qədər kənd məktəbinin direktoru vəzifəsində bu pedaqoqlar olmuşlar:

1. İskəndər Hacıyev, 1932-1937-ci illər, Kəsəmən kənd sakini.
2. Rəhim İmaməliyev, 1937-1942-ci illər, Kərkibaş kənd sakini.
3. Məcnun İbrahimov, 1942-1944-cü illər, Güney kənd sakini.
4. İsmayıl Hüseynov, 1944-1946-cı illər, Böyük Məzrə kənd sakini.
5. Məcnun İbrahimov, 1946-1953-cü illər, Güney kənd sakini.
6. Adil Cabbarov, 1953-1957-ci illər, Kəsəmən kənd sakini.
7. Niftalı Əliyev, 1957-1961-ci illər, Güney kənd sakini.

8. Abbas İbrahimov, 1961-1965-ci illər, Güney kənd sakini.
9. Əlifalı Səfərov, 1965-1966-cı illər, Güney kənd sakini.
10. Hüseyn Qurbanov, 1966-1972-ci illər, Güney kənd sakini.
11. İsmayıl Əliyev, 1972-1988-ci illər, Güney kənd sakini.

Güney kənd məktəbinin şanlı keçmişi ilə bağlı bütün söhbətlərin başında yuxarıda adları qeyd olunan direktorlar və onların rəhbərlik etdikləri pedaqoji kollektiv, müəllimlər durur (şəkil 38). Məhz onların sayəsində xırda bir kənd məktəbi öz nailiyyətləri ilə tanınan məktəblərin ön cərgəsində dayandı. Bu məktəbin şagirdlərinin uğurlarının sorağı Sovetlər İttifaqının hər yerindən gəlirdi.

Kənd məktəbində çalışmış müəllimlər:

Adil Cabbarov (Basarkeçər rayonu Kəsəmən kənd sakini)
Alina Avtandiyan (Azərbaycan SSR Mingəçevir şəhəri)
Bayraməli Mustafayev (Basarkeçər rayonu Şişqaya kənd sakini)
Bayram İsayev (Basarkeçər rayonu Pəmbək kənd sakini)
Alıxan Nəbiyev (Basarkeçər rayonu Pəmbək kənd sakini)
Həsən Rzayev (Basarkeçər rayonu Şişqaya kəndi)
İbrahim Cəfərov (Basarkeçər rayonu Qanlı kənd sakini)
İsax Şabanov (Basarkeçər rayonu Çaxırlı kənd sakini)
İsgəndər Hacıyev (Basarkeçər rayonu Kəsəmən kənd sakini)
Ziyad Kərəmov (Basarkeçər rayonu Şişqaya kənd sakini)
Mayıl Cəfərov (Basarkeçər rayonu Şişqaya kənd sakini)
Məhəmmədəli (Krasnoselo rayonu Ardanış kəndi)
Məmmədkərim Rəhim oğlu (Azərbaycan Respublikası Göyçay şəhər sakini)
Musa İlyasov (Basarkeçər rayony Kərkibaş kənd sakini)
Nina Yakovleva (Abovyan şəhər sakini)
Rəhim İmaməliyev (Basarkeçər rayonu Kərkibaş kənd sakini)
Tahir Rəhimov (Basarkeçər rayonu Zod kənd sakini)
Səfər Səfərov (Basarkeçər rayonu Qanlı kənd sakini)
Səfər Ələsgərli (Krasnoselo rayonu Toxluca kənd sakini)
Tamara Sərdarova (Krasnoselo rayonu Gölkənd sakini)
Yaqub Sərdarov (Krasnoselo rayonu Gölkənd sakini)

Güney kənd sakinlərindən olan müəllimlər:

Abbas Sayad oğlu İbrahimov
Alla Yeqorovna Bağırova
Ədalət Bilal oğlu Cəlilov
Əli Ziyad oğlu Vəliyev
Əlifalı Paşa oğlu Səfərov

Fatma Sayad qızı İbrahimova
Həmaya Qədir qızı Əliyeva
Hidayət Oruc oğlu Vəliyev
Hüseyn Baxşəli oğlu Qurbanov
İbad Qəşəm oğlu İbrahimov
İsmayıl Hüseyn oğlu Əliyev
Kərəm Aslan oğlu Məhərrəmov
Qulu Məhərrəm oğlu Nəsibov
Lətif Xamoy oğlu Abbasov
Məcnun Sayad oğlu İbrahimov
Məriş İmran oğlu Qəhrəmanov
Musa Bilal oğlu İbrahimov
Nailə Kərim qızı Cəlilova
Nəcəf Ziyad oğlu Vəliyev
Nəcəf Məhərrəm oğlu Nəsibov
Niftalı Hüseyn oğlu Əliyev
Rüstəm Dıvış oğlu Rüstəmov
Süleyman Məsmalı oğlu Rəhimov
Şamil Dıvış oğlu Rüstəmov
Valeh Totulu oğlu Hacıyev
Yadigar Tapdıq oğlu Camalov
Zaman Nəsib oğlu İbrahimov
Züleyxa Allahverdi qızı Məmmədova.

1973-1974-cü tədris ilində kənd səkkizillik məktəbi orta məktəbə çevrildi və birinci dəfə olaraq 9-cu sinifdə tədris başladı. 1974-1975-ci tədris ili məktəbin birinci buraxılışı oldu. Güney kənd orta məktəbi 1988-ci ilin dekabr ayına - deportasiyaya qədər fəaliyyət göstərdi.

Orta məktəbin 13 illik fəaliyyəti ərzində 231 nəfər məzunu olmuşdur (şəkil 40). Onların 102 nəfəri ali təhsil, 63 nəfəri isə orta ixtisas təhsili alaraq müxtəlif ixtisaslara yiyələnmişlər. Sədənağac kənd məktəbi həmişə öz adlı-sanlı məzunları ilə fəxr edib. Qürur hissi ilə qeyd etməliyik ki, bu gün bu balaca kənd məktəbinin məzunları arasında dünya şöhrətli 5 professor, elmlər doktorları, 15 fəlsəfə doktoru var. Yüzdən çox ali təhsilli mütəxəssis, neçə-neçə dövlət məmuru, onlarla kamil peşə sahibi, yüksək rütbəli hərbçilər: 1 general, 1 polkovnik, 7 polkovnik-leytenant, 10 mayor, 5 kapitan, rəssamlar, şairlər, yazıçılar məktəbin adına şərəf gətirmişlər.

SƏHİYYƏ

Sədənağac kəndi bina olduğu vaxtlardan əhaliyə gerçək mənada tibb xidmətdən söhbət gedə bilməzdi. Camaat yüzillərin sınağından keçmiş türkəçarə müalicə üsulu ilə kifayətlənməli olurdu. Hacı Rza Hacı Ramazan oğlu kənddə həkimlik edirdi. Göyçə mahalının təbiətindən, bitkilərindən, minerallarından, suyundan istifadə edərək lazım olan dərmanlar düzəldir, onlardan əhalinin sağlamlığının qorunmasında istifadə edirdi. Dərin praktik tibbi biliyə malik olan bu insan ən ağır xəstələri belə ayağa qaldırır, sağalmaz yaraları sağaldırdı. Onun yanına qonşu kəndlərdən də xəstələr gətirirmişlər.

Bundan əlavə, əhali arasında bir çox xəstəliklərin türkəçarə müalicəsini hamı bilirdi. Kənd ərazisində bitən əvəlik, kəklik otu, bağayarpağı, yarpız, baldırğan, cincilim, dəvədabanı, dəvətikanı, dovşanalması, gicitkən, gəvən, gülxətmi (dərman bəlğəmotu), qulançar, əmənkömənci, qantəpər, qatırquyruğu, mollabaşı, mayçiçəyi, tüklüot, çobanyastığı, pişikotu (pişikcaynağı), soğan, sarımsaq, yovşan, şahtərə, yasəmən, palıd, ardıc, söyüd, gərməşov, qara yemişan (meyvəsi), qırmızı yemişan (meyvəsi), itburnu (meyvəsi), çaytikanı, zirinc və s. bu kimi başqa dərman bitkilərinin bolluğu xalq təbabətini zənginləşdirməyə imkan vermişdir.

Kənddə ilk tibb məntəqəsi sovet hakimiyyəti qurulduqdan çox-çox sonralar - 1958-ci ildə təşkil edilib və bu tibb ocağı kənd əhalisinin sağlamlığının qorunmasında, təcili tibbi yardım göstərilməsində əhaliyə xidmət edirdi.

İlk tibb məntəqəsi Məsdan Qurbanovun "evdamı"nda yerləşdirilmişdi. Pəmbək kəndindən Mehbalı İskəndərov feldşer işləyirdi. Bir neçə müddətdən sonra bu məntəqə Hüseyn Bağırovun həyətində (məktəb tərəfdən Fərzalı Ələkbərovun həyətindən girəndə mağazanın arxa tərəfində) daşdan tikilmiş keçmiş yaşayış evində yerləşdirildi. Koluxlulardan Sədaət (Xanlar) Cığı oğlu Hacıyev bu məntəqənin müdiri təyin edilmişdi.

Sədaət Cığı oğlu kənddə bacarıqlı, savadlı bir həkim kimi ad qazandı. Hamının dərdinə dərman tapmağı bacarır, güclü bir terapevt kimi çox-çox xəstəlikləri müali-

cə edirdi. Onun xəstəyə qoyduğu diaqnoz həm Şişqaya kənd xəstəxanasında, həm də Basarkeçər rayon xəstəxanasında əksər hallarda öz təsdiqini tapırdı. Kənd əhalisi ona "Sədaət doxtur" deyə müraciət edirdi.

1968-ci ildə tibb məntəqəsinin yerləşdiyi evin qəza vəziyyətini nəzərə alaraq, köhnə məktəb binasında keçmiş müəllimlər odasında yeni tibb məntəqəsi yaradıldı. Bu məntəqəyə tibb texnikumunu bitirmiş Mahir Bayram oğlu Məmmədov ambulator feldşeri təyin edildi.

1973-cü ildə Sədaət Cığı oğlu şəkər xəstəliyindən vəfat etdi. Allah rəhmət etsin! Torpağı nurla dolsun!

Onun vəfatından sonra Mahir Bayram oğlu tibb məntəqəsinin müdiri, Sədaət Hacıyevin həyat yoldaşı Nazlı Mürsəl qızı isə ambulator feldşeri təyin edildi.

1968-ci ildən 1988-ci ilin dekabr ayına qədər Adilə Musa qızı Rüstəmova tibb məntəqəsində mamaça vəzifəsində çalışdı. Bu gülərüz, zəhmətsevər, cəsur və xeyirxah insan haqda kənd camaatı bu gün də minnətdarlıq və dərin hörmət hissi ilə danışır, ünvanına alqışlar yağdırırlar. Biz də onlara qoşularaq Adilə xanıma can sağlığı, uzun ömür diləyirik!

1974-cü ildə Saniyyə Səfər qızı kənd tibb məntəqəsində ambulator feldşeri təyin edildi və deportasiyaya qədər, 1988-ci ilin dekabr ayınadək bu işdə çalışdı. Təəssüflər olsun ki, deportasiyadan sonra kənd camaatının dərin hörmətini və məhəbbətini qazanan bu xeyirxah, gözəl insanın ömrü qısa oldu, ağır xəstəlikdən 1999-cu ildə dünyasını dəyişdi. Allah rəhmət eləsin, ruhu şad olsun!

Bu tibb məntəqəsi 1988-ci ilin sonuna, deportasiyaya qədər sağlamlığın keşiyində durdu, camaatımıza tibbi yardım göstərdi.

Qonşu Şişqaya kənd xəstəxanası da əhaliyə tibbi xidmət göstərirdi. Rayon xəstəxanasından fərqli olaraq burada çalışan tibb işçilərinin əksəriyyəti azərbaycanlılar idi.

Sədənağac kəndindən Şişqaya kənd xəstəxanasında Şamil Dıvış oğlu və Nəcəf Məhərrəm oğlu müəyyən vaxtlarda ambulator feldşeri kimi işləmişlər.

Qeyd etmək yerinə düşərdi ki, kənd sakinləri arasında tibb elminə olan böyük maraq sonrakı nəsillərə də ötürülmüş və onların peşə seçimlərində mühüm rol oynamışdır. Belə ki, bu gün Sədənağac sakinləri sırasında 1 professor, tibb elmləri doktoru, 7 tibb elmləri üzrə fəlsəfə doktoru, 14 yüksək dərəcəli, müxtəlif sahələrdə çalışan həkim sədənağaclıların fəxr etdikləri mütəxəssislərdir.

MƏTBƏXİMİZ

Sədənağac kəndinin gündəlik yeməkləri Göyçə mahalının əksər kəndlərində olduğu kimi növbənöv idi. Bu zənginlik mahalın təbiəti, iqlimi, flora-faunası ilə bir vəhdət təşkil edərək, əhalinin həyat tərzindən, dini etiqadlarından, milli özəlliklərindən asılı olaraq dəyişir, başqa çalarlar alırdı.

Kənd əhalisinin təsərrüfat məşğuliyyətində aparıcı sahə maldarlıq və əkinçilik olduğuna görə yeməklər siyahısının çox hissəsini də hər iki təsərrüfat sahəsinin məhsulları təşkil edirdi. Ət və süd məhsulları, undan hazırlanan məmulatlar, çörəklər, xörəklər, müxtəlif mədəni və yabanı bitkilər kənd camaatının mətbəxinin əsasını təşkil edirdi.

Yuxarıda qeyd etmişdik ki, gündəlik istifadə edilən qida məhsullarının içərisində başlıca yer tutan un, kəndin özündə üyüdülürdü. Undan çox geniş çeşiddə xörəklər hazırlanırdı.Yarpaq xəngəli, qaşxəngəli (qaşıqxəngəli), un xəşili, yarma xəşili, ərişdə aşı, ərişdə isitisi, halva, umac, quymaq, hörrə kimi yeməklər kənddə-tez-tez bişirilən yeməklərdən idi. Kənd sakinlərinin sevimli yeməklərindən biri olan yarpaq xəngəli buğda unundan hazırlanmış xəmiri nazik yayıb 6-8 sm ölçüdə kvadrat formasında doğrayaraq suda bişirməklə hazırlanırdı. Bişmiş xəngəlin suyu süzüldükdən sonra, çox da dərin olmayan sinilərdə süfrəyə verilir, üzərinə sarımsaqlı qurut (qurut olmayanda onu qatıqla əvəz edirdilər), ərimiş inək yağında qovrulmuş soğan əlavə edirdilər. Bəzən də yağda qızardılmış toyuq əti və ya cızdaq suda bişmiş, 1 sm qalınlığında doğranmış kartofla xəngəlin üzərinə əlavə edilirdi. XX əsrin ortalarına qədər xəngəli süfrəyə vermək üçün misdən hazırlanmış sinilərdən istifadə olunurdu.

Havanın soyuq vaxtı, yaxud ailə üzvlərindən kiminsə öskürəyə tutulduğu, soyuqdəymədən xəstələndiyi zaman qaşxəngəli (qaşıqxəngəli) bişirilirdi. Nazik yayılmış xəmiri 1,5-2 sm ölçüdə xırda kvadrat hissələrə kəsərək soğançalı qaynayan suya tökərək bişirirdilər. Süfrəyə verildikdən sonra üzərinə sarımsaqlı qurut və ya

qatıq, bəzən də tərlədici effektə görə acı istiot əlavə edilirdi. İmkan olanda soğança düzəltmək üçün cızdaqdan istifadə edirdilər.

Kənd evlərində tez-tez bişirilən yeməklərdən biri də xəşil idi. İki növ: un xəşili və yarma xəşili bişirirdilər. Qaynar suya tədricən, oxlovla qarışdırmaqla un, bəzən də unla qarışıq yarma əlavə edərək qatı sıyıq alınana qədər qaynadırdılar. Süfrəyə verdikdə üzərinə sarımsaqlı qurut və əridilmiş inək yağı tökürdülər.

Undan müxtəlif çörəklər bişirilirdi, oturaq və əkinçiliklə məşğul olan kənd sakinləri arasında təndir çörəkləri, maldarlıqla məşğul olaraq yaylaqlara və qışlaqlara köç edənlər arasında isə sac çörəkləri geniş yayılmışdı.

Bütün qadınlar çörək bişirməyi bacarırdı. Çörəyi əsasən buğda unundan, buğdanın qıt olduğu illərdə, arpa unundan, eyni zamanda arpa və buğda ununun qarışığından, əsasən təndirdə, lavaş və "yuxa" şəklində isə sacda bişirirdilər. Bəzən qarğıdalı və buğda ununu qatmaqla "cad" adlanan balaca, girdə çörəklər (kökələr) bişirilirdi. Cad çörəyini, soyuduqdan sonra çox bərk olduğuna görə isti halda yeyirdilər.

Kənddə təzə çörəyi pendir və kərə yağı ilə yeməyə üstünlük verirdilər. İsti təndir çörəyini doğrayaraq üstünə yağ töküb qarışdırmaqla döyməmc hazırlayırdılar. Yuxanın arasına şor, pendir büküb dürmək düzəldirdilər. Bir az köhnəlmiş çörəyi sulu xörəklərin (sulu xörəkləri kənddə "isti" adlandırırdılar) içərisinə doğramaqla yemək geniş yayılmışdı. Soğanı yağda qızardaraq üstünə su töküb qaynadır, sonra isə içərisinə qurumuş çörək doğrayaraq "soğança" adlanan yemək hazırlayırdılar.

Undan bişirilən şirin çörəklər: qatlama, əydək, fəsəli, pişi, kətə bütün bayram süfrələrinin bəzəyi olurdu.

Kənd camaatı buğdadan çox geniş şəkildə istifadə edirdi. Buğdadan dən halında: yarma, hədik bişirirdilər. Buğdanı sacda qovurub sonra "dəstərdə" üyüdərək un halına salır və ona şərbət qataraq "qovut" hazırlayırdılar. Bir qayda olaraq hər il qış yarı olanda Kiçik Çillənin çıxması münasibətilə keçirilən Xıdır Nəbi bayramının ən sevimli yeməyi qovut idi.

"Dəstər" üst-üstə qoyulmuş iki dairəvi şəkildə daşdan düzəldilir. Oturacaq daş üst daşdan xeyli ağır olur. Üst daşın tən ortasında taxılı tökmək üçün xüsusi iri ölçülü deşik açılır. Üst daşın bir kənarında isə onu əl ilə hərəkətə gətirmək üçün ağacdan dəstək düzəldilir. Bu dəstəkdən tutaraq üst daşı hərəkətə gətirirlər. Hərəkət zamanı taxıl daşların arasında üyüdülərək una çevrilir. Dəstərdən bu gün də müxtəlif növ yarmaların çəkilməsində istifadə edirlər.

Ətdən hazırlanan yeməklərin siyahısında kabab, bozartma, kəlapır, dolma başlıca yer tutur. Bundan əlavə, ətdən müəyyən duru yeməklərin bişirilməsində istifadə edirdilər. Xırdabuynuzlu heyvanın yağlı hissələrini qovuraraq "cızdaq" düzəl-

dirdilər. Cızdaqdan rəngarəng çeşidli yeməklərin hazırlanmasında geniş istifadə olunurdu.

Kəndin sevimli ət yeməklərindən biri də "qovurma" idi. Qovurmanı əsasən payız aylarında qışa hazırlıq məqsədilə hazırlayırdılar. Əvvəlcədən kökəldilmiş erkək heyvan ətini mal əti ilə qarışdıraraq qovururdular. Qovrulmuş ətin üzərinə xeyli miqdarda əridilmiş kərə yağı və qoyun piyi tökürdülər. Hazırlanmış qovurmanı iri qablarda saxlayırdılar. Qovurma çox dadlı olurdu, ondan qısa bir vaxtda müxtəlif xörəklər hazırlamaq mümkün idi.

Köçəri həyat sürən insanlar üçün bu olduqca əhəmiyyətli, gec xarab olan dadlı bir yemək növü idi.

Süd və süd məhsulları kənd camaatının mətbəxində çox böyük yer tuturdu. Süddən qatıq, yağ, qaymaq, pendir, şor, qurut düzəldir, geniş şəkildə müxtəlif yeməklər: "körəməz", "kələcoş, "ağsoğlaq," "bulama", "süd aşı" hazırlayırdılar.

Təzə tutmuş qatıqla bişməmiş, süzülmüş südü qarışdıraraq "körəməz" hazırlayırlar.

"Ağsoğlaq" sarımsaqlı qatığın üzərinə nəhrə yağını əridib qatışdırmaqla alınırdı.

Təzə doğmuş inəyin südündən "bulama" alınırdı.

Südə düyü və ya buğda yarması əlavə edərək "süd aşı" bişirirdilər.

Sədənağac kəndində, eləcə də Göyçə mahalının digər kəndlərində geniş yayılmış və sevilən yeməklərdən biri də "qaysava" idi. Demək olar bütün bayramlarda, vacib qonaqlar gələndə bu yeməyi bişirirdilər. Qurumuş əriyi şərbət qatılmış suda bişirir və süfrəyə verirdilər.

Kənddə geniş yayılmış yemək növlərindən biri "bişməmiş yemək"lər idi. Bu siyahıya əsasən bitki mənşəli yeməklər daxildir. Yazın ilk aylarında cücərib çıxan gicirtkən, yemlik, quşəppəyi, may ayının sonlarına yaxın geniş yayılan çaşır, yay aylarında toplanan baldırğan, qazayağı kimi bitkilər faydalı olduğundan, onları duza batırıb və ya duzla ovcalayıb yeyirdilər. Eyni zamanda bu bitkilərdən müəyyən turşular, salatlar düzəldilir, xörəklər hazırlanırdı.

Yeri gəlmişkən, kənddə yabanı bitkilərdən də müəyyən xörəklərin hazırlanmasında geniş istifadə edirdilər. Cılfır, ayranaşı, göy kətəsi, müxtəlif ot bitkilərindən hazırlanırdı. Nəhrə ayranının və ya suda durulaşdırılmış qatığın içərisinə yarpız, quşəppəyi, pişikcıynağı, əvəlik, quzuqulağı, əmənkömənci doğrayaraq qaynadır və ayranaşı bişirirdilər. Bu bitkiləri yarmaya əlavə edərək suda qaynadır, sonra isə yağda qovuraraq "cılfır" bişirərdilər.

Kəklikotu, mayçiçəyi, tüklüot, itburnu, yemişən, zirnic yarpağından çay dəmləmək üçün geniş istifadə edilirdi.

Kartof, kələm bitkilərinin mətbəx mədəniyyətinə gec daxil olmasından asılı olmayaraq, az bir vaxtda kənddə onlardan dadlı yeməklər hazırlamağa başlamışdılar. Kələm dolması, kələm şorbası, kartof soyutması, qızartması, əzməsi az bir vaxtda gündəlik yeməklərin sırasında özünə möhkəm yer tutmuşdu.

Qış mövsümü üçün ərzaq ehtiyatının görülməsi çox vacib məsələlərdən biri olduğundan, bütün ailələrdə bu işə çox ciddi yanaşırdılar. Payıza dönəndə, havaların isti vaxtı, taxıl yığımından sonra, qışa hazırlıq məqsədilə kənddə ərişte kəsimi başlayırdı. Səhər tezdən qohum-qonşudan olan qadınlar bir evə yığışır və ərişte kəsməyə başlayırdılar. Bu məqsədlə bir neçə qadın undan xəmir yoğurur, bir neçəsi onu kündələyir, digərləri taxtadan düsəldilmiş "oxlov"la "peşxon"un (dairəvi formada 10-12 sm hündürlüyündə masa) üstündə bu kündələri 40-50 sm diametrində, təxminən 2-2,5 mm qalınlığında nazikləşdirir və 4-5 mm enində doğrayaraq uzunluğu 40-50 sm olan saçaq formasına salır, başqa bir neçə qadın isə bu saçaqları dəstələyərək açıq havada günəş şüaları altında bağlanmış iplərdən asaraq möhkəm qurudurdular. Bu işin hamısı bir gün ərzində görülürdü. Ərişte qurudulduqdan sonra qadınlar onu uzunluğuna görə çeşidləyir və böyük saclarda qovururdular. Hədsiz dərəcədə dadlı ərişte alınırdı. Kənddə ərişte dəstələməyi bacaran qadınlar çox böyük hörmətə malik idilər. Hamı bir-birinə kömək edirdi. Kənddə ərişte kəsməyən ailə olmurdu. Ərištədən müxtəlif xörəklər bişirilirdi. Ərişte aşı, südlü ərişte, ərişte şorbası kənd camaatının geniş istifadə etdiyi və sevdiyi yeməklərdən idi.

Qışa ərzaq hazırlığı ərişte hazırlamaqla bitmirdi. Adətən hər bir ailə öz tələbinə uyğun olaraq yarma qaynadırdılar. Buğdanı yuyaraq kənar qarışıqlardan təmizləyir, böyük qazanlarda qaynadır, sonra suyunu süzərək hər hansı bir kilimin üzərinə sərərək qurudurlar. Buğda qurudulandan sonra onu "düvəng" daşı (yumruvari, uzun, ağır çay daşı) ilə döyərək qabığını çıxarırdılar. Buğda döyüldükdən sonra küləkli havada onun qabığını sovuraraq təmizləyirdilər. Təmizlənmiş buğdanı dəstərdə əzərək yarmaya çevirirdilər. Sədənağac kəndində, eləcə də bütün Göyçə mahalında çəltikçilik olmadığından, buğda yarmasından çox geniş şəkildə istifadə olunurdu.

Kənd camaatının mətbəxində başlıca yerlərdən birini heyvandarlıq məhsulları tutduğundan, qışa azuqə hazırlığında bu sahənin öz məxsusi yeri vardı. Tez xarab olan ət və süd məhsullarından soyuducu haqqında anlayışın belə olmadığı bir vaxtda, kənddə ilin bütün fəsillərində hər bir ailə tərkibinə, imkanlarına uyğun olaraq qışa keyfiyyətli ərzaq hazırlayır və onu lazımi qaydada saxlayırdı.

Süddən saxlama müddəti çox böyük olan pendir hazırlayır, yağ və qurut düzəldirdilər. Pendir düzəltmək üçün lazım olan mayanı da hər ailə özü hazırlayırdı. Rəhmətlik Kəklik nənəmin hazırladığı maya hələ də yadımdadır. Maya hazırlamaq

üçün böyük bir tikə inək və ya dana qursağı götürür, onu hər hansı bir qaba qoyaraq, ora 4-5 tikə qənd, qabın ölçüsündən asılı olaraq 1-2 çiy toyuq yumurtası, bir qədər buğda və su tökərək 10-15 gün saxlayırdı. Maya hazır olduqdan sonra isidilmiş südün içərisinə bir qaşıq tökərək qarışdırır və üstünü bir müddət basdırır və isti saxlayırdılar. Bir qədər keçdikdən sonra süd dələməyə çevrilirdi. Bu dələməni torbalara tökərək suyunun tam çıxması üçün ağır yükün altında bir müddət saxlayırlar. Su tam çəkildikdən sonra pendiri duzlayır və qablara yığırlar. Pendiri iri həcmli qablarda, əsasən də saxsıdan hazırlanmış küpələrdə, duzlu suda saxlayırdılar.

Yaylağa qalxan sakinlərin əksəriyyəti özünəməxsus hazırlanma qaydası və dadı ilə digər pendir növlərindən seçilən motal pendiri hazırlayırdılar. Qaldıqca yetişən və daha da dada gələn motal pendirinin saxlanılması, bir yerdən başqa yerə aparılması da asan olurdu. Bu pendiri hazırlamaq üçün, qoyun dərisindən istifadə edilirdi. Qoyun kəsilən vaxt onun dərisi bütöv soyulur, duzlanır və qurudulurdu. Bir müddət sonra dəri yuyulub yenidən qurudulurdu. Dərinin qolları iplə möhkəm bağlanır. Motal pendiri hazırlamaq üçün əsasən qoyun və ya keçi südündən istifadə edirdilər. Təzə sağılmış süd süzüldükdən sonra qursaqdan hazırlanmış maya ilə mayalanır, bir qədər keçdikdən sonra dələməyə çevrilmiş süd torbaya tökülür, suyunun çıxması üçün ağır yükün altına qoyulur. Sudan təmizlənmiş pendir doğranır, duzlanır və 10 gün duzlu suda saxlanandan sonra motala yığılır. Pendirin bərkiməməsi və dadlı olması üçün motala dələmə və ya qaymaq da əlavə edirdilər. Ağzı möhkəm bağlanan motal pendiri uzun müddət xarab olmadan saxlanılır.

Göyçə mahalının bütün kəndlərində, o cümlədən Sədənağac kəndində çox yayılmış süd məhsullarından biri qurut idi. Uzun qış aylarında, heyvanların südü azaldıqda, qatıq, süd qıtlığı yarananda, qurutdan istifadə edilirdi. Kənddə qurut həm nehrə ayranından, həm də qatıqdan düzəldilir. Qatıq və ya ayranı torbaya töküb qatı kütlə halına düşənədək süzürlər. Sonra ona duz vuraraq xəmir kimi yoğurub çox da iri olmayan, girdə formada hər hansı bir müstəvi üzərinə sərib isti günəş şüaları altında qurudulur. Bu cür qurutlar indiyə qədər də kənd camaatının dağ rayonlarında yaşayan sakinləri tərəfindən hazırlanır.

Qurutu uzun müddət saxlamaq olur. Qurutdan istifadə etmək üçün onu isti su ilə yuduqdan sonra məhlul halına düşənədək suda qarışdırırlar. Bu proses "qurut əzmək" adlanır. Əhalinin sevimli yeməklərindən olan xəngəl hökmən ya sarımsaqlı və ya sarımsaqsız qurutla yeyilir. Qurutdan xəşil xörəklərində, qaşıq xəngəlində də istifadə edilir. "Qurut"un üzərinə yağda qızardılmış soğan tökülür, içərisinə çörək doğrayaraq qarışdırıb "Kələcoş" deyilən yemək hazırlayırlar.

Yeri gəlmişkən, "qurut" türk dünyasında bir çox xalqların sevimli azuqəsidir. Göyçədə hazırlanan "qurut"un ölçüsü çox da iri olmurdu. Məsələn, Borçalıda bu

"qurut"ların ölçüsü xeyli böyük olur. Orta Asiyada belə "qurut"lar nisbətən kiçik formada hazırlanır və əsasən xəmirdən hazırlanan "beşbarmaq", "mantı" süfrəyə gətirilərkən əlavə edilir.

Kənd camaatının yemək öynəsində ev heyvanlarının əti ilə yanaşı ev quşlarının, o cümlədən, çöl quşlarının ətindən də istifadə olunurdu. Sakinlərin əksəriyyəti toyuq, hind toyuğu, ördək, qaz saxlayır, onların həm ətindən, həm də yumurtasından istifadə edirdilər. Yumurtadan qayğanaq və soyutma bişirilir, müxtəlif xörəklərin üstünə vurmaq üçün istifadə olunurdu, təzə yumurta boğaz ağrısı xəstəlikləri zamanı müalicə məqsədilə içilirdi. Novruz bayramı ərəfəsində yumurta müxtəlif rəngli boyalarda soyutma bişirilərək rənglənir, bayram süfrələrinin yaraşığına çevrilirdi. Yumurta döyüşdürmək, yumurta "hellətmək" bu ərəfədə kənd camaatının sevimli məşğuliyyətlərindən birinə çevrilirdi.

Kəndin yan-yörəsindəki taxıl zəmiləri bildirçin, kəklik, qırqovul, turacla dolu olurdu. Bu ov quşlarının ətindən müxtəlif xörəklərin hazırlanmasında istifadə olunurdu.

Sədənağac kəndi müxtəlif balıq növləri ilə zəngin olan Göyçə gölünün sahilində, göldən 1 km aralıda yerləşirdi. Ona görə də kənd camaatının mətbəxində balıq xüsusi yer tuturdu. Ondan müxtəlif xörəklər hazırlayır, balığı qurudur, qaxac edir, soyutma bişirir, qızardırdılar.

Qara balıq, bığlı balıq, siqa balığı, bir neçə növ forel balığı Göyçə gölünün tükənməz sərvətləridir. Sədənağacda "soyutma balığı" xüsusi zövqlə bişirirdilər. Təmizlənmiş balıqları: iri balıqlar üç-dörd tikəyə bölünür, xırdaları isə bütöv şəkildə tavaya düzülür, üstünə iri kartof tikələri və soyulmuş baş soğan qoyulur, bir neçə ədəd dəfnə yarpağı atılır, duz vurularaq azacıq suda (buxarda) soyutma bişirilirdi. Süfrəyə verilən zaman yanına istiot, soğan, sarımsaq qoyulurdu. Duza qoyulmuş, qaxac edilmiş, hisə verilmiş, həm günəş şüaları altında, həm də təndirdə istiliklə qurudulmuş balıq bütün ilboyu süfrələrin bəzəyi olurdu.

MƏRASİMLƏR

• *Toylar*

Sədənağac kəndinin toy ənənələri, deportasiya nəticəsində sakinlərin Azərbaycanın bütün rayon və şəhərlərinə səpələnməsinə baxmayaraq, onların arasında cüzi dəyişikliklərlə bu günə kimi yaşamaqdadır.

Kənddə toy ənənəsi kiçik toydan - sünnət toyundan başlayırdı. Əslində oğlan uşaqlarının fiziki tərbiyəsi ilə bağlı olan və gigiyenik tədbir kimi həyata keçirilən sünnət toyuna çox vaxt dini adət kimi yanaşırdılar. Adətən uşaq 7 yaşına çatana qədər sünnət olunurdu, amma bəzi hallarda şəraitdən asılı olaraq yaş həddi irəli və ya geri çəkilə bilərdi. Sünnət mərasimi ilk növbədə kirvənin - sünnət vaxtı oğlanı tutan adamın seçilməsi ilə başlayırdı. Sünnət zamanı uşağı kirvənin qucağında oturdurdular ki, uşaq əl-ayağını tərpətməsin və dəllək işini rahat görə bilsin.

Ailə başçısı kimin kirvə olacağını seçdikdən sonra, ailəsi ilə birlikdə, bəzən də bir neçə yaxın adamlarının iştirakı ilə müxtəlif hədiyyələrlə, sünnətdən bir neçə gün əvvəl kirvə seçdikləri şəxsin evinə gəlirdilər. Adətən kirvə ailəyə münasib adamlardan, yaxın dostlardan seçilərdi. El arasında buna "kirvəlik" deyirdilər. Kirvəlik zamanı qarşılıqlı məsləhətləşmələr əsasında sünnət mərasiminin bütün detallarını müəyyənləşdirir, sünnət gününü dəqiqləşdirir və dəlləyin kim olacağını təyin edirdilər.

Müəyyən vaxtlarda kənd sakinlərindən Dəllək Sarı (Sarı Rəhim oğlu), Dəllək Qurban (Qurban Vəli oğlu), onun oğlu Qulu, Abbas Qoşunalı oğlu Sədənağac kəndində, eləcə də bütün Göyçə mahalında dəllək kimi fəaliyyət göstəriblər.

Sünnət mərasimi zamanı otaqlardan biri uşağın rahat olması üçün hazırlanırdı. Çarpayılardan birinə təzə yorğan-döşək qoyur, otaqda səliqə-səhman yaradılırdı. Mərasim vaxtı kirvə stulda əyləşirdi. Uşağı onun qucağına oturdur və kirvə uşağın əllərini tuturdu ki, əl-qol atıb dəlləyə mane olmasın. Dəllək bir anda uşağı sünnət edir, sonra isə qan axmasının qarşısını almaq üçün, ələnmiş kül səpirdi. Mərasim zamanı uşağın önünə qırmızı parça tuturdular ki, dəlləyin gördüyü iş onu qorxutma-

sın. Sünnət başa çatdıqdan sonra uşağı yatağa uzadırdılar. Kirvə ilə dəllək əllərini birgə yuyaraq dua edirdilər. Sünnətdən sonra bir neçə gün dəllək uşağın yanına gələr, onun tez sağalması üçün lazımi tədbirlər görərdi.

Adət-ənənəyə görə, sünnət mərasiminin səhəri günü kirvə tutduğu oğlanı görməyə müxtəlif hədiyyələrlə, ailə üzvləri, bəzən də bir neçə yaxın adamı ilə birlikdə gələrdi. Bundan sonra, kirvələr hər ilin Novruz bayramı ərəfəsində müxtəlif hədiyyələrlə bir-birinin evinə "kirvəliyə" gedərdilər. Belə qarşılıqlı "kirvəliklər" iki ailə arasında sonralar da yaxın qohumların iştirakı ilə uzun illər davam edərdi. Bu da iki ailə, iki nəsil arasında mehriban qardaşlıq münasibətlərinin, yeni qohumluq formasının yaranmasına gətirib çıxarırdı.

Bu günə qədər də davam edən ənənələrə görə kirvə çox yaxın və müqəddəs qohum sayılır. Kirvəyə ata kimi hörmət edilir. Kirvəlik nəsillikcə davam edir, yəni hər kəs bilir ki, bu ailənin uşaqlarının kirvəsi filan nəsildən, ailədən olmalıdır.

Sünnət olunmuş oğlan üçün kirvənin qızı bacı hesab edilir və onunla evlənmək olmaz. Bu münasibətləri ifadə edən belə bir deyimin: "Kirvə kirvənin damına cıxmaz ki, torpaq tökülər" yaranması da məhz kirvəliyə çox ciddi yanaşmanın bir ifadəsidir.

Uzun illər sünnət mərasimləri olduqca sadə, maraqlı və çox şən qaydada təşkil edilirdi. Adətən sünnətdə yaxın qohumlar iştirak edir, heyvanlar kəsilir, müxtəlif yeməklər hazırlanır, şənlik təşkil edilirdi. Maddi vəziyyətdən asılı olaraq bəzən bu mərasim çox təntənəli şəkildə keçirilirdi. Keçən əsrin altmışıncı illərinin sonlarında qonşumuz Abbasəli dayı dörd qızdan sonra anadan olmuş oğlu Əliyə sünnət toyu edəndə həyətdə "çadır- mağar" qurdular, bütün kənd camaatı və qonşu kəndlərdən də qohumlar, tanışlar toya dəvət olundular. Yüzlələ insanın iştirak etdiyi və camaatın sünnət toyu adlandırdığı bu mərasimdə Azərbaycanın məşhur saz ustaları Aşıq İmran və Aşıq Mahmud da iştirak edirdilər. Kəndin tarixində ilk dəfə olaraq sünnət mərasimi belə geniş şəkildə və rövnəqli keçirilirdi.

Ailə-məişət mərasimləri içərisində toy özünün zənginliyi, əlvanlığı və xüsusi rövnəqi ilə fərqlənirdi. Toy mərasimləri praktik olaraq bir neçə mərhələdə həyata keçirilirdi.Toy ənənəsi qızbəyənmədən başlayırdı. Oğlan və qız bir-birini bəyəndikdən sonra oğlan fikrini anasına bildirirdi. Oğlanın anası qız evinə qız anasının fikrini öyrənməyə (buna kənddə "ağız aramaq" deyirdilər) yollanırdı. Qız anasının "hə"sini aldıqdan sonra oğlan evi elçilik ücün hazırlaşırdı. Bu məqsədlə ailənin ağsaqqalları, qohumları xəbərdar edilir, elçiliyə getmək hazırlığı başlayırdı. Qız evi ilə oğlan evi arasında elçilik günü təyin edilirdi. Oğlan evi qız üçün "kalağayı" (baş örpəyi) alardı. Təyin olunan vaxt elçilər qız evinə yollanardılar. Adətən elçiliyə üç-dörd kişi gedərdi. El arasında daha çox hörmət sahibi, nüfuzu olan, sözü keçən adamlar elçi göndərilirdi. Elçilərin tərkibində oğlanın valideynləri, əmi-dayıdan kimsə olardı.

Əgər baba sağ olardısa, çox vaxt elçilərə rəhbərliyi o edərdi. Adətən elçilərin sırasında qadın olmazdı.

Mövcud adət-ənənəyə görə, elçilər qızın ailəsi tərəfindən hörmət və izzətlə qarşılanırdılar. Elçilər qız evinə gəldikdən sonra xoşagələn aktual bir mövzuda şirin söhbətlər açar, uzaqdan başlayaraq yavaş-yavaş mətləbə yaxınlaşar və ürəyəyatan bir tərzdə mətləbə keçər, nə məqsədə gəldiklərini bəyan edərək qız atasının cavabını istəyərdi. Müsbət cavab aldıqdan sonra, qohumlar bir-birini təbrik edər, ortalığa şirin çay və ya şərbət gələrdi. Oğlan evi gətirdiyi kəlağayını qızın başına bağlayardılar. Kənddə buna "yaylıq bağlamaq" da deyirdilər. Bəzən elə olurdu ki, birinci elçilikdə "hə" deyilmirdi". Xalqımızın dərin qonaq adət-ənənələrinin hər yerdə ciddi gözlənilməsinə baxmayaraq, "hə" cavabı almayan elçilər qız evində çay belə içməzdilər.

"Hə"dən sonra qız evi ilə oğlan evi qarşılıqlı razılaşma əsasında "nişan" gününün vaxtını təyin edir və hər iki tərəf nişan hazırlığına başlayırdı. Adətən nişan üçün oğlan evi öz imkanına görə qıza zinət əşyalarından nə isə almalı idilər. İmkan daxilində hökmən nişan üzüyü alınmalı idi.

Nişan üçün oğlan evi nişan xonçası düzəldirdi. Bu xonçaya alınmış zinyət əşyaları, kəlağayı (kolxana), paltar tikmək üçün alınmış parçalar və müəyyən miqdarda şirniyyat qoyulardı. Təyin edilmiş vaxt oğlan evi qohum-əqrabaları ilə qız evinə gələrdilər. Gələnlərin əksəriyyəti qadınlar olurdu. Nişana oğlan evi tərəfdən gələnlərdən imkanı olanlar da xonça düzəldir, müəyyən hədiyyələr alır və özləri ilə qız evinə gətirirdilər. "Əliboş" nişana getmək düzgün sayılmırdı. Qız evi gələn qonaqlar üçün nişan süfrəsi açırdı. Yeməklər haqqında yuxarıda söz açıldı.

Nişan mərasimindən sonra qızla oğlan "nişanlı" hesab edilirdi. Bu gündən sonra nişanlı qız oğlan tərəfin qohum-əqrabasından yaşınmalı, üzünü gizlətməli idi, nişanlı oğlan da öz növbəsində, nişanlısının qohumları ilə "məsafə saxlamalı" idi. Əgər toya qədər araya hər hansı bir bayram düşərdisə, adətən "Yeni il", "Novruz", "Ramazan" və "Qurban" bayramlarında, oğlan evi qız evinə bayram payı göndərirdi. Bunun üçün qız evinə fəsəli, qatdama, əydək, halva, konfet, meyvə, paltar tikmək üçün müəyyən bir parça, ipək yaylıq və s. ibarət xonça göndərilirdi.

Nişandan sonra oğlan evində toy tədarükünə başlanılırdı. Bu məqsədlə oğlan evi gəlin üçün paltar, digər geyim əşyaları alırdılar. Bəzən imkan daxilində zinyət əşyaları da alınırdı. Kənd camaatı o qədər varlı-imkanlı olmadığından zinyət əşyalarını ancaq imkanlı ailələrdə alırdılar.

Qız evi də nişandan sonra cehiz tədarükünə başlayırdı. Gəlinin köçməsinə az qalmış qohum-əqraba və qonşular qız evinə yığışar, gəlinin yorğan-döşəyinin sırınmasına köməklik edir, cehizlərini qaydaya salırdılar. Toya az qalmış, gəlini öz qo-

hum-əqrabaları qonaq çağırar, qonaqlığın sonunda ona yorğan, döşək, yastıq, mütəkkə, xalça, kilim, mis qazan və qab-qacaq və s. hədiyyə edərdilər. Bu hədiyyələri qız evi gəlinin cehizinə əlavə edirdi.

Toy gününü müəyyən etmək üçün oğlan evinin ağsaqqalları qız evinə danışığa gələr, toy gününü müəyyənləşdirər və qız evində toy şənliyinin keçirilməsi üçün nə lazım olduğunu dəqiqləşdirərdilər. Kənddəki adətə görə qız evindəki toyun da xərcini oğlan evi çəkərdi. Bundan əlavə qız evi oğlan evindən "başlıq" istəyirdi. "Başlıq" müəyyən məbləğdə puldan və ya bir neçə baş mal-qaradan ibarət ola bilərdi.

Əvvəlcə toy qız evində olurdu. Toydan 2-3 gün qabaq qız evində "paltar biçimi" keçirilirdi. Bu məqsədlə oğlan evi qız evinə boynuna qırmızı bağlanmış bir neçə qoç, müəyyən miqdarda ərzaq məhsulları göndərirdi. "Paltar biçiminə" ancaq qadınlar dəvət olunurdu. Günün müəyyən bir vaxtı, adətən günortadan sonra, oğlan evi gəlin üçün aldıqları hədiyyələri "çemodanlara" yığıb qız evinə aparırdılar. Bəzi hallarda bu iş musiqi ilə müşayiət olunurdu.

Qız evində yeyib-içmək başa çatdıqdan sonra oğlan evinin gətirdiyi hədiyyələr nümayiş etdirilir, gətirilən parçadan gəlinə don tikmək üçün simvolik "biçim" prosesi nümayiş etdirilirdi. Bu nümayiş zamanı hamı gəlini təbrik edər, gətirilmiş hədiyyələrin üzərinə gəlinə hədiyyə olaraq pul atardılar. Bəzən kimsə pul əvəzinə hər hansı bir hədiyyə gətirərdi. Gəlin üçün gətirilmiş bütün hədiyyələr nümayiş etdirildikdən sonra cehiz sandığına yığılır, sandığın ağzı qıfıllanaraq açarı qız anasına verilirdi.

"Paltar biçimində" qız evində açılan süfrədə müxtəlif yeməklər qoyulardı. Bir qayda olaraq qoç ətindən bozartma, südlü düyü aşı, qaysava, bəzən də dolma hazırlanırdı. Yeməkdən sonra şirniyyat ilə çay verilirdi. Yeyib-içmək qurtardıqdan sonra qonaqlar xeyir-dua verərək dağılışırdılar.

"Paltar biçimindən" bir neçə gün sonra qız evində toy başlayırdı.

Toy şənliyinə 2-3 gün qalmış qız "yengə"si kənd qadınlarını toya dəvət edirdi.

Həm qız, həm də oğlan evində toy tədarükü yuxa və ya çörək bişirməklə başlayırdı. Bu məqsədlə qohum-əqrabadan, qonşulardan bir neçə qadın yuxa bişirməyə yığılırdı. Yuxa bişirilən zaman kənd camaatı "yuxa üstünə" dəvət olunurdular. Yuxa üstünə gələn adamlar yuxa bişirənlərə "nəmər" verərdilər. Bu nəmər həm pul şəklində, həm də hər hansı bir əşya: corab, dəsmal, yaylıq və s. olurdu.

Toy gününə bir gün qalmış qız evinin yaxın qohum-əqrabaları, qonşuları yığılaraq toy üçün oğlan evindən gətirilmiş heyvanları kəsər, ət tədarükü görülərdi. Səhərisi gün günorta vaxtı kənd qadınları qız toyunun keçirildiyi evə yığılırdılar. Qız toyunda kişilər yeməyə dəvət olunmurdu. Qadınlar qız evində yemək-içməklə məşğul olur, musiqi altında rəqs edir, şənlənirdilər. Qız toyu olan gün yengə musiqiçilərlə qapı-qapı gəzərək kənddəki nişanlı qızları toya gətirirdilər. Bir qayda olaraq

nişanlı qızın həyətinə girən musiqiçilər, yengə və onları müşayiət edən digər nişanlı qızlar musiqi sədaları altında çalıb-oynayır, evdəki nişanlı qız bəzənib evdən çıxana qədər rəqs edirdilər. Sonra başqa evə yollanır, oradakı nişanlı qızı cərgələrinə qatırdılar. Bu minvalla kəndin bütün nişanlı qızları qız toyunda iştirak edirdi. Musiqiçilər bir nağaraçıdan və iki zurnaçıdan ibarət olurdu. Kəndin öz musiqiçiləri olmayan zaman onları qonşu kəndlərdən dəvət edirdilər.

Qız evində toy şənliyi axşama qədər davam edirdi. Axşam isə hamı yığışaraq toyun keçirilməsi üçüm qabaqcadan hazırlanmış yerə yığılırdılar. Kənddə kolxozun anbar, ferma binaları tikilənə qədər toylar kənddəki böyük qara damlarda olurdu. Sonralar isə toy günü fermaların birini boşaldır, təmizləyir və oturacaq düzərək toyun keçirilməsi üçün yer hazırlayırdılar. Axşama bütün kənd camaatı toy şənliyinə yığışırdı. Gecənin bir vaxtına kimi qara zurna çalır, qadınlı-kişili hamı rəqs edir, öz rəqs bacarıqlarını nümayiş etdirirdilər. Rəqs zamanı musiqiçələrə "şabaş" yığırdılar. Bir nəfər kişilərdən şabaş yığmaq üçün "ayaqçı" seçilərdi ki, o da həm şabaş toplayır, həm də kişiləri rəqs etmək üçün ortaya çıxarırdı. Kənddə bu işi möhtəşəm bir bacarıq və qabiliyyətlə, özünəməxsus fərasətlə yerinə yetirən, Çəkməlilər nəslindən İslam Məhəmməd oğlu bu gün də bütün kənd camaatının yaddaşındadır. Qadınları isə yengə rəqsə dəvət edirdi. Toy şənliyi xeyli müddət davam edirdi.

Qız toyu başa çatdıqdan sonra camaat evinə dağılışardı. Bu zaman qız yengəsi nişanlı və yetkinlik yaşına çatmış qızları "bacılığın" evinə xınayaxdıya dəvət edərdi. Eyni zamanda oğlan yengəsi də nişanlı oğlanları, qohum-əqraba cavanlarını "baba evinə" xınayaxdıya dəvət edirdi.

Qız toyundan qabaq toyu olacaq qız ən yaxın rəfiqələrindən birini özünə "bacılıq" (sağdış mənasında) seçərdi. Qız toyu axşamı həmin "bacılıq" da öz evində süfrə hazırlığı görər, nemətlə dolu süfrə açar və qız toyu başa çatdıqdan sonra, axşamdan bir az keçmiş "xınayaxdı" şənliyi təşkil edərdi. Qız yengəsi qız toyundan dəvət etdiyi qadınlarla ora yığışdıqdan sonra şənlik başlayardı. Qonaqlar yeyib-içər, musiqi sədaları altında rəqs edərdilər. Bu zaman qız yengəsi bir qabda hənа isladar, əvvəlcə gəlin qızın əl-ayağına hənа yaxar, sonra isə başqa iştirakçılar əllərinə hənа çəkərdilər.

İnanca görə, hənа - bərəkət, xoşbəxtlik və sevinc, fərəh rəmzidir. Ağsaqqallar cütlüklərin bir-birinə daha möhkəm bağlanmasını, sevgilərinin davamlı olmasını təmin etdiyinə, onları nəzərdən və pis əməllərdən qoruduğuna görə xına yaxıldığını deyirlər.

"Baba evi"ndə də xınayaxdı qız evində olduğu kimi keçirilirdi. Oğlan "yengə"si qız toyundan dağılışan cavanları: nişanlı oğlanları, bəyin dostlarını, qohum-əqraba cavanlarını bura dəvət edirdi. "Baba evi" oğlanın yaxın dostlarından (sağdış mənа-

sında) biri seçilirdi. Burada da yemək-içməklə, üstü nemətlə dolu süfrələr açılırdı. Gələn qonaqlar yeyib-içdikdən sonra rəqs başlayır, gələnlər şənlənirdilər. Sonra oğlan "yengəsi" "xınayaxdı"ya gələnlərin əllərinə xına çəkirdi. Onlar da öz növbəsində oğlan yengəsinə nəmər verirdilər.

Xınadan sonra gəlin köçəcək qız - "gəlin", evlənən oğlan isə - "bəy" adlanırdı. Ənənəyə görə onların heç biri öz evində yata bilməzdi. "Bəy" "baba evi"ndə, gəlin isə "bacılıq" evində gecələməliydi.

Səhərisi gün "gəlinköçürmə" günü hesab olunurdu. Günün birinci yarısında, təxminən saat 10-dan sonra oğlan evindən bəyin atası, qardaşları, ağsaqqal qohumlarından bir-iki nəfər, oğlan yengəsi, bəyin maması (bibisi), xalası və başqa bir neçə qadınla gəlin gətirməyə yollanırdılar. Onları zurna və nağaradan ibarət musiqi müşayiət edirdi. Əvvəlcə bütün nişanlı qızları və oğlanları qapı-qapı gəzib toplayır, oradan isə gəlinin gecələdiyi "bacılıq" evinə gedir, gəlini götürub ata evinə gətirirdilər. Oğlan evində gəlini köçürmək üçün xonça düzəldirdilər. Bu xonçaya gəlin üçün bəzək və geyim əşyaları, ətirlər qoyulurdu. Hər iki yengənin iştirakı ilə gəlini bəzəməyə, toy paltarı geyindirməyə başlayırdılar. Bu zaman musiqiçilərlə bir neçə oğlan "baba evinə" yollanır, oradan bəyi götürüb ata evinə müşayiət edirdilər və oradan yenidən qız evinə qayıdırdılar. Artıq bu vaxta kimi gəlin geyinib-bəzənirdi, bu işdə ona "bacılığı" və qız yengəsi kömək edirdilər. Gəlin geyindikdən sonra evin ortasında dayanır, oğlan "yengəsi" gəlinin başına duvaq salırdı. Çünki adətə görə heç kim gəlinin üzünü görməməlidir. Gəlinin duvağını yalnız ər evində gərdəkdə bəyin özü qaldırmalı idi. Gəlin geyinib hazır olduqdan sonra, "bəy"in qardaşını və ya əmisi oğlunu gəlinin belini bağlamq üçün içəri dəvət edirdilər. Bu adam qırmızı rəngli ipək və ya atlas parçadan düzəldilmiş qurşaqla duvağın üstündən gəlinin belini bağlayaraq deyərdi:

Anam, bacım qız gəlin,
Əli, ayağı düz gəlin!
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin!

Gəlinin atası və belini bağlayan qaynı onun qollarından tutub çırağın ətrafında üç dəfə dolandırar, sonra isə müqəddəs Quranın altından keçirərək qapıdan çıxarardılar. Bu zaman qızın anasına "süd pulu" adlanan nəmər verilirdi. Bu nəmər adətən müəyyən məbləğdə pul şəklində olurdu.

Gəlin qapıdan çıxandan sonra iki kənd ağsaqqalı onun qolundan tutur, musiqiçilər "Vağzalı" çalır, qızlar-gəlinlər azacıq rəqs eyləyir və hamı oğlan evinə üz tutur-

du. Kənddə gəlini oğlan evinə piyada yavaş-yavaş yerişlə gətirirdilər. Yol boyu gəlin gətirənlərə yeni sakinlər qoşulur, "gəlin karvanı" böyüyürdü.

Kənddəki maraqlı ənənələrdən biri də gəlin qapıdan çıxan zaman cehiz əşyalarının siyahısının oxunması idi. Kənddə uzun zaman siyahıyaalma ilə Hacı Ramazannılar nəslindən, kəndin klub müdiri işləyən İsə Rəhim oğlu məşğul olurdu. Gəlin köçəcək gün qız atası onu səhər tezdən öz evinə dəvət edirdi. Həm qız evinin, həm də oğlan evinin adamlarının iştirakı ilə İsə Rəhim oğlu, bəzən də başqa bir adam, cehiz əşyalarının bir-bir siyahısını tutar, qıza veriləcək bütün əşyalar bu siyahıya yazılardı. Sonra bir nəfər oğlan evindən, bir nəfər də qız evindən cehiz verilməsinin şahidi kimi bu siyahını imzalayardılar. Siyahı imzalandıqdan sonra onu qızın atasına, o da öz növbəsində saxlamaq üçün arvadına verərdi.

Gəlini oğlan evinə aparan zaman "gəlin karvanı"nın qabağını kəsmək toy şənliklərində sevilən və əməl edilən ənənələrdən biri idi. Bir və ya bir neçə cavan oğlan yolda "gəlin karvanı"nın qabağına keçər, gəlinin və onu müşayiət edən adamların qarşısında rəqs etməklə hərəkəti dayandırardılar. Onlar bir az rəqs etdikdən sonra "bəy" atası və ya başqa yaxın adamı onlara yaxınlaşar, nəmər verərək yolu açdırardı. Nəmər adətən pul şəklində olurdu, bəzən də corab, dəsmal və s. verilirdi.

Gəlini aparan zaman "gəlin karvanı"nın önündə əlində güzgü tutaraq qız yengəsi gedərdi.

Gəlin karvanı bəy evinə yaxınlaşan zaman, bəy və onun bir neçə dostu hündür bir yerə - adətən "ev damının" üstünə çıxar, gəlin həyətə qədəm qoyduqda onun başına hündürdən konfetlər səpərdilər. Həyətdə musiqi səslənər, bəyin anası, bacıları, yaxın qohumları gəlinin qarşısında bir az rəqs edərdilər. Əksər hallarda gəlin evə girməmiş ayağı altında qoç kəsərdilər. Kənddəki, tarixi qədimlərdən başlayan, mövcud bir inanca görə, gəlin ər evinə daxil olarkən özü ilə "qara, şər qüvvələri" içəri aparmamaq üçün, onları hökmən ər evinin həyətində, evə girməmiş məhv etməli idi. Buna görə də gəlin evin qapısına yaxınlaşanda onun ayaqları altına həmin "qara, şər qüvvələr"in simvolu kimi "ağzı üstə" (üzüqoylu) saxsı və ya şüşə nəlbəkilər, boşqablar düzülürdi. Gəlin bu əşyaları sağ ayağı ilə vurub sındırdıqdan sonra evə daxil olurdu.

Gəlin otağa daxil olduqdan sonra ayaq üstə dayanırdı. Bu zaman yengə bəyin atasını bura dəvət edib, "gəlin oturmur" deyirdi. Bəy atası bir nəmər verir və ya hündürdən deyirdi: "Bir inək bağışladım, gəlin otursun". Bundan sonra qız-gəlinlər ona "xoş gəldin" deyərək döşəkcə üstündə oturdurdular. Sonra gəlinin qucağına azyaşlı bir oğlan uşağı otuzdurub "oğullu-qızlı olsun" deyərdilər. Gəlinin başına toplaşmış

qız və gəlinlər qısa bir müddətdə çalıb-oynayar, oxuyar, şənlik edərdilər. Qızlar gəlinin yanından çəkildikdən sonra oğlan yengəsi gəlinə gərdək qurardı. Gərgək evin hər hansı bir hissəsində asılmış qırmızı rəngli arakəsmə rolunu oynayan pərdədən ibarət olurdu.

Gəlin gətirməzdən bir gün qabaq oğlan evində ətlik kəsilər, oğlan toyu üçün ət tədarük edilərdi. Heyvanlar kəsildikdən sonra 2-3 nəfər kişi əti doğrayır, bir neçə qadın isə dolma bişirmək üçün ət döyürdülər. Ət döyüldükdən sonra qadınlar kələm dolması bükürdülər. Ətin qalan hissəsindən "bozartmalıq" doğranar və soyumaq üçün sərilərdi. Bozartmanı toya bir neçə saat qalmış bişirməyə başlayırdılar və adətən süfrəyə qaynar şəkildə verilirdi. Bir neçə adam da balıqla məşğul olurdu. "Siqa" deyilən Göyçə gölü balığından soyutma bişirirdilər. Bu məqsədlə qadınlar balıqları təmizləyir və doğrayır, aşpaz kişi isə iri qazanlarda onu bişirirdi. Süfrəyə verilməzdən əvvəl balıq bir sutka soyumalı idi. Ona görə də bişmiş balıq soyumaq üçün sərin bir yerdə süfrələrin üstünə sərilərdi. Bu məqsədlə bir-iki gün əvvəl qurulmuş toyxanadakı masalardan və ya "ev damından" istifadə edilərdi. Bəzi toylarda soyutma çolpa da bişirilirdi.

50-ci illərin sonlarından başlayaraq kənddə toy üçün 2-3 gün qabaq "toyxana" (mağar) qurulurdu. Bu məqsədlə evlərdən xalçalar, masalar yığılırdı. Eyni zamanda toyda istifadə üçün qab-qacaq, lazım olan mətbəx əşyaları toplanılırdı. Xalçaları toyxananın divarlarından asaraq toyxananı bəzəyirdilər. Uzun və qalın taxtalardan oturacaqlar düzəldir, onların üstünə kilim salırdılar.

Toyxana qurulmayan vaxtlarda oğlan toyunun yemək-içməklə bağlı olan hissəsi ya bəyin öz evində, ya da qohumlardan kiminsə daha böyük olan evində olurdu. Süfrədə ancaq kişilər əyləşirdi. Hamı toya təzə və təmiz paltar geyir, səliqəli görkəmdə gələrdi. Toyda spirtli içkilər demək olar verilmirdi. Bəzən toyxanaya başqa masalardan aralı spirtli içkilər düzülmüş bir neçə masa qoyulurdu. Masalara yemək-içməkdən əlavə meyvə qoyular, çay paylanar, qrafinlərdə soyuq bulaq suyu qoyulurdu.

Günortaya qədər gəlin gətirilirdi. Günortadan bir az keçmiş oğlan toyuna dəvət olunmuş qonaqlara yemək təklif edilirdi. Oğlan toyuna aşıqlar dəvət olunurdu. Adətən 1-2 aşıq və bir balabançı gələrdi. Toya dəvət olunan kişilər toyxanada əyləşərək yeməyə başlayardılar. Qadınlar isə oğlan evindəki otaqlarda yerləşdirilir, onlara süfrə açılırdı. Bu zaman aşıqlar saz çalır, dastan söyləyirdilər. Yemək yeyilib qurtaran kimi toyxanada yır-yığış edilir, təmizlik işləri aparılırdı. Əgər mağar toyxanada deyil, başqa yerdə təşkil olunurdusa, onda yemək-içməkdən sonra axşam tərəfi bütün kənd camaatı və dəvət edilmiş qonaqlar toyun keçiriləcəyi yerə - mağara topla-

şırdı. Bu məqsədlə oğlan evinin yaxınlığında musiqiçilər hündür bir yerə çıxıb zurna və nağara (dəf) ilə toya yığışmağın vaxtı olduğunu bildirirdilər. Camaat toyxanaya toplaşdıqdan sonra toy şənliyi başlayırdı. Toy şənliyinə bütün kənd camaatı toplaşırdı. Musiqiçilər oyun havaları çalır, hamı rəqsə dəvət olunurdu.

Kənddə müəyyən bir dövr ərzində Məşədi Hüseynlilər nəslindən İsgəndər Məmməd oğlu nağara çalan, Babalılardan Abbasəli Ağamalı oğlu zurnada züy tutan, Mirzalılardan Hüseyn Səfəralı oğlu isə zurnada qayda vuran idi. Uzun müddət kənd toyları onların iştirakı ilə keçirilirdi. Qara zurnada "Vağzalı", "Uzundərə", "Mirzəyi", "Heyvagülü", "Tərəkəmə","A qarlı dağlar", "Köçəri", "Qaytağı", sazda "Ruhani" havaları kənd camaatının sevimli oyun havaları idi. Kənd cavanlarının "Yallı", "Cəngi" rəqslərinə baxmaqdan doymaq olmurdu. Yenə də "toybabası" və "yengə"lər fəaliyyətə başlayırdılar, "şabaş" toplayır, adamları rəqsə dəvət edirdilər. Toy şənliyi gecənin yarısına qədər davam edirdi. Toyun sonunda bəylə gəlini rəqsə dəvət edirdilər. Bəy anası, bacısı, qardaşı və bütün qohum-əqrabası onların başına toplaşaraq bir qədər oynadıqdan sonra onları təbrik edirdilər. Bəy və gəlinin rəqsindən sonra toy bitir, camaat evinə dağılışırdı.

Toy bitəndən sonra bəyi sağdış və soldışı, dostları, gəlini isə yengələr, bəyin anası, bacıları, digər qadınlardan ibarət qohum-əqraba müşayiət edərək toydan çıxarıb bəyin evinə qədər ötürərdilər.

Kənd toylarındakı maraqlı və özünəməxsus ənənələrdən biri də "baba evi" (sağdış) tərəfindən bəy üçün "şax" bəzənməsi idi. Vertikal olaraq ayaq üstə qoyulan quru ağacın üzərində müxtəlif yerlərdə, pərakəndə şəkildə oymalar açılır, bu oymalara qolları xatırladan yumrulanmış müxtəlif uzunluqda maili olaraq qollar taxılır, şam və ya küknar ağacını xatırladan "şax" düzəldilirdi. Bu qollardan müxtəlif kiçik hədiyyələr, konfetlər, bəzən meyvələr, corab, yaylıq, dəsmal və s. asılardı. "Şax" musiqi səsləri altında bəyə təqdim olunurdu.

Kənddəki toy ənənələrindən biri də gəlinin gərgəkdə oturması ilə əlaqədardır. Adətən toyun üçüncü günü gəlinin ata-anası, bacıları, əmi-dayısı, xala-bibisi gəlini gərdəkdən çıxarmağa gəlirdilər. Oğlan anası süfrə açır, gələn qonaqları süfrəyə əyləşdirirdi. Yeyib-içmək qurtardıqdan sonra gəlinin qaynanası gəlinə müraciət edərək süfrəni yığışdırmağı xahiş edirdi. Bu zaman qız tərəfi masaya nəmər qoyurdu. Gəlin gərdəkdən çıxaraq masaya yaxınlaşır və süfrəni yığışdırmağa başlayır. Bu zaman süfrəyə qoyulan nəmərı də gəlin götürməlidir. Gəlin süfrəni yığışdırdıqdan sonra daha gərdək arxasına keçmir və orada əyləşmir. Gəlin gərdəkdən çıxarılmış və bu ailənin bir fərdinə çevrilmiş hesab olunur.

• *Elin yas adətləri*

Sədənağacın yas mərasimləri Göyçə mahalının bütün kəndlərində olduğu kimi islam dininin şiə məzhəbinə uyğun olan: mərhumun yuyulması, qüsullanması, kəfənlənməsi, qəbrin quruluşu, ölü namazının qılınması, cənazənin məzara endirilməsi qaydalarından ibarətdir.

Ənənəyə görə, hər hansı bir kənd sakini vəfat etdikdən sonra onun cənazəsini bir döşəyin üstündə ortaya qoyurdular. Mərhumun göz qapaqlarını örtdükdən sonra əllərini yanına sallayır, çənəsini bağlayır, ayaqlarını düz uzadaraq üzünü örtərdilər. Onun ətrafına yaxın qohumlardan olan qadınlar oturub ağı deyib, ağlaşardılar. Xəbər kəndə yayılan kimi, kənd camaatı tez bir zamanda yas yerinə toplaşar, mərhumun ailə üzvlərinə başsağlığı verərək dəfn üçün hazırlıq görülməsinə köməklik göstərərdilər. Kənddəki adətə görə, dəfn və yas mərasimi təkcə mərhumun ailəsinin yox, bütün kəndin qayğısı idi. Ona görə də hər kəs bu işdə öz köməyini əsirgəmirdi. İşlərin hamısı könüllü və təmənnasız görülürdü. Mərhum günbatandan sonra keçinərdisə, onun dəfni sabaha saxlanırdı. Sabaha qədər ölünün ətrafında onun yaxınları olan qadınlar əyləşir, onu tək qoymurdular.

Səhər tezdən qəbir qazmaq üçün kənd cavanlarından bir neçə nəfər qəbiristanlığa göndərilirdi. Bundan sonra isə yuyulma üçün hazırlıq işləri aparılırdı. Bu məqsədlə mərhumun həyətinin bir tərəfində ətrafına kilim, xalça çəkilmiş "yuyat" yeri düzəldilirdi. Mollanın rəhbərliyi altında "qüsul" mərasimi başlayardı. Qaydalara əsasən "qüsul" üç mərhələdə yerinə yetirilirdi. Əvvəlcə ölünün boğazından yuxarı hissəsi sidr ağacının tozu ("sidr tozu") qatılmış su ilə yuyulurdu. Sonra isə bədən hissəsi kafur (Çin, Yaponiya və Hindistan kimi Asiya ölkələrində bitən, dəfnəyə bənzər həmişəyaşıl ağacın kitrəsindən alınan, təbabətdə və texnikada işlədilən kəskin və spesifik qoxulu maddə) qatılmış su ilə yuyulurdu. Sonunda isə üstünə başdan ayağadək üç dəfə təmiz su tökməklə "qüsul" verirdilər. Bu iş başa çatdıqdan sonra alnına, sağ və sol əllərinin üstünə, sağ və sol ayaqlarını dizlərinə, sağ və sol ayaqlarının baş barmaqlarına, yeddi nahiyəsinə, kamfora yağı (sidr-kafur) sürtülürdü. Yuyulma başa çatdıqdan sonra cənazəni pambıqlayıb ağ çit parçadan ibarət olan "kəfənə" bükürdülər. Kəfən baş və ayaqdan, həm də ortasından kəmər kimi, kəfənlik parçadan düzəldilmiş iplərlə bağlanırdı. Cənazəni qəbirə qoyan zaman həmin iplərdən tuturdular. Meyit yuyulub kəfənlənəndən sonra tabuta qoyulur və mafənin üstündə hüzr yerinə gətirilirdi. Kənd camaatı mollanın iştirakı ilə mərhuma halallıq verib vidalaşdıqdan sonra mafə üç dəfə qaldırılıb yerə qoyulur və mərhumun ayaq tərəfi irəli olmaqla əvvəlcə yaxın qohumları, sonra isə bütün kənd camaatı tərəfindən çiyinlərinə götürülərək dəfn üçün, piyada şəkildə, kəndin 4

km-liyində, qonşu Dərə kəndi ilə sərhəddə yerləşən qəbiristanlığa aparılardı. Adətə görə, qəbiristanlığa qadınlar getməz, yalnız kişilər gedərdi. Yolboyu kişilər növbə ilə mafənin altına girib onu qəbiristanlığa çatdırardılar. Molla dəfn qafiləsinin önündə gedərək yol boyu Qurandan surələr oxumaqla cənazəni qəbiristanlığa qədər müşayiət edərdi. Qəbiristanlığın girəcəyində mafəni yerə qoyurdular və molla bütün qəbiristanlıq əhli üçün dua oxuyurdu. Dua qurtardıqdan sonra mafəni qaldırıb mərhum üçün qazılmış qəbrin yanına gətirirdilər. Qəbrin yanında camaat mollanın arxa tərəfində duraraq mollanın iştirakı ilə cənazə namazı qılır və mərhumu qəbrə qoyurdular. Cənazəni üç-dörd nəfər, kəfənin baş, ayaq tərəfindən və belinə bağlanmış iplərdən tutaraq qəbrə sallayır, bir nəfər mərhumun ən yaxın qohumu isə aşağıda, qəbrin içində durub onu sağ çiyni üstə, üzü qibləyə tərəf, qəbrin dibində "əhlət" adlanan yerə qoyurdu. Sonra isə kəfənin ayaq və baş tərəflərinə bağlanmış ipləri və kəməri açırdı. Qəbrin dərinliyi 120-130 sm olurdu. Qəbrin dibində əhlət adlanan yer dar qazılırdı ki, meyit böyrü üstə qoyulanda o tərəf-bu tərəfə aşmasın. Əhlətin üstünü hamar düzəldir, cənazə orada yerləşdirildikdən və "təlqin" verildikdən sonra məzara düşən şəxs cənazənin ayaq tərəfindən qəbirdən çıxır və qəbirə bir ovuc torpaq atırdı. Bundan sonra əhlətin üstünü Göyçə gölünün sahilindən çıxarılma nazik sal daşlarla örtürdülər. Daşların arasından qəbirə torpaq düşməsin deyə daşların üstünə saman tökürdülər. Dəfn mərasimindəki iştirakçılar növbə ilə bir neçə bel torpaq tökməklə qəbrin üstünü basdırırdılar. Bu zaman beli əldən ələ vermək olmazdı, bu pis əlamət kimi qiymətləndirilirdi. Ona görə də qəbrin üstünə bir neçə bel torpaq atdıqdan sonra beli yerə qoyurdular. Başqa birisi beli yerdən götürüb işi davam edirdi. Qəbri torpaqla doldurduqdan sonra qəbrin üstündəki torpaq qalağını bellə vuraraq hamarlayır, trapesiya şəklinə salır və üst hissəsində tən ortadan dayaz nov açırdılar. Həmin nova su tökülürdü. Boş su qabı isə qəbrin üstünə qoyulurdu. Mərhumun ili tamam olana qədər qəbrin üstü düzəldilir və başdaşı qoyulurdu. Başdaşı sadə olur, üstünə mərhumun adı, soyadı, atasının adı, doğum və ölüm tarixləri yazılırdı. İmkanı olanlar qəbir üstünə qiymətli başdaşları qoyurdular. Kənd qəbiristanlığında iki məqbərə: biri Hacı Ramazanlılardan Məşədi Mustafa Ələsgər oğlunun, o birisi isə Koluxlulardan Seyran Binnət qızının məzarı üzərində inşa olunmuşdu.

Mərhum torpağa tapşırıldıqdan sonra molla "Yasin" surəsini və islam dininə uyğun olan başqa dualar oxuyur, dəfn mərasiminin başa çatdığını bildirirdi. Dəfndə iştirak edən kənd camaatı mollanın iştirakı ilə bütün qəbiristanlıq əhlinin ruhuna rəhmət oxuyub mərhumun həyətinə qayıdardılar. Burada qəbiristanlıqdan qayıdanlara gülab paylanır və molla tərəfindən son fatihə oxunurdu. Bu ənənə indiyədək davam etməkdədir.

Hüzrə gələnlər qəbiristanlığa yollandıqdan sonra mərhumun həyətində qalan bir neçə kişi "yas yerini" nizamlayır, oturacaqlar təşkil edir, masalar düzürdülər. Eyni vaxtda samovarlarda çay qaynadılır, ehsan hazırlığı görülürdü.

Qəbiristanlıqdan qayıdanlara gülab paylandıqdan sonra molla camaatı ehsana dəvət edirdi. Bir çox bölgələrdən fərqli olaraq kənddəki adətə görə mərhuma dəfn günü də ehsan verilirdi. Vaxtı olanlar ehsana qalır, vaxtı olmayanlar, tələsənlər isə ailə üzvlərinə, qohumlara başsağlığı verir və üzrxahlıq edərək dağılışırdılar. Vaxtı olanlar isə keçib məclisdə əyləşir, mollanın oxuduğu Quran surələrini dinləyir, hədislərə qulaq asırdılar.

Mərhumun ilinə qədər, "üçündə", "yeddisində", "qırxında" və "ilində" ehsan verirdilər. Eyni zamanda qırxa qədər cümə axşamları da ehsan - "adına" verirdilər. Bu ehsanlara ailənin maddi vəziyyətindən asılı olmayaraq riayət olunurdu. Yas mərasimlərində kişi və qadın məclisləri ayrı olurdu.

Qadın məclislərində qadın mollasının iştirakından asılı olmayaraq ağı deyilər, ağlaşma qurulardı. Kəndin qadınları arasında xüsusi avaz ilə seçilən qadınlar "ağı" deyir və başqalarını da ağladırdılar. Bütün kənd camaatı mərhumun qırxına qədər yas saxlayırdı.

Mərasimdə əsas yeməklərdən biri halva hesab olunurdu. Halva süfrəyə yuxa ilə verilirdi. Mərasimdə halva ilə yanaşı, bozartma, bəzən də plov (aş) verirdilər. Ehsanda plov vermək ənənəsi keçən əsrin 70-ci illərindən başladı və bu gün də davam etdirilir. Yas mərasimində bütün kənd camaatı yaxından iştirak edir, hamı mərhumun ailəsinə müəyyən vasitələrlə köməklik etməyə çalışırdı.

Kənd camaatından heç bir kəs mərhumun ili çıxana qədər xeyir iş görməzdi, evlərdə radiolar, televizorlar qırx gün susurdu, hər hansı bir musiqili tədbirin keçirilməsi qətiyyən ola bilməzdi. Mərhumun ili çıxmamış çox nadir hallarda toy edilərdi. O zaman da toy edəcək şəxs, kənd ağsaqqallarından bir neçə nəfəri də götürüb mərhumun ailəsindən "icazə almaq" üçün o qapıya gedərdi.

1988-ci il deportasiyasından sonra kənd camaatı pərən-pərən oldu, Azərbaycanın iri şəhərlərində, müxtəlif bölgələrində məskunlaşdı. Adət-ənənələri mühafizəkarcasına qoruyub-saxlayan yaşlı nəsildən bir çoxları dünyasını dəyişdi. Kənd camaatı arasında əlaqələr yavaş-yavaş qırılmağa başlasa da, adamlar imkan daxilində, bəzən məsafənin uzaqlığına baxmayaraq, bir-birlərinin xeyirində, şərində iştirak edirlər.

NƏSİLLƏR (SOYLAR)

• *Qısa arayış*

Basarkeçər rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. Həmin vaxta qədər rayonun ərazisi 1850-ci ildən İrəvan quberniyası Yeni Bəyazid qəzasının, 1920-ci ildən sonra isə Ermənistan SSR Novo-Bəyazet qəzasının tərkibinə daxil idi. 1969-cu il iyunun 11-nə kimi Basarkeçər, həmin tarixdən isə Vardenis rayonu adlandırılıb. Ərazisi 1151 kv. km-dir. Rayon mərkəzi Basarkeçər (dəyişdirilmiş adı Vardenis) yaşayış məntəqəsi idi. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 168 km-dir.

Kəndin ilk adı bütün rəsmi sənədlərdə1935-ci ilə qədər Sadanağac kimi qeyd edilmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il fərmanı ilə kəndin adı heç nə ilə əsaslandırılmadam dəyişdirilib Güney qoyulmuşdur. Ermənistan prezidentinin 19 aprel 1991-ci il tarixli fərmanı ilə adı yenidən dəyişdirilib Arequni adlandırılmışdır.

El arasında 1930-cu ilə qədər Hacı Qərib kimi də tanınıb.

Bioqrafik təsvirdə biz də bu uyğunluğu saxlamağa çalışdıq.

Sədənağac kəndində 1988-ci il deportasiyasına qədər məskun olmuş, xalq arasında "tayfa" adlandırılan, çoxsaylı ailələrdən ibarət 12 nəsil (soy) yaşayırdı. Onlar yerli deyimdə daşıdığı adlarla əlifba sırası ilə bu şəkildə sıralanır:

1. Babalılar; 2.Çəkmələlər; 3. Əmirlilər; 4. Əmrahlılar;

5. Hacı Ramazanlılar; 6. Hüsənlilər; 7. Koluxlular; 8. Qəhrəmanlılar;

9. Məşədi Hüseynlilər; 10. Mirzalılar; 11. Rüstəmuşağı; 12. Tatlar.

Bu soylardan əlavə, kənddə kökü onlardan heç birinə bağlı olmayan əlahiddə ailələr də az deyildi.

1988-ci il deportasiyasından əvvəlki hadisələrin gedişində və həmin müdhiş hadisədən sonra kənd sakinləri yuxarıdakı miqrasiya cədvəlindən göründüyü kimi, Azərbaycanın hər yerinə səpələnmişlər. Xarici ölkələrdə yaşayanlarımız da az deyildir. Biz bu bölmədə onların hamısının şəcərəsini hər soy (tayfa) üzrə ayrılıqda, ailə tərkibləri ilə ümumi yaddaş üçün qeyd etmək istədik. Beləliklə:

BABALILAR

XIX əsrin ikinci yarısında Sədənağac kəndinə daimi yaşamaq üçün köçüb gələn ailələr içində sonralar kənd camaatı tərəfindən "Babalılar" (yerli deyimdə Bavalılar) adlandırılan nəslin təmsilçiləri də var idi.

Göyçə mahalının 1831-ci ildə tərtib edilmiş kameral siyahısında mahalın Daşkənd kəndində məskunlaşmış və Qarapapaq tayfasına bağlı olanların arasında 20 saylı ailə göstərilmişdir: Ali Baba oğlu 33 yaşında (onun arvadı), oğlu Abdulla 8 yaş, üç qardaşı var: Cəfər 15 yaş, Qafar 15 yaş, İsmayıl 10 yaş (55, s.78-83).

1843-cü ilin kameral siyahısında bu ailənin 15 saylı ailə kimi aşağıdakı tərkibdə mahalın Qanlı Allahverdi kəndində yaşadığı göstərilir: İsmail Baba oğlu, 40 yaş, oğlu Kərim 15 yaş; qardaşları: 1) Cəfər 20 yaş, 2) Qafar 10 yaş (55, s.163-166).

Müəyyən edilə bilməyən səbəblərə görə Alı Baba oğlu haqqında heç bir məlumat verilmir. Siyahıda bu ailənin 5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 12 baş iribuynuzlu, 20 baş xırda buynuzlu heyvanı olduğu göstərilir.

1873-cü ildə tərtib edilmiş kameral siyahıda 7 saylı kimi qeyd edilmiş bu ailənin aşağıdakı tərkibdə mahalın Sədənağac kəndində yaşadığı qeyd olunur:

"İsmayıl Baba oğlu 74 yaş, oğulları: 1) Kərim 44 yaş, onun oğulları: Heydər 10 yaş, Xəlil 5 yaş; 2) Kazım 39 yaş, onun oğulları: Allahverən 8 yaş, Allahyar 5 yaş; 3) Səfər 34 yaş, onun oğlu Paşa 1 yaş; 4) İskəndər 29 yaş. Bu ailədə 10 kişi, 6 qadın var."

Bu siyahıda 8 saylı kimi göstərilən ailə: *"Qafar Baba oğlu, 49 yaş, onun oğlu, Oruc 18 yaş; qardaşı Cəfərin oğulları: Həsən 30 yaş, Namaz 19 yaş; Həsənin oğlu Qurbanəli 1 yaş. Bu ailədə 5 kişi, 4 qadın var"* (şəkil 32).

Kameral siyahıda 10 saylı ailə kimi göstərilən Haqverdi Alı oğlu və 15 saylı ailə kimi qeyd olunan Ağaməmməd Alı oğlu İsmayıl Baba oğlunun qardaşı Alı Baba oğlunun övladları olduğu təxmin edilir. Kənd camaatı arasında bu ailələrin yaxın qohumluq əlaqələri olduğu, daha doğrusu, eyni soya mənsub olduqları məlum idi.

Bu kameral təsvirdən aydın olur ki, Sədənağac kəndində məskunlaşmış Hacı Qərib və onun qardaşları ilə bu ailənin də yaxın qohumluq əlaqələri var. Ona görə də həmişə bir yerdə eyni kənddə yaşayıblar.

- **İsmayıl** Baba oğlunun doğulduğu yer bəlli deyil. Doğum tarixinin siyahılar üzrə müxtəlifliyi o dövrdə metrik sistemin olmaması ilə bağlıdır. Siyahıyaalma zamanı siyahıya alanlar siyahıya alınanın yaşını formal olaraq sorğu yolu ilə təyin edirdilər, buna görə də aldıqları cavabı yazırdılar. Biz təxmin edirik ki, İsmail Baba oğlunun doğum tarixi 1803-cü ildir. Həyat yoldaşı haqda məlumat yoxdur. Kərim, Kazım, Səfər və İskəndər adlı dörd oğlu olub. Deyilənə görə, 1883-cü ildə vəfat

edib və köhnə kənd qəbiristanlığında ("Qaraul" təpəsindəki qəbiristanlıqda) dəfn olunub.

- **Kərim** İsmayıl oğlu (1828, Göyçə mahalı Daşkənd kəndi), həyat yoldaşı haqda məlumat yoxdur. Heydər və Xəlil adlı iki oğlu olub. 1902-ci ildə Sədənağac kəndində vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Heydər** Kərim oğlu (1863, Sədənağac) Nabat ilə ailə qurub. Əli və Məsmalı adlı iki oğlu olub. 1916-cı ildə Sədənağac kəndində vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Əli** Heydər oğlu (1886, Sədənağac) Əmirlilərdən Zəhra Məhəmməd qızı ilə ailə qurub. Çərkəz, Kərim (Biloş), Sadıq, Rəsul adlı dörd oğlu, Kəhriz adlı bir qızı olub.
- **Çərkəz** Əli oğlu (1911, Sədənağac) Qəhrəmanlılardan Röyzə Qurban qızı ilə ailə qurub. Saray adlı qızı olub. 19 oktyabr 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci il avqust ayından itkin düşdüyü ailəsinə bildirilmişdir. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Saray** Çərkəz qızı (1942, Güney) Babalılardan Qiyas Mürsəl oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçdü. Bir neçə il orada yaşadıqdan sonra Bakı şəhərinə gəldi və hazırda oğlu Vahidin ailəsi ilə birlikdə yaşayır.
- **Kərim** (Biloş) Əli oğlu (1915, Sədənağac) 19 iyun 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. Hərbi hissəni özbaşına tərk etdiyi üçün 11 iyun 1942-ci ildə Zaqafqaziya Cəbhəsi hərbi tribunalının hökmünə əsasən 10 illik azadlıqdan məhrum edilmişdir. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Sadıq** Əli oğlu (1916, Sədənağac) 1949-cu ildə Şəmkir şəhərinə köçüb. İki dəfə ailə qurub. Birincidə Gədəbəy rayonunun Qala kəndindən Dursun Musa qızı ilə evlənmişdi. Bu nikahdan Yaşar adlı oğlu, Lələzar adlı bir qızı olub. İkincidə alman qızı Elza xanımla ailə qurdu. Bu nikahdan Esta adlı bir qızı olub. 1972-cu ildə Şəmkirdə vəfat edib və orada şəhər qəbiristanlığında dəfn olunub.
- **Yaşar** Sadıq oğlu (1952, Şəmkir) ali təhsillidir. Babalılardan Gülgəz Qurban qızı ilə ailə qurub. Sadıq adlı oğlu, Kəmalə və Sevinc adlı iki qızı var. Ailəsi ilə birlikdə Şəmkir şəhərində yaşayır.
- **Sadiq** Yaşar oğlu (1979, Şəmkir) Şəmkir şəhərindən Günel Aşır qızı ilə ailə qurub. Yaşar adlı oğlu, Aytac və Gülgəz adlı iki qızı var. Uşaqlar azyaşlıdır. Ailəsi ilə birlikdə Şəmkir şəhərində yaşayır.

- **Sevinc** Yaşar qızı (1980, Şəmkir) Babalılardan Müşfiq Kamandar oğlu ilə ailə qurub. Ailə tərkibi haqqında məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Kəmalə** Yaşar qızı (1988, Şəmkir) Şəmkirdən Asim Məmməd oğlu ilə ailə qurub. Əli və Əkbər adlı iki oğlu var. Ailəsi ilə birlikdə Şəmkir şəhərində yaşayır.
- **Laləzar** Sadıq qızı (1958, Şəmkir) Şəmkirdən Yusiflə ailə qurub. Sənan və Kənan adlı iki oğlu olub. 2011-ci ildə vəfat edib və Şəmkir şəhər qəbiristanlığında dəfn olunub.
- **Esta** Sadıq qızı (1963, Şəmkir) Şəmkirdən Aşıq Oqtay ilə ailə qurmuşdur. Taleh və Bəxtiyar adlı iki oğlu olub. 1999-cu ildə Şəmkir şəhərində vəfat edib və Şəmkir şəhər qəbiristanlığında dəfn olunub.
- **Rəsul** Əli oğlu (1927, Sədənağac) üç dəfə ailə qurub. Birincidə Şişqaya kəndindən Röyzə ilə evlənib. Xaqani və Vidadi adlı ekiz oğlu olub. Bir neçə il yaşadıqdan sonra ayrılıblar. İkincidə mahalın Yarpızlı kəndindən Nübar Cahad qızı ilə ailə qurub. Ramiz adlı bir oğlu olub. Üçüncüdə Şəmkirin Morul kəndindən Pürzə Kərim qızı ilə ailə qurub. Bu nikahdan Fərrux, Namiq, Natiq adlı üç oğlu, Rühanə adlı bir qızı olub. 1999-cu ildə vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub. Həyat yoldaşı Pürzə Kərim qızı 2001-cı ildə Şəmkir şəhərində vəfat etdi.
- **Xaqani** Rəsul oğlu (1951, Sədənağac) Rusiya Federasiyasının Nijni Novqorod (keçmiş Qorki) şəhərində yaşayır. Evlidir. Həyat yoldaşı milliyyətcə rusdur. Ailəsi haqda məlumat əldə edə bilmədik.
- **Vidadi** Rəsul oğlu (1951, Sədənağac) Rusiyanın Nijni Novqorod (keçmiş Qorki) şəhərində yaşayır. Evlidir. Həyat yoldaşı milliyyətcə rusdur. Ailəsi haqda məlumat əldə edə bilmədik.

  Xaqani və Vidadi ekiz olublar.
- **Fərrux** Rəsul oğlu (1954, Güney) Şəmkirdən Nailə Musa qızı ilə ailə qurub. Anar, Ceyhun, Rəsul, Araz adlı dörd oğlu var. Ailə Şəmkirdə yaşayır. 2014-cü ildə Fərrux Şəmkirdə rəhmətə gedib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Anar** Fərrux oğlu (1979, Şəmkir) Şəmkir rayonunun Qaracaəmirli kəndindən Dilarə İbrahim qızı ilə ailə qurub. Nihad, Fərhad adlı iki oğlu, Nigar, Nərgiz adlı iki qızı var. Şəmkir şəhərində yaşayırlar.
- **Ceyhun** Fərrux oğlu (1982, Şəmkir) Şəmkir rayonunun Dəllər qəsəbəsindən Arzu Sahib qızı ilə ailə qurub. Şəmkir şəhərində yaşayırlar.
- **Rəsul Fərrux oğlu** (1986, Şəmkir) Şəmkir rayonunun Morul qəsəbəsindən Könül Mais qızı ilə ailə qurub. Aydan adlı azyaşlı bir qızı var. Şəmkir şəhərində yaşayırlar.

- **Araz** Fərrux oğlu (1987, Şəmkir) Şəmkirdən Validə Tofiq qızı ilə ailə qurub. Fərrux adlı bir oğlu, Firuzə adlı bir qızı var. Şəmkir şəhərində yaşayırlar.
- **Ramiz** Rəsul oğlu (1958, Şəmkir) Qəribə Əhəd qızı ilə ailə qurub. Ramin, Razim, Rizvan adlı üç oğlu var. Şəmkir şəhərində yaşayırlar.
- **Ramin** Ramiz oğlu (1980, Şəmkir) Şəmkirdən Gülnaz Cəlil qızı ilə ailə qurub. Nurlan, Yusif adlı iki oğlu, Nübar adlı qızı var. Uşaqlar azyaşlıdır. Şəmkir şəhərində yaşayırlar.
- **Razim** Ramiz oğlu (1982, Şəmkir) Şəmkirdən Samirə Fazil qızı ilə ailə qurub. Ramiz adlı oğlu, Nigar və Aysun adlı iki qızı var. Uşaqlar azyaşlıdır. Şəmkir şəhərində yaşayırlar.
- **Rizvan** Ramiz oğlu (1988, Şəmkir) Şəmkirdən Türkan Qafar qızı ilə ailə qurub. Murad adlı oğlu, Alin adlı qızı var. Uşaqlar azyaşlıdır. Şəmkir şəhərində yaşayırlar.
- **Namiq** Rəsul oğlu (1959, Güney) Şəmkir şəhərində Qəndab Aslan qızı ilə ailə qurub. Kərəm adlı oğlu, Sübhanə və Yeganə adlı iki qızı var. Şəmkir şəhərində yaşayırlar.
- **Kərəm** Namiq oğlu (1985, Şəmkir) Nazilə Firdövsi qızı ilə ailə qurub. Günəş adlı azyaşlı qızı var. Şəmkir şəhərində yaşayırlar.
- **Sübhanə** Namiq qızı (1982, Şəmkir) Şəmkir şəhərindən Cahangirlə ailə qurub. Rəşad adlı oğlu, Nərmin və Aynişan adlı iki qızı var. Şəmkir şəhərində yaşayırlar.
- **Yeganə** Namiq qızı (1983, Şəmkir) Eynur Məhəmməd oğlu ilə ailə qurub. Şəmkir şəhərində yaşayırlar.
- **Natiq** Rəsul oğlu (1963, Güney) milliyyətcə rus qadınla ailə qurub. Ruslan adlı oğlu var. Hazırda Rusiyada yaşayır.
- **Rüxsarə** Rəsul qızı (1966, Güney) Şəmkirdən Fazil Tofiq oğlu ilə ailə qurmuşdur. Məhərrəm adlı oğlu, Mehparə adlı bir qızı var. Şəmkir şəhərində yaşayırlar.
- **Kəhriz** Əli qızı (1919, Sədənağac) Babalılardan Aslanalı İsə oğlu ilə (əmisi oğlu) ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Şəmkirdə vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Məsmalı** Heydər oğlu (1886, Sədənağac) həyat yoldaşının adını müəyyənləşdirə bilmədik. Binnət, Firuddin və Məhəmməd adlı üç oğlu olub. 1946-cı ildə həbs olunub və bir daha kəndə qayıtmayıb. Başqa məlumat yoxdur.
- **Binnət** Məsmalı oğlu (1908, Sədənağac) 29 yanvar 1942-ci ildə hərbi xidmətə çağırılıb və Böyük Vətən müharibəsindən qayıtmayıb. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.

- **Firuddin** Məsmalı oğlu (1917, Sədənağac) 1941-ci ildə hərbi səfərbərliyə alınıb. Valeh adlı oğlunun olduğu məlumdur. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Məhəmməd** Məsmalı oğlu (1920, Sədənağac) Daşkəsənə köçmüşdür. Bir az orada yaşadıqdan sonra Şəmkirə köçdü. Övladı olmayıb. 1999-cu ildə vəfat edib və Şəmkir şəhər qəbiristanlığında dəfn olunub.
- **Xəlil** Kərim oğlunun (1868, Sədənağac) taleyi haqda məlumat əldə edilmədi.
- **Kazım** İsmayıl oğlunun (1844, Göyçə mahalı, Qanlı Allahverdi k.) həyat yoldaşı haqda məlumat yoxdur. Allahverən və Allahyar adlı iki oğlu olub.
- **Allahverən** Kazım oğlu (1865, Sədənağac).
- **Allahyar** Kazım oğlu (1868, Sədənağac).
  Deyilənə görə sonralar bu ailə mahalın adını təyin edə bilmədiyimiz başqa bir kəndinə köçüb.
- **Səfər** İsmayıl oğlunun (1843, Qanlı Allahverdi) Paşa və Muxtar adlı iki oğlunun olduğu məlumdur.
- **Paşa** Səfər oğlu (1872, Sədənağac) Babalılardan Səkinə Hasan qızı ilə ailə qurub. Mürsəl, Mahmud, Gülmalı, Əlifalı adlı dörd oğlu, Qədəmçə adlı bir qızı olub. 1939-cu ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunmuşdur.
- **Mürsəl** Paşa oğlu (1898, Sədənağac) Koluxlulardan Xanım Hacı qızı ilə ailə qurmuşdur. Əvəz, Qiyas, Namaz, Zakir, Sahib adlı beş oğlu, Firəngiz, Mahizər, Nazlı adlı üç qızı olub. 1985-ci ildə rəhmətə gedib və kənd qəbiristanlığında dəfn olunmuşdur.
- **Əvəz** Mürsəl oğlu (1926, Sədənağac) 22 noyabr 1944-cü ildə hərbi xidmətə çağırılmışdır.1945-ci ilin aprel ayında itkin düşmüşdür. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Qiyas** Mürsəl oğlu (1927, Sədənağac) Babalılardan Saray Çərkəz qızı ilə ailə qurmuşdur. Zahid, Vahid, Eldar adlı üç oğlu, Səlminaz, İradə, Etibar, Sahilə, Elmira adlı beş qızı olub. 1988-ci ildə deportasiyadan sonra ailəsi ilə birlikdə Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçmüşdür. 1999-cu ildə orada vəfat etmiş və Şəmkir şəhər qəbiristanlığında dəfn olunmuşdur.
- **Zahid** Qiyas oğlu (1962, Güney) Hacı Ramazanlılardan Xalidə Təhməz qızı ilə ailə qurmuşdur. Zahir və Mahir adlı iki oğlu, Zahidə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkir şəhərinə köçmüşdür. Hal-hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Zahir** Zahid oğlu (1988, Güney) rayonun Kəsəmən kəndindən Samirə Fuad qızı ilə ailə qurub. Əli adlı oğlu, Ayşən adlı qızı var. Şəmkir şəhərində yaşayır.

- **Mahir** Zahid oğlu (1992, Şəmkir r. Yeni Göyçə k.) əslən Basarkeçər rayonunun Sarıyaqub kəndindən olan Ruhəngiz İsmayıl qızı ilə ailə qurub. Şəmkir şəhərində yaşayır.
- **Zahidə** Zahid qızı (1995, Şəmkir r. Yeni Göyçə k.) Şəmkirdən Xaliq Ədalət oğlu ilə ailə qurub. Şəmkir şəhərində yaşayır.
- **Vahid** Qiyas oğlu (1965, Güney) Goranboy rayonundan Qiyafət Hüseyn qızı ilə ailə qurub. Tahir və Tacir adlı iki oğlu, Zahirə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıya köçmüş və ailəsi ilə birlikdə şəhərdə yaşayır.
- **Tahir** Vahid oğlu (1992, Bakı) ali təhsillidir. Bakı şəhərindən Nazpəri Məzahir qızı ilə ailə qurub. Aylin və Aydan adlı iki qızı var.
- **Tacir** Vahid oğlu (1998, Bakı) ali məktəbdə təhsil alır.
- **Zahirə** Vahid qızı (1996, Bakı) ali təhsillidir.
- **Eldar** Qiyas oğlu (1972, Güney) rayonun Göysu kəndindən Könül İspəndiyar qızı ilə ailə qurmuşdur. Zamir, Elmir adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçmüşdür və hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Zamir** Eldar oğlu (1992, Şəmkir r. Yeni Göyçə k.).
- **Elmir** Eldar oğlu (1995, Şəmkir r. Yeni Göyçə k.).
- **Səlminaz** Qiyas qızı (1968, Güney) Şəmkir şəhərindən Mehdi Əziz oğlu ilə ailə qurub. Əlixan və Elxan adlı iki oğlu var. Şəmkir şəhərində yaşayırlar.
- **İradə** Qiyas qızı (1970, Güney) Hüsənlilərdən Qeyis Həmid oğlu ilə ailə qurmuşdu. 2008-ci ildə Qeyis vəfat etdi. Qızı Aytacla Bakıda yaşayırlar.
- **Etibar** Qiyas qızı (1974, Güney) Şəmkirdən İsrafil Səfər oğlu ilə ailə qurub. İlkin adlı oğlu, Güllər adlı qızı var. Hazırda ailəsi ilə birlikdə Rusiyada yaşayır.
- **Sahilə** Qiyas qızı (1976, Güney) əslən Göyçə mahalının Toxluca kəndindən Sabir Hüseyn oğlu ilə ailə qurub. Natiq adlı oğlu, Günel və Mehriban adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Elmira** Qiyas qızı (1979, Güney) rayonun Göysu kəndindən Etibar Yaqub oğlu ilə ailə qurub. Yaqub adlı oğlu, Qızılgül və Fatimə adlı iki qızı var. Şəmkir şəhərində yaşayırlar.
- **Namaz** (Tofiq) Mürsəl oğlu (1946, Güney) Goranboy rayonunun Şadlı kəndindən Sənəm İbrahim qızı ilə ailə qurub. Elnur və Seymur adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçmüşdür. 2004-cü ildə vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur.

- **Seymur** Namaz oğlu (1981, Güney) ali təhsillidir. Babalılardan Günay Vaqif qızı ilə ailə qurub. Ərtoğrul adlı oğlu, Selcan adlı bir qızı var. Uşaqlar azyaşlıdır. Bakıda yaşayırlar.
- **Elnur** Namaz oğlu (1983, Güney) ali təhsillidir. Sumqayıt şəhərindən Sevda Həsən qızı ilə ailə qurub. Zeynal adlı azyaşlı oğlu var. Bakıda yaşayırlar.
- **Zakir** Mürsəl oğlu (1949, Güney) ali təhsilli idi. Rayonun Dərə kəndindən Sima Həsənalı qızı ilə ailə qurmuşdur. Naim, Rəşad, Vüsal adlı üç oğlu, Arzu adlı qızı var. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Bakı şəhərinə köçdü. 2016-cı ildə avtomobil qəzasında həlak oldu və Bakıda dəfn edildi.
- **Naim** Zakir oğlu (1979, Güney) rayonun Babacan kəndindən Sevinc Yusif qızı ilə ailə qurub. Vasif, Murad adlı iki oğlu var. Bakı şəhərində yaşayırlar.
- **Rəşad** Zakir oğlu (1982, Güney) Bakı şəhərində yaşayır.
- **Vüsal** Zakir oğlu (1988, Güney) Bakı şəhərində yaşayır.
- **Arzu** Zakir qızı (1979, Güney) Türkiyə vətəndaşı ilə ailə qurub və orada yaşayır. Bir qızı var.
- **Sahib** Mürsəl oğlu (1952, Güney) ali təhsillidir. Gəncə şəhərindən Dilbazi Məmməd qızı ilə ailə qurub. Elçin adlı bir oğlu, İradə adlı bir qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçmuş və hazırda ailəsi ilə orada yaşayır.
- **Elçin** Sahib oğlu (1985, Gəncə) ali təhsillidir. Bakıdan Suğra Abbas qızı ilə ailə qurub. Leyla adlı qızı var.
- **İradə** Sahib qızı (1982, Gəncə) Gəncədən Akiflə ailə qurub. Mikayıl adlı oğlu var.
- **Firəngiz** Mürsəl qızı (1934, Güney) Koluxlulardan Valeh Totulu oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Şəmkirə köçdü. Oğlu Arifin ailəsi ilə birlikdə Şəmkir şəhərində yaşayır.
- **Mahizər** Mürsəl qızı (1942, Güney) Qəhrəmanlılardan Qulu Qurban oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar. 2011-ci ildə orada vəfat etmiş və Goranboy rayonunun Dəyirmanlar kənd qəbiristanlığında dəfn olunmuşdur.
- **Nazlı** Mürsəl qızı (1944, Güney) Koluxlulardan Xanlar (Sədaət) Cığı oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1987-ci ildə vəfat etmiş və Güney kənd qəbiristanlığında dəfn olunmuşdur.
- **Mahmud** Paşa oğlu (1899, Sədənağac) əmisi qızı Qumaş Muxtar qızı ilə ailə qurub. Fidayıl, Mikayıl, Tahir, Qəzənfər, Yolçu adlı beş oğlu olub. 28 mart 1942-ci

ildə hərbi xidmətə çağırılıb. Arxa cəbhədə fəhlə taborunda qulluq edib, 1943-cü ilin sentyabr ayında xəstələnərək kəndə qayıdıb.1947-ci ildə Güney kəndində vəfat edib və kənd qəbiristanlığında dəfn olunub. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.

- **Fidayıl** Mahmud oğlu (1933, Sədənağac) Qəhrəmanlılardan Marış Yunis qızı ilə ailə qurub. Sənani, Nizami, Cavanşir adlı üç oğlu, Sevil və Xatirə adlı iki qızı olub. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Bakı şəhərinə köçdü. 1993-cü ildə Bakı şəhərində avtomobil qəzasında həlak oldu və şəhər qəbiristanlığında dəfn edildi.
- **Sənani** Fidayıl oğlu (1965, Güney) ali təhsillidir. Tatlardan Sahibə Qədir qızı ilə ailə qurmuşdur. Ramil və Rəşad adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Ramil** Sənani oğlu (1990, Bakı) ali təhsillidir. Bakı şəhərində yaşayır.
- **Rəşad** Sənani oğlu (1993, Bakı) Bakı şəhərində yaşayır.
- **Nizami** Fidayıl oğlu (1967, Güney) rayonun Qoşabulaq kəndindən İlhamə Ziyəddin qızı ilə ailə qurmuşdur. Fatimeyizəhra adlı qızı var. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.
- **Cavanşir** Fidayıl oğlu (1975, Güney) Məşədi Hüseynlilərdən Ramilə Rza qızı ilə ailə qurmuşdur. Hüseyn adlı bir oğlu, Sunay adlı bir qızı var. 1988-ci il deportasiyasından sonra Bakı şəhərində yaşayırlar.
- **Sevil** Fidayıl qızı (1968, Güney) Koluxlulardan Fikrət Məmməd oğlu ilə ailə qurmuşdur. Nuranə və Lamiyyə adlı iki qızı olub. 1988-ci ildə həyat yoldaşı vəfat etdikdən sonra Bakı şəhərinə köçdü və hazırda övladları ilə birlikdə orada yaşayır.
- **Xatirə** Fidayıl qızı (1973, Güney) Almaniyada yaşayan milliyyətcə türk Seyhanla ailə qurub və hazırda Almaniyada yaşayırlar.
- **Mikayıl** Mahmud oğlu (1935, Güney) Koluxlulardan Maypara Hüseyn qızı ilə ailə qurub. Zöhrab adlı oğlu, Elmira, Sünbül, Bülbül adlı üç qızı olub.1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Göygöl rayonunun Çaykənd kəndində məskunlaşdı və hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Zöhrab** Mikayıl oğlu (1968, Güney) rayonun Zod kəndindən Gülüstanla ailə qurub. Gülnar və Pərvanə adlı iki qızı var. Çaykənd kəndində yaşayır.
- **Elmira** Mikayıl qızı (1973, Güney) Zod kəndindən Müşfiq Şahsuvar oğlu ilə ailə qurub. Şəhriyar və Bəxtiyar adlı iki oğlu var. Çaykənd kəndində yaşayır.
- **Sünbül** Mikayıl qızı (1975, Güney) 1988-ci il deportasiyasından sonra valideynləri ilə birlikdə Çaykənd kəndində yaşayır.
- **Şölə** Mikayıl qızı (1978, Güney) 1988-ci il deportasiyasından sonra valideynləri ilə birlikdə Çaykənd kəndində məskunlaşdı və hazırda orada yaşayır.

- **Tahir** Mahmud oğlu (1937, Güney) ali təhsilli idi. Babalılardan Qətibə Zeynalabdı qızı (dayısı qızı) ilə ailə qurub. Əli adlı oğlu, Təranə adlı qızı olub. 1985-ci ildə istehsalat qəzasında həyatını itirmişdir. Bakı şəhərində dəfn olunub.
- **Əli** Tahir oğlu (1974, Bakı) ali təhsillidir. Hüsənlilərdən Səidə Nəbi qızı ilə ailə qurub. Məhəmməd adlı bir oğlu, Xədicə adlı qızı var. Bakı şəhərində yaşayırlar.
- **Təranə** Tahir qızı (1978, Bakı) Ağstafa şəhərindən Tahir Zakir oğlu ilə ailə qurub. Zakir adlı oğlu, Humay adlı qızı var. Bakı şəhərində yaşayırlar.
- **Qəzənfər** Mahmud oğlu (1945, Güney) hərbi xidmətdən sonra Özbəkistanda yaşadı və 1995-ci ildə orada vəfat etdi. İmran adlı bir oğlu olub. Başqa bilgi yoxdur.
- **Yolçu** Mahmud oğlu (1947, Güney) ali təhsilli idi. İnstitutu bitirdikdən sonra Bakı şəhərində mühəndis vəzifəsində çalışırdı. Məşədi Hüseynlilərdən Məmləkət Bilal qızı ilə ailə qurub. Vasif, Asif, Orxan adlı üç oğlu, Sədaqət adında qızı var. 1999-cu ildə erməni terrorçularının Bakı metropolitenində törətdikləri terror aktında həlak oldu və Bakıda dəfn olundu.
- **Vasif** Yolçu oğlu (1982, Bakı) ali təhsilli hərbçidir. Bakı şəhərində yaşayır.
- **Asif** Yolçu oğlu (1987, Bakı) ali təhsillidir. Bakı şəhərindən Nərmin İlham qızı ilə ailə qurub. İkram adlı oğlu, İpək adlı qızı var. Bakıda yaşayırlar.
- **Orxan** Yolçu oğlu (1989, Bakı) ali təhsillidir. Bakıdan Nuranə ilə ailə qurub. Bakıda yaşayırlar.
- **Sədaqət** Yolçu qızı (1981, Bakı) ali təhsillidir. Ağdam şəhərindən Zaur Maksud oğlu ilə ailə qurub. Tural, Murad adlı oğulları, Turanə adlı qızı var. Bakı şəhərində yaşayırlar.
- **Gülmalı** Paşa oğlu (1916, Sədənağac) 1941-ci ilin yanvar ayının 29-da hərbi xidmətə çağırılmış və cəbhəyə göndərilmişdir. 1943-cü ilin mart ayında itkin düşmüşdür. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Əlifalı** Paşa oğlu (1927, Sədənağac) ali təhsilli idi. Əmirlilərdən Minə Ələkbər qızı ilə ailə qurub. Sabir, Zabit, Ənvər, Mahir adlı dörd oğlu, Sabirə adlı qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçdü. 2008-ci ildə orada vəfat etdi, şəhər qəbiristanlığında dəfn olunmuşdur.
- **Sabir** Əlifalı oğlu (1961, Güney) ali təhsillidir. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçmüşdür.
- **Zabit** Əlifalı oğlu (1963, Güney) ali təhsillidir. Şəmkirdən Yeganə Məmməd qızı ilə ailə qurub. Vüsal adlı oğlu, Vüsalə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçmüş və hazırda orada yaşayırlar.
- **Vüsal** Zabit oğlu (1997, Gəncə) Gəncə şəhərində yaşayır.

- **Vüsalə** Zabit qızı (1988, Güney) Gəncə şəhərindən Manaf Avşarovla ailə qurub. Muxtar adlı bir oğlu var. Gəncədə yaşayırlar.
- **Ənvər** Əlifalı oğlu (1967, Güney) ali təhsillidir. Gəncə şəhərindən Aynurə Ramiz qızı ilə ailə qurmuşdur. Elvin, Nicat adlı iki oğlu, Səbinə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçmüş və hazırda orada yaşayırlar.
- **Mahir** Əlifalı oğlu (1971, Güney) ali təhsillidir. Tovuzdan Səadət Bəhram qızı ilə ailə qurub. Vüqar və Nərgiz adlı iki azyaşlı uşağı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçmüş və hazırda orada yaşayırlar.
- **Sabirə** Əlifalı qızı (1969, Güney) 1988-ci il deportasiyasından sonra valideynləri ilə birlikdə Gəncəyə köçmüş və hazırda orada yaşayır.
- **Muxtar** Səfər oğlu (1889, Sədənağac) Məşədi Hüseynlilərdən Nazlı Məhəmməd qızı ilə ailə qurmuşdur. Zeynalabdı, Məhəmmədəli, Müzəffər adlı üç oğlu, Qumaş, Nənəş adlı iki qızı olub. 1948-ci ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Zeynalabdı** Muxtar oğlu (1917, Sədənağac) 1940-cı ilin yanvar ayında hərbi xidmətə çağırılmışdır. Böyük Vətən müharibəsində iştirak edib. 1947-ci ildən ordudan tərxis olunaraq kəndə qayıdıb. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir. Hüsənlilərdən Səməngül (Gülüş) Mehralı qızı ilə ailə qurmuşdur. Əli, Şirxan adlı iki oğlu, Qətibə, Sənakət, Fatma, Tamam, Əprüz, Gülbəsti, Arifə adlı yeddi qızı olub. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçdü. 2005-ci ildə vəfat etdi və orada dəfn olundu. Həyat yoldaşı Səməngül Mehralı qızı Bakı şəhərində oğlu Şirxanın ailəsi ilə birlikdə yaşayır.
- **Əli** Zeynalabdı oğlu (1960, Güney) ali təhsillidir. Sumqayıt şəhərindən Aida Cəlil qızı ilə ailə qurub. Nurlan adlı oğlu, Sevil adlı qızı var. Ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.
- **Nurlan** Əli oğlu (1988, Bakı) ali təhsillidir. Bakıdan Rəna İsmayıl qızı ilə ailə qurub. Ayxan və Əli adlı iki oğlu var. Bakı şəhərində yaşayırlar.
- **Sevinc** Əli qızı (1991, Bakı) alı təhsillidir. Bakıdan Kərim Allahverdi oğlu ilə ailə qurub. Ayat adlı oğlu, Rasimə adlı qızı var. Bakıda yaşayırlar.
- **Şirxan** Zeynalabdı oğlu (1968, Güney) ali təhsillidir. Rayonun Zərkənd kəndindən Sülhanə İbrahim qızı ilə ailə qurub. Kənan, Fərid adlı iki oğlu var. Ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.
- **Kənan** Şirxan oğlu (1999, Bakı) hazırda Bakı şəhərində ali məktəb tələbəsidir.
- **Fərid** Şirxan oğlu (2002, Bakı) hazırda Bakıda orta məktəbdə oxuyur.

- **Qətibə** Zeynalabdı qızı (1951, Güney) Babalılardan Tahir Mahmud oğlu ilə ailə qurmuşdur. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakı şəhərində yaşayırlar.
- **Sənakət** Zeynalabdı qızı (1953, Güney) rayonun İnəkdağı kəndindən Vaqif Bozalqanlı oğlu ilə ailə qurmuşdur. Aida adında qızı var. Ailəsi ilə birlikdə 1970-ci ildə Bakı şəhərinə köçmüşdür.
- **Fatma** Zeynalabdı qızı (1955, Güney) rayonun Subatan kəndində doğulmuş, Güney kəndində yaşayan Vərqa Namaz oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçmüş və hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Tamam** Zeynalabdı qızı (1957, Güney) rayonun Pəmbək kəndindən Vidadi İsax oğlu ilə ailə qurmuşdur. Fail, Rəfail adlı iki oğlu, Ulduz, Yeganə, Fərqanə adlı üç qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçmüş və ailəsi ilə birlikdə orada yaşayır.
- **Əprüz** Zeynalabdı qızı (1963, Güney) Koluxlulardan Hüseyn Məmməd oğlu ilə ailə qurmuşdur. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçmüş və ailəsi ilə birlikdə orada yaşayır.
- **Gülbəsti** Zeynalabdı qızı (1965, Güney) Borçalının Marneuli rayonundan Qiyas Bayram oğlu ilə ailə qurmuşdur. Elçin adlı oğlu, Arzu, Esmira adlı iki qızı var. Gürcüstanda yaşayırlar.
- **Arifə** Zeynalabdı qızı (1971, Güney) Ləmbəli kəndindən (Noyemberyan rayonu) Azər Aftandil oğlu ilə ailə qurub. Ləman adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıya köçmüş və ailəsi ilə birlikdə şəhərdə yaşayır.
- **Məhəmmədəli** Muxtar oğlu (1923, Sədənağac) 1941-ci ilin noyabr ayında hərbi xidmətə səfərbər olunub və cəbhəyə göndərilmişdir. 29 avqust 1944-cü ildə Polşada Jeşuvskoe voevodluğu Tarnobjeqsk povatının Knapı kəndi uğrunda gedən döyüşlərdə həlak olmuş və orada kənd qəbiristanlığında dəfn edilmişdir. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Müzəffər** Muxtar oğlu (1933, Sədənağac) Gədəbəy rayonunun Düzyurd kəndindən Tamara Bayram qızı ilə ailə qurmuşdur. Vaqif, Əziz, Namiq, Natiq adlı dörd oğlu, Qumru və Səyyarə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Şəmkir rayonunun Ələsgərli kəndinə köçdü. Bir neçə il orada yaşadıqdan sonra Gədəbəy şəhərinə gəldilər. 1996-cı ildə orada vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.

- **Vaqif** Müzəffər oğlu (1958, Güney) ali təhsillidir. Gədəbəydən Fəranə Rəhim qızı ilə ailə qurub. Vüqar adlı oğlu, Könül, Günay adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçmuş və hazırda ailəsi ilə birlikdə şəhərdə yaşayır.
- **Vüqar** Vaqif oğlu (1986, Güney) ali təhsillidir. Gədəbəydən Türkan Rövşən qızı ilə ailə qurub. Melisa adlı azyaşlı qızı var. Bakıda yaşayırlar.
- **Könül** Vaqif qızı (1982, Güney) Ağdamdan Azər Rəhman oğlu ilə ailə qurub. İbrahim adlı oğlu, Aygün və Aydan adlı qızları var. Bakıda yaşayırlar.
- **Günay** Vaqif qızı (1983, Güney) Babalılardan Seymur Namaz oğlu ilə ailə qurub. Ailə tərkibi haqqında məlumat həyat yoldaşının səhifəsində verilir. Hazırda ailəsi ilə birlikdə Bakıda yaşayır.
- **Əziz** Müzəffər oğlu (1965, Güney) Gədəbəydən Laləzar Qələndər qızı ilə ailə qurmuşdur. Oksana və Roksana adlı iki qızı, Orxan adlı oğlu var. 1988-ci il deportasiyasından sonra Rusiyanın Sverdlovsk şəhərinə köçmüş, hazırda ailəsi ilə orada yaşayır.
- **Oksana** Əziz qızı (1986, Sverdlovsk) ali təhsillidir.
- **Roksana** Əziz qızı (1987, Sverdlovsk) ali təhsillidir.
- **Orxan** Əziz oğlu (1997, Ekaterinburq).
- **Namiq** Müzəffər oğlu (1972, Güney) Gədəbəydən Sevinc Mikayıl qızı ilə ailə qurub. Elvin və Elgün adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Bakıda yaşayırlar.
- **Elvin** Namiq oğlu (1993, Bakı).
- **Elgün** Namiq oğlu (1994, Bakı).
- **Natiq** Müzəffər oğlu (1976, Güney) Gədəbəydən Könül Ramiz qızı ilə ailə qurub. Ayaz adlı oğlu, Aytac, Aysu adlı qızları var. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçmüşdür.
- **Qumru** Müzəffər qızı (1963, Güney) Gədəbəydən Yaqub Süleyman oğlu ilə ailə qurub. Zaur, Anar adlı iki oğlu, Dürdanə adlı qızı var. Ailəsi ilə Gədəbəyin Düzyurd kəndində yaşayır.
- **Səyyarə** Müzəffər qızı (1968, Güney) Gədəbəydən Xaliq Vəli oğlu ilə ailə qurub. Ailəsi ilə birlikdə Gədəbəydə yaşayır.
- **Qumaş** Muxtar qızı (1914, Sədənağac) Babalılardan Mahmud Paşa oğlu (əmisi oğlu) ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1986-cı ildə vəfat etmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur.

- **Nənəş** Muxtar qızı (1919, Sədənağac) Hüsənlilərdən Bayram Mehralı oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Gəncə şəhərinə köçmüşdür. 2013-cü ildə vəfat etmiş və orada şəhər qəbiristanlığında dəfn olunmuşdur.
- **Qədəmçə** Paşa qızı (1913, Sədənağac) Məşədi Hüseynlilərdən Dıvış Rüstəm oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra oğlu Cumalının ailəsi ilə birlikdə Gəncə şəhərinə köçdü. 1992-ci ildə orada vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **İsgəndər** İsmayıl oğlu (1845, Göyçə mahalının Qanlı Allahverdi kəndi) Mahalın Ardanış kəndindən Qızxanımla ailə qurub. Qasım adlı oğlu, Güllü adlı qızı olub.
- **Qasım** İsgəndər oğlu (1880, Sədənağac) iki dəfə ailə qurub. Birinci həyat yoldaşı Göyçə mahalının Cil kəndindəndir. Adını təyin edə bilmədik. Bu nikahdan Balaca, Hümbət adlı iki oğlu olub. Cavan yaşlarında həyat yoldaşı vəfat edib. İkincidə Göyçə mahalının Ardanış kəndindən Məsmə ilə ailə qurub. Həsən, Hüseyn (Əliş) adlı iki oğlu, Tutma, Bəsdi, Gilas adlı üç qızı olub. 1947-ci ildə kənddə vəfat edib.
- **Hümbət** Qasım oğlu (1914, Sədənağac) Gəncədən adını müəyyənləşdirə bilmədiyimiz bir qadınla ailə qurub. Övladı olmayıb. Deyilənə görə 1941-ci ilin oktyabr ayında hərbi xidmətə çağırılıb və cəbhəyə göndərilmişdir. 1945-ci ildə müharibədən qayıtmışdır.Yerevan şəhərində milisdə işləyib. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Balaca** Qasım oğlu (1919, Sədənağac) 1938-ci ildə hərbi xidmətə çağırılmışdır. 1941-ci ilin sonlarında itkin düşdüyü haqda ailəsinə bildiriş gəlib. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Həsən** Qasım oğlu (1936, Güney) rayonun Dərə kəndindən Zilfi Ənzəli qızı ilə ailə qurub.1965-ci ildə ailəsi ilə birlikdə Gəncə şəhərinə köçüb. Aydın, Elman adlı iki oğlu, Aizə, Aygün, Ülviyyə adlı üç qızı olub. 2015-ci ildə Gəncə şəhərində vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Aydın** Həsən oğlu (1970, Gəncə) Goranboydan Zərifə ilə ailə qurub. Həsən adlı oğlu, Aytac və Nigar adlı qızları var. Gəncə şəhərində yaşayırlar.
- **Elman** Həsən oğlu (1973, Gəncə) hazırda Gəncə şəhərində yaşayır.
- **Aizə** Həsən qızı (1965, Gəncə) Goranboydan Cəfər ilə ailə qurub. Günel və Qələbə adlı iki qızı var.
- **Aygün** Həsən qızı (1966, Gəncə) ailə qurmayıb. 2017-ci ildə vəfat etdi və Gəncə şəhər qəbiristanlığında dəfn olundu.

- **Ülviyyə** Həsən qızı (1968, Gəncə) Sumqayıt şəhərindən İsrayıl Bəhram oğlu (bibisi oğlu) ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 2017-ci ildə Sumqayıt şəhərində vəfat edib və orada şəhər qəbiristanlığında dəfn olunub.
- **Əli** Qasım oğlu (1938, Güney) Məşədi Hüseynlilərdən Səltənət Məhərrəm qızı ilə ailə qurub. Elbrus və Elçin adlı iki oğlu, Məsmə adlı qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçdü. 2006-cı ildə Gəncə şəhərində vəfat etdi və İmamzadə qəbiristanlığında dəfn olundu.
- **Elbrus** Əli oğlu (1966, Güney) ali təhsil almaq üçün Rusiyanın Tümen şəhərinə getmişdi. Orada 1989-cu ildə qəza nəticəsində həlak oldu. Gəncə şəhərində İmamzadə qəbiristanlığında dəfn olundu.
- **Elçin** Əli oğlu (1967, Güney) kənd təsərrüfatı texnikumunda təhsil alırdı. 1990-cı ilin iyun ayında suda boğuldu. Gəncənin İmamzadə qəbiristanlığında dəfn olundu.
- **Məsmə** Əli qızı (1970, Güney) Ağdaşdan Etibar Alı oğlı ilə ailə qurub. Hazırda Gəncə şəhərində yaşayırlar.
- **Tutma** Qasım qızı (1923, Sədənağac) iki dəfə ailə qurub. Birincidə Koluxlulardan Bilal Cəlil oğlu ilə ailə qurub. Billur adlı qızı olub. Az bir vaxtdan sonra ayrılıblar. İkincidə Ağstafa şəhərindən Babakişi ilə ailə qurub. Yasin adlı oğlu, Lalə adlı qızı olub.1991-ci ildə Ağstafa şəhərində vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Bəsdi** Qasım qızı (1935, Güney) Ağstafa şəhərindən Əhməd ilə ailə qurub. Yusif və Ramiz adlı iki oğlu, Dilarə adlı qızı olub. 1989-cu ildə Ağstafa şəhərində vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Gilas** Qasım qızı (1934, Sədənağac) Babalılardan Bəhram Əzim oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndinə köçdü. 2011-ci ildə Sumqayıt şəhərində ağır xəstəlikdən vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.
- **Güllü** Qasım qızı (1893, Sədənağac) mahalın Ardanış kəndindən Əhmədlə ailə qurmuşdur. Səməd adlı oğlunun olduğunu müəyyən edə bildik. Başqa məlumat yoxdur.

1860-cı illərin sonuna kəndə gələnlər arasında İsmail Baba oğlunun qardaşı Alı Baba oğlunun 2 oğlu: Haqverdi və Ağaməmməd də var idi.

1831-ci ilin kameral siyahısında Alı Baba oğlunun 20 yaşı olduğu göstərilir. 1842-ci ilin kameral təsvirində bu ailə haqda heç bir məlumat verilmir. 1873-cü ilin Sədənağac kəndinin kameral təsvirində Alı Baba oğlunun adı çəkilmir, ancaq onun 2 oğlunun: Haqverdi Alı oğlu 10 saylı ailə kimi, Ağaməmməd Alı oğlu isə 15 saylı ailə kimi qeyd olunub.

- **Haqverdi** Alı oğlu 1839-cu ildə doğulmuşdur. Doğulduğu yer və həyat yoldaşı haqda məlumat yoxdur. Əzim (sənədlərdə Əvəz kimi qeyd olunur) və Avıl (sənədlərdə Vəli kimi qeyd olunur) adlı iki oğlu olub.
- **Əzim** Haqverdi oğlu (1868, Sədənağac) Pəri ilə evli idi. Məhərrəm və Bəhram adlı iki oğlu olub.
- **Məhərrəm** Əzim oğlu (1912, Sədənağac) mahalın Pəmbək kəndindən Sarıtel Abbasqulu qızı ilə ailə qurmuşdur. Murad, Mədət, Səfiyar adlı üç oğlu, Məxluqə adlı bir qızı olub. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçdü. 1992-ci ildə orada vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.
- **Murad** Məhərrəm oğlu (1960, Güney) Rusiya Federasiyasının Novosibirsk vilayətində yaşayır. Başqa məlumat əldə etmək mümkün olmadı.
- **Mədət** Məhərrəm oğlu (1961, Güney) Rusiyada yaşayır. Başqa məlumat əldə etmək mümkün olmadı.
- **Səfiyar** Məhərrəm oğlunun (1963, Güney) adını müəyyən edə bilmədiyimiz həyat yoldaşı rayonun Kiçik Məzrə kəndindən idi. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçdü. 1994-cü ildə tikintidə qəza nəticəsində həyatını itirdi və şəhər qəbiristanlığında dəfn olundu.
- **Məxluqə** Məhərrəm qızı (1969, Güney) Gədəbəy rayonunun Düzyurd kəndindən Məhəmməd Vilayət oğlu ilə ailə qurub. İqbal və Zakir adlı iki oğlu var. Hazırda ailəsi ilə birlikdə Sumqayıt şəhərində yaşayır.
- **Bəhram** Əzim oğlu (1915, Sədənağac) 15 sentyabr 1941-ci ildə hərbi xidmətə səfərbər edilmiş və cəbhəyə göndərilmişdir. 1950-ci ildə ordudan tərxis edilərək kəndə qayıtdı. Babalılardan Gilas Qasım qızı ilə ailə qurub. İsmayıl, İsrail, Rəşayıl adlı üç oğlu, Firuzə, Pəri, Rahilə, Nuridə, Tamella, Əfruz adlı altı qızı olub.1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndinə köçdü. 1997-ci ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.

- **İsmayıl** Bəhram oğlu (1961, Sədənağac) Qəhrəmanlılardan Qənirə Məhərrəm qızı ilə ailə qurmuşdur. Zöhrab adlı oğlu, Solmaz, Südabə, Zeynəb adlı üç qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndinə köçdü. Hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **İsrayıl** Bəhram oğlu (1967, Güney) Gəncə şəhərindən Ülviyyə Həsən qızı (dayısı qızı) ilə ailə qurmuşdur. Taleh və Cavid adlı iki oğlu var. Sumqayıt şəhərində yaşayır. 2016-cı ildə həyat yoldaşı vəfat etdi. Hazırda övladları ilə birlikdə Sumqayıt şəhərində yaşayır. Əfqanıstan və Qarabağ müharibəsi veteranıdır. Əfqanıstan müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Taleh** İsrayıl oğlu (1992, Sumqayıt) Sumqayıt şəhərindən Lalə Tahir qızı ilə ailə qurmuşdur. Toğrul adlı oğlu var.
- **Cavid** İsrayıl oğlu (1994, Sumqayıt).
- **Rəşail** Bəhram oğlu (1971, Güney) Sumqayıt şəhərindən Reyhan İsrafil qızı ilə ailə qurmuşdur. İlqar adlı oğlu, Lamiyə adlı qızı var. Sumqayıt şəhərində yaşayırlar.
- **İlqar** Rəşail oğlu (1977, Sumqayıt).
- **Lamiyə** Rəşail qızı (1975, Sumqayıt).
- **Firuzə** Bəhram qızı (1952, Güney) Ağstafa şəhərindən Əkbər Musayevlə ailə qurub. Rövşən, Vüqar, Etibar, Emin adlı dörd oğlu, Rəna adlı qızı var. Hazırda ailəsi ilə birlikdə Bakının Maştağa qəsəbəsində yaşayır.
- **Pəri** Bəhram qızı (1954, Güney) rayonun Pəmbək kəndindən Məhərrəm Adil oğlu ilə ailə qurmuşdur. Avtandil adlı oğlu, Könül adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçdü, hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Rahilə** Bəhram qızı (1956, Güney) rayonun Pəmbək kəndindən Fətalı İsə oğlu ilə ailə qurmuşdur. Tahirə, Zahirə, Təhminə, Züleyxa, Əfsanə adlı beş qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda yaşayırlar.
- **Nuridə** Bəhram qızı (1959, Güney) rayonun Babacan kəndindən Paşa Qəmbər oğlu ilə ailə qurmuşdur. Elşad, Elnur adlı iki oğlu var. 2017-ci ildə faciəli surətdə həlak oldu. Sumqayıt şəhər qəbiristanlığında dəfn olunub.
- **Tamella** Bəhram qızı (1963, Güney) Koluxlulardan Şahmar Şahbaz oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Ailəsi ilə birlikdə Abşeronun Saray qəsəbəsində yaşayır.
- **Əfruz** Bəhram qızı (1965, Güney) Hüsənlilərdən Elman Əhməd oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Ailəsi ilə birlikdə Bakıda yaşayır.

- **Avıl** (sənədlərdə Vəli kimi qeyd olunub) Haqverdi oğlu (1872, Sədənağac) iki dəfə ailə qurub. Birinci həyat yoldaşı Zeynəbdir. Şahbaz və adı naməlum olan iki oğlu olub. İkincidə mahalın Ağbulaq kəndindən Dilbər Oruc qızı ilə ailə qurub. Bu nikahdan Şahmalı adlı oğlu, Nazlı adlı qızı olub. 1967-ci ildə vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu.
- **Şahbaz** Avıl oğlu (Güney) ailəsi ilə Şəmkirin Təknəli kəndində yaşayıb. Başqa məlumat yoxdur.
- **Şahmalı** Avıl oğlu (1952, Güney) rayonun Böyük Məzrə kəndindən Zabilə Şıxəli qızı ilə ailə qurub. Şəmkirin Kür qəsəbəsində yaşayırdı. Ailə tərkibi haqda məlumat yoxdur.
- **Nazlı** Avıl qızı (1948, Güney) Krasnoselo rayonunun Ağbulaq kəndindən Ərrəhman Rəsul oğlu ilə ailə qurub. Rövşən, Rizvan, Rəsul, Rəşid adlı dörd oğlu olub. 1988-ci il deportasiyasından sonra Şəmkirin Günəşli kəndində məskunlaşdı. 2001-ci ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Ağaməhəmməd** (Məmməd) (Sədənağac kəndinin 1873-cü ildə tərtib edilmiş kameral siyahısında Ağaməhəmməd kimi, 29 yaşı olduğu göstərilir) Alı oğlu (1844, Sədənağac) Güləndamla ailə qurub. Ocaqverdi və Allahverdi adlı oğulları, Xatın adlı qızı olub.
- **Allahverdi** Məmməd oğlu (1895, Sədənağac) iki dəfə evlənib. Birincidə rayonun Kəsəmən kəndindən Nərgiz Məşədi Binnət qızı (kənddə kolxoz sədri işləmiş Məmmədhüseyn Məşədi Binnət oğlu Allahverdiyevin bacısı) ilə ailə qurub. Köçəri adlı oğlu, Züleyxa adlı qızı olub. Nərgizin vəfatından sonra rayonun Yarpızlı kəndindən Qəndab ilə ailə qurub. Bu nikahdah övladı olmayıb. 1966-cı ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Köçəri** Allahverdi oğlu (1922, Sədənağac) müharibə başlayanda Yerevan Dövlət Pedaqoji İnstitutunun 2-ci kursuna keçmişdi. 1941-ci ilin avqust ayının əvvəllərində Yerevan şəhəri Kirov rayon hərbi komissarlığı tərəfindən orduya səfərbər edilib. 4 yanvar 1944-cü ildə Belorusiyada Vitebsk vilayətinin Vitebsk rayonunun Novoselki kəndi yaxınlığında gedən döyüşlərdə qəhrəmancasına həlak olub və orada dəfn olunub. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Züleyxa** Allahverdi qızı (1926, Sədənağac) 1945-ci ildə mahalın Yarpızlı kəndindən Aşıq Oruc Vəli oğlu ilə ailə qurub. Bu nikahdan İsmayıl, Nəbi, Sərdar, Heydər, Zahid, Üzeyir adlı altı oğlu, Səlminaz, Südabə və Tahirə adlı üç qızı olub. 1949-cu ildə ailəsi ilə birlikdə Gədəbəyin Zəhmətkənd kəndinə köçmüşdür. 2011-ci ildə orada vəfat etmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur.

- **Ocaqverdi** Məhəmməd oğlu (1904, Sədənağac) Əmirlilərdən Həcər Vəli qızı ilə ailə qurub. Pirverdi adlı oğlu, Şövkət, Reyvə və Meyvə adlı üç qızı olub. 1957-ci ildə rəhmətə gedib və kənd qəbiristanlığında dəfn olunub.
- **Pirverdi** Ocaqverdi oğlu (1932, Sədənağac) Koluxlulardan Minayə Totulu qızı ilə ailə qurmuşdur. Xasay, Mais, Oqtay, Çingiz adlı dörd oğlu, Səriyyə və Nəzakət adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Bakıya köçmüşdür. 2008-ci ildə vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur.
- **Xasay** Pirverdi oğlu (1963, Güney) ali təhsillidir. Krasnoselo rayonunun Ağbulaq kəndindən Kəmalə Əjdər qızı ilə ailə qurmuşdur. Raul və Ruslan adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Bakıya köçmüş və ailəsi ilə birlikdə şəhərdə yaşayır.
- **Raul** Xasay oğlu (1997, Bakı) ali məktəb tələbəsidir.
- **Ruslan** Xasay oğlu (2003, Bakı) orta məktəbdə təhsil alır.
- **Mais** Pirverdi oğlu (1965, Güney) ali təhsillidir. Milliyyətcə rus olan Tatyana Pavlovna ilə ailə qurmuşdur. Anar adlı oğlu var. Rusiyanın Novosibirsk şəhərində yaşayırlar.
- **Anar** Mais oğlu (1996, Novosibirsk) ali məktəb tələbəsidir.
- **Oqtay** Pirverdi oğlu (1967, Güney) ali təhsillidir. Kürdəmir şəhərindən Aygün Asif qızı ilə ailə qurmuşdur. Rəfael və Əli adlı iki oğlu var. Ailəsi ilə birlikdə Rusiyanın Novosibirsk şəhərində yaşayır.
- **Rəfael** Oqtay oğlu (2001, Novosibirsk) ali məktəb tələbəsidir.
- **Əli** Oqtay oğlu (2014, Novosibirsk).
- **Çingiz** Pirverdi oğlu (1980, Güney) ali təhsillidir. Bakı şəhərində yaşayır.
- **Səriyyə** Pirverdi qızı (1960, Güney) Koluxlulardan Mehman Xanlar oğlu ilə ailə qurmuşdur. Ailəsi haqda əlavə məlumat həyat yoldaşının səhifəsində verilir. Bakı şəhərində yaşayırlar.
- **Nəzakət** Pirverdi qızı (1971, Güney) rayonun Sarıyaqub kəndindən Arif Nəcəf oğlu ilə ailə qurmuşdur. Elvira və Elina adlı iki qızı var. Hazırda ailəsi ilə birlikdə Bakıda yaşayır.
- **Şövkət** Ocaqverdi qızı (1935, Güney) Hüsənlilərdən Təhməz Mirzalı oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçdü, hazırda ailəsi ilə birlikdə şəhərdə yaşayır.
- **Reyvə** Ocaqverdi qızı (1945, Güney) rayonun Pəmbək kəndindən Bəxtiyar Mahmud oğlu ilə ailə qurub. Novruz, Azər, Tahir, Ziyaməddin, Etibar adlı beş oğ-

lu, Tuyqun və Zəminə adlı iki qızı olub. 2014-cü ildə Bakıda vəfat edib və şəhər qəbiristanlığında dəfn olunmuşdur.

- **Meyvə** Ocaqverdi qızı (1947, Güney) rayonun Pəmbək kəndindən Abduləli Müslüm oğlu ilə ailə qurub. Akif, Adil, Asim, Arif, Elçin adlı beş oğlu olub. 1988-ci il deportasiyasından sonra Bakıda yaşayırlar.
- **Xatın** Məmməd qızı Sədənağacda doğulub, mahalın Qaraiman kəndindən olan bir şəxslə ailə qurub. Saray adlı qızının olduğunu təyin edə bildik. 1988-ci il deportasiyasından sonra Şəmkir şəhərinə gəlib və orada vəfat edib.
- **Cəfər** Baba oğlunun (1823, Göyçə mahalı Daşkənd k.) həyat yoldaşı haqqında məlumat yoxdur. Həsən və Namaz adlı iki oğlu olub. Cavan yaşlarında vəfat edib. Oğulları əmiləri Qafarın ailəsi ilə birlikdə yaşayıblar.
- **Həsən** Cəfər oğlunun (1846, Göyçə mahalı Qanlı Allahverdi k.) həyat yoldaşı haqda məlumat yoxdur. Qurbanəli adlı bir oğlu və Səkinə adlı bir qızı məlumdur.
- **Qurbanəli** Həsən oğlu (1866, Sədənağac) el arasında Qurban kimi tanınıb. Xırda ilə ailə qurub. İsa və Baxşəli adında iki oğlu, Mələk və Güllüzar adlı iki qızı məlumdur.
- **İsa** Qurban oğlu (1890, Sədənağac) Koluxlulardan Ağca Hacı qızı ilə ailə qurub. Aslanalı adlı oğlu, Tamaşa adlı qızı olub. 1922-ci ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Aslanalı** (Astanalı) İsa oğlu (1914, Sədənağac) Babalılardan Kəhriz Əli qızı ilə ailə qurub. Hidayət adlı oğlu, Hamayıl adlı qızı olub. 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılmış və 1942-ci ilin aprel ayında itkin düşmüşdür. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Hidayət** Aslanalı oğlu (1938, Güney) Şəmkir şəhərinə köçüb və həyatının sonuna qədər orada yaşayıb. Şəmkirdən Xanımla ailə qurub. Elçin adlı oğlu olub. 2016-cı ildə vəfat edib və Şəmkir şəhər qəbiristanlığında dəfn olunub.
- **Elçin** Hidayət oğlu (1981, Şəmkir şəhəri) Şəmkirdən Qəribə Qabil qızı ilə ailə qurub. Zəhra və Qənirə adlı iki azyaşlı qızı var. 2017-ci ildə Şəmkir şəhərində vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.
- **Hamayıl** Aslanalı qızı (1941, Güney) Qəmərli rayonunun (indiki Artaşat) Buzovand kəndindən Əsgər Rəhim oğlu ilə ailə qurub. İsrafil və Rəfail adlı iki oğlu, Rahilə adlı qızı var. Şəmkir şəhərində yaşayır.
- **Tamaşa** İsə qızı (1916, Sədənağac) Koluxlulardan Bilal Cəlil oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboy rayonunun Dəyirmanlar kəndinə köçmüş, bir neçə il

orada yaşadıqdan sonra Bakı şəhərinə gəlmişdir. 2000-ci ildə Bakıda vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur.

- **Bəxşəli** Qurban oğlu (1889, Sədənağac) Koluxlulardan Ağca Hacı qızı ilə ailə qurub. Hüseyn, Məsdan, Baxış və Sultan adlı dörd oğlu, Qumru və Məruz adlı iki qızı olub. 1940-cı ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Hüseyn** Baxşəli oğlu (1925, Sədənağac) rayonun Dərə kəndindən Cuna Qasım qızı ilə ailə qurub. Vəfa, Hökümə, Rüxsarə, Sitarə, Vüsalə, Səma adlı altı qızı olub. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçdü. 2010-cu ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu. Böyük Vətən müharibəsi iştirakçısıdır.
- **Vəfa** Hüseyn qızı (1970, Güney) 1988-ci ildə valideynləri ilə birlikdə Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçdü.
- **Hökümə** Hüseyn qızı (1972, Güney) rayonun Şişqaya kəndindən Nurəddin Hilal oğlu ilə ailə qurub. Fərid adlı oğlu, Nilufər və Güllü adlı qızları var. Bakıda yaşayırlar.
- **Rüxsarə** Hüseyn qızı (1973, Güney) rayonun Dərə kəndindən Şaiq Məhərrəm oğlu ilə ailə qurub. Ayşə və Xədicə adlı qızları var. Ailəsi ilə birlikdə Bakıda yaşayırlar.
- **Vüsalə** Hüseyn qızı (1975, Güney) 1988-ci ildə valideynləri ilə birlikdə Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçdü. Hazırda orada yaşayırlar.
- **Sitarə** Hüseyn qızı (1977, Güney) Ağbulaq kəndindən Həsənlə ailə qurub. Əlixan və Orxan adlı iki oğlu var. Bakı şəhərində yaşayırlar.
- **Samirə** Hüseyn qızı (1978, Güney) Lənkərandan Azərlə ailə qurub. Davud, Yusif adlı iki oğlu, Əminə və Məryam adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Məsdan** Baxşəli oğlu (1928, Sədənağac) rayonun Kəsəmən kəndindən Bülbül Məhəmmədəli qızı ilə ailə qurub. Mehman və İlqar adlı iki oğlu, Pərvanə, İradə və Təranə adlı üç qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndinə köçmüşdür. 2000-ci ildə orada vəfat etmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur.
- **Mehman** Məsdan oğlu (1961, Güney) ali təhsillidir. Kimya üzrə fəlsəfə doktorudur. Rayonun Dərə kəndindən Laləzar Müzəffər qızı ilə ailə qurub. Bakı şəhərində yaşayır. "Bizim elin alimləri" fəslində haqqında geniş məlumat verilir.
- **İlqar** Məsdan oğlu (1962, Güney) ali təhsillidir. İsmayıllı rayonunun Qubaxəlilli kəndindən Sevil Tahir qızı ilə ailə qurub. Orxan adlı oğlu, Zeynəb və Günel adlı qızları var. Bakıda yaşayır.
- **Orxan** İlqar oğlu (2004, Bakı) orta məktəbdə təhsil alır.

- **Zeynəb** İlqar qızı (1995, Bakı) ali təhsillidir.
- **Günel** İlqar qızı (1997, Bakı) ali məktəb tələbəsidir.
- **Pərvanə** Məsdan qızı (1964, Güney) ali təhsillidir. Rayonun Şişqaya kəndindən Akif İsmayıl oğlu ilə ailə qurub. Çinar adlı oğlu, Aysel adlı qızı var. Şəmkirin Çənlibel kəndində yaşayırlar.
- **İradə** Məsdan qızı (1966, Güney) ali təhsillidir. Babalılardan Nazim Sevdiyar oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Hazırda Gəncədə yaşayır.
- **Tərənə** Məsdan qızı (1969, Güney) ali təhsillidir. Gədəbəy rayonunun Xarxar kəndindən Fikrət İsrayıl oğlu ilə ailə qurub. Şəmkirin Çənlibel kəndində yaşayır.
- **Baxış** Baxşəli oğlu (1934, Güney) Qəhrəmanlılardan Qumru Davud qızı ilə ailə qurub. Eldar və Telman adlı iki oğlu, İlhamə adlı bir qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndinə köçdü. 2017-ci ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu.
- **Eldar** Baxış oğlu (1972, Güney) rayonun Aşağı Şorca kəndindən Səbahət Mirzə qızı ilə ailə qurub. Elvin və Seymur adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndinə köçüb və hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Telman** Baxış oğlu (1974, Güney) Koluxlulardan Amaliya Əkbər qızı ilə ailə qurub. Jalə adlı bir qızı var. Gəncə şəhərində yaşayırlar.
- **İlhamə** Baxış qızı (1976, Güney) Şəmkirin Qapanlı kəndindən Ramil Nazim oğlu ilə ailə qurub. Samir, Zamin adlı iki oğlu var. Ailəsi ilə birlikdə Qapanlıda yaşayır.
- **Sultan** Baxşəli oğlu (1936, Güney) ali təhsillidir. Kimya elmləri doktoru, professordur. Şəkidən Rəfiqə Əhməd qızı ilə ailə qurub. Kamran adlı oğlu, Gülnarə adlı qızı var. Uzun müddət Sumqayıt şəhərində yaşayıb. Hazırda Türkiyədə yaşayır. "Bizim elin alimləri" fəslində haqqında geniş məlumat verilir.
- **Kamran** Sultan oğlu (1969, Sumqayıt) ali təhsillidir. Tibb üzrə fəlsəfə doktorudur. Sumqayıtdan Günay Savalan qızı ilə ailə qurub. Murad və Fuad adlı iki oğlu var. Hazırda Türkiyənin Konya şəhərində yaşayır. "Bizim elin alimləri" fəslində haqqında geniş məlumat verilir.
- **Gülnarə** Sultan qızı (1964, Sumqayıt) ali təhsillidir. Kimya elmləri doktoru, professordur. Sumqayıtdan Eldar Sabir oğlu ilə ailə qurub. İlqar adlı oğlu, Günel adlı qızı var. Türkiyənin Konya şəhərində yaşayır. "Bizim elin alimləri" fəslində haqqında geniş məlumat verilir.


- **Məruz** Baxşəli qızı (1938, Güney) 1988-ci il deportasiyasından sonra qardaşı Baxışın ailəsi ilə birlikdə Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçdü. 2012-ci ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Güllüzar** Qurban qızı (1897, Sədənağac) rayonun Kəsəmən kəndindən Məhəmməd İsmayıl oğlu ilə ailə qurub. Oruc, Bahadur, Namaz adlı üç oğlu, Zərniyar və Bəsdi adlı iki qızı olub.
- **Mələk** Qurban qızı (1902, Sədənağac) Babalılardan Musa Oruc oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1949-cu ildə ailəsi ilə birlikdə Gədəbəy rayonunun Maarif kəndinə köçdü, 1976-cı ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu.
- **Namaz** Cəfər oğlunun (1854, Sədənağac) sonrakı taleyi haqda məlumat yoxdur.
- **Qafar** Baba oğlunun (1833, Göyçə mahalının Daşkənd k.) həyat yoldaşı haqda məlumat yoxdur. Oruc adlı bir oğlunun olduğu məlumdur.
- **Oruc** Qafar oğlu (1855, Sədənağac) mahalın Qoşabulaq kəndindən Hürü ilə ailə qurmuşdur. Musa, Ağamalı, İsrafil adlı üç oğlunun olduğu məlumdur. 1903-cü ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Musa** Oruc oğlu (1886, Sədənağac) iki dəfə ailə qurub. Birincidə Babalılardan Mələk Qurban qızı ilə evlənib. Sevdiyar, Xeybər, Səlim adlı üç oğlu, Göyçək və Gülara adlı iki qızı olub. İkincidə qardaşı Ağamalı vəfat etdikdən sonra, o zamankı adətə görə (vəfat etmiş qardaşın arvadı ilə subay qardaşın, subay qardaş olmadıqda isə evli qardaşlardan birinin mərhum qardaşın uşaqlarını saxlamaq niyyəti ilə onun dul qadınına razılıqla və ya məcburi evlənməsi) onun dul qalmış arvadı Gülgəz İsmayıl qızı ilə evlənib. Bu nikahdan Əmirxan adlı oğlu, Məsmə adlı qızı olub. Bu ailə həyatı uzun sürməyib. Bir neçə il birgə yaşadıqdan sonra ayrılıblar. 1949-cu ildə ailəsi ilə birlikdə Gədəbəy rayonunun Maarif kəndinə köçmüşdür. 1984-cü ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Əmirxan** (Göygöz) Musa oğlu (1923, Sədənağac) 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. Müharibədən qayıtmayıb. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir. Evli deyildi.
- **Sevdiyar** Musa oğlu (1929, Sədənağac) Gədəbəy rayonunun Söyüdlü kəndindən Zərqələm Namaz qızı ilə ailə qurub. Fərmayıl, Duman, Nazim, Rasim, Vaqif, Şahin adlı altı oğlu, Şəfiqə və Rəfiqə adlı qızları olub. 2011-ci ildə vəfat edib. Maarif kənd qəbiristanlığında dəfn olunub.
- **Fərmayıl** Sevdiyar oğlu (1957, Maarif) həmkəndlisi Gülçöhrə Əlirza qızı ilə ailə qurub. Vüsalə adlı qızı var. Gədəbəy rayonunun Maarif kəndində yaşayırlar.

- **Vüsalə** Fərmayıl qızı (1988, Maarif) ailəlidir. Hazırda Rusiyada yaşayırlar.
- **Duman** Sevdiyar oğlu (1960, Maarif) Elşad, Elşən, Ramin, Bəxtiyar adlı dörd oğlu olub. 2015-ci ildə rəhmətə gedib. Maarif kənd qəbiristanlığında dəfn olunub.
- **Nazim** Sevdiyar oğlu (1965, Maarif) Babalılardan İradə Məsdan qızı ilə ailə qurub. Anar və Atar adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **Anar** Nazim oğlu (1990, Şəmkir rayonunun Çənlibel kəndi) Gəncə şəhərində yaşayır.
- **Atar** Nazim oğlu (1992, Gəncə) ali təhsillidir. Hərbiçidir.
- **Rasim** Sevdiyar oğlu (1968, Maarif) həmkəndlisi Zəkiyyə Təhməz qızı ilə ailə qurub. Rüxsarə və Rəna adlı qızları var. Maarif kəndində yaşayırlar.
- **Vaqif** Sevdiyar oğlu (1970, Maarif) həmkəndlisi Səadət Vilayət qızı ilə ailə qurub. Ruslan adlı oğlu, Göyçək adlı qızı var. Maarif kəndində yaşayırlar.
- **Şahin** Sevdiyar oğlu (1972, Maarif) Gədəbəy rayonunun Slavyanka kəndindən Aynur Nizami qızı ilə ailə qurub. Əli, Rauf adlı iki oğlu, Şəbnəm, Gülcan adlı qızları var. Qarabağ müharibəsi veteranıdır. Maarif kəndində yaşayırlar.
- **Səlim** Musa oğlu (1934, Güney) 1949-cu ildə yatalaqdan vəfat edib.
- **Xeybər** Musa oğlu (1936, Güney) 1949-cu ildə yatalaqdan vəfat edib.
- **Göyçək** Musa qızı (1920, Sədənağac) Göyçə mahalının Toxluca kəndindən Əli ilə ailə qurub. Vilayət, Hamlet, Vidadi, Xaqani adlı dörd oğlu olub. Maarif kəndində rəhmətə gedib və orada dəfn olunub.
- **Gülara** Musa qızı (1922, Sədənağac) Gədəbəyin Slavyanka kəndindən Yaqubla ailə qurub. Mayıl adlı oğlu olub. Slavyanka kəndində rəhmətə gedib və orada dəfn olunub.
- **Məsmə** Musa qızı (1924, Sədənağac) Koluxlulardan Xanlar Sayad oğlu ilə ailə qurub. Az keçmədən ayrılıblar. 1949-cu ildə vəfat edib, kənd qəbiristanlığında dəfn olunub.
- **Ağamalı** Oruc oğlu (1897, Sədənağac) Basarkeçər rayonunun Kəsəmən kəndindən Gülgəz İsmayıl qızı ilə ailə qurmuşdur. Abbasəli adlı oğlu olub. 1922-ci ildə qəza nəticəsində həyatını itirib və kənd qəbiristanlığında dəfn olunub.
- **Abbasəli** Ağamalı oğlu (1921, Sədənağac) Mirzalılardan Pəri İmaməli qızı ilə ailə qurub. Əli və Hüseyn adlı iki oğlu, Lalə, Gülarə, Gülxar və Məryəm adlı dörd qızı olub. 1982-ci ildə ailəsi ilə birlikdə Şəmkir rayonunun Könüllü kəndinə köçdü. 1996-cı ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Əli** Abbasəli oğlu (1965, Güney) Ağsu şəhərindən Səhər Məmməd qızı (xalası Hürünün qızı) ilə ailə qurub. Nurlan adlı oğlu, Günel adlı qızı var. Bakıda yaşayır.

- **Nurlan** Əli oğlu (1988, Könüllü).
- **Günel** Əli qızı (2000, Könüllü).
- **Hüseyn** Abbasəli oğlu (1970, Güney) Məşədi Hüseynlilərdən Elmira Səftər qızı ilə ailə qurub. Elnur adlı oğlu, Aynurə və Gülnur adlı iki qızı olub. Hazırda ailəsi ilə birlikdə Şəmkirin Könüllü kəndində yaşayır.
- **Elnur** Hüseyn oğlu (1997, Könüllü).
- **Aynurə** Hüseyn qızı (1995, Könüllü).
- **Gülnurə** Hüseyn qızı (2003, Könüllü).
- **Veyis** Həmid oğlu (1959, Güney) Məşədi Hüseynlilərdən Laləzar Lətif qızı ilə ailə qurub. Elvin və Elnur adlı iki oğlu, Hüsniyyə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Elvin** Veyis oğlu (1985, Güney) Şəmkirin Dağ Çəyir kəndindən Aynur Dilqəm qızı ilə ailə qurub. Nazlı adlı qızı var. Şəmkirin Yeni Göyçə kəndində yaşayırlar.
- **Hüsniyyə** Veyis qızı (1982, Güney) Krasnoselo rayonunun Cil kəndindən Zahid Fərhad oğlu ilə ailə qurub. Fərhad adlı oğlu, Sevinc adlı qızı var. Ailəliklə Bakıda yaşayırlar.
- **Elnur** Veyis oğlu (1987, Güney) Şəmkirin Yeni Göyçə kəndində yaşayır.
- **Qeys** Həmid oğlu (1965, Güney) Babalılardan İradə Qiyas qızı ilə ailə qurub. Aytac adlı qızı var. 2008-ci ildə Bakıda vəfat etdi.
- **Mərmər** Həmid qızı (1944, Güney) Hüsənlilərdən Lətif Xamoy oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Rəmzə** Həmid qızı (1954, Güney) mahalın Pəmbək kəndindən Hidayət İbrahim oğlu ilə ailə qurub. Eldəniz adlı oğlu, Tahirə, Raziyə, Lalə, Elnarə, Moruq adlı

beş qızı var. 1988-ci il deportasiyasından sonra Şamaxının Meysərə kəndində məskunlaşdılar. 2017-ci ildə orada vəfat etdi.

- **Qəmzə** Həmid qızı (1965, Güney) Hüsənlilərdən Əli Teymuraz oğlu ilə ailə qurub. Sonra ayrılıblar. Vasif adlı oğlu var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar, hal-hazırda oğlu Vasifin ailəsi ilə birlikdə orada yaşayır.
- **Məcid** Salman oğlu (1916, Sədənağac) 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılıb. Evli olmayıb. Böyük Vətən müharibəsindən qayıtmayıb. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Nazxanım** Salman qızı (1912, Sədənağac) Rüstəmuşağından Həsən Məşədi İbrahim oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra oğlu Novruzun ailəsi ilə birlikdə Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Məhəmməd** Hüsən oğlunun (1851, Sədənağac) Camal adlı bir oğlu, Cəvahir, Giləxanım və Zibeydə adlı üç qızı olub. 1912-ci ildə Samux rayonunun Eldar kəndində vəfat edib və orada kənd qəbiristanlığında dəfn olunub.
- **Camal** Məhəmməd oğlu (1876, Sədənağac) Məşədi Hüseynlilərdən Sona Məşədi Əli qızı ilə ailə qurub. Tapdıq adlı oğlu, Zilfi, Tərgül adlı iki qızı olub.
- **Tapdıq** Camal oğlu (1912, Sədənağac) Məşədi Hüseynlilərdən Balaca İbrahim qızı ilə ailə qurub. Yadigar adlı oğlu, Xanımzər adlı qızı olub. 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılıb. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.
- **Yadigar** Tapdıq oğlu (1938, Güney) ali təhsilli müəllim idi. Kənd orta məktəbində müəllim işləyərkən filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Rüstəmuşağından Lalə Məcnun qızı ilə ailə qurub. Rauf, Fuad, Elşən, Etibar adlı dörd oğlu, Əminə adlı qızı olub. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdı. 1996-cı ildə vəfat edib və Müşfiqabad qəbiristanlığında dəfn olunub.
- **Rauf** Yadigaroğlu (1971, Güney) ali təhsillidir. Bakıdan Sevda Mikayıl qızı ilə ailə qurub. Yadigar adlı oğlu, Aysel adlı qızı var. Bakıda yaşayırlar.
- **Fuad** Yadigar oğlu (1972, Güney) ali təhsillidir. Şəmkir rayonundan Şəfəq Sabir qızı ilə ailə qurub. Fərid adlı oğlu, Ayşən adlı qızı var. Bakıda yaşayırlar.
- **Elşən** Yadigaroğlu (1975, Güney) ali təsillidir. Mirzalılardan Sahibə Rza qızı ilə ailə qurub. Camal adlı oğlu, Lalə adlı qızı olub. Bakıda yaşayırlar.
- **Etibar** Yadigar oğlu (1976, Güney) Hüsənlilərdən Fərqanə Qafar qızı ilə ailə qurub. Çingiz adlı oğlu, Nuray adlı qızı var. Bakıda yaşayırlar.

- **Əminə** Yadigar qızı (1969, Güney) əslən Dərələyəz mahalından olan və deportasiyadan sonra Bakıda məskunlaşan Abil Xasay oğlu ilə ailə qurub. Toğrul və Hüseyncan adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Xanımzər** Tapdıq qızı (1940, Güney) Məşədi Hüseynlilərdən Lətif Oruc oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Zilfi** Camal qızı (1902, Sədənağac) Kiçik Məzrə kəndindən Bayraməli Novruz oğlu ilə ailə qurub. Əli, Xıdır adlı iki oğlu, Sənəm və Sara adlı iki qızı olub. 1996-cı ildə Goranboyun Xoylu kəndində vəfat edib.
- **Tərgül** Camal qızı (1907, Sədənağac) Hüsənlilərdən Talıb Dünyamalı oğlu ilə ailə qurub. Mehvalı adlı oğlu, Maral adlı qızı olub. Həyat yoldaşı Talıb Böyük Vətən müharibəsində həlak olduqdan sonra 1948-ci ildə övladları ilə birlikdə Gədəbəy rayonunun Rüstəm Əliyev (indiki Miskinli) kəndinə köçdü və 1992-ci ildə orada vəfat etdi.
- **Cavahir** Məhəmməd qızı (1872, Sədənağac) Güney Azərbaycandan köçüb gəlmiş Abdulla Gülməmməd oğlu ilə ailə qurmuşdur. Bu nikahdan Əsəd, Bəylər, Adil adlı üç oğlu, Səkinə adlı qızı olub. 1946-cı ildə Göyçə gölündə boğulmuşdur.
- **Giləxanım** Məhəmməd qızı (1879, Sədənağac) Əmrahlılardan Cəfər Əmrah oğlu ilə ailə qurub. Bu nikahdan Allahverdi və Mahmud adlı iki oğlu olub. Giləxanım gənc yaşlarında 1905-ci ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Zibeydə** Məhəmməd qızı (1888, Sədənağac) Samux rayonunun Eldar kəndindən Əli Əmiraslan oğlu ilə ailə qurub. Şamil və Aslan adlı iki oğlu, Zəhra, Səkinə, Fatma və Şəfiqə adlı dörd qızı olub. 1974-cü ildə kənddə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.


HÜSƏN MƏHƏMMƏD (MƏMMƏD) OĞLU
Rəhim
Məharrəm
Ələkbər
Məhəmməd
Dünyamalı
M. Abbas
Sarı
Məsmalı
Həsən
Salman
Camal
Tapdıq
Yadigar
Elbəyi
Rauf
Yadigar
Fuad
Fərid
Elşən
Camal
Etibar
Çingiz
Qəmbər
Xıdır
Nadir
Talıb
Əsgər
Bayram
Məcid
Cəmil
Köçəri
Kamandar
Ayxan
Nemət
Elcan
Royal
Füzuli
Ömər
Asif
Musa
Köçəri
Məhəmməd
Yusif
İsa
Ceyhun
Ayxan
Bahadur
Nəriman
Cahan
Tunar
Farhad
Ayxan
Sadiq
Mehvalı
Müzəffər
Elbrus
Nicat
Rəfail
Əliəz
Şəlman
Rizvan
Əkram
Habil
Nihad
Ömər
Amil
Yusif
Şamil
Əsgər
Qara
Əhməd
Muxtar
Bayram
Nağı
Mürsəl
Murtuz
Şiraslan
Aslan
Kərəm
Rəşid
Qafar
Mirtağı
Vüqar
Elvin
Hikmət
Əmirşah
Elşad
Eldar
Vəli
Vladimir
Toğrul
Emin
Niyaməddin
Surxay
Fazil
Elman
Nurəddin
Elxan
Elməddin
Elnur
Fariz
Hafiz
Əli
Vüqar
Əli
İsmayıl
Nurəddin
Ələddin
Rauf
Nurlan
Fuad
Murad
Müseyib
Müsəllim
Ceyhun
Coşqun
Elşad
Qəmbər
Kərim
Hüseyn
Məcnun
Mehralı
Məhəmmədəli
Xamoy
Bayram
Musa
Nəbi
Əmir
Əsəd
Arzu
Emil
Hüseyn
İbrahim
Saday
Nurlan
Musa
Latif
Yusif
Kamran
Eşqin
Teymuraz
Fərzalı
Əli
İlqar
Rövşən
Vasif
Tunar
Raxil
Ədalət
Ruslan
Cəfər
Yavər
Sahil
Ruslan
Mirzalı
Hamid
Məcid
Təhməz
Məarif
Şirvan
Veyis
Qeyis
Fariz
Habil
Yalçın
Rasim
Hamid
Elvin
Elnur
Zakir
İsmixan
Nazim
Seymur
Cəmil
Hamid
Məcid
Sabir
Mədəd
Əlif
Ramiz
Yaşar
Orxan
Elman
Hüseyn
Tural
Cəmil
Turxan
Namiq
Natiq
Arzu
Elməddin
Zamanəddin
Əli
Elxan
Səfxan
Zeynalabdi
Müsüd
Eduard
Roman
Anar
Vaqif
Rəşad
Yaqub
Fəxrəddin
Akif
Hilal
Əlixan
Kamal
İsəxan
Rövşən
Zöhrab
Rüfət
Ruslan
Hilal
Vüsal
Turan
Cavidan
Zaur
Türkel
Nail
Qərib
Suliddin
Elsevər
Ülvi
Süleyman
Həsən
Sevindik
Yusif

KOLUXLULAR

Bu tayfanın şəcərəsinin təsvirindən öncə tayfanın adının yaranması haqda qısaca bir arayış vermək yerinə düşərdi.1845-ci ildə Göyçə mahalının Qanlı Allahverdi kəndində yaşayan Məhəmməd Həsən oğlu öz övladları: Qərib, Hüsən, Ramazan, Əmrah və Qəhrəman ilə xaraba qalmış və heç kimin yaşamadığı Sədənağac kəndini özləri üçün daimi yaşayış məskəni seçərək bura köçürlər. İlk vaxtlar kənddə yaşayış üçün yararlı evləri olmadığından, müvəqqəti olaraq təzə yaşayış evləri tikənə qədər, bu ailə sadə tikinti konstruksiyasına malik "kolux" tipli alaçıqlarda yaşamışdır *(o zamanlar "kolux" tipli evlərdən maldarlıqla məşğul olan elatlar yaylaq şəraitində istifadə edirdilər. Olduqca sadə konstruksiyaya malik olan bu alaçıqlar tavansız, müvəqqəti ev tipi olaraq, 1,5-2 m hündürlüyündə iki ağac dirəyi bir-birindən 3-4 m aralı torpağa basdırmaq və onun haçasına köndələn ağac qoymaqla qururdular. Planda "П" şəkilli olan bu sığınacağın üstünü avarla və cecimlə (palazla) örtür, uclarını ip vasitəsilə torpağa çalınmış mıxlara bağlayırdılar. Koluxun bir tərəfi giriş yolu üçün açıq saxlanılırdı).* Ailə başçısı Məhəmmədi və oğlu Hacı Qəribin törəmələrini camaat elə o vaxtdan "Koluxlu" deyə çağırmağa başlamışdır. Sədənağac kəndinə köçdükdən bir neçə il sonra Məhəmməd Həsən oğlu vəfat edir və Hacı Qəribin törəmələri "Koluxlular" tayfası adı ilə yadda qalırlar.

1814-cü ildə İrəvan sərdarı Hüseynqulu xan Göyçə gölü ətrafını ruslara verməmək və müdafiə etmək məqsədilə boş və xaraba qalmış kəndləri Qarapapaq elatlarına güclü imtiyazlar verərək doldurmağa çalışırdı. Bu məqsədlə İrəvan xanlığının ərazisindən və qonşu bölgələrdən buraya xeyli sayda Qarapapaq yerləşdirilmişdi. Onların arasında 1771-ci il doğumlu **Məhəmməd** Həsən oğlu da var idi. Öz ailə üzvləri ilə: həyat yoldaşı (adını müəyyən etmək mümkün olmadı), oğulları: Qərib, Hüsən, Ramazan, Əmrah, Qəhrəman və adını müəyyənləşdirə bilmədiyimiz bir qızı ilə Göyçə mahalının Daşkənd kəndində məskunlaşır.

Göyçə mahalının 1831-ci ildə tərtib edilmiş kameral təsvirində bu ailənin Daşkənd kəndində (kameral təsvirdə 43 №-li kənd kimi qeyd olunub) yaşadığı, 1843-cü ildə tərtib edilmiş kameral təsvirdə isə bu ailənin mahalın Qanlı Allahverdi kəndində (kameral təsvirdə 35 №-li kənd kimi qeyd olunub) yaşadığı göstərilir (55, s.s. 88,163).

Deyilənə görə, 1845-ci ilin yazında bu ailə xaraba qalmış Sədənağac kəndini daimi yaşayış yeri seçərək orada məskunlaşır. Sonralar bu kənd Hacı Qərib adlandırılır. Yuxarıda qeyd olunduğu kimi, bu kəndin adı el arasında xeyli müddət Hacı Qərib olmuşdur.

Sədənağac kəndinin 1873-cü il kameral siyahısında bu tayfadan bir nəfər: Şirali Hacı Qərib oğlu qeyd olunmuşdur. Başqa tayfa üzvlərinin siyahıya düşməməsinin səbəbi onların yaylaqda olmasıdır. Məlumdur ki, Hacı Qəribin böyük təsərrüfatı olmuşdur. Siyahıya alınma iyun ayında aparıldığından Hacı Qəribin ailə üzvləri bu siyahıda qeyd olunmayıb.

- **Hacı Qərib** Məhəmməd oğlu 1809-cu ildə doğulub. Ailə tərkibi haqqında geniş məlumat əldə etmək mümküm olmadı. İbrahim, Şiralı, Bağır və Hacı adlı dörd oğlunun olduğu məlumdur. Deyilənə görə, Hacı Qərib 1888-1893-cü illər arasında vəfat edib.
- **İbrahim** Hacı Qərib oğlu 1834-cü ildə doğulub. Göyçə mahalının 1842-ci ildə tərtib olunmuş kameral təsvirində Qanlı Allahverdi kəndində yaşayan Qərib Məhəmməd oğlunun İbrahim adlı 8 yaşlı bir oğlu göstərilir. Həyat yoldaşı haqda məlumat yoxdur. İbrahim Qərib oğlunun Cəlil, Xəlil, Cabbar adlı üç oğlu olub. İbrahim 1911-ci ildə kənddə vəfat edib.
- **Cəlil** İbrahim oğlu (1867, Sədənağac) Əmirlilərdən Salatın Məhəmməd qızı ilə ailə qurub. Sayad, Qara, Gülalı, Bilal, Xənçəlxan və Cavad adlı altı oğlu, Atlas adlı qızı olub. 1932-ci ildə kənddə vəfat edib.
- **Sayad** Cəlil oğlu (1890, Sədənağac) Əmirlilərdən Məhəmməd oğlu Vəlinin qızı Narıngül ilə ailə qurub. Xanlar, Əsgər, Eyvaz, Camal, Cəlal adlı beş oğlu, Gülgəz adlı qızı olub. 1947-ci ildə kənddə vəfat edib.
- **Xanlar** Sayad oğlu (1923, Sədənağac) iki dəfə evlənib. Birincidə Babalılardan Məsmə Musa qızı ilə ailə qurub. Bu nikahdan Yaşar adlı oğlu olub. Sonra ayrılıblar. İkincidə rayonun Kiçik Məzrə kəndindən Xanım Gülməmməd qızı ilə ailə qurub. Nəriman, Knyaz, İsfəndiyar, Mehman, Nüsrət, Vidadi adlı altı oğlu, Laləzar, Mahizər, Flora, Nanə adlı dörd qızı olub. 1988-ci il deportasiyasından sonra Şəki rayonunun Şəki kəndinə köçdü.1998-ci ildə orada vəfat etdi.
- **Yaşar** Xanlar oğlu (1947, Güney) Hacı Ramazanlılardan Flora İsə qızı ilə ailə qurub. Sadiq, Aqil adında iki oğlu, Vüsalə adında qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə gəldi. Bir neçə il orada yaşadıqdan sonra ailəliklə Bakıya köçdülər.
- **Sadiq** Yaşar oğlu (1979, Güney) ali təhsillidir. Məşədi Hüseynlilərdən Arzu Lütfiyar qızı ilə ailə qurub. Emil adlı oğlu, Ayla adlı qızı var. Bakıda yaşayırlar.
- **Aqil** Yaşar oğlu (1983, Güney) ali təhsillidir. Bakıdan Pərvanə Eldar qızı ilə ailə qurub. Uğur adlı oğlu, Nigar adlı qızı var. Bakıda yaşayır.

- **Vüsalə** Yaşar qızı (1978, Güney) ali təhsillidir. Rayonun Kiçik Məzrə kəndindən Vüqar Əbdülüsüm oğlu ilə ailə qurub. Nicat və Nihad adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Nəriman** Xanlar oğlu (1949, Güney) Gədəbəyin Slavyanka kəndindən Əntiqə Qulu qızı ilə ailə qurub. Firuz, Elnur, Yusif adlı üç oğlu olub. 1988-ci il deportasiyasından sonra ailəliklə Şəki rayonunun Şəki kəndində məskunlaşıblar.
- **Firuz** Nəriman oğlu (1976, Güney) Qəhrəmanlılardan Sevda Lətif qızı (bibisi Laləzarın qızı) ilə ailə qurmuşdur. Yaqub adlı oğlu, Arzu adlı qızı var. Ailəliklə Şəki rayonunun Şəki kəndində yaşayırlar.
- **Elnur** Nəriman oğlu (1978, Güney) Balakəndən Xuraman Ramazan qızı ilə ailə qurub. Nəriman adlı oğlu, Ləman adlı qızı var. Şəki rayonunun Şəki kəndində yaşayırlar.
- **Yusif** Nəriman oğlu (1980, Güney) 2015-ci ildə avtomobil qəzasında həlak olub və Şəki kəndində dəfn olunub.
- **Knyaz** Xanlar oğlu (1954, Güney) Məşədi Hüseynlilərdən Sücayət Həsən qızı ilə ailə qurmuşdur. Vüsal adlı oğlu, Sevinc, Sevil, Esmira adlı üç qızı var. 1988-ci il deportasiyasından sonra ailəliklə Bakıda məskunlaşdı.
- **Vüsal** Knyaz oğlu (1987, Güney) Bakıdan Günel Səxavət qızı ilə ailə qurub. Xanlar və Ayxan adlı iki oğlu var. Bakıda yaşayır.
- **Sevinc** Knyaz qızı (1976, Güney) mahalın Kərkibaş kəndindən Zabil Sultanəli oğlu ilə ailə qurmuşdur. Rəşad, Rəsul adlı iki oğlu, Aysel adlı qızı var. Bakıda yaşayırlar.
- **Sevil** Knyaz qızı (1978, Güney) Bakıdan Novruz Vaqif oğlu ilə ailə qurub. Məsumə adlı qızı var. Bakıda yaşayırlar.
- **Esmira** Knyaz qızı (1982, Güney) Neftçaladan Mirqiyam Kəmaləddin oğlu ilə ailə qurub. Yusif adlı oğlu, Zeynəb adlı qızı var. Bakıda yaşayırlar.
- **İsfəndiyar** Xanlar oğlu (1956, Güney) ali təhsillidir. İsmayıllının Talıstan kəndindən Məryam Ədalət qızı ilə ailə qurmuşdur. Samir, Seymur, Sadiq adlı üç oğlu var. Ailəliklə Bakıda yaşayırdı. 2018-ci ildə ürək krizindın vəfat etdi.
- **Samir** İsfəndiyar oğlu (1983, Şəki k.) ali təhsillidir. Göygöl rayonunun Qarabulaq kəndindən Günay Bəylər qızı ilə ailə qurmuşdur. İsmayıl adlı oğlu, Günay adlı qızı var.
- **Seymur** İsfəndiyar oğlu (1987, Şəki k.) ali təhsillidir. Bakıdan Lilpar Məhəmməd qızı ilə ailə qurub. Raul adlı oğlu var.
- **Sadiq** İsfəndiyar oğlu (1989, Şəki k.) ali təhsillidir.

- **Mehman** Xanlar oğlu (1958, Güney) Babalılardan Səriyyə Pirverdi qızı ilə ailə qurub. Aygün, Aynur, Məxluqə adlı üç qızı var. 1988-ci il deportasiyasından sonra Şəki rayonunun Şəki kəndində məskunlaşdılar. Bir neçə il orada yaşadıqdan sonra Bakıya köçdü və hazırda ailəliklə şəhərdə yaşayır.
- **Aygün** Mehman qızı (1983, Güney) Cəlilabad rayonunun Adnavı kəndindən Famil Şıxbala oğlu ilə ailə qurmuşdur. Tural adlı oğlu, Zəhra adlı qızı var.
- **Aynur** Mehman qızı (1985, Güney) Yardımlı rayonundan Zahid Əlilisa oğlu ilə ailə qurub. Aydan adlı qızı var.
- **Məxluqə** Mehman qızı (1988, Güney) Hüsənlilərdən Nazim Təhməz oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayır.
- **Nüsrət** Xanlar oğlu (1965, Güney) Şəki rayonunun Cəyirli kəndindən Rəsmiyyə ilə ailə qurmuşdur. Elçin adlı oğlu, Ülviyyə adlı qızı var. Bakıda yaşayır.
- **Elçin** Nüsrət oğlu (1991, Şəki k.) ali təhsillidir.
- **Ülviyyə** Nüsrət qızı (1987, Şəki k.) Masallı rayonunun Qızılağac kəndindən Elvin Qulu oğlu ilə ailə qurub.
- **Vidadi** Xanlar oğlu (1969, Güney) mahalın Pəmbək kəndindən Gülarə Sayad qızı ilə ailə qurmuşdur. Cavid və Ceyhun adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Şəki rayonunun Şəki kəndində məskunlaşdılar.
- **Cavid** Vidadi oğlu (1992, Şəki k.) ali təhsillidir.
- **Ceyhun** Vidadi oğlu (1994, Şəki k.).
- **Əsgər** Sayad oğlu (1929, Sədənağac) mahalın Kəsəmən kəndindən Fizzə ilə ailə qurub. Vaqif adlı oğlu, Elvira adlı qızı olub. 1969-cu ildə Daşkəsəndə vəfat edib və orada dəfn olunub.
- **Vaqif** Əsgər oğlu (1958, Daşkəsən) 2006-cı ildə rəhmətə gedib.
- **Elvira** Əsgər qızı (1956, Daşkəsən).
- **Eyvaz** Sayad oğlu (1935, Güney) mahalın Pəmbək kəndindən Nərgiz Əli qızı ilə ailə qurub. Sədayət, Vilayət, İbadət, Məhərrəm adlı dörd oğlu, Çiçək adlı qızı olub. 1969-cu ildə ailəsi ilə birlikdə Şəki rayonunun Şəki kəndinə köçdü. 2007-ci ildə orada vəfat etdi.
- **Sədayət** Eyvaz oğlu (1958, Güney) Şəki rayonunun Cəyirli kəndindən Mehriban Səlim qızı ilə ailə qurub. Namiq adlı oğlu var. Şəki rayonunun Şəki kəndində yaşayırlar.
- **Namiq** Sədayət oğlu (1982, Şəki k.) həmkəndlisi Elnarə Mirzə qızı ilə ailə qurub. Eyvaz, Sənan adlı iki oğlu, İnci adlı qızı var.

- **Vilayət** Eyvaz oğlu (1960, Güney) həmkəndlisi Güllüzar Əhməd qızı ilə ailə qurub. Zakir və Araz adlı iki oğlu var. Şəki rayonunun Şəki kəndində yaşayırlar.
- **Zakir** Vilayət oğlu (1986, Şəki k.) Şəki rayonunun Baltalı kəndindən Rəsmiyyə ilə ailə qurub.
- **Araz** Vilayət oğlu (1991, Şəki k.) hərbçidir.
- **İbadət** Eyvaz oğlu (1962, Güney) rayonun Kəsəmən kəndindən Yeganə Səfər qızı ilə ailə qurub. Rəşad adlı oğlu, Şəfa və Nərgiz adlı iki qızı var. Bakıda yaşayır.
- **Rəşad** İbadət oğlu (1999, Bakı) ali məktəb tələbəsidir.
- **Şəfa** İbadət qızı (1991, Bakı) ali təhsillidir. Şəmkirin Şiştəpə kəndindən Nadir Əmirxan oğlu ilə ailə qurub. Tuncay adlı oğlu var. Bakıda yaşayırlar.
- **Nərgiz** İbadət qızı (1992, Bakı) ali təhsillidir. Bakıda yaşayırlar.
- **Məhərrəm** Eyvaz oğlu (1967, Güney) Tərtərdən Aybəniz Kazım qızı ilə ailə qurub. Təbriz və Pərviz adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Təbriz** Məhərrəm oğlu (1997, Şəki k.).
- **Pərviz** Məhərrəm oğlu (2000, Bakı).
- **Çiçək** Eyvaz qızı (1965, Güney) Yevlax şəhərindən Nüsrət Abdulla oğlu ilə ailə qurub. Natiq, Anar, Vüqar adlı üç oğlu var. Bakıda yaşayırlar.
- **Camal** Sayad oğlu (1941, Güney) Amasiya rayonunun Güllübulaq kəndindən Ruqiyyə Əli qızı ilə ailə qurmuşdur. Ramiz, Elman, İlqar adlı üç oğlu, Sevda adlı qızı var. Şəmkirin Seyfəli kəndində yaşayırlar.
- **Ramiz** Camal oğlu (1961, Daşkəsən).
- **Elman** Camal oğlu (1963, Daşkəsən).
- **İlqar** Camal oğlu (1968, Daşkəsən).
- **Sevda** Camal qızı (1966, Daşkəsən).

  Təəssüflər olsun ki, bu ailə ilə əlaqələr kəsildiyindən qohumları da onlar haqda heç nə bilmir.
- **Cəlal** Sayad oğlu (1940, Güney) mahalın Dərə kəndindən Gülxanım Xıdır qızı ilə ailə qurub. Niyaz, İlyas adlı iki oğlu, Solmaz, Bahar adlı iki qızı olub. 1969-cu ildə ailəsi ilə birlikdə Azərbaycanın Qax şəhərinə köçüb. Bir neçə ay orada yaşadıqdan sonra, Şəki rayonunun üzümçülük sovxozuna, oradan isə Tətrər rayonunun Bəyimsarov kəndinə köçüb və orada məskunlaşıb. 2014-cü ildə həmin kənddə vəfat edib.
- **Niyaz** Cəlal oğlu (1967, Güney) mahalın Kəsəmən kəndindən Venera Davud qızı ilə ailə qurub. Nicat və Murad adlı iki oğlu var. Tərtərin Bəyimsarov kəndində yaşayırlar.

- **Nicat** Niyaz oğlu (1993, Bəyimsarov).
- **Murad** Niyaz oğlu (1995, Bəyimsarov) ali təhsillidir.
- **İlyas** Cəlal oğlu (1969, Qax) Gəncədə məskunlaşan Koluxlulardan Esmira Ələddin qızı ilə ailə qurmuşdur. Xəyal adlı oğlu olub. 1994-cü ildə Qarabağda Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olub.
- **Xəyal** İlyas oğlu (1994, Gəncə) Gəncədə yaşayır.
- **Solmaz** Cəlal qızı (1963, Güney) Tərtərin Sarov kəndindən Şahmar Mehdi oğlu ilə ailə qurub. Natiq adlı oğlu, Təhminə adlı qızı var. Ailəliklə orada yaşayır.
- **Bahar** Cəlal qızı (1964, Güney) Şəkidə yaşayan, əslən Qərbi Azərbaycanın Dərələyəz mahalından olan Vilayət Kamal oğlu ilə ailə qurub. Tural, Kamal adlı iki oğlu, Turanə, Tuba adlı iki qızı var. Hazırda ailəliklə Şəki şəhərində yaşayırlar.
- **Gülgəz** Sayad qızı (1916, Sədənağac) iki dəfə ailəli olub. Birincidə Hüsənlilərdən Əsgər Dünyamalı oğlu ilə evli idi. Müzəffər adlı oğlu olub. Əsgərin xəstəliyi ilə əlaqədar olaraq ayrılıblar. Bir neçə il sonra rayonun Kiçik Məzrə kəndindən İsmayıl Hüseyn oğlu ilə ailə qurub. Musa adlı oğlu, Xanımzər, Asya, Rəfiqə, Sevil adlı dörd qızı olub. 1988-ci il deportasiyasından sonra ailəliklə Qazax rayonunun Cəfərli kəndinə köçüblər. 1997-ci ildə Cəfərlidə vəfat edib.
- **Qara** Cəlil oğlu (1901, Sədənağac) Koluxlulardan Füruzə (Pürzə) Mehdi qızı ilə ailə qurub. Həsən, Hilal adlı iki oğlu olub. Həyat yoldaşı gənc yaşlarında vəfat edib. İkinci dəfə rayonun Kəsəmən kəndindən Lalə ilə ailə qurub. Bu nikahdan övladı olmayıb. 1946-cı ildə kənddə vəfat edib.
- **Həsən** Qara oğlu (1926, Sədənağac) Validə ilə ailə qurub. Lamiyə adlı qızı olub. 1996-cı ildə Gəncə şəhərində rəhmətə gedib və Goranboy rayonunun Dəyirmanlar kəndində dəfn olunub.
- **Lamiyə** Həsən qızı (1959, Krasnoselonun Ağbulaq kəndi) Kələşlilərdən Salman Abbas oğlu ilə (Salmanın anası Atlas Cəlil qızı Hilalın bibisidir) ailə qurub. İlkin adlı oğlu, Vəfa və Füruzə adlı iki qızı olub. Goranboyun Dəyirmanlar kəndində yaşayır. Salman 2015-ci ildə avtomobil qəzasında həlak olub.
- **Hilal** Qara oğlu (1933, Sədənağac) Dilbər İlyas qızı ilə ailə qurub, Gəncədə yaşayıblar. İlham, Elxan adlı iki oğlu, Təranə adlı qızı olub. 1999-cu ildə Gəncədə rəhmətə gedib və Goranboyun Dəyirmanlar kəndində dəfn olunub.
- **İlham** Hilal oğlu Gəncədə doğulub.
- **Elxan** Hilal oğlu Gəncədə doğulub.
- **Təranə** Hilal qızı Gəncədə doğulub.
- **Bilal** Cəlil oğlu (1907, Sədənağac) Babalılardan Tamaşa İsə qızı ilə ailə qurub. Ədalət və Musa adlı iki oğlu, Dursun, Sevda, Narıngül adlı üç qızı olub. 1988-ci il

deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar. 1995-ci ildə vəfat edib və orada dəfn olunub. Böyük Vətən müharibəsi iştirakçısıdır. 1943-cü ildə döyüşlərdə ağır yaralandıqdan sonra ordudan tərxis olunmuşdur. Əsgəri təltifatları var.

- **Ədalət** Bilal oğlu (1937, Güney) Gəncədən Nailə Kərim qızı ilə ailə qurub. Rəşid və Fuad adlı iki oğlu, Emilya və Tünzalə adlı iki qızı olub. Ali təhsillidir. Filologiya üzrə fəlsəfə doktoru idi. 20 ildən artıq Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda pedaqoji fakültənin dekanı olub. 1998-ci ildə Gəncə şəhərində vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Rəşid** Ədalət oğlu (1963, Gəncə) Gəncə şəhərindən Sevinc Knyaz qızı ilə ailə qurub. Kərim və Anar adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **Kərim** Rəşid oğlu (1987, Gəncə) ali təhsillidir. Gəncədən Farizə ilə ailə qurub. Kənan adlı oğlu var. Gəncədə yaşayırlar.
- **Anar** Rəşid oğlu (1989, Gəncə) ali təhsillidir.
- **Fuad** Ədalət oğlu (1975, Gəncə) ali təhsillidir. Gəncədən Hicran Oruc qızı ilə ailə qurub. Nailə, Məryəm, Zəhra adlı üç qızı var. Gəncədə yaşayırlar.
- **Emilya** Ədalət qızı (1960, Gəncə) ali təhsillidir. Əslən Göyçə mahalının Dərə kəndindən olan Şahin Oqtay oğlu ilə ailə qurmuşdur. Nicat və Kamran adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Tünzalə** Ədalət qızı (1969, Gəncə) ali təhsillidir. Pedaqogika üzrə fəlsəfə doktorudur. Gəncə Dövlət Pedaqoji Universitetində müəllimdir. Gəncədən Zaur ilə ailə qurub. Gəncədə yaşayırlar.
- **Musa** Bilal oğlu (1941, Güney) ali təhsillidir. Rayonun Dərə kəndindən Tamaşa Məmmədəli qızı ilə ailə qurub. Elçin və İnqilab adlı iki oğlu, Minarə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Elçin** Musa oğlu (1968, Güney) ali təhsillidir. Koluxlulardan Tünzalə Adil qızı ilə ailə qurub. Ruslan və Orxan adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Ruslan** Elçin oğlu (1997, Bakı).
- **Orxan** Elçin oğlu (2002, Bakı).
- **İnqilab** Musa oğlu (1971, Güney).
- **Minarə** Musa qızı (1973, Güney) Türkiyə vətəndaşı Hümbət Qafar oğlu ilə ailə qurub. Türkiyənin Dənizli şəhərində yaşayırlar.
- **Dursun** Bilal qızı (1955, Güney) ali təhsillidir. Rayonun Kəsəmən kəndindən Məhərrəm Kalvayı oğlu ilə ailə qurub. Aynur, Zülfiyyə, Gülşən, Nuriyyə adlı dörd qızı var. Bakıda yaşayırlar.

- **Sevda** Bilal qızı (1957, Güney) ali təhsillidir. Rayonun Babacan kəndindən Yusif Qurban oğlu ilə ailə qurub. Elnur, Elvin adlı iki oğlu, Sevinc adlı qızı var. Bakıda yaşayırlar.
- **Narıngül** Bilal qızı (1963, Güney) ali təhsillidir. Ramiz Qafar oğlu ilə ailə qurub. Səbinə, Ayşən adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Gülalı** Cəlil oğlu (1910, Sədənağac) iki dəfə evli olub. Birincidə rayonun Qoşabulaq kəndindən Səkinə ilə ailə qurub. Şahbaz, Dairəddin, Ələddin adlı üç oğlu, Bəyaz adlı qızı olub. İkincidə rayonun Şişqaya kəndindən Quşdar Əli qızı ilə ailə qurub. Fəxrəddin, Sayəddin adlı iki oğlu, Əntiqə, Sona, Tamilla, Gülöyşə adlı dörd qızı olub. Böyük Vətən müharibəsi iştirakçısı idi. 1968-ci ildə kənddə vəfat edib.
- **Dairəddin** Gülalı oğlu (1939, Güney) Rusiyada yaşayır.
- **Şahbaz** Gülalı oğlu (1934, Güney) Tatlardan Xanım Bəylər qızı ilə ailə qurub. Əkbər, Şahmar, Elmar adlı üç oğlu, Humay, Könül adlı iki qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar. 2010-cu ildə Gəncədə vəfat edib və Goranboyun Dəyirmanlar kəndində dəfn olunub.
- **Əkbər** Şahbaz oğlu (1957, Güney) Koluxlulardan Flora Xanlar qızı ilə ailə qurub. Amalya, Samirə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Amalya** Əkbər qızı (1984, Güney) Babalılardan Telman Baxış oğlu ilə ailə qurub. Jalə adlı qızı var. Gəncədə yaşayırlar.
- **Samirə** Əkbər qızı (1987, Güney) Goranboyun Ağamalıoğlu kəndindən Şahin Cavanşir oğlu ilə ailə qurub. Hazırda orada yaşayırlar.
- **Şahmar** Şahbaz oğlu (1963, Güney) Babalılardan Tamella Bəhram qızı ilə ailə qurub. Allahverdi adlı oğlu, Cəmilə, Kəmalə adlı iki qızı var. 1982-ci ildən Bakıda yaşayır.
- **Allahverdi** Şahmar oğlu (1991, Bakı) Bakıda yaşayır.
- **Cəmilə** Şahmar qızı (1984, Bakı) Göyçaydan Kənan Tofiq oğlu ilə ailə qurub. Tofiq adlı oğlu, Gülay adlı qızı var. Bakıda yaşayır.
- **Kəmalə** Şahmar qızı (1986, Bakı) Koluxlulardan Sənan Bayram oğlu ilə ailə qurub. Amin adlı oğlu, Mələk adlı qızı var. Bakıda yaşayır.
- **Elmar** Şahbaz oğlu (1975, Güney) mahalın Göysu kəndindən Nazilə Novruz qızı ilə ailə qurub. Eldəniz adlı oğlu, Gülbəniz adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdı.
- **Eldəniz** Elmar oğlu (2002, Gəncə).
- **Gülbəniz** Elmar qızı (1998, Gəncə).

- **Humay** Şahbaz qızı (1961, Güney) Koluxlulardan Bayram Məmməd oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Yeni Göyçə kəndində məskunlaşdılar. 1997-ci ildən Bakıda yaşayırlar.
- **Könül** Şahbaz qızı (1965, Güney) Koluxlulardan Rafiq Şura oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Ələddin** Gülalı oğlu (1940, Güney) Hüsənlilərdən Şəfiqə Xamoy qızı ilə ailə qurub. Tapdıq adlı oğlu, Şükufə, Çimnaz, Esmira, Elmira, Qənifə adlı beş qızı var. Deportasiyadan sonra Gəncə şəhərində məskunlaşdılar. 2000-ci ildə Gəncədə vəfat edib və Goranboy rayonunun Dəyirmanlar kəndində dəfn olunub.
- **Tapdıq** Ələddin oğlu (1980, Güney) Gədəbəydən Əminə Ələmdar qızı ilə ailə qurub. Nihat adlı bir oğlu, Dəniz adlı qızı var. Gəncədə yaşayırlar.
- **Şükufə** Ələddin qızı (1964, Güney) Məşədi Hüseynlilərdən Möhübbət İsgəndər oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Gəncədə yaşayırlar.
- **Çimnaz** Ələddin qızı (1967, Güney) Kəlbəcərdən Niyaməddin Muğam oğlu ilə ailə qurub. Muğam adlı oğlu, Aytac adlı qızı var. Mingəçevirdə yaşayırlar.
- **Elmira** Ələddin qızı (1972, Güney) Koluxlulardan İlyas Cəlal oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Gəncədə yaşayırlar.
- **Nəmidə** Ələddin qızı (1974, Güney) Gəncədən Sahiblə ailə qurub. Samirə, Vüsalə, Xəyalə adlı üç qızı var. Gəncədə yaşayırlar.
- **Qənifə** Ələddin qızı (1977, Güney) mahalın Şişqaya kəndindən Xasay Kərəm oğlu ilə ailə qurub. Eşqin, Royal adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **Fəxrəddin** Gülalı oğlu (1953, Güney) mahalın Şişqaya kəndindən Manya ilə ailə qurub. Elşən və Orxan adlı iki oğlu, Sahibə adlı qızı var. 1988-ci il deportasiyasından sonra ailəliklə Bakıda məskunlaşdılar. 2017-ci ildə vəfat edib və Mehdiabad qəbiristanlığında dəfn olunub.
- **Elşən** Fəxrəddin oğlu (1981, Güney) Borçalıdan (Marneuli rayonu) Afidə Məzahir qızı ilə ailə qurub. İbrahim adlı oğlu, Nərmin, Nəzrin adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Orxan** Fəxrəddin oğlu (1988, Güney) Sumqayıtdan Telli Dövlət qızı ilə ailə qurub. Fəxrəddin adlı oğlu, Zəhra adlı qızı var. Bakıda yaşayırlar.
- **Zeynəb** Fəxrəddin qızı (1976, Güney) Bakıdan Sərdar Mahmud oğlu ilə ailə qurub. Gülnar adlı qızı var. Bakıda yaşayırlar.

- **Sahilə** Fəxrəddin qızı (1980, Güney) Naxçıvandan Fərrux Mehdi oğlu ilə ailə qurub. Yusif, Vasif, Məhəmməd adlı üç oğlu var. Bakıda yaşayırlar.
- **Sayəddin** Gülalı oğlu (1966, Güney) ali təhsillidir. Hacı Ramazanlılardan Rübabə İsa qızı ilə ailə qurub. Gülalı adlı oğlu, Aysel adlı qızı var. 1983-cü ildən Bakı şəhərində yaşayır.
- **Gülalı** Sayəddin oğlu (1994, Bakı) ali təhsillidir. Koluxlulardan Sevil Müşfiq qızı ilə ailə qurub.
- **Aysel** Sayəddin qızı (1988, Bakı) ali təhsillidir. Qax rayonundan Natiq Nizami oğlu ilə ailə qurub. Selin adlı qızı var. Bakıda yaşayırlar.
- **Bəyaz** Gülalı qızı (1934, Güney) Hüsənlilərdən Aslan Nağı oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar. 2017-ci ildə vəfat etdi və orada dəfn olundu.
- **Əntiqə** Gülalı qızı (1949, Güney) Şəmkirin Mahmudlu kəndindən Hidayət Allahverdi oğlu ilə ailə qurub. Qılman adlı oğlu, Elza, Şölə, Ramilə adlı üç qızı var. Mahmudluda yaşayırlar.
- **Sona** (Leyla) Gülalı qızı (1951, Güney) Əmirlilərdən Firuddin Ələkbər oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Tamella** Gülalı qızı (1957, Güney) Gədəbəyin Arıqıran kəndindən İsmayıl Nadir oğlu ilə ailə qurub. Rövşən adlı oğlu, Yeganə, Aygün adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Gülöyşə** Gülalı qızı (1960, Güney) mahalın Pəmbək kəndindən Qurban Nəriman oğlu ilə ailə qurub. Kəmalə, Ramilə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Cavad** Cəlil oğlu (1909, Sədənağac) 1929-cu ildə qətlə yetirilib. Evli deyildi.
- **Xənçəlxan** Cəlil oğlu (1914, Sədənağac) Hüsənlilərdən Məleykə Mürsəl qızı ilə ailə qurub. Övladı olmayıb. 1941-ci ildə səfərbərliyə alınıb, Böyük Vətən müharibəsindən geri qayıtmayıb.
- **Atlas** Cəlil qızı (1919, Sədənağac) mahalın Ağbulaq kəndindən Abbas Süleyman oğlu ilə ailə qurmuşdur. Süleyman, Salman, İman adlı üç oğlu, Şirin, Lalə, Narın adlı üç qızı olub. Bu nikaha qədər iki dəfə ərdə olub. Birinci dəfə Əmirlilərdən Möhsün Vəli oğlu ilə ailə qurub. Mübariz adlı bir oğlu olub. İkinci dəfə Çəkməlilərdən Ziyad Əli oğlu ilə ailə qurub. Müşavirə adlı qızı, Savalan adlı oğlu olub. 1988-ci il deportasiyasından sonra oğlu İmanın ailəsi ilə birlikdə Bakının Lökbatan qəsəbə-

sində məskunlaşdılar. 1997-ci ildə vəfat edib və qəsəbə qəbiristanlığında dəfn olunub.

- **Xəlil** İbrahim oğlu (1871, Sədənağac) Əmirlilərdən Püstə Məhəmməd qızı ilə ailə qurub. Məmməd, Bayram və İbrahim adlı üç oğlu, Firəngiz adlı qızı olub. 1947-ci ildə kənddə vəfat edib.
- **Məmməd** Xəlil oğlu (1912, Sədənağac) iki dəfə evlənib. Birincidə Hüsənlilərdən Bəsti Məşədi Abbas qızı ilə ailə qurub. Şura adlı oğlu olub. Sonra ayrılıblar. İkincidə Hüsənlilərdən Maral Şəmil qızı ilə ailə qurub. Hüseyn, Bayram, Fikrət adlı üç oğlu olub. 1972-ci ildə kənddə 60 yaşında vəfat etdi. Böyük Vətən müharibəsi iştirakçısı bölməsində əlavə məlumat verilir.
- **Şura** Məmməd oğlu (1935, Güney) iki dəfə evlənib. Birincidə Hüsənlilərdən Ruqiyyə Müsüd qızı ilə ailə qurub. Oruc, Rafiq, Nurəddin, Hafiz, Əli adlı beş oğlu, Ulduz adlı qızı olub. 1978-ci ildə həyat yoldaşı Ruqiyyə Müsüd qızı vəfat etdikdən sonra ikinci dəfə Hüsənlilərdən Leyla Bayram qızı ilə ailə qurub. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Oruc** Şura oğlu (1960, Güney) Çəkməlilərdən Nərminə Yusif qızı ilə ailə qurub. Rahib adında oğlu, Günel adlı qızı var. 1983-cü ildə Bakı şəhərinə köçdü, hazırda ailəsi ilə birlikdə şəhərdə yaşayır.
- **Rahib** Oruc oğlu (1990, Bakı) Ağcabədidən Səbinə Nadir qızı ilə ailə qurub. Oruc adlı oğlu, Günay adlı qızı var. Bakıda yaşayır.
- **Günay** Oruc qızı (1988, Bakı) Türkiyə vətəndaşı Zəkəriyyə ilə ailə qurub. Yusif adlı oğlu, Melisa və Mələk adlı iki qızı var. Ailəliklə Türkiyədə yaşayırlar.
- **Rafiq** Şura oğlu (1960, Güney) Koluxlulardan Könül Şahbaz qızı ilə ailə qurub. Yasin adlı oğlu, Aygün adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Yasin** Rafiq oğlu (1990, Bakı) Ağcabədidən Şahnaz Tofiq qızı ilə ailə qurub. Rafiq adlı oğlu, Günay adlı qızı var. Bakıda yaşayır.
- **Aygün** Rafiq qızı (1992, Bakı) Ülvi İltimas oğlu ilə ailə qurub. Yusif, Barış adlı iki oğlu, Aylin adlı qızı var. Bakıda yaşayırlar.
- **Nurəddin** Şura oğlu (1964, Güney) Rusiyanın Barnaul şəhərində yaşayır.
- **Hafiz** Şura oğlu (1965, Güney) Bakı şəhərindən Natəvanla ailə qurub. Natiq adlı oğlu var. Rusiyanın Barnaul şəhərində yaşayır.
- **Əli** Şura oğlu (1974, Güney) milliyyətcə rus olan Larisa ilə ailə qurub. Timur adlı oğlu, Səbinə adlı qızı var. Rusiyanın Barnaul şəhərində yaşayır.
- **Ulduz** Şura qızı (1978, Güney) Naxçıvandan İsa Kərəm oğlu ilə ailə qurub. Əli adlı oğlu, Samirə adlı qızı var. Bakıda yaşayır.

- **Hüseyn** Məmməd oğlu (1954, Güney) Babalılardan Əfruz Zeynalabdı qızı ilə ailə qurub. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Bayram** Məmməd oğlu (1956, Güney) Koluxlulardan Humay Şahbaz qızı ilə ailə qurub. Əli və Sənan adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Əli** Bayram oğlu (1979, Güney).
- **Sənan** Bayram oğlu (1982, Güney) Bakıdan Kəmalə Şahmar qızı (dayısı qızı) ilə ailə qurub. Amin adlı oğlu, Mələk adlı qızı var. Bakıda yaşayırlar.
- **Fikrət** Məmməd oğlu (1963, Güney) Babalılardan Sevil Fidayıl qızı ilə ailə qurmuşdur. Nuranə və Lamiyyə adlı iki qızı olub. 2004-cü ildə Rusiya Federasiyası Altay vilayətinin Barnaul şəhərində vəfat etdi və orada dəfn olundu. Ailəsi Bakıda yaşayır.
- **Nurlanə** Fikrət qızı (1988, Güney) Gədəbəydən Səlim Nazim oğlu ilə ailə qurub. Bakıda yaşayırlar.
- **Lamiyə** Fikrət qızı (1992, Rusiya Federasiyası Altay vilayətinin Barnaul şəhəri) hazırda anası Sevil Fidayıl qızı ilə Bakıda yaşayır.
- **Bayram** Xəlil oğlu (1917, Sədənağac) 1941-ci ildə səfərbərliyə alınıb, Böyük Vətən müharibəsində həlak olub. Evli deyildi.
- **İbrahim** Xəlil oğlu (1924, Sədənağac) 1943-cü ildə hərbi xidmətə çağırılıb. Arxa cəbhədə qulluq edib. Hərbi xidmətdən tərxis edildikdən sonra Gəncə şəhərində yaşayıb. 1963-cü ildə orada vəfat edib. Evli deyildi.
- **Firəngiz** Xəlil qızı (1915, Sədənağac) mahalın Göysu kəndindən Qasımla ailə qurub. Siyavuş və Məhərrəm adlı iki oğlu, Aybəniz adlı qızı olub.1960-cı illərdə Şəmkir şəhərinə köçüblər. 1997-ci ildə orada vəfat edib.
- **Cabbar** İbrahim oğlu (1878, Sədənağac) Güllü ilə ailə qurub. Abbas adlı oğlu, Çeşmə və Şamama adlı iki qızı olub.
- **Abbas** Cabbar oğlu (1917, Sədənağac) 1941-ci ildə Böyük Vətən müharibəsində həlak olub. Evli deyildi. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Çeşmə** Cabbar qızı (1913, Sədənağac) Hüsənlilərdən Əli Salman oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir.1972-ci ildə kənddə vəfat etdi.
- **Şamama** Cabbar qızı (1915, Sədənağac) Hüsənlilərdən Mirzalı Salman oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1977-ci ildə kənddə vəfat etdi.

- **Şıralı** Hacı Qərib oğlu (1848, Sədənağac). Sədənağac kəndinin 1873-cü ilin kameral təsvirində 13 saylı ailə kimi qeyd olunub və ailəsinin 1 kişidən və 4 qadından ibarət olduğu göstərilir. Məşədi Hüseynlilərdən Məşədi Səkinə Məşədi Hüseyn qızı ilə ailə qurub. Mehdi adlı oğlu, Şəkər adlı qızı olub.
- **Mehdi** Hacı Şıralı (Haşralı) oğlu (1873, Sədənağac) mahalın Nərimanlı kəndindən Kövsər Kalvayı Qasım qızı ilə ailə qurub. Əmirxan, İslam və Muradxan adlı üç oğlu, Kəklik, Sayalı və Füruzə adlı üç qızı olub. 1919-cu ildə kənddə vəfat edib.
- **Əmirxan** və **Muradxan** uşaqkən qızılca xəstəliyindən vəfat ediblər.
- **İslam** Mehdi oğlu (1914, Sədənağac) Koluxlulardan öz əmisi qızı Bəsdi Nəsib qızı ilə ailə qurmuşdur. Qəzənfər, Adil, Nəcəf adlı üç oğlu olub. 1941-ci ildə səfərbərliyə alınıb. Böyük Vətən müharibəsində itkin düşüb.
- **Qəzənfər** İslam oğlu (1937, Güney) rayonun Kiçik Məzrə kəndindən Kifayət Fərman qızı ilə ailə qurub. Mehdi, Aqşin, Budaq adlı üç oğlu, Südabə, Aytəkin, Elminaz adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra Göygöl şəhərində məskunlaşdı. 2013-cü ildə orada vəfat etmiş və şəhər qəbiristanlığında dəfn edilmişdir.
- **Mehdi** Qəzənfər oğlu (1963, Güney) ali təhsillidir. Rayonun Qoşabulaq kəndindən Səidə Şahbaz qızı ilə ailə qurub. Elman və Bəxtiyar adlı iki oğlu var. Ali məktəbi bitirdikdən sonra Göygöl rayonunda məskunlaşdı və hazırda orada yaşayır.
- **Elman** Mehdi oğlu (1992, Goranboy) ali təhsilli hərbçidir. Ağcabədidən Sürmə İlqar qızı ilə ailə qurub.
- **Bəxtiyar** Mehdi oğlu (1994, Goranboy) hərbçidir.
- **Aqşin** Qəzənfər oğlu (1970, Güney) ali təhsillidir. Rayonun Qoşabulaq kəndindən Nailə Vaqif qızı ilə ailə qurub. Samir, İlqar adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Göygöl rayonunda məskunlaşdılar.
- **Samir** Aqşin oğlu (1995, Göygöl şəhəri).
- **İlqar** Aqşin oğlu (1998, Göygöl şəhəri).
- **Budaq** Qəzənfər oğlu (1971, Güney) Goranboyun Dəyirmanlar kəndindən Vəfa Salman qızı ilə ailə qurmuşdur. Ayşə adlı qızı olmuşdur. 2003-cü ildə bədbəxt hadisə nəticəsində həlak olub və şəhər qəbiristanlığında dəfn olunub.
- **Südabə** Qəzənfər qızı (1965, Güney) Hüsənlilərdən Kərəm Aslan oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəliklə Bakıda məskunlaşdılar.

- **Aytəkin** Qəzənfər qızı (1967, Güney) rayonun Kəsəmən kəndindən Fazil Cəlal oğlu ilə ailə qurub. Niyazi və Nizami adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Çənlibel kəndində məskunlaşdılar.
- **Elminaz** Qəzənfər qızı (1967, Güney) Göygölün Üçtəpə kəndindən Rizvan Kamil oğlu ilə ailə qurub. Pəşad adlı oğlu, Ləman adlı qızı var. 1988-ci il deportasiyasından sonra Göygöl rayonunda məskunlaşdılar.
- **Adil** İslam oğlu (1939, Güney) Koluxlulardan Kəsir Totulu qızı ilə ailə qurub. İsmixan, İlham, Baba, Üsaməddin adlı dörd oğlu, Tünzalə və İradə adlı qızları var. Deportasiyadan sonra Bakıda məskunlaşdılar.
- **İsmixan** Adil oğlu (1963, Güney) ali təhsillidir. Qəhrəmanlılar tayfasından Zərniyar Ziyad qızı ilə ailə qurub. Elmir və Emin adlı iki oğlu, Elnarə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçdü, hal-hazırda şəhərdə yaşayır.
- **Elmir** İsmixan oğlu (1986, Güney) Bakı şəhərindən Mehriban Əli qızı ilə ailə qurub. Mədinə və Zəhra adlı iki qızı var. Bakı şəhərində yaşayırlar.
- **Emin** İsmixan oğlu (1995, Bakı).
- **Elnarə** İsmixan qızı (1989, Bakı) Cavid Ələddin oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **İlham** Adil oğlu (1967, Güney) Hüsənlilərdən Xalidə Aslan qızı ilə ailə qurub. Eşqin adlı oğlu, Əfsanə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Eşqin** İlham oğlu (1991, Bakı).
- **Əfsanə** İlham qızı (1989, Bakı) Hacı Ramazanlılardan Rza İbrahim oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Babək** Adil oğlu (1972, Güney) Mirzalılardan Vüsalə Telman qızı ilə ailə qurub. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar. Fuad və Seymur adlı iki oğlu var.
- **Üsaməddin** Adil oğlu (1969, Güney) Laçın rayonundan Müşfiqə Mətləb qızı ilə ailə qurub. Pərviz adlı oğlu, Günel adlı qızı var. Bakıda yaşayırlar.
- **İradə** Adil qızı (1964, Güney) Qəhrəmanlılardan Novruz Ziyad oğlu ilə ailə qurub. Ailə tərkibi həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Tünzalə** Adil qızı (1967, Güney) Koluxlulardan Elçin Musa oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.

- **Nəcəf** İslam oğlu (1941, Güney) Raziyə Məriş qızı (xalası Tamamın qızı) ilə ailə qurmuşdur. Zöhrab, Nazim adlı iki oğlu, Pərvanə, Dürdanə, Dilarə adlı üç qızı olub. 1975-ci ildə ailəliklə Goranboy rayonunun Dəyirmanlar kəndinə köçdü. 2012-ci ildə orada vəfat etdi.
- **Nazim** Nəcəf oğlu (1971, Güney) Rusiyada yaşayır. Ailəlidir.
- **Zöhrab** Nəcəf oğlu (1979, Dəyirmanlar) rayonun Dəliməmmədli şəhərindən Vüsalə Əli qızı ilə ailə qurub. İslam, Murad adlı iki oğlu, Samirə adlı qızı var. Hazırda Goranboy rayonunun Dəyirmanlar kəndində yaşayır.
- **Pərvanə** Nəcəf qızı (1972, Güney) ali təhsillidir. Dəyirmanlar kəndində yaşayır.
- **Dürdanə** Nəcəf qızı (1974, Güney) Goranboy rayonunun Dəyirmanlar kəndində yaşayır.
- **Dilarə** Nəcəf qızı (1976, Güney) mahalın Ardanış kəndindən Yaşar Əli oğlu ilə ailə qurub. Gəncədə yaşayırlar.
- **Kəklik** Mehdi qızı (1896, Sədənağac) Koluxlulardan Yusuf Bağır oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra oğlu Cəlalın ailəsi ilə birlikdə Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar. 1991-ci ildə rəhmətə getdi və kənd qəbiristanlığında dəfn olundu.
- **Füruzə** (Pürzə) Mehdi qızı (1906, Sədənağac) Koluxlulardan Qara Cəlil oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1938-ci ildə vəfat edib.
- **Sayalı** Mehdi qızı (1909, Sədənağac) Məşədi Hüseynlilərdən Qəşəm İbrahim oğlu ilə ailə qurub. Bu evliliyin ömrü qısa olub - 1931-ci ildə gənc yaşında vəfat edib.
- **Şəkər** Hacı Şiralı qızı (1888, Sədənağac) iki dəfə evlənib. Birincidə Hüsənlilərdən Salman Ələkbər oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. İkincidə 1928-ci ildə rayonun Pəmbək kəndindən Bayraməli Vəli oğlu ilə ailə qurub. Bu nikahdan Xanlar adlı oğlu, Hürü adlı qızı olub. 1940-cı ildə vəfat edib və Pəmbəkdə dəfn olunub.
- **Bağır** Hacı Qərib oğlu (1858, Sədənağac) iki dəfə evlənib. Məşədi Hüseynlilərdən Nisə Məşədi Hüseyn qızı ilə ailə qurub. Bu nikahdan Məsim adlı oğlu, Məsmə və Püstə adlı iki qızı olub. Nisə gənc yaşlarında vəfat etdikdən sonra, ikincidə Gədəbəyin Atabəy kəndindən Telli ilə ailə qurub. Nəsib, Qara, Yusif, Həmid adlı dörd oğlu olub.1927-ci ildə kənddə vəfat edib.
- **Məsim** Bağır oğlu (1882, Sədənağac) üç dəfə evlənib: Birincidə Güllüzar ilə ailə qurub. Onların Süleyman və Məhəmməd adlı iki oğlu, Gülzada adlı qızı olub.

Güllüzar erkən vəfat etdikdən sonra Məsim ikincidə mahalın Kəsəmən kəndindən Məsmə ilə ailə qurub. Gülüstan adlı qızı olub. Onun vəfatından sonra Məsim Göyçə mahalının Ağbulaq kəndindən Səkinə Hüseynalı qızı ilə ailə qurub. Hüseyn adlı oğlu, Tərifə və Həmayıl adlı iki qızı olub. 1940-cı ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.

- **Məhəmməd** Məsim oğlu (1916, Sədənağac) Böyük Vətən müharibəsində itkin düşüb. Evli deyildi.
- **Süleyman** Məsim oğlu (1918, Sədənağac) Böyük Vətən müharibəsində itkin düşüb. Evli deyildi.
- **Hüseyn** Məsim oğlu (1927, Sədənağac) Koluxlulardan Ceyran Binnət qızı ilə ailə qurub. Əkbər, Osman, Əsəd, Tahir, Elmar adlı beş oğlu, Maypara, Arifə, Lalə, Kifayət, Nübar, Sona adlı altı qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar. 1999-cu ildə vəfat etdi və Şəmkirin Posanlı kəndində dəfn olundu.
- **Əkbər** Hüseyn oğlu (1958, Güney) ali təhsillidir. Rusiya Federasiyası Altay vilayətinin Biysk şəhərində yaşayır.
- **Osman** Hüseyn oğlu (1964, Güney) ali təhsillidir. Rayonun Göysu kəndindən Arifə Yaqub qızı ilə ailə qurub. Vaqif və Ruslan adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Vaqif** Osman oğlu (1992, Gəncə).
- **Ruslan** Osman oğlu (1994, Gəncə).
- **Əsəd** Hüseyn oğlu (1967, Güney) ali təhsillidir. Hüsənlilərdən Elnarə Maarif qızı ilə ailə qurub. Müşfiq adlı oğlu, Şəfəq adlı qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Tahir** Hüseyn oğlu (1970, Güney) ali təhsillidir. Babalılardan Elmira Kamandar qızı ilə ailə qurub. Nurlan və Anar adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Elmar** Hüseyn oğlu (1972, Güney) ali təhsillidir. Həyat yoldaşı Gülnar milliyyətcə tatardır. Səbinə və Əminə adlı iki qızı var. Tatarıstanda Kazan şəhərində yaşayırlar.
- **Maypara** Hüseyn qızı (1948, Güney) Babalılardan Mikayıl Mahmud oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Göygölün Çaykənd kəndinə köçdü, hazırda ailəliklə orada yaşayırlar.
- **Arifə** Hüseyn qızı (1952, Güney) Böyük Məzrə kəndindən Səlim İsgəndər oğlu ilə ailə qurmuşdur. Rövşən, Elşən, Şahin adlı üç oğlu, Şahnaz adlı qızı var.

1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar. 2011-ci ildə vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.

- **Lalə** Hüseyn qızı (1955, Güney) Babalılardan Qələndər İsrafil oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Samux rayonunun Qaraağaclı (Qırmızı Samux) kəndində yaşayırlar.
- **Kifayət** Hüseyn qızı (1957, Güney) Koluxlulardan Əyyub Cəlal oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Yeni Göyçə kəndində məskunlaşdılar. Bir neçə il orada yaşadıqdan sonra Bakı şəhərinə köçdülər. Oğlu Sübhanın ailəsi ilə birlikdə Bakıda yaşayır.
- **Nübar** Hüseyn qızı (1960, Güney) Hacı Ramazanlılardan Məzahir Xıdır oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Tovuz şəhərində məskunlaşdılar.
- **Sona** Hüseyn qızı (1962, Güney) Samux rayonunun Lək kəndindən Cəlal ilə ailə qurub. Elnur adlı oğlu, Aynur adlı qızı var. Lək kəndində yaşayırlar.
- **Tərifə** Məsim qızı (1934, Güney) Çəkməlilərdən Yəhya Cəmşid oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar. 2006-cı ildə Bakıda vəfat etdi.
- **Həmayıl** Məsim qızı (1939, Güney) rayonun Kiçik Məzrə kəndindən Şamxal İsgəndər oğlu ilə ailə qurub. Bilender, Asif, Pünhan, Habil adlı dörd oğlu, Ofelya, Rəna, Yeganə adlı üç qızı olub. 1984-cü ildə Xanlar (indiki Göygöl) şəhərinə köçdülər. 2008-ci ildə vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Gülzada** Məsim qızı (1912, Sədənağac) Babalılardan İsrafil Oruc oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1989-cu ildə Samux rayonunun Qırmızı Samux kəndində vəfat edib.
- **Gülüstan** Məsim qızı (1923, Sədənağac) rayonun Kəsəmən kəndindən Məhəmməd Mustafa oğlu ilə ailə qurub. Vaqif, Yaqub, Mustafa adlı üc oğlu, Qürbət, Gözəl, Əntiqə, Kifayət adlı dörd qızı olub. 2007-ci ildə 84 yaşında Tərtərin Təzəkənd məntəqəsində vəfat edib.
- **Nəsib** Bağır oğlu (1886, Sədənağac) iki dəfə evlənib. Birincidə Mirzalılardan Gülabatın Məşədi Məmmədvəli qızı ilə ailə qurub. Ziyad adlı oğlu, Bəsti, Məleykə, Gülara, Tamam, Almaz adlı beş qızı olub. İkincidə əmisi oğlu Mehdi Hacı Şiralı oğlu vəfat etdikdən sonra onun dul qadını Kövsər Kalvayı Qasım qızı ilə evlənib. Bu nikahdan Məmmədxan adlı oğlu olub. 1942-ci ildə kənddə vəfat edib.

- **Məmmədxan** Nəsib oğlu (1921, Sədənağac) iki dəfə evlənib. Birincidə Məşədi Hüseynlilərdən Məleykə Nəsib qızı ilə ailə qurmuşdur. Bu nikahdan Zirəddin, Oktay, Qoşqar adlı üç oğlu, Müşgünaz və Səlminaz adlı iki qızı olub. İkincidə Hüsənlilərdən Məngülə Əsgər qızı ilə ailə qurmuşdur. Bu nikahdan Famil və Kamil adlı iki oğlu, Aybəniz, Şahnaz, Şahzadə adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra oğlu Kamilin ailəsi ilə Bakıda məskunlaşdılar. 1992-ci ildə vəfat edib və Bakıxanov qəsəbə qəbiristanlığında dəfn olunub.
- **Zirəddin** Məmmədxan oğlu (1946, Güney) Qəhrəmanlılardan Zümrüd Ziyad qızı ilə ailə qurub. Müşfiq adlı oğlu var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Müşfiq** Zirəddin oğlu (1970, Güney) ali təhsillidir. Tovuzun Cəlilli kəndindən Kəmalə Mikayıl qızı ilə ailə qurub. Orxan adlı oğlu, Sevinc və Sevil adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Orxan** Müşfiq oğlu (1997, Bakı) Azərbaycan İdman Akademiyasını bitirib. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin silahlı qüvvələrində hərbi xidmətdədir. Dünya səviyyəsində tanınmış idmançıdır. 2011-ci ildə Kiyevdə keçirilən yarışlarda taekvando üzrə gənclər arasında Dünya çempionu, 2014-cü ildə Kiprdə keçirilən yarışlarda isə həmin idman növü üzrə Avropa çempionu adına layiq görülüb. Bakıda yaşayır.
- **Sevinc** Müşfiq qızı (1993, Bakı) ali təhsillidir. Bakı şəhərindən Asim Rasim oğlu ilə ailə qurub. Onur adlı oğlu var.
- **Sevil** Müşfiq qızı (1994, Bakı) ali təhsillidir. Koluxlulardan Gülalı Sayəddin oğlu ilə ailə qurub. Bakı şəhərində yaşayırlar.
- **İntiqam** Məmmədxan oğlu (1950, Güney) Babalılardan Lalə Abbasəli qızı ilə ailə qurub. Gəray adlı oğlu, Nərminə və Səbinə adlı iki qızı olub. 1979-cu ildə Şəmkirin Kür qəsəbəsinə köçmüşdür. Bir neçə il orada yaşadıqdan sonra Bakı şəhərinə gəlmişlər. 2010-cu ildə vəfat etdi və Bakıxanov qəsəbəsində dəfn olundu.
- **Gəray** İntiqam oğlu (1973, Güney) Ağdərə rayonunun Umudlu kəndindən Əminə İsmayıl qızı ilə ailə qurub. İlkin, Yusif adlı iki oğlu, Məleykə və Ayan adlı iki qızı var.
- **Nərminə** İntiqam qızı (1975, Güney) Şəmkirdən Rizvan Hidayət oğlu ilə ailə qurub. Ceyhun, Cavid adlı iki oğlu, Dilbər adlı qızı var. Şəmkirin Kür qəsəbəsində yaşayırlar.
- **Səbinə** İntiqam qızı (1977, Güney) Hacı Ramazanlılardan Yasin İsə oğlu ilə ailə qurub. Ailə tərkibi haqda əlavə məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Oktay** Məmmədxan oğlu (1957, Güney) Rusiyada yaşayır.

- **Qoşqar** Məmmədxan oğlu (1961, Güney) Çəkməlilərdən Reyhan (Bənzər) Yəhya qızı ilə ailə qurub. Romen və Niyaməddin adlı iki oğlu, Anjela adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Romen** Qoşqar oğlu (1985, Güney) ali təhsillidir.
- **Şakir** İslam oğlu (1957, Güney) Məşədi Hüseynlilərdən Mahur Ramazan qızı ilə ailə qurub. Şaiq adlı oğlu, Pərvanə adlı qızı var. Bakıda yaşayırlar.
- **Şaiq** Şakir oğlu (1987, Bakı) ali təhsillidir. Sumqayıt şəhərindən İradə Şahlar qızı ilə ailə qurub. Nəzrin adlı qızı var. Bakıda yaşayır.
- **Pərvanə** Şakir qızı (1984, Bakı) Hüsənlilərdən Ceyhun Müsəllim oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Güllüzar** İslam qızı (1946, Güney) mahalın Qanlı kəndində yaşayan Əmrahlılardan Nəsib Əsgər oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəliklə Göygölün Göyçəkənd kəndində məskunlaşdılar.
- **Sücayət** İslam qızı (1955, Güney) 1988-ci il deportasiyasından sonra valideynləri ilə birlikdə Bakıda yaşadı və 1989-cu ildə vəfat etdi.
- **Sögülü** Mehdi qızı (1911, Sədənağac) öz tayfasından Davud Vəli oğlu ilə ailə qurub. 1971-ci ildə kənddə vəfat etdi. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Məmməd** Qəhrəman oğlunun (1869, Sədənağac) taleyi məlum deyil.


QƏHRƏMAN MƏHƏMMƏD (MƏMMƏD) OĞLU
Zeynal
Alı
Vəli
Mehdi
Məmməd
İslam
Şakir
Şaiq
Hüseyn
Yunis
Teymur
Qurban
Davud
Qədir
Mayıl
Hidayət
Orxan
İsmayıl
Əli
Elmibəy
Vüqar
Turxan
Elvin
Niftalı
Siyasət
Ramil
Hüseyn
Tural
Vüsal
Cahan
Elçin
Elman
Rövşən
Emin
Zəfər
Ayxan
Gündüz
Eltun
Cavı
Ziyad
Məsdan
Zimistan
Qulu
Nəcəf
Səbuhi
Ziyad
Vüsal
Əfran
Ürfan
Əli
Elnur
Pərviz
Fərid
Yusif
Novruz
Ramin
Yusif
Raul
İlqar
Tural
İlqar
Pərviz
Nihad
İbrahim
İdris
Azər
İlham
Vüqar
İlkin
Elçin
Yəhya
Cəbrayıl
Əşrəf
Qurban
Rafət
Məhərrəm
Lətif
Rəcəb
Altay
Ramil
Ömər
İsmayıl
İbrahim

MƏŞƏDİ HÜSEYNLİLƏR

Məşədi Hüseynlilər tayfasının Sədənağac kəndində məskunlaşma tarixi 1857-ci ildən başlayır. Göyçə mahalının Ağbulaq kəndində yaşayan Məşədi Hüseyn Qasım oğlunun təklifi ilə onun qardaşları və bir neçə əmisi ailə üzvləri ilə birlikdə 1857-ci ilin yazında təsərrüfatlarında olan bütün əmlakı və mal-qaranı bir yerə toplayaraq, daimi yaşayış yeri kimi nəzərdə tutduqları Qəzvinə (Güney Azərbaycan) köçmək üçün səfərə çıxırlar. (Bu haqda Göyçə mahalının 1842-ci ildə tərtib edilmiş kameral təsvirində sonralar əlavə edilmiş qeyd var). Yola çıxdıqdan bir müddət sonra İrəvan quberniyasının Yeni Bəyazid qəzasında, indiki Qaranlıq (Martuni) rayonundakı Karvansara kəndində gecələyərkən İngiltərə-İran müharibəsinin xəbəri köçənləri haqlayır. Köçənləri bu xəbər geri qayıtmağa sövq edir. Hamı qayıtmaq qərarına gəlsə də, Məşədi Hüseyn Ağbulaq kəndinə qayıtmaq istəmir. Qohum-əqraba geri qayıtdıqdan bir müddət sonra Məşədi Hüseyn başa düşür ki, təkbaşına köç etmək ona və ailəsinə çətin olacaq. Xeyli götür-qoydan sonra Məşədi Hüseyn təzəcə məskunlaşmağa başlamış Sədənağac kəndində ayaq saxlamağa qərar verir. Məşədi Hüseyn bu kənddə olmuşdu. Burada təzəcə məskunlaşmış Hacı Qərib və onun qardaşlarını tanıyırdı, aralarında qohumluq münasibəti də vardı. Bu kəndin füsunkar təbiəti, böyük ərazilər, mal-qara saxlamaq üçün geniş otlaq sahələri Məşədi Hüseyni Qəzvin səfərindən birdəfəlik daşındırır.

Məşədi Hüseynin ailəsi Göyçə gölü ətrafı ilə geri qayıdaraq Sədənağac kəndinə gəlirlər. Həmin vaxtlar kənddə cəmi 5-6 ev var idi.

Məşədi Hüseyn öz ailəsi ilə birlikdə Sədənağac kəndində yaşamağa qərar verdikdən sonra ev tikmək üçün yer seçir, əvvəlcə müvəqqəti olaraq alaçıq qurur, sonralar isə qısa bir vaxtda o dövrün ən münasib evlərindən hesab edilən "qara dam" tikməyə başlayır. Bu evi kənd camaatı yaxşı xatırlayır. Qəşəm İbrahim oğlunun (Məşədi Hüseynin kiçik oğlu İbrahimin kiçik oğlu) həyətində, bir tərəfdən Həsən Məsi oğlunun tövləsi və "evdamı", digər tərəfdən Qəşəm babanın tövləsi arasında saxlanılan bu ev 1988-ci ildə azərbaycanlı əhalinin deportasiyasına qədər tam yararlı vəziyyətdə dururdu və həmin evdən təsərrüfat işlərində istifadə edirdilər.

Beləliklə də, Məşədi Hüseyn ailəsi ilə birlikdə Sədənağac kənd sakini olur.

Göyçə mahalının 1842-ci ilə aid kameral təsvirində Ağbulaq kəndinin siyahısında göstərilmişdir: 1. Kəndxuda Məhərrəm Qasım oğlu 50 yaş; dörd oğlu var: Qasım (onun arvadı və üç oğlu; Hüseyn 12 yaş, Həsən 5 yaş; Abbas 2 yaş) (55, s.226).

Sədənağac kəndinin 1873-cü ildə tərtib edilmiş kameral təsvirində Məşədi Hüseyn göstərilmir, onun ailəsi isə12 saylı ailə kimi qeyd olunur (şəkil 31):

"Məhəmməd Məşədi Hüseyn oğlu 30 yaş, qardaşları: Rüstəm 25 yaş, Əli 22 yaş, İbrahim 15 yaş, Qasım 3 yaş. Əlavə qeyd olunmuşdur. Novobayazid uyezdinin Ağbulaq kəndindən gəliblər. Ailədə 5 kişi, 6 qadın var."

Yuxarıda qeyd olunan sənədə əsasən müəyyən edilmişdir:

- **Məşədi Hüseyn** Qasım oğlu (1819, Göyçə mahalı Ağbulaq kəndi) Ağbulaq kəndindən Nazlı ilə ailə qurub. Məhəmməd, Rüstəm, Əli, İbrahim və Qasım adlı beş oğlu, Səkinə, Fatma və Nisə adlı üç qızı olub. 1899-cu ildə vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Məhəmməd** Məşədi Hüseyn oglu (1843, Göyçə mahalı Ağbulaq kəndi) Əmrahlılardan Gözəl Kərbəlayı Əmrah qızı ilə ailə qurub. Yusif adlı oğlu, Nazlı, Şirin, Məsmə, Sultan və Zəhra adlı beş qızı olub. 1909-cu ildə Sədənağacda vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Yusif** Məhəmməd oğlu (1885, Sədənağac) iki dəfə evlənib. Birincidə Məşədi Hüseynlilərdən Səlvi İbrahim qızı (əmisi və xalası qızı) ilə ailə qurub. Bu nikahdan Səkinə adlı qızı, Şəmşid adlı oğlu olub. Səlvi gənc yaşlarında rəhmətə gedib. Yusif ikincidə Gədəbəyin Topular kəndindən Bəsdi Qəmbər qızı ilə ailə qurub. İsgəndər adlı oğlu, Güneş və Nigar adli iki qızı olub. 1961-ci ildə kənddə vəfat etdi.
- **Şəmşid** Yusif oğlu (1914, Sədənağac) 1941-ci ildə müharibəyə səfərbər olunub, müharibədən qayıtmayıb. Evli deyildi. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **İsgəndər** Yusif oğlu (1933, Sədənağac) Hüsənlilərdən Zümrüd Xamoy qızı ilə ailə qurub. Səxavət, Möhübbət, İmran adlı üç oğlu, Əntiqə, Sənakət, Şərqiyyə, Validə adlı dörd qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə gəldilər. 2002-ci ildə vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub. Zümrüd Xamoy qızı hazırda oğullarının ailəsi ilə birlikdə Gəncədə yaşayır.
- **Səxavət** İsgəndər oğlu (1960, Güney) mahalın Şişqaya kəndindən Lilpar Kərəm qızı ilə ailə qurmuşdur. Vüsal, Tural, Elmar adlı üç oğlu, Aytac adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Vüsal** Səxavət oğlu (1990, Gəncə) Afət İntiqam qızı ilə ailə qurub. Tunar adlı oğlu var.
- **Tural** Səxavət oğlu (1993, Gəncə).
- **Elmar** Səxavət oğlu (1995, Gəncə).
- **Aytac** Səxavət qızı (1997, Gəncə).

- **Möhübbət** İsgəndər oğlu (1965, Güney) Koluxlulardan öz xalası qızı Şükufə Ələddin qızı ilə ailə qurub. Rəqsanə, Türkən, Günel adlı üç qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Rəqsanə** Möhübbət qızı (1987, Güney) Şahid Aqil oğlu ilə ailə qurub. Ümid adlı oğlu var. Gəncədə yaşayırlar.
- **Türkən** Möhübbət qızı (1991, Gəncə).
- **Günel** Möhübbət qızı (1993, Gəncə).
- **İmran** İsgəndər oğlu (1967, Güney) Gəncədən Sahibə İsax qızı ilə ailə qurub. Fərid və Orxan adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Fərid** İmran oğlu (1993, Gəncə).
- **Orxan** İmran oğlu (1995, Gəncə).
- **Əntiqə** İsgəndər qızı (1954, Güney) Məşədi Hüseynlilərdən Səftər Məsi oğlu ilə ailə qurub. Ailə tərkibi haqqında məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkirin Könüllü kəndində məskunlaşdılar.
- **Sənakət** İsgəndər qızı (1959, Güney) Bəhmən Vəli oğlu ilə ailə qurub. Ailə tərkibi haqqında məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkirin Könüllü kəndində məskunlaşdılar.
- **Şərqiyyə** İsgəndər qızı (1963, Güney) Gədəbəydən Ələmdar Qədim oğlu ilə ailə qurub. Əfsanə, Əminə, Arzu adlı üç qızı var. Bakıda yaşayırlar.
- **Validə** İsgəndər qızı (1970, Güney) Şəmkirdən Zahid Gülməmməd oğlu ilə ailə qurub. Royal adlı oğlu, Nuranə adlı qızı var. Şəmkirin Könüllü kəndində yaşayırlar.
- **Səkinə** Yusif qızı (1921, Sədənağac) Ağbulaq kəndindən Kələşlilər tayfasının bir qolu olan və "Dəlləklilər" nəsli kimi tanınan Allahverən (Dımış) Yusif oğlu ilə ailə qurub. Məhəmməd və Hümbət adlı iki oğlu, Sona adlı qızı olub. 1962-ci ildə Allahverən (Dımış) Yusif oğlu ağır xəstəlikdən vəfat etdi. 1981-ci ilin ortalarında Səkinə övladları ilə birlikdə Şəmkir rayonunun Könüllü kəndinə köçdü. 2010-cu ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunmuşdur.
- **Günəş** Yusif qızı (1929, Sədənağac) Gədəbəyin Topular kəndindən Taplı Namaz oğlu ilə ailə qurub. Valeh, Tahir, Novruz, Abdulla adlı dörd oğlu, Diləfrüz və Sevinc adlı iki qızı olub. Sonralar ailəsi ilə birlikdə Mingəçevir şəhərinə köçmüşdür. Həyat yoldaşı Taplı 44 yaşında avtomobil qəzasında həlak olub. Günəş isə 2013-cü ildə Mingəçevirdə vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Nigar** Yusif qızı (1944, Güney) rayonun Şişqaya kəndindən Şiraslan Məhəmməd oğlu ilə ailə qurub. Azər, Nəbi, Zöhrab adlı üç oğlu, Zeynəb adlı qızı olub. 1968-ci ildə ailəliklə Şəmkirin Könüllü kəndinə köçüblər və orada yaşayırlar.

- **Zəhra** Məhəmməd qızı (1879, Sədənağac) Ağbulaq kəndindən Molla Həsənli tayfasından Kərbəlayı Qasımın oğlu Məhərrəmlə ailə qurub. Kərbəlayı Rza, Məcid, Qasım adlı üç oğlu, Xatın adlı qızı olub.1946-cı ildə Ağbulaq kəndində vəfat edib və orada kənd qəbiristanlığında dəfn olunub.
- **Məsmə** Məhəmməd qızı (1881, Sədənağac) Göyçə mahalının Ağbulaq kəndindən Kələşlilər tayfasından Məşədi Məmmədin kiçik oğlu Kərbəlayı Şabanın oğlu Yusiflə ailə qurmuşdur. Bəşir adında bir oğlu, Xanımzər və Zirvə adında iki qızı olub. 1949-cu ildə Ağbulaq kəndində vəfat edib və orada kənd qəbiristanlığında dəfn olunub.
- **Şirin** Məhəmməd qızı (1883, Sədənağac) Göyçənin Ağbulaq kəndindən Kələşlilər tayfasından olan Məşədi Hüseynin qardaşı Kərbəlayı Abbasın oğlu Məşədi Süleymana (əmisi oğlu) ərə gedib. Abbas adlı oğlu, Qədəmçə, Xeyrənsə, Sayalı və Şövkət adlı dörd qızı olub. 1951-ci ildə Ağbulaq kəndində vəfat edib və orada kənd qəbiristanlığında dəfn olunub.
- **Sultan** Məhəmməd qızı (1884, Sədənağac) Ağbulaq kəndindən Səfəralılar tayfasından Kərbəlayı Əlinin oğlu Məşədi Mamoyla ailə qurub. Əli və Balı adlı iki oğlu, Nisə adlı bir qızı olub. 1955-ci ildə Ağbulaq kəndində vəfat edib və orada kənd qəbiristanlığında dəfn olunub.
- **Nazlı** Məhəmməd qızı (1889, Sədənağac) Babalılardan Muxtar Səfər oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1975-ci ildə Güney kəndində rəhmətə gedib və kənd qəbiristanlığında dəfn olunub.
- **Rüstəm** Məşədi Hüseyn oğlu (1848, Ağbulaq) iki dəfə evlənib. Birincidə Ağbulaq kəndindən Ağababalar tayfasından Kərbəlayı Həsən oğlu Kərbəlayı Hüseynin adını bilmədiyimiz bir qızı ilə ailə qurub. Bu nikahdan Qoşunalı adlı oğlu, Simuzər adlı qızı olub. İkincidə Şahı ilə ailə qurub. Sarı, Dıvış, Oruc adlı üç oğlu olub. 1935-ci ildə kənddə vəfat edib.
- **Qoşunalı** Rüstəm oğlu (1879, Sədənağac) mahalın Kiçik Məzrə kəndindən Salatın Məşədi Mərdan qızı ilə ailə qurub. Bilal, Abbas adlı iki oğlu, Tuyqun, Atlas, Səfa adlı üç qızı olub. 1961-ci ildə kənddə vəfat edib.
- **Bilal** Qoşunalı oğlu (1930, Sədənağac) Koluxlulardan Zərifə Totulu qızı ilə ailə qurub. Ramiz, İsfahat adlı iki oğlu, Məmləkət, Maysara, Məryəm və Rəfiqə adlı dörd qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar. 2017-ci ildə vəfat etdi və Dədə Qorqud qəbiristanlığında dəfn olundu.

- **Ramiz** Bilal oğlu (1959, Güney) ali təsillidir. Hüsənlilərdən Sona Aslan qızı ilə ailə qurub. Anar adlı oğlu, Gülnarə və Dilarə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Anar** Ramiz oğlu (1989, Bakı) ali təsillidir. Gədəbəydən Bənövşə Valeh qızı lə ailə qurub. Ruslan adlı oğlu, Zərifə adlı qızı var.
- **Gülnarə** Ramiz qızı (1985, Güney) ali təhsillidir. Naxçıvandan Müşfiq Zahid oğlu ilə ailə qurub. Zahid adlı oğlu, Ləman və Zəhra adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Dilarə** Ramiz qızı (1986, Güney) ali təhsillidir. Tatlardan Yasin Alim oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Yasin 2016-cı ildə vəfat etdi. Ailə Şəmkirin Posanlı kəndində yaşayır.
- **İsfahat** Bilal oğlu (1970, Güney) ali təhsillidir. Tərtər rayonundan Cəmilə Əşrəf qızı ilə ailə qurub. Zaur, Nihad adlı iki oğlu, Aytəkin adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Zaur** İsfahat oğlu (1995, Bakı) ali məktəb tələbəsidir.
- **Nihad** İsfahat oğlu (2008, Bakı).
- **Aytəkin** İsfahat qızı (1998, Bakı) ali məktəb tələbəsidir.
- **Məmləkət** Bilal qızı (1961, Güney) Babalılardan Yolçu Mahmud oğlu ilə ailə qurub. Yolçu 1999-cu ildə Bakı metropolitenində baş verən terror aktının qurbanı olaraq dünyasını dəyişib. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Ailə Bakıda yaşayır.
- **Maysara** Bilal qızı (1965, Güney) Hacı Ramazanlılardan İbrahim Əmirxan oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Bakı şəhərində məskunlaşdılar.
- **Məryəm** Bilal qızı (1967, Güney) keçmiş Noyemberyan (Barana) rayonunun Ləmbəli kəndindən Ramiz Paşa oğlu ilə ailə qurub. Günay adlı qızı var. Bakıda yaşayırlar.
- **Rəfiqə** Bilal qızı (1974, Güney) Bakıdan Zahid Vahid oğlu ilə ailə qurub. Elnur və Samir adında iki oğlu var. Bakıda yaşayırlar.
- **Abbas** Qoşunalı oğlu (1934, Güney) əmisi qızı Pəri Dıvış qızı ilə ailə qurmuşdur. Əli adında oğlu, Səhərnaz, Bənzər və Aygün adında üç qızı var. 1976-cı ildə ailəliklə Gəncəyə köçdülər.
- **Əli** Abbas oğlu (1968, Güney) ali təhsil almışdı. Rayonun Aşağı Şorca kəndindən Şəfəq Mustafa qızı ilə ailə qurmuşdur. Fuad adlı oğlu, Salatın adlı qızı olub. 2010-cu ildə bədbəxt hadisə nəticəsində dünyasını dəyişdi və Gəncədə dəfn olundu.
- **Fuad** Əli oğlu (1994, Gəncə) ali təhsillidir.

- **Salatın** Əli qızı (1991, Gəncə) öz həmyerlisi Xaqani Mayis oğlu ilə ailə qurub. Umud adlı oğlu, Banu adlı qızı var. Gəncədə yaşayırlar.
- **Səhərnaz** Abbas qızı (1959, Güney) ali təhsillidir. Məşədi Hüseynlilərdən Əjdər Ramazan oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Gəncədə yaşayırlar.
- **Bənzər** Abbas qızı (1962, Güney) ali təhsillidir. Gəncədən Atin Həmid oğlu ilə ailə qurub. Nicat adlı oğlu, Nigar adlı qızı var. Gəncədə yaşayırlar.
- **Aygün** Abbas qızı (1970, Güney) ali təhsillidir. Məşədi Hüseynlilərdən Maksud Şamil oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Tuyqun** Qoşunalı qızı (1906, Sədənağac) iki dəfə ailə qurub. Birincidə mahalın Şişqaya kəndindən İsmayıl Qurban oğlu ilə ailə qurub. Mədinə, Məleykə, Qəmzə adlı üç qızı olub. İsmayıl Qurban oğlu Böyük Vətən müharibəsində həlak olub. İkinci dəfə Şişqaya kəndindən Aslan Ağaəli oğlu ilə ailə qurub. Məhəmməd, Mədət, Rəşid, Cümşüd adlı dörd oğlu olub. 1988-ci il deportasiyasından sonra Şəmkirin Günəşli kəndində məskunlaşdılar. 2002-ci ildə rəhmətə gedib və Şəmkir şəhər qəbiristanlığında dəfn olunub.
- **Atlas** Qoşunalı qızı (1925, Sədənağac) Samux rayonunun Eldar kəndindən Musa Musayev ilə ailə qurub. Valeh adlı oğlu, Sinəzər, Xalidə, Əsli, Sənəm adlı dörd qızı olub. 2013-cü ildə Samux rayonunun Eldar kəndində vəfat edib.
- **Səfa** Qoşunalı qızı (1941, Güney) Tatlardan Süleyman Bəylər oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar. 2017-ci ildə Gəncədə vəfat etdi.
- **Sarı** Rüstəm oğlu (1892, Sədənağac) gənc yaşlarında bədbəxt hadisə nəticəsində həyatını itirib və kənddə dəfn olunub.
- **Dıvış** Rüstəm oğlu (1910, Sədənağac) Babalılardan Qədəmçə Paşa qızı ilə ailə qurub. Cumalı, Şamil, Şəmistan, Rüstəm adlı dörd oğlu, Pəri adlı qızı olub. 1942-ci ildə müharibədə itkin düşüb. Böyük Vətən müharibəsi iştirakçılarının siyahısında əlavə məlumat verilir.
- **Cumalı** (1935, Güney) mahalın Kiçik Məzrə kəndindən Simi Fərman qızı ilə ailə qurub. Rəfail, Maksim, İlham adlı üç oğlu, Yeganə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Rəfail** Cumalı oğlu (1963, Güney) ali təhsillidir. Gəncədən Aygün Məhəddin qızı ilə ailə qurub. Cavid adlı oğlu, Ləman adlı qızı var.
- **Cavid** Rəfail oğlu (1964, Gəncə) Gəncədən Aytən Rasim qızı ilə ailə qurmuşdur.
- **Ləman** Rəfail qızı (1992, Gəncə) Gəncədən Əfqan Xosrov oğlu ilə ailə qurub.

- **Maksim** Cumalı oğlu (1964, Güney) ali təhsillidir. Məşədi Hüseynlilərdən Nailə Həsən qızı ilə ailə qurmuşdur. Kənan adlı oğlu, Gültəkin adlı qızı var. Gəncədə yaşayırlar.
- **Kənan** Maksim oğlu (1992, Gəncə) ali təhsillidir. Gəncədə yaşayır.
- **Gültəkin** Maksim qızı (1995, Gəncə) ali təhsillidir. Gəncədə yaşayır.
- **İlham** Cumalı oğlu (1968, Güney) ali təhsillidir. Gəncədən Leyla Rza qızı ilə ailə qurmuşdur. Cavad adlı oğlu, Nərgiz adlı qızı var. Gəncədə yaşayırlar.
- **Yeganə** Cumalı qızı (1970, Güney) Göygöl rayonunun Balçılı kəndindən Oktay Hümbət oğlu ilə ailə qurub. Rəşad adlı oğlu, Şəfa adlı qızı var. Gəncədə yaşayırlar.
- **Şamil** Dıvış oğlu (1937, Güney) ali təhsillidir. Tovuz rayonundan Adilə Musa qızı ilə ailə qurub. Maksud adlı oğlu, Kəmalə və Zahidə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Maksud** Şamil oğlu (1969, Güney) ali təhsillidir. Məşədi Hüseynlilərdən Aygün Abbas qızı (bibisi qızı) ilə ailə qurub. Tural və Orxan adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Tural** Maksud oğlu (1992, Bakı) ali təhsillidir.
- **Orxan** Maksud oğlu (1994, Bakı) ali təhsillidir.
- **Kəmalə** Şamil qızı (1965, Güney) Bakı şəhərindən Rauf Əhməd oğlu ilə ailə qurub. Nadir adlı oğlu, Pərvanə adlı qızı var. Bakıda yaşayırlar.
- **Zahidə** Şamil qızı (1975, Güney) Bakıdan Fərhad Paşa oğlu ilə ailə qurub. Fərid adlı oğlu, Pakizə adlı qızı var. Bakıda yaşayırlar.
- **Şəmistan** Dıvış oğlu (1939, Güney) Rüstəmuşağı nəslindən Mahizər Həsən qızı ilə ailə qurub. Rauf adlı oğlu, Rəna, Sahidə, Elmira adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar. 2017-ci ildə vəfat etdi və Gəncədə dəfn olundu.
- **Rauf** Şəmistan oğlu (1967, Güney) ali təhsillidir. Şəmkirdən Vəfa Nurəddin qızı ilə ailə qurub. Ruslan adlı oğlu, Mahizər adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Ruslan** Rauf oğlu (1997, Gəncə) ali məktəb tələbəsidir.
- **Mahizər** Rauf qızı (1999, Gəncə) ali məktəb tələbəsidir.
- **Rəna** Şəmistan qızı (1969, Güney) Mirzalılardan İzzət İsa oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Goranboyun Dəyirmanlar kəndində yaşayırlar.
- **Sahidə** Şəmistan qızı (1971, Güney) Gəncə şəhərindən Vüqar Yusif oğlu ilə ailə qurub.Talıbxan və Vüsal adlı iki oğlu var. Gəncədə yaşayırlar.

- **Elmira** Şəmistan qızı (1973, Güney) Gəncədən Elsevər Nəriman oğlu ilə ailə qurub. Nəriman adlı oğlu, Əfsanə adlı qızı var. Gəncədə yaşayırlar.
- **Rüstəm** Dıvış oğlu (1941, Güney) ali təhsillidir. Hüsənlilərdən Kimya Bayram qızı ilə ailə qurub. Əli adlı oğlu, Aida və Sahilə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Əli** Rüstəm oğlu (1978, Güney) Gəncə şəhərindən Kəmalə Telman qızı ilə ailə qurub. Rüstəm adlı oğlu, Səbinə adlı qızı var. Gəncədə yaşayırlar.
- **Aida** Rüstəm qızı (1974, Güney) valideynləri ilə birlikdə Gəncədə yaşayır.
- **Sahilə** Rüstəm qızı (1981, Güney) Gəncə şəhərindən Rasim Səfər oğlu ilə ailə qurmuşdur. Nicat adlı oğlu, Leyla adlı qızı var. Gəncədə yaşayırlar.
- **Pəri** Dıvış qızı (1934, Güney) əmisi oğlu Abbas Qoşunalı ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1976-cı ildə ailəliklə Gəncəyə köçdülər. 2008-ci ildə orada vəfat edib.
- **Oruc** Rüstəm oğlu (1905, Sədənağac) Tatlardan Lalaxanım Əsəd qızı ilə ailə qurub. Lətif və Vahid adlı iki oğlu var. 1983-cü ildə kənddə vəfat etdi. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.
- **Lətif** Oruc oğlu (1935, Güney) Hüsənlilərdən Xanımzər Tapdıq qızı ilə ailə qurub. Əli adlı oğlu, Laləzar adlı qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Əli** Lətif oğlu (1985, Güney) ali təhsillidir. Şəmkirdən Nəsibə Camal qızı ilə ailə qurub. İlkin, İlqar, Məftun adlı üç oğlu var. Ali məktəbi bitirdikdən sonra təyinatla Goranboyun Sarov kəndinə gəldi və hazırda ailəliklə orada yaşayırlar.
- **İlkin** Əli oğlu (1989, Sarov) Goranboydan Fəridə Yadigar qızı ilə ailə qurub. Dəniz adlı qızı var.
- **İlqar** Əli oğlu (1992, Sarov).
- **Məftun** Əli oğlu (1995, Sarov).
- **Laləzar** Lətif qızı (1962, Güney) Hüsənlilərdən Veyis Həmid oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəliklə Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Vahid** Oruc oğlu (1937, Güney) mahalın Subatan kəndindən Gilas Namaz qızı (Gilasın anası Tutu Qəhrəmanlılardan Qurbanın qızıdır) ilə ailə qurub. İlyas, Knyaz adlı iki oğlu, Zeynəb, Firuzə və Pünhan adlı üç qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar. 2000-ci ildə həyat yoldaşı Gilas Namaz qızı vəfat etdi.

- **İlyas** Vahid oğlu (1965, Güney) mahalın Qayabaşı kəndindən Kəmalə Yunis qızı ilə ailə qurub. Anar, Vüsal və Ramal adlı üç oğlu var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Vüsal** İlyas oğlu (1996, Yeni Göyçə).
- **Anar** İlyas oğlu (1997, Yeni Göyçə).
- **Ramal** İlyas oğlu (2012, Yeni Göyçə).
- **Knyaz** Vahid oğlu (1967, Güney) Gədəbəydən Sahilə Kazım qızı ilə ailə qurub. Amil, Arzu adlı iki oğlu, Aytən adlı qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar.
- **Arzu** Knyaz oğlu (1991, Gəncə) Gəncədən Aynur Rauf qızı ilə ailə qurub.
- **Amil** Knyaz oğlu (2003, Gəncə).
- **Aytən** Knyaz qızı (1994, Gəncə) Tatlardan Seyhun Nurəddin oğlu ilə ailə qurub. Ailə tərkibi haqqında məlumat həyat yoldaşının səhifəsində verilir. Gəncədə yaşayırlar.
- **Zeynəb** Vahid qızı (1964, Güney) 1988-ci il deportasiyasından sonra ailəliklə Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Firuzə** Vahid qızı (1969, Güney) mahalın Kəsəmən kəndindən Fəxrəddin Səlim oğlu ilə ailə qurub. Afiyəddin adlı oğlu, Könül və Leyla adlı iki qızı var. Tərtərin Seydimli kəndində yaşayır.
- **Pünhan** Vahid qızı (1971, Güney) Rüstəmuşağı nəslindən Novruz Həsən oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəliklə Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Simuzər** Rüstəm qızı (1882, Sədənağac) Hüsənlilərdən Məsmalı Rəhim oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1951-ci ildə Güneydə rəhmətə gedib.
- **Məşədi Əli** Məşədi Hüseyn oğlu (1851, Ağbulaq) Hüsənlilərdən Güləbatın Hüsən qızı ilə ailə qurub. Bu nikahdan Allahverdi (Çopur) və Bayram adlı iki oğlu, Sona, İmmi, Ağca adlı üç qızı olub. 1917-ci ildə Sədənağacda vəfat edib.
- **Allahverdi** (Çopur) Məşədi Əli oğlu (1869, Sədənağac) Həlimə ilə ailə qurub, övladı olmayıb. 1912-ci ildə kənddə vəfat edib.
- **Bayram** Məşədi Əli oğlu (1878, Sədənağac) 20 yaşında olanda silahı təmizləyərkən əlində açılıb və aldığı güllə yarasından keçinib. Evli deyilmiş.
- **Sona** Məşədi Əli qızı (1881, Sədənağac) Hüsənlilərdən Camal Məhəmməd oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1940-cı ildə kənddə vəfat edib.

- **İmmi** Məşədi Əli qızı (1884, Sədənağac) mahalın Çaxırlı kəndindən Kalvayı Abbasın nəvəsi Bayrameli Sultanəli oğluna ərə gedib. Gülalı və İbrahim adlı iki oğlu olub. Çaxırlı kəndində vəfat edib.
- **Ağca** Məşədi Əli qızı (1896, Sədənağac) Kərbəlayı Əmrahın nəvəsi Abbasəli Heydər oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1930-cu ildə vəfat edib və Qanlı kənd qəbiristanlığında dəfn olunub.
- **İbrahim** Məşədi Hüseyn oğlu (1853, mahalın Ağbulaq k.) Əmrahlılardan Salatın Kərbəlayı Əmrah qızı ilə ailə qurmuşdur. Nəsib, Məsi, Qəşəm adlı üç oğlu və Səlbi, Bəsdi, Həlimə və Balaca adlı dörd qızı olub. 27 iyun 1956-cı ildə kənddə vəfat edib. Salatın nənə 1951-ci ilin sentyabr ayında Eldarın (indiki Samux rayonu) Kəsəmən kəndində vəfat etmişdir.
- **Nəsib** İbrahim oğlu (1887, Sədənağac) üç dəfə evlənib. Birincidə 1913-cü ildə Gədəbəy rayonunun Arıqıran kəndindən Anaxanım Məmməd qızı ilə ailə qurmuşdur. Məhərrəm, Zaman, Duman və Ramazan adlı dörd oğlu, Tellər, Sultan, Məleykə, Gümüş adlı dörd qızı olmuşdur. Anaxanım nənə 1944-cü ildə vəfat etmişdir. İkincidə Hürü ilə ailə qurmuşdur, lakin az sonra ayrılmışlar. Üçüncüdə Göycə mahalının Şişqaya kəndindən bibisi qızı Nazlı Məşədi İbrahim qızı ilə ailə qurub. Bu evlilikdən də övladı olmayıb. 1979-cu ilin yanvar ayının 12-də 92 yaşında vəfat etmişdir.
- **Məhərrəm** Nəsib oğlu (1914, Sədənağac) Böyük Vətən müharibəsində iştirak etmiş, döyüşlərdə yaralandıqdan sonra müharibə əlili kimi ordudan tərxis olunmuşdur. İki dəfə evlənib. Birincidə Koluxlulardan Gülarə Nəsib qızı ilə ailə qurmuşdur. Qulu, Nəcəf, Rauf, Rza, Mübariz, Surəddin adlı altı oğlu, Səltənət və Elmira adli iki qızı olmuşdur. Gülarə 1962-ci ildə rəhmətə getmişdir. 1963-cü ildə Qanlı kəndindən Əmrahlılardan Gülnaz Allahverdi qızı ilə ailə qurmuşdur. Bu nikahdan övladı olmayıb. 1978-ci ilin fevral ayında uzun sürən ağır xəstəlikdən vəfat etmiş, kənd qəbiristanlığında dəfn olunmuşdur. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.
- **Qulu** Məhərrəm oğlu (1938, Güney) ali təhsillidir. Koluxlulardan Minə Yusif qızı ilə ailə qurmuşdur. Lutfiyar, Səhman, Heydər, Habil adlı dörd oğlu, Şəhla və Rəqsanə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Göygöl (keçmiş Xanlar) rayonunun Şəhriyar (keçmiş Mirzik) kəndində məskunlaşdı. 2012-ci ildə vəfat etdı. Göygöl şəhər qəbiristanlığında dəfn olunub.

- **Lütfiyar** Qulu oğlu (1959, Güney) ali təhsillidir. İqtisadiyyat üzrə fəlsəfə doktorudur. Hacı Ramazanlılardan Sara İsa qızı ilə ailə qurub. Orxan, Elxan adlı iki oğlu, Arzu adlı qızı var. Uzun müddət Rusiyada yaşadıqdan sonra 2011-ci ildə Azərbaycana qayıdıb, Bakıda yaşayır.
- **Orxan** Lütfiyar oğlu (1983, Güney) ali təhsillidir. İqtisadiyyat üzrə fəlsəfə doktorudur. Bakıdan Ülviyyə İlqar qızı ilə ailə qurub. Aliyə, İpək və İnci adlı üç qızı var. Ailəliklə İstanbulda yaşayırlar.
- **Elxan** Lütfiyar oğlu (1991, Gəncə) ali təhsillidir. Sumqayıtdan Nigar Vahid qızı ilə ailə qurub. Sara və Safiyə adlı ekiz qızları var. Bakıda yaşayırlar.
- **Arzu** Lütfiyar qızı (1988, RF Tıva Muxtar Respublikasının Kaa-Xem şəhəri) ali təhsillidir. Koluxlulardan Sadiq Yaşar oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Səhman** Qulu oğlu (1963, Güney) milliyyətcə rus Yelena Viktorovna ilə ailə qurub. Ruslan adlı oğlu, Nadejda adlı qızı var. Rusiyanın Xabarovsk şəhərində yaşayırlar.
- **Ruslan** Səhman oğlu (1988, Xabarovsk) evlidir. Mariya adlı qızı var.
- **Nadejda** Səhman qızı (1986, Xabarovsk) ailəlidir.
- **Heydər** Qulu oğlu (1967, Güney) Hüsənlilərdən Zəminə Lətif qızı ilə ailə qurmuş, sonra ayrılmışlar. Tural, Qulu adlı iki oğlu, Hüsniyyə adlı qızı var. Deportasiyadan sonra Göygöl rayonunun Mirzik (indiki Şəhriyar) kəndinə köçmüşdür. Sonralar Rusiyanın Velikiy Novqorod şəhərinə köçmüş və hazırda orada yaşayır.
- **Tural** Heydər oğlu (2001, Şəhriyar) Gəncədə yaşayır.
- **Hüsniyyə** Heydər qızı (1988, Şəhriyar) Gəncədə anasının yanında yaşayır.
- **Habil** Qulu oğlu (1976, Güney) Məşədi Hüseynlilərdən Svetlana Nəcəf qızı ilə (əmisi qızı) ailə qurub. Cəlal və Ömər adlı iki oğlu, Jasmin adlı qızı var. Deportasiyadan sonra Göygöl rayonunun Şəhriyar kəndində məskunlaşdılar. Sonralar Rusiyanın Velikiy Novqorod şəhərinə köçdülər.
- **Şəhla** Qulu qızı (1969, Güney) Şuşa şəhərindən Müşfiq İsa oğlu ilə ailə qurmuşdur. Röyal adlı oğlu var. Ailəliklə Zaqatala şəhərində yaşayırlar.
- **Rəqsanə** Qulu qızı (1972, Güney) Gürcüstanın Dmanisi rayonunun Yırğançay kəndindən Məhəmməd Əhməd oğlu ilə ailə qurub. Rauf, Əhməd adlı iki oğlu, Yeganə adlı qızı var. 2018-ci ildə Məhəmməd uzun sürən ürək xəstəliyindən dünyasını dəyişdi və Şəhriyar kənd qəbiristanlığında dəfn olundu. Ailəsi Göygöl rayonunun Şəhriyar kəndində yaşayır.
- **Nəcəf** Məhərrəm oğlu (1941, Güney) ali təhsilli idi. Şamaxı rayonunun Hilmilli kəndində yaşayırdı. Həmin rayonun Ağdərə kəndindən Şəfiqə Əliağa qızı ilə

ailə qurmuşdu. İlqar və Vüqar adlı iki oğlu, Gülarə, İradə və Svetlana adlı üç qızı olub. 1985-ci ildə vəfat etdi və Güneydə dəfn olundu.

- **İlqar** Nəcəf oğlu (1973, Şamaxı r. Hilmilli k.) ali təhsilli hərbçidir. Döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə Ulu öndər Heydər Əliyev şəxsən ona "Hərbi Xidmətlərə Görə" medalı təqdim etmişdir. Bundan başqa ölkənin digər medalları ilə təltif olunmuşdur. Göyçənin Kiçik Məzrə kəndindən Cəmilə Bəhmən qızı ilə ailə qurub. Nəcəf və Fərid adli iki oğlu var. Nəcəf Türkiyədə universitetdə, Fərid isə Bakıda orta məktəbdə təhsil alır. Hazırda polkovnik-leytenant rütbəsində hərbi xidmətini davam etdirir. Bakıda yaşayırlar.
- **Vüqar** Nəcəf oğlu (1981) Hilmillidə yaşayır.
- **Gülarə** Nəcəf qızı (1975, Hilmilli) Şamaxıdan Qəni ilə ailə qurmuşdur. Nisə və Fatimə adlı iki qızı var. Hazırda Sumqayıtda yaşayırlar.
- **İradə** Nəcəf qızı (1974, Hilmilli) Göygöl şəhərindən Müşfiq Bəhmən oğlu (bibisi Elmiranın oğlu) ilə ailə qurub. Lamiyə adlı qızı, Elvin adlı oğlu var. Lamiyə ali məktəb tələbəsidir. Göygöldə yaşayırlar.
- **Svetlana** Nəcəf qızı (1982, Hilmilli) əmisi oğlu Habil Qulu oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Rusiyanın Novqorod vilayətində yaşayırlar.
- **Rauf** Məhərrəm oğlu (1950, Güney) ali təhsilli idi. Qərbi Azərbaycanın Masis rayonunun Şollu kəndindən Qərənfil Cəfər qızı ilə ailə qurmuşdur. Emin adlı oğlu, Nailə adlı qızı var. 1994-cü ildə Bakı şəhərində avtomobil qəzasında həlak oldu. Bakıda dəfn olunub.
- **Emin** Rauf oğlu (1981, Bakı) ali təhsillidir. Bakıda yaşayır.
- **Nailə** Rauf qızı (1982, Bakı) ali təhsillidir. Bakıda yaşayır.
- **Rza** Məhərrəm oğlu (1950, Güney) Göyçə mahalının Toxluca kəndindən Saniyə Səfər qızı ilə ailə qurub. Faiq adında bir oğlu, Afət və Ramilə adında iki qızı var. 1988-ci il deportasiyasından sonra Bakıya köçmüşdür. 2000-ci ildə həyat yoldaşı Saniyə dünyasını dəyişdi və Badamdar qəbiristanlığında dəfn olundu. Rza Bakıda yaşayır.
- **Faiq** Rza oğlu (1974, Güney) ali təhsillidir. Gədəbəyin Saratovka kəndindən Ülviyyə Köçəri qızı ilə ailə qurub. Ayxan adlı oğlu, Ayan və Adan adlı ekiz qızları var. Moldovada yaşayırlar.
- **Afət** Rza qızı (1980, Güney) ali təhsillidir. Rayonun Pəmbək kəndindən Sarxan Nəcəf oğlu ilə ailə qurub, Orxan və Fərid adlı iki oğlu var. Bakıda yaşayırlar.

- **Ramilə** Rza qızı (1983, Güney) ali təhsillidir. Babalılardan Cavanşir Fidayıl oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Mübariz** Məhərrəm oğlu (1955, Güney) rayonun Qanlı kəndindən Əmrahlılardan Namizər Həsən qızı ilə ailə qurub. Eldəniz, Eltun, Elnur adlı üç oğlu var. 1984-cü ildə Xanlar (indiki Göygöl) rayonunun indiki Göyçəkənd kəndinə köçüb gəlmişdi. Bir neçə il orada yaşadıqdan sonra Bakı şəhərində məskunlaşdı.
- **Eldəniz** Mübariz oğlu (1979, Güney) Krasnoselo rayonunun Ağbulaq kəndindən Şəhla Pünhan qızı ilə ailə qurub. Məhəmməd adlı oğlu, Arzu və Fidan adında iki qızı var. Bakıda yaşayırlar.
- **Eltun** Mübariz oğlu (1980, Güney) ali təhsillidir. Gəncə şəhərindən Asudə Cavanşir qızı ilə ailə qurub. Ömər adlı oğlu, Xədicə adlı qızı var. Bakıda yaşayırlar.
- **Elnur** Mübariz oğlu (1981, Güney) ailəlidir. Həyat yoldaşı Kəlbəcərdən Şərqiyə Səfər qızıdır.
- **Surəddin** Məhərrəm oğlu (1959, Güney) ailəlidir. Həyat yoldaşı milliyyətcə rus Yelenadır. Məhərrəm adında oğlu var. Rusiyanın Perm şəhərində yaşayırlar.
- **Məhərrəm** Surəddin oğlunun (1989, Perm) iki ali təhsili var. Permdə yaşayır.
- **Səltənət** Məhərrəm qızı (1947, Güney) Babalılardan Əli Qasım oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar. 2019-cu ildə vəfat etdi və Gəncə şəhəri İmamzadə kompleksinin qəbiristanlığında dəfn olundu.
- **Elmira** Məhərrəm qızı (1952, Güney) rayonun Kiçik Məzrə kəndindən Bəhmən İsgəndər oğlu (xalası Məleykənin oğlu) ilə ailə qurub. Müşfiq, Alik, Rəşad adlı üç oğlu, Cəmilə adlı qızı var. 1980-ci ildə ailəliklə Göygöl şəhərinə köçdülər, hazırda orada yaşayırlar. 2016-cı ilin noyabr ayında Bəhmən Göygöl şəhərində vəfat etdi və orada dəfn olundu.
- **Zaman** Nəsib oğlu (1916, Sədənağac) ali təhsillidir. Şamaxı şəhərindən Nurcahan Əbdül qızı ilə ailə qurub. Kamran və Umud adlı iki oğlu və Məhluqə aqlı qızı var. Böyük Vətən müharibəsi iştirakçısıdır. Əsgəri təltifatları vardı. 1998-ci ildə Bakıya köçdü, 2000-ci ildə vəfat etdi və Bakıda dəfn olundu. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.
- **Umud** Zaman oğlu (1957, Şamaxı) ali təhsillidir. Milliyyətcə tatar Zeynəb Niyaz qızı ilə ailə qurmuşdur. Leyla və Aysel adında iki qızı var. Bakıda yaşayırlar.
- **Leyla** Umud qızı (1987, Bakı) ali təhsillidir. Bakı şəhərindən Fuad Muxtar oğlu ilə ailə qurub. Ömər adlı oğlu, Ayan və Aylin adlı iki azyaşlı qızı var. Bakıda yaşayırlar.

- **Aysel** Umud qızı (1990, Bakı) ali təhsillidir. Füzuli rayonundan Rüfət Əliqismət oğlu ilə ailə qurub. Riad adlı oğlu var. Ailəliklə Almaniyada yaşayırlar.
- **Kamran** Zaman oğlu (1961, Şamaxı) ali təhsilli idi. Şamaxıdan Kübra Əli qızı ilə ailə qurub. Zaman adlı oğlu, Nurcahan adlı qızı var. 1998-ci ildə Rusiyanın Novqorod Vilayətinin Malaya Vişera şəhərində bədbəxt hadisə nəticəsində həlak olmuşdur. Bakıda dəfn olunmuşdur.
- **Zaman** Kamran oğlu (1991, Novqorod Vilayətinin Malaya Vişera ş.) Bakıda yaşayır.
- **Nurcahan** Kamran qızı (1993, Novqorod Vilayətinin Malaya Vişera ş.) ali təhsillidir. Bakıda yaşayır.
- **Məhluqə** Zaman qızı (1959, Şamaxı) Şəmkir rayonunun Seyfəlli kəndindən Abbas İbrahim oğlu ilə ailə qurub. İbrahim adlı oğlu, Lamiyə adlı qızı var. Şəmkirin Seyfəlli kəndində yaşayırlar.
- **Duman** Nəsib oğlu (1930, Sədənağac) Göyçənin Cil kəndindən Dilbər Həmid qızı ilə ailə qurub. Xaqani və Rövşən adında iki oğlu, Tərlan, Məhbubə, Südabə, Təranə adlı dörd qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdı. 2010-cu ildə Gəncədə vəfat edib.
- **Xaqani** Duman oğlu (1962, Güney) orta təhsillidir. Mahalın Daşkənd kəndindən Südabə Şuriyyə qızı ilə ailə qurub. Hüseyn adlı oğlu, Kəmalə və Dilbər adlı iki qızı var. Abşeronun Saray qəsəbəsində yaşayır.
- **Hüseyn** Xaqani oğlu (2003, Saray).
- **Kəmalə** Xaqani qızı (1990, Sumqayıt) Zamir Aydın oğlu ilə ailə qurub. Aydın adlı oğlu, Fatimə adlı qızı var. Saray qəsəbəsində yaşayırlar.
- **Dilbər** Xaqani qızı (1994, Sumqayıt) mahalın Cil kəndindən Nuru Sultanəli oğlu ilə ailə qurub. Nuray və Alin adlı iki qızı var. Sumqayıtda yaşayırlar.
- **Rövşən** Duman oğlu (1975, Güney) orta məktəbi Güneydə bitirdi. 1994-cü ildə hərbi xidmətə çağırıldı. Beyləqan uğrunda gedən döyüşlərdə şəhid oldu. Gəncədə Şəhidlər Xiyabanında dəfn olunub.
- **Tərlan** Duman qızı (1964, Güney) mahalın Pəmbək kəndindən Afiq Ədil oğlu ilə ailə qurub. Anar və Aydın adlı iki oğlu, Aytən adlı qızı var. Afiq 2010-cu ildə rəhmətə gedib. Ailə Göygöl rayonunun Çaykənd kəndində yaşayır.
- **Məhbubə** Duman qızı (1967, Güney) Sumqayıtdan Fəzail Əhməd oğlu ilə ailə qurub. Elvin və Həzi adlı iki oğlu var. Sumqayıtda yaşayırlar.
- **Südabə** Duman qızının (1969, Güney) Təhminə adlı qızı var. Gəncədə yaşayırlar.

- **Tərane** Duman qızı (1978, Güney) Gəncədən Rövşən Abbas oğlu ilə ailə qurub. Pərviz adlı oğlu, Aysel adlı qızı var. Gəncədə yaşayırlar.
- **Ramazan** Nəsib oğlu (1933, Sədənağac) Cəkmələlərdən Müşavirə Ziyad qızı ilə ailə qurub. Əjdər, Asif adında iki oğlu, Mahur və Pəri adında iki qızı var. 1974-cü ildə avtomobil qəzasında həlak oldu. Kənddə dəfn olunub.
- **Əjdər** Ramazan oğlu (1960, Güney) ali təhsillidir. Məşədi Hüseynlilərdən Səhərnaz Abbas qızı ilə ailə qurub. Ülvi adlı oğlu, Ülviyyə adlı qızı var. Gəncədə yaşayırlar.
- **Ülvi** Əjdər oğlu (1983, Gəncə) ali təhsillidir. Bakıdan Aynur Hüseyn qızı ilə ailə qurub. Raul adlı oğlu, Aytac, Aysu adlı iki qızı var. Gəncədə yaşayırlar.
- **Ülviyyə** Əjdər qızı (1982, Gəncə) ali təhsillidir. Məşədi Hüseynlilərdən Natiq Oruc oğlu ilə ailə qurub. Fərid adlı oğlu, Fidan adlı qızı var. Gəncədə yaşayırlar.
- **Asif** Ramazan oğlu (1969, Güney) ali təhsillidir. Çəkmələlərdən Əfsanə Litvin qızı ilə ailə qurub. Emil, Yunis adli iki oğlu və Aytən adlı qızı var. Bakıda yaşayırlar.
- **Emil** Asif oğlu (2000, Gəncə) Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələr fakültəsinin tələbəsidir.
- **Yunis** Asif oğlu (2007, Gəncə) məktəblidir.
- **Aytən** Asif qızı (2002, Gəncə) məktəblidir.
- **Mahur** Ramazan qızı (1962, Güney) Qəhrəmanlılardan Şakir İslam oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir.1980-ci ilin əvvəllərində Bakı şəhərinə köçmüşlər, hazırda şəhərdə yaşayırlar.
- **Pəri** Ramazan qızı (Güney) rayonun Kiçik Məzrə kəndindən İlqar Əbdülüsüm oğlu ilə ailə qurub. İlham adlı oğlu var. Gəncədə yaşayırlar.
- **Tellər** Nəsib qızı (1920, Sədənağac) mahalın Yarpızlı kəndindən Şahbaz Paşa oğlu ilə ailə qurub. Valeh, Köçəri, Nüsrət adlı üç oğlu, Valya, Zemfira adlı iki qızı olub. 1948-ci il deportasiyasında Gədəbəyin Saratovka kəndində məskunlaşıblar. 2003-cü ildə Saratovkada vəfat edib.
- **Sultan** Nəsib qızı (1922, Sədənağac) Koluxlulardan Əli Qara oğlu ilə ailə qurmuşdur. 1946-cı ildə doğuş zamanı həyatını itirib.
- **Məleykə** Nəsib qızı (1929, Sədənağac) Koluxlulardan Məmmədxan Nəsib oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1965-ci ildə kənddə vaxtsız vəfat etdi.
- **Gümüş** Nəsib qızı (1937, Güney) Hacı Ramazanlılardan İsə Rəhim oğlu ilə ailə qurub. 1988-ci ildə deportasiyadan sonra Gəncə şəhərində məskunlaşdılar. Bir

neçə il orada yaşadıqdan sonra Bakıya köçdülər. 2007-ci ildə İsə Rəhim oğlu vəfat etdi. Hazırda oğlu Yasinin ailəsi ilə birlikdə Bakıda yaşayır. Ailə tərkibi haqda əlavə məlumat həyat yoldaşının səhifəsində verilir.


- **Məsi** İbrahim oğlu (1890, Sədənağac) iki dəfə evlənib. Birincidə Əmrahlılardan Fatma Heydər qızı ilə ailə qurmuşdur. Hüseyn, Həsən, Şahbaz, Eyvaz, Əloy, Səftər adlı altı oğlu olub. Fatma 1945-ci ildə vaxtsız vəfat edib. İkincidə Ağbulaq kəndindən Ağabbalar tayfasından Kərbəlayı Əsəd oğlu Nəcəfin qızı Dilbər ilə ailə qurub. Oruc, Fərhad, Nizami adlı üç oğlu olub. 1955-ci ildə kənddə vəfat edib.
- **Hüseyn** Məsi oğlu (1926, Sədənağac) Əmirlilərdən Bəsdi Ələkbər qızı ilə ailə qurub. Dəmir, Üzeyir, Rasim adlı üç oğlu, Həmidə, Cəmilə, Fəridə adlı üç qızı olub. Ağır revmatizm xəstəliyindən 1974-cü ildə Güney kəndində vəfat edib.
- **Dəmir** Hüseyn oğlu (1952, Güney) ali təhsillidir. Tatlardan Minayə Qədir qızı ilə ailə qurub. Fuad adlı oğlu, Əfsanə adlı qızı var. Bakıda yaşayırlar.
- **Fuad** Dəmir oğlu (1982, Güney) ali təhsillidir. Həyat yoldaşı Aydan Həqiqət qızı Salyan şəhərindəndir. Rinat və Raul adlı iki oğlu var.
- **Əfsanə** Dəmir qızı (1984, Güney) həyat yoldaşı Ayaz Orucəli oğlu Pəmbəklidir. Nihat adlı oğlu, Aytac adlı qızı var. Bakıda yaşayırlar.
- **Üzeyir** Hüseyn oğlu (1960, Güney) həyat yoldaşı Dərə kəndindən Şəhla İslam qızıdır. Hər ikisi ali təhsillidir. Röyal, Tural adlı ekiz oğlu, Aynur adlı qızı var. Deportasiyadan sonra Bakıda məskunlaşdılar.
- **Röyal** Üzeyir oğlu (1996, Bakı) ali məktəb tələbəsidir.
- **Tural** Üzeyir oğlu (1996, Bakı) ali məktəb tələbəsidir.
- **Aynur** Üzeyir qızı (1990, Bakı) ali məktəb tələbəsidir.
- **Rasim** Hüseyn oğlu (1965, Güney) ali təhsillidir. Texnika elmləri üzrə fəlsəfə doktorudur. Bakıdan Leyla Abbas qızı ilə ailə qurub. Hüseyn və Cavidan adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Hüseyn** Rasim oğlu (1996, Bakı) ali məktəb tələbəsidir.
- **Cavidan** Rasim oğlu (1999, Bakı) ali məktəb tələbəsidir.
- **Həmidə** Hüseyn qızı (1953, Güney) Hüsənlilərdən Şirvan Həmid oğlu ilə ailə qurub. Habil və Yalçın adlı iki oğlu var. Deportasiyadan sonra Bakı şəhərində məskunlaşdılar. Ailəsi haqda başqa məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Cəmilə** Hüseyn qızı (1955, Güney) mahalın Babacan kəndindən Mehman Qurban oğlu ilə ailə qurub. Xavər və Esmira adlı iki qızı var. Bakıda yaşayırlar.

- **Fəridə** Hüseyn qızı (1967, Güney) mahalın Pəmbək kəndindən İsbət Novruz oğlu ilə ailə qurub. Elşən adlı oğlu, Nisa adlı qızı var. Bakıda yaşayırlar.
- **Həsən** Məsi oğlu (1928, Sədənağac) mahalın Ağbulaq kəndindən Səmaya Qara qızı ilə ailə qurub. Sabir və Vaqif adlı iki oğlu, Namizər, Kifayət, Sücayət, Zemfira, Lətafət, Nailə adlı altı qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar. 2016-cı ildə orada vəfat edib və Goranboyun Dəyirmanlar kəndində dəfn olunub.
- **Sabir** Həsən oğlu (1960, Güney) 1974-cü ildə Göyçə gölündə boğularaq həlak olmuşdur.
- **Vaqif** Həsən oğlu (1962, Güney) Şəki şəhərindən Sofilə Nəriman qızı liə ailə qurub. Adil adlı oğlu, Xalidə, Çinarə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar.
- **Adil** Vaqif oğlu (1987, Güney) Gəncədən Susanna Lorik qızı ilə ailə qurmuşdur. Bakıda yaşayırlar.
- **Xalidə** Vaqif qızı (1985, Güney) Pəmbək kəndindən Zəfər Ağamalı oğlu ilə ailə qurub. Səma adlı qızı, Turan adlı oğlu var. Bakıda yaşayırlar.
- **Çinarə** Vaqif qızı (1988, Güney) valideynləri ilə Gəncədə yaşayır.
- **Şahbaz** Məsi oğlu (1930, Sədənağac) Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil alırdı. Əlil olduğuna görə hər gün dərsə gedib-gələ bilmirdi. Təhsilini ekstern yolu ilə davam etdirirdi, bütün imtahanları əla qiymətlərlə verirdi. 1964-cü ildə əlil arabasında imtahana gedərkən avtomobil ilə toqquşdu. Aldığı xəsarətdən dünyasını dəyişdi. Kənddə dəfn olundu.
- **Eyvaz** Məsi oğlu (1932, Sədənağac) 1945-ci ildə erkən yaşda vəfat edib.
- **Əli** (Əloy) Məsi oğlu (1934, Güney) 1945-ci ildə sətəlcəmdən vəfat edib.
- **Səftər** Məsi oğlu (1941, Güney) Məşədi Hüseynlilərdən Əntiqə İsgəndər qızı ilə ailə qurub. Yasin və Taleh adlı iki oğlu, Esmira adlı qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Könüllü kəndində məskunlaşdılar.
- **Yasin** Səftər oğlu (1977, Güney) Gəncədən Leyla Teyyub qızı ilə ailə qurmuşdur. Rasim və Sənan adlı iki oğlu var. Şəmkirin Könüllü kəndində yaşayır.
- **Rasim** Yasin oğlu (2000, Könüllü) ali məktəb tələbəsidir.
- **Sənan** Yasin oğlu (2002, Könüllü).
- **Taleh** Səftər oğlu (1984, Könüllü) Şəmkirin Əmirvarlar kəndindən Zülfiyyə Telman qızı ilə ailə qurub. İsgəndər adlı oğlu var.

- **Esmira** Səftər qızı (1975, Güney) Babalılardan Hüseyn Abbasəli oğlu ilə ailə qurub. Şəmkirin Könüllü kəndində yaşayırlar. Ailə tərkibi haqqında məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Oruc** Məsi oğlu (1947, Güney) ali təhsillidir. Göygöl rayonunun Balçılı kəndindən Nübubət Abbas qızı ilə ailə qurmuşdur. Namiq, Arif adlı iki oğlu, Sevda, Almaz adlı iki qızı var. Gəncədə yaşayırlar.
- **Namiq** Oruc oğlu (1980, Gəncə) ali təhsillidir. Məşədi Hüseynlilərdən Ülviyyə Əjdər qızı ilə ailə qurmuşdur. Fərid adlı oğlu, Fidan adlı qızı var. Gəncədə yaşayırlar.
- **Arif** Oruc oğlu (1982, Gəncə) ali təhsillidir. Həyat yoldaşı Aynur İsmayıl qızı Zərdablıdır. Əli adlı oğlu, Nərmin adlı qızı var.
- **Sevda** Oruc qızı (1974, Gəncə) mahalın Ağbulaq kəndindən Mahir Yunis oğlu ilə ailə qurmuşdur. Yunis adlı oğlu, Səadət və Mətanət adlı iki qızı var. Gəncədə yaşayırlar.
- **Almaz** Oruc qızı (1978, Gəncə) Göygölün Dozular kəndindən Etibar Həsrət oğlu ilə ailə qurmuşdur. Mətin adlı oğlu, Ləman adlı qızı var. Gəncədə yaşayırlar.
- **Fərhad** Məsi oğlu (1950, Güney) mahalın Ağbulaq kəndindən Ülkər Yunis qızı ilə ailə qurmuşdur. Rəşad və Samir adlı iki oğlu var.
- **Rəşad** Fərhad oğlu (1977, Gəncə) Vüsalə Firuddin qızı ilə ailə qurmuşdur. Vüsal və Xəyal adlı iki oğlu var.
- **Xəyal** Rəşad oğlu (1998, Gəncə).
- **Vüsal** Rəşad oğlu (2000, Gəncə).
- **Samir** Fərhad oğlu (Gəncə) Ayşən Mikayıl qızı ilə ailə qurmuşdur. Fərhad adlı oğlu, Arzu adlı qızı var.
- **Nizami** Məsi oğlu (1953, Güney) Göygölün Balçılı kəndindən Kifayət Həsən qızı ilə ailə qurmuşdur. Mehriban adlı qızı var. Gəncədə yaşayırlar.
- **Mehriban** Nizami qızı (1980, Gəncə) Göygöl rayonunun Balçılı kəndindən Pərviz Müzadil oğlu ilə ailə qurub. Rəsul adlı oğlu, Mədinə və Zəhra adli iki qızı var. Gəncədə yaşayırlar.
- **Qəşəm** İbrahim oğlu (1902, Sədənağac) iki dəfə evlənib. Birincidə Koluxlulardan Sayalı Mehdi qızı ilə ailə qurub. Bu nikahdan övladı olmayıb. Sayalı gənc yaşlarında dünyasını dəyişib. İkincidə Rüstəmuşağı nəslindən Tümən Sayad qızı ilə ailə qurub. İbad, Cavad adlı iki oğlu, Savad, Minayə adlı iki qızı olub. 1988-ci il deportasiyasından sonra Göygöl rayonunun Çaykənd kəndində məskunlaşdı. 2005-ci ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.

- **İbad** Qəşəm oğlu (1938, Güney) Əmrahlılardan Ziyatel Mahmud qızı ilə ailə qurmuşdur. Aydın adlı oğlu, Rəna, Şirin, Ülviyyə adlı üç qızı olub. 1984-cü ildə Xanlar rayonunun Əbləh kəndinə (Göygöl rayonu Göyçəkənd) köçdü. 2008-ci ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu. Həyat yoldaşı Ziyatel Mahmud qızı oğlu Aydının ailəsi ilə birlikdə Göyçəkənddə yaşayır.
- **Aydın** İbad oğlu (1967, Güney) ali təhsilli idi. 1984-cü ildə valideynləri ilə birlikdə Göygöl (Xanlar) rayonunun Göyçəkənd kəndinə köçmüşdü. Tərtər rayonunun Seydimli kəndindən Aygün Əvəz qızı ilə ailə qurub. Hüseyn və Tural adlı iki oğlu olub. 2005-ci ildə Göyçəkənddə vəfat etdi.
- **Hüseyn** Aydın oğlu (1996, Göyçəkənd) ali məktəb tələbəsidir.
- **Tural** Aydın oğlu (1998, Göyçəkənd) ali məktəb tələbəsidir.
- **Rəna** İbad qızı (1963, Güney) ali təhsillidir. Əsləndən rayonun İnəkdağı kəndindən olan Bayram Mukuş oğlu ilə ailə qurub. Göygölün Göyçəkənd kəndində yaşayırlar.
- **Şirin** İbad qızı (1966, Güney) ali təhsilli idi. 1993-cü ildə vaxtsız vəfat etdi və Göygöl rayonunun Göyçəkənd kəndində dəfn olundu.
- **Ülviyyə** İbad qızı (1973, Güney) rayonun Qoşabulaq kəndindən Çingiz Fəxrəddin oğlu ilə ailə qurub. Sərxan adlı oğlu, Könül adlı qızı var. Bakıda yaşayırlar.
- **Cavad** Qəşəm oğlu (1945, Güney) ali təhsilli idi. Rayonun Qanlı kəndindən Mariya İsa qızı ilə ailə qurmuşdu. Namiq və David adlı iki oğlu var. Ali təhsil aldıqdan sonra Bakı şəhərində müxtəlif məsul vəzifələrdə çalışmışdır. 2018-ci ildə uzun sürən ağır xəstəlikdən vəfat etdi və Dədə Qorqud qəbiristanlığında dəfn olundu.
- **Namiq** Cavad oğlu (1980, Bakı) ali təhsillidir. Bakıdan Sevinc Hüseyn qızı ilə ailə qurmuşdur. Murad adlı oğlu, Nərmin adlı qızı var. Bakıda yaşayırlar.
- **David** Cavad oğlu (1983, Bakı) ali təhsillidir. Gəncədən Könül Nəsrəddin qızı ilə ailə qurub. Araz, Rüstəm adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Savad** Qəşəm qızı (1948, Güney) Krasnoselo rayonunun Cil kəndindən İsmayıl (Mahmud) Əli oğlu ilə ailə qurmuşdur. Azər adlı oğlu, Arzu adlı qızı olub. 1972-ci ildə vəfat etdi və Cil kənd qəbiristanlığında dəfn olundu. 2007-ci ildə qızı Arzu dünyasını dəyişdi.
- **Minayə** Qəşəm qızı (1950, Güney) Əmrahlılardan Eldar Mahmud oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1984-cü ildə Göygöl (Xanlar) rayonunun Göyçəkənd kəndinə köçdü, hazırda orada yaşayırlar.

- **Səlvi** İbrahim qızı (1897, Sədənağac) Məşədi Hüseynlilərdən Yusif Məhəmməd oğlu (əmisi oğlu və xalası oğlu) ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Həlimə** İbrahim qızı (1901, Sədənağac) Qəhrəmanlılardan Hüseyn Alı oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1951-ci ildə kənddə vəfat edib.
- **Bəsdi** İbrahim qızı (1903, Sədənağac) Gədəbəyin Arıqıran kəndindən Hüseyn Cəlil oğlu ilə ailə qurub. Məhər, Hümbət, Tağı, Duman, Qulu adlı beş oğlu olub. 1992-ci ildə Arıqıranda vəfat edib.
- **Balaca** İbrahim qızı (1905, Sədənağac) iki dəfə evlənib. Birincidə Mirzalılardan Abduləli Məmmədvəli oğlu ilə ailə qurub. Övlad olmadığına görə ayrılıblar. İkincidə Hüsənlilərdən Tapdıq Camal oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1982-ci ildə kənddə vəfat edib.
- **Məşədi** Qasım Məşədi Hüseyn oğlu (1870, Sədənağac) Gədəbəyin Arısu kəndindən Məleykə ilə ailə qurub. Mürəstə adlı bir qızı olub. 1898-ci ildə kənddə vəfat edib.
- **Mürəstə** Məşədi Qasım qızı (1893, Sədənağac) Gəncədən Bayramla ailə qurub. Hüseyn adlı oğlu, Çərkəz, Zibeydə, Tamara, Bəsdi, Tamaşa adlı beş qızı olub. 1952-ci ildə Gədəbəyin Düzyurd kəndində vəfat edib və orada dəfn olunub.


MƏŞƏDİ HÜSEYN HACI QASIM OĞLU
Məhəmməd
Rüstəm
M. Əli
İbrahim
M. Qasım
Yusif
Qoşunalı Dıvış
Sarı
Oruc
Allahverən
Bayram
Qəsəm
Nəsib
Məsi
Şəmşid
İsgəndər
Lətif
Vahid
İbad
Cavad
Hüseyn
Dəmir
Fuad
Rinat
Raul
Üzeir
Röyal
Tural
Rasim
Hüseyn
Cavidan
Səxavət
Möhəbbət
İmran
Əli
İlyas
Knyaz
Aydın
David
Namiq
Vüsal
Tunar
Fərid
Elmar
Orxan
Tural
İlkin
İlqar
Məftun
Anar
Vüsal
Ramal
Amil
Arzu
Hüseyn
Tural
Araz
Rüstəm
Murad
Bilal
Abbas
Həsən
Sabir
Vaqif
Adil
Şahbaz
Eyvaz
Əloy
Ramiz
İsfahat
Əli
Anar
Zaur
Nihad
Fuad
Ruslan
Məhərrəm
Zaman
Duman
Ramazan
Səftər
Yasin
Rasim
Sənan
Taleh
Oruc
Namiq
Arif
Fərid
Əli
Fərhad
Rəşad
Xəyal
Vüsal
Samir
Fərhad
Nizami
Lütfiyar
Orxan
Elxan
Qulu
Səhman
Ruslan
Heydər
Tural
Qulu
Habil
Cəlal
Ömər
Nəcəf
İlqar
Vüqar
Nəcəf
Fərid
Mirzə
Faiq
Ayxan
Rauf
Emin
Mübariz
Eldəniz
Eltun
Elnur
Məhəmməd
Ömər
Süreddin
Məhərrəm
Ümid
Kamran
Zaman
Rövşən
Xəqani
Hüseyn
Əjdər
Ülvi
Raul
Asif
Emil
Yunus
Cumalı
Rəfail
Maksim
İlham
Cavad
Kənan
Cavad
Şamil
Maksud
Tural
Orxan
Şəmistan
Rauf
Ruslan
Rüstəm
Əli
Rüstəm

MİRZALILAR

1873-cü ilin kameral təsvirinə uyğun olaraq Sədənağac kəndində məskunlaşmış bu tayfa haqqında verilən məlumat belədir: "Ailə başçısı Həsən Mirzə oğlu, 64 yaş, onun oğulları: 1) Mirzə Həsən oğlu, 34 yaş, Məmmədvəli Mirzə oğlu, 8 yaş. 2) Aslan Həsən oğlu 34 yaş, onun oğlu Məmmədalı, 1 yaş. Ailədə 5 kişi və 4 qadın var" (şəkil 31 a.b)

- **Həsən** Mirzə oğlunun (1809) doğulduğu yer məlum deyil. Həyat yoldaşı haqqında məlumat yoxdur. Mirzə və Aslan adlı iki oğlu olub.
- **Mirzə** Həsən oğlunun (1839) doğulduğu yer məlum deyil. Rayonun Qızılvəng kəndindən Məşədi Xədicəbanu ilə ailə qurub. Onun Məmmədvəli adlı oğlu, Bilqeyis adlı qızı olub.
- **Məmmədvəli** Mirzə oğlu (1865, Sədənağac) mahalın Qızılvəng kəndindən Qaçaq Rzanın bacısı Sona ilə ailə qurmuşdur. İmaməli, Bayraməli, Abduləli, Əliəşrəf, Əli və Vəli adlı altı oğlu, Güləbatın və Güllüzar adlı iki qızı olub. 1948-ci ildə kənddə vəfat edib.
- **İmaməli** Məmmədvəli oğlu (1887, Sədənağac) iki dəfə evlənib. Birincidə həyat yoldaşı Kəsəmən kəndindən adını müəyyənləşdirə bilmədiyimiz bir qadın olub. Bu evlilikdən bir oğlu olub. 1918-ci ildə erməni təcavüzündən xilas olmaq üçün dağ yolu ilə Gədəbəyə qaçmağa çalışıblar. Lakin Böyük Yoxuş deyilən dağ aşırımında güclü borana, şaxtaya düşüblər. Bu səbəbdən oğlu və həyat yoldaşı həlak olub. Bir neçə il keçəndən sonra ikincidə Qanlı kəndindən Səlvi ilə ailə qurub. Oruc, Abbas adlı iki oğlu, Pəri, Diləfrüz, Huru adlı üç qızı olub. 1972-ci ildə kənddə vəfat edib. Həyat yoldaşı Səlvi 1936-cı ildə vəfat etdikdən sonra İmaməli daha evlənməyib, ömrünün qalan hissəsini övladlarını böyüdüb başa çatdırmağa, onların tərbiyəsinə həsr edib.
- **Oruc** İmaməli oğlu (1921, Sədənağac) mahalın Qanlı kəndindən Nazxanım Mahmud qızı ilə ailə qurub. Hidayət, Rasim, Vidadi adlı üç oğlu, Şəmsiyyə, Yazgül və Hökümə adlı üç qızı olub. Böyük Vətən müharibəsi iştirakçısı idi, 1939-cu ildə səfərbərliyə alınıb. 1978-ci ildə kənddə vəfat edib. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində əlavə məlumat verilir.
- **Hidayət** Oruc oğlu (1956, Güney) ali təhsillidir. Hüsənlilərdən Gülarə Musa qızı ilə ailə qurmuşdur. Orxan adlı oğlu, İlahə adlı qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar. Həyat yoldaşı 2012-ci ildə vəfat etdi.

- **Orxan** Hidayət oğlu (1986, Güney) ali təhsillidir. Rusiyanın Sankt-Peterburq şəhərində yaşayır.
- **İlahə** Hidayət qızı (1984, Güney) Gəncə şəhərindən Vüqarla ailə qurub. Sevda adlı qızı var. Gəncədə yaşayırlar.
- **Rasim** Oruc oğlu (1958, Güney) Qazaxıstanın Kokçetav şəhərində yaşayıb. 2016-cı ildə orada vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub. Ruslan adlı oğlu, Tamara adlı qızı olub. Qazaxıstanda yaşayırlar.
- **Vidadi** Oruc oğlu (1960, Güney) ali təhsilini başa vurduqdan sonra kəndə qayıtmayaraq Bakıda qalmışdır. Rayonun Qanlı kəndindən Şəfəq Həsən qızı ilə ailə qurmuşdur. Pərviz adlı oğlu, Günel adlı qızı var. Bakıda yaşayırlar.
- **Pərviz** Vidadi oğlu (1994, Bakı).
- **Günel** Vidadi qızı (1989, Bakı).
- **Şəmsiyyə** Oruc qızı (1964, Güney) Mirzalılardan Tahir Abdulla oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Gədəbəy rayonunun Slavyanka kəndində yaşayırlar.
- **Zəminə** Oruc qızı (1966, Güney).
- **Yazgül** Oruc qızı (1968, Güney) 1988-ci il deportasiyasından sonra ailəliklə Gəncədə məskunlaşdılar. 2011-ci ildə vəfat etdi və Goranboyun Dəyirmanlar kəndində dəfn olundu.
- **Höküməə** Oruc qızı (1971, Güney) 1988-ci il deportasiyasından sonra ailəliklə Gəncədə məskunlaşdılar, hazırda qardaşı Hidayətin ailəsi ilə birlikdə orada yaşayır.
- **Abbas** İmaməli oğlu (1934, Güney) mahalın Dərə kəndindən Xanım Nəsir qızı ilə ailə qurub. İlham (Niyaz) adlı oğlu, İradə və Rita adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **İlham** (Niyaz) Abbas oğlu (1964, Güney) mahalın Dərə kəndindən Şəfəq Firuddin qızı ilə ailə qurub. Rüstəm adlı oğlu, Gülnar adlı qızı var. Bakıda yaşayır.
- **Rüstəm** İlham oğlu (1991, Bakı) ali təhsillidir.
- **Gülnar** İlham qızı (1993, Bakı).
- **İradə** Abbas qızı (1971, Güney).
- **Rita** Abbas qızı (1973, Güney) Göyçə mahalının Ağbulaq kəndindən Ramiz Sabir oğlu ilə ailə qurub. Ülvi adlı oğlu, Suqra adlı qızı var. Bakıda yaşayırlar.
- **Pəri** İmaməli qızı (1924, Sədənağac) Babalılardan Abbasəli Ağamalı oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 2002-ci ildə Şəmkir rayonunun Könüllü kəndində vəfat edib və orada kənd qəbiristanlığında dəfn olunub.

- **Hürü** İmaməli qızı (1926, Sədənağac) Ağsu şəhərindən Bəhruz (Məmməd) Xəlilovla ailə qurub. Mirfəti, Qərib, Şəmistan, Vilayət adlı dörd oğlu, Səlminaz, Səhər, Səadət, Səbinə adlı dörd qızı olub. Ağsu şəhərində yaşayırlar.
- **Diləfruz** İmaməli qızı (1928, Sədənağac) mahalın Kəsəmən kəndindən Kazım Allahverdi oğlu ilə ailə qurub. Firuddin, Səhman, Rəhman, Sahib adlı dörd oğlu, Qəribə adlı qızı olub. 2010-cu ildə Bakıda vəfat edib.
- **Bayraməli** Məmmədvəli oğlu (1889, Sədənağac) Qızılvəngdən dayısı qızı Gülsənəmlə ailə qurmuşdur. İsmayıl, Yunis, Məmməd, Abdulla adlı dörd oğlu, Züleyxa və Firəngiz adlı iki qızı olub. 1937-ci ildə Gədəbəyin Slavyanka kəndinə köçdü. 1973-cü ildə vəfat etmiş və orada dəfn olunmuşdur.
- **İsmayıl** Bayraməli oğlu (1918, Sədənağac) mahalın Yuxarı Zağalı kəndindən Bilqeyis Bəyiş qızı ilə ailə qurub. Sabir, Zakir, Məzahir adlı üç oğlu, Gülnaz adlı bir qızı olub. 2004-cü ildə Slavyanka kəndində vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Sabir** İsmayıl oğlu (1951, Slavyanka) Koluxlulardan Maya Ziyad qızı ilə ailə qurmuşdur. Sabit adlı oğlu, Natiqə adlı qızı var. Şəmkir şəhərində yaşayır.
- **Sabit** Sabir oğlu (1978, Slavyanka) ali təhsillidir. Şəmkir şəhərindən Yeganə Vidadi qızı ilə ailə qurub. İsmayıl, Tayfun adlı iki oğlu, Nərmin adlı qızı var. Şəmkir şəhərində yaşayır.
- **Natiqə** Sabir qızı (1982, Şəmkir) Mirzalılardan Sakit Telman oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Gəncə şəhərində yaşayırlar.
- **Zakir** İsmayıl oğlu (1953, Slavyanka) ali təhsillidir. Əslən Göyçə mahalının Qızılvəng kəndindən olan Sədaqət Lətif qızı ilə ailə qurmuşdur. Zahid adlı oğlu, Samirə adlı qızı var. Şəmkirdə yaşayır.
- **Zahid** Zakir oğlu (1973, Slavyanka) ali təhsillidir. Şəmkir şəhərindən Gülnarə Nəriman qızı ilə ailə qurub. Ömər adlı oğlu, Dilbər adlı qızı var. Şəmkirdə yaşayırlar.
- **Samirə** Zakir qızı (1982, Slavyanka) Şəmkir şəhərindən Namiq Firuddin oğlu ilə ailə qurub. Uğur və Amin adlı iki oğlu, Heyran adlı qızı var. Şəmkirdə yaşayırlar.
- **Məzahir** İsmayıl oğlu (1959, Slavyanka) Gülarə Əhməd qızı ilə ailə qurub. Rüfət adlı oğlu, Təranə və Ulduz adlı iki qızı var. Slavyankada yaşayırlar.
- **Rüfət** Məzahir oğlu (1984, Slavyanka) Naftalan şəhərindən Hicranla ailə qurub. Rauf adlı oğlu, Aysu adlı qızı var. Naftalanda yaşayırlar.
- **Təranə** Məzahir qızı (1982, Slavyanka) Yaşar Hüseyn oğlu ilə ailə qurub. Hüseyn adlı oğlu var. Bakıda yaşayırlar.

- **Ulduz** Məzahir qızı (1985, Slavyanka) Göyçə mahalının Pəmbək kəndindən Şahlar Telman oğlu ilə ailə qurub. Şirxan, Sərxan adlı iki oğlu var. Gədəbəydə yaşayırlar.
- **Gülnaz** İsmayıl qızı Slavyankada doğulmuşdur.
- **Yunis** Bayraməli oğlu (1922, Sədənağac) mahalın Toxluca kəndindən Telli Niftalı qızı ilə ailə qurub. Kərəm, Rəhim və Bahadur adlı üç oğlu, Sevəngül adlı qızı olub. Gədəbəyin Slavyanka kəndində yaşayırlar.
- **Kərəm** Yunis oğlu (1953, Slavyanka) əslən Göyçə mahalının Qızılvəng kəndindən Lalə Bəşir qızı ilə ailə qurub. Seymur adlı oğlu, İradə adlı qızı var. Şəmkir şəhərində yaşayır.
- **Seymur** Kərəm oğlu (1982, Şəmkir).
- **İradə** Kərəm qızı (1983, Şəmkir) Şəmkir şəhərindən Emin Musa oğlu ilə ailə qurub. Şəmkirdə yaşayırlar.
- **Rəhim** Yunis oğlu (1958, Slavyanka) Şəmkirin Çənlibel kəndindən Ceyranla (əslən Göyçə mahalının Daşkənd kəndindən) ailə qurub. Kənan və Sənan adlı iki oğlu var. Ailəliklə Slavyankada yaşayırlar.
- **Kənan** Rəhim oğlu (1990, Slavyanka).
- **Sənan** Rəhim oğlu (1992, Slavyanka).
- **Bahadur** Yunis oğlu (1969, Slavyanka) həmkəndlisi Mehriban Rafiq qızı ilə ailə qurub. Sərxan adlı oğlu, Ayşən adlı qızı var. Slavyankada yaşayır.
- **Sərxan** Bahadur oğlu (2002, Slavyanka).
- **Ayşən** Bahadur qızı (1999, Slavyanka).
- **Məmməd** Bayraməli oğlu (1944, Slavyanka) Gədəbəyin Samanlıq kəndindən Mariya ilə ailə qurub. Ədalət, Nizami adlı iki oğlu, Rahilə və Tahirə adlı iki qızı var. Slavyankada yaşayır.
- **Ədalət** Məmməd oğlu (Slavyanka).
- **Nizami** Məmməd oğlu (Slavyanka) Slavyanka kəndindən Esmira Şahbaz qızı ilə ailə qurub. İki oğlu var.
- **Rahilə** Məmməd qızı (1956, Slavyanka) həmkəndlisi Musa Oruc oğlu ilə ailə qurub. İki oğlu, bir qızı var. Slavyankada yaşayırlar.
- **Tahirə** Məmməd qızı (Slavyanka) Gəncə şəhərindən Gülmalı ilə ailə qurmuşdur. Gəncədə yaşayırlar.
- **Abdulla** Bayraməli oğlu (1939, Slavyanka) Gədəbəyin Şəkərbəyli kəndindən Xətayə Novruz qızı ilə ailə qurub. Tahir, Bakir adlı iki oğlu, Mahirə və Məlahət adlı iki qızı var. Slavyankada yaşayırlar.

- **Tahir** Abdulla oğlu (1964, Slavyanka) Mirzalılardan Şəmsiyyə Oruc qızı ilə ailə qurub. Pərvin adlı oğlu, Könül adlı qızı var. Slavyankada yaşayır.
- **Pərvin** Tahir oğlu (1991, Slavyanka).
- **Könül** Tahir qızı (1989, Slavyanka) Fəğan Ağası oğlu ilə ailə qurub. Fərid adlı oğlu, Fəridə adlı qızı var. Slavyankada yaşayırlar.
- **Bakir** Abdulla oğlu (1967, Slavyanka) öz həmkəndlisi Səidə ilə ailə qurub. Asif və Asim adlı iki oğlu var. Slavyankada yaşayırlar.
- **Asif** Bakir oğlu (1991, Slavyanka) Qırmızı Samux (indiki Qaraağaclı) qəsəbəsindən Nərmin ilə ailə qurub. Raul adlı oğlu, Fatimə adlı qızı var. Slavyankada yaşayırlar.
- **Asim** Bakir oğlu (1993, Slavyanka) Slavyankadan Gülnar ilə ailə qurub. Zeynəb və Zəhra adlı iki qızı var. Slavyankada yaşayırlar.
- **Mahirə** Abdulla qızı (1962, Slavyanka) Gədəbəyin Şəkərbəyli kəndindən Xəlil Məhər oğlu ilə ailə qurub. Elfaq və Vüsal adlı iki oğlu, Təranə adlı qızı var. Bakıda yaşayırlar.
- **Məlahət** Abdulla qızı (1972, Slavyanka) Gədəbəyin Qalakənd kəndindən Fazil Ziyad oğlu ilə ailə qurub. Elvin, Emin adlı iki oğlu, Rəqsanə adlı qızı var. Slavyankada yaşayırlar.
- **Züleyxa** Bayraməli qızı (1920, Sədənağac) əslən Güney Azərbaycandan olan Məşədi Muxtar ilə ailə qurub. Cəfər və Qafar adlı iki oğlu olub. Şəmkir şəhərində yaşayırdı. 1999-cu ildə orada vəfat edib.
- **Firəngiz** Bayraməli qızı (1940, Slavyanka) Şəmkirdən Mehdi ilə ailə qurub. Laçın adlı bir oğlu olub. 2014-cü ildə Şəmkir şəhərində vəfat etdi.
- **Abdulәli** Məmmədvəli oğlu (1899, Sədənağac) iki dəfə evlənib. Birinci həyat yoldaşı Məşədi Hüseynlilərdən Balaca İbrahim qızı olub, uşaqları olmadığından ayrılıblar. İkincidə Leylanla ailə qurdu. Bu evlilikdən də övladı yox idi. 1978-ci ildə Göygöl rayonunun Quşqara kəndinə köçdü və 1994-cü ildə orada vəfat etdi. Böyük Vətən müharibəsində hərbi xidmətə çağırılıb, fəhlə taborunda arxa cəbhədə çalışmışdır.
- **Əliəşrəf** Məmmədvəli oğlu (1901, Sədənağac)1917-ci ildə Göyçə gölündə boğulub.
- **Əli** Məmmədvəli oğlu (1903, Sədənağac) Tatlardan Lalaxanım Əsəd qızı ilə ailə qurmuşdur. Onların İsa, Musa adlı iki oğlu olub. 1931-ci ildə vəfat edib.
- **İsa** Əli oğlu (1928, Sədənağac) mahalın Pəmbək kəndindən Dilbər Söyün qızı ilə ailə qurmuşdur. Sayəddin, İzzət, Kamandar, Hafiz adlı dörd oğlu, Aqilə adlı

qızı olub. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar. Həyat yoldaşı Dilbər 2003-cü ildə orada vəfat etdi.

- **Sayəddin** İsa oğlu (1958, Güney) Kəsəmən kəndindən Arifə Abbas qızı ilə ailə qurub. Elnarə, Mələhət adlı iki qızı, Zahir adında oğlu var. Goranboyun Dəyirmanlar kəndində yaşayır.
- **Zahir** Sayəddin oğlu (1983, Güney) Tərtər rayonundan İlahə Volodya qızı ilə ailə qurmuşdur. İsa, Zamin adında iki oğlu var.
- **Mələhət** Sayəddin qızı (1987, Güney) Tatlardan Sahib Məzahir oğlu ilə ailə qurub. Ailə tərkibi haqqında məlumat həyat yoldaşının səhifəsində verilir.
- **İzzət** İsa oğlunun (1964, Güney) həyat yoldaşı Məşədi Hüseynlilərdən Rəna Şəmistan qızıdır. Elnur adlı oğlu, Dilarə və Gülnarə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Elnur** İzzət oğlu (1996, Dəyirmanlar).
- **Dilarə** İzzət qızı (1989, Dəyirmanlar) Bakı şəhərindən İsmayıl Bilal oğlu ilə ailə qurub. Abbas adlı oğlu var. Bakıda yaşayırlar.
- **Gülnarə** İzzət qızı (1993, Dəyirmanlar) mahalın İnəkdağı kəndindən Cavid Eldar oğlu ilə ailə qurub. Nəzirə adında qızı var.
- **Kamandar** İsa oğlu (1967, Güney) mahalın Kəsəmən kəndindən Şəmsiyyə Məhəmməd qızı ilə ailə qurmuşdur. Eltun və Əli adlı iki oğlu var. Goranboyun Dəyirmanlar kəndində yaşayır.
- **Eltun** Kamandar oğlu (1996, Dəyirmanlar).
- **Əli** Kamandar oğlu (2000, Dəyirmanlar) Türkiyədə universitet tələbəsidir.
- **Hafiz** İsa oğlu (1976, Güney) Goranboyun Azad kəndindən Gülzar Nəsib qızı ilə ailə qurmuşdur. Sübhan adlı oğlu var. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar. 2013-cü ildə orada vəfat etdi.
- **Aqilə** İsa qızı (1960, Güney) 2007-ci ildə Goranboy rayonunun Dəyirmanlar kəndində vəfat etmişdir.
- **Musa** Əli oğlu (1932, Sədənağac) Tatlardan Məyxanım Bəylər qızı ilə ailə qurub. Alqayıt, Əfqan, Vəkil adlı üç oğlu, Leyla, Məxmər, Şirin, Elmira adlı dörd qızı olub. 1984-cü ildə Goranboyun Dəyirmanlar kəndinə köçdülər. 2013-cü ildə orada vəfat etdi.
- **Alqayıt** Musa oğlu (1966, Güney) iki dəfə ailə qurub. Birincidə Hüsənlilərdən Səminə Süleyman qızı ilə ailə qurub. Bu nikahdan Könül adlı bir qızı olub. Sonra ayrılıblar. İkincidə rayonun Kiçik Məzrə kəndindən Sədaqət Babacan qızı ilə ailə qurub. Elməddin adlı oğlu, Aytən adlı qızı olub. Goranboyun Dəyirmanlar kəndində yaşayır.

- **Elməddin** Alqayıt oğlu (1995, Gəncə) ali təhsillidir. Dəyirmanlar kəndində yaşayır.
- **Könül** Alqayıt qızı (1988, Gəncə) Basarkeçərin Qaraqoyunlu kəndindən Elsevər Fazil oğlu ilə ailə qurmuşdur. Bakıda yaşayırlar.
- **Aytən** Alqayıt qızı (2005, Gəncə).
- **Əfqan** Musa oğlu (1968, Güney) Gəncə şəhərindən Elnurə Rəfibəyli ilə ailə qurmuşdur. Üç qızı var. Ali təhsillidir. Sosiologiya üzrə elmlər doktorudur. Bakıda yaşayırlar.
- **Vəkil** Musa oğlu (1974, Güney) Şəmkirdən İradə Kərəm qızı ilə ailə qurmuşdur. Emil adlı oğlu, Aytən adlı qızı var. Goranboyun Dəyirmanlar kəndində yaşayırlar.
- **Leyla** Musa qızı (1960, Güney) Mirzalılardan Telman Mahmud oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il derortasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Məxmər** Musa qızı (1963, Güney) Tatlardan Surəddin Məmməd oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Şirin** Musa qızı (1969, Güney) Göyçə mahalının Ağbulaq kəndindən Əhliman İsmayıl oğlu ilə ailə qurub. Faiq, Zaur, Natiq adlı üç oğlu var. Dəyirmanlar kəndində yaşayırlar.
- **Elmira** Musa qızı (1969, Güney) mahalın Dərə kəndindən Məmməd Cəmil oğlu ilə ailə qurmuşdur. Habil adlı oğlu, Aygün adlı qızı olub. Bakıda yaşayırdı. 2016-cı ildə avtomobil qəzasında həlak olub və Bakıda dəfn olunub.
- **Vəli** Məmmədvəli oğlu (1905, Sədənağac) 1915-ci ildə uşaqkən vəfat edib.
- **Güllüzar** Məmmədvəli qızı (1892, Sədənağac) mahalın Kiçik Məzrə kəndindən Pirqələmlə ailə qurub. Aslan və Rüstəm adlı iki oğlu və adlarını müəyyənləşdirə bilmədiyimiz üç qızı olub. Sonralar ailəliklə Tərtərin Cəmilli kəndinə köçüblər. 1970-ci illərin sonlarında orada vəfat edib.
- **Güləbatın** Məmmədvəli qızı (1894, Sədənağac) Koluxlulardan Nəsib Bağır oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1939-cu ildə vəfat edib.
- **Aslan** Həsən oğlunun (1849, Sədənağac) Məhəmmədəli (Səfəralı) adlı oğlu olub. Başqa məlumat yoxdur.
- **Səfəralı** (1873-cü il kameral siyahıda Məhəmmədəli kimi qeyd olunub) Aslan oğlu 1872-ci ildə Göyçə mahalının Sədənağac kəndində doğulmuşdur. Kiçik Məzrə kəndindən Simuzərlə ailə qurub. Mahmud, Dünyamalı, Hüseyn adlı üç


oğlu, Mədinə adlı qızı olub. 1918-ci il hadisələri zamanı ailəliklə Gədəbəyin Atabəy kəndinə köçüblər. 1920-ci ildə vəfat edib və orada dəfn olunub.

- **Mahmud** Səfəralı oğlu (1914, Sədənağac) Hüsənlilərdən Səməngül Sarı qızı ilə ailə qurub. Məmmədrza, Bakir, İman, Telman, Xanoğlan adlı beş oğlu, Gubatel, Saray, Maysara, Zərraf, Gülxanım adlı beş qızı olub. 1969-cu ildə kənddə vəfat edib. Böyük Vətən müharibəsi iştirakçısı idi, döyüşlərdə yaralanıb və 1944-cü ildə tərxis olunub. Əsgəri təltifatları vardı. Sədənağac kəndi Böyük Vətən müharibəsi illərində bölməsində haqqında əlavə məlumat verilir.
- **Məmmədrza** Mahmud oğlu (1946, Güney) Hüsənlilərdən Pakizə Süleyman qızı ilə ailə qurmuşdur. Hakim və İlqar adlı iki oğlu, Gülnarə adlı qızı olmuşdur. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar. 2016-cı ildə orada vəfat etdi.
- **Hakim** Məmmədrza oğlu (1974, Güney) ali təhsillidir. Mahalın Dərə kəndindən xalası qızı Solmaz Hümbət qızı ilə ailə qurmuşdur. Nicat, Nihat, Nurhan adlı üç oğlu var. Bakıda yaşayırlar.
- **İlqar** Məmmədrza oğlu (1977, Güney) ali təhsillidir. Şamaxıdan Gülbahar Şahsəddin qızı ilə ailə qurub. Bakıda yaşayırlar.
- **Gülnarə** Məmmədrza qızı (1973, Güney) ali təhsillidir. Krasnoselo rayonunun Toxluca kəndindən Şirazi Məmmədtağı oğlu ilə ailə qurub. Əliəkbər və Məmmədtağı adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Bakir** Mahmud oğlu (1951, Güney) Koluxlulardan Yamən Həsən qızı ilə ailə qurmuşdur. Siyab adlı oğlu, Almara və Elnarə adlı iki qızı olub. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Siyab** Bakir oğlu (1977, Güney) Aşağı Şorca kəndindən Vüsalə Xaləddin qızı ilə ailə qurub. Nihad və Şahin adlı iki oğlu var. Goranboyun Dəyirmanlar kəndində yaşayır.
- **Almara** Bakir qızı (1978, Güney) Rusiyada yaşayır.
- **Elnarə** Bakir qızı (1979, Güney) xalası oğlu Sakit Fəzail oğlu ilə ailə qurub. Bakıda yaşayırlar.
- **İman** Mahmud oğlu (1950, Güney) Hüsənlilərdən Nəzakət Aslan qızı ilə ailə qurmuşdur. Anar adlı oğlu, Sevil və Yeganə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Goranboyun Xoylu kəndində məskunlaşdılar.
- **Anar** İman oğlu (1984, Güney) Samux rayonunun Sarıqamış kəndindən Şəhla Ələddin qızı ilə ailə qurmuşdur. Vüsal adlı oğlu, Fidan adlı qızı var. Goranboyun Xoylu kəndində yaşayır.

- **Sevil** İman qızı (1977, Güney) Samux rayonunun Ziyadlı kəndindən Cəfərov Cavidlə ailə qurub.
- **Yeganə** İman qızı (1980, Güney) Goranboyun Poylu kəndindən Zakir Nazim oğlu ilə ailə qurub. Babək, Nəbi adlı iki oğlu, Zülfiyyə adlı qızı var.
- **Telman** Mahmud oğlu (1950, Güney) Mirzalılardan Leyla Musa qızı ilə ailə qurmuşdur. Sakit adlı oğlu, Vüsalə və Vəsilə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Sakit** Telman oğlu (1979, Güney) Şəmkirdən Natiqə Sabir qızı ilə ailə qurub. Fərid və Murad adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **Vüsalə** Telman qızı (1981, Güney) Babək Ədil oğlu ilə ailə qurmuşdur. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Vəsilə** Telman qızı (1984, Güney) bibisi Qubatelin oğlu Oktay Məhəmməd oğlu ilə ailə qurmuşdur. İskəndər və Qismət adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **Xanoğlan** Mahmud oğlu (1961, Güney) Tatlardan Dilarə Qədir qızı ilə ailə qurmuşdur. Elvin adlı oğlu, Nuranə adlı qızı var. 1981-ci ildə Bakı şəhərinə köçdü və hazırda şəhərdə yaşayır.
- **Elvin** Xanoğlan oğlu (1985, Bakı) ali təhsillidir. Gəncə şəhərindən Vüsalə Vahiddəddin qızı ilə ailə qurub. Aylin adlı qızı var. Bakıda yaşayırlar.
- **Nuranə** Xanoğlan qızı (1990, Bakı) ali təhsillidir. Bakı şəhərindən Cahid Saday oğlu ilə ailə qurub. Sadiq adlı oğlu, Zəhra adlı qızı var. Bakıda yaşayırlar.
- **Qubatel** Mahmud qızı (1950, Güney) mahalın Kəsəmən kəndindən Məhəmməd İsgəndər oğlu ilə ailə qurmuşdur. Oktay, Orxan adlı iki oğlu, Sevda, Sadə, Şəmsiyyə və Şəhla adlı dörd qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Saray** Mahmud qızı (1958, Güney) Hüsənlilərdən Surxay Əhməd oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkir şəhərində məskunlaşdılar.
- **Maysara** Mahmud qızı (1963, Güney) Hüsənlilərdən İbrahim Musa oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda əlavə məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Zərraf** Mahmud qızı (1965, Güney) Tatlardan Məzahir Məmməd oğlu ilə ailə qurmuşdur. Ailəsi haqda əlavə məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.

- **Gülxanım** Mahmud qızı (1968, Güney) Gəncə şəhərindən Həsən Xançoban oğlu ilə ailə qurub. Hüseyn adlı oğlu, Səmannaz adlı qızı var. Gəncədə yaşayırlar.
- **Dünyamalı** Səfəralı oğlunun (1916, Sədənağac) görmə qabiliyyəti yox idi. 1970-ci ildə kənddə vəfat edib.
- **Hüseyn** Səfəralı oğlu (1919, Sədənağac) 10 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci ilin sonlarında əsir düşmüşdür. 1945-ci ildə Sovet Qoşunlarının hücumu zamanı əsirlikdən azad edilmişdir. 1947-ci ilin sonlarında ordudan tərxis edilərək kəndə qayıtmışdır. Üç dəfə evlənib. BirincidəTatlardan Salatın Əsəd qızı ilə ailə qurub. Rza, Vilayət, Dağbəyi adlı üç oğlu, Ziyatel, Rəfiqə, Əfruz, Kifayət adlı dörd qızı olub. Salatın Əsəd qızının vəfatından sonra rayonun Pəmbək kəndindən Sögülü ilə ailə qurub. Bu nikahdan övladı olmayıb. Üçüncüdə rayonun Kiçik Məzrə kəndindən Həcərlə ailə qurdu. Bu nikahdan da övladı olmayıb. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar. 2003-cü ildə orada vəfat edib və Göygöl şəhər qəbiristanlığında dəfn olunub."Sədənağac kəndi Böyük Vətən müharibəsi illərində" bölməsində haqqında əlavə məlumat verilir.
- **Rza** Hüseyn oğlu (1951, Güney) Rüstəmuşağından Yazgül Hasan qızı ilə ailə qurmuşdur. Seymir adlı oğlu, Ruhiyyə, Səadət, Sahilə adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Seymur** Rza oğlu (1983, Güney) mahalın Zərkənd kəndində Yamən Vidadi qızı ilə ailə qurub. Hüseyn və Ömər adlı iki oğlu var. Goranboyun Dəyirmanlar kəndində yaşayır.
- **Ruhiyyə** Rza qızı (1979, Güney) Şəmkirin Abbaslı kəndindən Eldəniz Səməndər oğlu ilə ailə qurub. Yusif adlı oğlu, Zümrüd, Aynur, Elnurə adlı üç qızı var. Abbaslı kəndində yaşayırlar.
- **Səadət** Rza qızı (1981, Güney) mahalın Kəsəmən kəndindən Radif Haqverdi oğlu ilə ailə qurub. Coşqun, Tuncay adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **Sahilə** Rza qızı (1985, Güney) Hüsənlilərdən Elşən Yadigar oğlu ilə ailə qurub. Camal adlı oğlu, Lalə adlı qızı var. Bakıda yaşayırlar.
- **Vilayət** Hüseyn oğlu (1962, Güney) Gədəbəydən Raya Şərif qızı ilə ailə qurub. Muraz adlı oğlu, Yeganə, Şahanə adlı iki qızı var. Şəmkirdə yaşayırlar.
- **Muraz** Vilayət oğlu (1990, Şəmkir).
- **Dağbəyi** Hüseyn oğlu (1966, Güney) mahalın Böyük Məzrə kəndindən Bikə Ələsgər qızı ilə ailə qurmuşdur. Malik, Tural adlı iki oğlu, Əfsanə adlı qızı var. Gəncədə yaşayırlar.

- **Malik** Dağbəyi oğlu (1987, Güney) mahalın Dərə kəndindən Səmannaz Həsən qızı ilə ailə qurub. Yusif adlı oğlu, Fatma, Gülab adlı iki qızı var. Gəncədə yaşayırlar.
- **Tural** Dağbəyi oğlu (1992, Gəncə) mahalın Kəsəmən kəndindən Ağgül Seymur qızı ilə ailə qurub. Gəncədə yaşayır.
- **Ziyatel** Hüseyn qızı (1948, Güney) mahalın Kəsəmən kəndindən Rza Fərman oğlu ilə ailə qurub. Arzu, Rafiq, Hikmət, Namiq, Fərrux adlı beş oğlu, Laləzar adlı qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Rəfiqə** Hüseyn qızı (1957, Güney) Gədəbəydən Salman ilə ailə qurub. Elvin adlı oğlu var. Gədəbəydə yaşayırlar.
- **Əfruz** Hüseyn qızı (1960, Güney) Rüstəmuşağı nəslindən Şahin Abbas oğlu ilə ailə qurdu. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəliklə Tovuzun Girzan qəsəbəsində məskunlaşdılar. 10 avqust 1990-cı ildə Tbilisi-Ağdam marşrutu ilə hərəkət edən sərnişin avtobusunun terror aktı ilə partladılması nəticəsində 20 nəfər həlak olmuşdu. Əfruz da qaynı Zöhrab Abbas oğlu ilə birlikdə onların arasında idi.
- **Kifayət** Hüseyn qızı (1963, Güney) Hüsənlilərdən Bahadur Köçəri oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəliklə Şəmkirin Ələsgərli (keçmiş Badakənd) kəndində məskunlaşdılar.
- **Mədinə** Səfəralı qızı (1902, Səfəralı) Tatlardan Bəylər Əsəd oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra oğlu Məmmədin ailəsi ilə birlikdə Goranboy rayonunun Dəyirmanlar kəndinə köçdü. 1990-cı ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.
- **Bilqeyis** Mirzə qızı (1882, Sədənağac) Rüstəmuşağı nəslindən İmran Məmməd oğlu ilə ailə qurub. Övladı olmayıb. 1971-ci ildə kənddə vəfat edib.


MİRZA
Həsən
Mirza
Aslan
Məmmədvəli
Səfəralı
İmaməli
Bayraməli
Abduləli
Əliəşrəf
Əli
Vəli
Mahmud
Dünyamalı
Hüseyn
Oruc
Abbas
İsa
Musa
Hidayət
Orxan
Rasim
Ruslan
Vidadi
Pərviz
İlham
Rüstəm
Sayəddin
İzzət
Kamandar
Hafiz
Zahir
Elnur
Eltun
Əli
Sübhan
Alqayıt
Elməddin
Əfqan
Emil
Vəkil
Məmmədrza
Bakir
İman
Telman
Xanoğlan
Hakim
İlqar
Siyab
Anar
Sakit
Elvin
Nicat
Nihad
Nurlan
Nihad
Şahin
Vüsal
Fərid
Murad
Rza
Vilayət
Dağbəyi
Seymur
Muraz
Tural
Malik
Yusif
İsmayıl
Yunis
Məmməd
Abdulla
Sabir
Zakir
Məzahir
Kərəm
Rəhim
Bahadur
Ədalət
Nizami
Tahir
Bakir
Sabit
Zahid
Rüfət
Seymur
Şirxan
Pərvin
Asıf
Asim
İsmayıl
Tayfun
Ömər
Rauf
Kənan
Sənan
Raul

RÜSTƏMUŞAĞI

Sədənağacın ilk sakinlərindən biri də Məmməd Rüstəm oğlu və onun qardaşları olub. Deyilənlərə görə bu ailə, İrəvan quberniyasının Yeni Bayazid qəzasında, Qaranlıq (indiki Martuni) rayonunda, Əyricə kəndinin yanında, Arxaşan və Əbdülasar dağları arasında yerləşən Qızılxaraba kəndindən köçüb gəliblər.

Sədənağac kəndinin 1873-cü il kameral siyahısında 11 saylı ailə kimi qeyd olunub və yaşları belədir: "Məmməd Rüstəm oğlu 45 yaş, onun oğulları: İbrahim, 8 yaş və Abdulla 4 yaş; qardaşları: İsgəndər 35 yaş, Əhməd 8 yaş, Kazım 23 yaş, Tağıqulu 20 yaş, Möhsün 18 yaş və Şaban Kazım oğlu 2 yaş" (şəkil 31).

- **Məmməd** Rüstəm oğlu (1828,Qızıl Xaraba) Hacı Ramazanlılardan Zöhrə Hacı Ramazan qızı ilə ailə qurduqdan sonra Sədənağac kəndində məskunlaşmışdır. İbrahim, Abdulla, İmran, İsmayıl adlı dörd oğlu, Güllər adlı bir qızı olub. 1918-ci ildə kənddə vəfat edib.
- **İbrahim** Məmməd oğlu (Məşədi İbrahim) (1865, Sədənağac) Hacı Ramazanlılardan Səlvi Ələsgər qızı ilə ailə qurub. Sayad, Ataş, Əhməd, Həsən, Hüseyn, Məhərrəm adlı altı oğlu, Gülxanım və Mələksima adlı iki qızı olub. 1931-ci ildə kənddə vəfat edib.
- **Sayad** Məşədi İbrahim oğlu (1886, Sədənağac) iki dəfə evlənib. Birincidə əmisi qızı Züleyxa İsmayıl qızı ilə ailə qurub. Tümən adlı bir qızı olub. Bir neçə ildən sonra Züleyxa vəfat edib. İkincidə Göyçə mahalının Kərkibaş kəndindən Qızbəs ilə ailə qurub. Məcnun, Abbas, Zülal adlı üç oğlu, Fatma adlı qızı olub. 1962-ci ildə kənddə 76 yaşında vəfat etmişdir.
- **Məcnun** Sayad oğlu (1926, Sədənağac) rayonun Kiçik Məzrə kəndindən Səmayə Cavad qızı ilə ailə qurub. Sahib, Zəfər və Fərhad adlı üç oğlu, Lalə, Sevil, Səyyarə, Mənzərə, Kəmalə, Sahibə, Ayna, Sultan, Ceyran adlı doqquz qızı olub. 1989-cu ildə kənddə vəfat edib. 1942-ci ildə könüllü olaraq Böyük Vətən müharibəsinə yola düşüb. 1944-cü ildə döyüşlərdə ağır yaralanaraq ordudan tərxis edilib. Döyüşlərdə göstərdiyi igidliyə görə orden və medallarla təltif edilmişdir.
- **Sahib** Məcnun oğlu (1958, Güney) ali təhsillidir. Vedi rayonunun Ərnik kəndindən Zemfira Allahverdi qızı ilə ailə qurub. Rüstəm və Məcnun adlı iki oğlu olub. Bakıda yaşayırlar.

- **Rüstəm** Sahib oğlu (1985, Bakı) ali təhsillidir. Kəlbəcərdən Lalə İmamverdi qızı ilə ailə qurub. Səid adlı oğlu, Mehin adlı qızı var. Ailəliklə Almaniyada yaşayırlar.
- **Məcnun** Sahib oğlu (1989, Bakı) 2005-ci ildə avtomobil qəzasında həlak olub.
- **Zəfər** Məcnun oğlu (1960, Güney) ali təhsilli idi. Dəvəçidən Aygün Mirfağa qızı ilə ailə qurub. Tural, İqbal adlı iki oğlu, Qumral adlı qızı olub. 2015-ci ildə vəfat edib, Bakıda dəfn olunub. Ailəsi Bakıda yaşayır.
- **Tural** Zəfər oğlu (1995, Bakı) ali məktəbdə təhsil alır.
- **İqbal** Zəfər oğlu (2003, Bakı).
- **Qumral** Zəfər qızı (1999, Bakı) ali məktəb tələbəsidir.
- **Fərhad** Məcnun oğlu (1970, Güney) ali təhsillidir. Təranə Nazim qızı ilə ailə qurub. Nihat, Mehdi adlı iki oğlu, Əsma adlı qızı var. Bakıda yaşayır.
- **Lalə** Məcnun qızı (1950, Güney) ali təhsillidir. Hüsənlilərdən Yadigar Tapdıq oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Sevil** Məcnun qızı (1952, Güney) ali təhsillidir. Oktay İslam oğlu (dayısı oğlu) ilə ailə qurub. Məhəmməd adlı oğlu, Zülfiyyə və Gülnarə adlı iki qızı olub. Bakıda yaşayırlar.
- **Səyyarə** Məcnun qızı (1954, Güney) Qəhrəmanlılardan Nəcəf Ziyad oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Mənzərə** Məcnun qızı (1956, Güney) ali təhsilli idi. Rayonun Nərimanlı kəndindən Nadir Qaraca oğlu ilə ailə qurmuşdu. Aqil və Sahil adlı iki oğlu olub. 2009-cu ildə Bakıda vəfat edib və Mehdiabad qəbiristanlığında dəfn olunub.
- **Kəmalə** Məcnun qızı (1962, Güney) ali təhsillidir. Rayonun Kiçik Məzrə kəndindən Cəmşid İsrafil oğlu ilə ailə qurub. İsrafil adlı oğlu, İlahə və Ahu adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Sahibə** Məcnun qızı (1964, Güney) ali təhsillidir. Rayonun Kəsəmən kəndindən Mayıs Paşa oğlu ilə ailə qurub. Nicat adlı oğlu, Aysel adlı qızı var. Bakıda yaşayırlar.
- **Ayna** Məcnun qızı (1966, Güney) ali təhsillidir. Dərələyəzdən Zülfüqar Şirin oğlu ilə ailə qurub. Kamran adlı oğlu, Günel adlı qızı var. Bakıda yaşayırlar.
- **Sultan** Məcnun qızı (1968, Güney) ali təhsillidir. Gürcüstandan Səyyar Bayram oğlu ilə ailə qurub. Elçin adlı oğlu, Nigar adlı qızı var. Bakıda yaşayırlar.

- **Ceyran** Məcnun qızı (1968, Güney) Sultan ilə ekizdilər. Ali təhsillidir. Göygöldən Firdövsi Tahir oğlu ilə ailə qurub. Ceyhun adlı oğlu, Fatimə adlı qızı var. Bakıda yaşayırlar.
- **Abbas** Sayad oğlu (1928, Sədənağac) ali təhsilli idi. Uzun illər kənd məktəbində dərs hissə müdiri, məktəb direktoru, kolxoz sədri vəzifələrində işləmişdir. Rüstəmuşağı nəslindən Tamam İsmayıl qızı ilə ailə qurub. Şahin, Zöhrab adlı iki oğlu olub. 1978-ci ildə kənddə vəfat edib.
- **Şahin** Abbas oğlu (1960, Güney) Mirzalılardan Əfruz Hüseyn qızı ilə ailə qurub. Günay, Qızılgül, Lumu adlı üç qızı olub. 1988-ci ildə məcburi deportasiyadan sonra Tovuz rayonunun Girzan qəsəbəsində məskunlaşdılar. 2015-ci ildə rəhmətə gedib və qəsəbə qəbiristanlığında dəfn olunub.
- **Günay** Şahin qızı (1981, Güney) əslən Uluxanlı kəndindən (Masis rayonu) Vasif Ələsgər oğlu ilə ailə qurub. Nahid adlı oğlu, Aləm adlı qızı var. Tovuz rayonunun Girzan qəsəbəsində yaşayırlar.
- **Qızılgül** Şahin qızı (1984, Güney) əslən Uluxanlı kəndindən (Masis rayonu) olan Aftandil Ziyəddin oğlu ilə ailə qurub. Ziyəddin adlı oğlu, Türkan adlı qızı var. Girzan qəsəbəsində yaşayırlar.
- **Lumu** Şahin qızı (1987, Güney) Uluxanlı kəndindən (Masis rayonu) Orxan Mahir oğlu ilə ailə qurub. Tunar adlı oğlu, Qumral adlı qızı var. Girzanda yaşayırlar.
- **Zöhrab** Abbas oğlu (1968, Güney) ali təhsil almışdı. 1990-cı ildə erməni terrorçuları Tbilisi-Bakı avtobusunu partladaraq onlarca insanı məhv etdilər. Zöhrab və qardaşı Şahinin həyat yoldaşı Əfruz bu teraktda şəhid oldular.
- **Tümən** Sayad qızı (1913, Sədənağac) Məşədi Hüseynlilərdən Qəşəm İbrahim oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1982-ci idə kənddə vəfat etdi.
- **Fatma** Sayad qızı (1927, Sədənağac) rayonun Zod kəndindən Rəhimov Tahirlə ailə qurub. Mədəl, Firdövsi, Knyaz adlı üç oğlu, Məryəm və Seyran adlı iki qızı olub. 1963-cü ildə Göygöl şəhərinə (keçmiş Xanlar şəhəri) köçdülər. 1991-ci ildə orada vəfat etdi.
- **Ataş** Məşədi İbrahim oğlu (1889, Sədənağac) əmisi qızı Teyfə İsmayıl qızı ilə ailə qurub. Övladı olmayıb. 1964-cü ildə 75 yaşında kənddə vəfat etdi.
- **Məhərrəm** Məşədi İbrahim oğlu (1903, Sədənağac) Qazax şəhərindən Sitarə Bağır qızı ilə ailə qurub. Ələddin və Vəliyəddin adlı iki oğlu, Maya, Elmira, Zöhrə və Rəfiqə adlı dörd qızı olub. 1920-ci illərin sonlarında Qazax şəhərinə köçüb. 2014-cü ildə Qazax şəhərində vəfat edib.


- **Ələddin** Məhərrəm oğlu (1949, Bərdə) Tamaşa İsmayıl qızı ilə ailə qurub. Rövşən adlı oğlu, Təranə, Yeganə, Sitarə adlı üç qızı olub. Gəncədə yaşayırlar.
- **Rövşən** Ələddin oğlu (1972, Qazax) 2012-ci ildə Rusiyanın Sankt-Peterburq şəhərində vəfat edib və orada da dəfn olunub.
- **Təranə** Ələddin qızı (1975, Qazax) İmran ilə ailə qurub. İlkin adlı oğlu, Qiymət adlı qızı var. Gəncədə yaşayırlar.
- **Yeganə** Ələddin qızı (1978, Qazax) Yevlax şəhərindən Məhəmməd ilə ailə qurub. Doğuş adlı oğlu var. Gəncədə yaşayırlar.
- **Sitarə** Ələddin qızı (1982, Qazax) həmyerlisi Tengiz ilə ailə qurub. Türkiyədə yaşayırlar. İki övladı var.
- **Maya** Məhərrəm qızı (1943, Qazax) əmisi oğlu Müseyib İsmayıl oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar. 2014-cü ildə Gəncədə vəfat etdi.
- **Zöhrə** Məhərrəm qızı (1948, Qazax) Tərtərdən Həsən Cavad oğlu ilə ailə qurub. Cavad, Zaur adlı iki oğlu, Tünzalə və Sevinc adlı iki qızı olub. Gəncədə yaşayırlar.
- **Elmira** Məhərrəm qızı (1954, Qazax) Qazax rayonunun Şıxlı kəndindən Sabir Mustafa oğlu ilə ailə qurub. Yusif, Anar adlı iki oğlu var. Gəncə şəhərində yaşayırlar.
- **Rəfiqə** Məhərrəm qızı (1956, Qazax) Qazaxdan Nizami Xıdır oğlu ilə ailə qurub. Tamerlan adlı oğlu, Türkən adlı qızı var. Gəncədə yaşayırlar.
- **Həsən** Məşədi İbrahim oğlu (1912, Sədənağac) Hüsənlilərdən Nazxanım Salman qızı ilə ailə qurub. Polad və Novruz adlı iki oğlu, Xəzangül, Bağdagül, Mahizər, Yazgül, Mətanət adlı beş qızı olub. 1987-ci ildə Güney kəndində vəfat etdi. Böyük Vətən müharibəsi iştirakçısı olub, əsgəri təltifatları var idi.
- **Polad** Həsən oğlu (1957, Güney) mahalın Pəmbək kəndindən Həmaya İsmayıl qızı ilə ailə qurub. Xanoğlan, Elməddin adlı iki oğlu, Elnarə və Pərvanə adlı iki qızının olduğu məlumdur. 1988-ci il deportasiyasından sonra Şəmkirin Çənlibel kəndində məskunlaşdılar. 1990-cı ildə vəfat edib və Şəmkirin Yeni Göyçə kənd qəbiristanlığında dəfn olunub.
- **Novruz** Həsən oğlu (1968, Güney) Məşədi Hüseynlilərdən Pünhan Vahid qızı ilə ailə qurub. Həsən, Elşən adlı iki oğlu var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Yeni Göyçə kəndində məskunlaşdılar.
- **Həsən** Novruz oğlu (1988, Yeni Göyçə) hərbi xidmətdədir.

- **Elşən** Novruz oğlu (1992, Yeni Göyçə).
- **Xəzangül** Həsən qızı (1941, Güney) Qazaxdan Tofiq (Kolya) Məhərrəm oğlu ilə ailə qurub. Ehtiram, İlham adlı iki oğlu, Almaz və Gülnaz adlı iki qızı olub. Qazax şəhərində yaşayırlar.
- **Bağdagül** Həsən qızı 1943-cü ildə Basarkeçər rayonunun Güney kəndində anadan olmuşdur. Qazaxdan Həmid Əli oğlu ilə ailə qurmuşdur. Akif adlı bir oğlu, Azadə, Tahirə, İradə adlı üç qızı olub. Qazax şəhərində yaşayırlar.
- **Mahizər** Həsən qızı (1946, Güney) Məşədi Hüseynlilərdən Şəmistan Dıvış oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Yazgül** Həsən qızı (1959, Güney) Mirzalılardan Rza Hüseyn oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Mətanət** Həsən qızı (1962, Güney) Türkmənistanda yaşayır. Ailə tərkibi haqda məlumat yoxdur.
- **Əhmədiyyə** Məşədi İbrahim oğlu (1916, Sədənağac) gənc yaşlarında xəstəlikdən vəfat edib. Evli deyildi.
- **Hüseyn** Məşədi İbrahim oğlu (1919, Sədənağac) gənc yaşlarında tikintidə həlak olub. Evli deyildi.
- **Gülxanım** Məşədi İbrahim qızı (1891, Sədənağac) mahalın Kiçik Məzrə kəndindən Hümbət Novruz oğlu ilə ailə qurub. Bayraməli və Dünyamalı adlı iki oğlu, Tükəzban və Səlvi adlı iki qızı olub. 1973-cü ildə kənddə vəfat edib.
- **Mələksima** Məşədi İbrahim qızı (1921, Sədənağac) Hacı Ramazanlılardan Allahverdi Hacı Rza oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Kənddə vəfat edib.
- **Abdulla** Məmməd oğlunun (1869, Sədənağac) sonrakı taleyi məlum deyil.
- **İsmayıl** Məmməd oğlu (1873, Sədənağac) iki dəfə evlənib. Birinci həyat yoldaşı Səlvidən Yusif adlı oğlu, Züleyxa, Sögülü,Teyfə adlı üç qızı olub. İkincidə Yeni Bəyazid qəzasının Mollalı kəndindən Xanım Süleyman qızı (1875-1959) ilə ailə qurub. Bu evlilikdən Müseyib adlı oğlu, Tamam adlı qızı olub. 1936-cı ildə kənddə vəfat etmişdir.
- **Yusif** İsmayıl oğlu (1908, Sədənağac) 13 sentyabr 1941-ci ildə Böyük Vətən müharibəsinə səfərbər olunub,1942-ci ilin yanvar ayında itkin düşdüyü qeyd edilib.

- **Müseyib** İsmayıl oğlu (1936, Güney) əmisi qızı Maya Məhərrəm qızı ilə ailə qurub. Rəşad və İsmayıl adlı iki oğlu, Solmaz, Xatirə, Ətayət və Lətayət adlı dörd qızı var.
- **Rəşad** Müseyib oğlu (1970, Güney) Gəncə şəhərindən Vəfa Şəmil qızı ilə ailə qurub. Ülvi və Ruslan adlı iki oğlu var. Gəncədə yaşayır.
- **Ülvi** Rəşad oğlu (1994, Gəncə) ali təhsillidir. Gəncə şəhərindən Nərmin Elçin qızı ilə ailə qurub. Gəncədə yaşayırlar.
- **Ruslan** Rəşad oğlu (1998, Gəncə) Gəncədə yaşayır.
- **İsmayıl** Müseyib oğlu (1974, Güney).
- **Solmaz** Müseyib qızı (1962, Güney) Qazax rayonunun Birinci Şıxlı kəndindən Yasin Mustafa oğlu ilə ailə qurub. Ceyhun, Aqil adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **Xatirə** Müseyib qızı (1966, Güney) Masallıdan Rauf Sərxoş oğlu ilə ailə qurub. Xalid adlı oğlu, Lamiyyə adlı qızı var. Masallıda yaşayırlar.
- **Ətayət** Müseyib qızı (1968, Güney) Qazaxdan Nəsib Nadir oğlu ilə ailə qurub. Anar adlı oğlu, Natavan adlı qızı var. Gəncədə yaşayırlar.
- **Lətayət** Müseyib qızı (1973, Güney) Qazax rayonunun Birinci Şıxlı kəndindən Bayram Mustafa oğlu ilə ailə qurub. Emin adlı oğlu, Arzu, Nərminə adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Züleyxa** İsmayıl qızı (1893, Sədənağac) əmisi oğlu Sayad Məşədi İbrahim oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1913-cü ildə gənc yaşında vəfat edib.
- **Sögülü** İsmayıl qızı (1904, Sədənağac) Alı Aslanov ilə ailə qurub. Şahbaz adlı oğlu, Tomara və Minara adlı iki qızı olub. 1957-ci ildə ailəliklə Şəmkir şəhərinə köçmüşlər. 1964-cü ildə orada vəfat etmişdir.
- **Teyfə** İsmayıl qızı (1907, Sədənağac) Ataş Məmməd oğlu ilə ailə qurub. Övladları olmayıb. 1987-ci ildə 80 yaşında Güney kəndində vəfat etdi.
- **Tamam** İsmayıl qızı (1934, Güney) öz tayfalarından Abbas Sayad oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Tovuzun Girzan qəsəbəsində məskunlaşdılar. 2014-cü ildə orada vəfat etdi.
- **İmran** Məmməd oğlu (1875, Sədənağac) Mirzalılardan Bilqeyis Mirzə qızı ilə ailə qurub. Övladı olmayıb. 1955-ci ildə kənddə vəfat edib.

1873-cü ilin kameral təsvirində Məmməd Rüstəm oğlunun qardaşları Sədənağac kəndində qeydə alınıblar. Ancaq sonrakı taleləri naməlumdur:

- **İsgəndər** Rüstəm oğlu (1838).
- **Əhməd** Rüstəm oğlu (1841).
- **Kazım** Rüstəm oğlunun (1850) Şaban adlı bir oğlu məlumdur.
- **Şaban** Kazım oğlu (1871, Sədənağac) 1873-cü ilin kameral siyahısında göstərilmişdir. Araşdırmalar zamanı Şabanın Səfər adlı bir oğlunu təyin edə bildik.
- **Səfər** Şaban oğlu (1912, Sədənağac) həmkəndlisi Qəndab Cavad qızı ilə ailə qurmuşdur. Elbrus adlı bir oğlu olub. 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. 1944-cü ilin yanvar ayının 21-də Ukraynada Kiyev vilayəti Olşansk rayonunun Olşanko kəndində döyüşlərdə həlak olub və oradakı qardaşlıq məzarında dəfn olunub. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.
- **Elbrus** Səfər oğlu (1936, Sədənağac) müharibədən sonra anası Qəndab Cavad qızı ilə Samux rayonunun Seyidlər kəndinə köçdü. Hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Tağıqulu** Rüstəm oğlu (1853). Başqa məlumat yoxdur.
- **Möhsün** Rüstəm oğlu (1855). Başqa məlumat yoxdur.
- **İsgəndər** Rüstəm oğlu (1838). Başqa məlumat yoxdur.
- **Əhməd** Rüstəm oğlu (1841). Başqa məlumat yoxdur.
- **Allahverdi** Mürşüd oğlu (1908, Sədənağac). Xəzangül adlı qadınla ailə qurub. Misir adlı bir oğlu olub. 23 iyul 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci ilin aprel ayında itkin düşdüyü haqda ailəsinə bildiriş gəlib. Sədənağac kəndi Böyük Vətən müharibəsi illərində bölməsində haqqında əlavə məlumat verilir.


RÜSTƏM
Məmməd
İsgəndər
Əhməd
Kazım
Tağıqulu
Möhsün
İbrahim
Abdulla
İmran
İsmayıl
Şaban
Mürşüd
Allahverdi
Sayad
Ataş
Məhərrəm
Hüseyn
Həsən
Əhmədiyyə
Səfər
Misir
Məcnun
Abbas
Zülal
Polad
Novruz
Elbrus
Şahin
Zöhrab
Xanoğlan
Elməddin
Həsən
Elşən
Sahib
Zəfər
Fərhad
Yusif
Müseyib
Rüstəm
Tural
Nihad
Rəşad
İsmayıl
Səid
İqbal
Mehdi
Məcnun
Ülvi
Ruslan
Ələddin
Vəliyəddin
Rövşən

TATLAR

XIX əsrin sonlarında Güney Azərbaycandan Sədənağac kəndinə, oradan isə Azərbaycanın Gədəbəyətrafı kəndlərə tez-tez tacirlər gələrdi. Onlardan Gülməmməd adlı biri də quru meyvə ticarəti ilə məşğul olmaq üçün tez-tez bu kəndə gələr, burada alverlə məşğul olardı. Hərdənbir oğlu Abdullanı da özü ilə gətirirdi. Abdulla Hüsənlilərdən Cavahir Məhəmməd qızına aşiq olur, onunla evlənmək qərarına gəlir və bu kəndi daimi yaşayış məskəni seçir. Atası Gülməmməd kişi oğlunun bu fikri ilə razılaşır. Abdulla evləndikdən sonra atası ona bir dükan açır. Yəqin ki, yaşlı nəsil bu dükanın yerini unutmayıblar. Həmin dükanın uçuqları 1970-ci illərin sonlarınadək Əli (Əliş) Qasım oğlu İsgəndərovun həyətində bağın poçta tərəf küncündə yemişan ağacının altında dururdu və ağsaqqallar buranı "Abdullanın dükanı" kimi tanıyırdılar. Abdullanın övladları doğulur, kənd camaatı onlara "tatlar" deyə müraciət edirdilər, çünki o vaxtlar Arazın o tayından gələnləri Göyçədə "tatlar" deyə çağırardılar.

- **Abdulla** Gülməmməd oğlu 1862-ci ildə Güney Azərbaycanda (mahalını müəyyən edə bilmədik) doğulmuşdur. 1883-cü ildə Sədənağac kəndini daimi yaşayış yeri seçərək, burada dükan açmış və kənddə yaşamağa başlamışdır. Hüsənlilərdən Cəvahir Məhəmməd qızı ilə ailə qurmuşdur. Əsəd, Bəylər, Adil adlı üç oğlu, Səkinə adlı qızı olub.
- **Əsəd** Abdulla oğlu (1885, Sədənağac) Kəsəmən kəndindən Gilə Məşədi Zeynalabdı qızı ilə ailə qurub. Qədim, Saleh, Bayram, Əmrah, Abbas adlı beş oğlu, Lalaxanım, Salatın və Gözəl adlı üç qızı olub. 1941-ci ildə kənddə vəfat edib.
- **Qədim** Əsəd oğlu (1915, Sədənağac) Koluxlulardan Tomu Yusif qızı ilə ailə qurub. Övladı olmayıb. Böyük Vətən müharibəsindən qayıtmayıb.
- **Saleh** Əsəd oğlu (1917, Sədənağac) 1942-ci ilin fevral ayında hərbi xidmətə çağırılmışdır. 1942-ci il may ayının 25-də Orlov vilayəti Mtsensk rayonunun Bastıyevo kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş və Bastıyevo kənd qəbiristanlığında dəfn olunmuşdur. Sədənağac kənd sakinləri Böyük Vətən müharibəsi illərində bölməsində haqqında əlavə məlumat verilir.
- **Bayram** Əsəd oğlu (1924, Sədənağac) Qanlı kəndindən Salatın Qoşunalı qızı ilə ailə qurmuşdur. Mahir adlı oğlu olub. 1953-cü ildə gənc yaşında kənddə vəfat edib.

- **Mahir** Bayram oğlu (1948, Güney) Qəhrəmanlılardan Həmaya Qədir qızı ilə ailə qurmuşdur. Əli adlı oğlu var. 1988-ci il deportasiyasından sonra Şəmkirin Posanlı kəndində məskunlaşdı.
- **Əli** Mahir oğlu (1978, Güney) ali təhsillidir. Koluxlulardan Sevil Müstəcəf qızı ilə ailə qurmuşdur. Elmir və Bayram adlı iki oğlu var.
- **Elmir** Əli oğlu (2000, Şəmkir).
- **Bayram** Əli oğlu (2001, Şəmkir).
- **Əmrah** Əsəd oğlu (1926, Sədənağac) rayonun Qanlı kəndindən Gülnaz Allahverdi qızı ilə ailə qurub, övladı olmayıb. 1954-cü ildə kənddə vəfat edib.
- **Abbas** Əsəd oğlu (1931, Sədənağac) Hüsənlilərdən Sona Müsüd qızı ilə ailə qurub. Alim adlı oğlu olub. 1988-ci il deportasiyasından sonra Şəmkirin Posanlı kəndində məskunlaşdılar. 2006-cı ildə vəfat etdi və Şəmkir şəhər qəbiristanlığında dəfn olundu.
- **Alim** Abbas oğlu (1957, Güney) Hüsənlilərdən Diləfruz Aslan qızı ilə ailə qurub. Yasin, Qədim, Tural adlı üç oğlu olub. 1988-ci il deportasiyasından sonra Şəmkirin Posanlı kəndində məskunlaşdılar. 2015-ci ildə vəfat etdi və Şəmkir şəhər qəbiristanlığında dəfn olundu.
- **Yasin** Alim oğlu (1980, Güney) Məşədi Hüseynlilərdən Dilarə Ramiz qızı ilə ailə qurmuşdu. Abbas adlı oğlu, Atilla adlı qızı olmuşdu. 2016-cı ildə vəfat edib və Şəmkir şəhər qəbiristanlığında dəfn olunub.
- **Qədim** Alim oğlu (1981, Güney) ali təhsillidir. Şəmkirin Bayramlı kəndindən (keçmiş Kolxozkənd) Şəlalə Qurban qızı ilə ailə qurub. Nihat, Rinat, Alim adlı üç oğlu var. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Şəmkir rayonunun Posanlı kəndində yaşayır.
- **Tural** Alim oğlu (1986, Güney) Gəncə şəhərindən Hüsənlilərdən Nuridə Saday qızı ilə ailə qurub. Mələk və Zəhra adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Şəmkir rayonunun Posanlı kəndində yaşayır.
- **Lalaxanım** Əsəd qızı (1909, Sədənağac) iki dəfə evlənib. Birincidə Mirzalılardan Əli Məmmədvəli oğlu ilə ailə qurub. Bu nikahdan İsa və Musa adlı iki oğlu olub. Əli 1931-ci ildə vəfat edib. İkincidə Məşədi Hüseynlilərdən Oruc Rüstəm oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1971-ci ildə kənddə vəfat edib.
- **Salatın** Əsəd qızı (1927, Sədənağac) iki dəfə ailə qurub. Birinci həyat yoldaşı rayonun Kəsəmən kəndindən Allahverdi Hüseynqulu oğludur. Bəyaz adlı qızı


olub. Allahverdi Böyük Vətən müharibəsindən qayıtmayıb. İkincidə Mirzalılardan Hüseyn Səfəralı oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1966-cı ildə kənddə vəfat edib.

- **Gözəl** Əsəd qızı (1929, Sədənağac) Koluxlulardan Ziyad Nəsib oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 2010-cu ildə Şəmkirin Posanlı kəndində vəfat edib və Şəmkir şəhər qəbiristanlığında dəfn olunub.
- **Bəylər** Abdulla oğlu (1898, Sədənağac) Mirzalılardan Mədinə Səfəralı qızı ilə ailə durmuşdur. Onun Qədir, Məmməd, Süleyman adlı üç oğlu, Xanım və Məyxanım adlı iki qızı olub. 29 yanvar 1942-ci ildə hərbi xidmətə çağırılmışdır.1945-ci ildə ordudan tərxis edilib və kəndə qayıdır. 1949-cu ildə Göyçə gölündə gəmidə qəzaya uğrayaraq həlak olub.
- **Qədir** Bəylər oğlu (1929, Sədənağac) Koluxlulardan Fəhruz Cığı qızı ilə ailə qurmuşdur. Akif, Alik adlı iki oğlu, Minayə, Dilarə və Sahibə adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra Bakıya gəldilər. 2003-cü ildə vəfat etdi və Badamdar qəbiristanlığında dəfn olundu.
- **Akif** Qədir oğlu (1955, Güney) Çəkməlilərdən Sücayət Salman qızı ilə ailə qurub. Kənan və Elnur adlı iki oğlu, Xalidə adlı qızı var. 1979-cu ildə Bakı şəhərinə köçdü. 2019-cu ildə orada vəfat etdi və Badamdar qəbiristanlığında dəfn olundu.
- **Kənan** Akif oğlu (1973, Güney) Bakıdan Aynurə Güləli qızı ilə ailə qurub. Elmir adlı oğlu, Ayşən adlı qızı var. Bakıda yaşayır.
- **Elmir** Kənan oğlu (1997, Bakı).
- **Ayşən** Kənan qızı (2001, Bakı).
- **Elnur** Akif oğlu (1977, Güney) Bakı şəhərindən Mənsurə Sahib qızı ilə ailə qurub. Nicat və Nihat adlı iki oğlu var. Bakıda yaşayırlar.
- **Xalidə** Akif qızı (1982, Bakı) Hacı Ramazanlılardan Əkbər Mehdi oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Alik** Qədir oğlu (1957, Güney) ali təhsilli idi. Koluxlulardan Şölə (Bəsdi) Gəncə qızı ilə ailə qurmuşdur. Vüsal və Tural adlı iki oğlu var. 2010-cu ildə vəfat etdi, Badamdar qəbiristanlığında dəfn olunub.
- **Vüsal** Alik oğlu (1986, Güney) ali təhsillidir. Bakıdan Zahidə Elman qızı ilə ailə qurmuşdur. Nigar və Nərgiz adlı iki qızı var. Bakıda yaşayırlar.

- **Röyal** Alik oğlu (1989, Bakı) ali təhsillidir. Füzuli rayonunun Qaraxanlı kəndindən Aytən Füzuli qızı ilə ailə qurub. Ayan adlı qızı var. Bakıda yaşayırlar.
- **Minayə** Qədir qızı (1962, Güney) Məşədi Hüseynlilərdən Dəmir Hüseyn oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Dilarə** Qədir qızı (1965, Güney) Mirzalılardan Xanoğlan Mahmud oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Sahibə** Qədir qızı (1968, Güney) Babalılardan Sənani Fidayıl oğlu ilə ailə qurmuşdur. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Bakıda yaşayırlar.
- **Məmməd** Bəylər oğlu (1931, Sədənağac) Kəsəmən kəndindən Dilbər İsgəndər qızı (bibisi qızı) ilə ailə qurmuşdur. Surəddin, Məzahir, Nurəddin adlı üç oğlu, Lətafət adlı bir qızı olub. 1988-ci il deportasiyasından sonra Goranboy rayonunun Dəyirmanlar kəndində məskunlaşdılar.
- **Surəddin** Məmməd oğlu (1960, Güney) ali təhsilli idi. Mirzalılardan Məxmər Musa qızı ilə ailə qurmuşdur. Fərhad adlı oğlu, Sahilə adlı qızı olub. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar. 2008-ci ildə orada vəfat etdi.
- **Fərhad** Surəddin oğlu (1985, Güney) Aytən Hüseyn qızı ilə ailə qurmuşdur. Turan, Fəqan adlı iki oğlu var. Goranboyun Dəyirmanlar kəndində yaşayır.
- **Sahilə** Surəddin qızı (1983, Güney) Goranboyun Faxralı kəndindən Cavanşir Seyfəddin oğlu ilə ailə qurub. Mələk adlı qızı var. Faxralı kəndində yaşayırlar.
- **Məzahir** Məmməd oğlu (1962, Güney) Mirzalılardan Zərraf Mahmud qızı ilə ailə qurmuşdur. Sahib, Pərviz adlı iki oğlu var. 1980-ci ildə Goranboyun Dəyirmanlar kəndində məskunlaşdı.
- **Sahib** Məzahir oğlu (1986, Dəyirmanlar) Mirzalılardan Məlahət Sayəddin qızı ilə ailə qurub. Cahid adlı oğlu, Aysu adlı qızı var.
- **Pərviz** Məzahir oğlu (1990, Dəyirmanlar) həmkəndlisi Hicran Mübariz qızı ilə ailə qurmuşdur.
- **Nurəddin** Məmməd oğlu (1964, Güney) Naxçıvandan Leyla Tahir qızı ilə ailə qurmuşdur. Sehun adlı oğlu, Nərmin adlı qızı var. Goranboyun Dəyirmanlar kəndində yaşayır.

- **Sehun** Nurəddin oğlu (1989, Naxcıvan) Məşədi Hüseynlilərdən Aytən Knyaz qızı ilə ailə qurub. Leyla və Alin adlı iki qızı var. Gəncədə yaşayır.
- **Nərmin** Nurəddin qızı (1991, Naxçıvan) Gədəbəydən Vaqif Yəhya oğlu ilə ailə qurub. Onur adlı oğlu, Yağmur adlı qızı var.
- **Lətifə** Məmməd qızı (1958, Güney) Masis rayonundan Ziyəddin Əsgər oğlu ilə ailə qurmuşdur. Sərxan, Elxan adlı iki oğlu, Əminə adlı qızı var. 2007-ci ildə Goranboyun Dəyirmanlar kəndində vəfat etmişdir.
- **Süleyman** Bəylər oğlu (1935, Güney) Məşədi Hüseynlilərdən Səfa Qoşunalı qızı ilə ailə qurmuşdur. Rafiq, Nəsir, Eldəniz, Elşad, Vüqar adlı beş oğlu, Şayəstə adlı qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdı. 2007-ci ildə Gəncədə vəfat etmişdir.
- **Rafiq** Süleyman oğlu (1961, Güney) ali təhsillidir. Bakıdan Təranə Kərim qızı ilə ailə qurub. Vüsal adlı oğlu və Vüsalə adlı qızı var. Bakıda yaşayır.
- **Vüsal** Rafiq oğlu (1987, Bakı) Gədəbəydən Kəmalə Əyliz qızı ilə ailə qurub. Bakıda yaşayır.
- **Vüsalə** Rafiq qızı (1985, Bakı).
- **Nəsir** Süleyman oğlu (1969, Güney) Hüsənlilərdən Nadya Köçəri qızı ilə ailə qurub. Elxan, Zaur adlı iki oğlu, Aysel adlı qızı var. Bakıda yaşayır.
- **Zaur** Nəsir oğlu (1988, Güney) Hüsənlilərdən Aida Musa qızı ilə ailə qurub. Bakıda yaşayır. Bahar adlı qızı var.
- **Elxan** Nəsir oğlu (1992, Gəncə) Goranboyun Dəyirmanlar kəndindən İnarə Şükür qızı ilə ailə qurub. Nəsir adlı oğlu var. Bakıda yaşayırlar.
- **Aysel** Nəsir qızı (1990, Gəncə) Yevlax rayonunun Aran kəndindən Qalib Qabil oğlu ilə ailə qurub. Qabil adlı oğlu, Banu adlı qızı var. Aran kəndində yaşayırlar.
- **Eldəniz** Süleyman oğlu (1971, Güney) rayonun Kəsəmən kəndindən Məlahət Əli qızı ilə ailə qurmuşdur. Elyar və Elcan adlı iki oğlu var. Gəncədə yaşayır.
- **Elyar** Eldəniz oğlu (1999, Gəncə).
- **Elcan** Eldəniz oğlu (2003, Gəncə).
- **Elşad** Süleyman oğlu (1975, Güney) ali təhsillidir. Bakıdan Ramilə Şirin qızı ilə ailə qurub. Elvin və Elçin adlı iki oğlu var. Bakıda yaşayır.
- **Elvin** Elşad oğlu (1995, Bakı) ali təhsillidir. Subaydır. Valideynləri ilə birlikdə Bakıda yaşayır.
- **Elçin** Elşad oğlu (1997, Bakı) ali təhsillidir.

- **Vüqar** Süleyman oğlu (1977, Güney) Gəncədən Vüsalə ilə ailə qurub. Kərim adlı oğlu, Səfa və Nastı adlı iki qızı var. Gəncədə yaşayır.
- **Xanım** Bəylər qızı (1937, Güney) Koluxlulardan Şahbaz Gülalı oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Bakı şəhərində məskunlaşdılar.
- **Məyxanım** Bəylər qızı (1941, Güney) Mirzalılardan Musa Əli oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboyun Dəyirmanlar kəndində məskunlaşdılar. 2009-cu ildə orada vəfat etdi.
- **Adil** Abdulla oğlu (1913, Sədənağac) 06 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılıb. 1942-ci ilin aprel ayında itkin düşmüşdür.
- **Səkinə** Abdulla qızı (1905, Sədənağac) mahalın Kəsəmən kəndindən Kərimlilər tayfasından İsgəndər Kərim oğlu ilə ailə qurub. Haqverdi, Məhəmməd və Hümbət adlı üç oğlu, Həcər, Pəri, Dilbər və Səmayə adlı dörd qızı olub. Kəsəməndə vəfat edib və orada dəfn olunub.


ABDULLA GÜLMƏMMƏD OĞLU
Əsəd
Adil
Bəylər
Qədim
Saleh
Bayram
Əmrah
Abbas
Mahir
Alim
Elmir
Bayram
Yasin
Qədim
Tural
Abbas
Nihad
Rinat
Alim
Qədir
Məmməd
Süleyman
Akif
Alik
Kənan
Elnur
Elmir
Nicat
Nihat
Vüsal
Röyal
Rafiq
Vüsal
Nəsir
Elxan
Zaur
Eldəniz
Elyar
Elcan
Elşad
Elvin
Elçin
Vüqar
Kərim
Sureddin
Məzahir
Nureddin
Fərhad
Sahib
Pərviz
Sehun
Turan
Fəqan
Cahid

SƏDƏNAĞACA SONRALAR KƏNARDAN QOŞULMUŞ AİLƏLƏR

• *Allahverən (Dımış) Yusif oğlu Allahverdiyev*

(1906, Göyçə mahalının Ağbulaq k.)

Ağbulaq kəndində Kələşlilər nəslindən Babakişi oğlu Allahverənin nəvəsidir. Sədənağac kəndindən Məşədi Hüseynlə əmioğludur. Bir müddət Gədəbəy rayonunun İvanovka kəndində yaşayıblar. Sonralar Göyçə mahalının Şişqaya kəndindən Zeynəb ilə ailə qurub. Bu nikahdan Göyçək, Pakizə, Bəsdi, Maya və Həmayıl adlı beş qızı olub.

Böyük Vətən müharibəsindən qayıtdıqdan sonra ayrılıblar. Allahverən (Dımış) Sədənağac kəndinə köçüb. Orada Mirzalılardan Məmmədvəli Mirzə oğlunun yanında usta köməkçisi işləyərək dəmirçilik və dülgərlik peşələrini öyrənib.

1955-ci ildə bu kənddə Məşədi Hüseynlilərdən Yusif Məhəmməd oğlunun qızı Səkinə ilə ailə qurub. Məhəmməd, Hümbət adlı iki oğlu, Sona adlı bir qızı olub. 1962-ci ildə ağır xəstəlikdən vəfat edib. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.

- **Məhəmməd** Allahverən oğlu (1956, Güney) 1979-cu ildə anası Səkinə ilə birlikdə Şəmkir rayonunun Könüllü kəndinə köçüblər. Hal-hazırda Rusiyanın Sankt-Peterburq şəhərində yaşayır.
- **Hümbət** Allahverən oğlu (1961, Güney) 1979-cu ildə anası Səkinə ilə birlikdə Şəmkirin Könüllü kəndinə köçüblər. 2000-ci ildə rəhmətə gedib. Ailəsi: həyat yoldaşı və 2 oğlu Rusiyanın Oryol vilayətində yaşayır.
- **Sona** Allahverən qızı (1960, Güney) 1979-cu ildə anası Səkinə ilə birlikdə Şəmkir rayonunun Könüllü kəndinə köçüblər. Həyat yoldaşı Qarabağ döyüşlərində şəhid olub. Yaşar adlı bir oğlu var. 2017-ci ildə Könüllü kəndində vəfat edib.

• *Bəhmən Vəli oğlu*

(1946, Qanlı kəndi)

Anası Purzə Abbas qızı həyat yoldaşından ayrılaraq 3 yaşlı oğlu Bəhməni də götürüb Sədənağaca qayıtdı. Sədənağacda boya-başa çatan Bəhmən Vəli oğlu Məşədi Hüseynlilərdən Sənakət İsgəndər qızı ilə ailə qurdu. Ruslan və Rüstəm adlı iki oğlu, Gültəkin və Minarə adlı iki qızı oldu. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Könüllü kəndinə köçdü. 1996-cı ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.

- **Ruslan** Bəhmən oğlu (1982, Güney) rayonun Şişqaya kəndindən Arzu Oruc qızı ilə ailə qurub. Ömər və Bəhmən adlı iki oğlu var. Şəmkir rayonunun Könüllü kəndində yaşayır.
- **Rüstəm** Bəhmən oğlu (1984, Güney).
- **Gültəkin** Bəhmən qızı (1979, Güney) Qaşqay Yəhya oğlu ilə ailə qurub. Elnur və Kərim adlı iki oğlu, Aytac adlı qızı var. Şəmkirin Könüllü kəndində yaşayırlar.
- **Minarə** Bəhmən qızı (1981, Güney) Şəmkirin Quşqara kəndindən İsmayıl Qurban oğlu (ögey əmisi oğlu) ilə ailə qurub.

• *Əmiraslanovlar ailəsi*

Keçən əsrin əvvəllərində maldarlıqla məşğul olan Sədənağac sakinlərinin əksəriyyəti qış fəslində Samux rayonunun Eldar kəndi (Qırmızı Samux indiki Qaraağaclı) ərazisinə qışlağa gedir, yaza qədər mal-qaranı orada saxlayırdılar. Qışı orada keçirənlərdən biri də Məhəmməd Hüsən oğlunun ailəsi idi. Onlar Eldar kənd sakini Əmiraslanla ailəvi yaxın olublar. Sonralar bu dostluq qohumluğa çevrildi. Əmiraslanın oğlu Əli ilə Məhəmmədin qızı Zibeydə ailə qurdular və Eldar kəndində yaşamağa başladılar. Deyilənə görə, bir neçə ildən sonra Əli ilə yerli sakinlərdən bir neçəsi arasında ixtilaf baş verir, araya ədavət düşür. Belə bir şəraitdə yaşamağın mümkünsüzlüyünü nəzərə alan Əli öz ailəsi və qardaşı Şükürlə birlikdə daimi yaşayış yeri kimi Sədənağac kəndinə köçmüş və orada məskunlaşmışdılar.

- **Əli** Əmiraslan oğlu (1879, Eldar k., Samux r-nu) Zibeydə Məhəmməd qızı ilə ailə qurub. Şamil və Aslan adlı iki oğlu, Zəhra, Səkinə, Fatma və Şəfiqə adlı dörd qızı olub. Gənc yaşlarında vəfat edib.

- **Şamil** Əli oğlu (1925, Sədənağac) Hüsənlilərdən Nazlı Mehralı qızı ilə ailə qurmuşdur. Aydın, Mayıl, İsmayıl, İdris, Zakir, Yaşar, Sabir adlı yeddi oğlu, Tamara adlı qızı olub. Deportasiyadan sonra Bakıda məskunlaşdı, 2003-cü ildə vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.
- **Aydın** Şamil oğlu (1948, Güney) ali təhsillidir. Qəhrəmanlılardan Afaq İsmayıl qızı ilə ailə qurub. Anar adlı oğlu, Könül adlı qızı var. Bakıda yaşayırlar.
- **Anar** Aydın oğlu (1974, Bakı) ali təhsillidir. Lalə Pərviz qızı ilə ailə qurmuşdur. Şamil adında bir oğlu, Xədicə adında bir qızı var.
- **Könül** Aydın qızı (1975, Bakı) ali təhsillidir. Tehran Şəki oğlu ilə ailə qurmuşdur.
- **Mayıl** Şamil oğlu (1951, Güney) rayonun Kiçik Məzrə kəndindən Ulduz Cəmşid qızı ilə ailə qurmuşdur. Faiq adlı oğlu, Tərlan adlı qızı var. Deportasiyadan sonra Bakıda məskunlaşdılar.
- **Faiq** Mayıl oğlu (1979, Güney) ali təhsillidir. Mahalın Nərimanlı kəndindən Lalə Qabil qızı ilə ailə qurmuşdur. Hüseyn adlı oğlu, Mədinə və Zeynəb adlı iki qızı var.
- **Tərlan** Mayıl qızı (1989, Bakı) ali təhsillidir. Lənkəran şəhərindən Şahin Əli oğlu ilə ailə qurub. Bir qızı var. Bakıda yaşayırlar.
- **İsmayıl** Şamil oğlu (1952, Güney) ali təhsillidir. Hüsənlilərdən Firuzə Zeynalabdı qızı ilə ailə qurub. Daşqın, Ramin, Behruz adlı üç oğlu, Limanə adlı qızı var. Gəncədə yaşayır.
- **Daşqın** İsmayıl oğlu (1978, Güney) Gəncədən Aynur Etibar qızı ilə ailə qurub. Fidan və Nuray adlı iki qızı var. Gəncədə yaşayır.
- **Ramin** İsmayıl oğlu (1980, Güney) Gəncə şəhərindən Yeganə Sarif qızı ilə ailə qurub. Uğur adlı oğlu, Xədicə, Fatimə adlı iki qızı var. Gəncədə yaşayır.
- **Behruz** İsmayıl oğlu (1985, Gəncə) Gəncədə yaşayır.
- **Limanə** İsmayıl qızı (1978, Güney) Kəlbəcərdən Əli Yunis oğlu ilə ailə qurub. Elşən və Yunis adlı iki oğlu var. Gəncədə yaşayırlar.
- **İdris** Şamil oğlu (1954, Güney) ali təhsillidir. Rayonun Kiçik Məzrə kəndindən Tənatin Cəmşid qızı ilə ailə qurmuşdur. Şükür, Azad adlı iki oğlu, Günay adlı qızı var. 1988-ci il deportasiyasından sonra Bakıya gəldi. 2014-cü ildə vəfat etdi və Bakıda dəfn olunub. Ailəsi şəhərdə yaşayır.
- **Şükür** İdris oğlu (1983, Güney) ali təhsillidir. Şişqaya kəndindən Müşgünaz Vaqif qızı ilə ailə qurmuşdur.
- **Azad** İdris oğlu (1990, Bakı) ali təhsillidir.
- **Günay** İdris qızı (1982, Güney) ali təhsillidir. Tovuz rayonundan Lətif ilə ailə qurmuşdur. Firuzə adlı qızı var.

- **Zakir** Şamil oğlu (1957, Güney) ali təhsilli idi. Gəncə şəhərindən Reyhan Qələndər qızı ilə ailə qurmuşdur. Tural, Toğrul adlı iki oğlu, Günel adlı qızı var. 2016-cı ildə Bakıda vəfat edib və burada dəfn olunub. Ailəsi Bakıda yaşayır.
- **Tural** Zakir oğlu (1980, Bakı) ali təhsillidir.
- **Toğrul** Zakir oğlu (1980, Bakı) ali məktəb tələbəsidir.
- **Günel** Zakir qızı (1988, Bakı) ali təhsillidir. Naxçıvandan Əmir Nizami oğlu ilə ailə qurub. Nizami adlı oğlu, Jasmin adlı qızı var. Bakıda yaşayırlar.
- **Yaşar** Şamil oğlu (1960, Güney) ali təhsillidir. Borçalının Bolnisi rayonundan Nəzakət Qəhrəman qızı ilə ailə qurub. Rəhmənxanım və Höküməadlı iki qızı var, ali məktəb tələbəsidirlər. Ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.
- **Sabir** Şamil oğlu (1964, Güney) ali təhsillidir. Bakı şəhərindən Şəhla Murad qızı ilə ailə qurmuşdur. Orxan adlı oğlu, Lalə və Aygün adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Orxan** Sabir oğlu (1993, Bakı) ali təhsillidir.
- **Lalə** Sabir qızı (1989, Bakı) Bərdədən Babək Vahid oğlu ilə ailə qurub. Nərgiz adlı qızı var.
- **Aygün** Sabir qızı (1993, Bakı) ali təhsillidir.
- **Tamara** Şamil qızı (1963, Güney) mahalın Bala Məzrə kəndindən Vahid Cəmşid oğlu ilə ailə qurub. Amin adlı oğlu, Aysel adlı qızı var. Bakıda yaşayırlar.
- **Aslan** Əli oğlu (1927, Sədənağac) mahalın Kiçik Məzrə kəndindən Sənəm Bayraməli qızı (Sənəmin anası Zılfı Hüsənlilərdən Camal Məhəmməd oğlunun qızıdır) ilə ailə qurub. İsrail adlı oğlu, Tamella, Sənubər, Nəzakət adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra Goranboyun Xoylu kəndinə köçdü. 2010-cu ildə vəfat etdi və orada dəfn olunub.
- **İsrayıl** Aslan oğlu (1957, Güney) 1972-ci ildə Göyçə gölündə boğuldu, kənddə dəfn olunub.
- **Tamella** Aslan qızı (1953, Güney) mahalın Nərimanlı kəndindən Şahsuvar Şahvələd oğlu ilə ailə qurub. Seyfəddin və Həbib adlı iki oğlu, Elnarə və Tinarə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Samuxun Sarıqamış kəndində məskunlaşdılar.
- **Nəzakət** Aslan qızı (1955, Güney) Mirzalılardan İman Mahmud oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra ailəliklə Goranboyun Xoylu kəndində məskunlaşdılar.
- **Sevda** Aslan qızı (1960, Güney) Hüsənlilərdən Fazil Əhməd oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboyun Xoylu kəndində məskunlaşdılar.

- **Sənubər** Aslan qızı (1963, Güney) Samux rayonunun Sarıqamış kəndindən Əli İsmayıl oğlu ilə ailə qurub. İlham, Loğman, Əlvan, Nurlan adlı dörd oğlu var. Ailəsi ilə birlikdə Sarıqamışda yaşayır.
- **Tahirə** Aslan qızı (1974, Güney) Kiçik Məzrə kəndindən Vidadi Xıdır oğlu ilə ailə qurmuşdur. Nicat adlı bir oğlu, Səbinə və Nuranə adlı iki qızı var. Goranboyun Xoylu kəndində yaşayır.
- **Zəhra** Əli qızı (1907, Eldar) Gədəbəyin Səbətkeçməz kəndində yaşayan, əslən Göyçə mahalının Yarpızlı kəndindən olan Abduləli ilə ailə qurub. İsfəndiyar, Fəxrəddin, Köçəri, Qərib və Məsdan adlı beş oğlu və Səfa adlı bir qızı olub. 1967-ci ildə Səbətkeçməz kəndində vəfat edib və orada dəfn olunub.
- **Səkinə** Əli qızı (1909, Eldar) Samux rayonunun Qarayeri qəsəbəsində yaşayıb və orada vəfat edib. Valeh adlı oğlu, Xanım adlı qızı olub. Onlar da vəfat ediblər.
- **Fatma** Əli qızı (1927, Sədənağac) Gədəbəyin Miskinli kəndindən Məmməd Abbas oğlu ilə ailə qurub. Osman, Zeynalabdı, Şirəli adlı üç oğlu olub. 1993-cü ildə orada rəhmətə gedib və kənd qəbiristanlığında dəfn olunub.
- **Şəfiqə** (Motu) Əli qızı (1932, Sədənağaç) Gədəbəyin Miskinli kəndindən Hüseynov Məhərrəm Vəli oğlu ilə ailə qurmuşdur. Elbrus, Ramiz, İlqar, Rafiq adlı dörd oğlu, Zemfira, Elmira, Həqiqət adlı üç qızı olub. Hal-hazırda Gədəbəy rayonunun Miskinli kəndində yaşayırlar.
- **Şükür** Əmiraslan oğlu (1886, Eldar) Göyçə mahalının Kiçik Məzrə kəndindən Tükəzban Hümmət qızı ilə ailə qurub. Salman adlı bir oğlu, Sultan adlı bir qızı olub. 1946-cı ildə vəfat etmişdir və Sədənağac kənd qəbiristanlığında dəfn olunmuşdur.
- **Salman** Şükür oğlu (1912, Sədənağac)15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılıb. Müharibədən qayıtmayıb. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.
- **Sultan** Şükür qızı (1905, Sədənağac) Hümbətlə ailə qurub. Bu nikahdan Fərman adlı bir oğlu, Zəhra, Səmayə, Maral adlı üç qızı olub. 1939-cu ildə ağır xəstəlikdən vəfat edib.
- **Hümbət** deyilənə görə Şükürün adını bilmədiyimiz bir qardaşının oğludur. Haqqında başqa məlumat tapılmadı. Deyilənə görə Böyük Vətən müharibəsindən qayıtmayıb. Basarkeçər Rayon Hərbi Komissarlığının sənədlərində Hümbət haqqında heç bir məlumat tapa bilmədiyimizdən müharibə iştirakçıları bölməsində onun haqqında məlumat verə bilmədik.

- **Fərman** Hümbət oğlu (1932, Sədənağac) mahalın Pəmbək kəndindən Qədəmçə Rzaqulu qızı ilə (Qədəmçənin anası Səlvi Fərmanın anası Sultanın xalasıdır) ailə qurub. Sərdar, Abuzər, Heydər adlı üç oğlu, Lalə, Mehriban, Maral adlı üç qızı olub. 1986-cı ildə kənddə vəfat edib. Həyat yoldaşı Qədəmçə Rzaqulu qızı deportasiyadan sonra ailəliklə Bakıda məskunlaşdı.
- **Sərdar** Fərman oğlu (1951, Güney) Koluxlulardan Asiya Valeh qızı ilə ailə qurmuşdur. Nazim adlı oğlu, Sevinc, Xəyalə, Xalidə adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra ailəliklə Bakıda məskunlaşdılar. 2017-ci ildə vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.
- **Nazim** Sərdar oğlu (1980, Güney) Ağstafa şəhərindən Könül Zakir qızı ilə ailə qurub. Yusif adlı oğlu, Jalə adlı qızı var. Bakıda yaşayırlar.
- **Sevinc** Sərdar qızı (1978, Güney) mahalın Pəmbək kəndindən Emin Səhman oğlu ilə ailə qurmuşdur. Tunar adlı oğlu var.
- **Xəyalə** Sərdar qızı (1982, Güney).
- **Xalidə** Sərdar qızı (1984, Güney) Rəşad İsə oğlu ilə ailə qurub. Ülvi adlı oğlu, Yağmur adlı qızı var.
- **Abuzər** Fərman oğlu (1961, Güney) rayonun Pəmbək kəndindən Sona Kərəm qızı ilə ailə qurub. Sarxan adlı oğlu, Esmira və Leyla adlı iki qızı var. Deportasiyadan sonra ailəliklə Bakıda məskunlaşdılar.
- **Sarxan** Abuzər oğlu (1997, Bakı).
- **Esmira** Abuzər qızı (1988, Güney) Xaçmazdan Ayaz Biyaz oğlu ilə ailə qurmuşdur. Ömər adlı oğlu, Əsmər adlı qızı var.
- **Leyla** Abuzər qızı (1991, Bakı) Bakı şəhərindən İlhamla ailə qurub. Səkinə adlı bir qızı var. Bakıda yaşayırlar.
- **Heydər** Fərman oğlu (1964, Güney) rayonun Şişqaya kəndindən Raya Əli qızı ilə ailə qurmuşdur. Fərman adlı oğlu, Aygün adlı qızı var. 1988-ci il deportasiyasından sonra ailəliklə Bakıda məskunlaşdılar.
- **Fərman** Heydər oğlu (2000, Bakı).
- **Aygün** Heydər qızı (1994, Bakı) Gədəbəydən Ramin Tahir oğlu ilə ailə qurub. Bir qızı var. Rusiyada yaşayır.

• *Həsən Əli oğlu Orucov*

(1916, Sədənağac)

Mahalın Qanlı kəndindən olan Əli Oruc oğlu ilə Sədənağac kəndindən Heydər Əmrah oğlunun qızı Gülbaharın evliliyindən doğulub. Uşaq yaşlarından valideynlərini itirən Həsəni Koluxlulardan Həmid Bağır oğlu böyüdüb. Müharibədən qayıtdıqdan sonra Həsən Əli oğlu Həmidin qızı Kəhriz ilə ailə qurub. Rəşid, Nizami, Əli adlı üç oğlu, İpək, Sürəyya, Solmaz, Yamən, Qənirə, Həmayə və Sara adlı yeddi qızı olub. 1970-ci ildə Güney kəndində vəfat edib və orada dəfn olunub. Həyat yoldaşı Kəhriz Həmid qızı 1988-ci il deportasiyasından sonra oğlu Rəşidin ailəsi ilə birlikdə Şəmkir rayonunun Çənlibel kəndinə köçdü. 2007-ci ildə orada vəfat etdi.

- **Rəşid** Həsən oğlu (1950, Güney) Hüsənlilərdən Quba Teymuraz qızı ilə ailə qurmuşdur. Elçin və Eynur adlı iki oğlu, Şəhla və Şeyda adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndinə köçdü, hazırda ailəsi ilə birlikdə orada yaşayır.
- **Elçin** Rəşid oğlu (1976, Güney) Şəmkir rayonundan Tünzalə İdris qızı ilə ailə qurub. Emin adlı oğlu, Kəhriz adlı qızı var. Rusiyanın Novosibirsk şəhərində yaşayır.
- **Eynur** Rəşid oğlu (1981, Güney) Şəmkir rayonundan Gülnarə Rəşid qızı ilə ailə qurub. Hüseyn adlı oğlu, Aynur və Zeynəb adlı iki qızı var. Şəmkir rayonunun Çənlibel kəndində yaşayır.
- **Şəhla** Rəşid qızı (1977, Güney) Telman Muxtar oğlu ilə ailə qurub. Məhəmməd adlı oğlu, Samirə və Leyla adlı iki qızı var.
- **Şeyda** Rəşid qızı (1979, Güney) Rasim Əmirxan oğlu ilə ailə qurub. Samir və Aqil adlı iki oğlu var.
- **Nizami** Həsən oğlu (1956, Güney) hərbi xidmətdən sonra Rusiyanın Arxangelsk vilayətinin Arxangelsk şəhərində qaldı və hazırda orada yaşayır. Həyat yoldaşı milliyyətcə rusdur. Tatyana və Olya adlı iki qızı var.
- **Əli** Həsən oğlu (1965, Güney) Gədəbəydən Xatirə Fərman qızı ilə ailə qurub. Elvin adlı oğlu var. Rusiyanın Novosibirsk vilayətinin Novosibirsk şəhərində yaşayırlar.
- **Elvin** Əli oğlu (1994, Novosibirsk).
- **İpək** Həsən qızı (1946, Güney) rayonun Nərimanlı kəndindən Nurəddin Pənah oğlu ilə ailə qurmuşdur. Sayəddin və Elməddin adlı iki oğlu, İlhamə, Aytəkin, Xəzəngül, Sadəgül adlı dörd qızı var. 1988-ci il deportasiyasından sonra Yevlax rayonunun Aran kəndində məskunlaşdılar.

- **Sürəyya** Həsən qızı (1947, Güney) Hüsənlilərdən Məcid Xıdır oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndində məskunlaşdılar.
- **Yamən** Həsən qızı (1953, Güney) Mirzalılardan Bakir Mahmud oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. 1988-ci il deportasiyasından sonra Goranboy rayonunun Dəyirmanlar kəndinə köçdü. 2000-ci ildə orada vəfat edib.
- **Solmaz** Həsən qızı (1959, Güney) rayonun Kiçik Məzrə kəndindən Qubad Dəmir oğlu ilə ailə qurub. Çingiz, Elgiz, Natiq adlı üç oğlu, Elnurə adlı qızı var. 1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndində məskunlaşdılar.
- **Qənirə** Həsən qızı (1962, Güney) rayonun Daşkənd kəndindən Fəzail Əlifxan oğlu ilə ailə qurub. Sakit adlı oğlu, Məlahət və Xəyalə adlı iki qızı var. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar.
- **Həmayə** Həsən qızı (1963, Güney) Koluxlulardan Bəşir Camal oğlu (dayısı oğlu) ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Goranboy rayonunun Dəyirmanlar kəndində yaşayırlar.
- **Sara** Həsən qızı (1968, Güney) Qazax rayonunun Məzəm kəndindən Saleh Süleyman oğlu ilə ailə qurub. Süleyman adlı oğlu, Türkanə və Sona adlı iki qızı var. Məzəm kəndində yaşayırlar.

• *Mərişuşaqları*

Kənd camaatına kənardan qoşulmuş olanlardan biri də Məriş İmran oğlunun ailəsidir. Məriş İmran oğlunun (1923, Basarkeçər rayonunun Nərimanlı k.) Abdulla və Məhəddin adlı iki qardaşı, Məhbubə adlı bacısı olub. Bunlar azyaşlı olan zaman valideynlərinin hər ikisi vəfat etmişdir. Yetim qalan uşaqları xalası Kövsər Kalvayı Qasım qızı (Bağır oğlu Nəsibin həyat yoldaşı) Sədənağac kəndinə gətirib və öz himayəsində böyüdüb. Yetkinlik yaşına çatandan sonra Məhəddin və Abdulla Nərimanlı kəndinə qohum-əqrabalarının yanına qayıdıb və orada yaşayıblar. Məhbubə Qoşabulaq kəndinə ərə gedib.

- **Məriş** İmran oğlu 1941-ci ildə hərbi xidmətə çağırılıb və Böyük Vətən müharibəsində iştirak edib. Müharibədə orden və medallarla təltif edilib. Ordudan tərxis edildikdən sonra Sədənağac kəndinə qayıdıb. Koluxlulardan Tamam Nəsib qızı ilə ailə qurub. Fəxrəddin, Firuddin, Fərrux, Vaqif, Vüqar, İlqar və İqrar adlı yeddi

oğlu, Raziyə və Həmayıl adlı iki qızı olub. 1979-cu ildə ailəliklə Azərbaycana, İsmayıllı rayonunun Keyvəndi kəndinə köçüb və həyatının sonuna qədər orada yaşayıb. 2003-cü ildə vəfat edib və Goranboy rayonunun Dəyirmanlar kəndində dəfn olunub. Böyük Vətən müharibəsi iştirakçıları bölməsində haqqında əlavə məlumat verilir.

- **Fəxrəddin** Məriş oğlu (1951, Güney) rayonun Kiçik Məzrə kəndindən Elmira Yolçu qızı ilə ailə qurub. Rahib və Ramiz adlı iki oğlu olub. 1978-ci ildə Goranboy rayonunun Dəyirmanlar kəndinə köçmüşdür. 2016-cı ildə orada vəfat etmişdir.
- **Rahib** Fəxrəddin oğlu (1976, Güney) rayonun Bala Məzrə kəndindən Şəlalə Savalan qızı ilə ailə qurub. Rəvan və Rahib adlı iki oğlu var.
- **Ramiz** Fəxrəddin oğlu (1986, Dəyirmanlar) hazırda ailəsi ilə birlikdə orada yaşayır. Rayonun Kiçik Məzrə kəndindən Xatirə İlqar qızı ilə ailə qurub. Ülvi və Zaur adlı iki oğlu var.
- **Firuddin** Məriş oğlu (1953, Güney) ali təhsillidir. Gəncə şəhərindən Solmaz İslam qızı ilə ailə qurub. Ayaz və Hüseyn adlı iki oğlu, Aygün adlı qızı var. Bakı şəhərində yaşayır.
- **Ayaz** Firuddin oğlu (1984, Gəncə) ali təhsillidir.
- **Hüseyn** Firuddin oğlu (1994, Gəncə) ali təhsillidir.
- **Aygün** Firuddin qızı (1986, Gəncə) Koluxlulardan Sübhan Əyyub oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Fərrux** Məriş oğlu (1957, Güney) ali təhsillidir. Göyçə mahalının Cil kəndindən Sona Oruc qızı ilə ailə qurub. Arzu və Anar adlı iki oğlu, Könül adlı qızı var. 1979-cu ildə Goranboy rayonunun Dəyirmanlar kəndinə köçmüş və hazırda ailəliklə orada yaşayır.
- **Arzu** Fərrux oğlu (1985, Dəyirmanlar) ali təhsillidir. Gəncə şəhərindən Günay Aydın qızı ilə ailə qurub. Hüseyn adlı oğlu, Fatimə və Zəhra adlı iki qızı var. Hazırda Rusiyanın Xabarovsk şəhərində yaşayırlar.
- **Anar** Fərrux oğlu (1990, Dəyirmanlar).
- **Könül** Fərrux qızı (1987, Güney) ali təhsillidir. Şəmkir rayonunun Posanlı kəndində yaşayan Koluxlulardan Anar Dilqəm oğlu ilə ailə qurub. Ailə tərkibi haqda məlumat həyat yoldaşının səhifəsində verilir.
- **Vaqif** Məriş oğlu (1962, Güney) 1978-ci ildə ailəliklə İsmayıllı rayonunun Keyvəndi kəndinə köçdü. 1980-ci ildə hərbi xidmətə çağırıldı və Sovet Ordusu sıralarında Əfqanıstanda xidmət etdi. 1982-ci ildə döyüşlərdə qəhrəmancasına həlak oldu. Kitabın müharibə iştirakçıları fəsilində haqqında geniş məlumat verilir.

- **İlqar** Məriş oğlu (1965, Güney) ali təhsilli hərbçidir. Rusiya ordusunda general-mayor rütbəsində qulluq edir. Milliyyətcə rus olan Olya Sergeyevna ilə ailə qurub. Ruslan adlı oğlu var. Rusiyanın Rostov-Don şəhərində yaşayır.
- **Ruslan** İlqar oğlu (2001, Sverdlovsk).
- **Vüqar** Məriş oğlu (1971, Güney) Gəncə şəhərindən Günel Vahid qızı ilə ailə qurub. İlkin adlı oğlu, Zəhra adlı qızı var. Bakıda yaşayırlar.
- **İqrar** (Gündüz) Məriş oğlu (1973, Güney) keçmiş Ermənistan SSR Əzizbəyov rayonunun Köşbək kəndindən Mətanət Knyaz qızı ilə ailə qurub. Orxan adlı oğlu, Aida və Aysu adlı iki qızı var. İsmayıllı rayonunun Keyvəndi kəndində yaşayırlar.
- **Orxan** İqrar oğlu (1999, Keyvəndi) ali məktəb tələbəsidir.
- **Aida** İqrar qızı (2001, Keyvəndi) İsmayıllıda pedaqoji kollecdə təhsil alır.
- **Aysu** İqrar qızı (2007, Keyvəndi) orta məktəbdə oxuyur.
- **Raziyə** Məriş qızı (1947, Güney) Koluxlulardan Nəcəf Nəsib oğlu ilə ailə qurub. Ailəsi haqda məlumat həyat yoldaşının səhifəsində verilir. Goranboy rayonunun Dəyirmanlar kəndində yaşayırlar.
- **Həmayıl** Məriş qızı (1959, Güney) ali təhsillidir. 1979-cu ildə valideynləri ilə birlikdə İsmayıllı rayonunun Keyvəndi kəndinə köçdü, hazırda orada yaşayır.

• *Səməd Süleyman oğlu*

- **Səməd** Süleyman oğlu 10-12 yaşlarında Basarkeçər rayonunun Qaraqoyunlu kəndindən bibisi Yasəmənlə Güney kəndinə köçüb gəlmişdir. Hüsənlilərdən Səkinə Məsmalı qızı ilə ailə qurmuşdur. Hüseyn adlı oğlu olub. 1971-ci ildə kənddə vəfat etdi.
- **Hüseyn** Səməd oğlu (1964, Güney) Şahidə Qasım qızı ilə ailə qurub. Elvin adlı oğlu, Təhminə adlı qızı var. 1985-ci ildə ailəliklə Gəncə şəhərinə köçdülər. Hazırda orada yaşayırlar.
- **Elvin** Hüseyn oğlu (1989, Gəncə).
- **Təhminə** Hüseyn qızı (1993, Gəncə).

• *Vərqa Namaz oğlu*

- **Vərqa** Namaz oğlu (1943, Subatan) 3 yaşında olarkən anası ilə birlikdə Güney kəndinə gəlib. Ali təhsillidir. Babalılardan Fatimə Zeynalabdı qızı ilə ailə qurub. Nizami, İdris adlı iki oğlu, Aygün, Çiçək və Qızqayıt adlı üç qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar.
- **Nizami** Vərqa oğlu (1972, Güney) iki dəfə evlənib. Birincidə Gəncə şəhərindən İlahə Bəylər qızı ilə ailə qurub. Şahin adlı oğlu, Dəniz adlı qızı olub. Bir neçə ildən sonra ayrılıblar. İkincidə Elmira adlı qadınla ailə qurub. Övladı yoxdur. Bakı şəhərində yaşayır.
- **Şahin** Nizami oğlu (1997, Gəncə).
- **Dəniz** Nizami qızı (2004, Gəncə).
- **İdris** Vərqa oğlu (1977, Güney) Cəlilabaddan Günel Bilal qızı ilə ailə qurmuşdur. Həsən adlı oğlu, Fatimə və Aysun adlı iki qızı var. Bakıda yaşayırlar.
- **Aygün** Vərqa qızı (1970, Güney) Göyçənin Cil kəndindən Musa Oruc oğlu ilə ailə qurub. Əli adlı oğlu, Aysel adlı qızı var. Gəncədə yaşayırlar.
- **Çiçək** Vərqa qızı (1974, Güney) rayonun Zərkənd kəndindən Maksim Nəbi oğlu ilə ailə qurub. Samir, Vüqar adlı iki oğlu, Mədinə adlı qızı var. Gəncədə yaşayırlar.
- **Qızqayıt** Vərqa qızı (1976, Güney) rayonun Subatan kəndindən Etibar Bayram oğlu ilə ailə qurub. Hüseyn adlı oğlu, Aytac və Vəfa adlı iki qızı var. Gəncədə yaşayırlar.

SƏDƏNAĞACLILAR BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ

XX əsrdə bəşəriyyətin üzləşdiyi ən dəhşətli faciələrdən biri İkinci Dünya müharibəsi olmuşdur. Bu müharibə dünya xəritəsindəki dövlətlərin ictimai-siyasi həyatında baş verən qlobal dəyişikliklər, kütləvi qırğınlar, böyük faciələr müharibəsi kimi tarixə düşmüşdür.

Qeyd etmək lazımdır ki, Sovetlər İttifaqı dağıldıqdan sonra dövri mətbuatda, bədii ədəbiyyatda bəzən faşist Almaniyasının apardığı müharibəyə xilaskar, ədalətli müharibə, Hitleri isə millətlərin xilaskarı kimi göstərmək, alman faşizminin təcavüzünə bəraət qazandırmaq cəhdləri olur.

Bu cəhdlər, xalqın, millətin qələbə üçün çəkdikləri ağır zəhməti, misilsiz fədakarlığı heçə endirir, Vətən uğrunda canından keçmiş milyonlarla insanın xatirəsini kölgədə qoyur. Əslində belə cəhdlər, köklü olaraq yanlış və səhv olmaqla yanaşı, irqçilik, şovinizm təbliğ edənlərin, başqalarının ərazisinə göz dikənlərin irtica siyasətinə haqq qazandırmaq cəhdidir. Azərbaycana qarşı hərbi təcavüzə başlamış və onun torpaqlarının 20 faizini işğal etmiş erməni faşistlərinə haqq qazandıran bir arqument kimi ortalığa atılmışdır.

Tarix sübut etmişdir ki, başqasının torpağına göz dikənlər, güc, zorakılıq tətbiq etməklə, qan tökməklə ərazilərini genişləndirənlər, müvəqqəti "qalib" olsalar da, gec-tez məğlub olurlar. Bütün hallarda bəşəriyyətin düşməni olmuşlar və olmaqdadırlar.

O vaxt kənddə, mahalda hamı qələbə ruhu ilə yaşamış, gecəni gündüzə qataraq işləmişdir. İnsanlarımız qələbə naminə mümkün olanı etmişdilər. Əlbəttə, arxa cəbhə möhkəm olmasa idi, ön cəbhədə qələbə qazanmaq mümkün olmazdı. Müharibədə qələbə əldə edilməsində Sədənağac kəndinin də öz töhfəsi vardır. Nahaq yerə deyilmir ki, "Bəşəriyyəti faşizm taunundan xilas edənlər tarixin yaddaşında əbədi yaşamaq hüququ qazanıblar".

60 milyondan çox insan həyatının, habelə bəzi hesablamalara görə 316 milyard dollarlıq maddi-mənəvi zərər hesabına başa gələn və bəşər tarixinin ən dəhşətli faciəsi olan İkinci Dünya müharibəsində qələbə üçün şirin canından keçmiş, cəbhələrdə igidliklə döyüşmüş, arxa cəbhədə rəşadətlə çalışmış, indi artıq həyatda olmayan hər bir azərbaycanlının, o cümlədən, sədənağaclının ruhu qarşısında baş əyir, onları ehtiramla yad edirik. Heç nə unudulmur, heç nə yaddan çıxmır!

Böyük Vətən müharibəsinin başladığı ilk günlərdən Sədənağac kəndinin də mərd oğulları silaha sarılmış, bir çoxu Qafqazın ətəklərindən Berlinə qədər şanlı döyüş yolu keçmiş, vətən uğrunda canlarını-qanlarını əsirgəməmişlər.

Apardığımız araşdırma nəticəsində Sədənağac kəndindən müharibədə iştirak etmiş hər bir əsgər haqda qısa da olsa, məlumatlar toplaya bildik. Basarkeçər Rayon Hərbi Komissarlığının keçmiş SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivində saxlanılmış sənədləri, döyüş meydanlarında hərbi hissə komandanlığının hazırladığı məruzələr, məlumatlar, arayışlar kimi qiymətli sənədlər işimizə çox kömək oldu.

Araşdırma zamanı milyondan çox döyüşçü haqda arxiv məlumatlarını nəzərdən keçirmiş, yüz minə yaxın sənədlə tanış olmuşuq. Çəkdiyimiz zəhmət hədər olmayıb. Müharibədə itkin düşmüş sayılan bir neçə döyüşçünün cəbhədə həlak olduğunu, dəfn olunduqları yeri təyin edə bilmişik. Döyüşlərdə Sədənağac kəndinin igid oğullarının orden və medallarla təltif edilməsi haqda sənədlər tapa bilmişik. Müharibə iştirakçılarının əksəriyyətinin doğum tarixini, müharibəyə getdiyi günü müəyyən edə bilmişik. Ancaq bir çox döyüşçülər haqqında müəyyən edilməsi zəruri olan xeyli suallara hələlik cavab tapa bilməmişik. Axtarışları davam etdiririk, nəticələri haqda oxucularımıza gələcəkdə məlumat verməyi nəzərdə tuturuq.

Hər bir döyüşçü haqqında əlifba sırası ilə qısa da olsa məlumat verməyi zəruri hesab edirik. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, müharibə iştirakçılarının bir çoxlarının fotoşəkillərini əldə edə bilmədik.

Müharibə başlayanda kənd əhalisinin ümumi sayı 481 nəfər olmuşdur. Hərbi xidmətə yararlı 96 nəfər səfərbər edilmiş, onlardan 6 nəfəri arxa cəbhədə, 90 nəfəri isə ön cəbhədə döyüşlərdə iştirak etmişdir. Müharibəyə yola düşənlərin əksəriyyəti 20-35 yaşlı gənclər idi. 53 nəfər müharibədən qayıda bildi, 43 nəfər isə döyüşlərdə həlak oldu və ya itkin düşdü.

ÖN CƏBHƏDƏ

1. ABBAS CABBAR OĞLU İBRAHİMOV


(1917, Sədənağac)

1941-ci ilin sentyabr ayında hərbi xidmətə çağırılıb. Böyük Vətən müharibəsindən qayıtmayıb. Deyilənə görə, ailəsinə döyüşlərdə həlak olduğu haqda bildiriş ("qara kağızı") gəlib. Başqa məlumat yoxdur.

Arxivlər üzrə axtarışlarımız davam edir.

2. ABBASƏLİ AĞAMALI OĞLU ORUCOV

(1922, Sədənağac)



Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 1941-ci ilin iyul ayında hərbi xidmətə çağırıldığı qeyd edilmişdir. Döyüşlərdən birində qolundan və çiynindən ağır yaralanaraq səhhətinə görə ordudan tərxis edilmiş və kəndə qayıtmışdır.

Mirzalılardan Pəri İmaməli qızı ilə ailə qurub. Əli və Hüseyn adlı iki oğlu, Lalə, Gülarə, Gülxar və Məryəm adlı dörd qızı olub. 1982-ci ildə ailəsi ilə birlikdə Şəmkir rayonunun Könüllü kəndinə köçdü.

1985-ci ildə aprel ayının 6-da SSRİ Müdafiə Nazirinin əmri ilə Abbasəli Ağamalı oğlu "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir. 1996-cı ildə Könüllü kəndində vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.

3. ADİL ABDULLA OĞLU MƏMMƏDOV

(1913, Sədənağac)

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 06 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı yazılmışdır.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 912-ci sırada 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 43-cü cərgədə yazılmışdır (şəkil 43).

4. ALLAHVERDİ MÜRŞÜD OĞLU MƏMMƏDOV

(1908, Sədənağac)

Xəzangül ilə ailə qurub. Misir adlı bir oğlu olub.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 23 iyul 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 910-cu sırada 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib (şəkil 45).

Mərkəzi Arxivdə 58 saylı fondun 682 saylı işinin 977520 saylı məlumat mənbəsi olan Basarkeçər RHK-nın 60515 saylı 21 avqust 1947-ci il tarixli məlumatında 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

5. ALLAHVERDİ RZA OĞLU RAMAZANOV

(1898, Sədənağac)

Rüstəmuşağı nəslindən Mələksima Məşədi İbrahim qızı ilə ailə qurmuşdur. Ziyadxan, Şamil adlı iki oğlu, Suqra, Kübra adlı iki qızı olub.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 23 iyul 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilib. Bir neçə aydan sonra itkin düşməsi haqda ailəsinə bildiriş gəlib.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 915-ci sırada 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Uzun sürən axtarışlar nəticəsində Mərkəzi Arxivdə (keçmiş SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivi) tapdığımız sənədlər əsasında müəyyən edə bildik ki, qızıl əsgər Allahverdi Rza oğlu hərbi xidmətə Zaqafqaziya Cəbhəsi 93-cü Atıcı alayının tərkibində başlayıb və 1943-cü ilin aprel ayına qədər gedən bütün hərbi əməliyyatlarda iştirak etmişdir. 6 aprel 1943-cü ildə ağır xəstələnərək Bakı şəhərində yerləşən 1548 saylı Təxliyyə hərbi hospitalına daxil olmuşdur.

Bu hospitalda ölənlərin hesabatı kitabında 328-ci sırada Ramazanov Allahverdi Rza oğlunun 7 may 1943-cü ildə səpgili yatalaq xəstəliyindən vəfat etdiyi və Bakı şəhər beynəlmiləl qəbiristanlığında 4-cü cərgədə dəfn olunduğu göstərilmişdir.

Eləcə də, Zaqafqaziya Cəbhəsi sanitar idarəsinin 27 iyul 1943-cü il tarixli 27041 saylı siyahısında Allahverdi Rza oğlunun 7 may 1943-cü ildə səpgili yatalaq xəstəliyindən vəfat etdiyi və Bakı şəhər beynəlmiləl qəbiristanlığında 4-cü cərgədə 2-ci sırada dəfn olunduğu göstərilir (şəkil 46).

6. ALLAHVERƏN (DIMIŞ) YUSİF OĞLU ALLAHVERDİYEV

(1906, Göyçə mahalının Ağbulaq k.)

Ağbulaq kəndində Kələşlilər nəslindən Babakişi oğlu Allahverənin nəvəsidir. Sədənağac kəndindən Məşədi Hüseynlə əmioğludur. Bir müddət Gədəbəy rayonunun İvanovka kəndində yaşayıblar. Sonralar Göyçə mahalının Şişqaya kəndindən Zeynəb ilə ailə qurub. Bu evlilikdən Göyçək, Pakizə, Bəsdi, Maya və Həmayıl adlı beş qızı olub.

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 17-ci bənddə 29 dekabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı göstərilmişdir (şəkil 44).

Döyüşlərdən birində ağır yaralanaraq əsir düşmüşdür. 1945-ci ildə əsirlikdən azad edilmiş və 1947-ci ildə kəndə qayıtmışdır.

Kəndə qayıtdıqdan sonra kolxozda Məmmədvəli Mirzə oğlunun yanında usta köməkçisi işləyərək dəmirçilik və dülgərlik peşələrini öyrənmişdir.

1955-ci ildə Məşədi Hüseynlilərdən Yusif Məhəmməd oğlunun qızı Səkinə ilə ailə qurmuşdur. Məhəmməd və Hümbət adlı iki oğlu, Sona adlı bir qızı olub.

1962-ci ildə ağır xəstəlikdən kənddə vəfat edib.

7. ASLANALI İSA OĞLU QURBANOV

(1914, Sədənağac)

Babalılardan Kəhriz Əli qızı ilə ailə qurub. Hidayət adlı oğlu, Hamayıl adlı qızı olub.


Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı yazılıb.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 909-cu sırada 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 30-cu cərgədə göstərilmişdir (şəkil 47).

8. ASTAN MƏHƏMMƏD OĞLU ŞƏRİFOV

(1912, Sədənağac)



Cavan yaşlarından Gəncə şəhərinə köçmüşdür. Göyçə mahalının Ağbulaq kəndindən Lalaxanım Oruc qızı ilə ailə qurmuşdur. Telman, Qaçay, Vidadi və Elman adlı dörd oğlu, Minayə, Südabə və Ziyafət adlı üç qızı olub.

12 yanvar 1942-ci ildə Kirovabad Şəhər Hərbi Komissarlığı tərəfindən orduya səfərbər edilmişdir. Arxiv sənədlərindən qızıl əsgər Astan Məhəmməd oğlunun şanlı döyüş yolu keçdiyi məlum olur.

13 mart 1943-cü ildə Qərb cəbhəsindəki döyüşlərdə yüngül yaralanmış, müalicədən sonra yenidən xidmət etdiyi 634-cü atıcı taboruna qayıtmış və döyüşlərdə iştirak etmişdir.

15 avqust 1943-cü ildə döyüşlərdə yüngül yaralanmış və hərbi hospitalda müalicə olunduqdan sonra 19 sentyabr 1943-cü ildə 3-cü Belarusiya cəbhəsi, 5-ci Ordunun tərkibində hərbi texnikanın, qənimət silahların, metal qırıntılarının və digər əmlakın toplanması üzrə 1-ci Ordu bölüyünün tərkibində qızıl-əsgər atıcı kimi döyüş yoluna davam etmişdir. 23 oktyabr 1943-cü ildə dö-

yüşlərdə yüngül, 04 dekabr 1943-cü ildə isə başından, ayaqlarından ağır yaralanaraq hərbi hospitala düşmüşdür. Müalicədən sonra hərbi hissəyə qayıtmış və döyüş yoluna davam etmişdir.

8 mart 1945-ci ildə 5-ci Ordu komandiri general-polkovnik N. Krılovun 18/n əmri ilə SSRİ Ali Soveti Rəyasət Heyəti adından, döyüşlərdə göstərdiyi igidliyə, qəhrəmanlığa və şücaətə görə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 48).

1945-ci ilin iyul ayında ordudan tərxis edilmiş və Gəncə şəhərinə qayıtmışdır. 1984-cü ildə Gəncədə vəfat etmişdir.

9. BALACA QASIM OĞLU İSGƏNDƏROV

(1919, Sədənağac)

1938-ci ildə hərbi xidmətə çağırıldığı, Sovet-Fin müharibəsində iştirak etdiyi məlumdur. Böyük Vətən müharibəsi başlayandan bir neçə ay sonra 1941-ci ilin sonlarında itkin düşdüyü haqda ailəsinə bildiriş gəlib.

Bu haqda Basarkeçər Rayon Hərbi Komissarlığının 883 saylı siyahısında 904-cü cərgədə məlumat verilmişdir. 7 yanvar 1949-cu ildə bacısı Gilas Qasım qızı hərbi komissarlığa verdiyi ərizəsində qardaşı Balacanın 1941-ci ildən itkin düşdüyü bildirilir. Hərbi komissarlığın apardığı ilkin təhqiqat bunu təsdiqləyir (şəkil 49).

Balaca Qasım oğlunun taleyi ilə bağlı araşdırmalarımız davam edir.

10. BAYRAM XƏLİL OĞLU İBRAHİMOV

(1917, Sədənağac)

1941-ci ildə hərbi xidmətə çağırılıb.

Apardığımız araşdırmalar nəticəsində müəyyən etdik ki, Xalq Daxili İşlər Komissarlığı qoşunlarında (NKVD) sıravi atıcı-əsgər kimi hərbi xidmətdə olub.

8 iyul 1942-ci ildə Tula şəhərində 1874 saylı hərbi təxliyyə hospitalında ağ ciyər sətəlcəmi xəstəliyindən vəfat etmiş və Vsexsvyatskoe qəbiristanlığında hospitala aid ərazidə 35 saylı qəbirdə dəfn edilmişdir. Bu haqda məlumat Müdafiə Nazirliyinin Mərkəzi Arxivində 58 saylı fondda, 3563 saylı işin A-83627 məlumat mənbəsi hesab edilən hərbi hospitalın ölənlərin uçotu jurnalında yazılmışdır.

Qərb Cəbhəsi ştabının hazırladığı 14812 saylı 6 iyul 1942-ci il tarixli, Mərkəzi Arxivin 58-ci fondunda 22 saylı işin 818883 saylı məlumatının 3-cü bəndində bu haqda yazılmışdır (şəkil 50).

11. BAYRAM MUXTAR OĞLU HÜSEYNOV

(1920, Sədənağac)

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 01 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

Deyilənlərə görə hərbi xidmətə yola düşdükdən bir neçə müddət sonra Yerevan şəhərindəki hərbi hospitalda olduğu haqda atasına xəbər gəlib. Atası hospitala görüşə gəldiyi zaman onun artıq sağalaraq yenidən cəbhəyə yola düşdüyü məlum olub.

Rayon HK hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. Sayı 883) 901-ci cərgədə 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 35-ci cərgədə də yazılmışdır (şəkil 51).

12. BAYRAM SARI OĞLU RƏHİMOV

(1917, Sədənağac)

28 dekabr 1939-cu ildə hərbi xidmətə çağırılmışdır.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 60-cı səhifədə 918-ci sırada 1942-ci ilin dekabr ayında itkin düşdüyü qeyd edilir.

Mərkəzi Arxivdə 58-ci fondda 247 saylı işin 977522 sayda məlumat mənbəsi kimi Basarkeçər RHK 20 may 1949-cu il tarixli "müharibədən sonrakı dövrə aid" 32 səhifəlik məlumatının 16-cı səhifəsində Bayram Sarı oğlunun bacısı Çiçək Sarı qızının Basarkeçər Rayon Hərbi Komissarlığına yazdığı ərizə saxlanılır.

Ərizədə Bayramın itkin düşməsi ilə əlaqədar dövlət müavinətinin verilməməsindən bəhs edilir. Bu ərizə əsasında hərbi komissarlıq ilkin təhqiqat aparmış və Bayram Sarı oğlunun itkin düşdüyünü təsdiqləmişdir (şəkil 52).

Arxiv sənədləri arasında keçdiyi döyüş yolu haqqında apardığımız araşdırmalar hələlik bir nəticə verməyib. Axtarışları davam etdiririk.

13. BƏHRAM ƏZİM OĞLU HAQVERDİYEV

(1915, Sədənağac)



Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı və cəbhəyə göndərildiyi qeyd edilmişdir. 156-cı atıcı diviziyanın tərkibində Krım yarımadası uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Döyüşlərin birində ağır qəlpə yarası alaraq huşunu itirmiş və əsir düşmüşdür.

Rusiya Dövlət Arxivində r-9526 saylı fondda 1176 saylı işin 6 saylı məlumat vərəqində Kovel şəhərindəki yığma - yolasalma məntəqəsinə göndərilən əsirlikdən azad edilmiş və repatriasiya olunmuş Sovet vətəndaşlarının adbaad siyahısında 873-cü cərgədə Bəhram Əzim oğlu (tərcümələrdə təhrif olunaraq Aferdev Babram kimi yazılmışdır) göstərilmişdir. Həmin siyahıda onun 30 avqust 1945-ci ildə 240-cı ehtiyat taborunun tərkibində Kovel YYM gəldiyi və xüsusi yoxlama-filtrasiya məqsədilə 28 sentyabr 1945-ci ildə Lvov şəhərinə 16/2 "Casuslara ölüm" əks-kəşfiyyat baş idarəsinin sərəncamına göndərildiyi qeyd edilmişdir (şəkil 53).

Sonralar əsir düşdüyünə görə azadlığı məhdudlaşdırılmaqla məcburi əməyə cəlb edildiyi aydın oldu. 1950-ci ildə kəndə qayıdıb.

Babalılardan Gilas Qasım qızı ilə ailə qurdu. İsmayıl, Srail, Rəşayıl adlı üç oğlu, Firuzə, Pəri, Rahilə, Nuridə, Tamella, Əfruz adlı altı qızı olub.

1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndində məskunlaşdılar.

1997-ci ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu.

14. BƏYLƏR ABDULLA OĞLU MƏMMƏDOV

(1909, Sədənağac)

Mirzalılardan Mədinə Səfəralı qızı ilə ailə qurmuşdur. Qədir, Məmməd, Süleyman adlı üç oğlu, Xanım, Məyxanım adlı iki qızı olub.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 29 yanvar 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 54).

Mərkəzi Arxivin sənədləri üzrə apardığımız araşdırmalar nəticəsində müəyyən edə bildik ki, Bəylər Abdulla oğlu 1942-ci ilin mart ayınadək Tbilisi şəhərində Avçala təlim bazasında atıcılıq qabiliyyətinə yiyələnmiş və Qafqaz Cəbhəsinin tərkibindəki 47-ci Ordunun 63-cü atıcı diviziyasının sıralarında Güney Azərbaycanı ərazisində hərbi xidmətini davam etdirmişdir.

1945-ci ildə Sovet qoşunları İrandan çıxarıldıqdan sonra ordudan tərxis edilərək kəndə qayıtmış və kolxoz təsərrüfatında çalışmağa başlamışdır.

Deyilənə görə,1949-cu ildə Göyçə gölündə qəzaya uğrayaraq həlak olub.

15. BİLAL CƏLİL OĞLU İBRAHİMOV

(1907, Sədənağac)



Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 186-cı cərgədə 11 mart 1943-cü ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir. 1944-cü ildə döyüşlərdə ağır yaralanaraq hərbi hospitala düşmüşdür. Səhhətinə görə ordudan tərxis edilərək kəndə qayıtmışdır. Uzun illər kənd rabitə qovşağının müdiri vəzifəsində çalışmışdır.

Babalılardan Tamaşa İsa qızı ilə ailə qurub. Ədalət və Musa adlı iki oğlu, Dursun, Sevda, Narıngül adlı üç qızı olub.

1988-ci il deportasiyasından sonra Goranboy rayonunun Dəyirmanlar kəndinə köçdü. 1995-ci ildə vəfat edib və orada kənd qəbiristanlığında dəfn olunub.

06 aprel 1985-ci ildə SSRİ Müdafie Nazirinin əmri ilə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 55).

16. BİNNƏT MƏSMALI OĞLU KƏRİMOV

(1908, Sədənağac)

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 29 yanvar 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilib.

Döyüş yolu və sonrakı taleyi haqda apardığımız axtarışlar hələlik bir nəticə verməyib. Araşdırmalarımız davam edir (şəkil 54).

17. CAVİ QURBAN OĞLU VƏLİYEV

(1908, Sədənağac)

Basarkeçər RHK tərəfindən 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılmış və cəbhəyə göndərilmişdir.

1942-ci il fevral ayından itkin düşməsi haqda hərbi komissarlığın sənədlərində qeydlər aparılmışdır.

Mərkəsi Arxivin 58-ci fondunda 92-ci işin 977523 saylı məlumat mənbəsi olan Basarkeçər RHK-nın 08 mart 1950-ci il tarixli 14495 saylı "müharibə dövründən sonrakı" 27 səhifəlik məlumatının 23-cü səhifəsində Cavi Qurban oğlunun itkin düşməsi haqda atası Qəhrəmanov Qurbanın ərizəsi əsasında RHK-nın apardığı araşdırmaların nəticəsi qeyd edilmişdir (şəkil 56).

18. ÇƏRKƏZ ƏLİ OĞLU HEYDƏROV

(1911, Sədənağac)

Qəhrəmanlılardan Röyzə Qurban qızı ilə ailə qurmuşdur. Saray adlı bir qızı olub.

19 oktyabr 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. Gədəbəy Rayon Hərbi Komissarlığının 83557 saylı 07 oktyabr 1946-cı il tarixli məlumatında 1942-ci ilin avqust ayından itkin düşdüyü ailəsinə bildirilmişdir.

Bu məlumat, qardaşı Sadiqin hərbi komissarlığa müraciətindən sonra komissarlığın apardığı araşdırmaların nəticəsi olaraq ortaya çıxmış və keçmiş SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivində 58 saylı fondun 620 saylı işində 18004 saylı vərəqdə göstərilmişdir (şəkil 57).

19. DAVİD VƏLİ OĞLU QƏHRƏMANOV

(1909, Sədənağac)

Qəhrəmanlılardan əmisi qızı Sögülü Mehdi qızı ilə ailə qurub. Məhərrəm, Lətif, Rəcəb adlı üç oğlu, Dursun və Qumru adlı iki qızı olub.

1941-ci ilin iyun ayının 27-də hərbi xidmətə çağırılmışdır. 3-cü Qvardiya Ordusunun 819-cu atıcı polkunda qulluq etmişdir.

15 dekabr 1942-ci ildə Ukraynanın Kremençuq şəhəri yaxınlığında gedən döyüşlər zamanı əsir düşmüşdür. 2 il 8 ay əsirlikdə qaldıqdan sonra 1945-ci ilin aprel ayının sonlarında Sovet Qoşunlarının hücumlarının gedişində əsirlikdən azad edilmiş və 1945-ci il may ayının 14-dən 20-si arası 3-cü Qvardiya Ordusunun 44-cü Ordu yığma-yolasalma məntəqəsinə gətirilmişdir. Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 1404 saylı işin 18003 saylı məlumat mənbəsi olan 0777 saylı 21 may

1945-ci il tarixli "Əsirlikdən azad olunanlar haqqında" 324 səhifəlik məlumatın 309-cu səhifəsində 3330-cu sırada yazılmışdır (şəkil 58).

Müharibədən sonra kəndə qayıtdı və kolxozda çalışdı. 1962-ci ildə kənddə vəfat etmişdir.

20. DIVIŞ RÜSTƏM OĞLU HÜSEYNOV

(1901, Sədənağac)

Babalılardan Qədəmçə Paşa qızı ilə ailə qurub. Cumalı, Şamil, Şəmistan, Rüstəm adlı dörd oğlu, Pəri adlı bir qızı olub.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı və cəbhəyə göndərildiyi qeyd edilib.

Rayon Hərbi Komissarlığının hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. sayı 883) 900-cü cərgədə 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib (Bu siyahıda adı səhv olaraq Rövşən kimi göstərilmişdir).

Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 19-cu bənddə onun itkin düşdüyü yazılmışdır (şəkil 59).

21. ƏLİ QARA OĞLU BAĞIROV

(1910, Sədənağac)



1936-cı ildə valideynləri ilə birlikdə Şəmkir rayonunun Şəmkir stansiyasına köçmüşdür.

4 fevral 1942-ci ildə Şəmkir RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. 416-cı Qırmızı bayraqlı Taqanroq atıcı diviziyasının 1368 saylı atıcı polkunda şanlı döyüş yolu keçmişdir.

17 yanvar 1944-cü ildə Zaporojye vilayətində 75.2 yüksəkliyi uğrunda gedən döyüşlərdə manqa komandiri kiçik serjant Bağırov düşmənin hücumunu dəf edən zaman qəhrəmancasına döyüşmüş, 7 düşmən əsgərini məhv etmiş və bununla da bölüyün qarşısına qoyulmuş döyüş tapşırığının uğurla yerinə yetirilməsinə şərait yaratmışdır. Göstərdiyi bu şücaətə görə 31 yanvar 1944-cü ildə "İgidliyə görə" medalı ilə təltif edildi.

Bu hadisədən bir neçə gün sonra, fevral ayının 3-də 4-cü atıcı bölüyünün tərkibində Zaporojye vilayətinin Konstantinovka kəndi uğrunda gedən döyüşlərdə birinci olaraq kəndə girmiş, öz qorxmazlığı və cəsurluğu ilə başqa əsgərlərə nümunə

olaraq onları ruhlandırmış və tez bir zamanda kəndi ələ keçirməyə zəmin yaratmışdır. Bu igidliyinə görə 11 fevral 1944-cü ildə ikinci "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

6 noyabr 1947-ci ildə Şəmkir RHK-nın təqdimatı əsasında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə üçüncü dəfə "İgidliyə görə" medalı ilə təltif edilmişdir (şəkil 60).

Müharibədən sonrakı illərdə "Əmək igidliyinə görə", "Əməkdə fərqlənməyə görə", 1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi, 30 illiyi, 40 illiyi yubiley və "Əmək veteranı" medalları, "2-ci dərəcəli Vətən müharibəsi" ordeni, 06 aprel 1985-ci ildə isə "1-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir. Ordudan tərxis edildikdən sonra Şəmkirin Təzəkənd kəndində yaşamışdır.

1985-ci ildə orada vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.

22. ƏLİ MƏMMƏD OĞLU KƏRİMOV

(1909, Sədənağac)

Basarkeçər Rayon Hərbi Komissarlığının hazırladığı səfərbərliyin uçotu jurnalında 10 yanvar 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilib (şəkil 63).

Haqqında başqa mənbələrdə məlumat əldə edə bilmədik.

Döyüş yolu və sonrakı taleyi haqda axtarışlar hələlik bir nəticə verməyib. Araşdırmalarımız davam edir.

23. ƏLİ RƏHİM OĞLU ƏLƏSGƏROV

(1908, Sədənağac)



Mahalın Pəmbək kəndindən Lalaxanımla ailə qurmuşdu. Övladı olmayıb.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 18 fevral 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

Rayon Hərbi Komissarlığının hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. sayı 883) 894-cü cərgədə 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 41-ci cərgədə yazılmışdır (şəkil 62).

24. ƏLİ SALMAN OĞLU ƏLƏKBƏROV

(1908, Sədənağac)

Koluxlulardan Çeşmə Cabbar qızı ilə ailə qurub. Teymuraz və Fərzalı adlı iki oğlu, Münəvvər adlı bir qızı olub.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 10 yanvar 1942-ci ildə hərbi xidmətə çağırıldığı və cəbhəyə göndərildiyi qeyd edilmişdir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. sayı 883, tarixsiz) 892-ci cərgədə 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 33-cü bənddə yazılmışdır (şəkil 63).

25. ƏMİRƏHMƏD KƏRİM OĞLU RZAYEV

(1919, Sədənağac)

1941-ci ildə hərbi xidmətə çağırılıb və ön cəbhəyə göndərilib. 1944-cü ildə ordudan tərxis olunaraq kəndə qayıtmış, 1946-cı ildə Qazax şəhərinə köçmüş və ömrünün sonuna qədər orada yaşamışdır.


Şanlı döyüş yolu keçdiyi və döyüşlərdə göstərdiyi igidliyə görə orden və medallarla təltif edildiyi məlumdur. Təəssüflə qeyd etməliyik ki, naməlum səbəblərə görə bu məlumatları oğlu Rafiqdən almaq mümkün olmadı.

06 aprel 1985-ci ildə "1-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 65).

1993-cü ildə vəfat etmiş və Qazax şəhər qəbiristanlığında dəfn edilmişdir.

26. ƏMİRXAN KƏRİM OĞLU RZAYEV

(1918, Sədənağac)



Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 20 dekabr 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilib.

Mərkəzi Arxivin 8391 saylı fondunda 2 saylı işin 294246 saylı məlumat mənbəsi olan 28-ci atıcı ehtiyat briqadasının 106-cı atıcı ehtiyat alayının hərbi yolasalma məntəqəsinin məlumatına görə burada hərbi təlim keçmiş və 27 fevral 1943-cü ildə hərbi xidmətini davam etdirmək üçün əlahiddə paraşut taboruna göndərilmişdir. Döyüşlərdən birində ağır yaralandıqdan sonra 16 iyul 1943-cü ildə hərbi-həkim komissiyasının 17456 saylı qərarı ilə hərbi xidmətə yararsız hesab edilərək Basarkeçər RHK-nın sərəncamına göndərilmişdir. 1 sentyabr 1943-cü ildə ordudan tərxis edilərək kəndə qayıtmışdır (şəkil 64).

Hüsənlilərdən Aynaxanım Müsüd qızı ilə ailə qurdu. Məhərrəm, Mehdi, İbrahim, Nuru adlı dörd oğlu, Əsli, İltimas, Məryəm adlı üç qızı olmuşdur.

6 aprel 1985-ci ildə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edildi.

1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdı. 2008-ci ildə vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.

27. ƏMİRXAN (GÖYGÖZ) MUSA OĞLU ORUCOV

(1923, Sədənağac)

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 69).

Böyük Vətən müharibəsindən qayıtmayıb. Evli deyildi. Bütün mənbələr üzrə apardığımız axtarışlar nəticəsiz qalıb. Haqqında hələlik bir məlumat əldə edə bilməmişik. Araşdırmalarımız davam edir.

28. ƏSGƏR ŞAMİL OĞLU MƏHƏRRƏMOV

(1900, Sədənağac)

Hüsənlilərdən İpək Sarı qızı ilə ailə qurmuşdur. Əhməd adlı oğlu, Suqra, Məngülə, Bəsti, Qüdrət adlı dörd qızı olub.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 18 fevral 1942-ci ildə hərbi xidmətə çağırıldığı göstərilmişdir. Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. sayı 883, tarixsiz) 911-ci cərgədə 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 36-cı bənddə yazılmışdır (şəkil 66).

29. ƏVƏZ MÜRSƏL OĞLU SƏFƏROV

(1926, Sədənağac)

22 noyabr 1944-cü ildə hərbi xidmətə çağırılmışdır. Son məktubu 13 mart 1945-ci ildə 28667 səhra poçtundan gəlmişdir.

Mərkəzi Arxivin 58 saylı fondunda 828 saylı işdə 18004 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 23 dekabr 1946-cı il tarixli 98429 saylı məlumatının 9-cu cərgəsində Əvəz Mürsəl oğlunun 1945-ci ilin aprel ayında itkin düşdüyü yazılmışdır. Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 922-ci sırada 1945-ci ilin mart ayında itkin düşdüyü qeyd edilib.

İtkilərin uçotu üzrə idarənin 3-cü bölməsinin məlumatına əsasən 1945-ci ilin aprel ayında itkin düşmüşdür (şəkil 67).

30. GÜLMALI PAŞA OĞLU SƏFƏROV

(1916, Sədənağac)

1941-ci ilin yanvar ayının 29-da hərbi xidmətə çağırılmış və cəbhəyə göndərilmişdir. 1942-ci il dekabr ayında 127 saylı səhra poçtundan son məktubu gəlmişdir.

Basarkeçər RHK-nın 23 dekabr 1946-cı il tarixli 98429 saylı siyahısında 1943-cü ilin mart ayından itkin düşdüyü göstərilir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 921-ci sırada 1943-cü ilin mart ayında itkin düşdüyü qeyd edilib (şəkil 70).

31. FİRUDDİN MƏSMALI OĞLU KƏRİMOV

(1917, Sədənağac)

Evli idi. Valeh adlı oğlu, adını müəyyənləşdirə bilmədiyimiz ikinci bir övladı olub.

Basarkeçər RHK səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 908-ci sırada 1942-ci ilin may ayında itkin düşdüyü qeyd edilir.

Hərbi Komissarlığın Arxivində Məsmalıyev Valeh Firuddin oğlunun hərbi komissarlığa dövlət müavinətinin təyin edilməsi haqda verdiyi 17 may 1949-cu il tarixli ərizəsi saxlanılmışdır. Bu ərizədə, Valeh atası Firuddinin 1942-ci ildə hərbi xidmətə çağırıldığı və onun haqqında indiyədək heç bir məlumatın olmadığını bildirir və iki uşağın maddi köməksiz qaldığını qeyd edərək dövlət müavinəti təyin edilməsini xahiş edir (şəkil 70).

32. HƏMİD SALMAN OĞLU ƏLƏKBƏROV

(1915, Sədənağac)



Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı və cəbhəyə göndərildiyi qeyd edilmişdir.

Böyük Vətən müharibəsi döyüşlərində ağır yaralandıqdan sonra ordudan tərxis olunur və 1943-cü ildə kəndə qayıdır.

Hacı Ramazanlılardan Sitarə Rəhim qızı ilə ailə qurub. Maarif, Şirvan, Veyis, Qeys adlı dörd oğlu, Mərmər, Rəmzə, Qəmzə adlı üç qızı olub.

Uzun illər Güney kənd heyvandarlıq kolxozunda (sonralar sovxozunda) əmək fəaliyyəti ilə məşğul oldu.

1985-ci ildə Güney kəndində vəfat etmişdir.

33. HƏSƏN ƏLİ OĞLU ORUCOV

(1916, Sədənağac)

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

1947-ci ildə ordudan tərxis olunur və kəndə qayıdır. Koluxlulardan Kəhriz Həmid qızı ilə ailə qurub. Rəşid, Nizami, Əli adlı üç oğlu, İpək, Sürəyya, Solmaz, Yamən, Qənirə, Həmayə və Sara adlı yeddi qızı olub.

1970-ci ildə Sədənağac kəndində vəfat edib.

34. HƏSƏN İBRAHİM OĞLU MƏMMƏDOV

(1912, Sədənağac)



Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı yazılmışdır.

1943-cü ildə döyüşlərdə ağır yaralanmış, hərbi hospitalda müalicə olunduqdan sonra hərbi-həkim komissiyasının qərarı ilə ordudan tərxis edilmiş və kəndə qayıtmışdır. Kolxozda müəyyən təsərrüfat işlərində əmək fəaliyyəti ilə məşğul olmuşdur.

Hüsənlilərdən Nazxanım Salman qızı ilə ailə qurub. Polad və Novruz adlı iki oğlu, Xəzangül, Bağdagül, Mahizər, Yazgül, Mətanət adlı beş qızı olub.

1987-ci ildə Güney kəndində vəfat edib.

35. HÜMBƏT QASIM OĞLU İSGƏNDƏROV

(1914, Sədənağac)

Həyat yoldaşı əslən Gəncədən olub, övladları olmayıb.

Deyilənə görə 1941-ci ilin oktyabr ayında hərbi xidmətə çağırılıb və cəbhəyə göndərilmişdir. 1945-ci ildə müharibədən qayıtmışdır. Yerevan şəhərində milisdə işləyib. Haqqında hələlik başqa məlumat əldə edə bilməmişik.

36. HÜSEYN BƏXŞƏLİ OĞLU QURBANOV

(1925, Sədənağac)

28 fevral 1944-cü ildə hərbi xidmətə çağırılmışdır. Orta təhsilli olduğu nəzərə alınmaqla, 17 oktyabr 1942-ci ildən Bakı şəhərinə köçürülən Qroznı Hərbi Piyada Məktəbinə oxumağa göndərilir. 1944-cü ilin mayında atıcılıq məktəbini bitirərək cəbhəyə göndərilir və 1945-ci ilin mayınadək Zaqafqaziya Cəbhəsi 47-ci Ordunun tərkibində İran ərazisindəki Sovet qoşun kontingentində xidmət edir. Qoşunlar İrandan çıxarılandan sonra Şimali Qafqazda 1947-ci ilin fevral ayına qədər atıcı kimi, həmin ilin noyabr ayından 1950-ci ilin aprel ayının 28-ə qədər taqım komandirinin köməkçisi kimi xidmət edir. 28 aprel 1950-ci ildə kiçik leytenant rütbəsində ordudan tərxis edilərək Güney kəndinə qayıtmış və pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Bu sahədəki uğurlarına görə 1986-cı ildə "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Şəmkir rayonunun Yeni Göyçə kəndinə köçmüşdür. 2010-cu ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu. Kənd müəllimlərinə aid bölmədə haqqında əlavə məlumat verilir.

37. HÜSEYN SƏFƏRALI OĞLU MİRZƏYEV

(1919, Sədənağac)



10 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. 1942-ci ilin sonlarında əsir düşmüşdür.

1945-ci ildə Sovet Qoşunlarının hücumu zamanı əsirlikdən azad edilmişdir. 1947-ci ilin sonlarında ordudan tərxis edilərək kəndə qayıtmışdır. Tatlardan Salatın Əsəd qızı ilə ailə qurmuşdur. Rza, Vilayət, Dağbəyi adlı üç oğlu, Ziyatel, Rəfiqə, Əfruz, Kifayət adlı dörd qızı olub.

6 aprel 1985-ci ildə SSRİ Müdafiə Nazirinin əmri ilə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 71).

1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdı. 2003-cü ildə orada vəfat etdi və Göygöl şəhər qəbiristanlığında dəfn olundu.

38. XAMOY ABBAS OĞLU RƏHİMOV

(1901, Sədənağac)

Əmirlilərdən Sögülü Məhəmməd qızı ilə ailə qurub. Lətif adlı oğlu, Bənövşə, Zümrüd və Şəfiqə adlı üç qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 9 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 72).

Deyilənə görə, döyüşlərdə həlak olduğu haqda ailəsinə bildiriş ("qara kağızı") gəlib.

Haqqında mənbələrdəki araşdırmalarımız bir nəticə vermədi. Axtarışlarımız davam edir.

39. XƏNÇƏLXAN CƏLİL OĞLU İBRAHİMOV

(1914, Sədənağac)

Hüsənlilərdən Məleykə Mürsəl qızı ilə ailə qurub. Övladı olmayıb. 1941-ci ildə Böyük Vətən müharibəsinə hərbi xidmətə çağırılıb. Müharibədən qayıtmayıb.

Deyilənə görə, döyüşlərdə həlak olduğu haqda ailəsinə bildiriş ("qara kağızı") gəlib.

Hələlik haqqında başqa məlumat əldə edə bilməmişik. Axtarışlarımız davam edir.

40. İSLAM MEHDİ OĞLU HACIYEV

(1913, Sədənağac)

Koluxlulardan Bəsdi Nəsib qızı ilə ailə qurmuşdur. Qəzənfər, Adil, Nəcəf adlı üç oğlu olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 1941-ci il sentyabr ayının 13-də hərbi xidmətə çağırıldığı qeyd edilmişdir. 1942-ci ilin mart ayında isə itkin düşdüyü haqda Basarkeçər Rayon Hərbi Komissarlığının 09.08.1949-cu il tarixli 39272 saylı məlumatı əsasında SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivində 382 saylı məlumat mənbəyi kimi qeyd edilmişdir. Basarkeçər RHK-nın Arxivində həyat yoldaşı Bəsdi Nəsib qızının İslam Mehdi oğlunun itkin düşməsi haqda ərizəsi saxlanılmışdır (şəkil 73).

41. İSLAM MEHDİ OĞLU QƏHRƏMANOV

(1911, Sədənağac)



Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 10 yanvar 1942-ci ildə hərbi xidmətə çağırıldığı və 2 oktyabr 1945-ci ildə ordudan tərxis edildiyi qeyd olunmuşdur. 1942-ci ildə Xarkov ətrafında gedən döyüşlərdə ağır yaralanaraq əsir düşmüşdür. 1945-ci ilin may ayında Berlindəki əsir düşərgəsindən Sovet qoşunları tərəfindən azad edilmişdir.

Əsirlikdən azad edildikdən sonra bütün yoxlamalardan keçərək hərbi xidmətdən azad edilmiş və kəndə qaytmışdır. Kəndə qayıtdıqdan sonra kolxozda mexanizator kimi əmək fəaliyyətinə başlamışdır.

19 mart 1947-ci ildə "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı ilə təltif edildi.

1965-ci ildə "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi", 1975-ci ildə isə 30 illiyi yubiley medalları ilə təltif edilmişdir.

1985-ci ilin mart ayının 11-də SSRİ Müdafiə Nazirinin əmri ilə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 74).

Qəhrəmanlılar nəslindən Qəndab Hüseyn qızı ilə ailə qurub. Şakir adlı oğlu, Güllüzar və Sücayət adlı iki qızı olub.


1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçmüşdür. 1997-ci ildə Bakıda vəfat edib.

42. İSLAM MƏHƏMMƏD OĞLU ŞƏRİFOV

(1919, Sədənağac)

Basarkeçər RHK-nın sənədlərində doğum tarixi 1913-cü il göstərilmişdir,1939-cu ildə hərbi xidmətə çağırılıb.

Arxiv sənədlərindən şanlı döyüş yolu keçdiyi məlumdur. Mərkəzi Arxivin 33 saylı fondunda 269 saylı işin 690306 saylı məlumat mənbəsi olan Ukrayna Cəbhəsi 37-ci Ordunun 92-ci Krivoy-Roq qvardiya atıcı diviziyasının 276-cı atıcı taborunun komandiri qvardiya podpolkovniki Simonovun 26/H saylı 23 oktyabr 1944-cü il tarixli əmrinə əsasən, cəbhədə alman işğalçılarıyla vuruşmalarda komandanlığın döyüş



tapşırıqlarının nümunəvi icrası zamanı göstərdiyi cəsarət və igidliyə görə 3-cü atıcı taborunun 8-ci atıcı bölüyünün (rotasının) starşinası (baş çavuşu) Şərifov İslam SSRİ Ali Soveti Rəyasət Heyəti adından "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

Sənədlərdən bəlli olur ki, İslam Məhəmməd oğlu Sovet-Yapon müharibəsində də iştirak etmişdir. Mərkəzi Arxivin 1366 saylı fondunun 29 saylı işinin 1366 saylı məlumat mənbəsi olan 23 fevral 1946-cı il tarixli "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalının təqdim edilməsi haqda tərtib edilmiş aktın 1013-cü bəndində 93-cü atıcı diviziyasının manqa komandiri qvardiya starşinası(baş çavuşu) Şərifov İslam göstərilmişdir (şəkil 75).

1947-ci ilin əvvəllərində kəndə qayıdır. Çəkməlilərdən Minə Məhərrəm qızı ilə (əmisi qızı) ailə qurur. Vaqif, Firdövsi, Çapay adlı üç oğlu, Sofiyyə və Solmaz adlı iki qızı olub. 1948-ci ildə ailəsi ilə birlikdə Göygöl (keçmiş Xanlar) şəhərinə köçmüşdür.

1986-cı ildə Göygöl (keçmiş Xanlar) şəhərində vəfat edib və şəhər qəbiristanlığında dəfn olunub.

43. İSMAYIL HÜSEYN OĞLU ƏLİYEV

(1927, Sədənağac)

Böyük Vətən müharibəsi başlayanda yaşına bir yaş da əlavə edərək, 1944-cü ildə könüllü olaraq cəbhəyə yollanmışdır. Sıravi əsgər kimi müharibəyə yollanan bu gənc, serjant rütbəsində Sovet ordusu sıralarında müharibəni Polşa cəbhəsində başa vurmuşdur. 1946-cı ilin noyabr ayında ordu sıralarından leytenant rütbəsində tərxis olunaraq kəndə qayıtmışdır.

Keçmiş SSRİ-nin çoxsaylı orden və medalları ilə təltif edilmişdir. Rəhbər işçilərə aid bölmədə haqqında əlavə məlumat verilir.

44. KƏRİM (BİLOŞ) ƏLİ OĞLU HEYDƏROV

(1915, Sədənağac)

19 iyun 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. Zaqafqaziya Cəbhəsi 89-cu atıcı diviziyasında xidmət etmişdir. 1942-ci ildə hərbi hissəni özbaşına tərk edərək kəndə qayıtmışdır. Bir müddətdən sonra həbs edilmişdir. 11 iyun 1942-ci ildə hərbi tribunalın qərarı ilə ən ağır cəzaya - güllələnməyə məhkum edilmişdir. Zaqafqaziya Cəbhəsi hərbi tribunalının hökmünə əsasən bu cəza 10 illik azadlıqdan məhrum edilmə ilə əvəz edilmiş və islah əmək düşərgəsinə göndərilmişdir. Bu haqda SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivində 58 saylı fondda 757 saylı işin 818883 saylı məlumat vərəqində 89-cu Atıcı Diviziyanın Hərbi tribunalının 15922 saylı, 12 iyul 1942-ci il tarixli hərbi tribunal tərəfindən məhkum edilmiş hərbi qulluqçuların siyahısında 4-cü cərgədə göstərilmişdir (şəkil 76). Sonrakı taleyi ilə bağlı məlumatımız yoxdur. Axtarışlarımız davam edir.

45. KÖÇƏRİ ALLAHVERDİ OĞLU MƏMMƏDOV

(1922, Sədənağac)



Müharibə başlayanda İrəvan Dövlət Pedaqoji İnstitutunun 2-ci kursuna keçmişdi.

1941-ci ilin avqust ayının əvvəllərində İrəvan şəhəri Kirov Rayon Hərbi Komissarlığı tərəfindən orduya səfərbər edildi. İlk döyüş təcrübəsini Zaqafqaziya Cəbhəsi 19-cu ələhiddə atıcı taqımında (briqadasında) keçir. 46-cı Ordunun tərkibində Baş Qafqaz silsiləsi aşırımının mərkəzi hissəsinin müdafiəsində, Novorossiysk müdafiə əməliyyatlarında, 47-ci Ordunun tərkibində Mozdok-Malqobek, Tuapse, Nalçik - Orconikidze müdafiə əməliyyatlarında, Zaqafqaziya Cəbhəsi ordusunun şərq qrupunun Nalçik - Stavropol və Krasnodar - Novorossiysk istiqamətlərində hücum əməliyyatlarında iştirak etmişdir.

Zaqafqaziya Cəbhəsi 19-cu ələhiddə atıcı diviziyası üzrə 22 dekabr 1942-ci il tarixli 4/H saylı əmrə əsasən "İgidliyə görə" medalı ilə təltif edilir. Təltifat vərəqində yazılmışdır: "19-cu ələhiddə atıcı briqadasının 3-cü tabor, 9-cu bölük taqım komandirinin köməkçisi, baş serjant Köçəri Allahverdi oğlu Şimali Osetiyada Karjin kəndi

yaxınlığında, 391.4 yüksəkliyi uğrunda 4-8 dekabr 1942-ci ildə gedən döyüşlərin gedişində qorxu bilmədən irəliyə sürünərək gözlənilmədən düşmən sığınacağına atılmış və oradakı əsgərləri güllələmişdir. Sonra ikinci sığınacağa girmiş və orada iki alman əsgərini də güllələmiş, onların tüfənglərini və patronlarını götürmüşdür. Bu döyüşdə ağır yaralanmasına baxmayaraq, igidliyi və cəsurluğu ilə öz taqımının irəliyə doğru iti sürətli hücumunu təmin etmişdir.

Çox böyük ürək ağrısı ilə qeyd etməliyik ki, xalqımızın bu qəhrəman, igid oğu 4 yanvar 1944-cü ildə Belorusiyada Vitebck vilayətinin Vitebck rayonunun Novoselki kəndi yaxınlığında gedən döyüşlərdə qəhrəmancasına həlak olur. Bu haqda SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivində 58 saylı fondda saxlanılan 245 saylı işin 18002 saylı məlumat mənbəsində - 32-ci atıcı diviziyanın qərargah rəisi podpolkovnik Kursanovun 30 yanvar 1944-cü ildə Moskva şəhərinə, Silahlı Qüvvələrin serjant və sıravi əsgər heyəti itkisinin hesabatı üzrə Baş İdarə rəisinə göndərdiyi 6094 saylı siyahının 22-ci cərgəsində yazılmışdır.

Bu siyahıda Köçəri Allahverdi oğlunun Vitebck rayonu Novoselki kəndindən qərbə doğru meşəliyin cənub kənarında dəfn olunduğu göstərilir (şəkil 77).

46. KÖÇƏRİ QƏMBƏR OĞLU DÜNYAMALIYEV

(1918, hərbi komissarlıqda tərtib edilmiş sənədlərin bəzisində doğum tarixi səhv olaraq 1902-ci il, 1920-ci il göstərilmişdir, Sədənağac)



Basarkeçər RHK tərəfindən 1941-ci il iyul ayının 23-də hərbi xidmətə çağırılıb.

Basarkeçər RHK-nın 21 avqust 1947-ci il tarixli 60515 saylı məlumatında 24-cü bənddə 1941-ci ildə itkin düşdüyü qeyd edilmişdir. Lakin sonradan əsir düşdüyü məlum olur. Əsirlikdən azad olduqdan sonra beş il müddətinə icbari cəzaya məhkum edilir. 1950-ci ildə azad edilir və kəndə qayıdır. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçdü.

21 noyabr 1991-ci ildə Müdafiə Nazirinin əmri ilə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 78).

1994-cü ildə Bakı şəhərində vəfat etdi.

47. QASIM ORUC OĞLU ŞƏRİFOV

(1911, Sədənağac)



Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilib. Zaqafqaziya Cəbhəsi qoşunlarının tərkibində döyüş yolu keçmişdir. 1943-cü ildə döyüşlərdə yaralanaraq hərbi hospitala düşmüşdür. Hərbi həkim komissiyasının qərarı ilə səhhətinə görə ordudan tərxis edilərək kəndə qayıdır.

1944-cü ildə Hacı Ramazanlılar nəslindən Bəsdi Rəhim qızı ilə ailə qurub. Eldar adında oğlu, Qubatel adında qızı olub. Bəsdi cavan yaşlarında vəfat edib. Qasım ikinci dəfə rayonun İnəkdağı kəndindən Şövkət Oruc qızı ilə ailə qurub. Surxay, Nəriman, Səyyar adlı üç oğlu, Nəcibə, Sara, Qədəm adlı üç qızı olub. 1968-ci ildə kənddə ağır xəstəlikdən vəfat edib.

48. QƏDİM ƏSƏD OĞLU MƏMMƏDOV

(1914, Sədənağac)

Koluxlular nəslindən Tomu Yusif qızı ilə ailə qurmuşdur. Övladı olmayıb.

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilib. Müharibədən "qara kağızı" gəlib.

Harada və nə vaxt həlak olduğu haqda məlumat yoxdur. Axtarışlarımız davam edir.

49. QƏDİR HÜSEYN OĞLU ƏLİYEV

(1921, Sədənağac)

1943-cü ildə hərbi xidmətə çağırılmışdır. Baltikyanı ölkələrin ərazisində döyüş yolu keçmişdir. Döyüşlərdən birində qolundan ağır qəlpə yarası almış və bunun nəticəsi olaraq qolunu itirmişdir. Bir ildən çox müxtəlif hərbi hospitallarda müalicə olunmuş və 1945-ci ilin iyul ayında kəndə qayıtmışdır. Döyüşlərdə göstərdiyi şüca-

ətə görə "İgidliyə görə", "Döyüş xidmətlərinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları və "Qırmızı Ulduz Ordeni" ilə, müharibədən sonra "Əmək rəşadətinə görə", "Əməkdə fərqlənməyə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi, 30 illiyi, 40 illiyi yubiley və "Əmək veteranı" medalları və "1-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə mükafatlandırılmışdır. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdı və 3 dekabr 1993-cü ildə orada vəfat etdi.



50. QƏŞƏM İBRAHİM OĞLU HÜSEYNOV

(1902, Sədənağac, hərbi komissarlığın sənədlərində yanlış olaraq 1906-cı il göstərilmişdir).



Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilib (şəkil 79). Tbilisi şəhəri Avçala hərbi təlim mərkəzinə göndərilib və burada noyabr ayının sonlarınadək döyüş hazırlığı keçib. Rus zabitinin verdiyi əmri (rus dilini bilmədiyindən, əmri başa düşməmişdi) yerinə yetirmədiyinə görə həmin zabit və onun yanındakı rus qadın tərəfindən təhqir olunub. Fiziki zorakılığa məruz qalıb, buna dözməyərək zabitə müqavimət göstərib. Onunla əlbəyaxa olaraq, zabiti möhkəm əzişdirdikdən sonra hərbi hissəni tərk edərək, əvvəlcə Qazağa, oradan Gədəbəyə, sonra isə dağlarla Göyçəyə qayıdıb. Uzun illər dağlarda qaçaq yaşayıb. Gədəbəydə, Şəmkirdə dost-tanışın evində gizlənib, yaxasını NKVD dəstələrinin əlinə verməyib.


1953-cü ildə Stalinin ölümündən sonra bəraət alaraq üzə çıxıb, təqaüdə çıxana qədər kolxozda arıçılıq fermasının müdiri kimi çalışdı.

İki dəfə evlənib. Birincidə Koluxludan Sayalı Mehdi qızı ilə ailə qurub. Bu nikahdan övladı olmayıb. Sayalı gənc yaşlarında dünyasını dəyişib. İkincidə Rüstəmuşağı nəslindən Tümən Sayad qızı ilə ailə qurub. İbad, Cavad adlı iki oğlu, Savad, Minayə adlı iki qızı olub.

1988-ci il deportasiyasından sonra Göygöl rayonunun Çaykənd kəndində məskunlaşdı. 2005-ci ildə orada vəfat etdi.

51. MAHMUD SƏFƏRALI OĞLU MİRZƏYEV

(1914, Sədənağac)



Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 1941-ci il sentyabrın 9-da hərbi xidmətə çağırıldığı qeyd edilmişdir. Keçdiyi döyüş yolu haqqında Arxiv sənədləri arasında apardığımız araşdırmalar bir nəticə vermədi. Deyilənə görə,1944-cü ilin əvvəllərində ayağından ağır yara alaraq bir müddət hərbi hospitalda müalicə olunmuş və səhhətinə görə ordudan tərxis edilmişdir. Müharibədən qayıtdıqdan sonra Hüsənlilərdən Səməngül Sarı qızı ilə ailə qurub. Məmmədrza, Bakir, İman, Telman, Xanoğlan adlı beş oğlu, Qubatel, Saray, Maysara, Zərraf, Gülxanım adlı beş qızı olub.

1969-cu ildə kənddə vəfat etmişdir.

52. MƏCİD ORUC OĞLU ŞƏRİFOV

(1908, Sədənağac)

Tovuz rayonunun Seyidlər kəndindən Kübra Səyyaf qızı ilə ailə qurub. Yusif, Əbülfət adlı iki oğlu, Mərziyə adlı bir qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 18 fevral 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir. 1943-cü ildə döyüşlərdə ağır qəlpə yaraları almış və ordudan tərxis edilərək kəndə qayıtmışdır.

1953-cü ildə döyüşlərdə aldığı yaralardan vəfat edib və kənd qəbiristanlığında dəfn olunub.

53. MƏCİD SALMAN OĞLU ƏLƏKBƏROV

(1916, Sədənağac)

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı və cəbhəyə göndərildiyi qeyd olunub. Evli deyildi.

Müharibədən qayıtmayıb, itkin düşdüyü və ya həlak olduğu haqda hələlik bir məlumat yoxdur. Axtarışlar davam edir.

54. MƏCİD SARI OĞLU RƏHİMOV

(1914, Sədənağac)

Qəhrəmanlılar nəslindən Tutu Qurban qızı ilə ailə qurub. Cəmil adlı bir oğlu, Qənirə adlı bir qızı olub. Onları uşaq evinə veriblər. Sonrakı taleləri məlum deyil.

Deyilənə görə 1941-ci ilin iyul ayında hərbi xidmətə çağırılıb və müharibəyə göndərilib. 1942-ci ilin sonlarında döyüşlərin birində həlak olduğu haqda ailəsinə bildiriş ("qara kağızı") gəlib.

Arxivlərdə haqqında hələlik bir məlumat tapa bilmədik, axtarışlar davam edir.

55. MƏCNUN SAYAD OĞLU İBRAHİMOV

(1926, Sədənağac)

1944-cü ilin dekabrında öz ərizəsi əsasında, könüllü olaraq Böyük Vətən müharibəsinə yola düşüb. 1946-cı ilin martında ordudan tərxis edilib. Döyüşlərdə göstərdiyi igidliyə görə orden və medallarla təltif edilmişdir. Rəhbər işçilərə aid bölmədə haqqında əlavə məlumat verilir.

56. MƏRİŞ İMRAN OĞLU QƏHRƏMANOV

(1923, Basarkeçər rayonu Nərimanlı k.)

Uşaqkən valideynlərini itirib. Xalası Kövsər Kalvayı Qasım qızı (Bağır oğlu Nəsibin həyat yoldaşı) onu, qardaşları Abdullanı, Məhəddini və bacısı Məhbubəni Sədənağac kəndinə gətirib və öz himayəsinə götürüb. Yetkinlik yaşına çatandan sonra Abdulla və Məhəddin Nərimanlı kəndinə qohum-əqrabalarının yanına qayıdıb, Məhbubə isə Qoşabulaq kəndinə ərə verilib.



Böyük Vətən müharibəsi başlayanda səfərbərliyə alınıb, döyüşlərdən birində ayağından ağır yaralandıqdan sonra hərbi hospitalda müalicə olunaraq yenidən cəbhəyə qayıtmışdır.

Döyüşlərdə göstərdiyi igidliyə və şücaətə görə medallarla və "Qızıl Ulduz" ordeni ilə təltif edilmişdir.

Müharibədən sonra ordudan tərxis olunub və yenidən Sədənağac kəndinə qayıdıb. Koluxlulardan Tamam Nəsib qızı ilə ailə qurub. Fəxrəddin, Firuddin, Fərrux, Vaqif, Vüqar, İlqar və İqrar adlı yeddi oğlu, Raziyə və Həmayıl adlı iki qızı olub. 1979-cu ildə ailəsi ilə birlikdə Azərbaycana - İsmayıllı rayonunun Keyvəndi kəndinə köçüb.

06 aprel 1985-ci ildə 78 saylı təltifetmə sənədinə əsasən "1-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 84).

2003-cü ildə vəfat edib və Goranboy rayonunun Dəyirmanlar kəndində dəfn olunub.

57. MƏHƏMMƏD MƏSİM OĞLU BAĞIROV

(1911, Sədənağac)



13 sentyabr 1941-ci ildə səfərbərliyə alınmışdır.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 906-cı sırada 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60501 saylı siyahıda 31-ci cərgədə yazılmışdır (şəkil 80).

58. MƏMMƏD XƏLİL OĞLU İBRAHİMOV

(1912, Sədənağac)



Kənddə ilk şura özəyinin, sonralar komsomol və kommunist partiya təşkilatının ilk sədri, kolxoz quruculuğunun fəal iştirakçılarından biri olub. Hüsənlilər nəslindən Bəsti Məşədi Abbas qızı ilə ailə qurub. Şura adlı bir oğlu olub. Sonralar ayrılıblar.

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 87-ci cərgədə 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı və 10 yanvar 1946-cı ildə ordudan tərxis edilərək kəndə qayıtdığı qeyd edilmişdir.

Kəndə qayıtdıqdan sonra kolxozda müxtəlif vəzifələrdə çalışıb. İkinci dəfə Hüsənlilər nəslindən Maral Şəmil qızı ilə ailə qurub. Hüseyn, Bayram, Fikrət adlı üç oğlu olub.

1972-ci ildə 60 yaşında kənddə vəfat edib.

59. MƏHƏMMƏDƏLİ ABBAS OĞLU RƏHİMOV

(1912, Sədənağac)

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 9 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 919-cu sırada 1942-ci ilin dekabr ayında itkin düşdüyü qeyd edilib.

Mərkəzi Arxivdə 58 saylı fondda 382 saylı işin 977522 saylı məlumat mənbəsi olan Basarkeçər RHK-nın 09 avqust 1949-cu il tarixli 39272 saylı müharibədən sonrakı dövrə aid 72 səhifəlik məlumatının 30-cu səhifəsində itkin düşməsi ilə əlaqədar olaraq onun ailə üzvlərinə - anası Qönçə Mustafa qızının oğlu Məhəmmədəliyə görə dövlət müavinətinin təyin edilməsi haqda ərizəsi saxlanılmışdır (şəkil 81).

60. MƏHƏMMƏDƏLİ MUXTAR OĞLU SƏFƏROV

(1923, Sədənağac)

1941-ci ilin noyabr ayında hərbi xidmətə çağırılıb və cəbhəyə göndərilib. 5-ci Ordunun 3-cü qvardiya motorlu atıcı alayının tərkibində sıravi əsgər kimi döyüş yolu keçmişdir.

29 avqust 1944-cü ildə Polşada Jeşuvskoe voevodluğu, Tarnobjeqsk povatının Knapı kəndi uğrunda gedən döyüşlərdə ağır yaralanaraq 4198 saylı səyyar səhra cərrahlıq hospitalına gətirilmişdir. Görülən müalicə tədbirlərinə baxmayaraq aldığı ağır güllə yarasından vəfat etmişdir. Knapi kənd qəbiristanlığında dəfn edilmişdir.

Bu itki 163-cü səhra təxliyyə məntəqəsi İdarəsinin 11 sentyabr 1944-cü il tarixli 01127 saylı məlumatının 558-ci bəndində öz əksini tapmışdır. Ailəsinə 0474 saylı 05 sentyabr 1944-cü il tarixli bildiriş göndərildiyi qeyd edilmişdir.

Mərkəzi Arxivin 58 saylı fondunda 278 saylı işin 977525 saylı məlumat mənbəsi hesab edilən 0589 saylı 03 sentyabr 1945-ci il tarixli 5-ci qvardiya ordusunun Arxa Cəbhə İdarəsinin məlumatında da bu haqda yazılmışdır (şəkil 82).

61. MƏHƏRRƏM ƏZİM OĞLU HAQVERDİYEV


(1912, Sədənağac)

1941-ci ilin sentyabrında hərbi xidmətə çağırılıb və cəbhəyə göndərilmişdir. Baltikyanı ölkələrin ərazisində gedən döyüşlərdə iştirak etmişdir. Döyüşlərdən birində ağır yaralanaraq əsir düşdüyü məlumdur. Əsirlikdən azad edildikdən sonra icbari əməyə cəlb edilmişdir.

1951-ci ildə kəndə qayıtmışdır. Rayonun Pəmbək kəndindən Sarıtel Abbasqulu qızı ilə ailə qurmuşdur. Murad, Mədət, Səfiyar adlı oğulları, iki qızı olub. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçdü. 1992-ci ildə orada vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.

62. MƏHƏRRƏM NƏSİB OĞLU İBRAHİMOV

(1912, Sədənağac)



Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 118-ci sırada 10 yanvar 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 83).

Bu jurnalın 142-ci səhifəsində 1942-ci ilin avqust ayında hərbi hospitalın məlumatına əsasən döyüşlərdə yaralandığı və ordudan tərxis edilərək kəndə qayıtdığı qeyd edilmişdir.

Kəndə qayıtdıqdan sonra kolxozda əmək fəaliyyəti ilə məşğul olmuşdur. Uzun illər kolxozda briqadir, kassir, anbar müdiri olaraq çalışmışdır. Koluxlular nəslindən Gülarə Nəsib qızı ilə ailə qurmuşdur. Qulu, Nəcəf, Rauf, Rza, Mübariz, Surəddin adlı altı oğlu, Səltənət və Elmira adlı iki qızı olmuşdur. Həyat yoldaşı Gülarə Nəsib qızı 1962-ci ildə rəhmətə getdi. 1963-cü ildə ikinci olaraq Əmrahlılar nəslindən Gülnaz Allahverdi qızı ilə ailə qurmuşdur. 1978-ci ilin fevralında kənddə vəfat etmişdir.

63. MƏŞƏDİ RƏHİM OĞLU ƏLƏSGƏROV

(1921, Sədənağac)



Kənddə ibtidai məktəbi bitirdikdən sonra 1939-cu ildə İrəvan Pedaqoji Məktəbinə qəbul olunmuşdur. Lakin müharibə ona təhsilni tamamlamağa imkan vermədi. Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 1941-ci il iyunun 23-də hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

Basarkeçər Rayon Hərbi Komissarlığının hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. Sayı 883) 895-ci cərgədə 1942-ci ilin aprelində itkin düşdüyü qeyd edilib. Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Ra-

yon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 42-ci cərgədə yazılmışdır (şəkil 85).

64. MİRZALI SALMAN OĞLU ƏLƏKBƏROV

(1909, Sədənağac)

Kənddə yaşamış, Koluxlulardan Şamama Cabbar qızı ilə ailə qurmuşdur. Təhməz adlı bir oğlu, Zibeydə və Reyvə adlı iki qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. Sayı 883) 893-cü cərgədə 1942-ci ilin aprelində itkin düşdüyü qeyd edilir. Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 34-cü bənddə yazılmışdır (şəkil 86).

65. MURTUZ NAĞI OĞLU HÜSEYNOV

(1918, Sədənağac)



23 iyun 1941-ci ildə cəbhəyə səfərbər edilmiş, 1942-ci ildə itkin düşdüyü haqda ailəsinə bildiriş gəlmişdir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. Sayı 883) 902-ci cərgədə 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Müharibədən sonra 1945-ci ildə Murtuz Nağı oğlu kəndə qayıdıb və itkin düşdüyü haqda məlumatın yanlış olduğunu sübut edib. Bir neçə il Gəncə şəhərində Daxili İşlər Komissarlığında çalışmışdır. Sonralar Ukraynaya getdiyi məlum oldu. 1988-ci il deportasiyasından sonra onunla əlaqə kəsilmişdir. Haqqında başqa məlumat əldə etmək mümkün olmadı. Deyilənə görə, Şiraslan adlı oğlu Sumqayıt şəhərində yaşayırdı. Müharibədə göstərdiyi igidliklərə görə xeyli sayda əsgəri təltifatının olduğu məlumdur.

66. ORUC İMAMƏLİ OĞLU VƏLİYEV

(1921, Sədənağac)



09 sentyabr 1941-ci ildə Basarkeçər RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Tbilisi yaxınlığında təlim keçəndən sonra sıravi əsgər Oruc İmaməli oğlu Krasnodara, sonra da Krıma göndərilib. 156-cı atıcı diviziyanın 530-cu atıcı alayında sıravi əsgər kimi qulluq etmişdir. 1942-ci ildə Kerç yarımadası uğrunda gedən qanlı döyüşlər zamanı əsir düşmüşdür.

1945-ci ildə Sovet qoşunları tərəfindən əsirlikdən azad edilib. O vaxtın qanunları əsasında əsir düşdüyünə görə mühakimə olunub və 9 il müddətinə Maqadan qızıl mədənlərində məcburi əməyə cəlb edilib. Cəza müddəti başa çatdıqdan sonra 1954-cü ildə kəndə qayıtmışdır.

1955-ci ildə Qanlı kəndindən Nazxanım Mahmud qızı ilə ailə qurub. Hidayət, Rasim, Vidadi adlı üç oğlu, Şəmsiyyə, Yazgül və Höküməadlı üç qızı olub. 1978-ci ildə kənddə vəfat etmişdir.

67. ORUC RÜSTƏM OĞLU HÜSEYNOV

(1918, Sədənağac)

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilir (şəkil 87).

Arxiv sənədləri arasında döyüş yolu haqda heç bir məlumat tapa bilmədik. Deyilənə görə, hərbi hissədə komandirin təhqirinə dözməyərək onu möhkəm döymüş və hərbi hissəni özbaşına tərk edərək əsgərlik yerindən qaçmışdır. Bir neçə il qaçaq yaşadıqdan sonra həbs olunur və 10 il müddətinə azadlıqdan məhrum edilir. Cəzasını çəkdikdən sonra kəndə qayıtmış, uzun illər kənd dəyirmanında dəyirmançı, mal fermasında baş çoban kimi çalışmışdır.

Tatlar tayfasından Lalaxanım Əsəd qızı ilə ailə qurmuşdur. Lətif və Vahid adlı iki oğlu var. 1983-cü ildə kənddə vəfat etdi.

68. RƏSUL HƏMİD OĞLU BAĞIROV

(1918, Sədənağac)



Qardaşı Zəkəriyyə ilə ekiz doğulublar. Ekizlər 13 sentyabr 1941-ci ildə Basarkeçər Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıblar.

Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahısında 28-ci bənddə 1942-ci ilin aprelində itkin düşdüyü göstərilir.

Araşdırmalar zamanı aydın oldu ki, Rəsul Həmid oğlu 1941-ci ildə Ukraynanın Krivoy Roq şəhəri uğrunda gedən döyüşlərdən birində yaralanmış və əsir düşmüşdür.

Mərkəzi Arxivin 58 saylı fondunda 1437 saylı işin 18003 saylı məlumat mənbəsi kimi saxlanılan 21-ci ehtiyat atıcılıq diviziyasının 69-cu atıcı polkunun 13 iyul 1945-ci il tarixli 107908 saylı məlumatında Odessa yolasalma məntəqəsindən 3854-cü hərbi hissəyə göndərilmiş hərbi əsirlikdə olan keçmiş sovet hərbi qulluqçularının qayıdan itkilər siyahısının 31-ci səhifəsində Bağırov Rəsul Həmid oğlu haqqında yazılmışdır (şəkil 88).

Əsir düşdüyünə görə cəzalandırılaraq İrkutsk vilayətində kömür şaxtasında beş illik məcburi əməyə məhkum olunmuşdur. Cəza müddəti bitdikdən sonra ailə qurub və daimi yaşayış yeri kimi orada qalıb. Lyudmila adlı qadınla ailə qurmuşdur. Gennadi və Anatoli adlı iki oğlu, Xanım və Yelena adlı iki qızı olub. 2008-ci ildə İrkutsk şəhərində rəhmətə gedib və orada dəfn olunub.

69. RUSLAN (ADİL) MƏHƏRRƏM OĞLU ŞƏRİFOV

(1919, Sədənağac)

Mərkəzi Arxivin 8509 saylı fondunun 1 saylı işinin 8509 saylı məlumat mənbəsi olan 37-ci Ordunun 213-cü ordu ehtiyat atıcı taborunun məlumatına görə, 1944-cü ilin 11-17 iyul arasında 4-cü atıcı diviziyasına gəldiyi qeyd edilib.

Arxiv sənədləri arasında ikinci bir məlumatla rastlaşdıq. Mərkəzi Arxivin 8509 saylı fondunun 5 saylı işinin 131663 saylı məlumat mənbəsi olan 37-ci Ordunun

213-cü ehtiyat atıcı taborunun hərbi yolasalma məntəqəsinin məlumatına görə, baş serjant Şərifov Ruslan Məhərrəm oğlu 22 iyul 1944-cü ildə 92-ci qvardiya atıcı diviziyasına göndərilmişdir.

Basarkeçər Rayon Hərbi Komissarlığının sənədlərində onun haqqında heç bir məlumat yoxdur. Sonrakı taleyi haqda hələlik bir məlumat əldə edə bilmədik. Axtarışlar davam edir.

70. SALMAN MƏHƏMMƏD OĞLU ŞƏRİFOV

(1909, Sədənağac)

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

1942-ci ildə döyüşlərdən birində ağır yaralanaraq ordudan tərxis edilmişdir. Mahalın Ağbulaq kəndindən Tavat Musa qızı ilə ailə qurub. İkram adlı bir oğlu, Səkinə, Tamam, Kifayət, Sücayət, Səfurə, Məhəbbət, Zeynəb adlı yeddi qızı olub.

1979-cu ildə Güney kəndində vəfat etdi.

71. SALMAN ŞÜKÜR OĞLU ƏMİRASLANOV

(1912, Sədənağac)

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 373-cü cərgədə 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir. Müharibədən geri qayıtmayıb, həlak olduğu və ya itkin düşdüyü haqda heç bir məlumat yoxdur. Axtarışlarımız davam edir.

72. SALEH ƏSƏD OĞLU MƏMMƏDOV

(1922, Sədənağac)

Mərkəzi Arxivin 8572 saylı fondunda saxlanılan 28 saylı işin 120843 saylı məlumat mənbəsi hesab edilən, 38-ci ehtiyat atıcı diviziyasının 370-ci ehtiyat atıcı polkunun hərbi yolasalma məntəqəsinin verdiyi məlumata əsasən 1942-ci ilin fevral ayında hərbi xidmətə çağırılmış və hərbi yolasalma məntəqəsinə daxil olmuş, 23 mart 1942-ci ildə isə cəbhəyə göndərilmişdir.

Mərkəzi Arxivin 58 saylı fondunda saxlanılan 1151 saylı işin 818883 saylı məlumat mənbəsi hesab edilən Bryansk Cəbhəsi 3-cü ordunun 283-cü atıcı diviziyasının "əvəzedilməz itkilər haqqında" 15821 saylı 12 avqust 1942-ci il tarixli məlumatında 7-ci səhifədə 1942-ci il may ayının 25-də Orlov vilayəti Mtsensk rayonunun Bastıyevo kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olduğu və Bastıyevo kənd qəbiristanlığında dəfn olunduğu göstərilmişdir (şəkil 89).

73. SƏFƏR ŞABAN OĞLU KAZIMOV

(1910, Sədənağac)

15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırılmışdır. Basarkeçər Rayon Hərbi Komissarlığının hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. Sayı 883) 905-ci cərgədə 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib. Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahının 26-cı cərgəsində yazılmışdır.

Apardığımız araşdırmalar nəticəsində müəyyən etdik ki, onun itkin düşməsi haqda məlumat yanlışdır.

180-ci atıcı diviziyasının 21-ci atıcı alayı 1-ci taborun tərkibində Kazımov Səfər Şaban oğlu şanlı döyüş yolu keçmişdir. Kiyev şəhərinin düşməndən azad edilməsi zamanı göstərdiyi igidliyə görə 23 dekabr 1943-cü ildə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif edilmişdir.

Kiçik serjant, pulemyotçu-tuşlayıcı Kazımov Səfər Şaban oğlu 30 yanvar 1944-cü ildə Kiyev vilayətinin Olşansk rayonunun Olşanka kəndi yaxınlığında gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş və orada qardaşlıq qəbiristanlığında dəfn olunmuşdur.

Mərkəzi Arxivin 58 saylı fondunda 111 saylı işin 18002 saylı məlumat mənbəsi hesab edilən 180-ci Kiyev atıcı diviziyasının əvəzedilməz itkilər haqqında 10986 saylı 19 fevral 1944-cü il tarixli məlumatında 556-cı bənddə bu haqda yazılmışdır (şəkil 90).

74. SÜLEYMAN MƏSİM OĞLU BAĞIROV

(1920, Sədənağac)



Basarkeçər Rayon Hərbi Komissarlığının hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında 01 sentyabr 1942-ci ildə hərbi xidmətə çağırıldığı və 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib.

Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahının 32-ci bəndində yazılmışdır.

Qardaşı Bağırov Hüseynin ərizəsi əsasında Basarkeçər RHK-nın apardığı ilkin təhqiqatlara əsasən Süleyman Məsim oğlunun döyüşlərdə itkin düşdüyü müəyyən edilib (şəkil 91).

75. SÜLEYMAN MƏSMALI OĞLU RƏHİMOV

(1925, Sədənağac)

1943-cü ilin payızında hərbi xidmətə çağırılmışdır. Bakı şəhərindəki Qroznı Hərbi Piyada Məktəbinin nəzdində atıcılıq kurslarında bir neçə ay təlim keçdikdən sonra, döyüşən ordu sıralarında Şimali Qafqazda qulluq edir. 1944-cü ilin mayında Sovet Ordusu qoşun birləşmələrinin tərkibində İran Azərbaycanına göndərilir. 1947-ci ildə hərbi xidmətini başa vuraraq kəndə qayıtmışdır.

21 noyabr 1991-ci ildə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir (şəkil 92).

1988-ci il deportasiyasından sonra Şamaxı rayonunun Mədrəsə kəndində məskunlaşmışdır. Bir neçə il orada yaşadıqdan sonra Bakı şəhərinə köçdülər. 1999-cu ildə vəfat etdi və Bakı şəhər qəbiristanlığında dəfn olundu.

Müəllimlər haqqında bölmədə haqqında əlavə məlumat verilir.

76. ŞƏMŞİD YUSİF OĞLU MƏMMƏDOV

(1916, Sədənağac)

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 10 yanvar 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 914-cü sırada 1942-ci ilin iyul ayında itkin düşdüyü qeyd edilib.

Mərkəzi Arxivin 58 saylı fondunda 273 saylı işin 977522 saylı informasiya mənbəyi olan 26049 saylı 02 iyun 1949-cu il tarixli müharibədən sonrakı dövrdə Basarkeçər RHK-nın 49 səhifəlik məlumatının 32-ci səhifəsində atası Yusif Məhəmməd oğlunun 21 may 1949-cu ildə Basarkeçər Rayon Hərbi Komissarlığına yazdığı ərizəsində oğlu Şəmşidin itkin düşdüyünü qeyd edir (şəkil 93).

77. TALIB DÜNYAMALI OĞLU RƏHİMOV

(1908, Sədənağac)

Hüsənlilərdən Tərgül Camal qızı ilə ailə qurub. Mehvalı adlı bir oğlu, Maral adlı bir qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 94).

Deyilənə görə 1943-cü ilin əvvəllərində döyüşlərdən birində həlak olduğu haqda ailəsinə bildiriş ("qara kağızı") gəlmişdir.

Arxiv sənədləri arasında döyüş yolu haqda məlumat tapa bilmədik. Axtarışlarımız davam edir.

78. TAPDIQ CAMAL OĞLU MƏMMƏDOV

(1912, Sədənağac)

Məşədi Hüseynlilərdən Balaca İbrahim qızı ilə ailə qurub. Yadigar adlı bir oğlu, Xanımzər adlı bir qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilir.

22.05.1942-ci ildə Qafqaz Cəbhəsi 40-cı rayon aviabazasından itkin düşmüşdür.

Bu haqda Mərkəzi Arxivin 58-ci fondunda 1525 saylı işin 818883 saylı məlumat mənbəsi hesab edilən 8915 saylı, 22 may 1942-ci il tarixli Qafqaz Cəbhəsi 40-cı rayon aviabazasının "əvəzedilməz itkilər haqqında" 29 səhifədən ibarət məlimatının 23-cü səhifəsində yazılmışdır (şəkil 95).

Arxiv sənədləri arasında döyüş yolu haqda axtarışlarımız davam edir.

79. TEYMUR ALI OĞLU QƏHRƏMANOV

(1900, Sədənağac)

Göyçə mahalının Ağbulaq kəndindən Şəhrəbanı ilə ailə qurub. İbrahim və Yəhya adlı iki oğlu, Bafta adlı bir qızı olub.

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 28 mart 1942-ci ildə hərbi xidmətə çağırıldığı yazılıb. Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 906-cı sırada 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilir.

Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər Rayon Hərbi Komissarlığının 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 37-ci cərgədə itkin düşdüyü göstərilmişdir (şəkil 96).

80. TOTULU HACI OĞLU HACIYEV

(1908, Sədənağac)



Rayonun Qanlı kəndindən İpək Rüstəm qızı ilə ailə qurub. Valeh adlı oğlu, Zərifə, Zərniyar, Xanımzər, Minayə, Kəsir adlı üç qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 28 mart 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir.

Mərkəzi Arxivin 58 saylı fondunda 798 saylı işdə 818883 saylı mənbə hesab edilən 16 oktyabr 1942-ci il tarixli 38423 saylı "əvəzedilməz itkilər haqqında" məlumatlara əlavə olaraq 581-ci Aerodrom xidməti taborunun komandiri tərəfindən Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının sədrinə, 40-cı hərbi rayonun prokuroruna və digər əlaqədar təşkilatlara

göndərilən 01097 saylı 7 oktyabr 1942-ci il tarixli Fövqəladə hadisə (fərarilik) haqqında növbədənkənar məlumatda deyilir: 25 sentyabr 1942-ci ildə Azərbaycan-Gürcüstan dəmiryol xətti ilə Hacıyev dəmiryol stansiyasından Avçala dəmiryol stansiyasınadək sıravi əsgər və kiçik komandirlərdən ibarət komandanın hərəkəti zamanı Tbilisiyə çatmamış yoxlama zamanı qızıl əsgər sıravi atıcı Hacıyev Totulu Hacı oğlunun təyinat yerinə gəlmədiyi (haradan fərarilik etdiyini dəqiq təyin etmək mümkün olmadı) aşkar edildi. Onu göndərən hərbi hissəyə göndərilən sorğular 7 gün ərzində cavabsız qaldı (şəkil 97).

Fərariliyə görə müəyyən edilə bilməyən səbəblər əsasında məsuliyyətdən azad edildiyi məlumdur.

1983-cü ildə Güney kəndində vəfat etmişdir.

81. YUNİS ALI OĞLU QƏHRƏMANOV

(1901, Sədənağac)

Hüsənlilərdən Məşədi Abbasın qızı Zəhra ilə ailə qurmuşdur. Tamaşa, Marış, Telli adlı üç qızı olub.

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 28 mart 1942-ci ildə hərbi xidmətə çağırıldığı yazılıb. Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 906-cı sırada 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilir.

Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahının 38-ci cərgəsində itkin düşdüyü göstərilmişdir.

Mərkəzi Arxivin 8482 saylı fondunda saxlanılan 42 saylı işin 23868 saylı məlumat mənbəsində Yunis Alı oğlunun 1942-ci il 30 avqustdan 1942-ci il 31 dekabradək 56-cı Ordunun 186-cı ordu ehtiyat atıcı polkunun hərbi yolasalma məntəqəsində olduğu göstərilmişdir (şəkil 98).

82. YUNİS ORUC OĞLU ŞƏRİFOV

(1914, Sədənağac)

Qazax Pedaqoji Texnikumunda təhsil almışdır.

1939-cu ildə hərbi xidmətə çağırılmış və həmin il yaradılan Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə qəbul edilmişdir. Bu məktəbi bitirdikdən sonra ordu xidmətini davam etdirmişdir.

1941-ci ildə Sovet Ordusu sıralarında İrana getmiş, qoşun hissələri oradan çıxarıldıqdan sonra Krım yarımadasının geri alınması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Haqqında hələlik başqa məlumat əldə edə bilmədik. Axtarışlar davam edir.

83. YUSİF İSMAYIL OĞLU MƏMMƏDOV

(1908, Sədənağac)

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 13 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilir.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında (inv. № 883, tarixsiz) 59-cu səhifədə 915-ci sırada 1942-ci ilin yanvar ayında itkin düşdüyü qeyd edilir.


Mərkəzi Arxivin 58 saylı fondunda 423 saylı işin 977523 saylı məlumat mənbəyi olan 76306 saylı 21 noyabr 1950-ci il tarixli "müharibədən sonrakı dövrdə Basarkeçər RHK-nın məlumatında" Yusif İsmayıl oğlunun itkin düşməsi haqda qardaşı Müseyib İsmayıl oğlunun ərizəsi, kənd sakinlərinin şahidlik ifadələri və hərbi komissarlığın itkin düşmə aktı saxlanılır (şəkil 99).

84. ZAMAN NƏSİB OĞLU İBRAHİMOV

(1916, Sədənağac)

1937-ci ildə kənddəki yeddiillik məktəbi bitirdikdən sonra İrəvan Ticarət Texnikumuna qəbul edilmişdir. 1940-cı ildə texnikumu bitirmiş və hərbi xidmətə çağırılmışdır.

Zaman Nəsib oğlu şanlı döyüş yolu keçmişdir. Hərbi xidmətə başladığı ilk günlərdən Gürcüstandakı hərbi-təlim bazasındakı kiçik komandirlər məktəbində təlim keçmiş, bir neçə aydan sonra Ukraynada Jitomir şəhəri yaxınlığındakı kəşfiyyat məktəbinə



göndərilmişdir. Bu məktəbi bitirdikdən sonra cəbhə bölgəsində döyüş əməliyyatlarında iştirak etməyə başlamışdır. 1943-cü ildə döyüşlərin birində göstərdiyi şəxsi igidlik və şücaətə görə "İgidliyə görə" medalı ilə təltif edilir.

1945-ci ildə Polşada Varşava şəhərinin faşist işğalçılarından azad edilməsi uğrundakı döyüşlərdə xüsusilə fərqlənir və ağır yaralanır. Bir müddət hərbi hospitalda müalicə olunduqdan sonra yenidən döyüş yolunu davam etdirir. Bu döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə komandanlıq onu "Qırmızı Ulduz" ordeninə təqdim edir. Lakin bu ordeni ona təqdim etmək həmin dövrdə mümkün olmur, orden öz sahibini 1972-ci ildə tapır.

1945-ci ldə "Berlinin alınmasına görə" medalı ilə təltif edilmişdir.

Müharibədən sonra Qərbi Ukraynada asayişin qorunmasında iştirak etmişdir. 06 aprel 1985-ci ildə SSRİ Müdafiə Nazirinin əmri ilə "1-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

85. ZEYNALABDI MƏSMALI OĞLU RƏHİMOV

(1903, Sədənağac)

Hüsənlilərdən Göyçək Sarı qızı ilə ailə qurmuşdur. Həmayıl, Gülbəsti, Mirvari, Lalə və Namizər adlı beş qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 mart 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 102).

Keçdiyi döyüş yolu haqqında arxiv sənədləri arasında hələlik məlumat tapa bilməmişik. Axtarışlar davam edir.

Müharibədən sonrakı illərdə kənddə yaşamış, 1953-cü ildə həyat yoldaşı Göyçək Sarı qızının vəfatından sonra ikinci dəfə Koluxlular nəslindən Tomara (Tomu) Yusif qızı ilə ailə qurub. Firuzə adlı bir qızı olub. 1981-ci ildə Güney kəndində vəfat etmişdir.

86. ZEYNALABDI MUXTAR OĞLU SƏFƏROV

(1917, Sədənağac)



1940-cı ilin yanvarında hərbi xidmətə çağırılmışdır.

1941-ci ilin oktyabrında Xarkov şəhəri ətrafında gedən döyüşlərdə ağır yaralanmış və əsir düşmüşdür. 18 yanvar 1945-ci ildə 52-ci Ordunun hücumu zamanı əsirlikdən azad edilmişdir.

Mərkəzi Arxivdə 58 saylı fondda 1390 saylı işin 18003 saylı məlumat mənbəsi kimi 52-ci Ordu tərəfindən 53882 saylı, 22 aprel 1945-ci il tarixli, əsirlikdən azad edilmiş hərbi qulluqçuların 54 səhifədən ibarət siyahısı saxlanılır. Bu siyahının 22-ci səhifəsinin 291-ci bəndində Zeynalabdı Muxtar oğlu haqda yazılmışdır (şəkil 100).

Müharibə qurtardıqdan sonra 1950-ci ildə kəndə qayıdıb. Hüsənlilər nəslindən Səməngül (Gülüş) Mehralı qızı ilə ailə qurub. Əli, Şirxan adlı iki oğlu, Qətibə, Sənakət, Fatma, Tamam, Əprüz, Gülbəsti, Arifə adlı yeddi qızı olub. 1988-ci il deportasiyasından sonra Bakı şəhərinə köçdü. 2005-ci ildə burada vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.

21 fevral 1987-ci ildə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

87. ZƏKƏRİYYƏ HƏMİD OĞLU BAĞIROV

(1918, Sədənağac)

13 sentyabr 1941-ci ildə Basarkeçər Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır.

Basarkeçər RHK-nın hazırladığı rayon üzrə itkin düşənlərin və həlak olanların siyahısında 1942-ci ilin aprel ayında itkin düşdüyü qeyd edilib. Bu haqda Mərkəzi Arxivin 58 saylı fondunda 682 saylı işdə 977520 saylı mənbə hesab edilən Basarkeçər RHK-nın 21 avqust 1947-ci ildə hazırladığı 60515 saylı siyahıda 27-ci bənddə yazılmışdır (şəkil 101).

88. ZİYAD ƏLİŞ OĞLU ŞƏRİFOV

(1914, Sədənağac)

1941-ci il sentyabr ayının 9-da hərbi xidmətə çağırılmış və cəbhəyə göndərilmişdir. 1942-ci ildə ayağından ağır qəlpə yarası almış, uzun müddət hərbi hospitalda müalicə olunduqdan sonra ordudan tərxis edilərək kəndə qayıtmış və müxtəlif rəhbər vəzifələrdə çalışmışdır.

İctimai xadimlər bölməsində haqqında əlavə məlumat verilir.

ARXA CƏBHƏDƏ XİDMƏT

89. ABDULƏLİ MƏMMƏDVƏLİ OĞLU MİRZƏYEV

(1898, Sədənağac)

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilir (şəkil 102). Gümrüdə tikintidə fəhlə taborunun tərkibində su-elektrik stansiyasının tikintisində çalışıb. 1944-cü ildə xəstələnərək tərxis edilib və kəndə qayıdıb.

İki dəfə evlənib. Birincidə Məşədi Hüseynlilərdən Balaca İbrahim qızı ilə ailə qurub. Uşaqları olmadığından ayrılıblar.

Müharibədən qayıtdıqdan sonra ikinci dəfə Leylan adlı qadınla ailə qurub. Bu nikahdan da övladı olmayıb. 1978-ci ildə Şəmkir rayonunun Quşqara kəndinə köçdü. 1994-cü ildə orada vəfat etdi və kənd qəbiristanlığında dəfn olundu.

90. ƏSGƏR DÜNYAMALI OĞLU RƏHİMOV

(1904, Sədənağac)

Koluxlulardan Gülgəz Sayad qızı ilə ailə qurub. Müzəffər adlı bir oğlu olub. Sonralar ayrılıblar.

Basarkeçər Rayon Hərbi Komissarlığının səfərbərliyin uçotu jurnalının 65-ci səhifəsində 44-cü bənddə 18 fevral 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 102). Müharibədən səhhətinə görə tərxis olunur və kəndə qayıdır. 1961-ci ildə kənddə vəfat edib.

91. CƏMŞİD ƏLİ OĞLU ŞƏRİFOV

(1910, Sədənağac)

Göyçə mahalının Böyük Məzrə kəndindən Maral ilə ailə qurub. Bu evlilikdən Yəhya və Ənvər adlı iki oğlu olur.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 15 sentyabr 1941-ci ildə hərbi xidmətə çağırıldığı və 1946-cı ildə hərbi xidmətdən qayıtdığı qeyd edilir. Deyilənə görə arxa cəbhədə tikinti alayının tərkibində fəhlə kimi çalışıb.

1980-ci ildə kənddə vəfat etdi.

92. GÜLALI CƏLİL OĞLU İBRAHİMOV

(1908, Sədənağac)

Göyçə mahalının Qoşabulaq kəndindən Səkinə ilə ailə qurub. Şahbaz, Dairəddin, Ələddin adlı üç oğlu, Bəyaz adlı qızı olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 1941-ci ildə hərbi xidmətə çağırıldığı və 1946-cı ilin aprel ayında hərbi xidmətdən tərxis olunduğu və kəndə qayıtdığı qeyd edilmişdir (şəkil 102).

Kəndə qayıtdıqdan sonra rayonun Şişqaya kəndindən Quşdar Əli qızı ilə yeni ailə qurmuşdur. Fəxrəddin, Sayəddin adlı iki oğlu, Əntiqə, Sona, Tamilla, Gülöyşə adlı dörd qızı olub.

1968-ci ildə kənddə vəfat etdi.

93. MAHMUD PAŞA OĞLU SƏFƏROV

(1899, Sədənağac)

Babalılardan əmisi qızı Qumaş Muxtar qızı ilə ailə qurub. Fidayıl, Mikayıl, Tahar, Qəzənfər, Yolçu adlı beş oğlu olub.

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 28 mart 1942-ci ildə hərbi xidmətə çağırıldığı qeyd edilmişdir (şəkil 102).

Deyilənə görə, fəhlə taborunun tərkibində respublika ərazisindəki xüsusi əhəmiyyətli tikintilərdə iştirak edib. 1943-cü ilin sentyabrında xəstələnərək kəndə qayıdıb.

1947-ci ildə Güney kəndində vəfat edib.

94. MÜSÜD MƏSMALI OĞLU RƏHİMOV

(1896, Sədənağac)

Basarkeçər RHK-nın səfərbərliyin uçotu jurnalında 26 fevral 1943-cü ildə hərbi xidmətə çağırıldığı qeyd olunmuşdur. Deyilənə görə, fəhlə taborunun tərkibində respublika ərazisindəki xüsusi əhəmiyyətli tikintilərdə iştirak edib. 1945-ci ildə hərbi xidmətdən azad edilərək kəndə qayıdıb.

Rayonun Qaraqoyunlu kəndindən Züleyxa Kərbəlayı Cəfər qızı ilə ailə qurub. Hilal, Əlixan, Kamal, İsaxan adlı dörd oğlu, Anaxanım, Sona, Urquya, Gumaş adlı dörd qızı olub. 1949-cu ildə kənddə vəfat edib.

ƏFQANISTAN MÜHARÍBƏSÍ QƏHRƏMANLARI

Böyük Vətən müharibəsindən 34 il sonra, 1979-cu ildə SSRİ dövlətinin Əfqanıstana hərbi müdaxiləsi başladı. Bu müharibəyə sovetlər tərəfindən çox böyük maddi vəsait sərf olundu, minlərlə əsgər və zabit (bəzi rəqəmlərə görə 13 min nəfərdən çox) həyatını itirdi. Əfqanıstanın itkiləri isə yüz minlərə hesablanır. Bu Şərq ölkəsinin nə qədər şəhərləri, qəsəbə və kəndləri viran qoyuldu və hələ də xaraba vəziyyətdədir. Ən sonra Sovet Ordusu Əfqanıstanı tərk etməli oldu və həmin ölkədə hələ də sülh bərqərar olmayıb və qeyri-müəyyənlik davam edir.

O illər sovet qoşun kontingentinin sıralarında müxtəlif millətlərdən olanlar, o sıradan azərbaycanlı hərbi qulluqçular məcburən özgə torpaqlarında onlara aid olmayan məqsədlər uğrunda döyüşürdü. İtkilərimiz, ağır yaralananlarımız, həyatını itirənlərimiz az olmadı.

Azərbaycanın elə bir kəndi, qəsəbəsi olmadı ki, Əfqanıstan müharibəsinin acılarını öz taleyində yaşamasın. Bizim Sədənağac kəndinin də Əfqanıstan müharibəsindən öz acıları oldu. İsrayil Bəhram oğlu Haqverdiyev, Vaqif Məriş oğlu Qəhrəmanov və Vəlyəddin Əmirxan oğlu Rzayev həqiqi hərbi xidmətdə ikən Əfqanıstana göndərilmişdilər. Hərbi xidmətin, hərbi mükəlləfiyyətin özünün pozulmaz qanunları var. Göyçənin, Sədənağacın övladı olan hər üç hərbi qulluqçu o uzaq diyarda ləyaqətlə xidmət etmiş, ağır vuruşmaların, ekstremal şəraitdə cərəyan edən hərbi əməliyyatların iştirakçısı olmuş, ad-san qazanmışlar. 19-20 yaşlı bu gənclər bizim tarixə qəhrəman kimi yazıldılar. Onlardan biri, Qəhrəmanov Vaqif Məriş oğlu döyüşlərdə həlak oldu. Vəlyəddin isə aldığı güllə yaralarından uzun müddət müalicə olundu, çətinliklə həyata qayıtdı. İsrayil də bir neçə dəfə yüngül yaralandı, müalicə olundu, yenidən döyüş meydanına qayıtdı.

Bu kitabda onların hər biri haqqında qısa da olsa danışmaq istədik.

ÜÇ MƏKTUB

Önümdə zamanın təsirindən, içindəki acı xəbərdən saralmış üç məktub var. Birinci məktubda yazılmışdır:

"Hörmətli Məriş İmran oğlu! Sizin oğlunuz Vaqif qısa bir vaxtda hərbi vərdişlərə mükəmməl yiyələnmişdir. Həmişə nizam-intizama, tapşırılan hər bir işi vicdanla yerinə yetirməyə öyrənmiş Vaqif az bir vaxtda öz davranışı, yüksək əxlaqi keyfiyyətli hərəkətləri ilə komandirlərin, əsgər və zabitlərin hörmətini qazandı, hamının sevimlisi oldu. Neçə-neçə döyüş əməliyyatlarında iştirak etmiş, bu döyüşlərdə şücaət göstərmiş, cəsurluğu ilə ad qazanmışdır. Belə bir oğul böyütdüyünüz üçün sizə dərin minnətdarlığımızı bildirir, belə oğul tərbiyə etmiş ananın qarşısında baş əyirik.

Hərbi hissə komandiri."

Hərbi hissə komandanlığının bu məktubundan heç iki ay keçməmiş ikinci məktub gəldi. Kaş heç gəlməyəydi bu məktub. Bu məktub uca boylu atanın qəddini əydi, qara saçlı ananın başını uca dağların zirvəsi kimi ağartdı, iki bacının göz yaşlarını bahar sularına çevirdi, altı qardaşın ömür dəftərində kədərli bir səhifəyə çevrildi. Məktubda deyilirdi:

"Hörmətli Məriş İmran oğlu! Dərin kədər hissi ilə bildirirəm ki, sizin oğlunuz Qəhrəmanov Vaqif Məriş oğlu öz beynəlmiləl borcunu yerinə yetirərkən döyüşlərdə böyük cəsarət göstərərək qəhrəmancasına həlak oldu. 9 mart 1982-ci ildə Vaqifin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti düşmən tərəfdən güclü minomyot atəşi altında yerə yatmağa məcbur edilmişdi. Sizin oğlunuz Vaqif öz avtomatı ilə düşmənin bu nöqtəsini susdurdu. Döyüş meydanında əlverişli mövqe tutaraq ağır yaralanmış iki əsgər yoldaşını güllə altından çıxararaq təhlükəsiz yerə gətirdi və onların həyatını xilas etdi. Özü isə ağır güllə yarası alaraq həlak oldu.

İmza. Hərbi hissə komandiri."

Üçüncü məktub gələndə artıq Vaqif həyatda yox idi. Məktubu Vaqifin ailəsinə, onun əsgər dostu, Ağcabədi rayonunun Sarıcalı kəndindən Xəlil Əsgərov yazmışdı:

"...Mən Vaqifdən altı ay qabaq burada xidmət edirdim. O gələndən mən onu tanıyırdım və həmişə bir yerdə olurduq. Vaqif burada uşaqlar arasında özünə dərin hörmət və məhəbbət qazanmışdı. O həm öz ailəsinin adını, həm də öz rayonunun adını ucaltmışdı...Vaqif haqda mənim ürəyim doludur. Ancaq ürəyimdəkiləri əllərim yazmağa acizdir."



20 yaşlı bir gəncin taleyindən bəhs edən bu üç məktub Vaqif haqda dolğun təsəvvür yaradır. İgid bir əsgərin qısa ömür yolu...

Vaqif Məriş oğlu 2 may 1962-ci ildə Güney kəndində doğulub. 1979-cu ildə Güney kənd orta məktəbinin X sinfini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra ailəsi ilə birlikdə İsmayıllı rayonunun Keyvəndi kəndinə köçdülər. Kənddəki üzümçülük sovxozunda bir az işlədikdən sonra Şəkidə sürücülük kurslarında oxuyaraq sürücülük vəsiqəsi aldı. 1981-ci ildə isə hərbi xidmətə çağırıldı.

Həmin vaxtlar keçmiş SSRİ-nin Əfqanıstana 1979-cu ildə başlayan hərbi müdaxiləsi davam edirdi. Əfqanıstan dünyanın supergücləri üçün cəlbedici və önəmli bir strateji məkan olduğuna görə yeni bir bəşəri faciə özünə yol açmışdı. Dünya tarixinə Əfqanıstan müharibəsi kimi həkk olunan qanlı səhifələr yazılırdı.

Vaqif Qəhrəmanov SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 iyul 1982-ci il tarixli və 7551-x nömrəli fərmanı ilə "Qızıl Ulduz" ordeni ilə (ölümündən sonra) təltif olunmuşdur. 28 dekabr 1988-ci ildə isə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə (ölümündən sonra) təltif olundu.

Kənd camaatının təklifi ilə İsmayıllı Rayon Xalq Deputatları Soveti Keyvəndi kənd orta məktəbinə Vaqif Məriş oğlu Qəhrəmanovun adının verilməsi haqda qərar qəbul etdi. Bu qərar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 avqust 1982-ci il tarixli 421 nömrəli fərmanı ilə təsdiq edildi. İndi Keyvəndi kənd orta məktəbi Vaqifin adını daşıyır.

Yaqif öz ölümü ilə ölməzlik qazandı, qəlblərdə, ürəklərdə əbədiləşdi.

Ayların, illərin bir-birini əvəz etməsinə, zamanın sürətlə dəyişməsinə baxmayaraq, Vaqifin bu ölümü insanlarımızın yaddaşında həkk olundu. Ölümü ilə ölümsüzlük qazanan bu igidin məzarı indi insanlarımızın ziyarət ünvanıdır. Məzar daşından

düşüncəli halda uzaq üfüqlərə boylanan bu igid oğul yeni yetişən gəncliyə, bu gün əlində silah tutan, düşmənlə üzbəüz dayanmış hər bir əsgərimizə qəhrəmanlığın, cəsurluğun, qorxmazlığın yolunu göstərir.

VƏLİYƏDDİN ƏMİRXAN OĞLU RZAYEV

(1 iyun 1962, Güney)



Orta məktəbi bitirdikdən sonra (1979) ali məktəbə qəbul olmaq məqsədilə Bakıya gəldi. Sənədlərini Dənizçilik Məktəbinə verdi. Lakin müsabiqədən keçə bilmədi. Suvaqçı-rəngsaz peşəsinə yiyələnmək üçün texniki peşə məktəbinə üz tutdu.

1981-ci ildə bu məktəbi bitirərək tikintidə suvaqçı-rəngsaz kimi işə qəbul edildi. Bir neçə ay işləmişdi ki, hərbi xidmətə çağırıldı. 1981-ci ilin noyabrında hərbi xidmətə yola düşdü.

Əfqanıstana gəldikləri ilk gündən güclü atışma ilə rastlaşdı, gözünün önündə hələ vaxt tapıb tanış ola bilmədiyi neçə-neçə əsgər yoldaşı yaralandı, həlak oldu.

Vəliyəddin qısa bir vaxtda döyüş hazırlığı keçdi, silahlardan istifadə qaydalarını, komandirlərin verdiyi təlimləri mənimsədi. Uşaqlıq illərini Göyçənin dağlarında keçirdiyindən, dağlıq şəraitə yaxşı bələd olduğundan, yerli şəraitə də alışmağı uzun çəkmədi.

Sovet qoşun hissəsi avtomobillərlə hərəkət zamanı düşmən hücumuna məruz qaldı. Düşmən irəlidə hərəkət edən maşını yandırdı. Bu maşını itələyib yoldan çıxarmaq lazım idi ki, arxadan gələn maşınlar hərəkəti dayandırmasınlar. Qvardiya sıravi əsgər Rzaev Vəliyəddin arxadakı maşında gəlirdi. Öndəki maşının yandığını görüb hər tərəfdən güclü güllə atəşinə baxmayaraq tez bir neçə əsgər yoldaşı ilə yanan maşınları itələyib yoldan çıxarmaq üçün irəli atıldılar. Maşınları itələyib yolun kənarına çıxararaq arxadan gələn maşınlara yol açdılar. Bu döyüşdə Vəliyəddin ayağından ağır yaralandı və hərbi hospitalda bir ayadək müalicə olundu. Yarası sağaldıqdan sonra yenidən döyüşçü yoldaşlarının yanına qayıtdı.

Qısa bir zamanda özünü qabiliyyətli, qorxmaz, cəsur və təcrübəli bir döyüşçü kimi göstərən Vəliyəddin Rzayevi Komandanlıq bir neçə aydan sonra kəşfiyyat bölüyünə keçirdi.

Döyüşlərdən birində, mücahidlər üzərinə hücum zamanı döyüşçülərimiz onların hiyləsi ilə rastlaşdılar. Onlar bir yerdə səngər qazmış, səngərdən çıxan torpağı isə başqa yerə tökərək çaşqınlıq yaratmışdılar. Hücum zamanı döyüşçülərimiz torpaq tökülən yeri səngər hesab edərək oranı atəşə tuturdular. Bundan istifadə edən düşmən başqa səmtdən atəş açaraq döyüşçülərimizin irəliyə hərəkətini dayandırmışdı. Vəliyəddin Rzayev əsgər qazançasını istehkamçı küreyinə taxıb yuxarı qaldırdı. Qazança güclü atəşə məruz qalaraq deşik-deşik oldu. Güllələrin hardan atıldığını təyin edən Vəliyəddin siqnal raketi ilə həm döyüşçülərə, həm də hərbi helikopterlərə mücahidlərin gizləndiyi səngəri göstərdi. Bundan istifadə edən qoşunlarımız həmin səmtə hücuma keçdilər. Az bir vaxtda mücahidləri sıxışdıraraq onları böyük itkilərlə dağlara çəkilməyə məcbur etdilər. Döyüş yerindən bir az aralı onların böyük silah anbarını ələ keçirdilər, döyüş meydanından 700-dən çox avtomat, onlarca pulemyot və digər silah qənimət götürüldü.

Bu döyüşdə ağır yaralanmış Vəliyəddin Rzayev göstərdiyi qəhrəmanlığa və igidliyə görə "Qızıl Ulduz" ordeninə təqdim olundu.

Dörd aydan çox Özbəkistanın Daşkənd şəhərində, Bakı şəhərində hərbi hospitalda müalicə olunduqdan sonra ordudan tərxis edildi və iş yerinə qayıtdı.

Əfqanıstan döyüşlərində iştirakına görə, "Qızıl Ulduz" ordeni ilə yanaşı SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə, Əfqanıstan Respublikasının "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.


Çəmbərək (Krasnoselo) rayonunun Şorca kəndindən Şəhla Cəfər qızı ilə ailə qurub. Həsən və Hüseyn adlı iki oğlu var. Ailəliklə Bakı şəhərində yaşayırlar.

İSRAYİL BƏHRAM OĞLU HAQVERDİYEV

(27 oktyabr 1967, Güney)

Çoxuşaqlı, zəhmətkeş bir ailənin səkkizinci övladı olaraq dünyaya gəlmişdir. 1974-1984-cü illərdə Güney kənd orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Sumqayıt şəhərinə gəlmiş və 7 saylı texniki peşə məktəbinə qəbul edilmişdir. Peşə məktəbini qaynaqçı ixtisası üzrə bitirdikdən sonra, 1986-cı ildə həqiqi hərbi xidmətə çağırıldı.

Özbəkistanın Səmərqənd şəhərində hərbi təlim bazasında hərbi xidmətə başladı. Burada 6 ay ərzində döyüş hazırlığı keçdi və rabitəçi peşəsinə yiyələndikdən sonra Əfqanıstandakı Sovet qoşun kontingentinin tərkibinə göndərildi. 1 il 6 ay bu qoşunların tərkibində hərbi xidmətdə oldu, döyüşlərdə iştirak etdi. Hərbi xidmət



müddəti bitdikdən sonra ordudan tərxis edildi və Sumqayıt şəhərinə qayıtdı. Sumqayıt şəhərində poladəritmə zavodunda işlədi.

1996-cı ildə könüllü olaraq Qarabağ cəbhəsinə yola düşdü və 6 ay Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etdi.

Gəncə şəhərindən Ülviyyə Həsən qızı (dayısı qızı) ilə ailə qurmuşdur. Taleh və Cavid adlı iki oğlu, Toğrul adlı bir nəvəsi var.

2016-cı ildə həyat yoldaşı vəfat etdi. Hazırda övladları ilə birlikdə Sumqayıt şəhərində yaşayır.


Əfqanıstandakı döyüşlərdə iştirakına görə "Əfqan xalqından təşəkkür", "Beynəlmiləl döyüşçü" və "Əfqanıstanda döyüş əməliyyatlarının bitməsinin 25 illik xatirəsinə" yubiley medalları, eləcə də SSRİ Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilib.

QARABAĞ SAVAŞINDA ŞƏHİD OLMUŞ ELOĞLULAR

Ermənistan SSR-in Azərbaycan SSR-ə qarşı irəli sürdüyü ərazi iddialarına əsaslanan Qarabağ müharibəsi 1991-ci ildə başlandı.

1991-1994-cü illərdə Qarabağda və dövlət sərhədində baş vermiş döyüş əməliyyatlarında 11.557 Azərbaycan hərbçisi şəhid olub. Azərbaycan Ordusunun ən çoxsaylı itkiləri əsasən Ağdam döyüşlərində, habelə 1994-cü ilin qış-yaz aylarında Kəlbəcəri geri almaq üçün təşkil edilmiş hücum əməliyyatlarında baş verdi. Vətənini sevən minlərlə gənc kimi, deportasiyanın vurduğu mənəvi və maddi zərbələrdən hələ tam özünə gəlməmiş Sədənağaclılar da bu döyüşlərin iştirakçıları oldular. Bu döyüşlərdə də itkilərimiz oldu. Sərbəst həyata yenicə qədəm qoymuş cavanlarımız vətəni qoruyarkən canlarından keçməli oldular. Ələddin Müseyib oğlu Dünyamalıyev, Füzuli Ziyadxan oğlu Rzayev, İlyas Cəlal oğlu Cəlilov və Rövşən Duman oğlu İbrahimov bu döyüşlərdə həlak oldular. Onlar şəhidlik zirvəsinə ucaldılar.

ƏLƏDDİN MÜSEYİB OĞLU DÜNYAMALIYEV



Güneydə dünyaya göz açmış (12 yanvar 1964), 1971-1981-ci illərdə kənd orta məktəbində təhsil almış, 1981-ci ildə Sumqayıt şəhərində Kimya-Texnologiya Texnikumunun axşam şöbəsinə daxil olmuşdu. Eyni zamanda Bakı şəhərində 8 saylı Tikinti Trestinin 85 saylı Sənaye-Tikinti İdarəsində inşaatçı fəhlə olaraq çalışırdı. 1982-1984-cü illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra yenidən təhsilini davam etdirmiş və 1987-ci ildə həmin texnikumu "Rezin texnologiyası" ixtisası üzrə bitirmişdir.

Bakı şəhəri Nərimanov Rayon Hərbi Komissarlığı tərəfindən 16 noyabr 1993-cü ildə Azərbaycan Milli Ordusuna xidmətə çağırılmışdır.

8 yanvar 1994-cü ildə Laçın rayonunun Gülebird kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Yanvar ayının 10-da Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

FÜZULİ ZİYADXAN OĞLU RZAYEV



Güney kəndində 1971-ci ildə doğulmuş, kənd orta məktəbində oxumuş, 1988-ci ildə həmin məktəbi bitirmişdi. 1988-ci ilin dekabr ayında başlanan deportasiyadan sonra ailəliklə Tovuz rayonunun Girzan qəsəbəsinə köçmüşdülər. 1989-cu ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırıldı. 1991-ci ildə ordudan tərxis olunaraq Tovuz rayonuna qayıtdı.

1992-ci ildə könüllü olaraq Azərbaycan Ordusu sıralarına qatılmış, qısa bir vaxtda özünün qorxmazlığı ilə döyüşçü yoldaşlarının dərin hörmət və etibarını qazanmışdır.

13 aprel 1993-cü ildə Ağdam rayonunda gedən döyüşlərdə şəhid oldu. Tovuz rayonu Girzan kənd qəbiristanlığında dəfn olundu.

İLYAS CƏLAL OĞLU CƏLİLOV



Şəki rayonunun Üzümçülük sovxozu məntəqəsində 15 yanvar 1969-cu ildə sədənağaclı ailədə doğulub. Bu kənddə orta məktəbi bitirdikdən sonra Sovet Ordusu sıralarında hərbi xidmətə çağırılmışdır. Gəncə şəhərində məskunlaşmış Koluxlular nəslindən olan ailədən Esmira Ələddin qızı ilə 1993-cü ildə ailə qurmuşdu. Xəyal adlı bir oğlu olub. Həmin vaxtlar Qarabağda ağır döyüşlər gedirdi. Vətənin çağırışına cavab olaraq İlyas da cəbhəyə yollandı.

11 yanvar 1994-cü ildə Ağdərə bölgəsində gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. 12 yanvar 1994-cü ildə Tərtər rayonunun Bəyimsarov kənd qəbiristanlığında dəfn olundu.

RÖVŞƏN DUMAN OĞLU İBRAHİMOV



Güneydə 1975-ci il martın 26-da sadə bir ailədə doğulmuşdur. 1982-ci ildən kənd orta məktəbində oxumuşdur. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdılar. Orta təhsilini Gəncə şəhər 37 saylı orta məktəbdə davam etdirdi və 1992-ci ildə orta məktəbi bitirdi. O vaxtlar Vətənimizdə gedən ağır döyüşlərdən kənarda qala bilməzdi. 1993-cü ildə könüllü olaraq cəbhə bölgəsinə hərbi xidmətə yollandı. Cəbhədə olarkən komandirlərin, əsgərlərin böyük hörmət və etimadını qazanmışdır. Sərrast topçu idi. Xocavənd şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Rövşən Duman oğlu İbrahimov 1994-cü il fevralın 6-da Gəncədə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

UNUDULMAZ MÜƏLLİMLƏR

"Yaxşı müəllimi olan xalq xoşbəxtdir".
Alman məsəli

Birinci sinifdən tutmuş onuncu sinfə qədər oxuduğumuz məktəb illəri hər birimizin qəlbində silinməz izlər qoymuşdur. Təbii ki, biz bu illəri daimi olaraq xoş bir xatirə kimi anır və bu xatirələrdə ən əziz yeri, bizə sevgi və qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllimlərimiz tutur. Cəmiyyətin formalaşmasının müəllim əməyindən nə qədər asılı olduğunu hamımız bilirik. Savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanların yetişməsində müəllim əməyi müstəsna rol oynayır. Ona görə də kənd camaatı həmişə müəllimlərə böyük hörmətlə yanaşmış, övladlarının təlim-tərbiyəsini onlara etibar etmişlər. Valideynlərimizin müəllimlərə müraciət edərək "Öldürsən də oxut!" kəlmələrini kim unuda bilər? İlk məktəb günlərindən belə psixoloyi tərbiyəvi danışıq məktəblini həmişə dərsə hazır olmağa sövq edirdi, oxumaq istəməsən də oxumağa çalışmağa məcbur edirdi. Müəllimlərimizdən evdə valideynlərə şikayət etmək heç kimin ağlına belə gəlməzdi. Müəllimin hər kəlməsinə, evə verdiyi hər tapşırığa əməl edilməli idi. Müəllim hər bir ailənin ən müqəddəs, hörmətli, ehtiramlı insanı idi. Bu, Sədənağac kənd sakinlərinin məktəbə, təhsilə aid yazılmamış qanunlarından idi.

Haqqında söhbət açdığımız yaşlı nəslin nümayəndələri və onların şagirdləri olmuş onlarca gənc müəllimlər Sədənağac - Güney kənd məktəbində şagirdlərin dərin və hərtərəfli bilik almaları, savadlı vətəndaş kimi yetişmələri üçün bütün bilik və bacarıqlarını sərf edirdilər. Hər birimizə valideyn qayğısı ilə yanaşır, əziyyətimizə, şıltaqlığımıza dözür, kədərimizə kədərlə, sevincimizə sevinclə şərik olaraq, bir tərbiyəçi-psixoloq kimi qəlbimizə yol tapır, həmişə dərsə hazır gəlməyə həvəsləndirir, öyrətdikləri fənnin mənimsənilməsinə, sevilməsinə nail olurdular.

Müəllimə dünyanın ən məşhur insanları öz sevgi və sayğılarını müxtəlif aforizmlərlə bildiriblər; müəllimi günəşə, bağbana, mühəndisə bənzədiblər. Deyiblər ki, müəllim gənc qəlbi və ağlı günəş kimi işıqlandırır, uşaqlara bağban qayğısı göstərir, mühəndis kimi insan qəlbinin layihəsini cızır.

Bir az poetik səslənsə də, bunda şişirtmə-filan yoxdur, əksinə, müəllim missiyasını bu vaxta qədər deyilmiş heç bir söz tam əhatə eləmir. Çünki nə qədər müəllim varsa, nə qədər şagird olubsa, müəllimin kimliyi də o qədər rəngarəng olub və olacaq. Gərək Yer üzündəki bütün insanlar müəllim sevgilərini desinlər, yalnız onda müəllimin kimliyini tam dolğun müəyyən etmək olar. Ancaq bunun da ömrü yeni şagirdlərin və müəllimlərin gəlişinə qədərdir.


Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllim haqqında xoş sözlər söyləmişdir. O, deyirdi: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".

Keçən əsrin 70-ci illərinin sonlarından başlayaraq Güney kənd məktəbinin məzunlarından bir neçəsi ali təhsil aldıqdan sonra doğma məktəblərinə müəllim kimi qayıtdılar. Sahib Mürsəl oğlu Səfərov, Nəcəf Ziyad oğlu Qurbanov, Əli Ziyad oğlu Qurbanov, Hidayət Oruc oğlu Vəliyev, Zimistan Məsdan oğlu Qurbanov, Kərəm Aslan oğlu Məhərrəmov və digər gənc müəllimlər haqqında da geniş söhbət açmaq olardı. Lakin kitabın həcmi buna yol vermədiyinə görə, ancaq yaşlı nəsildən olan pedaqoqlardan, həmin gənc müəllimlərin də müəllimlərindən, mənim yaşıdlarıma dərs keçmiş müəllimlər haqqında söhbət açmağı qərara aldım.

ƏLİFALI PAŞA OĞLU SƏFƏROV

(27 mart 1927, Sədənağac)

1934-cü ildə kənd natamam orta məktəbininn 1-ci sinfinə getmişdir. 1940-cı ildə 7-ci sinfi bitirdikdən sonra yaşının az olmasına baxmayaraq kolxozun təsərrüfat işlərində çalışmağa başlayıb, 1948-ci ildə İrəvan Pedaqoji Məktəbinə qəbul edilir. Bolşevik cildinə girmiş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qalaraq 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürüldüyündən, 1953-cü ildə Xanlar Pedaqoji Məktəbini bitirir.



1953-cü ildə Güney kənd səkkizillik məktəbində ibtidai sinif müəllimi təyin edilir. 1960-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ibtidai təhsil metodikası və pedaqogikası fakültəsinin qiyabi şöbəsinə qəbul olunur və 1966-cı ildə ali təhsil diplomu alır.

1965-1966-cı illərdə Güney kənd səkkizillik məktəbinin direktoru vəzifəsində çalışdı. 1988-ci ilin dekabr ayına qədər Güney kənd orta məktəbində peşəkar ibtidai sinif müəllimi olaraq fəaliyyət göstərdi.

1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Çənlibel kəndinə köçdü. Bir il orada yaşadıqdan sonra 1989-cu ildə Gəncə şəhərinə köçdü və təqaüdə çıxdı.

Mehriban, qayğıkeş ailə başçısı idi. Minə Ələkbər qızı ilə ailə qurmuşdu, özündən sonra Sabirə adlı qızı, Sabir, Zabit, Ənvər və Mahir adlı dörd oğlu qaldı.

Əlifalı müəllim 2008-ci ildə Gəncə şəhərində vəfat etdi və şəhər qəbiristanlığında dəfn olundu.

HƏMAYA QƏDİR QIZI ƏLİYEVA

(11 iyun 1953, Güney)



1961-1968-ci illərdə Güney kənd səkkizillik məktəbində təhsil almışdır. 1968-1970-ci illərdə qonşu Pəmbək kəndində orta təhsilini tamamladıqdan sonra 1971-ci ildə o dövrdə V.İ.Lenin adına (sonralar N.Tusi adına) olan, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olmuşdur. 1975-ci ildə ali məktəbi uğurla bitirərək Güney kənd orta məktəbində riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətə başladı və 1988-ci ilin dekabr ayınadək bu məktəbdə işlədi.

1988-ci il deportasiyasından sonra Şəmkir rayon Yeni Göyçə kəndində müəllim, məktəb direktoru vəzifələrində çalışdı. Şəmkir şəhər 1 saylı


(K.Marks adına) Cahangir Rüstəmov adına beynəlmiləl orta məktəbdə müəllim işlədi. 2018-ci ildən təqaüdçüdür.

Güney kəndində tibb məntəqəsinin müdiri işləyən Mahir Bayram oğlu ilə ailə qurmuşdur. Əli adlı bir oğul böyüdüblər. Elmir və Bayram adlı iki nəvəsi var.

Hazırda ailəliklə Şəmkirin Posanlı kəndində yaşayırlar.

HÜSEYN BAXŞƏLİ OĞLU QURBANOV

(30 dekabr 1925, Sədənağac)



İctimai tariximizin yetişdirdiyi nadir şəxsiyyətlərdən biri, taleyinə düşən ömrü şərəf və ləyaqətlə yaşayan, gözəl tarixçi-müəllim, səmimi və zərif duyğulu sadə insan, gözəl əməlləri ilə başqalarından seçilən Hüseyn Qurbanov birinci sinfə yenicə açılmış kənd ibtidai məktəbində getmiş, sonralar təhsilini Şişqaya kənd orta məktəbində davam etdirərək orta məktəbi orada bitirmişdir.

Böyük Vətən müharibəsi bütün yaşıdları kimi onun da taleyinə yazılır. 18 oktyabr 1943-cü ildə 18 yaşı yenicə tamam olmuş bu gənc hərbi xidmətə çağırılır. Orta təhsili olduğundan,1942-ci ildən Bakı şəhərinə köçürülmüş Qroznı Hərbi Piyada Məktəbinə oxumağa göndərilir. 1944-cü ilin mayında atıcılıq məktəbini bitirərək cəbhəyə göndərilir. 1947-ci ilin fevral ayına qədər atıcı, 1950-ci ilin mayına kimi taqım komandirinin köməkçisi kimi hərbi xidmətdə olur. Ordudan tərxis edildikdən sonra təhsilini davam etdirmək üçün Bakıya qayıdır.

Hüseyn Qurbanov 1955-1960-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində oxumuşdur. Universiteti bitirdikdən sonra doğma kəndinə qayıdır və 1960-cı ilin sentyabr ayında Güney kənd səkkizillik məktəbində tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlayır.

1962-ci ilin dekabr ayında bu məktəbin direktoru təyin edilmiş və bu vəzifədə 1973-cü ilə qədər çalışmışdır. 1973-cü ilin sentyabrında dərs hissə müdiri vəzifəsinə təyin edilmişdir.

Hüseyn müəllim 1975-ci ildən 1988-ci ilin dekabr ayınadək - deportasiyaya qədər Güney kənd orta məktəbində müəllim işlədi. 1988-ci il deportasiyasından sonra ailəliklə Şəmkir rayonunun Yeni Göyçə kəndində məskunlaşdılar.

Yeni Göyçəyə gəldiyi ilk günlərdən kənd orta məktəbinin müəllimi kimi fəaliyyətə başladı və həyatının sonuna qədər sevdiyi peşəsindən ayrılmadı.

5 noyabr 2010-cu ildə gözlərini əbədi olaraq yumdu və Yeni Göyçə kəndində torpağa tapşırıldı.

Bu qısa tərcümeyi-halda 85 il ömür sürmüş insanın həyatını tam əks etdirmək mümkün deyildir. Lakin bu quru cümlələrin arxasında Hüseyn müəllimin ağır sınaqlar, çətinliklərlə dolu ömür yolu açıq görünür. Heç vaxt müvazinətini itirməyib. Həyatın bütün ağrı-acısına sinə gərmiş, hər zaman şəxsiyyətini, insanlıq vüqarını və ləyaqətini qoruyub saxlamağı bacarmışdı.

Tarix fənninə olan sonsuz sevgisini bütün şagirdlərinə, təmasda olduğu hər kəsə aşılamışdır. Tanınmış pedaqoq olmaqdan öncə həm də gözəl əxlaq və fəzilət sahibi idi. Böyüklə böyük, kiçiklə kiçik olmağı bacarırdı. Heç kəsi özündən narazı salmayan, olduqca diqqətli və həssas idi. Mollalarla, dindarlarla mübahisələri, zarafatları, bu gün də məzəli lətifələr kimi yaddaşlarda qalır.

Hüseyn müəllim rayonun Dərə kəndindən Cuna Qasım qızı ilə ailə qurdu. Qayğıkeş həyat yoldaşı, sevən ata olaraq Vəfa, Hökümə, Rüxsarə, Sitarə, Vüsalə, Səma adlı altı qız övladı böyütdülər. Bu gün onların hər biri evli-eşiklidir.

Böyük Amerika yazıçısı və tarixçisi Henri Adamsın bir sözü var: Müəllimin əbədiyyətə qovuşmasından asılı olmayaraq, onun ömrünün nə zaman bitəcəyini heç kəs deyə bilməz. Bu baxımdan unudulmaz müəllim Hüseyn Qurbanovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq.

QULU MƏHƏRRƏM OĞLU NƏSİBOV

(2 dekabr 1938, Güney)

Atam Qulu müəllimin vəfatından altı ildən çox keçməsinə baxmayaraq hələ də onun yoxluğuna inana bilmirəm. Hər dəfə ata ocağına getdikdə elə bilirəm indicə qarşıma çıxacaq. Onun qapıda görünmədiyi mənim üçün çox üzüntülü və ağrılı keçir. Onun izləri olan hər yer, bağlı qalan kitab rəfi, otağı, nəfəsini hiss etdiyim hər məkan mənə onu xatırladır.

Hər dəfə bir çətinliyə düşəndə ona necə ehtiyacım olduğunu hiss edirəm, onunla danışmaq istəyirəm. Amma nədən başlayım, nədən bitirim - bilmirəm. İçimdəki bu boşluğu, ağrını necə anladım - bilmirəm. Məni daim düşündürən bir çox suallar var ki, hələ də onlara cavab tapmıram. Fəqət ondan bir daha məsləhət ala bilməyəcəyim üzür məni. Onun yoxluğunu illər ötdükcə bütün ağırlığı ilə dərk edirəm. Bəzən mənə elə gəlir ki, harasa gedib, qayıdacaq. Niyə belə tez əlini üzdü bu



həyatdan? Niyə ölüm onu belə tez aldı bizdən? Niyə belə anidən çıxıb getdi? Atamın yoxluğuna alışmaq mənim üçün hələ də mümkünsüz görünür.

Çox fikirləşirdim ki, atamla bağlı xatirələrimi, düşüncələrimi yazım. Amma yaza bilmirəm. Bunları yazmaq mənə çox çətin gəlir. Çünki gözəl ata olmaqla yanaşı, mənim gözümdə həm yaxşı müəllim, həm də dəyərli şəxsiyyət idi. Dünyada hər zaman güvənə biləcəyim ünvan idi. Mənim gözümdə bir dağ, uca, başı qarlı bir dağ idi Qulu müəllim....

İlk müəllimim atam olmuşdur. Dörd yaşımda oxumağı, beş yaşımda isə yazmağı mənə o öyrətmişdir. Oxumağı öyrəndikdən sonra, ilk mütaliə etdiyim əsəri - "Koroğlu" dastanını hündürdən oxuyanda necə sevindiyi hələ də gözlərimin önündədir. Onun gözəl, nurlu siması bir saniyə də olsun gözümün önündən getmir.

Mən həmişə onunla fəxr etmişəm. Şərəfli bir ömür yaşadı, heç kimə əyilmədi, dediyi hər bir kəlmə sözün arxasında heç nədən çəkinmədən, qorxmadan, sonadək durdu. Hər bir hərəkətində qətiyyət, prinsipiallıq vardı. Ədalət prinsipini heç vaxt itirmədi.

Hər dəfə Bakıdan Göygölə gələndə qəbri üstə gedirəm. Dua oxutdururam, ruhunun şad olması üçün yaxşı xəbərlərimi ürəyimdə onunla bölüşdürürəm. Qəbiristanlıqdan geri qayıdanda çox təsirlənirəm. Sanki deyir ki, məni də gözləyin, burada tək qoymayın.

Qulu Məhərrəm oğlu 2 dekabr 1938-ci ildə Basarkeçərin Güney kəndində dünyaya göz açmışdı. 1947-ci ildə Güney kənd yeddiillik məktəbinin birinci sinfinə qəbul olunur. İlk sinif müəllimi Fatma Sayad qızı İbrahimova olub. Fatma müəllimənin xatirəsini həmişə əziz tuturdu. Göygöldə yaşadığı vaxtlarda tez-tez onun yanına gedər, səhhəti ilə maraqlanardı. Fatma müəllimə də Göygöl şəhərində yaşayırdı.

Qulu Nəsibovun ailəsi 1948-ci ildə Azərbaycanın Samux rayonunun Eldar (indiki Kəsəmən) kəndinə köçdüyündən II-IV sinifləri görməyib. V-VI sinifləri isə Gədəbəyin Xar-xar kəndində oxuyub. Ailə 1952-ci ildə Sədənağac kəndinə qayıdıb və VII sinifi doğma kənddə bitirib. 1953-cü ildə Şişqaya kənd orta məktəbinin VIII sinfinə qəbul edilib və 1956-cı ildə orta məktəbi əla qiymətlərlə bitirib. Həmin ilin payızında Güney kənd məktəbində katib vəzifəsinə qəbul edilib. 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunub. IV kursu bitirəndə oxuduğu fakültəni kitabxanaçılıq fakültəsinə çevirirlər və o, 1966-cı ildə kitabxanaçılıq fakültəsindən məzun olur.

1960-cı ilin sentyabr ayından Basarkeçərin Babacan kənd yeddiillik məktəbində riyaziyyat müəllimi kimi müəllimlik fəaliyyətinə başlayır. 1961-1962-ci tədris illərində Pəmbək kəndində, 1962-1963-cü tədris illərində Dərə kəndində müəllimlik etmişdir. 1963-cü ildə Güney kənd məktəbinə riyaziyyat müəllimi təyin edilir. 1988-ci ilin dekabr ayına - deportasiyaya qədər Güney kənd orta məktəbində müəllim işləyir. 1988-ci ilin sonunda, deportasiyanın mənəvi əzablarını yaşadığı vaxtlarda Göygöl rayonunun Şəhriyar kəndində məskunlaşdı. 1989-cu ilin sentyabr ayından 2005-ci ilə qədər, yəni təqaüdə çıxana qədər kənd orta məktəbində müəllim, direktor müavini və dərs hissə müdiri işlədi. 11 avqust 2012-ci ildə dünyasını dəyişdi, haqq dünyasına qovuşdu.

Azərbaycan ədəbiyyatını, xüsusilə şifahi xalq ədəbiyyatını, aşıq yaradıcılığını dərindən bilirdi. Uzun illər dostluq etdiyi müəllim yoldaşı Şamil müəllim təsdiq edir ki, dünya, sovet ədəbiyyatını və milli ədəbiyyatımızı, Azərbaycan şifahi xalq ədəbiyyatını və aşıq yaradıcılığını Qulu müəllimin çox dərindən bildiyinə şahid olmuşam, bu sahədə ensiklopedik bilik sahibi idi. Bu fənni sevə-sevə tədris edirdi, bütün biliyini şagirdlərinə verməyə çalışırdı. Dədə Qorquddan başlamış müasir dövrümüzə qədər saz və söz sənəti, aşıq yaradıcılığı Qulu müəllimin gündəlik sevgisi idi və bu əsrarəngiz söz xəzinəmizi el-obasıyla, şagirdləriylə paylaşmağı özünə borc bilir, şərəf sayır, bundan məmnunluq duyurdu. Misgin Abdaldan, Abbas Tufarqanlıdan, Sarı Aşıqdan, Xəstə Qasımdan, Şair Məmmədhüseyndən, Ağ Aşıqdan, Aşıq Alıdan, Dədə Ələsgərdən, Molla Cümadan, Növrəs İmandan və bir çox başqa söz xiridarlarından saatlarla şeir deyə, bütün dastanlarımızı, nağıllarımızı, rəvayətləri, lətifələri, bayatıları, laylaları, oxşamaları, holavarları, sayaçı sözlərini, atalar sözlərini, tapmacaları və s. əzbərdən söyləyə bilər, sazla tərənnüm edə bilərdi.

Çox güclü yaddaş sahibi olan atam Aşıq Ələsgəri, Səməd Vurğunu demək olar əzbərdən bilirdi. Gözəl saz çalır, hərdənbir də xoş avazla, çox da hündürdən olmayan səslə Aşıq Alıdan, Xəstə Qasımdan, Ələsgərdən, Aqildən (şair Niftalı) oxuyardı. Hərdənbir özünün təzə yazdığı şeirləri də sınaqdan keçirərdi. Qoşmalar yazardı. Yazdığı şeirləri nəşr etdirmək barədə düşünməzdi. Buna baxmayaraq onun bir neçə şeiri 2002-ci ildə "Ömürdən səhifələr" adlı bədii publisistik topluda dərc edilmişdi.

Ömrünün yarıdan çoxunu ədəbiyyata həsr etmişdi. Yuxarıda onun ensiklopedik bilik sahibi olduğu deyildi. Elə bir sahə yox idi ki, ondan məlumatsız olsun. Hər şeydən çox kitab alardı, otaqlarımızın dörd divarı kitabla dolu idi. Yaş dövrümüzə, maraq dairəmizə uyğun kitablar alar, bizdə mütaliəyə həvəs yaradardı. Bunu təkid etmir, dolayı yolla təlqin edirdi. Onun nəticəsi idi ki, Güney kənd kitabxanasında olan minlərlə bədii kitabın yarıdan çoxunu orada yaşadığımız illərdə oxudum. Onun kitab sevgisi

mənə də sirayət etmişdi və bu gün də davam edir. Ən çox sevdiyim işlərdən biri, vaxtım olanda şəhərin kitab mağazalarını gəzmək, mənim üçün maraqlı olan kitabları alıb şəxsi kitabxanamda yerləşdirmək və imkan tapıb mütailə etməkdir.

Təkcə Azərbaycan dili və ədəbiyyatı fənnini tədris etmirdi, uzun illər fizikadan, riyaziyyatdan da dərs demişdir. Bu fənləri də yaxşı bilir və tədris edirdi. Heç vaxt yadımdan çıxmaz, VIII sinifdə oxuyurdum. Riyaziyyat dərsini bizə Krasnoselo rayonunun Gölkənd kəndindən gəlmiş, Azərbaycan Pedaqoji İnstitutu riyaziyyat fakültəsinin məzunu Yaqub Sərdarov tədris edirdi. Sinifdə bir misalı həll edə bilmirdik. Cavabı düz alınmırdı. İkinci dərs idi ki, onun üstündə çalışırdıq. Qonşu otaqda Qulu müəllimin səsini eşidən Yaqub müəllim onu sinfə dəvət etdi və məsələni düzgün həll edə bilmədiyimizi ona danışdı. Qulu müəllim lövhəyə ani bir nəzər saldı və barmağını bir yerdə saxlayıb, buradan axıra qədər silin dedi. Tabaşiri alıb məsələni sona qədər dayanmadan (elə bil nə vaxtsa əzbərləmişdi) yazdı. Cavab düz çıxdı. Yaqub müəllim ona minnətdarlıq etdi və düsturu düz açmadığımızdan, məsələni də düz həll edə bilmirdik, deyə onunla razılaşdı.

Atam haqqında unudulmaz xatirələrimdən biri də evdə bizim şahmat yarışı keçirməyimiz idi. Asudə vaxt tapan kimi şahmat taxtasının arxasında əyləşir, saatlarla şahmat oynayırdıq. Əksər hallarda onun qələbəsi daha çox olurdu. Bəzən uduzduğumuzu boynumuza almadığımızdan dəftər tutub oyunları yazırdıq. Mən həmişə, yaşının hansı vaxtı olmasına baxmayaraq, onun geniş düşünmə qabiliyyətinə, uzaqgörənliyinə heyran qalırdım. Çox vaxt elə kombinasiyalar qururdu ki, onları qabaqcadan görmək, anlamaq mümkün olmurdu.

Çox böyük həvəslə, maraqla nərd atardıq. Mənə çox vaxt qalib gələrdi. Hər dəfə qələbəsindən sonra anamı səsləyərdi: "Ay Minə, gəl oğlunu əlimdən al, bu qədər uduzmaq ona pis təsir edəcək" deyər, özündən razı halda astadan gülərdi.

Qulu müəllimin geniş dostluq əlaqələri var idi. Hədsiz dərəcədə kommunikativ, mehriban, istiqanlı olduğundan, hər yerdə özünə dost tapırdı. Ən əsası da odur ki, dostluğu yaşatmağı, davam etdirməyi bacarırdı. O vaxtlar yaşca cavan olmasına baxmayaraq rayon maarif şöbəsinin müdiri Tapdıq Əmiraslanovla, "Bolluq uğrunda", sonralar isə adı dəyişdirilib "Vardenis" olan rayon qəzetinin baş redaktoru Yunis Abdullayevlə möhkəm dost idilər. Onlar dəfələrlə bizim evdə qonağımız olmuşdular.

Qulu müəllimin tanınmış dostları sırasında Sovet İttifaqının ən məşhur adamlarından biri olan marşal Georgi Konstantinoviç Jukov da var idi. Onlar müntəzəm olaraq məktublaşırdılar. Səhv etmirəmsə, onların dostluq tarixi 1969-cu ildən marşalın "Xatirələr və düşüncələr" kitabından bəzi hissələr jurnalda dərc olunduqdan sonra başlayıb. Atam bu xatirələri oxuduqdan sonra məktub vasitəsilə marşala müraciət etmiş, kitab haqqında öz fikirlərini bildirmiş və bəzi suallar vermişdir. Georgi

Jukov hər qoyulan suala geniş cavab məktubu yazmış və həmin kitab nəşr olunduqdan sonra onun bir nüsxəsini içində avtoqrafı olmaqla atama göndərmişdi. Sonralar onlar tez-tez məktublaşırdılar. Bütün bayramlarda atam ona sovqat göndərər, təbrik teleqramları vurardı. Hər məktubda Jukov atama "mənim gənc dostum" deyə müraciət edirdi. Sonralar mən həmin kitabı və Marşalın məktublarını atamın icazəsi ilə Kaluqa vilayətinin Jukov şəhərində yerləşən Sovet İttifaqı Marşalı G.K.Jukov adına Dövlət Muzeyinə bağışladım.

Qulu müəllimin yaxın dostlarından biri də yazıçı Cəlal Bərgüşad idi. Onlar tez-tez yazışır, yazıçının yaradıcılığına dair fikir və mülahizələrini bildirirdi. Bakıya yolu düşəndə həmişə görüşür, bir yerdə Şamaxının Hilmilli kəndində yaşayan əmim Nəcəfin yanına gedər, orada dağlara qalxar, ov edərdilər. Hər dəfə yazıçı təzə nəşr olunan kitabının bir nüsxəsini Qulu müəllimə bağışlayırdı. O kitablardan "Bozatın belində", "Şərq çiçəyi", "Siyrilmiş qılınc" bu gün də atamın ev kitabxanasında yer tutur.

Yuxarıda qeyd etdiyimiz kimi, asudə vaxtlarında qoşmalar yazırdı. Onlardan birini oxucularımıza təqdim etməyi özümüzə borc bilirik:

DÜNYADA

Adəm oğlu, çox da havalı gəzmə
Bu həyat səni də çözər dünyada.
Varlıyam deyərək yoxsulu əzmə
Bir gün də o səni əzər dünyada!

Elə adam var sevmir heç kəsi,
Aləmi oyadar böhtançı səsi,
Adam var haramla dolar kisəsi,
Heç yeməsə də süzər dünyada.

Məclisə varanda özünü öyər,
Özü olmayanın dalınca söyər,
Qapazlayıb zoru çatanı döyər,
Aslana, pələngə dönər dünyda.

Bir işə düşməyib çıxarmır başı,
Həyat aləmində naşıdır naşı,
Güdaza verər qohum-qardaşı,
Utanmaz, arlanmaz, gəzər dünyada.

Adam var ki, şəkər qatar dilinə,
İşıq saçar, qahmar çıxar elinə,
Alçaq yoldaşının fitnə-felinə,
Yazıq Qulu kimi dözər dünyada.

LƏTİF XAMOY OĞLU ABBASOV

(23 avqust 1939, Güney)



Hüsənlilərdən Mərmər Həmid qızı ilə ailə qurub. Kamran, Yusif adlı iki oğlu, Zəminə və Nərminə adlı iki qızı var.

1948-1958-ci illərdə Gədəbəy rayonunun Arısu kənd orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Sovet Ordusu sıralarında Gümrü şəhərində hərbi xidmətdə olmuşdur.

1961-ci ildə hərbi xidmətini başa vurduqdan sonra doğma Güney kəndinə qayıtmış və kolxozda əmək fəaliyyətinə başlamışdır.

1962-ci ildə Gəncə şəhərindəki H. Zərdabi adına Pedaqoji İnstitutun ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsinə daxil olur və 1967-ci ildə ali məktəbi qiyabi olaraq bitirir.

1964-cü ildə Güney kənd səkkizillik məktəbinə müəllim təyin edilib və 1988-ci ilin deportasiyasına qədər bu işdə çalışmışdır.


Uzun illər məktəb həmkarlar təşkilatının katibi kimi ictimai vəzifəni yerinə yetirmişdir.

1988-ci il deportasiyasından sonra Şəmkir rayonunun Yeni Göyçə kəndində məskunlaşdı. Kənddəki orta məktəbdə müəllim işlədi. 2015-ci ildən təqaüdçüdür.

2016-cı ildən ailəliklə Gəncə şəhərində yaşayırlar.

MUSA BİLAL OĞLU İBRAHİMOV

(4 dekabr 1941, Güney)



Güney kənd yeddiillik məktəbini 1953-cü ildə bitirmişdir. Təhsilini 1954-cü ildən qonşu Şişqaya kənd orta məktəbində davam etdirir və 1957-ci ildə 10-cu sinfi bitirir. 1958-1964-cü illər Güney kənd poçt şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1965-ci ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuş və 1971-ci ildə ali məktəbi qiyabi olaraq bitirmişdir. 1968-1969-cu tədris ilində Dərə kənd səkkizillik məktəbinə müəllim təyin edilmişdir. 1971-ci ildən Güney kənd səkkizillik məktəbində müəllimlik fəaliyyətinə başlamışdır.

Musa müəllim 1988-ci il deportasiyasından sonra Gəncə şəhərinə köçdü. 1990-1991-ci tədris ilində Goranboy rayon Xanlar kənd orta məktəbində müəllimlik etməyə başladı və bu məktəbdə 1997-ci ilə qədər çalışdı. 1997-ci ildə Bakı şəhərinə köçdü, hal-hazırda ailəliklə Bakıda yaşayır, təqaüdçüdür. Həyat yoldaşı qonşu Dərə kəndindən Tamaşa Məmmədəli qızıdır. Elçin və İnqilab adlı iki oğlu, Minarə adlı qızı var.

MÜSEYİB İSMAYIL OĞLU MƏMMƏDOV

(10 fevral 1938, Güney)



Güneydə sadə bir ailədə doğulmuşdur. 1945-ci ildə kənd yeddiillik məktəbini bitirmiş, 1952-ci ildən qonşu Şişqaya kənd orta məktəbində təhsilini davam etdirmişdir. 1955-ci ildə orta məktəbi bitirdikdən sonra İrəvan şəhərində X.Abovyan adına Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə daxil olmuş və 1960-cı ildə bu ali məktəbi bitirmişdir. 1960-cı tədris ilindən Şişqaya kənd orta məktəbində pedaqoji fəaliyyətə başladı. 1961-ci ildə Pəmbək kənd orta məktəbinə müəllim göndərilmiş, 1975-ci ilə qədər bu kənddə öz ixtisası üzrə dərs demişdir.

1976-cı ildə Güney kənd orta məktəbinə müəllim təyin edildi və 1988-ci ilin dekabr ayınadək bu təhsil ocağında çalışdı. 1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdı. 1989-2006-cı illərdə Gəncə şəhərində 30 saylı orta məktəbdə müəllim işləmişdir. Hazırda təqaüdçüdür.

Qayğıkeş və mehriban ata, sevimli babadır. Həyat yoldaşı Maya Məhərrəm qızı ilə Rəşad və İsmayıl adlı iki oğul, Solmaz, Xatirə, Ətayət və Lətayət adlı dörd qız böyütmüşlər. 11 nəvəsi, 2 nəticəsi var.

NƏCƏF MƏHƏRRƏM OĞLU NƏSİBOV

(1941, Güney)



Adı dəqiq yadımda olmayan müdriklərdən biri deyib ki, həyatda insan üç dəfə ad qazanır. Anadan olduqdan sonra valideynləri ilk hədiyyə olaraq uşağa birinci dəfə ad verirlər. Bu ad insanla onun ömrünün sonuna qədər yaşayır. Hamı çalışır ki, bu adı şərəflə, namusla qorusun. İnsan böyüyüb boya-başa çatdıqdan sonra öz qabiliyyətinə, bacarığına, əmək fəaliyyətinə, tutduğu əməllərə, təhsilinə, peşəsinə, sənətinə görə şöhrətlənir, ikinci dəfə ad qazanır, daha doğrusu öz adını doğruldur, onun düzgünlüyünü təsdiq edir. Əgər sağlığında, yaşadığı müddətdə, savab, xeyirxah işlər görüb başqalarının hörmətini qazanırsa, rəhmətə gedəndən sonra ona üçüncü ad verilir. Hər yerdə yada salınır, qeyd olunur, xeyirdə-şərdə, yığıncaq və toplantılarda adı hörmətlə çəkilir, rəhmətlə anılır. Öz yaxşı əməlləri, səmimiliyi, davranışı ilə hörmət qazanan, amma həyatdan vaxtsız köçən insanlar haqqında xatirələr nədənsə daha çox yada düşür. Belə nəcib və yaddaşlarda qalan insanlardan biri də aramızdan vaxtsız köçən, qəfil ölümün pəncəsindən qurtara bilməyən əziz əmim, Nəcəf Məhərrəm oğlu Nəsibovdur. Əmim 1941-ci ildə qədim Göyçə mahalının Güney kəndində dünyaya göz açmışdı. Onun şəxsiyyəti haqqında, bir əmim kimi, özlüyümdə çox düşündüm, bu insan haqqında fikirlərimi, düşündüklərimi sizlərə hansı sözlərlə çatdırım ki, yaşadığı qısa, ancaq mənalı ömrünün bir hissəsini əhatə etsin. Səmimiyyətimə inanın, duyduğum qəhər hissi, boşluq, ürək yanğısı və mənasını izah edə bilmədiyim hisslərim fikirlərimi çatdırmaqda mənə çətinlik yaratdı. Nəcəf əmi doğrudan da Sədənağac kəndinin, eləcə də Məşədi Hüseynlilər nəslinin nümunəvi davamçılarından biri olduğunu

qısa bir ömür səhifəsində göstərə bildi. Onun haqqında xatirə yazmaq, keçmiş zamanda danışmaq heç də asan deyil. Çünki mənim xatirimdə həmişəyaşardır, əbədidir, ölməzdir.

Amansız, qəfil, vaxtsız ölümlərin reallığına heç kəs inanmır və ya inanmaq istəmir. Ancaq bu istəkdən asılı olmayaraq, ölüm heç nəyə, heç kəsə baxmadan bildiyini edir. Ölüm üçün vaxtlı-vaxtsız, vədəli-vədəsiz yoxdur, tutduğunu aparır. İnsanlar nə qədər çətin, acı olsa da, bu sirli reallıqla barışmalı, taleyin hökmünə boyun əyməli olur. Nəcəf əmimin ölüm xəbəri də beləcə oldu. Bu acı, bəd xəbəri eşitmək onun doğmaları, yaxınları üçün dünyanın çəkilməz ən ağır dərdi oldu, o anlar yaşadığımız hissləri sözlə ifadə etmək heç cür mümkün deyil. Mən Nəcəf əmimi uşaqlığımdan belə tanıyırdım. Özünəməxsus xarakteri, ciddiyyəti, hər kəsə qarşı xüsusi həssas münasibəti var idi. Yaşıdlarına nisbətən daha cavan, daha təmkinli və ağıllı görünürdü. Sonralar həyat göstərdi, mən də anladım ki, doğrudan da, Nəcəf əmim xüsusi istedada sahib, aydın dərketmə qabiliyyəti olan, həyat məqsədini müəyyənləşdirən və ona çatmağın yollarını bilən bir şəxsiyyət imiş. Qısa ömründə əldə etdiyi uğurlar da elə bunun isbatıdır. Onun uğurları hamımızı ürəkdən sevindirirdi.

Yüksək dərəcədə savadlı, geniş ensiklopedik biliyə malik olması Nəcəf əmimə gənc yaşlarından başlayaraq, məsul vəzifələrdə çalışmağa imkan yaratdı. 1957-ci ildə Güney kənd yeddillik məktəbini bitirdikdən sonra İrəvanda Kənd Təsərrüfatı Texnikumunun baytarlıq şöbəsinə daxil oldu və baytar həkim ixtisasına yiyələndi. İlk əmək fəaliyyətinə 1961-ci ildən qonşu Krasnoselo rayonunda baytar həkim kimi başladı. Az keçməmiş hərbi xidmətə çağırıldı və Maqadana göndərildi. Orada feldşerlik kursunu bitirərək hərbi hissə feldşeri kimi xidmət etdi. Hərbi xidmətdən sonra rayonun Şişqaya kənd xəstəxanasında feldşer işlədi. Elmə, biliyə olan həvəsi ali təhsil almaq üçün onu Bakıya gətirdi. 1968-1975-ci illərdə M.F.Axundov adına Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsində qiyabi təhsil aldı. 1970-ci ildə Şamaxı rayonunu daimi yaşayış yeri seçərək ora gəldi. Əvvəlcə Hilmilli kəndində baytar həkim, sonralar isə kənd orta məktəbində müəllim işlədi.

1974-cü ildə doğma Göyçə mahalına, Güney kəndinə qayıtdı. İki il kənd orta məktəbində müəllim işlədi. Rus dili və ədəbiyyatı fənnini tədris edirdi. Ailə vəziyyətinə görə 1976-cı ildə yenidən Şamaxıya, Hilmilli kəndinə qayıtdı, Ağdərə kənd səkkizillik məktəbinin direktoru, Hilmilli kənd orta məktəbinin direktoru, kənd Sovetinin sədri vəzifələrində çalışdı.

Tutduğu vəzifədən, oturduğu masadan asılı olmayaraq hamıya xüsusi ehtiramla yanaşmaq, təmənnasız xeyirxahlıq, mənəvi saflıq, ruhi zənginlik, gözütoxluq kimi xüsusiyyətləri ilə insan adını, övlad adını ləyaqət səviyyəsinə qaldırdı, Hilmilli kəndində yaşayan, etnik tərkibi qarışıq əhalinin dərin hörmət və məhəbbətini qazandı.

Nəcəf əmi haqqında, onun mənalı, amma qısa ömür yolu haqqında çox yazmaq olar. Amma nə qədər yazsaq da, nə yazıq ki, onların heç biri onu bircə anlıq da olsun geri qaytarmaq gücündə olmayacaq. Ona görə də, onun ömrünün belə qısa olmağını böyük Yaradanın təqdiri kimi qəbul etməkdən başqa çarəmiz qalmır. Sonda qeyd etmək istəyirəm ki, bir çoxlarının heç vaxt bacarmadıqlarını, Nəcəf əmi yaşadığı 47 illik qısa, ancaq şərəfli, mənalı, faydalı bir ömür yolunda edə bildi. Ancaq hələ onun vətəni, doğmaları, ailəsi, dostları üçün görə biləcəyi çox işlər vardı. Lakin heç də uzun sürməyən ağır xəstəlik buna imkan vermədi. 1988-ci il mayın 31-də gözlərini əbədi olaraq yumdu, haqq dünyasına qovuşdu və öz arzusuna uyğun olaraq Güney kəndində atası Məhərrəmin yanında dəfn olundu.

Nəcəf əmi bu dünyadan köç edib getdi, ancaq geridə bitib-tükənməyən arzuları, gözü yaşlı bacıları, yoldaşı, üç qızı, doğmaları və bir cüt də oğlu qaldı. Onu ürəkdən sevən yüzlərlə qohum-əqrabası, tanışları, iş yoldaşları, yaxın dostları qaldı.

Onun belə vaxtsız dünyasını dəyişməsi uşaqdan böyüyədək hamını üzdü. Həm gənc nəsil, həm də orta və yaşlı nəsil onun yoxluğunu bu gün də qəbul etmək istəmir. Çünki Nəcəf əmi gənclərlə, orta nəslin təmsilçiləri ilə, eyni zamanda yaşlı nəsil ilə də fərdi münasibət qurmağı, onların hörmətini saxlamağı bacarırdı. Böyüklə böyük, kiçiklə kiçik ola bilirdi. Onun böyüklüyü də məhz bunda idi.

Məhz ona görə də bu gün Nəcəf müəllimin əziz xatirəsini onun dostları, yetirmələri daim əziz tutur və minnətdarlıqla yad edirlər. Həmişə ona rəhmət oxuyur, ruhun şad olsun Nəcəf müəllim - deyirlər.

NİFTALI HÜSEYN OĞLU ƏLİYEV

(1931, Sədənağac)

Kənd müəllimlərimiz arasında Niftalı müəllimin öz yeri vardı. Bir-birinə bənzəməyən fiziki hərəkətlər kompleksi vasitəsilə fasiləsiz fiziki hazırlığa, bütün səviyyələrdə yarışlarda iştiraka və yüksək nəticələr əldə olunmasına yönəlmiş bədən tərbiyəsi dərslərini hamımız sevərdik. Gənclik illərinin hər bir addımı idmanla bağlı olduğundan, Niftalı müəllim hər an yanımızda olur, səbrli, təmkinli, peşəkar məsləhətlərini heç vaxt əsirgəmirdi. Tez-tez təşkil etdiyi idman oyunlarında yaş fərqindən asılı olmayaraq hər uşağa yer tapılırdı. Qonşu kəndlərlə, məhəllələrarası, siniflərarası yarışlarda, əsasən də voleybol və futbolda hədsiz dərəcədə ciddiləşərdi. Şagirdlərin psixologiyasını dərindən bildiyindən, hamıda qələbə qazanmaq, sonadək yorulmadan mübarizə aparmaq əhval-ruhiyyəsi aşılayırdı. Yəqin ki, Şişqaya kəndi ilə voleybol yarışlarını hamı xatırlayır. Komandaların nə qədər güclü, nə dərəcədə professional voleybol oynadıqlarını, Şişqaya kənd orta məktəbində bədən tərbiyəsi



və idmanı tədris edən Telman müəllimin komandası uduzanda etdiyi emosional, çılğın hərəkətləri, Niftalı müəllimin isə astadan, aram-aram "bığaltı"gülüşü, Telman müəllimi cırnadan atmacalı replikaları, öz komandası uduzanda isə dolmuş bulud kimi qaralmış sifəti məktəb illərimin şirin bir xatirəsi kimi heç yadımdan çıxmır.

Bütün şagirdlərinə eyni qaydada valideyn qayğısı ilə yanaşırdı, şagirdləri ilə sirdaş, dərddaş olmağı, arada dostluq münasibəti yaratmağı bacarırdı. Öyrətdiyi fiziki hərəkətlər toplusu şagirdlərin həyata hazırlanmasında müstəsna əhəmiyyət daşıyırdı. Bədən tərbiyəsi dərslərində tez-tez təşkil etdiyi yeriş, qaçış, tullanma, qamətimizi düzgün inkişaf etdirən, sağlamlığımıza təsir edən hərəkətlər olmaqla yanaşı, eyni zamanda sürət, çeviklik, dözümlülük kimi fiziki və psixoloji keyfiyyətlərin tərbiyə olunmasında öz rolunu oynayırdı. Hamı təsdiq edər ki, kənddə şahmat oyununun geniş yayılmasının səbəbkarı Niftalı müəllim olmuşdur. Özü çox güclü şahmat oynayır və bu bacarığı bizlərə aşılamaq üçün saatlarla asudə, dərsdən sonrakı vaxtını sərf edirdi. Heç vaxt yadımdan cıxmaz - şahmatda fiqurların necə hərəkət etməsini öyrəndikdən sonra şahmat oynamaq üçün xeyli müddət Niftalı müəllimin evinə getdim. O da işini-gücünü buraxıb saatlarla mənimlə tələsmədən şahmat oynayırdı. Həmin günlərin əhəmiyyətini, Niftalı müəllimin nə qədər müdrik bir müəllim, gözəl insan olduğunu indi, tez-tez iştirak etdiyim həvəskar şahmat yarışlarında bütün dolğunluğu ilə dərk edirəm.

Niftalı müəllim Qəhrəmanlılardan Hüseyn Alı oğlunun ailəsində dünyaya göz açmışdır. Anası Həlimə xanım Məşədi Hüseynlilərdən Məşədi Hüseynin oğlu İbrahimin qızıdır. Ailədə dördüncü uşaq olub. Bacısı Qəndab, qardaşları Qədir və İsmayıl ondan böyük olub, hamısının da arasında 4 yaş fərqləri var. Erkən yaşlarında ata və anasını itirib. İlk təhsilini Sədənağac kənd yeddiillik məktəbində alıb, orta təhsilini Şişqaya kənd orta məktəbində tamamlayıb. 1953-1957-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda oxuyub, bədən tərbiyəsi və anatomiya ixtisası üzrə müəllim kimi kəndə qayıdıb.

1957-1961-ci illərdə kənd məktəbində direktor, sonralar dərs hissə müdiri və sıravi müəllim olaraq çalışıb.

Ailəlidir, rayonun Yarpızlı kəndindən Şahbaz Paşa oğlunun qızı Ofelya xanımla ailə qurub. Səkkiz övlad - 6 oğul: Siyasət, Hüseyn, Cahan, Rövşən, Zəfər, Gündüz,

iki qız: Rüxsarə və Mənsurə - böyütmüş, onların hər birinin təhsil alıb cəmiyyətdə layiqli yer tutmasına çalışmışdır.

Taledən paylarına qaçqınlıq, didərginlik də yazılmış bu gözəl ailə 1988-ci il deportasiyasından sonra Bakı şəhərində məskunlaşdı. Hal-hazırda həyatlarının ahıl çağlarını çoxlu sayda nəvələrinin əhatəsində, övladlarının sevgi dolu qayğısı ilə Bakı şəhərində yaşayır. Biz də Niftalı Hüseyn oğluna can sağlığı, uzun ömür diləyirik!

RÜSTƏM DIVIŞ OĞLU RÜSTƏMOV

(6 may 1941, Göyçə)

Keçdiyin həyat yolunun müəyyən edilməsində, formalaşmasında, həyatda qazandığın uğurlarda əməyi, zəhməti çox böyük və əvəzsiz olan, bütün həyatım boyu hörmət və böyük sevgi hissi ilə andığım müəllimim haqqında yazmaq heç də asan deyil. Hər vaxt, hər zaman köklənmək olmur. Bəzən lazımi sözlər tapmaqda çətinliklə üzləşirsən, bəzən də şüurdan doğulan fikirlər qəlbdə yaranmış duyğularla toqquşur və əl istədiyini kağıza köçürə bilmir. Tutulub qalırsan, sanki donursan və nəticədə yazmaq istədiyini başqa vaxta saxlayırsan. Dərin hörmətimi, sonsuz məhəbbətimi və rəğbətimi qazanmış Rüstəm müəllim haqqında yazmağa bir neçə dəfə cəhd etmişdimsə də, alınmırdı. Ancaq indi, kitabın nəşri ilə əlaqəli yazılar silsiləsində hər şey öz axarını tapdı, sözlər bir-birinin ardınca muncuqdakı kəhrəbalar kimi düzülməyə başladı. Bunun bir səbəbi də keçmişlə, həyatımda unudulmaz məqamlardan biri hesab etdiyim bir hadisə ilə bağlıdır.

Qırx beş il əvvəl, 1973-cü ildə, VII sinifdə oxuyurdum. Rüstəm müəllim sinfimizdə çoxlarının sevdiyi tarix fənnindən bizə dərs deyirdi. Novruz bayramına bir az qalmış tənəffüs zamanı məni müəllimlər otağına dəvət etdi. Stulda oturmağımı təklif edib özü ayağa qalxdı və mənə yaxınlaşaraq əlini çiynimə qoydu. Azacıq gülümsəyərək, astadan çox mənalı bir tərzdə: Lütfiyar, sənə məsuliyyətli bir iş tapşırmaq istəyirəm. Düzdür, bir az çətin olacaq, ancaq, mən əminəm ki, sən bu tapşırığın öhdəsindən gələ biləcəksən. Qarşıdan gələn 9 May Qələbə günü münasibətilə bir tədbirimiz var. Kəndin müharibə iştirakçılarını bu münasibətlə bir yerə yığıb təbrik etmək istəyirik. Bu işi bir "iclas", "axşam" şəklində təşkil etməyi planlaşdırmışıq. Baş məruzəçi də sən olacaqsan. "Azərbaycan xalqının qəhrəmanlıq tarixindən" mövzusunda 45-50 dəqiqəlik bir məruzə hazırlamaq lazımdır. Koroğludan başlayaraq bu günə qədər qısa da olsa, bütün xalq qəhrəmanları haqqında məruzə etmək lazımdır.

"Mən tərəddüd etmədən razılıq verdim. Rüstəm müəllim mənə bir neçə metodik göstəriş verdi və nədə çətinliyin olsa kömək edəcəyəm, deyərək məni dərsə yola saldı.



Xeyli çalışdım, əlavə kitablar oxumağa başladım, təxminən iki aya yaxın müddət ərzində bu məruzəni hazırladım. Bir neçə dəfə Rüstəm müəllim məruzəni necə yazmağımı yoxladı, müəyyən göstərişlər verdi.

9 May Qələbə günü günorta saat 15-də təyin edilmiş tədbirin açılışı oldu. Bu tədbirə kəndin ağsaqqallarından Qara Mürsəl oğlu, Bilal Cəlil oğlu, Xıdır Müstafa oğlu, Qəşəm İbrahim oğlu, Hüseyn Səfəralı oğlu, Abbasəli Ağamalıoğlu və digər müharibə iştirakçıları gəlmişdilər. Məruzə bir saata yaxın davam etdi və çox diqqətlə dinlənildi. Kəndimizin ağsaqqalları böyük razılıq hissi ilə məni təbrik edir, haqqımda xoş sözlər deyirdilər. Məruzədən sonra Rüstəm müəllim məni bağrına basdı və təbrik etdi. "Sən çox böyük bir işin öhdəsindən gələ bildin və məni utandırmadın. Çünki, tarix fənnini çox sevirsən. Bu sevgini sona qədər davam etdir!"

Bu gün tam qətiyyətlə deyə bilərəm ki, Rüstəm müəllim bu addımla məndə tarixə olan marağı, həvəsi qat-qat artırdı. Onun da nəticəsi olaraq Xabarovsk şəhərində Ali Milis Məktəbinə qəbul imtahanlarında tarix fənnindən əla qiymət aldım. Bu ali təhsil ocağını fərqlənmə diplomu ilə bitirdim, ikinci ali təhsil aldım. Aspiranturada oxudum, dissertasiya müdafiə etdim. Hər yerdə Rüstəm müəllimin tarix fənni önümdə güneştək parladı və büdrəmədən irəliyə doğru hərəkətimə işıq saçdı.

Ömrünün çoxunu təhsilə, gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş gözəl insan, fədakar müəllim, təcrübəli pedaqoq Rüstəm müəllimin keçdiyi ömür yoluna qısa nəzər salsaq, görərik ki, Rüstəm Dıvış oğlu Rüstəmov 1941-ci il mayın 6-da Basarkeçər rayonunun Güney kəndində doğulmuşdur. Böyük Vətən müharibəsinin ilk günlərindən atası Dıvış Rüstəm oğlu cəbhəyə yollanır və müharibədə itkin düşür. Taledən atasızlıq payı qismət olmuş balaca Rüstəm anası Qədəmçə xanımın himayəsində çətinliklə də olsa böyüyür. 1948-ci ildə Güney kənd yeddiillik məktəbin 1-ci sinfinə gedir. 1955-ci ildə məktəbin VII sinfini bitirir. 1957-ci ildə İrəvandakı Kənd Təsərrüfatı Texnikumunun baytarlıq şöbəsinə daxil olur və 1961-ci ildə bu təhsil ocağını bitirərək baytar-həkim ixtisasına yiyələnir. 1961-ci ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırılır. 1964-cü ildə hərbi xidmətini uzaq Sibirdə başa vurduqdan sonra Bakı şəhərində müxtəlif müəssisələrdə işləyir. Sonra fikrini dəyişir və 1970-ci ildə Özbəkistanın paytaxtı Daşkəndə yollanır. İki il orada fəhlə kimi çalışır və 1972-ci ildə Daşkənd Dövlət Universitetinin tarix fakültəsinə daxil olur.

Doğma Güney kəndinə 1973-cü ildə qayıtmış və kənd səkkizillik məktəbində tarix müəllimi kimi işə başlamışdır. 1978-ci ildə universiteti bitirərək ali təhsil diplomu alır. İctimai həyatda siyasi fəallığı ilə seçilirdi. Az keçmədi ki, kənd ilk partiya təşkilatının katibi seçildi. 1978-ci ildə Rayon partiya komitəsinin qərarı və tövsiyəsi ilə qonşu Dərə kənd kolxozunun idarə heyətinin sədri vəzifəsinə irəli çəkildi və bu vəzifədə 1983-cü ilə qədər çalışdı. 1983-cü ildən 1988-ci ilin dekabr ayına - deportasiyaya qədər Güney kənd orta məktəbində tarix müəllimi kimi pedaqoji fəaliyyət göstərdi.

1988-ci il deportasiyasından sonra Gəncə şəhərində məskunlaşdı və 1994-cü ilə qədər 24 saylı şəhər tam orta məktəbində tarix müəllimi kimi çalışdı. 1994-cü ildə Goranboy rayonunun Azad kəndinə köçdü və 2012-ci ildə təqaüdə çıxana qədər orada orta məktəbdə tarix fənnini tədris etdi.

Hazırda Gəncə şəhərində yaşayır. Böyük ailə sahibidir. Həyat yoldaşı Kimya Bayram qızı evdar qadındır. Onların Əli adlı oğlu, Aida və Sahilə adlı iki qızları var. Evdə nəvələri böyüyür.

SÜLEYMAN MƏSMALI OĞLU RƏHİMOV

(15 aprel 1925, Güney)

Həyatının çox böyük bir hissəsini gənc nəslin təhsilinə həsr edərək, müdriklik zirvəsinə yüksəlmiş dəyərli insan, daxilən zəngin, nəcib, xeyirxah, mərd şəxsiyyət, yüzlərlə şagirdin sevimli müəllimi Süleyman Məsmalı oğlu Rəhimov 1932-ci ildə kənddə təzə açılmış dördillik məktəbin 1-ci sinfinə getmişdir. 1936-cı ildə bu məktəbin əsasında kənddə yeddiillik məktəb açılır. Süleyman Məsmalı oğlu 1939-cu ildə həmin məktəbin 7-ci sinfini bitirib. 1939-1942-ci tədris illərində Şişqaya kənd orta məktəbində oxudu.

1943-cü ilin payızında hərbi xidmətə çağırıldı. Bakı şəhərindəki Qroznı Hərbi Piyada Məktəbinin nəzdində atıcılıq kurslarında bir neçə ay təlim keçdikdən sonra, döyüşən ordu sıralarında Şimali Qafqazda qulluq etdi. 1944-cü ilin may ayında Sovet Ordusu qoşun birləşmələrinin tərkibində İrana göndərildi. 1947-ci ildə hərbi xidmətini başa vuraraq doğma kəndə qayıtdı.

Hərbi xidmətdə olduğu dövrdə kommunist partiyası sıralarına namizəd qəbul edilmişdi. Kəndə qayıtdıqdan sonra kəndin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başladı, təzəcə təşkil edilmiş kənd klubunun müdiri vəzifəsinə təyin edildi. 1950-ci ilin aprel ayında kommunist partiyası sıralarına üzv qəbul edildi.

Həmin ilin yayında Bakı Qiyabi pedaqoji məktəbinin ibtidai təhsil şöbəsinə daxil oldu və 4 avqust 1951-ci ildə bu təhsil ocağını bitirərək ibtidai sinif müəllimi ixtisasına yiyələndi.



1953-cü ildə kənd ilk partiya təşkilatının katibi ictimai vəzifəsinə seçildi və kəndin ictimai həyatında müstəsna rol oynayaraq kitabxananın və kənd klubu işlərinin təşkilində bilavasitə iştirak etməyə başladı.

1964-1970-ci illərdə H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun pedaqogika və ibtidai təhsil metodikası fakültəsini bitirdi.

1960-cı ildən Güney kənd yeddiillik məktəbində pedaqoji fəaliyyətə başlayan Süleyman müəllim 1988-ci ilin dekabr ayına, deportasiyaya qədər, bu sevimli peşəsindən ayrılmadı. Kənd məktəbinin həmişəlik emalatxana müdiri və ibtidai sinif müəllimi kimi fəaliyyət göstərdi. Məktəb emalatxanasına rəhbərlik etməyinin sirri onun qabiliyyətli, bacarıqlı dülgər və xarrat olması ilə bağlı idi. Məktəbdə əmək təlimi dərslərini həmişə Süleyman müəllim aparardı. Onun verdiyi təlimlər əsasında bu gün kənd camaatının bir çoxu dülgərliklə, xarratlıqla bağlı işlərin öhdəsindən layiqincə gəlməyi bacarırlar.

Kənddə ilk minik maşınlarından biri Süleyman müəllimə məxsus idi. Kim 10 52 markalı minik maşını bütün rayonda məşhur idi. Kənd camaatı başqa markalı maşınlardan bir çox üstünlüklərinə görə həmin maşına "tank" adı vermişdilər. İlin bütün fəsillərində öz xeyirxahlığı ilə həmişə başqalarından seçilən Süleyman müəllim maşını ilə hamıya kömək olurdu, təmənnasız olaraq kəndin həm "təcili yardımı", həm avtobusu, həm də taksisi olurdu. Vaxtı olanda heç kimə köməyini əsirgəməzdi.

1985-ci ildə Böyük Vətən müharibəsi iştirakçısı kimi təqaüdə çıxmışdı. Buna baxmayaraq pedaqoji fəaliyyətini davam etdirirdi.

1988-ci ildə deportasiyadan sonra ailəsi ilə birlikdə Şamaxı rayonunun Mədrəsə kəndində məskunlaşdı. Bir neçə il orada yaşadıqdan sonra Bakı şəhərinə köçdü.

Süleyman müəllimin keçdiyi zəngin həyat yolu, vətənə xidmətləri yüksək qiymətləndirilmişdir. Keçmiş SSRİ-nin bir çox medalları ilə təltif edilmişdir.

1985-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Rəhimov Süleyman Məsmalı oğlu alman-faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi şücaətə, mətanətə, cəsarətə görə və Sovet xalqının 1941-1945-ci illərdə Böyük Vətən müharibəsindəki Qələbəsinin 40 illik yubileyinin qeyd edilməsi münasibətilə "2-ci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

İnsan gözəlliyinin bütün xüsusiyyətlərini özündə çəmləşdirən Süleyman müəllim, qayğıkeş ailə başçısı, təmkinli və sevən həyat yoldaşı, həm də çox sevilən bir baba

olaraq, 51 il birgə ömür sürdüyü, qonşu Dərə kəndindən olan Xanım Əhməd qızı ilə böyük bir ailəni: Həsən adlı oğlu, Cuna, Mahizər, Müşgünaz, Pakizə, Nazilə, Yazgül, Səminə adlı yeddi qızı böyüdüb ərsəyə çatdırdılar, ev-eşik sahibi etdilər.

1998-ci ildə Süleyman Məsmalı oğlu şərəflə yaşadığı ömrü başa vuraraq dünyasını dəyişdi. Bakı şəhərində dəfn edildi. Allah rəhmət etsin!

ŞAMİL DIVIŞ OĞLU RÜSTƏMOV

(1937, Güney)



Mən bu yazıda Sədənağacın görkəmli ziyalısı, təcrübəli pedaqoq, el ağsaqqalı, yüksək əqidə və məslək sahibi olan Şamil müəllimdən söhbət açmaq istəyirəm.

İndi təqaüddə olan bu qayğıkeş insan ömrünün yarıdan çoxunu öz sevimli peşəsinə həsr edib, uzun müddət kimya-biologiya müəllimi işləyib, pedaqoji fəaliyyətlə məşğul olub. O, zahiri və daxili mədəniyyəti, nəcib əxlaqi keyfiyyətləri özündə birləşdirən, düzlük, ədalətlilik, xeyirxahlıq, humanizm, sadəlik nümunəsi olaraq şagirdlərinin xatirindədir.

Şamil müəllim öz peşəsini və tədris etdiyi fənləri dərindən sevən bir müəllimdir. Onun şagirdi olan hər bir şəxs bilirdi ki, kimya-biologiyanı Şamil müəllim kimi sevmək, öyrənmək lazımdır. Məktəbdə biz həmişə Şamil müəllimi yaxşı oxumayan şagirdlərin "qənimi" sayırdıq, dərsə hazırlaşmayan şagirdlərin əksəriyyəti ondan çəkinirdi. Hədsiz dərəcədə ciddi olan, uca boyu, geniş alnı, ona yaraşıq verən nazik qısa bığları, yana daranan qısa saçları, həmişə səliqəli və son dəbdə olan geyimləri məktəbdə onu hamıdan fərqləndirirdi. Kəskin, iti, ağır zəhmli baxışları, dərsə hazır olmayanda bizi lərzəyə salır, özümüzü itirir, dərsə hazır olmadığımızı istər-istəməz bildirirdik.

Bununla yanaşı, Şamil müəllimin xoş, nəvazişli baxışı vardı. Dərsdə ürəyincə cavab verəndə onun çöhrəsində elə bil gül açır, ağır, zəhmli baxışlar, mehribanlıq, nəvaziş içərisində əriyib itirdi. Onun daxilindən gəlib özünü büruzə verən anadangəlmə davranış mədəniyyəti üzə çıxırdı. Başqaları ilə münasibətində xüsusi qarşılıqlı hörmət və ehtiram, ətrafdakı insanlara xeyirxahlıq hissi onun yüksək insani keyfiyyətlərindən xəbər verirdi.

Şamil müəllimlə bağlı hər bir şagirdin öz təəssüratı var. Şagirdləri onu təkcə müəllim kimi yox, sözün həqiqi mənasında yol göstərən, qayğıkeş bir ağsaqqal kimi qəbul edirdi.

Mənim də Şamil müəllimlə bağlı xatirələrim hədsizdir. Bu qısa yazıda onların hamısından söhbət açmaq mümkün deyil. Ancaq bir epizodu qeyd etmək istəyirəm ki, orta məktəbdə Şamil müəllimin öyrətdiyi kimya fənnindən mən aradan düz 40 il keçməsinə baxmayaraq, bu gün orta məktəbi təzəcə bitirmiş bir şagird səviyyəsində imtahan verə bilərəm.

Oxucuların nəzərinə çatdırmaq istəyirəm ki, orta məktəbi bitirdikdən sonra həkim olmaq arzusu ilə sənədlərimi iki il dalbadal Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə verdim. Biologiyadan və fizikadan "yaxşı", kimyadan isə "əla" qiymət aldım. Ancaq yazılı imtahan olan Azərbaycan dili və ədəbiyyatı fənnindən aldığım "kafi" qiymət mənə müsabiqədən keçməyə imkan vermədi. O zamanlar bu institutda böyük müsabiqə olurdu. Kimya imtahanı zamanı suallara cavab verəndə imtahan götürən iki müəllimdən biri məni dayandırdı və "bala, çox yaxşı, sənə dörd yazıram, gedə bilərsən" deyəndə əlini tutdum və beş almaq istədiyimi bildirdim. Xahiş etdim ki, əlavə suallar versinlər, cavabımdan sonra qiymət yazsınlar.

Müəllim xeyli üzümə baxdıqdan sonra dedi: "Oğlum, kimya çox çətin bir elmdir, hər adam ondan beş ala bilməz, əbəs yerə özünü yorma bu istidə." Həyatım boyu bu sözlər heç yadımdan çıxmır.

Bir daha təkidlə əlavə suallar vermələrini xahiş etdim. Müəllim gülümsəyərək başını buladı və suallar verməyə başladılar. Əksər sualların cavabını sona qədər danışmağa qoymurdular. On beşə yaxın əlavə suallara cavab verdim. İmtahan götürən müəllimlərdən biri ayağa qalxdı, mehribancasına əlini çiynimə qoyaraq hansı məktəbi bitirdiyimi və müəllimimin kim olduğunu soruşdu. Mən Güney kənd orta məktəbi və Şamil müəllim deyəndə imtahan götürən müəllim çaşdı və təəccüblə "bu kənd haradadır, bala" deyə sual verdi. Məndən cavab aldıqdan sonra başını bulayaraq aşağı oturdu, qiymət vərəqəsini özünə doğru çəkərək iri hərflərlə "Əla" qiymətini yazdı. Gedə bilərsən, oğlum, halal olsun sənə dərs verən müəllimə, - deyərək qiymət vərəqini mənə uzatdı.

Baxmayaraq ki, həyatın müəyyən bir mərhələsində həkim olmaqdan vaz keçdim, humanitar sahəyə üz tutdum. Bu gün də kimya-biologiya elminə olan məhəbbət hissi qəlbimdə özünə yer tutaraq yaşamaqdadır.

Müəllimliyi qədər insanlığı da uca tutan Şamil Dıvış oğlu 1937-ci ildə Basarkeçər rayonunun Güney kəndində doğulub. 1948-ci ildə Güney kənd ibtidai məktəbinə daxil olur. 1957-ci ildə Şişqaya kənd orta məktəbini bitirərək Qazax Tibb

Texnikumuna daxıl olur. 1964-cü ildə texnikumu fərqlənmə diplomu ilə bitirərək doğma kəndinə qayıdır, Şişqaya kənd xəstəxanasında ambulator feldşeri kimi 1970-ci ilə qədər çalışır. 1964-cü ildə texnikumu bitirdikdən sonra, Həsən bəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun qiyabi biologiya fakültəsinə qəbul olunur və təhsilini orada davam etdirir. 1969-cu ildən Güney kənd səkkizillik məktəbində kimya-biologiya müəllimi kimi pedaqoji fəaliyyətə başlayır. 1978-ci ildən 1988-ci ilə - deportasiyaya qədər Güney kənd orta məktəbində dərs hissə müdiri olaraq çalışırdı. 1988-ci il deportasiyasından sonra Gəncədə məskunlaşdılar. 1 sentyabr 1989-cu ildən Gəncə şəhəri 9 saylı orta məktəbdə dərs hissə müdiri vəzifəsinə təyin olundu və təqaüdə çıxana qədər bu vəzifədə çalışdı. 2012-ci ildən təqaüdçüdür.

Pedaqoji fəaliyyətində müəllimliklə yanaşı uzun illər dərs hissə müdiri kimi fəaliyyət göstərib.

Bu gün ölkədə, eləcə də dünyanın başqa yerlərində Şamil müəllimin şagirdləri aldıqları bilik, savad sayəsində özlərinə layiqli yer tuturlar. Onların arasında tanınmış həkimlər, kimyaçılar, bioloqlar var.

Onların bir çoxu haqqında bu kitabda söhbət açılacaq. Ona görə də bu söhbəti şagirdlərdən bəhs edəndə davam etdirərik. Kimya üzrə fəlsəfə doktoru Mehman Qurbanov, tibb üzrə elmlər doktoru Rizvan Məmmədov, tibb üzrə fəlsəfə doktorları Sahib İbrahimov, Elmar Şərifov və bir çox digər tanınmış həkimlər, aqronomlar, zootexniklər, mühəndislər bu gün Şamil müəllimin yetirmələri olduqları ilə fəxr edirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, Şamil müəllimin tibb sahəsində də geniş fəaliyyəti olmuşdur. O, həmişə kənddə ehtiyacı olanlara təcili tibbi yardım göstərər, iynə vurar, bir çox xəstələrə tibbi tövsiyyələr verərdi. Heç kimdən köməyini əsirgəməzdi.

Şamil müəllim əsl məclis adamı idi, kənd camaatının xeyrində-şərində yaxından iştirak edər, kənd ağsaqqallarının məsləhəti ilə toyların idarə edilməsini üzərinə götürərdi. Dilli-dilavər, el-obanı yaxşı tanıyan, Azərbaycan ədəbiyyatını, poeziyasını, saz-söz sənətini incəliklərinə qədər bilən Şamil müəllim ona həvalə edilən işləri yüksək səviyyədə yola verərdi. Şamil müəllim sinədəftər, fantaziyalı, məclisdəkilərin ruhunu mənalı ifadələrlə, şeiriyyatla oxşamağı bacaran bir adamdır. Gözəl diksiya, məlahətli səs, aktyorluq məharəti, psixoloqluq, ağsaqqallıq qabiliyyəti, səliqəli geyim, onu bu işdə əvəzi olmayan bir el-oba adamı kimi məşhurlaşdırmışdı. Göyçədə ən azı 250-350 dəvətlinin iştirak etdiyi toylarda masabəyinin əsas vəzifəsi, toyu layiqincə idarə etmək, gələn qonaqlarla məşğul olmaq, yemək-içməyin vaxtında paylanmasına nəzarət etmək idi. Toyda çıxış etmək, təbrik ünvanlamaq istəyənlər masabəyinə yaxınlaşar, istəyini ona bildirərdi. O da münasib bir vaxtda həmin adama söz verərdi, məclis də maraqla onun sözünü dinləyərdi. Onun toyları idarəetmə qabiliyyəti hamını məmnun edirdi.

Şamil müəllim olan toylarda heç vaxt nəinki dava düşər, hətta adi qarmaqarışıqlıq da olmaz, narazılıq yaranmazdı. O, həmişə hadisələrin mərkəzində olardı. Tay-tuşlarımız arasında onun masabəyilik etdiyi toylardan bu gün də danışırıq.

Əziz oxucu! Şamil müəllim haqqında bu qısa yazıda onun keçdiyi həyat yolunu, qabiliyyətini, bacarığını, insani keyfiyyətlərini tam əks etdirmək mümkün deyil.

Bütün peşələrin öz gözəlliyi var, amma müəllim hər zaman onların hamısından ucada dayanıb. Çünki onun şagirdləri həkim, musiqiçi, mühəndis, bənna, dülgər, sürücü, hüquqşünas, bankir, nazir, prezident olsalar da, müəllim onların hamısının müəllimi olaraq qalır, hər bir fərdin uğurlarında onun əməyi var.

Dahi rus yazıçısı Lev Tolstoy "öz işini sevən müəllimi yaxşı müəllim, bununla yanaşı uşaqları və fənnini sevən müəllimi əla müəllim" adlandırırdı.

Şamil müəllim də belə bir müəllimdir! Bu gün təqaüddə olan Şamil müəllimə möhkəm can sağlığı arzu edirik!

BİZİM ELİN ALİMLƏRİ

Belə bir deyim var: əsil xalq öz alimi, ziyalısı ilə tanınar. Bu mənada bəşəriyyətə, bütün türk dünyasına böyük elm, mədəniyyət xadimləri, qəhrəmanlar, hərbçilər, aqillər, müdriklər verən Göyçə mahalının kəndləri arasında Sədənağac özəlliklə fərqlənir. Bu kənd ölkə alimlərinin sırasına qoşulmuş, elmə öz sanballı töhfəsini vermiş oğul və qızları ilə fəxr edir.

Elmə, biliyə olan həvəsi doğulduğu ilk gündən, ana südü ilə aşılanan və illər keçdikcə oxuduğu məktəbdə formalaşan savadlı, bilikli olmaq ideyası hər bir Sədənağaclı üçün zaman və məkan ölçüsündən asılı olmayaraq bu gün də dəyişməz qalır. Məhz bunun nəticəsi olaraq bu gün ölkə və xaricdə çalışan alimlər arasında Sədənağaclılar az deyildir.

Haqqında əlifba sırası ilə söhbət açdığımız alimlərimiz fəaliyyət coğrafiyasının genişliyinə, müxtəlifliyinə baxmayaraq bir-biri ilə çox sıx və möhkəm tellərlə bağlıdırlar. Bu tellər Sədənağac kökünün telləridir.

ƏFQAN MUSA OĞLU VƏLİYEV

(3 iyun 1974, Güney)

Tarixçi alim. Mexanizator ailəsində dünyaya göz açmışdır. Birinci sinfə 1979-cu ildə Güney kənd orta məktəbində getsə də, təhsilini, ailəsinin 1980-ci ilin dekabrında daimi yaşamaq üçün köçüb getdiyi Goranboyun Dəyirmanlar kəndindəki orta məktəbdə davam etdirdi və 1992-ci ildə bu təhsil ocağını əla qiymətlərlə bitirdi. Qəbul imtahanlarını uğurla verərək, Türkiyə Milli Təhsil Nazirliyinin təqaüdü ilə İstanbul Universitetinin ədəbiyyat fakültəsinin sosiologiya bölməsində oxumaq hüququ qazandı. İlk ali təhsil pilləsini (bakalavriat) 1996-cı ildə İstanbulda bitirdi və 1999-cu ildə "Azərbaycan siyasi düşüncə tarixi və Mirzə Bala Məmmədzadə" mövzusunda elmi işi müdafiə edərək magistr diplomu aldı.



1999-2004-cü illərdə Türkiyə Təhsil Nazirliyinin "Türkiyə Bursları" və Azərbaycan Təhsil Nazirliyinin "Dövlət Xətti ilə Xaricdə Təhsil" proqramı çərçivəsində maliyyələşdirilməklə, həmin universitetin Doktorantura proqramını bitirdi və 2004-cü ildə "Azərbaycanda yeniləşmə və milliyyətçilik hərəkatı (1800-1918)" mövzusunda elmi iş müdafiə edərək sosiologiya elmləri doktoru adını aldı və bu elmi işini ilk kitabı olaraq nəşr etdirdi.

Doktoranturada oxuduğu illərdə təhsildəki uğurlarına görə Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görüldü.

Gənc alim ikinci kitabını Azərbaycanda istiqlal hərəkatının parlaq isimlərindən biri, yeniyetmə yaşlarından ömrünün sonuna qədər Azərbaycanın müstəqilliyi, azadlığı, rus işğalından xilası uğrunda həm siyasi, həm ədəbi, həm publisistik, həm də silahlı savaş aparan, xalq qarşısında böyük xidmətləri olan dahi şəxsiyyət, Azərbaycan Milli Müsavat Partiyasının Məhəmməd Əmin Rəsulzadənin vəfatından sonra lideri olan Mirzə Bala Məmmədzadəyə həsr etdi.

Azərbaycanda yayımlanan bu monoqrafiyanın sanballı bir tədqiqat əsəri olduğunu ilk sətirlərindən görmək olur. Kitabı oxuduqca onun müəllifinin tədqiq etdiyi mövzu ətrafında bilik dairəsinin genişliyinə valeh olmaya bilmirsən. Alim bu geniş monoqrafiyada istedadlı publisist, istiqlal mücahidi Mirzə Bala Məmmədzadənin yaradıcılığında və ictimai fəaliyyətində azadlıq, azərbaycançılıq ideyasını, dövlətçilik məsələsini, müstəqilliyin qorunub saxlanılması problemlərini, xalqımızın istiqlal məfkurəsini, bu haqda öz düşüncələri və baxışlarını açıq, güzəştsiz şəkildə bildirməkdən çəkinməməsini, dövrün aktual problemlərini yalnız milli mənafe məcrasında dəyərləndirməyini və necə cəsarətlə müdafiə etdiyini dərindən təhlil etmişdir.

Alim "Tarixdən günümüzə Azərbaycan" adlı üçüncü kitabını Azərbaycanın tarixi xronologiyasını türk oxucusuna təqdim etmək məqsədi ilə yazıb.

Bu kitablarla yanaşı, Əfqan Vəliyev Azəbaycanda nəşr olunan "Mədəniyyət Dünyası", "Yöm", "Filologiya tədqiqatları","Ekologiya, Fəlsəfə, Mədəniyyət" adlı elmi jurnallarda və Qırğızıstanda nəşr edilən "Türkel" qəzetində, Türkiyədə nəşr olunan "Kuvayi-Milliye", "Türkiyem" elmi dərgilərində, digər mətbuat orqanlarında Azərbaycan tarixinə dair mövzularda 250-dən çox məqaləsi dərc olunmuşdur.

Türkiyədə "Türkiye Haber Ajansı"nda 2015-2018-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tarixini araşdırarkən mühacirlərlə münasibətdə qazandığı etimad nəticəsində əldə etdiyi qiymətli arxiv sənədlərini və 1918-1920-ci illərdə Azərbaycan Parlamentində asılmış bayraq Əfqan Vəliyev tərəfindən Azərbaycana gətirilib.

Qeyd edək ki, bu Bayraq uzun illər Almaniyada, Polşada, Kanadada Mirzə Bala Məmmədzadənin sayəsində böyük əziyyətlərlə qorunub saxlanılmış, sonralar Türkiyəyə gətirilmiş və əmanət olaraq onun varisi Eldəniz Qurtulana verilmişdir. Şəxsi münasibətlərdəki yaxınlığa görə Eldəniz bəy bir çox arxiv sənədləri ilə yanaşı, bu bayrağı da Əfqan bəyə etibar etmişdir.

Bayraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim edilmək üçün Əfqan Vəliyev tərəfindən 24 may 2018-ci il tarixində Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədova təhvil verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə 21 - 23 May 2018-ci il tarixində Bakı Dövlət Universitetində təşkil olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti 100: Müsəlman Şərqində ilk Parlamentli Respublika" adlı Beynəlxalq elmi konfransda geniş məruzə ilə çıxış etmiş və xüsusi sertifikat almışdır.

Əfqan Musa oğlu istedadlı alim olmaqla yanaşı, mehriban və qayğıkeş ailə başçısıdır. 2 Yanvar 2018-ci ildə ailəsi ilə birlikdə Azərbaycana köçmüşdür, Bakıda yaşayır. Həyat yoldaşı Elnurə xanım Rəfibəylidir, üç qız övladı var.

İSMAYIL ORUC OĞLU MƏMMƏDLİ

(15 noyabr 1946, Sədənağac)

Filologiya elmləri doktoru, professor. Aşıq Oruc Əhmədovun ailəsində doğulub. 1948-1953-cü illərdə Azərbaycan türklərinin Ermənistan SSR-dəki tarixi ata-baba torpaqlarından deportasiyası zamanı ailəliklə Gədəbəy rayonunun Zəhmət kəndində məskunlaşmışdır. 1952-1962-ci illərdə Zəhmətkənd orta məktəbində oxumuşdur.

1962-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun Alman-Azərbaycan dilləri şöbəsinə daxil olmuş, 1967-ci ildə bu təhsil ocağını bitirmişdir. Elmi fəaliyyətə 1967-ci ildə Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında elmi və ədəbi nəzarət redaksiyasında transkripsiyaçı-redaktor vəzifəsində başlayıb.

1968-ci ildən 1969-cu ilin mayınadək Sovet Ordusu sıralarında xidmət etmişdir.

1969-1970-ci illərdə yenidən Ensiklopediyada böyük elmi redaktor vəzifəsində çalışıb. 1970-1973-cü illərdə Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun əyani aspiranturasında oxumuşdur.

1974-cü ildən 1979-cu ilə qədər nitq mədəniyyəti şöbəsində kiçik elmi işçi, 1980-ci ildən 1989-cu ilədək baş elmi işçi vəzifələrində çalışıb. 1974-cü ildə "Kommunist" qəzetinin leksikası" adlı namizədlik dissertasiyasını, 1993-cü ildə "Azərbaycan dilinin etnoqrafik leksikası" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. 2008-ci ildə AAK tərəfindən ona professor attestatı təqdim edilmişdir.



1970-ci ildən AMEA Nəsimi adına Dilçilik İnstitutunda işləyir. 1989-cu ildən institutun Tətbiqi dilçilik şöbəsinin müdiridir.

Professor İ.O.Məmmədli Vladiqafqaz, Mahaçqala, Maykop, Ufa, Quzey Kipr Türk Cümhuriyyətində keçirilmiş beynəlxalq və ümumittifaq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış etmişdir. Çalışdığı institutun ictimai həyatında yaxından iştirak etmiş, uzun illər institut həmkarlar ittifaqının sədri, ilk partiya təşkilatı katibi vəzifələrində (sovet dönəmində önəmi vəzifə idi) çalışmış, kollektivin hörmətini qazanmışdır.

Professor İ.O.Məmmədli 1994-cü ildən institut Dissertasiya Şurasının üzvüdür. Bu vaxtadək 20 aspirant və dissertanta rəhbərlik etmiş, 18 fəlsəfə doktoru və 2 elmlər doktoru hazırlamışdır.

Yeni Azərbaycan Partiyasının üzvü (2001-ci il), AR Ədliyyə Nazirliyi insan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin baş məsləhətçisi, AR Dövlət Dil Komissiyasının üzvü (2001-ci il), MM Mədəniyyət Komitəsinin üzvü, Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər birliyinin, Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin üzvüdür.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur (2013-cü il). Həsən bəy Zərdabi diplomu və mükafatı laureatı (2004), Səməd Vurğun mükafatı laureatıdır (2014). Əmək veteranı medalı ilə təltif olunub.

Lüğətçilik şöbəsinin müdiri prof. İ.O.Məmmədli institutda gənc alimlər konfransının təşkili və keçirilməsində fəal iştirakına, leksikologiya və lüğətçilik bölməsinə rəhbərliyinə görə fəxri fərmanla təltif edilmişdir.

Rəhbərlik etdiyi elmi kadrların 11 nəfəri fəlsəfə doktoru diplomu, 2 nəfəri doktorluq diplomu almışdır. Hazırda filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün 7 əməkdaşın dissertasiya işinə rəhbərlik edir. Təxminən 100 nəfərin rəsmi opponenti, 30-dan çox iddiaçının, publisistin, gənc yazarların əsərlərinin rəyçisi olmuşdur.

Professor İ.O.Məmmədli bu gün də ictimai elmlərin (dilçilik, ədəbiyyatşünaslıq və etnoqrafiya) müxtəlif sahələrinə aid intensiv tədqiqatlar aparır. 1993-1995-ci illərdə Azərbaycan Pedaqoji Universitetində, 1993-1999-cu illərdə 291 saylı və 43 saylı liseylərdə Azərbaycan dili və ədəbiyyatı fənlərini tədris etmişdir.

1999-2002-ci illərdə Bakı Dövlət Universitetində müəllim, 1994-2002-ci illərdə Bakı Ali Pedaqoji Qızlar seminariyasında (indiki Bakı Qızlar Universiteti) professor olaraq elmi-pedaqoji fəaliyyət göstərmişdir. 1970-ci ildən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda işləyir. 1989-cu ildən hal-hazıra kimi isə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda tətbiqi dilçilik şöbəsinin müdiridir.

GÜLNARƏ ƏHMƏDLİ (QURBANOVA)

(1964, Sumqayıt)



Professor-doktor.

Azərbaycan və Türkiyənin elmi çevrələrində yaxşı tanınan görkəmli kimyaçı alim, Səlcuq Universiteti mühəndislik fakültəsi kimya Mühəndisliyi bölümünün dekanı, professor-doktor Gülnarə Əhmədli (Qurbanova,) valideynlərinin yolu ilə gedərək dünyanın məşhur kimyaçı alimlərinin cərgəsinə qatıla bildi. Atası professor Sultan Qurbanov və anası, kimya elmləri doktoru, professor Rəfiqə xanım Qurbanova ilə birlikdə 1997-ci ildə Səlcuq Universitetində pedaqoji fəaliyyətə başlayan Gülnarə xanım, hələ Sumqayıt şəhər 3 saylı orta məktəbdə oxuyarkən elmə, biliyə olan həvəsi, çalışqanlığı ilə sinif yoldaşlarından həmişə fərqlənir, bütün fənlərdən əla qiymətlər alırdı. Bunun nəticəsi olaraq, 1981-ci ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil oldu. Orta məktəbdə olduğu kimi burada da əla qiymətlərlə oxuyaraq, universiteti fərqlənmə diplomu ilə bitirmiş və həmin il Universitetin əyani aspiranturasına daxil olmuşdur. 1994-cü ildə aspiranturanı bitirərək "Propilen oksidi ilə doymamış epoksid birləşmələri əsasında reaksiyaqabilli oliqoefirlərin sintezi və onların xassələrinin öyrənilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Sonrakı illərdə Azərbaycan Elmlər Akademiyasının Sumqayıt Polimer Materialları İnstitutunda çalışdı.

1997-ci ildən Konyada yaşayan və Səlcuq Universitetində pedaqoji fəaliyyətlə məşğul olan valideynlərinin yanına köçdü. 2004-cü ilə qədər çevrə mühəndisliyi fakültəsində, 2004-cü ildən isə kimya mühəndisliyi fakültəsində pedaqoji fəaliyyətlə məşğuldur. İki ilə yaxındır fakültənin dekanı vəzifəsinə seçilmişdir.

Bu illər ərzində apardığı elmi-tədqiqatların və sərf etdiyi gərgin əməyinin nəticəsi olaraq kimya elmləri doktoru elmi dərəcəsi və professor elmi rütbəsi almışdır.

Gülnarə Sultan qızı hazırda Səlcuq Universiteti Kimya Mühəndisliyi fakültəsinin dekanı, professor-doktor olaraq kimya fənninin əsaslarını tədris edir, kimyaçı mütəxəssislər hazırlanmasına öz töhfəsini verir.

Professor-doktor Gülnarə Əhmədlinin yazdığı 4 monoqrafiya, ali məktəb tələbələri üçün 2 dərslik, dünyanın müxtəlif ölkələrində elmi dərgilərdə dərc olunmuş 200-dən artıq məqaləsi bu işgüzar alimin elmi fəaliyyətini əks etdirir.

Evlidir. Bir oğlu və bir qızı var.

RİZVAN MÖHSÜM OĞLU MƏMMƏDOV

(1962, Güney)



Tibb elmləri doktoru, professor.

Güney kənd orta məktəbini bitirdikdən (1986) sonra Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinə daxil olmuş və 1991-ci ildə bu ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. 1991-1993-cü illərdə ATU-nun terapevtik stomatologiya kafedrasında kliniki ordinaturanı keçmişdir. 1994-cü ildən 2003-cü ilə qədər terapevtik stomatologiya kafedrasında assistent vəzifəsində çalışmışdır. 2000-ci ildə "Ağız boşluğu protozoozlarının diaqnostikası, klinik-epidemioloji aspektləri və profilaktikası" mövzusu üzrə dissertasiya müdafiə etmişdir. Dissertasiya işi ağız boşluğu protozoozlarına diaqnoz qoyulmasının standartlaşdırılmasına, onların patogen mahiyyətinin və yayılmasının epidemioloji xüsusiyyətlərinin aydınlaşdırılmasına, eləcə də müalicə və profilaktika tədbirlərinə həsr olunmuşdur.

2003-cü ildən həmin kafedrada dosent vəzifəsində çalışmışdır. 1994-2008-ci illərdə stomatologiya fakültəsinin dekan müavini, 2008-2012-ci illərdə həmin fakültənin dekanı vəzifəsində çalışmışdır. 2012-ci ildən isə Rezidentura şöbəsinin müdiri vəzifəsində çalışır.

Elmlər doktoru elmi dərəcəsi almaq üçün 2013-cü ildə uğurla müdafiə etdiyi dissertasiya "Parodontun iltihabi xəstəliklərinin, helikobakterioz və qastritlə sosial-epidemioloji əlaqəsi, onların diaqnostikası, müalicəsi və profilaktikasına müasir yanaşma"ya həsr olunmuşdur. Rizvan Məmmədovun bu tədqiqatları tibb aləmində mühüm bir elmi problemin həllində irəli atılmış böyük bir addım kimi qiymətləndirilir. Dünyada ilk dəfə olaraq, ağız boşluğunda paradoz xəstəliklərinin müalicəsində azitromitsin antibiotikinin tətbiqinin yüksək dərəcədə effektli olduğunu sübut etmiş, onun tətbiqi metodikasını vermişdir.

Öz elmi tədqiqatları ilə yanaşı tədris fəaliyyəti ilə də məşğul olan Rizvan Məmmədov 72 elmi məqalənin, "Terapevtik stomatologiyanın propedevtikası", "Parodontolo-

giya", "Stomatologiyada fizioterapiya" adlı üç dərs vəsaitinin, 2 tədris-metodik vəsaitin, 1 dərslik və 2 səmərələşdirici təklifin müəllifidir.

Azərbaycan Stomatoloji Assosiasiyasının, Böyük Elmi Şuranın və Fakültə Elmi Şurasının üzvüdür.

Azərbaycanda tibb təhsilinin və elminin inkişafındakı xidmətlərinə görə Rizvan Möhsüm oğlu 20 sentyabr 2010-cu ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Evlidir. El arasında insanın ən ümdə dəyəri onun ailəsi, tərbiyə verdiyi övladları ilə ölçülür. Rizvan müəllim bacarıqlı və qabiliyyətli bir rəhbər, savadlı və ensiklopedik biliyə malik bir ziyalı, əvəzsiz müəllim və mükəmməl həkim olmaqla yanaşı, gözəl və sevimli ailə başçısıdır. Üç övladının hər biri, cəmiyyətimizin dəyərli insanları kimi atalarının yolu ilə getməyi, onun qazandığı uğurları, nailiyyətləri davam etdirməklə zirvələrə qaldırmağı qarşılarına məqsəd qoymuşlar. Tibb Universitetinin müalicə-profilaktika fakültəsində əla qiymətlərlə təhsil alan qızları Günay və Aynurdan sonra, həmin universitetin stomatologiya fakültəsində təhsil alan Nurlan da əla qiymətlərlə oxuyur.

SULTAN BAXŞƏLİ OĞLU QURBANOV

(1938, Sədənağac)



Kimyaçı alim, professor.

Həyat fəlsəfəsinin zənginliyinə, cəmiyyətdə qazandığı hüsn-rəğbətə, gördüyü işlərə, əldə etdiyi uğurlara, qurduğu ailəyə və böyütdüyü övladlarına görə, xoşbəxt insanlar cərgəsindədir. Sədənağac kəndinin ilk alimidir. Heç bir təhsili olmayan, maddi sıxıntı içərisində yaşayan, amma elmə-təhsilə böyük önəm verən valideynlərdən tərbiyə alan bu gənc hələ məktəb illərində şagird yoldaşlarından, institutda qrup yoldaşlarından elmə, biliyə olan həvəsi ilə həmişə seçilmişdir. Oxuduğu ibtidai, orta məktəbdə, institutda, aspiranturada həmişə birincilər sırasında olmuş, özünün çalışqanlığı, işgüzarlığı, təşəbbüskarlığı və ictimai fəallığı ilə həmişə fərqlənmişdir.

İkinci Dünya müharibəsinin yaratdığı məhrumiyyətlər onun da uşaqlıq payına düşmüşdür. Bütün çətinliklərə baxmayaraq 1945-ci ildə Güney kənd yeddiillik məktəbinin 1-ci sinfinə getmişdir. Daha sonra Şişqaya kənd orta məktəbində təhsilini davam etdirmişdir. 1956-cı ildə orta məktəbi bitirdikdən sonra ali təhsil almaq üçün

Bakı şəhərinə gəlmiş və Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə qəbul olunmuşdur.

1961-ci ildə Universiteti bitirdikdən sonra təyinatla Sumqayıt şəhər "Üzvi sintez" zavoduna mühəndis vəzifəsinə göndərilmişdir. İki il bu zavodda tutduğu vəzifəni layiqincə icra edərək qarşısına qoyulan bütün məsələlərin həllində nailiyyətləri ilə fərqlənmişdir.

Elmə, biliyə olan marağını, həvəsini üstün tutaraq, 1963-cü ildə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunun əyani aspiranturasına qəbul edilmişdir. 1967-ci ildə aspiranturanı bitirərək namizədlik dissertasiyası müdafiə etmiş və kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

1990-cı ildə Türkiyənin Konya şəhərindəki Səlcuq Universitetinə dəvət olunmuş və təqaüdə çıxanadək burada çalışmışdır. İşlədiyi müddətdə professor elmi rütbəsinə layiq görülmüşdür. Uzun müddət kafedra müdiri olaraq çalışmışdır.

Sultan müəllim bütün fəaliyyətində, tutduğu vəzifələrdən asılı olmayaraq hər cür intriqalardan uzaq olmuş, ətrafdakıların hüsn-rəğbətini və hörmətini qazana bilmişdir.

Sultan Qurbanov kimyanın müxtəlif sahələrinə həsr edilmiş 30-dan çox elmi əsərin, neçə-neçə müəlliflik şəhadətnaməsinin, 2 dərsliyin müəllifidir. Onun rəhbərliyi altında səkkiz fəlsəfə doktoru yetişmişdir.

Həyat yoldaşı Rəfiqə Əhməd qızı da kimyaçı-alimdir. Kamran adlı oğulları, Gülnarə adlı qızları var. Uzun müddət Sumqayıt şəhərində yaşayıblar. Hazırda Türkiyədə yaşayırlar.

ELMAR YƏHYA OĞLU ŞƏRİFOV

(22 mart 1969, Güney)

Tibb üzrə fəlsəfə doktoru. 1976-cı ildə kənd orta məktəbinin 1-ci sinfindən başlayaraq elmə, biliyə olan həvəsinə, çalışqanlığına görə müxtəlif səviyyəli fənn olimpiadalarında, bilik yarışlarında, müsabiqə və layihələrdə iştirak edir, qaliblər sırasında mükafatlara layiq görülürdü. 1986-cı ildə orta məktəbi təhsildə və təlimdə müvəffəqiyyətə görə gümüş medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun II müalicə-profilaktika fakültəsinə qəbul olundu.

1987-1989-cu illərdə hərbi xidmətdə olmuşdur. 1992-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirinin müvafiq əmri ilə Hərbi hazırlıq kafedrasının təşkil etdiyi Hərbi toplantının tərkibində Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Orta məktəbdə olduğu kimi, ali təhsil ocağında da elmə, biliyə olan həvəsilə başqalarından fərqlənir, bütün semestr imtahanlarından "Əla" qiymətlər alır, mütəmadi keçirilən elmi yığıncaqlarda, konfranslarda elmi məruzələrlə çıxışlar edir, tibb



elminin sirlərinə yiyələnməyə çalışırdı. 1994-cü ildə Azərbaycan Tibb Universitetini fərqlənmə diplomu ilə bitirərək "ümumi cərrah" ixtisasına yiyələnmişdir.

1994-cü ildə ATU Elmi Şurasının qərarı ilə klinik ordinaturada saxlanmış və 1996-cı ildə cərrahiyyə ixtisası üzrə klinik ordinaturanı bitirmişdir.

1996-1999-cu illərdə hərbi xidmətə çağırılaraq Naxçıvan MR-də yerləşən korpusda həkim-zabit kimi çalışmışdır.

2004-cü ildən ATU Pediatriya fakültəsinin cərrahi xəstəliklər kafedrasında assistent təyin edilmişdir. 2014-cü ildə "Mədə rezeksiyalarından sonrakı erkən ağırlaşmaların profilaktikası" mövzusunda tibb üzrə fəlsəfə doktorluğu dissertasiyasını müdafiə etmişdir. Hazırda ATU III Cərrahi xəstəliklər kafedrasının dosentidir.

2016-cı ildən Azərbaycan Tibb Universitetinin Tədris-Treninq Mərkəzinin rəhbəri vəzifəsində çalışır.

"Klinik cərrahiyyə", "Hərbi-səhra cərrahlığı" və "Surcical diseases (Cərrahi xəstəliklər)" adlı dərs vəsaitlərinin, 3 metodik tövsiyə və monoqrafiyanın müəllifidir. Yerli və xarici jurnallarda 40-dan artıq elmi məqaləsi dərc olunmuşdur.

Evlidir. Ağdam şəhərindən Sevda Şahmar qızı ilə ailə qurub. Orxan adlı oğlu, Fidan və Aydan adlı iki qızı var. Bakıda yaşayır.


ƏDALƏT BİLAL OĞLU CƏLİLOV

(1937, Güney)

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent.

Güney kənd yeddiillik, Toxluca kənd səkkizillik, Şişqaya kənd orta məktəbini bitirdikdən sonra 1955-ci ildə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun tarix-dil-ədəbiyyat fakültəsinə qəbul edilmiş və 1959-cu ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Doğma kəndə qayıtmış və üç il Güney kənd səkkizillik məktəbində müəllimlik etmişdir.

1962-ci ildə Gəncə şəhərinə gəlmiş və H. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun pedaqogika kafedrasında müəllim kimi işə başlamışdır. Öz işgüzarlığı, yorulmaz tədqiqatçılığı sayəsində Ədalət müəllim sadə müəllimlikdən dosent səviyyəsinə yüksəlmiş, 13 ildən artıq hazırlıq şöbəsinin müdiri, 6 ildən artıq fakültə



dekanı, fakültə elmi şurasının sədri, institut elmi şurasının üzvü kimi elmi vəzifələr daşımışdır.

Geniş dünyagörüşü, yüksək mənəviyyatı, zəngin biliyi, təşkilatçılıq qabiliyyəti, tələbkarlığı, xeyirxahlığı, qayğıkeşliyi ilə professor-müəllim heyəti və tələbə kollektivinin dərin hörmətini qazanmışdır.

1972-ci ildə "Süleyman Sani Axundovun maarifçilik fəaliyyəti və pedaqoji görüşləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edən dosent Ədalət Cəlilov daha sonra doktorluq işi üzərində çalışırdı. Lakin amansız ölüm buna imkan vermədi, ömrünün 61-ci ilində vəfat etdi.

H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun rektorluq və həmkarlar ittifaqı təşkilatlarının orqanı "Yüksəliş" elmi-pedaqoji qəzetinin 1998-ci ilin noyabrında buraxılmış doqquzuncu nömrəsinin son səhifəsi bütünlüklə Ədalət Cəlilovun vəfatı ilə bağlı yazıları əks etdirir. Onun haqqında professor Abbas Səmədov yazır: " Ədalət müəllim vətəninə, xalqına, azad respublikamıza sədaqətlə xidmət edən mahir alim-pedaqoq, Azərbaycan xalqının, Göyçə mahalının parlaq şəxsiyyəti, fitri istedadlı müdrik oğlu idi. Ömrünün mənalı, yaradıcılığının ən məsuliyyətli bir dövründə institut qayğıları ilə yaşayan Ədalət müəllimin dünyasını dəyişməsi qəlbimizi sarsıtdı.

Ə.Cəlilovun yollarda gözü, aşıq poeziyasının beşiyi ulu Göyçə mahalının həsrətilə ürəyində sözü qaldı. Dahi Nizami yurdu Gəncənin müqəddəs Səbizkar qəbiristanlığında dəfn olundu, məzarı gülüstana çevrilsin!

Pedaqogika kafedrasının müdiri Yəhya Əliyev onun haqqında yazırdı: "Mən pedaqogika kafedrasının dosenti Ədalət Cəlilovla 35 ildən artıq bir kafedrada işləmişəm. Ədalət müəllim gözəl insan, yaxşı ailə başçısı idi.

O, kafedrada nümunəvi davranışı, hərtərəfli elmi biliyə malik olması ilə bir çoxlarından fərqlənirdi. İşlədiyi dövrlərdə kafedranın bütün sahələrdə nümunəvi olması üçün həmişə köməklik göstərirdi. Elmi-tədqiqat sahəsində öz biliyini xüsusən də gənc müəllimlərə, tələbələrə verməyə həmişə can atırdı.

Ədalət müəllim həmişə işıq saçan, həqiqi ziyalıya xas olan keyfiyyətlərə malik olan şəxsiyyət idi. Onun kafedra, institut, respublika ziyalıları arasında xüsusi hörməti vardı.

Ədalət Cəlilov ləyaqətli ailə başçısı idi. Həyat yoldaşı Nailə xanım Kərim qızı ilə mənalı, parlaq, xoşbəxt bir ömür yaşadılar. Rəşid və Fuad adlı iki oğul, Emilya və Tünzalə adlı iki qız böyütdülər.

KAMRAN SULTAN OĞLU QURBANOV

(1969, Sumqayıt)



Tibb üzrə fəlsəfə doktoru. Kimyaçı alimlər ailəsində dünyaya göz açmışdır. Valideynləri - atası Sultan Baxşəli oğlu, anası Rəfiqə Əhməd qızı kimya elmi ilə məşğul olurdular. Hər ikisi o zamanlar kimyaçı alimlər idi.

Kamran Qurbanov 1986-cı ildə Sumqayıt şəhər 3 saylı orta məktəbi bitirib, Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. 1993-cü ildə institutu bitirdikdən sonra Sumqayıt şəhər Narkoloji Dispanserində həkim işləyib.

1997-ci ildə Türkiyənin Konya şəhərinə Səlcuq Universitetində mühəndislik fakültəsi Kimya Mühəndisliyi bölümündə çalışan valideynlərinin yanına köçdü.

2006-cı ildə tibb elmi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Konya şəhərində Dövlət xəstəxanasında dializ üzrə həkim vəzifəsində çalışır.

Sumqayıtdan Günay Savalan qızı ilə ailə qurub. Murad və Fuad adlı iki oğlu var.

LÜTFİYAR QULU OĞLU NƏSİBOV

(28 noyabr 1959, Güney)

İqtisad üzrə fəlsəfə doktoru. 1967-1977-ci illərdə Güney kənd orta məktəbində oxumuş, 1977-ci ildə Güney kənd heyvandarlıq sovxozunda fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. 1978-ci ildə Bakı şəhərində 12 saylı texniki məktəbdə kinomexanik ixtisası üzrə təhsil almışdır. 1979-1981-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

1981-ci ildə hərbi xidməti başa vurduqdan sonra Rusiya Federasiyasında yaşamışdır. Kemerovo şəhərində daxili işlər idarəsində işə qəbul edilir, daha sonra - 1982-ci ildə Xabarovsk Ali Milis Məktəbinə qəbul olunur. 1986-cı ildə məktəbi qırmızı diplomla bitirərək Tıva Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə işə göndərilir. Rayon daxili işlər şöbəsində müstəntiq, baş müstəntiq, istintaq şöbəsinin rəisi, Daxili İşlər Nazirliyi istintaq idarəsinin mühüm işlər üzrə baş müstəntiqi vəzifə-



lərində çalışır və burada xidmət etdiyi müddətdə bu qardaş türk xalqının dilini incəliklərinə qədər mənimsəyir.

1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar daxili işlər orqanları ilə vidalaşaraq Bakı şəhərinə qayıdır. Bir neçə ay Azərbaycan Respublikası Ali Sovetinin yaratdığı deputat istintaq komissiyasının istintaq qrupunun tərkibində Qanlı 20 Yanvar faciəsinin araşdırılmasında təmənnasız olaraq yaxından iştirak edir. 1990-cı ilin aprel ayından ailə vəziyyəti ilə əlaqədar olaraq Gəncə şəhərində yaşamağa başlayır və "Bülur" zavodunda hüquq məsləhətçisi kimi çalışır. Bir neçə aydan sonra hüquq şöbəsinin baş hüquq məsləhətçisi, hüquq şöbəsinin rəisi vəzifələrində olur.

1992-ci ildə Daşkəsən rayon İcra hakimiyyətinin başçısının müavini vəzifəsinə təyin edildi. 1995-ci ildə ailəliklə Rusiya Federasiyası Novqorod vilayətinin Malaya Vişera şəhərinə köçdü. Bir neçə il burada biznesin müxtəlif sahələrində çalışdı və 2002-ci ildə sovxoz direktoru vəzifəsinə təyin edildi.

2007-ci ildə Malaya Vişera rayonunda icra hakimiyyəti başçısının müavini, rayon kənd təsərrüfatı komitəsinin sədri vəzifəsinə təyin edildi. 2009-cu ildə Novqorod vilayəti kənd təsərrüfatı komitəsinin nəzdindəki kənd təsərrüfatının inkişafına kömək mərkəzinin baş direktoru vəzifəsinə təyin edildi.

2003-2007-ci illərdə Rusiya Prezidenti yanında "Şimal-Qərb Dövlət İdarəçilik Akademiyasının" Sankt-Peterburq filialında inzibati idarəetmə ixtisası üzrə təhsil almışdır. 2007-2009-cu illərdə Novqorod Dövlət Universiteti aspiranturasında iqtisadiyyat üzrə tədqiqatçı kimi elmi işlə məşğul olmuş, 29 may 2009-cu ildə dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsi almışdır.

Novqorod Dövlət Universitetinin İqtisadiyyat İnstitutunda "Marketinq və idarəetmə" kafedrasının dosenti olaraq pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bir neçə elmi monoqrafiyanın, metodik dərs vəsaitinin, jurnallarda və elmi toplularda dərc edilmiş 40-dan çox elmi məqalənin müəllifidir.

Lütfiyar Qulu oğlunun əmək fəaliyyəti işlədiyi müddət ərzində rəhbərlik tərəfindən yüksək qiymətləndirilmiş, çoxsaylı tərifnamələr, fəxri diplomlar, fəxri fərmanlar, o cümlədən, Rusiya Kənd Təsərrüfatı Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir.

2011-ci ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Bakı şəhərinə köçmüş, hazırda ailəliklə Bakıda yaşayır.

Həyat yoldaşı Sara İsa qızıdır, Orxan və Elxan adlı iki oğul, Arzu adlı bir qız böyüdüblər. Böyük oğlu Orxan iqtisad üzrə fəlsəfə doktorudur. 7 nəvəsi var.

MEHMAN MƏSDAN OĞLU QURBANLI

(1 yanvar 1961, Güney)



Kimya elmləri üzrə fəlsəfə doktoru.

Gəlimli, gedimli dünyamızın yaddaşında əbədi həkk olunan dəyərlərdən biri səmimi dostluqdur. Əgər bu dostluq uşaqlıq illərindən başlayaraq ahıllığa doğru gedən enişli-yoxuşlu həyat yolunun bütün pillələrində sabitliyini qoruya bilmişdirsə, belə dostluğun qiymət ekvivalentini təyin etmək çox çətindir.

İnsan həyatı boyu təmasda olduğu hər kəslə məkan və zaman çərçivəsi daxilində, demək olar eyni münasibətlərdə ola bilər. Lakin elələri var ki, uzun müddət təmasda olmağına baxmayaraq, azca zaman keçən kimi yaddaş boşluğuna düşür, ondan ayrılan kimi, onun şəklini belə unudur, yada salmağa çətinlik çəkirsən və o insan bəzən yaddaşdan tamam silinib gedir. Həyatda bunun tam əksi də mövcuddur. Elə insan da var ki, sənin yaddaşına əbədi həkk olunur, həm mənəvi xüsusiyyətləri ilə, həm də zahiri görünüşünə görə qəlbinə elə silinməz boyalarla yazılır ki, illərlə görməsən də, şəklinə baxmadan, gözüyumulu onu təsvir edə bilir, portretini istənilən vaxt gözlərinin önündə canlandırır, hər bir xüsusiyyətini əzbərdən bilirsən. Kəmiyyət etibarı ilə beləsi çox olmur. Ancaq yüksək mənəvi dəyərin kölgəsində heç vaxt kəmiyyət hiss edilmir.

Əziz oxucu! Bu kiçicik yazıda, 45 illik tarixi olan, orta məktəbin aşağı siniflərində təməlini qoyduğumuz, indiyədək öz saflığını, istəkliliyini, təmənnasızlığını, dürüstlüyünü qoruyub saxlayan, qütblərində bu sətirlərin müəllifi və Mehman Məsdan oğlu duran bir dostluq müstəvisindən bəhs etmək, onun sözlü portretini yazmaq istəyirəm.

Ailənin böyük övladı olaraq körpəlikdən zəhmətə qatlaşdı, xırda təsərrüfat işlərində valideynlərinin yaxın köməkçisinə çevrildi və onlara dayaq oldu. 1968-1978-ci illərdə Güney kənd orta məktəbində təhsil aldı. Elmə, təhsilə böyük maraq göstərərək orta məktəbi əla qiymətlərlə bitirdi. Bütün təhsil illərində sinifdə ən yaxşı oxuyanlardan biri oldu, çalışqanlığına, analitik-məntiqi düşüncə tərzinə, geniş qavrama qabiliyyətinə görə sinif yoldaşlarından seçilirdi. Dəqiq elmləri çox sevir, kimyaya böyük həvəsi vardı. Bəlkə bizim dostluğumuza da səbəb elə kimya fənni oldu. Orta məktəbdə mən ondan bir sinif yuxarıda oxuyurdum. Mən də kimya fənninə böyük maraq göstərdiyimdən, tez-tez bir yerdə kimya ilə məşğul olurduq, üzvi və qeyri-üz-

vi kimyaya aid məsələlər həll edir, müxtəlif kimyəvi reaksiyaların getmə proseslərini öyrənir, onların fopmulalarını əzbərləyirdik. Getdikcə bu münasibət dostluğa çevrilməyə başladı. Gənclik illərinin ahənginə və tələbinə uyğun olaraq yaxın sirdaşa çevrildik. Hətta mənim toyumda "baba evim", sağdışım oldu.

Orta məktəbi bitirdikdən sonra yollarımızın istiqaməti dəyişdi. Mən Rusiyanın Sibir regionuna, Mehman isə Bakıya yollandı. Qəbul imtahanlarından uğurla keçərək Azərbaycan Dövlət Universitetinin kimya-biologiya fakültəsinə qəbul olundu. 1983-cü ildə universiteti bitirdikdən sonra təyinatla İsmayıllı rayonuna göndərildi. 1986-cı ilə qədər İvanovka və Gələyə kəndlərinin rus orta məktəbində kimya-biologiya müəllimi işlədi. Kimya elmi ilə məşğul olmaq, xalq təsərrüfatı üçün misilsiz əhəmiyyətə malik üzvi kimya elminin görünməz zirvələrini fəth etmək arzusu ilə 1986-cı ildə Azərbaycan Elmlər Akademiyasının Polimerlər Kimyası İnstitutunun əyani aspiranturasına daxil oldu. 1989-cu ildə aspiranturanı bitirdikdən sonra təyinatla "Əngilan" aqrar-sənaye birliyinə baş direktorun 1-ci müavini vəzifəsinə göndərildi. 1993-cü ildə Azərbaycan Respublikası Ekologiya Nazirliyinin ətraf mühitin monitorinqi şöbəsinin müdiri vəzifəsinə təyin edildi. Eyni zamanda Azərbaycan Neft Akademiyasının dosenti və Zəngi liseyinin kimya müəllimi işlədi.

1994-cü ildə "Polistirolun qoşulmuş dienlərlə kation katalizatorlarının iştirakı ilə kimyəvi modifikasiyası" mövzusunda dissertasiya müdafiə edərək, kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi aldı.

1999-2001-ci illər Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda şöbə müdiri vəzifəsində çalışdı.

2004-cü ildən həmin institutda aparıcı elmi işçi və Bakı şəhər 10 saylı orta məktəbdə kimya müəllimi işləyir.

Bir neçə sətirdə verdiyimiz bu məlumatlardan aydın olur ki, Mehman müəllim öz gücü, bacarığı ilə ömür pilləsini bir-bir qalxaraq, ləyaqətli ucalıq mövqeyinə yüksəlmişdir. Hansı təşkilatda, qurumda, hansı vəzifəni daşımasından asılı olmayaraq, özünəməxsus iş üslubu, xarakterik xüsusiyyətləri ilə seçilib, başqalarından fərqlənib.

Mehman Məsdan oğlu hər kəsin uğuruna sevinən alicənab insan, vətəndaşdır. Xarakterik cəhəti əməksevərlik, çalışqanlıq, xeyirxahlıqdır. Daxili mənəviyyatından, fitrətindən, bilmək, öyrənmək ehtirasından irəli gələn, başqasını səbrlə, təmkinlə dinləmək qabiliyyəti onu adamların gözündə göylərə qaldırır. Dürüstlük və dəqiqliyi onu hər kəsə sevdirir. Xoş atmacaları bəzən gizli, bəzən də qabarıq şəkildə görünən yumor hissi ilə sintez olunaraq onu başqalarından fərqləndirir, misilsiz həmsöhbətə çevirir.

NOFƏL İSA OĞLU ƏLƏSGƏROV

(25 sentyabr 1965, Güney)



Texnika üzrə fəlsəfə doktoru. Güney kənd orta məktəbini bitirdikdən sonra (1983) Rusiyanın Xabarovsk şəhərinə getdi. Həmin ilin sentyabrında Xabarovsk şəhərində istilik avadanlıqları zavodunun metaltökmə sexində fəhlə kimi işə qəbul edildi. 1986-cı ildə işlədiyi zavodun göndərişi ilə Xabarovsk vilayətinin Komsomolsk-Amur şəhərində politexnik institutuna qəbul olundu.

1988-1990-cı illərdə Vladivostok şəhərində hərbi xidmətdə oldu. Hərbi xidmətdən sonra təhsilini davam etdirdi.1993-cü ildə institutu bitirdi.

1994-cü ildə həmin institutun aspiranturasına qəbul olundu. 1997-ci ildə aspiranturanı bitirdi və "Əridilən modellərdə töküklərin ərintilərlə doldurulması, kristallaşması və bərkidilməsi zamanı qabıq formalarının quruluşunun və tərkibinin araşdırılması" (*rus dilində* - "Исследование структуры и свойств оболочковых форм по выплавляемым моделям при их прокаливании, заливке расплавом и кристаллизации отливок") mövzusunda dissertasiya müdafiə edərək texnika elmlər namizədi alimlik dərəcəsi aldı.

1999-cu ildə ailəsi ilə birlikdə Novqorod Vilayətinin Malaya Vişera şəhərinə köçdü və biznesin müxtəlif sahələrində əmək fəaliyyəti ilə məşğul oldu.

2010-cu ildən Malaya Vişera şəhərində şəhər elektrik şəbəkəsində aparıcı mühəndis vəzifəsində çalışır.

Evlidir. Maksim və Kamilla adlı iki övladı var.

ORXAN LÜTFİYAR OĞLU NƏSİBOV

(2 fevral 1983, Güney)

İqtisad üzrə fəlsəfə doktoru. Hər kəs bilir ki, gənc yaşda elmi dərəcə almaq, alim adını daşımaq heç də asan bir iş deyil. Bunun üçün ilk növbədə Tanrıdan gələn istedad olmalıdır. Daha sonra illərlə bu istedadı inkişaf etdirmək üçün zəhmət çəkib elmə, biliyə yiyələnmək tələb olunur.

Üç-dörd yaşlarından başlayaraq hər şeyi soruşmağa, bilməyə çalışırdı. Hər sualın-sorğunun həlli cavabla bərabər yeni suallar, yeni diləklər, sirlər aləminə gedən ye-



ni yolların axtarışına gətirib çıxarırdı. Gün ərzində minlərlə "nədən" sualının bəzən cavabını vermək mümkün olmadığından, böyüyəndə başa salaram cavablarının sayı günbəgün artırdı. Orta məktəbdə elmə, biliyə olan marağı ilə sinif yoldaşlarından fərqlənirdi. Dəqiq elmlərə böyük maraq göstərərək, hər sualın cavabını həyatın riyazi formulasında axtarır, riyaziyyatı başqa fənlərə nisbətən daha tez qavrayırdı. Məsələ-misalların həllində çətinlik çəkmir, sərbəst olaraq dərs proqramını mənimsəyir, riyazi qavramada fitri istedadı ilə müəllimlərini çaşdırırdı. Hamı fikirləşirdi ki, riyaziyyatçı olacaq. Amma, həyatını iqtisadiyyatla bağladı.

Haqqında söhbət açdığımız gənc alim Orxan Lütfiyar oğlu Nəsibov 2 fevral 1983-cü ildə Güney kəndində ziyalı ailəsində doğulmuşdur.1989-cu ildə Gəncə şəhərində 5 saylı məktəbin 1-ci sinfinə getmişdir. 1994-cü ildə 5-ci sinfi bitirərək ailəsi ilə birlikdə Rusiyanın Sankt-Peterburq şəhərinə köçmüşdür. 6-cı sinfi Sankt-Peterburq şəhərində 34 saylı orta məktəbdə oxumuşdur. 1995-ci ildə Novqorod vilayəti Malaya Vişera şəhərində 1 saylı məktəbin 7-ci sinfinə getmişdir. 10-cu sinfi burada bitirdikdən sonra 1999-cu ildə Sankt-Peterburq şəhərində Dövlət Maliyyə və İqtisad Universitetinin maliyyə və kredit fakültəsinə qəbul olundu. 2004-cü ildə təhsilini uğurla başa vuraraq universitet aspiranturasının əyani şöbəsinə daxil oldu. 2009-cu ildə aspiranturanı bitirərək, "Kiçik və orta sənaye biznesinin klaster inkişaf modeli" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsi aldı.

2006-2008-ci illərdə Leninqrad vilayəti Vsevoloj rayonunun Novaya Dubrovka qəsəbə icra hakimiyyəti maliyyə şöbəsinin müdiri vəzifəsində işləmişdir. 2008-ci ildən biznesin müxtəlif sahələrində iqtisadi məsələlər üzrə rəhbər vəzifələrdə çalışır. Öz fəaliyyəti boyunca qazandığı elmi nailiyyətləri əməli işində tətbiq etməklə, tutduğu vəzifələrdə tükənməz qurub-yaratmaq eşqi ilə başqalarından fərqlənir, yüksək əxlaqi insani keyfiyyətlər nümayiş etdirərək sözü, əməli və ziyalılığı, humanistliyi, kövrək qəlbi, müsbət enerjisi, şaqraq gülüşü ilə hər kəsin sevimlisinə çevrilməyi bacarır. Dostcanlı, sədaqətli, alicənab insan kimi ictimaiyyətin dərin hörmət və məhəbbətini qazanmışdır. Hazırda iqtisadiyyatın özəl sektorunda beynəlxalq maliyyə məsələləri üzrə yüksək dərəcəli idarəçidir.

Praktik işlə yanaşı, elmlə də məşğul olmağı unutmur. Bir sıra Beynəlxalq elmi konfransların iştirakçısı olub, elmi məruzələrlə çıxışlar edib. Müxtəlif elmi jurnallarda və qəzetlərdə onlarla elmi və analitik xarakterli məqalələri dərc olunub.

Evlidir. Aliyə, İnci və İpək adlı üç qız övladı var. Hazırda İstanbulda yaşayır və işləyir.

RASİM HÜSEYN OĞLU İBRAHİMOV

(18 avqust 1965, Güney)



Texniki elmlər üzrə fəlsəfə doktoru. Sadə bir ailədə dünyaya göz açıb. Atası Hüseyn əmi cavan yaşlarından ağır revmatizm xəstəliyindən əzab çəkirdi. Ona görə də ağır fiziki işlərlə məşğul ola bilmədiyindən, uzun illər kəndin telefon qovşağında növbətçi operator, anası Bəsdi Ələkbər qızı isə kolxozda tütünçü kimi çalışaraq altı övlad: üç oğul, üç qız böyütdülər. Hüseyn əmi 1974-cü ildə, 48 yaşında dünyasını dəyişdi.

Böyük bir ailənin dolanışığının bütün ağırlığı əməksevər Bəsdi yengənin öhdəsinə düşdü. Həyatını övladlarına həsr edərək, ailənin hər əziyyətinə qatlaşdı, övladlarının boya-başa çatması üçün əlindən gələni əsirgəmədi. Zaman, vaxt məhdudiyyətlərinə baxmayaraq onların dərslərinə tələbkarlıqla nəzarət edirdi. Oğullarının üçünün də ali təhsil alması üçün bütün əziyyətlərə qatlanıb, qətiyyətli tələbkarlığı ilə ülvi analıq borcunu birləşdirərək, onların həyat yollarını işıqlandırdı. 1988-ci il deportasiyasından sonra Bakıda məskunlaşdılar. Bəsdi yengə 2013-cü ildə burada dünyasını dəyişdi.

Kiçik yaşlarından zəhmətə alışqanlığı ilə yaşıdlarından fərqlənən Rasim həm ailənin təsərrüfat işlərində kömək edir, həm də məktəbdə yaxşı oxuyurdu. Güney kənd orta məktəbini bitirib, böyuk qardaşları Dəmir və Üzeyirin yolunu davam etdirərək 1982-ci ildə Bakıya gəldi. Ailəsinin maddi durumunu ağırlaşdırmamaq üçün axşamlar oxumağı, gündüzlər isə işləməyi qərara alaraq, sənədlərini M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə) verdi. Qəbul imtahanlarını uğurla verərək kimya-texnologiya fakültəsinin axşam şöbəsinə qəbul olundu. Eyni zamanda 85 saylı tikinti idarəsində işləyirdi.

1984-1986-cı illərdə hərbi xidmətdə oldu. Hərbi xidmətdən qayıdıb təhsilinə davam etdi. 1990-cı ildə artıq kimyaçı-texnoloq mühəndisi idi.

1987-ci ildən Q.Qarayev adına Neftayırma zavodunda işə başladı. Bir ilə qədər orada işlədikdən sonra, 1988-ci ildə Bakı Neft emalı zavoduna gəldi. 30 ilə yaxındır ki, bu iri müəssisədə çalışır. 1988-1991-ci illərdə zavodda operator, 1991-ci ildə T-43-107 M qurğusunda növbə rəisi, 1996-2003-cü illərdə həmin qurğunun rəisi, 2003-2008-ci illərdə sex rəisi, 2008-2009-cu illərdə baş mühəndisin müavini - isteh-

salat şöbəsinin rəisi, 2009-2016-cı illərdə Baş texnoloq - texniki şöbənin rəisi vəzifəsində işləmişdir.

2017-ci ilin noyabrında direktorun modernizasiya və yenidənqurma layihəsi üzrə müavini təyin edildi. Hazırda zavodun Baş mühəndisi vəzifəsində fəaliyyətini davam etdirir.

2014-cü ilin yanvarında "Bakı neftinin qarışığından alınan vakuum qazoylunun yüngül hidrokrekinqi prosesini aparmaqla ekoloji təmiz dizel yanacağı və katalitik krekinq üçün yüksək keyfiyyətli xammalın alınması" mövzusunda dissertasiya müdafiə edərək texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Rasim Hüseyn oğlu insanlara münasibətində təvazökar, səmimi, alicənab bir vətəndaş olaraq, özünə və rəhbərlik etdiyi əməkdaşlarına qarşı prinsipiallığı ilə seçilir. Onun üçün ədalət və səmimilik anlayışları hər zaman ön plandadır. Zəngin həyat təcrübəsi, peşəkarlığı, işgüzarlığı, təşəbbüskarlığı ilə başqalarından seçilir.

Bütün həyatını neft emalı ilə bağlı tədqiqat işlərinə, neft emalı sənayesində müasir texnologiyaların yaradılmasına, onların tədqiqinə və istehsalatda geniş tətbiq olunma işlərinə həsr edən Rasim Hüseyn oğlu nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən alimlərdən biridir. Yazdığı 30-dan artıq elmi məqalə ideya və baxışların müasirliyi, aktuallığı ilə elmi ictimaiyyətin diqqətini cəlb etmişdir.

Azərbaycan neft sənayesinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 26 iyul 2013-cü ildə ona "Əməkdar mühəndis" fəxri adı verilmiş, 2016-cı ildə isə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Rasim Hüseyn oğlu qayğıkeş ailə başçısıdır. Hüseyn və Cavidan adlı iki oğlu var.

RUSLAN AYDIN OĞLU MƏMMƏDOV

(2 avqust 1977, Temirtau ş., Qazaxıstan)

Tibb elmləri üzrə fəlsəfə doktoru. 1994-cü ildə Bakı şəhərində 267 saylı orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Tibb Universitetinə vermiş və qəbul imtahanlarını uğurla verərək I Müalicə-Profilaktika fakültəsinə qəbul olunmuşdur. 2000-ci ildə ali məktəbi cərrah ixtisası ilə bitirmişdir. 2000-2001-ci illərdə Azərbaycan Tibb Universitetinin Onkologiya Klinikasında İnternaturada oxumuşdur.

Təhsil illərində tibb elminə olan maraq və böyük həvəs, ixtisas səviyyəsini artırmaq arzusu, onu 01.09.2007-ci ildə Rusiyanın Kursk Dövlət Tibb Universitetinin aspiranturasına gətirdi. Aspiranturada konkret mövzu əsasında elmi-tədqiqat işləri ilə



dəriundən məşğul oldu. 24.12.2009-cu ildə aspiranturanı müvəffəqiyyətlə bitirdi. Təhsil illərində çəkdiyi ağır zəhmətin bəhrəsini gördü, "Xəstələrdə qarın divarının əməliyyatdan sonrakı ventral yırtıqlarının plastikasında Eslan və Esfil sintetik materialların tətbiqinin müqayisəli nəticələri" mövzusunda yazdığı namizədlik dissertasiyasını uğurla müdafiə edərək Rusiya Federasiyası üzrə tibb elmləri namizədi elmi dərəcəsi aldı. 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə bu dissertasiya tanındı və ona tibb elmləri üzrə Fəlsəfə Doktoru elmi dərəcəsi verildi.

Əsas elmi və praktik fəaliyyətini ümumiləşdirərək cərrahiyyə, laporoskopik cərrahiyyə, təcili cərrahiyyə, transplantologiya, hepatobiliar cərrahiyyə sahələrində fəaliyyət göstərir. 2001-2007-ci illərdə Azərbaycan Tibb Universitetinin III cərrahi xəstəliklər kafedrasının Baş laborantı, 2007-2015-ci illərdə həmin Universitetin III cərrahi xəstəliklər kafedrasının assistenti, 2015-ci ildən isə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Transplantologiya şöbəsinin müdiri vəzifəsində çalışır.

Həkim kimi fəaliyyət göstərdiyi bütün zamanlarda özünü təkmilləşdirməyə diqqət yetirmişdir. 01.11.2005-02.12.2005-ci illərdə ABŞ Virciniya ştatı Riçmond şəhərində Laparoskopik Cərrahiyyə və Teletəbabət kursunu, o cümlədən, 15-dən artıq təkmilləşmə kursunu bitirmiş və sertifikatlar almışdır.

İştirakçısı olduğu 60-a yaxın elmi konfransda, simpoziumda məruzələrlə çıxış etmişdir. 55-dən artıq elmi məqalənin, 5 kitabın və 1 dərsliyin həmmüəllifidir.

"Autodermal transplantatın kəsilməsi üçün qurğu"sundakı ixtiralar və səmərələşdirici təkliflərə görə 2007-ci ildə Azərbaycan Respublikası Standartlaşma, metrologiya və patent üzrə dövlət agentliyinin 20060009 №-li patentini almışdır.

Dünya (TTS), Avropa (ESOT), Yaxın Şərq (MESOT), Türk Dünyası Transplantasiya Cəmiyyətlərinin üzvüdür.

Evlidir. Üç qız övladı var.

SAHİB MƏCNUN OĞLU İBRAHİMOV

(14 aprel 1958, Güney)



Tibb elmləri üzrə fəlsəfə doktoru. Yer üzündə tək-tək insanlar var ki, onlara dünyanın hər bir yerində ehtiyac duyulur. Sevgi və hörmətin dərəcəsindən asılı olmayaraq onlar hər zaman əvəzedilməz sayılır. Bu gün təkcə Azərbaycanda yox, onun hüdudlarından kənarda da tanınan, sayılıb-seçilən, Göyçə mahalının, Sədənağac kəndinin adını həmişə əməlləriylə yüksək tutan, bacarıqlı, savadlı həkim-cərrah, ortoped travmotoloq kimi tanınan Sahib Məcnun oğlu da belə bir insandır.

Bir cərrah kimi adı kifayət qədər şöhrətli olan Sahib həkim, bütün həyatını və fəaliyyətini əsas sənəti olan cərrahlığa, travmotologiyaya, elmi araşdırmalara, millətinin və xalqının sağlamlığını qorumağa həsr etmişdir. Elinə-obasına bağlılığı, təmənnasızlığı, həmişə xeyirxahlığı ilə başqalarından fərqli olması, onu kənd camaatının sevimlisinə çevirib. Kənd onun kimi oğullarıyla həmişə fəxr edir və belə nadir insanları xalqımıza bəxş etdiyi üçün Ulu Tanrıya minnətdardır. Çünki Sahib kimi alimlər, cərrahlar, həkimlər bu gün bütün Türk Dünyasının adını yüksəklərə qaldıran mütəxəssislərdir. Həqiqət, məhəbbət və vəfa Sahib həkimin sevdiyi məfhumlardır. Yalan, riyakarlıq və yaltaqlıq isə onun qəbul etmədiyi və insanlığa yaraşdırmadığı əməllərdir.

Öz peşəsinin vurğunudur. İnsanın sağlamlığı, fiziki kamilliyi, onun üçün həyatda ən əsas meyarlardan biridir. Həkimlik onun gözlərində dünyanın nəinki azar-bezarından, hətta bütün pisliklərindən, əyər-əskiklərindən qurtuluş məqamıdır. "Sağlam bədəndə sağlam ruh olar" kəlamı onun dilinin əzbəridir.

Elmi və savadı, el-obaya məhəbbəti həyatının meyarına çevirib, ömrünü xalqının sağlamlığına həsr edən Sahib Məcnun oğlu ziyalı ailəsində doğulmuşdur. 1965-ci ildən Güney kənd məktəbinə getmiş, 1975-ci ildə Şişqaya kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. 1976-1978-ci illərdə hərbi xidmətdə olmuşdur. 1978-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1984-cü ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Oxuduğu illərdə institut tələbə həmkarlar komitəsinin sədri işləmiş, Lenin təqaüdünə layiq görülmüşdür. 1985-1986-cı illərdə institutda baş laborant vəzifəsində işlə-

mişdir. 1986-cı ildə aspiranturaya daxil olmuş və 1988-ci ildə tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

1988-1990-cı illərdə Azərbaycan Travmotologiya və Ortopediya İnstitutunda işləmişdir. 1990-1995-ci illərdə hərbi xidmətə çağırılaraq Azərbaycan Mərkəzi Hərbi Hospitalında travmotologiya və ortopediya şöbəsində baş ordinator vəzifəsində çalışmışdır. Bu dövr ərzində yüzlərlə yaralının müalicəsində yaxından iştirak etmişdir. Yaralıların müalicəsində tətbiq etdiyi metodlar bir çox yaralını təzədən həyata qaytarmışdır.

1995-2000-ci illərdə travmotologiya xəstəxanasında ortopediya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Bu illərdə Qarabağ müharibəsində yaralanmş hərbçilərin və mülki şəxslərin reabilitasiyası ilə məşğul olmuşdur.

2000-2007-ci illərdə Səudiyyə Ərəbistanında işləmişdir. 2007-ci ildən bu günə kimi özəl xəstəxanalarda həkim travmotoloq kimi fəaliyyət göstərir. Qarabağ müharibəsi veteranıdır.

Ailəlidir. Bir oğlu, iki sevimli nəvəsi var. Bakı şəhərində yaşayır.

SƏBUHİ NƏCƏF OĞLU QURBANOV

(23 aprel 1975, Güney)



Tibb üzrə fəlsəfə doktoru. Azərbaycan Tibb Universitetinin terapevtik stomatologiya kafedrasının assistenti Səbuhi Nəcəf oğlu Qurbanov müəllim ailəsində doğulmuşdur. 1988-ci il hadisələrindən sonra Bakıda məskunlaşdılar. Orta məktəbi bitirdikdən sonra 1991-1992-ci illərdə Bakı şəhəri, Sabunçu rayon SES-də sanitar işləmişdir. 1992-ci ildə Azərbaycan Tibb Universitetinin hazırlıq şöbəsinə, 1993-cü ildə stomatologiya fakültəsinin I kursuna qəbul olunub, 1998-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. 1998-1999-cu illərdə Stomatoloji Mərkəzdə həkim-interna, 2001-2005-ci illərdə "AzMedEstetik"də həkim-stomatoloq işləyib. 2005-ci ildən 2007-ci ilə qədər ATU-nun terapevtik stomatologiya kafedrasında stajçı-assistent, 2007-ci ildən isə assistent vəzifəsində çalışır.

Səbuhi Qurbanov ali məktəb müəllimi kimi tədris, elmi-tədqiqat, müalicə, ictimai-tərbiyəvi istiqamətlərdə fəaliyyət göstərir.

Praktiki məşğələlər zamanı tələbələrə xəstələrin müayinəsini, ayrı-ayrı xəstəliklər zamanı aparılan əməliyyatları izah edir və nümayiş etdirir. Kurasiya zamanı tələbələrdə kliniki şüurun formalaşmasına xüsusi diqqət yetirir. Diaqnoz qoyulmasında və xəstənin müalicəsində subyektiv və obyektiv üsullardan bacarıqla istifadəni öyrədir. Kafedrada stomatologiya ixtisası üzrə təhsil alan rezidentlərə mütəmadi olaraq rotasiya keçir.

İndiki dövrdə etiopatogenetik faktorlar və sosial-epidemioloji zəminlərin əsas stomatoloji xəstəliklərin inkişafına səbəb olduğu məlumdur. Peşə və istehsalat zərərlərinin ağız boşluğuna təsiri barədə məlumatlar kifayət deyildir və bu problemin öyrənilməsi aktual olaraq qalmaqdadır. Onun tədqiqatının məqsədi ilk dəfə olaraq ipək emalı sənayesi işçilərinin arasında stomatoloji xəstəliklərin yayılmasını və intensivliyini təyin etmək, müvafiq müalicə-profilaktik tədbirlər planını işləyib hazırlamaqdan ibarət olmuşdur.

Bu aktual problem üzrə S.N.Qurbanov 2015-ci ildə "Şəki ipək kombinatı işçilərinin stomatoloji statusu" mövzusunda dissertasiya işini müdafiə edərək, tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

S.N.Qurbanovun ölkə daxilində və xarici mətbuatda 10 elmi məqaləsi və 3 tezisi çap olunub. Rəsmi dəvətlər əsasında parodontologiya və implantologiyaya aid bir sıra xüsusi kurslarda iştirak edib sertifikat almışdır. Eləcə də Beynəlxalq stomatoloji konqres və simpoziumlarda (ABŞ, Yaponiya, Sloveniya, İtaliya və s.) iştirak etmişdir.

ATU-nun Tədris Stomatoloji klinikasından və Azərbaycanın digər bölgələrindən göndərilən xəstələrə stomatoloji yardım göstərilir.

Fakültənin və Universitetin həyatında baş verən ictimai-siyasi və mədəni tədbirlərdə daim iştirak edir. Kafedrada tədris keçən tələbələrlə daimi tərbiyəvi iş aparır.

Evlidir, iki övlad atasıdır.

TÜNZALƏ ƏDALƏT QIZI CƏLİLOVA

(Noyabr 1969, Gəncə)



Pedaqogika üzrə fəlsəfə doktoru. Orta məktəbi Gəncədə bitirmişdir.

Gəncə Dövlət Pedaqoji İnstitutunun "İbtidai təhsilin pedaqogikası və metodikası" ixtisası üzrə məzunudur (1991).

1996-cı ildən GDPİ-nin Psixologiya kafedrasında baş laborant, 1998-ci ildən müəllim və 2005-ci ildən baş müəllim olaraq çalışır.

2014-cü ilin mart ayında "Kiçik yaşlı məktəblilərdə özünə nəzarət bacarıqlarının formalaşdırılması üzrə işin sistemi" mövzusunda elmi işini müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 21 elmi məqalənin, fənn proqramlarının müəllifidir. Ailəlidir.

YADİGAR TAPDIQ OĞLU CAMALOV

(1938, Güney)



Filologiya üzrə fəlsəfə doktoru. Yadigar müəllim haqqında söz demək mənim üçün həm çətin, həm də asandır. Çətindir ona görə ki, Yadigar müəllim qırx ildən çox doğma Göyçə elinə, Vətəninə, millətinə, bütünlükdə insanlığa namusla, ləyaqətlə xidmət etmiş ziyalılardan, elm adamlarından olaraq, Sədənağac kəndinin tarixində öz yeri olan nadir şəxsiyyətlərdən biridir. O, hələ sağlığında gözəl, nəcib əməllərilə yüzlərlə şagirdinin qəlbində yaşamış, özünə əbədi heykəl qoyub getmişdir. Yadigar müəllim kimi insanlar haqqında xatirə yazmaq olduqca çətin, ciddi və məsuliyyətli bir işdir. Dönə-dönə fikirləşməli, götür-qoy etməli olursan. Necə yazmaq lazımdır ki, söylədiklərin, yazdıqların bu nəcib insanın əməllərinə, xarakterinə uyğun olsun, onun ürəklərdə yuva salmış

parlaq obrazına yeni cizgilər, ştrixlər əlavə etsin. Məsələnin mürəkkəbliyi və çətinliyi də bundadır. Ancaq bu gündən boylanıb keçmiş günləri araşdıranda o da bəlli olur ki, Yadigar müəllimin mənə və onlarca mənim kimi şagirdinə qayğısı, insani münasibəti sadəcə fərdi xarakter daşımırdı, dərin ictimai məzmun kəsb edirdi, yüksək mənəvi-əxlaqi keyfiyyətlərin, böyük vətəndaşlıq borcunun canlı təzahürü idi. Dərin təəssüf və ürək ağrısı ilə də olsa söyləmək lazımdır ki, bu gün cəmiyyətimizdə məhz Yadigar müəllim kimi şəxsi mənafedən uzaq, insanlara təmənnasız xidmət edən, fəaliyyətləri, xeyirxah əməlləri müasirlərimiz üçün gözəl örnək olmağa qadir olan ziyalıların, işıqlı şəxsiyyətlərin sayı olduqca azalıb, az qala yox dərəcəsindədir. Ona görə də bu gün ədəbi, elmi, ictimai həyatımızda, bütünlükdə cəmiyyətimizdə Yadigar kimi müəllimlərin, ziyalıların yeri boş görünür.

Yuxarıda dediyim kimi, Yadigar müəllim haqqında danışmaq mənim üçün həm də asandır. Çünki bu nəcib insanla bizim həm də çox yaxın qohumluq münasibətlərimiz olub. Anası Balaca xanım babam Məhərrəmin mamasıdır (bibisidir). Kənddə qohumluq əlaqələri çox sıx olduğundan ailələrimiz arasında mehribançılıq hökm sürürdü. Bundan əlavə, Yadigar müəllimlə atam Qulu müəllim bir iş yoldaşı olmaqla yanaşı, həm də yaxın dost, tay-tuş, sirdaş idilər. Onların möhkəm dostluq münasibətləri vardı, tez-tez görüşür, qonaqlıqlar təşkil edirdilər.

Orta məktəbdə beş il müəllimim olub, Azərbaycan dili və ədəbiyyat fənnini tədris edirdi. Hər şeydən əvvəl tədris etdiyi fənlərə olan böyük sevgisini bizə də aşılamaq üçün can yanğısı ilə çalışırdı. Hər kəlməsi, hər sözü ilə dilimizə, ədəbiyyatımıza olan vurğunluğunu ifadə edən müəllimimiz mənəvi dəyərlərimizə verdiyi yüksək qiyməti bizə göstərərək, bizdə xalqımızın varlığına, dilinə, tarixinə, saz-söz dünyasına, mədəniyyətinə məhəbbət aşılayırdı. Azərbaycan dilinin cazibə qüvvəsindən, saflığından, dünyanın ən poetik dillərindən biri olmasından, yüz illərdən bəri bu dildə yaranan gözəl əsərlərdən bizə danışdıqları, tükənməyən sözü-söhbəti ondan bizə qalan xatirələr içərisində daha çox yada düşür. Bir müstəqil şəxsiyyət, azad, demokratik fikirli ziyalı kimi yetişməyimdə, bütünlükdə dünyagörüşümün, milli mənəviyyatımın formalaşmasında onun əvəzsiz müəllim zəhməti vardır. Orta məktəbdə oxuyarkən, həmişə mənim yazdığım inşalara çox dərindən yanaşırdı, onları mənimlə birgə oxuyur, buraxdığım səhvləri mənimlə müzakirə edirdi. Yadigar müəllim mənə dərindən düşünməyi, yazdığım hər hansı bir mövzunu əvvəlcədən canlı olaraq görməyimi, fikirlərimi məntiqə uyğun olaraq kağıza köçürə bilmək qabiliyyətini aşıladı, məndə həmişə "yazmaq" həvəsi yaratdı. Hər dəfə əlimə qələm alıb bir mövzu haqqında nə yazmağımdan asılı olmayaraq, birinci növbədə Yadigar müəllim gözlərimin qabağında ürəkdən gələn, qəhqəhəli gülüşü ilə canlanır.

1988-ci il deportasiyasından sonra ailəliklə Bakıda məskunlaşan Yadigar müəllimi bir daha görə bilmədim, bu mənə qismət olmadı.

Rusiyada təhsil aldıqdan sonra orada qaldım, uzun illər Rusiyanın müxtəlif şəhərlərində yaşadım, Azərbaycana çox az-az və qısa müddətə gəlirdim. Vaxt azlığı, zaman məhdudiyyəti məni hörmət bəslədiyim, sevdiyim çox-çox insanlarla görüşməkdən məhrum etdi.

Bu gün Yadigar müəllimin qısa bir tərcümeyi-halını yazmaq qərarına gəldim. Əgər bu yazdığım kitabın formatı icazə versəydi, Yadigar müəllim haqqında xırda bir bioqrafik yazı yazmazdım. Onunla bağlı bildiklərimi, düşüncə və təəssüratlarımı qələmə alsaydım, bu böyük bir əsər olardı. Bəlkə gələcəkdə bu fikri reallaşdırmaq imkanım oldu. Ancaq indi bu dəyərli pedaqoq haqqında qısa bir bioqrafik səhifə açmaq istədim. Oxucular bilməlidir ki, bu səhifədə yazılanlar şagirdin böyük ustadına, onun xarakterinin formalaşmasında əməyi keçmiş müəlliminə olan sonsuz ehtiramın, sevgi-sayğının ifadəsidir, saf ürək sözləridir.

Yadigar Tapdıq oğlu Camalov Güney kəndində yeddinci sinfə qədər oxuduqdan sonra qonşu Şişqaya kənd orta məktəbini 1956-cı ildə bitirmişdir. Hərbi xidmətini başa vurduqdan sonra doğma kəndinə qayıtmış, 1960-cı ildən kolxozda çalışmışdır.

1962-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuş, 1967-ci ildə həmin institutu bitirmişdir. 1963-cü ildən Güney kənd orta məktəbinə müəllim təyin edilmişdir. Uzun illər burada dil-ədəbiyyat fənnini tədris etmişdir. Elmi işlə məşğul olmağa böyük marağı olduğu üçün 1976-cı ildə Bakı şəhərinə gəlmiş, burada Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunda ixtisas imtahanlarını verərək dissertant təsdiq edilmişdir. 1982-ci ilin mart ayında Bakı şəhərində namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

1977-ci ildən Güney kənd orta məktəbində məktəb direktorunun tərbiyə işləri üzrə müavini vəzifəsində işlədi.

1988-ci il deportasiyasından sonra Bakıda pedaqoji fəaliyyətini davam etdirdi. 1990-cı ildən Azərbaycan Dövlət Neft Akademiyasında Azərbaycan dili kafedrasında müəllim, baş müəllim vəzifələrində fəaliyyət göstərmişdir. 1991-ci ildə həmin kafedranın dosenti seçilmişdir.

Yadigar müəllim altı elmi əsərin müəllifidir. 1992-ci ildə yazdığı "Azərbaycan dili dərslərində kartoçkalardan istifadə" adlı metodik vəsaitdən tələbələr və müəllimlər bu gün də istifadə edirlər.

Yadigar Tapdıq oğlu 1997-ci ildə Bakıda vəfat etdi. Beş övladı: dörd oğlu, bir qızı var. Ailəsi Bakıda yaşayır.

XALQA LAYİQLİ ÖVLAD OLDULAR

Keçən əsrin 20-ci illərindən başlayaraq Sədənağac kəndi Ermənistan SSR-də bolşevik (kommunist) cildinə girmiş türk düşmənlərinin qurduğu açıq və gizli maneələri aşaraq, insanlarımızın öz potensialı hesabına dinamik inkişaf yoluna qədəm qoydu.Tədricən təsərrüfat və təhsil sistemi formalaşmağa başladı. Bununla əlaqədar yerli kadrlara olan ehtiyac getdikcə artdı. Kənddə məktəb direktoru, təsərrüfat rəhbəri kimi vəzifələri icra edən yerli kadrlar yetişdi. Zaman keçdikcə həm nəzəri, həm də praktik olaraq kamilləşən bu şəxsiyyətlər kənd miqyasından rayona, oradan isə erməni millətçilərinin müqavimətinə və təzyiqinə baxmayaraq respublika səviyyəsinə qalxa bildilər, müxtəlif vəzifələrdə uğurla çalışdılar. Həmin şəxslərin bir neçəsi ali partiya məktəbini bitirərək yüksək dərəcəli idarəçi kimi bütün respublikada məşhurlaşdılar.

Sədənağac kəndində, eləcə də respublikanın digər kəndlərində rəhbər vəzifələrdə çalışmış və çalışan eloğullarımız haqqında əlifba sırası ilə qısa məlumat verməyi zəruri saydıq.

ABBAS SAYAD OĞLU İBRAHİMOV

(1928, Sədənağac)

Sayad Məşədi İbrahim oğlunun ailəsində dünyaya göz açmışdır. Atası Sayad kişi el ağsaqqalı, dövrünün seçilən igidlərindən biri olaraq, 1918-1920-ci illərdə erməni millətçiləri ilə silahlı mübarizədə ön cərgədə dayanmış özünümüdafiə dəstəsinin yaradılmasında yaxından iştirak etmişdir.

Abbas Sayad oğlu 1943-cü ildə Güney kənd ibtidai məktəbini bitirmişdir. Müharibə dövründə bir neçə il kolxozda əmək fəaliyyəti ilə məşğul olmuşdur.

1946-cı ildə İrəvan Pedaqoji Məktəbinə qəbul edilmişdir. 1949-cu ildə İrəvan Pedaqoji Məktəbi də minlərlə Azərbaycan türkü kimi kollektiv şəkildə deportasiyaya



məruz qalaraq Azərbaycanın Xanlar rayonuna köçürüldü və buna görə də Abbas müəllim təhsilini 1952-ci ildə Xanlar Pedaqoji Məktəbində tamamlamalı oldu.

1952-ci ildən Güney kənd səkkizillik məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin edildi. 1955-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qiyabi olaraq qəbul olunur və 1960-cı ildə ali məktəb diplomu alır.

Abbas müəllim işlədiyi qısa vaxtda öz işgüzarlığı ilə müəllimlərin, şagirdlərin və kənd camaatının dərin hörmətini qazanır. Bunu nəzərə alan rayon rəhbərliyi onu irəli çəkərək Güney kənd səkkizillik məktəbinə direktor təyin etdilər.

Direktor işlədiyi illərdə tədrisin yaxşı nəticələri, şagird kontingentinin yüksək göstəriciləri, mahir idarəçilik qabiliyyəti, bacarığı, iş prinsipləri nəzərə alınaraq 1965-ci ildə Güney kəndində kolxoz idarə heyətinin sədri seçildi. Bu vəzifədə beş il işlədi. 1969-cu ildə rayonun Pəmbək kənd orta məktəbinə direktor təyin edildi. 1973-cü ildə səhhəti ilə əlaqədar olaraq doğma Güney kəndinə qayıtdı və səkkizillik məktəbdə dərs hissə müdiri vəzifəsinə təyin edildi. 1974-cü tədris ilində səkkizillik məktəb orta məktəbə çevrildi. Abbas müəllim Güney kənd orta məktəbində ömrünün sonuna qədər dərs hissə müdiri işlədi.

Rüstəmuşağı nəslindən Tamam İsmayıl qızı ilə ailə qurmuşdu. Sahin, Zöhrab adlı iki oğlu olmuşdur.

1978-ci ildə kənddə ürək xəstəliyindən vaxtsız vəfat etmişdir.

CAVAD QƏŞƏM OĞLU HÜSEYNOV

(1945, Güney)

Sədənağac kəndi haqqında kitab yazmaq fikrini bölüşdüyüm insanlardan biri də Cavad əmi idi. İlk anlardan bu fikrimi çox bəyəndiyini bildirərək həqiqətən də çox məsuliyyətli bir yükün altına girdiyimi qeyd edərək mənə uğurlar arzuladı və bacardığı qədər kömək edəcəyinə söz verdi. Həqiqətən də ona tez-tez müraciət edir, müəyyən məsləhətlər alırdım. Bir az gec zəng vuranda özü məni yığırdı və birinci sualı kitabla bağlı olurdu. Hər dəfə məqam düşəndə kitab haqqında fikirlərini mənimlə bölüşdürür, bəzi mənbələrin axtarılmasında yaxından kömək edirdi. Sonuncu bir



neçə ildə Bakıda yaşadığım dövrdə onunla tez-tez zəngləşir, vaxtımız olanda görüşürdük. Cavad əminin yaxın dostu, eyni zamanda qudası Hüseyn müəllimin Fatmayidəki bağ evində bir yerə yığışar, səsli-küylü nərd yarışları keçirər, müəyyən mövzular ətrafında fikirlərimizi bölüşdürərdik. Bəzən mübahisələrimizin səs-küyü bütün ətrafı bürüyürdü. Hər dəfə də bütün mübahisələrin sonu şən zarafatlarla, deyib-gülməklə bitirdi.

Böyük təəssüf və ürək ağrısı ilə qeyd etməliyəm ki, amansız xəstəlik onu tez əlimizdən aldı. Haqq dünyasına qovuşduğunun bir ili tamam olmasına baxmayaraq inanmaq istəmirsən ki, alicənab insan, sadiq dost, öz bəmzə zarafatları ilə həmişə insanlara ancaq gülüş, xoş əhval-ruhiyyə bəxş edən bu gözəl şəxsiyyət bir daha aramızda olmayacaq.

Haqqında söhbət açdığım Cavad Qəşəm oğlu dini dəyərlərin, insani keyfiyyətlərin, əxlaqi prinsiplərin ciddi təlqin edildiyi bir ailədə dünyaya göz açmışdı. Kiçik yaşlarından kəndin ən qocaman sakinlərindən olan babası İbrahim Məşədi Hüseyn oğlunun duaları altında böyüyərək kənd 7 illik məktəbində ibtidai təhsil almağa başladı. Təhsilini başa vurduqdan sonra, orta təhsil almaq üçün Krasnoselo rayonunun Toxluca kəndinə göndərildi və babasının yaxın dostu, "Gürz" ocağının sahibi, o dövrün çox hörmətli din xadimi hesab edilən Məşədi Mir İsmayıl ağanın evində yaşamaqla 8 və 9-cu sinifləri oxudu. Eyni zamanda bu iki il ərzində sirli-sehirli dünyanı dərk etməkdən ötrü "Qurani-Kərimi" oxudu, onun hikmətlərini mənimsədi.

1962-1963-cü tədris illərində Basarkeçərin Çaxırlı kəndində 9-10-cu sinifləri bitirdi və ali təhsil almaq üçün Bakı şəhərinə gəldi. Qəbul imtahanlarını verdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna qəbul edildi. Ancaq seçdiyi ixtisası bəyənmədiyindən 3-cü kursdan bu təhsil ocağından çıxdı. 1966-cı ildə qəbul imtahanlarını verərək Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat mühəndisləri fakültəsinə daxil oldu. 1969-1971-ci illərdə hərbi xidmətdə oldu. Hərbi xidmətdən qayıtdıqdan sonra təhsilini başa vurdu və təqaüdə çıxana qədər bir sıra məsul vəzifələrdə işlədi: Əmək fəaliyyətinə Vladimir İliç adına Bakı neftayırma zavodunda fəhlə kimi başladı. Sonralar müxtəlif rəhbər vəzifələrdə çalışdı. Bakı şəhəri 2 saylı evtikmə kombinatında mühəndis, hazır məhsullar sexinin rəisi *(eyni zamanda kombinat komsomol təşkilatının katibi seçilmişdir)*, 2 saylı dəmir-beton məmulatları zavodunda armatur sexinin rəisi, Bakı-Xırdalan pivə zavodları birliyinin təmir-tikinti şöbəsinin baş mühəndisi, tikinti üzrə direktor müavini, Bakı

baş tikinti idarəsində müfəttiş, Sosial Müdafiə Nazirliyinin Bakı şəhərindəki lallar məktəbində tikinti işləri üzrə direktor müavini, Nəqliyyat Nazirliyinin Təmir-tikinti idarəsinin rəisi vəzifələrində ləyaqətlə çalışmış, çox intizamlı, tələbkar və səriştəli bir rəhbər, savadlı mühəndis, bacarıqlı təşkilatçı, istedadlı idarəçi, sözün əsl mənasında mükəmməl biliyə malik ziyalı, humanist və qayğıkeş insan kimi hamının hörmətini qazana bilmişdi.

Sovetlər İttifaqı dağıldıqdan sonra da fəaliyyətini davam etdirmiş, biznesin müxtəlif sahələrində təmir-tikinti işləri ilə məşğul olmuşdur.

Amma hansı yüksək vəzifə olur-olsun həmişə sadəliyi ilə seçilmiş, öz yerini bilmiş və ləyaqətini qorumuşdur. Heç vaxt öz əqidəsindən, sadəliyindən, təvazökarlığından, vətənpərvərliyindən əl çəkməmişdir.

Onun qonaqpərvərliyi, dostluğu, etibarlılığı, sədaqəti onu tanıyanların hamısına məlumdu. O, həm də çox zarafatcıl idi, yumoru sevən, unikal bir yaddaş sahibi idi. Onun yadından heç nə çıxmırdı. Ən çox zarafat etdiyi, "sataşdığı" dostları, yaxınları onun zarafatından incimir, heç kəs də xətrinə dəymirdi.

Cavad Qəşəm oğlunu bütün Sədənağaclılar çox qonaqpərvər bir adam kimi tanıyırdı. Bakıda yaşadığı illərdə şəhərə gələn hər bir tanışın güvənc yeri idi, yaşadığı yataqxana, sonralar mənzili qohum-əqrabanın mehmanxanasına çevrilmişdi. Onun yaşadığı ünvan heç vaxt qonaqsız olmurdu. Həyat yoldaşı Mariya xanım İsa qızı gün ərzində bir neçə dəfə süfrə açır, gələn qonaqlara yemək-içmək verir, onların qulluğunda dayanırdı. Qonaqpərvərlik bu ailənin pozulmaz qanunlarından idi. Ali məktəbə qəbul olmaq üçün kənddən gələnlərin əksəriyyətini Cavad əmi qarşılayır, evinə aparır, bir neçə gün qonaq saxladıqdan sonra onlara müvəqqəti yaşamaq üçün yataqxana, mənzil tapırdı.

Cavad əminin keçdiyi həyat yoluna nəzər saldıqda onun mənəvi aləmi, fitrəti ilə taleyi arasında qəribə bir ahəngin olduğunun şahidi oluruq. Xarakterindəki xeyirxahlıq, insanpərvərlik, gülərüzlük, qonaqsevərlik taleyin təsadüfləri nəticəsində yox, Yaradanın onun fitrətinə qoyduğu ali insani keyfiyyətlərin təzahürüdür.

2018-ci ilin aprel ayında Cavad Hüseynov uzun sürən ağır xəstəlikdən dünyasını dəyişdi. Həyat ona acı günlər də yaşatmışdı. Lakin o, çətin anında belə ətrafdakılara həssaslığını, diqqətini qətiyyən azaltmamış, laqeydləşməmişdi. Belə böyük ürəyə sahib insan haqqında nəsə yazmaq olduqca çətindir.

Mən sevimli qohumum, yaxın dostum, hörmətli eloğlum barəsində düşüncələrimin çox az bir hissəsini kağız üzərinə bacardığım qədər səmimi şəkildə köçürməyə çalışdım. Haqqında çoxlu xatirələr yazmaq olar, onun 73 illik zəngin ömür yolu bir kitaba çığmaz. O, haqq dünyasına qovuşsa da, ruhu bizimlədir. Onu tanıyanlar ondan söz düşəndə bir ağızdan deyirlər: "Allah rəhmət eləsin, yaxşı insan idi"!

FİRUDDİN ƏLƏKBƏR OĞLU MƏMMƏDOV

(1937, Güney)



İlk təhsilini 1942-1949-cu illərdə Güney kənd ibtidai məktəbində, orta təhsilini 1951-1953-cü illərdə Krasnoselo rayonunun Toxluca kənd orta məktəbində almışdır. 1954-cü ildə Gəncə Kənd Təsərrüfatı Texnikumuna qəbul olunmuş və 1957-ci ildə orta ixtisas təhsilini fərqlənmə diplomu ilə bitirərək doğma kəndinə qayıtmışdır. O zaman kolxoz idarə heyətinin sədri işləyən, Şişqayalı Tapdıq Cəfərov onu aqronom vəzifəsinə təyin etmişdir.

1964-1969-cu illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsində qiyabi olaraq təhsil almışdır. 1973-cü ildə kolxoz idarə heyətinin sədri seçilmiş və bu vəzifədə 1977-ci ilə qədər çalışmışdır. 1977-ci ildə kolxozun baş aqronomu vəzifəsinə təyin edilmişdir. 1988-ci ilin yanvarında Güney heyvandarlıq sovxozunun direktoru təyin edilmişdir.


1988-ci ilin dekabr deportasiyasından sonra Bakı şəhərinə gəldi. 1988-1997-ci illərdə Bakı şəhər yaşıllaşdırma idarəsində aqronom olaraq çalışdı. 1997-ci ilin sonlarında təqaüdə çıxdı. Bakıda yaşayır.

Deyirlər, insanın ən ümdə keyfiyyətinin dəyəri onun ailəsi, tərbiyə verdiyi övladları ilə ölçülür. Firuddin Ələkbər oğlu bacarıqlı bir rəhbər, gözəl ziyalı, əvəzsiz bir qohum olmaqla yanaşı, böyük bir ailə başçısıdır. Üç oğul, iki qız böyüdüb, ev-eşik sahibi edib, yaxşı təhsil almalarından ötrü əlindən gələni edib. Övladlarının hər biri ona başucalığı gətirib. Çoxları onu bəxtəvər ata, xoşbəxt ailə başçısı adlandırır.

Bütün həyatı boyu xalqının, el-obasının dərd-sərinə şərik olan bir insan olduğu üçün, 50 ilə yaxın ömür sürdüyü həyat yoldaşı Sona (Leyla) xanımla bərabər, bütün ailə üzvləri ilə birlikdə, Sədənağac kəndində olduğu kimi, bu gün də qohum-əqrabanın, kənd camaatının xeyir-şər işlərində yaxından iştirak edir, ehtiyacı olanlara köməklik göstərir, dayaq dururlar. Bu onu göstərir ki, Firuddin Ələkbər oğlu cəmiyyətdə öz yerini tutmuş ziyalı, xalqını, elini-obasını sevən, gözəl həyat yoldaşı, istiqanlı ata, sevilən babadır.

İBAD QƏŞƏM OĞLU İBRAHİMOV

(1938, Güney)



Kənddə 8-ci sinfi bitirdikdən sonra Şişqaya kənd orta məktəbində təhsil almışdır. Orta məktəbi qızıl medalla bitirərək İrəvan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə qəbul olunmuşdur. İnstitutu fərqlənmə diplomu ilə bitirdikdən sonra kəndə qayıtmış və uzun müddət məktəbdə müəllim işləmişdir. 1968-ci ilin sentyabrında "Bolluq uğrunda" rayon qəzeti redaksiyasının kənd təsərrüfatı şöbəsinə müdir təyin edilir. Bir neçə ildən sonra redaktor müavini olur.1976-cı ildə Bakı Ali Partiya Məktəbinə təhsil almağa göndərilir. 1979-cu ildə məktəbi fərqlənmə diplomu ilə bitirərək rayona qayıdır və 1978-1979-cu illərdə rayonun Yenikənd kolxoz idarə heyətinin sədri vəzifəsində çalışır.

1982-ci ilin may ayından 1984-cü ilin sonlarınadək "Sovet Ermənistanı" qəzetinin xüsusi müxbiri işləmişdir. 1985-ci ildə Azərbaycana - indiki Göygöl (keçmiş Xanlar) rayonuna köçmüş, Azərbaycan Kommunist Partiyası fəaliyyətini dayandırana qədər (14 sentyabr 1990-cı il) partiya işlərində olmuş, Xanlar rayon partiya komitəsində təlimatçı, partiya komissiyasının sədri, Xanlar rayon partiya təşkilatı nəzarət komissiyasının sədri vəzifələrində işləmişdir.

İbad müəllim həmişə öz təvazökarlığı, sadəliyi, qayğıkeşliyi və qohumcanlığı ilə hamıdan seçilirdi. Mənim xatirimdə tələbkar, yüksək intellektə malik bir müəllim kimi qalıb. Səmimiyyət, təbiilik, qayğıkeşlik və prinsipiallıq onun təbiətinin ayrılmaz cizgiləri idi. Dərin zəkası, dəyərli sözləri, ağıllı məsləhətləri, əməli və işi ilə gənc nəslə örnək bir müəllim idi. Mənəvi aləminin zənginliyi, xarakterinin bütövlüyü, sədaqətli, geniş müşahidə qabiliyyəti ilə çoxlarından seçilən düşüncə sahibi idi.

Şeir deməyi çox sevərdi. Füzulidən, Nizamidən, Səməd Vurğundan saatlarla əzbərdən şeir söyləyə bilərdi. Yüksək nitq mədəniyyətinə malik idi. Dərs zamanı danışanda sinifə dərin bir sakitlik çökər, hamı diqqətlə qulaq asardı. Onun söhbətlərindən doymaq olmurdu.

Çoxillik jurnalistika fəaliyyəti dövründə də maraqlı, məzmunlu, prinsipial mövqeyinə görə başqalarından fərqlənən yazıları ilə seçilirdi. Ədalətsizliyə qarşı həmişə mübarizə aparırdı. Ermənistanda yaşadığı dövrdə rayon partiya komitəsinin birinci katibi Nuricanyanla onun tutduğu millətçilik mövqeyinə görə mübarizə apar-

dı. Bu daşnak törəməsinin rayonun azərbaycanlı əhalisinə qarşı apardığı ayrı-seçkilik siyasətini ifşa etmək üçün heç nədən çəkinmədi. Onunla üz-üzə dayandı, güclü təzyiqlərə və hədələrə baxmayaraq heç vaxt qorxmadı, haqq-ədaləti tələb etdi. Ermənistan Kommunist Partiyasının Mərkəzi Komitəsində mühüm kreslolarda oturan və Nuricanyana havadarlıq edən vəzifəli şəxsləri də ifşa etmək üçün o vaxtkı ölkə rəhbəri Leonid Brejnevə, Dövlət Təhlükəsizlik Komitəsinin sədri Yuri Andropova müraciət etmişdi.

Azərbaycana köçəndən sonra da Xanlar rayonunda yaşayan fitnəkar və satqın erməni millətçilərlə və vəzifə kreslolarında oturan işbazlarla toqquşdu, onların iç üzünü açmaq üçün dəfələrlə ailəsini, həyatını təhlükəyə atdı.

Keçmiş Xanlar rayonunun Yuxarı zonası deyilən ərazidə erməni kəndləri yerləşirdi. 90-cı ilin əvvəlindən başlayaraq azərbaycanlılarla ermənilər arasında münasibətlər günbəgün pisləşməyə başladı. İbad müəllimin yaşadığı Əbləh kəndi də o zonada, erməni kəndlərinin əhatəsində yerləşirdi. O vaxtkı Əbləh kəndində çəmi altı azərbaycanlı evi var idi. Ona qarşı fitnə-fəsadlar, təxribatlar törədilir. Hətta bir dəfə İbaq müəllimi girov da götürmüşdülər.

Bütün bu təzyiqlərə mətinliklə sinə gərdi, heç nədən qorxmayaraq öz işinə davam etdi.

İbad müəllim böyük bir ailə başçısı idi. 1961-ci ildə Basarkeçərin Qanlı kəndindən Ziyatel Mahmud qızı ilə ailə həyatı qurmuşdu, birlikdə bir oğul, üç qız böyütdülər. Oğlu Aydın, qızları Rəna, Şirin, Ülviyyə ali təhsil aldılar. Ailə qurdular, övladları var. Təəssüflər olsun ki, Aydın və Şirin gənc ikən dünyadan köçdülər. Onların ölümü bu qayğıkeş ataya sarsıdıcı zərbə vurdu. Ömrünə xəzan yeli çox tez əsdi. Bu dünyadan vaxtsız, həm də ürəyində doğma yurd nisgilli getdi.

Yaşadığı kənddə 2005-ci ildə əbədiyyətə qovuşdu.

İndi İbad müəllimin yeri görünür. O, tək bir evdən, bir ailədən yox, böyük bir nəsildən, eldən getdi. Bu vaxtsız ayrılıq bizim hamımız üçün çox ağır oldu. İbad müəllimin dərs dediyi yüzlərlə gənc bu gün Azərbaycanda ən müxtəlif sahələrdə çalışırlar. Xalqının hörmətini qazanan, vətənin şərəfini qoruyanlar heç zaman unudulmur. İbad müəllim nə etdisə xalq üçün etdi, şərəfli ömür yaşadı, bu dünyadan da şərəflə getdi. Son nöqtəsini qoya bilmədiyi "Alınmaz qala" kitabı ölümündən sonra işıq üzü gördü.

İSƏ RƏHİM OĞLU ƏLƏSGƏROV

(1929, Sədənağac)



Uzaqdan qulağıma saz səsi gəldi. "Göyçəgülü" çalınırdı. Bu səs xatirələrimi oyatdı. Ulu Göyçə, onun əsrarəngiz gözəlliyə malik Sədənağac kəndi gözlərimin önündə canlandı. Ötənlər, keçənlər yada düşdü, xatirələr bir-birinin ardınca keçmişimizə cığır saldı. Xatirələrin başı üzərindən boylanıb həsrətini çəkdiyimiz o illərə nəzər saldım. Gənclik illərinin dadlı, şirin məqamlarından olan kənd özfəaliyyət dərnəyi, kəndin klubu və bu klubun "əbədi" müdiri, hamıya dost olan, taleyin verdiyi ömür payını şərəf və ləyaqətlə yaşayan İsə Rəhim oğlu Ələsgərov xəyalıma gəldi.

İsə Rəhim oğlu çoxuşaqlı kənd ailəsində dünyaya göz açmışdı. Ailənin dörd oğlu, dörd qızı vardı.

Kolxoz quruluşunun ilk illərində kəndin ən varlı və imkanlı adamları sırasında olan Rəhim kişi, könüllü olaraq öz mal-qarasının bir hissəsini kolxoza versə də, sonradan müxtəlif bəhanələrlə onun bütün var-dövlətini əlindən almışdılar.

1936-cı ildə Rəhim Ələsgər oğlu vəfat etdi. Dövlət tərəfindən açıq-aşkar soyğunçuluğa məruz qalmış, ailə başçısını itirmiş bu ailə məhrumiyyətlərə düçar olur. Bir az keçməmiş bu ailə bir-birinin ardınca yeni itkilərini yaşayır. Əvvəlcə, 1941-ci ildə evin böyük oğlu Əli hərbi xidmətə çağırılır. 1941-ci ildə isə qardaşı Məşədi cəbhəyə yola düşür. 1943-cü ildə Əlinin "qara kağızı", ondan bir neçə ay keçməmiş Məşədinin "itkin düşməsi" xəbəri gəlir. Ailənin bütün ağırlığı və məsuliyyəti 13 yaşlı İsənin öhdəsinə düşür. 7 yaşlı qardaşı Təhməzə, dörd bacıya ata əvəzi olur, onların qayğı yükünü çəkir. Böyüklərlə yanaşı kolxozda çalışır, boş vaxtlarında isə dərslərini oxuyurdu. Əvvəlcə kənd ibtidai məktəbində, sonralar isə 7 km-lik məsafədə yerləşən qonşu Şişqaya kənd orta məktəbində oxuyur. Gündə 14 km piyada yol gedib-gəlməsi ona əla qiymətlərlə oxumağa mane olmur. Şişqaya kənd orta məktəbində oxuduğu illərdə bacarığına, qabiliyyətinə görə məktəbin kitabxanasında işə qəbul edilmişdi, dərsdən sonra kitabxanaçı işləyirdi.

Orta məktəbi bitirdikdən sonra 1951-ci ildə hərbi xidmətə çağırılır. Beş il hərbi xidmətdə olur. 1956-cı ilin yazında ordudan tərxis olunaraq doğma kəndə qayıdır. Maddi ehtiyac onu kolxozda işə girməyə məcbur edir, ali təhsil almaq arzusunu isə hələlik təxirə salmalı olur.

Savadına, biliyinə, güclü analitik, məntiqi düşünmə qabiliyyətinə görə hamıdan seçilirdi. Gözəl xətti vardı.

1956-cı ildə kəndin kitabxanaçısı vəzifəsinə təyin edilir. Bir neçə il sonra kənd klubunun müdiri olur. Bu vəzifədə 1988-ci ilin dekabr deportasiyasına qədər işlədi.

İlk vaxtlar kəndin klub və kitabxana üçün lazımi şəraiti olan inzibati binası yox idi. Müxtəlif illərdə kitabxana və klub məktəb binasında, kolxoz idarə heyətinin inzibati binasında yerləşdirilmişdi. Bu vəziyyətlə barışa bilməyən İsə Rəhim oğlu rayon rəhbərliyi qarşısında məsələ qaldırdı, heç kəsdən çəkinməyərək dəfələrlə respublika rəhbərliyinə müraciət etdi və istəyinə nail ola bildi. 1970-ci ildə kənddə müasir tələblərə cavab verə biləcək kitabxana və klub binası tikilərək istifadəyə verildi.

Qısa bir vaxtda Güney kənd klubu mədəni-maarif fəaliyyəti və asudə vaxtın təşkili üzrə tədbirlər hazırlamaqda və həyata keçirməkdə bütün bölgədə məşhurlaşdı. C.Cabbarlı adına İrəvan Dram Teatrının kollektivi, Azərbaycanın səhnə ustaları, musiqiçiləri, pəhləvanları bu kəndin vaxtaşırı və sevilən qonaqları idi.

İsə Ələsgərovun təşəbbüsü və gərgin əməyi sayəsində çox böyük potensiala malik özfəaliyyət kollektivi yaranmışdı. Bu kollektivin işində bədii istedadı olan hər kəs iştirak edirdi. Müəllim kollektivinin hazırladığı: Cəfər Cabbarlının "Sevil" pyesi, Ü.Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası əsasında "Məşədi İbad" adlı tamaşa, S.Vurğunun "Vaqif" dramı, şagird kollektivinin hazırladığı, S.Qədirzadənin "Şirinbala bal yığır" komediyası və səhnələşdirilmiş "Bığ" hekayəsi, kənd özfəaliyyət ansamblının konsertləri kimi tədbirlər bu gün də kənd camaatının şirin xatirələrində yaşamaqdadır. Kənddə istedadlı uşaqları, gəncləri arayıb-axtarır, onları üzə çıxarmaq üçün müsabiqələr təşkil edir, qalibləri rayon, respublika səviyyəsinə qaldırırdı.

Ali təhsil ala bilmədiyinə baxmayaraq kəndin və Sovetliyin bütün ictimai işlərinin iştirakçısı, təşkilatçısı və icraçısı idi. Gəlin köçəndə cehizlərin siyahısını tərtib etmək ancaq ona etibar edilirdi.

Gözəl təşkilatçılıq bacarığına malik, qarşısındakı ən mürəkkəb vəziyyətlərdən məharətlə baş çıxaran, hər kəslə ünsiyyət qurmağı bacaran, xeyirxahlığı ilə diqqət mərkəzində olan İsə Ələsgərov dəfələrlə kənd Sovetinin deputatı seçilmişdir. Uzun illər kolxoz nəzarət-təftiş komissiyasına rəhbərlik etmişdi.

Dünya futbolçularının tərcümeyi-halını, onların keçirdikləri oyunların nəticələrini, vurulan qolların müəlliflərini, oyunu idarə edən hakimlərin kimliyini, şahmat üzrə bütün dünya çempionatlarını, bu çempionatlarda dünya çempionu olmuş şahmatçıları, bir sözlə, futbola, şahmata aid nə varsa, hər şeyi yaddaşında saxlamaq bacarığına görə kənddə onu "səyyar ensiklopediya" adlandırırdılar. Həddsiz dərəcədə emosional və maraqlı idman fanatı idi. Televizorda futbol translyasiya ediləndə hamı çalışırdı ki, onunla bir yerdə futbola baxsın. Həmişə Bakının "Neftçi" komandasını izləyirdi.

Minlərlə başqa həmvətəni kimi, 1988-ci il deportasiyasının acılarını o da yaşadı, əvvəlcə Gəncədə məskunlaşdılar. Üç il orada yaşadıqdan sonra Bakı şəhərinə köçdülər.

Az bir vaxtda yaşadığı məhəllədə hamının sevimlisinə, ağsaqqalına, məsləhətçisinə çevrildi. Tanımadığı insanlarla belə ünsiyyət qurmaq bacarığı Tanrıdan ona bəxş edilən fitri bir istedad, ilahi vergi idi.Təmasda olduğu hər kəsin qəlbinə yol tapa bilir, böyüklə böyük, kiçiklə kiçik olmağı bacarırdı. Heç kəsi özündən narazı salmazdı. Zarafat etməyi, maraqlı xatirələr danışmağı sevərdi. Şifahi xalq ədəbiyyatının, aşıq sənətinin dərin bilicisi idi. Saatlarla Aşıq Alıdan, Xəstə Qasımdan, Aşıq Ələsgərdən şeirlər deyə bilirdi. Bütün Göyçəlilər kimi möhkəm saz həvəskarı idi. Hərdənbir asta-asta Aşıq Əkbərin ifasındakı mahnıları zümzümə edirdi.

Son illərdə səhhətində müəyyən problemlər yaransa da, bildirməməyə çalışırdı. Olduqca diqqətcil və həssas bir insan idi. Münasibəti olduğu insanların xeyir işindən qalmazdı. Dostun-tanışın kədərinə şərik olmağı özünə borc bilirdi.

Gümüş Nəsib qızı ilə əlli bir il ömür sürdü. Telman, Nofəl, Yasin adlı üç oğul, Flora, Sara, Həqiqət, Rübabə adlı dörd qız böyütdülər.

Məşhur ingilis dramaturqu Şekspirin müdrik fikirlərindən birini xatırlamaq istərdik: "Həyat bir səhnədir, insanlar isə aktyor. Burada hər kəs öz rolunu oynayır, kimi yaxşı, kimi pis". İsə Ələsgərov da öz rolunu oynadı və heç də pis oynamadı. Doğrusu isə budur ki, yaxşılar el-obanın, xalqın hörmət və məhəbbətini qazanırlar.

İSMAYIL HÜSEYN OĞLU ƏLİYEV

(22 iyun 1927, Sədənağac)

İlk təhsilini 1932-1939-cu illərdə Güney kənd yeddiillik məktəbində almışdır. 1939-1942-ci illərdə İrəvan Türk Pedaqoji Texnikumunu bitirmişdir. Mahalın Dərə, Pəmbək, Güney kənd yeddiillik məktəblərində müəllimlik etmiş və dərs hissə müdiri işləmişdir. Böyük Vətən müharibəsi başlayanda yaşına bir yaş da əlavə edərək, 1944-cü ilin yanvar ayında könüllü olaraq cəbhəyə yollanmışdır. Sovet ordusu sıralarında müharibəni Polşa cəbhəsində başa vurmuşdur. Sıravi əsgər kimi müharibəyə yollanan bu gənc, 1946-cı ilin noyabrında leytenant rütbəsində və əsgəri təltifatlarla ordudan tərxis olunmuşdur.

1948-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuş, təhsilini qiyabi davam etdirməklə Güney, Pəmbək, Şişqaya kəndlərində məktəb direktoru işləmişdir. 1948-ci ildə partiya sıralarına qəbul edilir və rayon partiya komitəsinə təlimatçı təyin olunur.



1954-1964-cü illərdə Basarkeçər rayonunda "Yüksək məhsul uğrunda" (Bolluq uğrunda) qəzetində redaktor vəzifəsində fəaliyyət göstərir. Güclü hafizəyə, yaddaşa malik olması, iti müşahidə qabiliyyəti, eyni zamanda rus və erməni dillərini mükəmməl bilməsi onu güclü qələm sahibi etdi. "Pravda", "İzvestiya", "Uçitelskaya qazeta" kimi ümumittifaq qəzetlərində, "Oqonyok" jurnalında aktual problemlərlə bağlı maraqlı məqalələr dərc etdirmişdir. 1959-cu ildə SSRİ jurnalistlər ittifaqına üzv olur.

1962-1964-cü illərdə Ermənistan KP MK-nın göndərişi ilə Bakı Ali Partiya Məktəbində təhsil alır. Təhsilini uğurla bitirib rayona qayıdır. Oxuduğu illərdə öz ağlı, düşüncəsi, səliqə-sahmanı ilə həm müəllimlərin, həm də tələbələrin böyük hörmətini qazanır. Tələbə yoldaşlarından Nüreddin İsmayılov, Teymur Əhmədov, Qəşəm Aslanov, Mayis Əhmədov və bir çox ziyalılarla çox yaxın, səmimi dostluq münasibətləri qurmuşdur.

Rayona qayıtdıqdan sonra, Ağkilsə kəndinə kolxoz idarə heyətinin sədri vəzifəsinə təyin olunur. Eyni zamanda jurnalist fəaliyyətini davam etdirərək "Sovet Ermənistanı", ümumittifaq "Pravda", "İzvestiya" və s. kimi mətbu orqanlarda məqalələr ilə çıxış edir. Müxtəlif vaxtlarda rayonun Nərimanlı, Şişqaya, Babacan, Pəmbək kəndlərində kolxoz idarə heyətinin sədri vəzifələrində çalışmış, 38 il rayon Sovetinin deputatı olmuşdu.

Bu illərdə bir təsərrüfat rəhbəri kimi partiya plenumlarında, seminarlarda, büro iclaslarında həmişə müzakirə edilən məsələlərdə özünün yüksək biliyini, nitq mədəniyyətini, natiqlik qabiliyyətini nümayiş etdirərək hamıdan fərqlənirdi.

Belə bacarıqlı, savadlı azərbaycanlı-türk kadrının olması rayon və respublika rəhbərliyindəki millətçiləri narahat etməyə bilməzdi. Ona qarşı elan edilməmiş "müharibə" başlayır, güclü təzyiqlərə məruz qalır, saxtakarlıq və böhtanla dolu iftiralar edilir və bunun nəticəsində, 1972-ci ildə vəzifədən uzaqlaşdırılaraq Güney kənd səkkizillik məktəbinə sıravi müəllim göndərilir. Bir neçə müddət müəllim işlədikdən sonra bu məktəbə direktor təyin edilir. Şəxsi bacarığı, qabiliyyəti və təşəbbüsü sayəsində səkkizillik məktəbi orta təhsil müəssisəsinə çevirə bilir. 15 ildən çox bu məktəbin direktoru vəzifəsində çalışır.

Güclü və yüksək qabiliyyətli bir pedaqoq kimi İsmayıl müəllim şagirdlərlə davranışında da hamıdan fərqlənirdi. Məktəbdə oxuduğum illər ərzində onun bir dəfə də olsun şagirdlərə səsini ucaltdığının və ya təhqir dərəcəsində əsəbiləşdiyinin şa-

hidi olmamışam. Olduqca böyük bir səbrə, daxili mədəniyyətə malik olan İsmayıl müəllim dərsə laqeydlik göstərənlərlə və ya öyrənməyə meyli olub, amma onu bacarmayanlarla söhbətində elə məntiqi ifadələr, təfəkkürə təsir edən sözlər tapıb işlədirdi ki, nəticədə öz xeyirxah məqsədinə nail ola bilirdi. Bu onun eyni zamanda gözəl pedaqoq-metodist, düşüncəli psixoloq olmasını sübut edirdi.

Olduqca gözəl xətti var idi. Həmişə yazılarına həsəd ararırdıq, çalışırdıq ki, azca da olsa xəttimizi onun xəttinə oxşadaq.

İsmayıl müəllimin sayəsində Güney kənd orta məktəbində yüzlərlə dərin biliyə malik məzunlar buraxılır ki, onların da əksəriyyəti aldıqları savad və bilik sayəsində ali təhsil müəssisələrinə qəbul olunurlar. İndi həmin şagirdlərin əksər hissəsi müxtəlif vəzifələrdə çalışır, elm sahəsində fəaliyyət göstərirlər.

İsmayıl müəllim doğma Göyçəni, onun zəngin təbiətini çox dəyərləndirirdi. Kənddə ən geniş, müxtəlifliyi ilə zəngin meyvə bağı salmışdı. Zəhmət çəkməyi çox sevərdi. Bu bağa, bütün işlərdə olduğu kimi, məharətlə, mütəxəssis kimi qulluq edirdi. Özü peyvənd edir, yeni alma, armud və digər meyvə sortları yetişdirirdi.

İsmayıl müəllim xarici görünüşünə görə də hamıdan fərqlənirdi. Uca boylu, ziyalılara məxsus davranışı, işıqlı siması olan bu insan həmişə son dəbdə, çox səliqəli geyinirdi.

Qayğıkeş bir ailə başçısı idi, altı övlad böyütdü, onların ali təhsil alması üçün əlindən gələni əsirgəmədi. Güney kəndindən ən birinci ali təhsil alan qadınlar sırasında duran, kitabxana işi sahəsində mükəmməl mütəxəssis olan Afaq xanım, səmimiliyi, mehribanlığı, istiqanlılığı ilə fərqlənən, əmtəəşünaslıq üzrə ali təhsil alan, rəhmətlik Şəfəq xanım, öz poetik, publisistik məqalələri, kitabları ilə xalqın sevimlisinə çevrilmiş, dərin zəkaya, geniş qəlbə malik, iti qələm sahibi Məlahət xanım, filoloq Mahirə xanım, respublikanın tanınmış və istedadlı rəssamlarından olan Əli İsmayıloğlu, həmişə mühüm dövlət vəzifələrində çalışan Vüqar müəllim bu gün İsmayıl müəllimin yolunu şərəflə davam etdirir, ona və əlli yeddi il ömür-gün yoldaşı olduğu Süsənbər xanıma layiqli övlad olduqlarını sübut edirlər.

Dağlıq Qarabağ hadisələri ilə əlaqədar 1988-ci il deportasiyasından sonra ailəliklə doğma el-obasından ayrı düşən İsmayıl müəllim Bakı şəhərinə pənah gətirdi və burada məskunlaşdı. Respublikanın mətbuat orqanlarında, o cümlədən, "Qarabağ", "Vətən səsi", "Kəndin səsi", "Azərbaycan", "Aydınlıq" və s. kimi qəzetlərdə işlədi, erməni yalanlarına qarşı (İsmayıl Hüseynoğlu adı ilə) dəyərli məqalələr yazdı. Erməni məkrini, rus-erməni şovinizmini, onların saxtakarlıqlarını açıb ortaya tökdü. İsmayıl müəllim Ermənistandakı mühiti, "Daşnaksütyun" və "Qnçaq" partiyalarının fəallarını, qatı millətçiləri çox gözəl tanıyırdı. "Xilasımız nədədir", "Göyçə həsrəti - Göyçə niskili","Oxucu sözü", "Oxucu iradı", "Təxribatçılığa qarşı nə etməli?", "Mən kiməm - Azər-

baycanlı, yoxsa Türk", " Nədən narahatam" və s. kimi onlarca məqalə və publisistik yazılarında bu gün Azərbaycanın düçar olduğu problemlərdən, Qərbi Azərbaycanın acı taleyindən, Qarabağ düyününün açılması yollarından bəhs edir.

İsmayıl müəllim ömrünün son illərində ürəyini çox yüklədi. Onu heç yazığı gəlmədən çalışdırdı, vətən həsrəti, Göyçə nisgili ilə yandırdı. Ürək dözə bilmədi, tarixin bu ədalətsiz hərəkətləri ilə barışmadı, vaxtsız susdu, dayandı. Bu gözəl insan, əsil ziyalı və dönməz vətənpərvər, bir sözlə Böyük şəxsiyyət, 2010-cu il may ayının 11-də, baharın güllü-çiçəkli və təravətli çağında dünyasını dəyişdi.

İsmayıl müəllim dünyasını dəyişsə də, insanlığına, kişiliyinə, ziyalılığına görə həmişəyaşardır. Keçib gəldiyi həyat yolu, yaşadığı şərəfli ömür onu eloğullarının xatirəsində əbədiləşdirdi.

MƏCNUN SAYAD OĞLU İBRAHİMOV

(1926, Sədənağac)



Dərin zəkası, istedadı və bacarığı ilə el-oba sevgisini qazanmış, Göyçə mahalının ictimai-siyasi həyatında qeyrət və dəyanət sahibi kimi tanınan Məcnun İbrahimov mənalı bir ömür yaşadı. Sovet hakimiyyətinin ilk illərində savadsızlığın ləğv edilməsi ilə əlaqədar olaraq Sədənağac kəndində əvvəlcə ibtidai, sonralar isə səkkizillik məktəb açıldı. Müəllimlərin bir çoxu kənd sakinlərindən idi. Onlardan biri də bu kənddə doğulmuş Məcnun Sayad oğlu İbrahimov olmuşdu.

Əvvəlcə Qazax, sonralar isə Nuxa Pedaqoji Texnikumunda təhsil alan bu gənc 1944-cü ilin dekabrınadək kənd səkkizillik məktəbində müəllim işlədi. 1944-cü ilin dekabrından 1946-cı ilin mart ayınadək Sovet Ordusu sıralarında xidmət etdi. Ordudan tərxis olunduqdan sonra 1948-ci ilin sentyabrınadək Sədənağac kənd məktəbində müəllim, 1948-ci ilin sentyabrından 1953-cü ilin noyabrınadək həmin məktəbin direktoru vəzifəsində işləmişdir. Kənddə işlədiyi illərdə öz səmimiyyəti, qayğıkeşliyi ilə hamının dərin hörmətini qazanmışdır.

İstedadlı bir pedaqoq olmaqla bərabər, həm də gözəl xətti ilə bütün müəllimlərdən seçilən Məcnun müəllim, şagirdlərin sevimlisinə çevrilmişdi. Məktəbdə bütün

şagirdlər yazılarını onun xəttinə bənzətməyə çalışırdılar. Kənd ağsaqqalları onu özlərinə övlad gözündə görər, dərdlərini ona açar, məsləhəti ondan alardılar. Onda şəhər mədəniyyəti, kənd abır-həyası, dərin savad, cazibədar görkəm var idi. Öz səliqə-sahmanı ilə hamıdan seçilirdi.

Onun kənd arasındakı hörməti və nüfuzu az bir zamanda rayonun digər kəndlərinə də yayılır və 1953-cü ilin noyabrında rayon xalq maarif şöbəsinin müdiri təyin edilir, 1959-cu ilin noyabrınadək bu vəzifədə işləyir.

Tutduğu vəzifələrdə fədakarlıqla çalışmasına baxmayaraq təhsil almağı da unutmurdu. 1957-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu qiyabi bitirmiş, 1962-ci ilin sentyabrından 1964-cü ilin sentyabrınadək Bakı Ali Partiya məktəbində oxumuşdur.

1959-cu ilin noyabrından 1962-ci ilin avqustunadək Basarkeçər rayon partiya komitəsinin üçüncü katibi və ikinci katibi vəzifəsində işləmişdir. 1964-cü ildən 1965-ci ilədək Rayon kənd təsərrüfatı istehsalat partiya komitəsinin inspektoru olmuş, 1965-ci ildən 1974-cü ilin oktyabrınadək Şişqaya kənd orta məktəbinin direktoru vəzifəsində işləmişdir. 1974-1976-cı illərdə Pəmbək kənd orta məktəbinin direktoru olmuşdur.

1976-cı ildən ömrünün sonunadək Kiçik Məzrə qiyabi orta məktəbinin direktoru işləmişdir.

Məcnun İbrahimov rayonun ictimai-siyasi həyatında fəal iştirak edirdi. O dəfələrlə rayon partiya komitəsinin üzvü seçilmiş, kənd və rayon xalq deputatları Sovetinin deputatı olmuşdur.

Dövlət onun xidmətlərini yüksək qiymətləndirmiş, dörd medalla təltif edilmiş, Əməkdar müəllim adına layiq görülmüşdür.

Məcnun müəllim mehriban, qayğıkeş bir ailə başçısı olmuşdur. Dərin hörmət bəslədiyi həyat yoldaşı Səmayə Cavad qızı ilə birlikdə üç oğul, doqquz qız böyütmüş, onların hər birinin ev-eşik, ailə sahibi olması üçün əllərindən gələni etmişlər.

Məcnun Sayad oğlu 8 oktyabr 1987-ci ildə, 61 yaşında, qəflətən, öz şəxsi minik avtomobilinin sükanı arxasında yol gedərkən ürəyi döyünməkdən qalmışdı.

Dünyasını dəyişdikdən sonra elə insanlar olur ki, az vaxtdan sonra unudulur. Dərin zəkası, istedad və bacarığı, el-obasına tükənməz məhəbbəti ilə öz xalqına ləyaqətlə xidmət edənlər xalqla birgə ucalır, xalqla birgə yaşayırlar. Məcnun müəllim də Göyçə insanının qəlbində özünə əbədi yer tutmuşdur.

XASAY ABBAS OĞLU ŞƏRİFOV

(1935, Güney)



Qoynunda bəslədiyi insanlardan heç nəyini əsirgəməyən, əsrarəngiz təbiətindən, flora və faunasından hər bir insana pay vermiş qədim Göyçə torpağının indiyədək yetişdirdiyi loğmanların sırasında mənəvi və zahiri gözəlliyini, zəngin daxili dünyasını Ulu Göyçənin qarlı dağlarından, şəffaf bulaqlarından, təbiətin sirlərini onun qarlı-yağışlı, dumanlı-günəşli fəsillərindən öyrənən loğmanlarımızdan biri də Xasay həkimdir.

Xasay Abbas oğlu Şərifov 1943-cü ildə ibtidai təhsilini kənd məktəbində almış, 1946-cı ildə ailəsi Şəmkirin Qapanlı kəndinə köçdüyündən təhsilini orada davam etdirərək, 1951-ci ildə 8-ci sinfi bitirmişdir. Maddi məhrumiyyətlərlə böyüyən bu gənc yeniyetmənin ən böyük arzusu tezliklə bir peşə sahibi olmaq, işə girmək və ailəyə dayaq olmaq idi. Buna görə də 1951-ci ildə 8-ci sinfi bitirdikdən sonra N.Krupskaya adına Gəncə Tibb Texnikumuna daxil olmuşdur.

1955-ci ildə texnikumu bitirdikdən sonra Şəmkir stansiyasındakı xəstəxanada feldşer kimi əmək fəaliyyətinə başlamışdır. Ali təhsilli həkim olmaq arzusu onu 1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə gətirdi.

1965-ci ildə institutu bitirdikdən sonra təyinatla Şəmkir rayonunun Dəllər-Cırdaxan kəndində 31 saylı kənd xəstəxanasının müdiri vəzifəsinə təyin edildi. Az bir zamanda effektiv və müsbət nəticəli müalicələri ilə savadlı, təcrübəli terapevt-həkim kimi rayonda məşhurlaşmış, 1967-ci ildə Şəmkir rayon poliklinikasına terapevt-həkim təyin edilmişdir.

1969-cu ildə rayon həkim-əmək komissiyasının sədri vəzifəsində işlədi.

1970-ci ildən Şəmkir rayonu mərkəzi xəstəxanasının baş həkimi vəzifəsinə təyin edilir. Bu vəzifədə on il çalışdı. Rayon xəstəxanasına başçılıq etdiyi müddətdə bütün fəaliyyətini əhalinin sağlamlığına yönəltdi. Dəfələrlə rayon Sovetinin deputatı seçildi.

1980-ci ildə zona üzrə üç rayonun əhalisinə xidməti nəzərdə tutulmuş, 61 çarpayılıq yoluxucu xəstəliklər xəstəxanasının baş həkimi təyin edildi. Bu vəzifədə 20 il, 2010-cu ildə təqaüdə çıxana qədər çalışdı.

Hazırda Şəmkir şəhərində yaşayır. 4 övlad böyüdüb, 11 nəvəsi, 10-dan artıq nəticəsi var.

ZİYAD ƏLİ OĞLU ŞƏRİFOV

(1914, Sədənağac)



Kənddə 1930-cu ildə təşkil edilmiş ilk ibtidai məktəbdə təhsil almışdır. Daha sonra texnikum təhsili almış və rayonun məktəblərində müəllimlik etmişdir. Böyük Vətən müharibəsi başlayanda cəbhəyə yola düşmüşdür. 1942-ci ildə döyüşlərdə ağır yaralandıqdan sonra tərxis olunaraq rayonun təsərrüfatlarında rəhbər vəzifələrdə çalışmışdır. 1943-1945-ci və 1949-1952-ci illərdə Güney kənd, 1945-1949-cu illərdə Qaraiman kənd, 1952-1955-ci illərdə Zod kənd, 1955-1959-cu illərdə İnəkdağı kənd kolxoz idarə heyətinin sədri vəzifələrinə seçilmişdir.

Tutduğu bütün vəzifələrdə yüksək təşkilatçılıq və işgüzarlığı ilə fərqlənmişdir. Müharibənin qızğın vaxtında işçi qüvvəsinin azlığına baxmayaraq səfərbərədici nüfuzunun hesabına rayon üzrə yüksək məhsuldarlığın təmin edilməsinə nail olmuşdur. Rayonda birinci olaraq növbəli əkin sistemini rəhbərlik etdiyi təsərrüfatlarda sınaqdan keçirmişdir.

Ziyad Əli oğlu bacarıqlı təsərrüfat rəhbəri olmaqla yanaşı, eyni zamanda rayonun ictimai həyatının fəal iştirakçılarından idi. Onun təşəbbüsü ilə əhəmiyyətli, vacib məsələlər, rayon büro, plenum iclaslarında, rayon Sovetinin sessiyalarında müzakirəyə qoyulur, müvafiq qərarlar qəbul edilirdi.

Təsərrüfatlara rəhbərlik etdiyi dövrdə ali təhsil almağı da unutmadı. Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini qiyabi bitirdi.

Təqaüdə çıxdıqdan sonra qonşu Şişqaya kənd istehlak kooperasiyası idarə heyətinin sədri vəzifəsinə seçildi. Bir neçə il orada işlədikdən sonra Güney kənd səkkizillik məktəbində dərs hissə müdiri təyin edildi və bir neçə il bu vəzifədə çalışdı.

Qayğıkeş ailə başçısı olaraq altı oğul, üç qız böyütdü. 1974-cü ildə vəfat etdi və Gəncənin İmamzadə qəbiristanlığında dəfn olundu.

YARADICI ELOĞLULAR

CEYHUN İSA OĞLU DÜNYAMALIYEV

(25 fevral 1984, Güney)



Ceyhun İsa oğlu Dünyamalıyev zəhmətkeş bir ailədə dünyaya göz açmışdır.1988-ci il deportasiyasında bu ailə Şəmkirin Ələsgərli kəndində məskunlaşdı. Ceyhun 2003-cü ildə kənd orta məktəbini bitirmişdir.

2006-2010-cu illərdə Gəncə Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Hazırda Ələsgərli kənd tam orta məktəbində müəllim işləyir.

Samux rayonunun Füzuli kəndindən Nurlana Qəzənfər qızı ilə ailə qurub. Elif və Sevinc adlı iki azyaşlı qızı var.

Ceyhun şeir yazmağa gənc yaşlarından başlayıb. Şeirləri "Ölməzlik hekayələri", "Ziya", "Zirvələr", "Səs, söz, rəng", "Zirvəyə aparan yollar" topluların-da və mətbu orqanlarda dərc olunub.

Çox bəyəndiyim bir şeirini oxucularımızın diqqətinə çatdırıram.

Biz olduq əzəldən nəisə naşı,
İtirdik baharı, qaytardıq qışı.
Yağdı damla-damla hicran yağışı,
Vüsala göz yumub ayrılırıq biz.

Çoxları gizlicə anırdı bizi,
Həyat yollarımız ayırdı bizi,

Ağrıdan əzabdır ağrıdır bizi,
Yanıb içimizdə qovruluruq biz.

Mən səni duysam da duymadın məni,
Sevincə, şadlığa qıymadın məni,
Bu dəfə sən saya saymadın məni,
Vaxt olar hər zaman sayılarıq biz.

Qısqanclıq sevgidən əlamət ancaq,
Sevgi saf şüşədir, bilmə qab-qacaq.
Həyatla oynama deyil oyuncaq,
Aldada, aldada aldanırıq biz.

ELMİBƏY ƏLİ OĞLU ƏLİYEV

(1986, Güney)



Rəssam Əli İsmayıl oğlunun ailəsində dünyaya göz açmışdır. Birinci sinfə Bakının Sabunçu rayonunun Ramana qəsəbəsindəki 90 saylı məktəbə getmiş, tam orta təhsilini isə Bakıxanov qəsəbəsində 80 saylı orta məktəbdə başa vurmuşdur. Hələ orta məktəbin 7-ci sinfindən Sabunçu Rayon İcra Hakimiyyəti mədəniyyət şöbəsinin nəzdindəki rəssamlıq dərnəyində 3 il bu sənətin sirlərinə yiyələnmişdir.

2003-2008-ci illərdə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin rəngkarlıq fakültəsində təhsil almışdır.

Orta məktəbin 10-cu sinfində oxuyarkən, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Dədə Qorqud cizgi filminin çəkilişində rəqəmsal rəssam vəzifəsində ilk əmək fəaliyyətinə başlamışdır. Rəssamlıq məktəbində təhsil aldığı dövrdə RAF poliqrafiya xidmətləri mərkəzində təcrübəçi dizayner kimi fəaliyyətə başlamış, sonralar "Respublika" qəzetində dizayner səhifələyici, bir müddət sonra isə İndigo mətbəəsində Senior Dizayner vəzifəsində çalışmışdır.

Rəssamlıq məktəbini bitirdikdən sonra müxtəlif vaxtlarda Prestij MMC, KARAT, ATANUR, Genna Baku, Fatiyev studio, Setline studio agentliyində, STP (Sumqayıt

Texnologiya Parkı),"Bakı abadlıq" kimi şirkət və agentliklərdə senyor dizayner, Art director və Creative Director vəzifələrində işləmişdir.

2012-ci ildə təsis etdiyi KHAKI group və Bay studio şirkətlərində təcrübəli dizayner kimi MMC BTF (Bakı Tekstil Fabriki), Yanar MMC, Web coder agency, Shahdag compleksi, Orxideya gözəllik mərkəzi və onlarla digər şirkət və qurumların dizayn layihələrini həyata keçirmişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən vergi, rüsum, cərimə, icarə haqqı və digər büdcə ödənişlərinin, eləcə də kütləvi xidmət müəssisələri üzrə ödənişlərin ən müasir ödəniş mexanizmlərindən istifadə edilməklə toplanılması üçün yaradılmış Hökumət Ödəniş Portalının loqotipinin yenilənməsi məqsədi ilə keçirilmiş açıq müsabiqənin çoxsaylı iştirakçıları arasında qalib gələrək onların loqo və korporativ tərzinin müəllifi olmuşdur. Elmibəy Əli oğlu eyni zamanda Azərbaycan Rabitə İnformasiya və Nəqliyyat Nazirliyinin də loqo və korporativ tərzinin müəllifidir.

Hazırda Azərbaycanda ilk dizayn məktəbinin "Azerbaijan Digital Arts School (ADAS)" həmtəsisçisi, layihənin ideya müəlliflərindən biri olaraq, qrafik dizayn fakültəsinin qrafik dizayn əsasları ixtisasının müəllimidir.

Elmibəy Əli oğlu 400-dən çox korporativ, 100-dən çox yaradıcı işin müəllifidir. 2018-ci ildən Yeni Göyçə mahalı adlı seriya illüstrasiyaları üzərində çalışmalarını davam etdirir.

Evlidir. Bir qız övladı var.

ƏLİ İSMAYIL OĞLU ƏLİYEV

(1960, Güney)

Göyçə mahalının yaradıcılıq simləri üstə köklənmiş istedadlardan olan, təsviri sənət aləmində tanınmış bir rəssam haqqında nəsə yazmaq istərkən, bu sahəyə zəif bələd olduğumdan, fikirləşirdim ki, rəssamın qısa tərcümeyi-halını təqdim etməklə kifayətlənim. Bu əsnada əlimə illərin təsirindən saralmış bir fotoşəkil keçdi.

Güllü-çiçəkli bir çəməndə 12-13 yaşlı bir qız əlləri ilə aşırmalı şalvar geymiş, başları təzəcə qırxılmış 2-3 yaşlı iki oğlan uşağının çiyinlərindən tutur, sanki yıxılmağa qoymur. Uşaqların hər ikisi diqqətlə qarşıda bir nöqtəyə, yəqin ki, fotoaparatın obyektivinə baxırlar. Üzlərində bir sevinc, təbəssüm var. Hər halda şəkil çəkdirdiklərinə sevinirlər.

Bu aşırmalı şalvar geymiş uşaqlar bir yerdə böyüdülər, məktəb yaşları çatanda eyni vaxtda birinci sinfə getdilər, bir sinifdə oxumağa başladılar. Əvvəlcə ayrı-ayrı partalarda oturmaqlarına baxmayaraq, köhnə tanışlar kimi bütün boş vaxtlarını bir yerdə keçirir, yaxın qonşu olduqlarından çox vaxt ev tapşırıqlarını da bir yerdə hazırlayırdılar.



Üçüncü sinifdə oxuyanda sinif rəhbəri onların yaxın münasibətlərini və dəcəlliklərini nəzərə alıb hər ikisini müəllimin önündəki birinci partada əyləşdirdi. Belə yerdəyişmənin gizli bir səbəbi də var idi. Müəllim bütün fənlərdən əla qiymətlər alan, ancaq hədsiz nadincilikləri ilə başqalarından fərqlənən bu iki şagirdi daimi diqqət mərkəzində saxlamaq istəmişdi. Orta məktəbi bitirənədək bir parta arxasında oturdular. Çox vaxt dərsə tənbəllikdən ikisinə bir kitab gətirirdilər. Bəzən yazı yazanda qolları ilə bir-birini vuraraq astadan "pıqqıldaşır", sinifdə şən əhval-ruhiyyə yaradır, başqalarının da gülüşünə səbəb olurdular. Hərdənbir nadincliyə görə cəza alır, dərsin sonuna qədər lövhənin önündə ayaq üstə dururdular. Müəllim oturmağa icazə vermirdi. Bu minvalla orta məktəb illəri gəlib keçdi. Hər biri öz seçdiyi həyat yolu ilə addımladı, biri Rusiyanın qarlı-şaxtalı qışını seçdi, digəri isə günəşli Bakını. Fərqli iş-peşənin dalınca getdilər.

O vaxtdan 50 il keçib. Fotoşəkildəki uşaqların hər ikisi indi ağsaçlı babadır. Onların biri bu sətirlərin və bu kitabın müəllifi, digəri isə rəssamlıq sənətində özünə böyük şan-şöhrət qazanmış, Azərbaycanın istedadlı fırça ustası, məhsuldar və geniş diapazonlu yaradıcılığa malik olan, istedadlı rəssam Əli İsmayıl oğludur.

Əli İsmayıl oğlu Əliyev (11 iyul 1960-cı il, Güney) ziyalı ailəsində dünyaya göz açmışdır. Güney kənd orta məktəbini 1977-ci ildə bitirmişdir. Hələ orta məktəb illərində rəsm çəkməyə meyil salmışdı. Məktəbin divar qəzetində bədii tərtibat işlərini aparır, öz əl işi ilə seçilirdi. Orta məktəbin 7-ci sinfində oxuyanda rəssam olacağına qəti qərar vermişdi.

Ailədə dörd qız övladından: bacıları Afaq (fotoşəkildəki uzun saçlı, qoşa hörüklü qız), Şəfəq, Mahirə və Mələhətdən sonra dünyaya gəlmiş Əlini uzun illər partiya və dövlət vəzifələrində çalışan atası İsmayıl müəllim, anası Süsənbər xanım dövlət məmuru kimi görmək istəyirdilər. Lakin oğlunun inadlı yaradıcılıq meylinə qarşı çıxmadılar, ona mənəvi dayaq oldular. Geniş ensiklopedik biliyə, erudusiyaya malik, dövrünün ziyalılıq zirvəsinin başında duran İsmayıl müəllim, ona vizual sənətin incilərini seçmək, incəsənəti təhlil etmək bacarığı aşıladı, rəssam kimi peşəkar düşüncə tərzinin formalaşmasında yaxın məsləhətçi oldu.

Əli İsmayıl oğlu orta məktəbi bitirdikdən sonra Bakıya gəldi və 1977-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil oldu.

1978-1980-ci illərdə Murmanskda hərbi xidmət etdi, təhsilini ordudan tərxis olunduqdan sonra davam etdirdi.1983-cü ildə rəssamlıq məktəbini bitirib, ali təhsil

dalınca getdi və M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rəssamlıq fakültəsinə qəbul olundu.

Ali təhsilini başa vurub (1989) "Azərbaycanfilm" kinostudiyasında animasiya filmləri üzrə rəssam, quruluşçu rəssam və quruluşçu rejissor olaraq çalışmağa başladı. 2009-cu ildən isə Azərbaycan Dövlət İqtisad Universitetinin "Dizayn" kafedrasında müəllim işləyir.

Xidməti fəaliyyətlə yanaşı daimi olaraq yaradıcılıqla da məşğuldur. Müxtəlif illərdə kitab qrafikası və tərtibatı ilə məşğul olmuşdur. Eyni zamanda 2005-ci ildən başlayaraq respublika əhəmiyyətli bütün dövlət tədbirlərinin dizayn işlərinin fəal iştirakçısı olmuşdur.

Bütün həyatını rənglər dünyasına bağlamış rəssam Əli İsmayıl oğlunun yaradıcılığı, sənətkarlıq və rəssamlıq üslubunun orijinal və özünəməxsus olduğu barədə fikir var. Doğrudan da əsərləri mövzu dairəsinin zənginliyi, koloriti, kompozisiya həllinin müxtəlifliyi ilə seçilir. Çəkdiyi əsərləri bədii forması, obrazlar baxımından, yaradıcılıq metodu və ifadə tərzinə görə realist xarakter daşıyır. Əsasən peyzaj janrında çalışır. Ancaq bu gün onun yaradıcılığında Azərbaycan incəsənətində çox nadir rast gəlinən natürmort-mənzərə janrı üstünlük təşkil edir. Bu janrda da onun öz dəst-xətti var. Yaratdığı sənət əsərlərində kilim, cecim, farmaş, xalça, xurcun kimi dekorativ-tətbiqi sənət nümunələrindən geniş şəkildə istifadə etməklə, natürmort ilə mənzərə arasında bir-birinə bağlılıq, əlaqə yaradır və vətənin misilsiz gözəlliyə malik təbiətini bu janra sintez edir. Bu da onun yaratdığı əsərləri fərdiləşdirir, bənzərsiz və təkrarsız edir. Eyni zamanda yaradılan kompozisiyalar vahid bir vəhdət təşkil edir və rəssamın öz yaradıcılığında yeni bir zirvəyə yüksəlməsinə şahidlik edir.

Rəssamı fərdiləşdirən cəhətlərdən biri də yaratdığı əsərlərdə qədim türk simvollarının onun çəkdiyi naxışların üzərində özlərinə yer tapmasıdır. Bəzən də rəssam bu naxışları bütün Türk-Oğuz ellərinin üzərinə səpələyir, elə bil ki, hər qarış torpağa türkün möhürünü vurur, bu torpaqların türkə məxsus olduğunu qeyd edir. Bu da doğulduğu torpağın faciələrini qəlbində yaşadan rəssamın zəngin təxəyyülünün, türkçülüyə olan böyük məhəbbətinin və Azərbaycan etnoqrafiyasını mükəmməl bilməyinin məhsuludur.

Əli İsmayıl oğlunun yaradıcılığında əsas iş yeri, yaradıcılıq yeri təbiətin qoynudur. Fəsillərə, hava şəraitinə baxmayaraq doğma Azərbaycanı qarış-qarış gəzir, onun əsrarəngiz gözəlliyə malik təbiətinin sirrini tapmağa çalışır. Məhz buna görə də onun əsərləri daha canlı, daha real və cazibədardır.

Əli İsmayıl oğlunun yaratdığı "Vətən -1988", "Göyçə gölu", "Qoca dağ" , "Qərbi Azərbaycan", "Üçdaş", "Kəpəzin göz yaşları" əsərləri rəssamın öz torpağına, öz vətəninə və xalqına nə qədər bağlı olduğunu göstərir. Bundan başqa, əsərlərdəki irrasionallıq, standartlardan kənara çıxmaq xarakteri, öz üslubuna daima meyllilik xüsusiyyəti rəssamın sürreal üslubunun təzahürüdür.

Xatırlayıram ki, 500-ə yaxın mövzu, janr etibarilə müxtəlif və rəngarəng əsərlərindən ibarət bədii irsi 2002-ci ildə keçirdiyi fərdi yaradıcılıq sərgisində ictimaiyyətin diqqətini cəlb etdi. Professional səviyyəsinin yüksəkliyinə, orijinallığına görə incəsənət həvəskarlarının rəğbətini qazandı, mütəxəssislərin müsbət rəyini aldı. Bilirəm ki, onun əsərləri mütəmadi olaraq toplanır, ölkə və beynəlxalq rəssamlıq sərgilərində nümayiş etdirilir.

Gözəllik aşiqi olan bu sənətkarın yaradıcılığı haqqında qısa bir yazıda bacardığımı göstərə bildim. Necə alındığı onun əsərləri ilə tanış olan oxucuların mühakiməsinə verilir. Sədənağac kənd camaatının fəxrlə "bizim rəssam" deyə müraciət etdikləri Əli İsmayıl oğluna yaradıcılıq uğurları arzulayaraq bu yazını bitirmək istəyirəm. Ecazkar rənglər dünyasının mahir bilicisindən isə göy qurşağının rənglərinə boyanmış duyğularının təcəssümünü ifadə edən yeni-yeni şah əsərlər yaratmağı arzulayıram.

MƏLAHƏT İSMAYIL QIZI ƏLİYEVA

(11 avqust 1956, Güney)



Ziyalı ailəsində doğulmuşdur. 1974-cü ildə Güney kənd orta məktəbini bitirib. Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinin məzunudur (1979). Həmin vaxtdan kitabxanaçı işləyir. Hazırda Bakının Sabunçu rayonunda 4 saylı tam orta məktəbdə kitabxana müdiridir.

Məlahət xanım, Göyçənin tanınmış ziyalısı, uzun müddət Göyçə mahalında dövlət orqanlarında, təsərrüfatlarda rəhbər vəzifələrdə çalışmış, 1959-cu ildən media sahəsi ilə bağlı olmuş ünlü jurnalist İsmayıl Əliyevin qızı olaraq, bu gün atasının yolunu uğurla davam etdirir. Vaxtaşırı mətbuatda müxtəlif mövzularda yazılarla çıxış edir. Publisistik düşüncələrdən ibarət "İtirilmiş Cənnət, yaxud Göyçə Rəmzləri" (2015), "Göyçənin rəmzi Göyçə gölüdür" (2017) kitablarının müəllifidir.

2017-ci ildə Azərbaycan Jurnalistlər, 2018-ci ildə isə Azərbaycan Yazıçılar birliyinə üzv qəbul edilən Məlahət İsmayılqızı yaradıcılığında bu gün yağı düşmən tapdağı altında qalmış, müvəqqəti itirilmiş torpaqlarımızın geri qaytarılacağını, ürəkləri vətən həsrəti ilə yanan bütün Göyçəlilərin öz ata-baba ocağına qovuşmaq arzusunun reallaşacağını, o xoşbəxt günün gələcəyini böyük bir inam hissi ilə əks etdirir.

Vətən həsrəti, Göyçə nisgili, Yurd-Torpaq və Ocaq sevgisi, Ata-Ana həsrəti onun həyat kredosudur, amalının lakmus kağızıdır.

Məlahət İsmayılqızı yüksək vətəndaşlıq mövqeyi, vətən əxlaqı, humanizmi və mənəvi təmizliyi ilə başqalarından fərqlidir. Onun şəxsiyyətində parlaq təfəkkür, ensiklopedik erudisiya və kamil insanlıq keyfiyyətləri cəmləşmişdir. Yazdığı kitablar onun işıqlı təfəkkürünün genişliyini, zəngin, müstəsna söz ehtiyatına malik olduğunu göstərir.

Məlahət xanım qayğıkeş ana olaraq, həyat yoldaşı Yadigar Əjdər oğlu ilə iki övlad böyüdüb boya-başa çatdırıblar. İndi də bir valideyn kimi oğlu Fərid bəyin və qızı Lamiyə müəllimənin xoşbəxt olduqlarını görmək arzusu ilə döyünən kövrək duyğulu ürəyinin tələtümündən güc alaraq, günün birində əzəli və əbədi sevgisi Ulu Göyçəyə dönmək, Qarabağ və bütünlüklə bütün o taylı, bu taylı Azərbaycan arzusuyla arzularına qovuşmaq üçün əlindən gələni əsirgəmir.

SARA QASIM QIZI ŞƏRİFOVA
(SARA GÖYÇƏLİ)

(8 fevral 1962, Güney)



Tanrının yaratdığı gözəllik simvolu Göyçə gölünün pıçıldaşan ləpələrinin, güllü-çiçəkli, göylərlə qovuşmaq üçün başını dik tutan uça dağlarının nisgili ilə yazıb-yaradan şairə Sara Göyçəli (Sara Qasım qızı Şərifova) bir qış günündə sazlı-sözlü Göyçənin ayağı ləpəli, başı qarlı Sədənağac (Güney) kəndində dünyaya göz açmışdır.

Körpə yaşlarından atasız qalaraq, çoxuşaqlı bir ailədə, anası Şövkət xanımın himayəsində böyümüşdür. Sara Qasım qızı 1979-cu ildə Güney kənd orta məktəbini bitirdikdən sonra Bakıya gəlmiş, çertyojçu-konstruktor, mühasib və tibb bacısı peşələrinə yiyələnərək müstəqil həyata başlamış, mətbuatla əməkdaşlıq etmiş, qəzet və jurnallarda çap olunmuşdur. İlk şeirini 1970-ci illərin sonlarında yazmışdır.

Sara Göyçəli milli poeziyamızda öz səsi, sözü ilə yer tutmuş şairədir. Onun özünəməxsus şirin ləhcəsi, Göyçə şivəli deyim və ifadə tərzi var. Yazdığı şeirlərin əksəriyyəti öz axıcılığı ilə seçilir. Şairənin yaradıcılığında doğma "Göyçəsi" başlıca yer

tutur. Hər kəlməsindən, misrasından Göyçə xiffəti, Göyçə nisgili duyulur. Ulu Göyçə yurduna vurğunluğu, böyük sevgisi qabarıq şəkildə nəzərə çarpır, hiss olunur. Göyçənin, doğma Sədənağac - Güney kəndinin adını dünyaya car çəkir, külli-aləmə bəyan edir, bu cənnət diyarına sonsuz məhəbbətini mübaliğəsiz demək mümkünsə, bütün yaradıcılığında tərənnüm edir:

Tərifə layiqdir Göyçə dağları,
Dərmandır xəstəyə göy yaylaqları.
Heç yaddan çıxarmı buz bulaqları,
Dönüb o yerlərə gəlmək istərəm.

Qoca dağım çox dağlardan ucadır,
Uca dağlar təpəsində bacadır,
Görən varmı, Güney kəndim necədir,
Soruşub halını bilmək istərəm.

Olardı toy-düyün yurdumun yazı,
Ötərdi məclisdə sədəfli sazı,
Gözəllər edərdi ədayla nazı,
Onlarla işvə-naz bölmək istərəm.

Qalıbdır yağıya Göyçə mahalı,
Olubdur sinələr onsuz yaralı...
Qərarsız Sarayam, Güney maralı,
Başına dolanıb, ölmək istərəm.

Qafiyələrdəki həmahənglik, misralardakı sözlərin şirinliyi yazdığı şeirləri yadda qalan, unudulmaz edir. Bütün şeirlərinin "mayası" Vətənə məhəbbətdən, boya-başa çatdığı elə-obaya sevgidən, insanın mənəvi ucalığından yoğrulmuşdur. Şairənin poeziyası insanların qəlbinə yol tapan kövrək, lakin davamlı, oxucusunu uzun müddət təsir altında saxlamağı bacaran bir poeziyadır.

Hakim ol qəlbinə yazıqdı, yazıq,
Bu yolda nə qışıq, nə də ki, yazıq,
Biz incə tellərdə çalınan sazıq,
Ruhumuz alovsuz qovrulub gedir.

Eşqin dəryasında ara öz kamın,
Duzsuz olsa sevgin itirər tamın,
Allahın əlində şirin vüsalın,
Ağac öz içindən ovulub gedir.

İki şeir toplusu nəşr olunub. Şeirləri "Bənövşə çələngi", "Sözün sorağında", "Turan Mübarizi", "Aşıq Pəri İncilər", "Turan Antologiyası" və "Əsrin Ziyalıları" almanaxlarında yer alıb.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında işləyir və "Aşıq Pəri Məclisi" ozan sənətinin təbliği birliyinin üzvü kimi ədəbi fəaliyyətini davam etdirir.

"Qızıl Qələm" və "Xan qızı Natəvan" media mükafatları laureatıdır.

Bir sıra şeirləri Macar və Rus dillərinə tərcümə olunub.

Yaradıcılıqla yanaşı, Sara xanım respublikanın ictimai həyatının fəal iştirakçısıdır. 2006-cı ildən Respublika Qadınlar Cəmiyyətinin üzvüdür. Sara xanım 2010-cu ildə Dünya Azərbaycanlıları Konqresinin üzvü və onun Qadınlar şurasının sədrinin müavini seçilmişdir.

Öz həmkəndlisi, Azərbaycan Milli Ordusunda şanlı xidmət yolu keçmiş, hazırda təqaüddə olan polkovnik-leytenant Əlif Cəmil oğlu ilə ailə qurub. Orxan adlı oğulları var.

VAQİF HƏSƏN OĞLU İBRAHİMOV (AŞIQ VAQİF GÖYÇƏLİ)

(1962, Güney)



Ədəbiyyat və mədəniyyət tariximizə Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Aşıq Əsəd, Aşıq Qurban kimi ustad saz və söz sənətkarlarını bəxş edən Göyçənin adını bu gün zirvələrə qaldıran yaradıcı sənətkarlardan biri də Aşıq Vaqif İbrahimovdur. Sənət aləminə gəlişi ilə, gec də olsa, az bir vaxtda ölkədə məşhurlaşdı, Göyçəlilər üçün and yerinə çevrilmiş saza olan sevgisinə, məhəbbətinə görə elin nəzərində böyük və hörmətli şəxs kimi tanındı. Aşıqlıq sənətindəki zəngin istedadı, zil, oynağan, gur, şaqraq, məlahətli, tükənməz səs imkanları onu bütün ölkənin tanınmışlarından birinə çevirdi.

Aşıq Vaqif Həsən oğlu çoxuşaqlı kənd ailəsində doğulmuşdur. Kiçik yaşlarından bədbəxt hadisə nəticəsində evin böyük oğlu Sabiri itirmiş ailədə altı bacının yeganə qardaşı olaraq böyüdü. 1979-cu ildə kənd orta məktəbi bitirdikdən sonra Gəncə şəhərində inşaat texnikumunun mülki tikinti şöbəsinə daxil oldu. Texnikumu bitirib doğma kəndə döndü.

Hələ uşaqlıq illərindən saza, sözə olan marağı ilə yaşıdlarından fərqlənirdi. Ailənin yeganə oğlu olaraq atasının yaxın köməkçisi kimi çöldə-bayırda iş görəndə, əkində-biçində, bağ-bağatla, qoyun-quzu bəsləməklə məşğul olanda da məlahətli səsini işə salar, zümzümə edər, söz oxuyardı.

Saz çalmağı orta məktəbdə oxuduğu illərdə müəllimi Qulu Nəsibovdan öyrəndi. Qulu müəllimin özünün sazı var idi, yaxşı saz ifaları vardı, hərdən astadan məlahətli səslə oxuyardı. Vaqifin möcüzəli səsini, saza olan marağını nəzərə alaraq Qulu müəllim asudə vaxtlarında ona sazı düzgün tutmağı, sazı kökləməyi və saz havalarını ifa etməyi öyrətməyə başladı. Az keçmədi Vaqif Həsən oğlu gitara çalmağı da öyrəndi, kənd toylarında, el şənliklərində iştirak etməyə başladı. Aşıq musiqisi ilə yanaşı, muğam və təsniflərimizi də gözəl ifa edirdi.

Bir çox hallarda Sədənağac toylarına başqa yerlərdən aşıqlar dəvət olunardı. Vaqif də onlarla bərabər bu toylarda təmənnasız olaraq iştirak edir, tədricən aşıqlıq sənətinin incəliklərinə yiyələnir, onlardan aşığın səhnə mədəniyyətini öyrənirdi.

1988-ci il deportasiyasından sonra Vaqif İbrahimov ailəsi ilə birlikdə Gəncə şəhərinə köçdü. İlk vaxtlar maddi durumla əlaqədar olaraq gözəl bacardığı digər sənətlə - avtomobil təmiri ilə məşğul olmağa başladı. Ancaq saz çalmağı, söz oxumağı unutmadı. Dost-tanış, qohum-əqraba şənliklərində məlahətli səsi ilə hamının zövqünü oxşayırdı. İllər keçdikcə Vaqif də yetkinləşdi, həyatın və zəmanənin tələblərinə uyğun inkişaf etdi, aşıq sənətinin incəliklərini mənimsəyərək parlayıb çiçəkləndi. Ovşarı, Ruhani (Urfanı), Misri, Göyçəgülü, Baş Sarıtel, Orta Sarıtel, Qaraçı, İrəvan çuxuru, Dübeyti, Gəraylı, Şahsevəni, Cəlili, Mixəyi, Qəhrəmanı və b. saz havalarını özünəməxsus tərzdə ifa etməyə başladı və mahir ifaçılar cərgəsində özünə yer tutmağa nail oldu. Məhz buna görə də, bu gün ölkə televiziya kanallarında Aşıq Vaqifin yaradıcılığı geniş şəkildə, tez-tez nümayiş etdirilir.

Vaqif Həsən oğlu mehriban ailə başçısıdır, həyat yoldaşı Sofilə Nəriman qızı ilə birlikdə Adil adlı oğul, Xalidə və Çinarə adlı iki qız böyüdüblər. 4 nəvəsi var. Hazırda ailəsi ilə birlikdə Gəncə şəhərində yaşayır.

HƏRBÇİ OĞULLAR

Bu gün həyatını Ordumuzla bağlayan hərbçilərimiz arasında sədənağaclılar da az deyildir. Müqəddəs hərbçi yolunu özlərinə həyat yolu seçən eloğlularımız hərb peşəsinin vacibliyini, məsuliyyətini dərindən dərk edən igidlərdir.

Onların hər biri vətənpərvər, mərd, cəsur, qorxmaz, igid, yüksək mənəvi dəyərlərə malik Vətən oğludur. Bu peşəyə onları qan yaddaşı, Vətən sevgisi gətirib. Çünki ən müqəddəs saydığımız məkan - Vətən sadəcə torpaq parçası deyil, hər qarışı uğrunda sevə-sevə canını qurban etmiş şəhidlərin qanı hopan müqəddəs torpaqdır. Bu torpağı qorumaq, işğal altında qalan torpaqlarımızı yağı düşməndən təmizləmək Kişi işidir, Kişilərin borcudur.

Bu peşə nə qədər məsuliyyətli, ağır da olsa, nə qədər fədakarlıq, cəfakeşlik tələb etsə, bir o qədər də şərəfli və ucadır. Xalqının rahat və firavan yaşaması üçün gecə-gündüz onun hüdudlarını qorumaq lazımdır. Azərbaycan Ordusunda hərb peşəsinin incəliklərinə yaxşı bələd olan, seçdiyi yolda şərəflə, məsuliyyətlə xidmət edən və xidmətdən ehtiyata buraxılmış bilikli, bacarıqlı zabitlərimiz haqqında, qısa məlumat verməyi vacib sayırıq. Çünki onların hər biri Qəhrəmandır, İgiddir. Gənclərimizə ən yaxşı örnəklərdir.

İLQAR MƏRİŞ OĞLU QƏHRƏMANOV

(24 may 1965, Güney)

General-mayor. Ziyalı ailəsində doğulmuşdur. 1972-ci ildən sonra cəmi iki il Güney kənd orta məktəbində oxudu. Ailəsinin Gəncə şəhərinə köçməsi ilə əlaqədar olaraq təhsilini 1974-cü ildən Gəncə şəhəri 24 saylı orta məktəbdə davam etdirmişdir. Orta məktəbi bitirdikdən sonra 1983-cü ildə Rusiyanın Velski şəhərindəki Arxa Cəb-



hə hərbi məktəbinə daxil oldu. 1987-ci ildə hərbi məktəbi bitirdikdən sonra Sovet Ordusu sıralarında Ural Hərbi Dairəsində hərbi xidmətini davam etdirdi.

1994-1997-ci illərdə Arxa Cəbhə və nəqliyyat akademiyasında oxudu. Akademiyanı bitirdikdən sonra Volqaboyu və Sibir Hərbi Dairələrində xidmət etdi.

2006-cı ildə Rusiya Ordusunun Baş Qərargah Ali Hərbi Akademiyasına daxil oldu və 2008-ci ildə akademiya təhsilini başa vurub Şimali Qafqaz, Qərb, Cənub hərbi dairələrində müxtəlif məsul hərbi vəzifələrdə xidmətini davam etdirdi. Qərb Hərbi Dairəsinin resurs təminatının idarə rəisi, Cənub Hərbi Dairəsinin maddi-texniki təminatı üzrə qərargah rəisi kimi məsul hərbi vəzifələrdə xidmət etmişdir. 20 fevral 2015-ci ildə ona general-mayor rütbəsi verilmişdir.

2016-cı ildən Baltik Hərbi Dəniz Donanmasının Qərb Hərbi Dairəsində Baş komandanın maddi-texniki təminatı üzrə müavini vəzifəsindədir.

Hərbi xidmətdəki uğurlarına görə general-mayor Qəhrəmanov Rusiya Federasiyasının və Müdafiə Nazirliyinin bir çox orden və medalları ilə təltif edilmişdir.

Evlidir, bir oğlu var.

İLQAR ELDAR OĞLU ƏMRAHOV

(1 yanvar 1976, Qamışlı k.),

Polkovnik-leytenant. 1983-cü ilin sentyabrında Qamışlı-Qanlı (Torfavan) kənd məktəbinin 1-ci sinfinə getmişdir. 1984-cü ilin aprelində ailəliklə Göygöl (keçmiş Xanlar) rayonunun Göyçəkənd (Ayqestan) kəndinə köçmüşlər və İlqar təhsilini burada davam etdirmişdir.

01 sentyabr 1991-ci ildə Azərbaycan Tibb Universitetinin Bakı şəhərində yerləşən 5 saylı Kimya-biologiya Respublika Baza Liseyinə qəbul edilmiş və 1993-cü ildə bu təhsil ocağının məzunu olaraq ali təhsil almaq üçün Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) "Baytarlıq təbabəti" fakültəsinə daxil olmuşdur. 1997-ci ildə ali təhsilini başa vurmuşdur.

1997-ci ilin iyulundan 1999-cu ilin sentyabrınadək Yenikənd Sərhəd Baytar Nəzarəti məntəqəsində baytar həkimi vəzifəsində işləmişdir.



2001-ci ilin sentyabrında hərbi xidmətdən tərxis edildikdən sonra yenidən keçmiş iş yerində - Yenikənd Sərhəd Baytar Nəzarəti məntəqəsində baytar həkimi vəzifəsində işləmişdir.

2002-ci ilin mayından 2008-ci ilin fevralınadək Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlikdə (ANAMA) əvvəlcə minaaxtaran, sonra isə bölmə rəisi vəzifələrində işləmişdir.

Daha sonra Dövlət Sərhəd Xidməti qoşunlarının tərkibində müxtəlif məsul vəzifələrdə qulluq etmişdir. Hazırda tibb-xidməti polkovnik-leytenantı rütbəsində mərkəzi aparatda hərbi xidmətini davam etdirir.

Hərbi xidmətdə olduğu müddətdə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi (1991-2010), Dövlət Sərhəd Xidmətlərinin 90 və 95 illiyi, Sərhəd Mühafizəsinin 90 və 95 illiyi yubiley, hərbi xidmətə görə 2-ci və 3-cü dərəcəli, eləcə də "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Evlidir. Gülnar Asif qızı ilə ailə qurub. Nihad adlı oğlu, Nuray və Gülay adlı iki qızı var. Bakıda yaşayırlar.

İLQAR NƏCƏF OĞLU NƏSİBOV

(5 yanvar 1973, Güney)

Polkovnik-leytenant. Bu gün xalqın və millətin dayağı və güvənc yeri olan Azərbaycan Ordusunda şərəflə xidmət edən oğullarımızın amalı və arzusu Vətən torpaqlarının göz bəbəyi kimi qorunması, işğal altındakı torpaqlarımızın mənfur düşməndən tezliklə azad edilməsidir. Vətən sevgisini Ulu Göyçənin saf havasından, məlhəm sularından alan İlqar Nəcəf oğlu Nəsibov ziyalı ailəsində doğulmuşdur. Atası Nəcəf müəllim Güney kənd orta məktəbində rus dili və ədəbiyyatı fənnindən dərs deyirdi.

Nəcəf müəllim 1975-ci ildə ailəliklə Şamaxı rayonunun Hilmilli kəndinə köçdü. İlqar Hilmilli kənd orta məktəbində oxudu. 1990-cı ildə orta məktəbi bitirib Gəncə şəhərində Elektron Sənaye texnikumuna daxil oldu. Lakin 1991-ci ildə hərbi xidmətə çağırılması ilə bağlı texnikumu yarıda buraxmalı oldu.



Qulluq etdiyi müddətdə fəal, çevik və məsuliyyətli bir əsgər kimi hörmət qazandı, komandirlərinin məsləhəti ilə həyatını hərbi xidmətə bağladı. 1993-cü ildə Bakı Ali Hərbi Birləşmiş Komandanlıq Məktəbinin (indiki H.Əliyev adına Hərbi Akademiya) nəzdindəki Mərkəzi zabitlər kursuna daxil oldu və həmin ildən artilleriya ixtisasında hərbi xidmətini davam etdirmək üçün döyüş bölgəsindəki N hərbi hissəsinə göndərildi.

Taleyini Orduya bağlayan İlqar Nəcəf oğlu hərbi xidmətin ağırlığından qorxmadı, döyüş zonalarındakı təhlükəni bir an belə düşünmədi. Bütün bilik və bacarığını müqəddəs Vətən torpağının qorunmasına, həyatının başlıca amalı olan, işğal olunmuş ərazilərimizin geri qaytarılmasına, düşmən üzərində qələbəyə həsr etmişdir. Həmişə vəzifə borcuna, içdiyi hərbi anda sadiq olmuş, bu yoldakı fiziki əzab-əziyyəti, məişət rahatsızlığını heç vaxt düşünməmişdir. Hərbi forma sevimli libası oldu, əsgər çəkməsi ona müasir modada "xaricdə tikilmiş" bahalı ayaqqabılardan üstün oldu. Soyuq daşın, torpağın üstündə yatdığı səngəri isti otaqdakı rahat çarpayıdan üstün tutdu. İki oğlu ilə vaxt keçirməyə, onların tərbiyəsi ilə məşğul olmağa az-az vaxt tapdı, minlərlə gənc əsgərin təlim-tərbiyəsi ilə məşğul oldu, onları döyüşə hazırladı. Döyüşlərdə dəfələrlə ağır yaralanmasına baxmayaraq ordudan tərxis olunmağı ağlına belə gətirmədi.

1994-cü ildə Ağdərə rayonunun Akop-Kamari istiqamətində gedən döyüşlərdə aldığı ağır yaralar həyatını təhlükə qarşısında qoydu. Bacarıqlı həkimlərimizin gərgin əməyi sayəsində sağaldı, yenidən cəbhəyə qayıtdı.

İlqar Nəcəf oğlunu tanıyanlar bilirlər ki, o, heç vaxt ad-san üçün, şöhrət üçün vuruşmayıb. Onun çəkdiyi bütün zəhmətin arxasında müqəddəs vətən torpağının toxunulmazlığı amalı durur.

1993-cü ildən başlayaraq taqım komandiri, bölük komandiri, xidmət rəisinin köməkçisi, xidmət rəisi, bölmə rəisi, baş zabit, şöbə rəisinin müavini vəzifələrində qulluq etmişdir. Öz qətiyyəti, qorxmazlığı, obyektivliyi, bacarığı və fədakarlığı sayəsində tutduğu bütün məsul vəzifələri Nizamnamələrə uyğun olaraq, layiqli şəkildə yerinə yetirərək leytenant rütbəsindən polkovnik-leytenant rütbəsinədək yüksəlmişdir.

Xidmət müddəti başa çatdığına görə 2016-cı ilin iyununda Silahlı Qüvvələrdən ehtiyata buraxıldı. 2016-cı ilin sentyabr ayından 2017-ci ilin avqust ayına qədər Si-

lahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində müəllim vəzifəsində işlədi. 2017-ci ilin avqust ayından N hərbi hissəsinin 1-ci idarəsində dövlət qulluğunda, müşavir-məsləhətçi vəzifəsinə dəvət olundu.

Az keçmədən Vətən yenə onu səslədi. Azərbaycan Respublikası Müdafiə Nazirinin əmrinə əsasən yenidən hərbi xidmətə çağırıldı və hazırda Azərbaycan Ordusu sıralarında məsul vəzifədə qulluq edir.

Məkan və zaman məhdudiyyətlərinə baxmayaraq ali təhsil almağı unutmadı. 2002-ci ildə Gəncə Dövlət Universitetinin tarix fakültəsinə qəbul edildi və 2007-ci ildə ali təhsilini başa vurdu. 2015-ci ildə Türkiyə Respublikasının Hərbi Akademiyasını bitirmişdir.

Evlidir. İki oğlu var. Böyük oğlu Nəcəf Türkiyədə ali təhsil alır. Kiçik oğlu Fərid isə orta məktəbdə oxuyur, idmançıdır. Gələcəkdə atasının yolunu davam etdirəcəyini düşünür.

Qulluq etdiyi müddətdə göstərdiyi xidmətlərə görə dəfələrlə Azərbaycan Respublikasının medalları ilə təltif edilmişdir. 15 yanvar 1995-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir. Bu medalı ona təntənəli surətdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları şəxsən özü təqdim etmişdir. Hərbi qulluqda olduğu dövrdə Azərbaycan Respublikasının "Hərbi xidmətdə fərqlənməyə görə", 1-ci, 2-ci, 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (1918-2008) 90 illiyi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (1918-2013) 95 illiyi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991 -2001) yubiley medalları ilə, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı ilə təltif edilmişdir.

NATİQ SAHİB OĞLU CƏFƏROV

(1978, Basarkeçər r-nu Qamışlı k.)

Polkovnik-leytenant. Onlar 1984-cü ildə ailəliklə Göygöl (Xanlar) rayonunun Göyçəkənd (Əbləh) kəndinə köçdülər. 1985-ci ildə Göyçəkənd orta məktəbinin 1-ci sinfinə qəbul edildi. 1992-ci ildə 5 saylı Kimya-Biologiya Təmayüllü məktəb-liseyində təhsilini davam etdirdi. 1994-cü ildə bu təhsil ocağını bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinə qəbul edildi və 1999-cu ildə ali təhsilini uğurla başa vuraraq əczaçı - bakalavr diplomu aldı.

Universiteti bitirdikdən sonra 1999-2001-ci illərdə "Azərsintez" MMC-də texnoloq vəzifəsində çalışdı.



2001-2004-cü illərdə "AzərFarm" MMC-də sex rəisi, 2004-2005-ci illərdə "Xaqani NB" MMC provizor-texnoloq vəzifələrində çalışdı.

20 may 2005-ci ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Hərbi Tibb İdarəsində Aptek rəisi vəzifəsinə təyin edildi.

10 fevral 2012-ci ildən isə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Hospitalında Aptek rəisi vəzifəsində fəaliyyət göstərdi.

20 sentyabr 2016-cı ildən 20 fevral 2019-cu ilə qədər Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzində Məhkəmə-kimya bölmə rəisi vəzifəsində xidmət göstərirdi.

Hazırda polkovnik-leytenant rütbəsində Müdafiə Nazirliyində mühüm vəzifədə qulluq edir, Hərbi hissə komandiridir.

Ailəlidir. Gəncə şəhərindən Aybəniz Vaqif qızı ilə ailə qurub. İki oğlu, bir qızı var.

YALÇIN ŞİRVAN OĞLU ƏLƏKBƏROV

(8 dekabr 1976, Güney)



Polkovnik-leytenant. 1983-cü ildən Güney kənd orta məktəbində oxuyurdu. 1988-ci ildə deportasiya ilə əlaqədar valideynləri ilə birlikdə Bakı şəhərində məskunlaşdılar.

1989-cu ildə Bakı şəhəri 51 saylı orta məktəbdə təhsilini davam etdirdi və 1991-ci ildə 9-cu sinfi bitirərək Bakı şəhər 10 saylı texniki-peşə məktəbinə daxil oldu. 1994-cü ildə bu təhsil ocağını bitirdi və 1995-ci ildə Bakı Ali Hərbi Dənizçilik məktəbinə daxil oldu. 1999-cu ildə həmin məktəbi "Yanacaq-sürtgü materialları" ixtisası üzrə bitirmişdir.

Məktəbi bitirdikdən sonra 22 iyun 1999-cu ildə leytenant rütbəsində Müdafiə Nazirliyinin əmrinə

əsasən xidmətini davam etdirmək üçün Ağdam istiqamətində ön cəbhədəki hərbi hissəyə göndərilmişdir.

29 dekabr 2002-ci ilə qədər həmin hərbi hissədə YSM xidməti rəisi kimi qulluq etmiş, 24 iyun 2004-cü ildə baş leytenant rütbəsi almışdır. 29 dekabr 2002-ci ildən 08 avqust 2007-ci ilə qədər Goranboy rayonunda başqa bir hərbi hissədə YSM xidməti rəisi vəzifəsində qulluq etmiş, kapitan rütbəsi almışdır.

2007-ci il 8 avqustdan 26 noyabr 2012-ci ilə qədər Goranboy rayonu istiqamətində ön cəbhədəki digər bir hərbi hissədə qulluq etmiş, mayor rütbəsinədək yüksəlmişdir. 26 noyabr 2012-ci ildən hal-hazıradək Bakı şəhərində hərbi hissədə YSM xidməti rəisi (maddi-texniki təminat bölməsi zabiti) vəzifəsində qulluq edir. 13 iyul 2018-ci ildə polkovnik-leytenant hərbi rütbəsi verilmişdir.

Ailəlidir. Həyat yoldaşı Qızılkənd (Babacan) kəndindən Esmira Mehman qızı (xalası Cəmilənin qızıdır) ilə ailə qurub. Həmid adlı bir oğlu, Surə adlı bir qızı var. Bakı şəhərində yaşayır.

İLQAR MƏMMƏDRZA OĞLU MİRZƏYEV

(23 noyabr 1977, Güney)



Kapitan. Qərbi Azərbaycanın gözəllik tacı Ulu Göyçədən söz düşəndə rəssam, şair təbiətli bu gəncin gözləri yaşarır, qəlbi kövrəlir. Tez-tez nəzərlərini cib telefonunda saxladığı və evin divarından asdığı doğma Sədənağac-Hacı Qərib-Güney kəndinin fotoşəkildən tanınmış rəssama yağlı boya ilə çəkdirdiyi tablosuna salır, bir xeyli dinmir. Həmin an onun gözlərinə baxanda qəlbindən keçən hissləri asanlıqla anlamaq, düşüncələrini sifət cizgilərindən oxumaq olur. İdmançı bədən quruluşuna malik, uca boylu bu zabitin qəlbindən millətinə, məmləkətinə, vətənini onun kimi sevən yurddaşlarına səngiməz sevgilərin boylandığı görünür.

İlqar Məmmədrza oğlu dördüncü sinfə qədər kənddə oxuyub, 1988-ci ildə mənfur düşmənlər onun ailəsini də minlərlə həmvətəni kimi Göyçə mahalından deportasiya etdilər. Valideynləri ilə birlikdə 11 yaşlı bu uşaq qaçqınlığın, didərginliyin acısını daddı, qara tüstüsünü uddu. İlk vaxtlar valideynlərinin harada məskunlaşmaq seçimi ilə əlaqədar problemləri, Bakı şəhərində

məskunlaşmağı qərara aldıqdan sonra həmin dövrün rüşvətxor, şərəfsiz vəzifə məmurlarının onun ailəsi üçün yaratdıqları ağlagəlməz mənzil problemini yaşadı, ədalətsizliyin nə demək olduğunu tam mənası ilə başa düşdü. Valideynlərinin təzəcə hakimiyyətə gəlmiş görkəmli dövlət başçısı Heydər Əliyev cənablarına müraciətindən sonra bu məsələnin ədalətli həlli onda gələcəyə əmin yaratdı.

Bakı şəhərindəki 95 saylı orta məktəbdə təhsilini davam etdirdi. 1992-ci ildə bu məktəbin səkkizinci sinfini bitirdi və təhsilini davam etdirmək üçün Türkiyəyə yollandı. Mayası zəhmətdən, qayəsi saflıqdan yoğrulan İlqar orta məktəbi (liseyi) və Universiteti uğurla bitirdikdən sonra doğma Azərbaycana qayıtdı. Hüquq-mühafizə orqanlarında əmək fəaliyyətinə başladı.

Tutduğu vəzifədən asılı olmayaraq xalqının, yurdunun ürək döyüntüsünü həmişə varlığında hiss edən İlqar Məmmədrza oğlu ona tapşırılan işləri layiqincə icra etmiş, tutduğu vəzifəyə layiq olduğunu əməlləri ilə sübut etmişdir. Hazırda kapitan rütbəsində xidmətini davam etdirir. Onun zəhməti dövlət tərəfindən layiqincə qiymətləndirilib, təltifatları vardır.

Evlidir. Qayğıkeş ailə başçısıdır. 2016-cı ildə atası rəhmətlik Məmmədrza Mahmud oğlu dünyasını dəyişdikdən sonra həyat yoldaşı Gülbahar xanım Şahsəddin qızı ilə birlikdə müdrik və sevimli anası, gözəl insan olan Pakizə xanım Süleyman qızının qayğısız yaşaması üçün əlindən gələni əsirgəmir.

NƏBİ ORUC OĞLU ƏHMƏDOV

(1949, Güney)

Ehtiyatda olan polkovnik. Aşıq Oruc və Züleyxa xanımın ailəsində doğulub. Ailə 1953-cü ildə Gədəbəyin Zəhmət kəndinə köçsə də, balaca Nəbini babası Allahverdi kişi, nənəsi Qəndab xanım saxlayıb böyütmüşlər.

Güney kənd yeddiillik məktəbini bitirdikdən sonra orta təhsilini 1963-1967-ci illərdə Şişqaya kənd orta məktəbində tamamlamışdı.

1967-ci ildə Sovet Ordusu sıralarında hərbi xidmətə çağırılmış və Şimali Qafqazın Maykop şəhərində qulluq etmişdir. 1970-ci ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə göndərilmişdir. 1972-ci ildə hərbi təhsilini leytenant rütbəsində bitirib, xidmətini davam etdirmək üçün İrəvan şəhərinə, Sovetaşen qəsəbəsindəki (keçmiş Sərdarabad) hərbi hissəyə göndərilmiş və burada bölmə komandiri təyin edilmişdir.

1974-cü ildən hərbi xidmətini Bakı şəhərində davam etdirdi. Ailə vəziyyəti ilə əlaqədar olaraq 1975-ci ildə kapitan rütbəsində ordudan tərxis olundu və Şəmkir şəhərində K.Marks adına orta məktəbdə hərbi ibtidai hazırlıq müəllimi olaraq çalışdı.



Erməni qəsbkarları Azərbaycan torpaqlarına elan olunmamış müharibəyə başlayarkən kapitan Nəbi Əhmədov yeni təşkil olunan Azərbaycan Milli Ordusunun ilk qurucularından biri kimi milli silahlı qüvvələrdə xidmətə başladı. Şəmkirin Dəllər qəsəbəsində "Şəmkir" taborunun yaradılmasında, ordu quruculuğunda, təcrübəli, səriştəli, peşəkar hərbçi kimi mayor rütbəsində fəal iştirak edir. 2002-ci ilə qədər Azərbaycan Ordusu sıralarında tabor qərargah rəisi, tabor komandiri, briqada komandirinin müavini, hərbi hissə komandiri vəzifələrində qulluq etmişdir.

1970-ci ildə SSRİ və sosialist birliyi dövlətlərinin iştirakı ilə Belarusiyada keçirilən "Sülh-70" hərbi təliminin nəticələrinə görə SSRİ Müdafiə Nazirinin Fəxri Fərmanı və yubiley medalı ilə təltif edilmişdir.

Azərbaycan Milli Ordusundakı xidmətlərinə görə əsgəri təltifatları vardır. Polkovnik Nəbi Əhmədov hazırda ehtiyatdadır və Bakıda yaşayır.

Evlidir. Basarkeçərin Yarpızlı kəndindən Pərizad Əvəz qızı ilə ailə qurub. Elçin və Semur adlı iki oğlu var.

ƏLİF CƏMİL OĞLU DÜNYAMALIYEV

(25 fevral 1965, Güney)

Ehtiyatda olan polkovnik-leytenant. Kənd orta məktəbini bitirdikdən sonra (1981) Bakıda Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1986-cı ildə təhsilini başa vuraraq əmək fəaliyyətinə fəhlə kimi başlayan Əlif Cəmil oğlu, qısa bir müddətdən sonra bilik və bacarığı nəzərə alınaraq gənc kadr kimi müxtəlif rəhbər vəzifələrə irəli çəkilmiş və 1992-ci ilə qədər müxtəlif istehsalat sahələrində çalışmışdır.

1988-ci ilin sonlarında bütün Göyçəlilər kimi, Əlifin valideynləri Cəmil bəy və Dilbər xanım da deportasiyaya məruz qalaraq öz doğma yurdundan, el-obasından didərgin düşdülər. Çox əzab-əziyyətlərdən sonra əvvəlcə Gədəbəy rayonunda, sonralar isə Bakıda məskunlaşdılar.

Əlif könüllü olaraq Azərbaycanın azadlığı uğrunda mübarizəyə qoşuldu. 1992-ci ilin yayında, vətənin ağır günlərində, DİN Daxili Qoşunlarının sırasında leytenant rütbəsində bölük komandiri kimi xidmətə başlamış, öz bilik və bacarığını əsirgəməmiş, dəfələrlə döyüş bölgələrinə ezam olunmuşdur. Xidmətləri nəzərə alınaraq Əlif Dünyamalıyev müxtəlif hərbi hissələrdə Avtomobil xidmətinin rəisi, hissə komandirinin Texnika və silah üzrə müavini vəzifələrinə təyin edilmiş, leytenant rütbəsindən pol-



kovnik-leytenant hərbi rütbəsinədək yüksəlmişdir. Texnikanın daim saz vəziyyətdə saxlanılması, maddi vəsaitlərin və silah-sursatın döyüş bölgəsinə təhlükəsiz daşınması və bu sahəyə nəzarət hər bir kəsdən böyük məsuliyyət tələb edirdi. Əlif Dünyamalıyev Vətən qarşısında öz şərəfli xidməti ilə həmişə fəxr etmişdir.

DİN Daxili Qoşunlarında xidmətini şərəflə davam etdirən Əlif Dünyamalıyev DQ Hərbi Hospitalı rəisinin Maddi-Texniki Təminat üzrə müavini vəzifəsindən yaş həddinə görə ehtiyata buraxılmışdır. Özündən sonra iki qardaşı da onunla çiyin-çiyinə Daxili Qoşunlarda xidmət edir.

Əlif Cəmil oğlunun bir oğlu və bir nəvəsi var. Həyat yoldaşı Sara xanım Qasım qızı Şərifova öz həmkəndlisidir. Bakıda yaşayırlar.

Orduda qulluq etdiyi zaman fəxri fərmanlarla, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Hərbi xidmətdə fərqləndiyinə görə" medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medalı, "DİN Daxili Qoşunlarının 15 illiyi" yubiley döş nişanı, "DİN Daxili Qoşunlarının 20 illiyi" yubiley döş nişanı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı ilə təltif edilmişdir.

RÜFƏT İSAXAN OĞLU MƏSMALIYEV

(22 iyun 1976, Güney)



Ehtiyatda olan polkovnik-leytenant. 1983-cü ildən Güney kənd orta məktəbində oxuyurdu. 1988-ci il deportasiyasından sonra minlərlə azərbaycanlı ailə kimi atası İsaxan Müsüd oğlu da ailəliklə doğma yurdundan didərgin düşdü, Göygöl rayonunun Göyçəkəndində məskunlaşa bildi. Rüfət orta məktəbi 1993-cü ildə orada bitirdi.

Hələ orta məktəbdə oxuyarkən vətənini və millətini erməni virusundan qorumaq üçün hərbçi olmaq qərarına gəlmişdi. Bu məqsədlə 1994-cü ildə Bakı Ali Birləşmiş Komandirlər məktəbinə daxil oldu.

1998-ci ildə hərbi məktəbi uğurla başa vuraraq leytenant hərbi rütbəsində motoatıcı taqım komandiri vəzifəsinə təyin olundu. İllər keçdikcə Rüfətin hərbi rütbəsi, eyni zamanda orduda tutduğu vəzifələr də yüksəlməyə başladı.

Orduda həmişə nümunəvi hərbçilər cərgəsində durdu. Polkovnik-leytenant Məsmalıyev taqım komandiri vəzifəsindən tabor komandirinə qədər çətin bir yol keçdi. Hərbi xidmətin bütün mərhələlərində yüksək bilik və bacarıq nümayiş etdirdi. Vətənpərvərliyi, qorxmazlığı ilə əsgərlərinə örnək oldu.

2001-ci ildə baş leytenant rütbəsində bölük komandiri vəzifəsinə təyin olundu. 2004-cü ildə tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsinə təyin olundu. 2005-ci ildə kapitan rütbəsinə qaldırıldı. 2007-ci ildə tabor komandirinin müavini vəzifəsinə təyin olundu. 2009-cu ildə mayor rütbəsi verildi.

2010-cu ildə taborun qərargah rəisi, 2013-cü ildə isə tabor komandiri vəzifələrinə təyin olundu. 2015-ci ildə polkovnik-leytenant hərbi rütbəsinə yüksəldildi. 2016-cı ildə xidmət müddəti başa çatdığına görə öz ərizəsi əsasında ordu sıralarından ehtiyata buraxıldı.

Polkovnik-leytenant Rüfət İsaxan oğlunun əməyi rəhbərlik və Dövlət tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 90 və 95 illiyi yubileyi medalları ilə, Qüsursuz xidmətə görə 3-cü və 2-ci dərəcəli medallarla təltif edilmişdir.

Evlidir. İki övladı var.

İLHAM CUMALI OĞLU RÜSTƏMOV

(21 yanvar 1968, Güney)



Ehtiyatda olan mayor. Güney kənd orta məktəbini bitirib (1985), Azərbaycan Tibb İnstitutuna daxil oldu. 1986-1988-ci illərdə ordu sıralarında sürücü-mexanik (BMP-1) olaraq xidmət etdi, tərxis olunduqdan sonra yenidən Tibb İnstitutuna qayıtdı. 1994-cü ildə müalicə-profilaktika fakültəsindən məzun oldu. 1994-cü ilin avqustundan 1997-ci ilin avqustunadək Gəncə Şəhər Vərəm Dispanserində işlədi. 1997-ci ilin sentyabrında hərbi xidmətə çağırıldı və xidmət keçmək üçün Beyləqan korpusuna göndərildi. 2013-cü ilin yanvarına qədər 214 saylı hərbi hissədə (Əhmədbəyli hospitalı) hospitallaşma taqımının komandiri (şöbə rəisi) vəzifəsində xidmət

etdi. 2013-cü ilin yanvarından 230 nömrəli hərbi hissədə Qəbul-çeşidləmə bölməsinin baş ordinatoru, 2014-cü ilin martından 230 saylı hərbi hissənin Qastroenterologiya bölməsinin baş ordinatoru vəzifəsində xidmət etdi. 2017-ci ilin noyabrından isə 212 saylı hərbi hissədə tibb xidməti rəisi vəzifəsində xidmət etdi. Tibb xidməti mayorudur.

Evlidir. İki övladı var.

MEHDİ QƏZƏNFƏR OĞLU MEHDİYEV

(7 oktyabr 1963, Güney)



Ehtiyatda olan mayor. Güney kənd səkkizillik məktəbini bitirmiş, onilliyi Kiçik Məzrə kənd orta məktəbində tamamlamışdır. 1981-ci ildə Azərbaycan Texnologiya İnstitutunun "Şərabın texnologiyası" fakültəsinə qəbul olunmuşdur.

1981-83-cü illərdə Leninqrad (İndiki Sankt-Peterburq) şəhərində hərbi xidmət etmiş, tərxis olunduqdan sonra Gəncə şəhərinə qayıtmış və institutda təhsilini davam etdirmişdir. 1989-cu ildə təhsilini başa vuraraq 1993-cü ilə qədər Qasım İsmayılov rayonunun (Goranboy) Xanlar Səfərəliyev adına kolxozunda mülki müdafiə xidmətinin rəisi işləmişdir. 1993-cü ildə Azərbaycan Silahlı Qüvvələrində leytenant rütbəsində taqım komandiri vəzifəsində hərbi xidmətə başlamışdır. Divizion qərargah rəisinin köməkçisi, batareya komandirinin müavini, batareya komandiri kimi xidmət etmiş, 2015-ci ildə mayor rütbəsində yaş həddinə görə ehtiyata buraxılmışdır.

Rayonun Qoşabulaq kəndindən Səidə Şahbaz qızı ilə ailə qurub. Elman və Bəxtiyar adlı iki oğlu var. Övladlarının hər ikisi hərbçidir, atalarının yolunu davam etdirirlər. Göygöl şəhərində yaşayırlar.

SERGEY CAMAL OĞLU BAĞIROV

(4 mart 1962, RF, Voronej vilayəti, Pavlovsk ş.)



Ehtiyatda olan mayor. 1969-cu ildən Güney kənd səkkizillik məktəbində oxuyurdu, 1974-cü ildə ailəliklə Rusiyanın Krasnodar şəhərinə köçdülər və Sergey təhsilini orada davam etdirdi.

Ailə 1975-ci ildə Qasım İsmayılov rayonunun Yeni Mixaylovka kəndinə (indiki Goranboy rayonunun Dəyirmanlar kəndi) köçdü və Sergey səkkizilliyi həmin kənddə bitirib, 1977-ci ildə Gəncə Politexnik Texnikumuna daxil oldu.

1981-ci ilin avqustundan Xarkovda "Elektrotyajmaş" zavodunda motor sarıyıcısı kimi əmək fəaliyyətinə başlamışdır.1981-1983-cü illərdə hərbi xidmətdə olub. 1983-cü ilin dekabrından 1990-cı ilin mayınadək Krasnodar şəhərində "SPU-Servis" müəssisəsində baş mühəndis-elektrik vəzifəsində işləmişdir.

1992-ci ilin dekabrından 1994-cü ilin noyabrınadək Azərbaycanda N saylı hərbi hissədə batareya komandiri, 1994-cü ilin yanvarından 1996-cı ilin fevralına qədər texniki hissə rəisi - silahlanma xidməti üzrə divizion komandirinin müavini, 1996-cı ilin fevralından 2003-cü ilin iyulunadək N hərbi hissəsində xidmət rəisi, 2003-cü ilin iyulundan 2007-ci ilin martına qədər maddi-texniki təminat üzrə komandir müavini, 2007-ci ilin martından 2014-cü ilin fevralına qədər maddi-texniki təminat üzrə qərargah rəisinin köməkçisi, 2014-cü ilin fevralından 2015-ci ilin oktyabrınadək xidmət rəisinin baş köməkçisi vəzifələrində xidmət edib. 2015-ci ilin oktyabrından Silahlı Qüvvələrdən ehtiyata buraxılıb.

Göstərdiyi xidmətlərə görə dəfələrlə Azərbaycan Respublikasının əsgəri təltifatlarına layiq görülmüşdür. Respublika Prezidentinin fərmanı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir. Hərbi qulluqda olduğu dövrdə "Hərbi xidmətdə fərqlənməyə görə", 1-ci, 2-ci, 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (1918-2008) 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (1918-2013) 95 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medalları ilə təltif edilmişdir.

Evlidir. Öz həmkəndlisi Maral Gəncə qızı ilə ailə qurub. Tofiq və Rəfail adlı iki oğlu var. Gəncə şəhərində yaşayır.

MAKSİM CAMAL OĞLU BAĞIROV

(25 mart 1961, Güney)



Ehtiyatda olan gizir. Öz həyatında bəzən elə insanla rastlaşırsan ki, onun hər bir hərəkəti, əməlləri, xarakteri yaddaşına əbədi olaraq həkk olunur, ürəyində elə dərin izlər salır ki, onu həyatı boyu yaddan çıxara bilmirsən. Hə qədər ömür sürməyindən, harada yaşamağından, işindən, tutduğun vəzifədən asılı olmayaraq həmişə onunla dost olduğundan qürur duyursan. Bir çox hallarda isə o insanla bağlı xatırladığın hər təfsilat, həyat hekayətinin əsas mövzularından birinə cevrilir. Bu mənada Azərbaycan ordusunda 18 il qüsursuz xidmət etmiş, hədsiz dərəcədə mehriban, işıqlı, xeyirxah, qayğıkeş, təmənnasız, millətsever, vətən yolunda canını belə qurban verməyə hazır olan, elinə-obasına bağlı bir vətəndaş - Maksim Camal oğlu Bağırov kimi bir şəxsiyyət, böyük bir insan haqqında heç də tam olmayan bəzi kiçik xatirələrimi dəyərli oxucularımızla bölüşməyi özümə borc bildim.

Dostluğumuzun tarixi öz təməlini 1967-ci ildən, birinci sinfə qədəm qoyduğumuz ilk gündən qoymuşdur. Əvvəlcə bir müddət bir parta arxasında otururduq, sonralar bizi ayrı-ayrı partada əyləşdirdilər. Ancaq münasibətlərimiz dəyişmədi. Dördüncü sinifdə oxuyanda "qardaşlıq" olduğumuzu valideynlərimizə elan etdik. O vaxt Göyçə mahalında belə bir adət-ənənə var idi. Bayramlarda bir-birimizin evinə qonaq gedib-gələrdik. Həm mənim valideynlərim, həm də onun atası Camal dayı, anası Alla müəllimə bizim dostluğumuzu çox bəyənirdilər. Gücümüz çatan hədiyyələri bir-birimizə bağışlamaqdan çox xoşumuz gəlirdi. Belə hesab edirdik ki, bizim hədiyyələr dünyanın ən qiymətlisidir. Mehribançılığımız hədsiz dərəcədə səmimi, hədsiz-hüdudsuz idi.

1971-ci ildə Maksimin ailəsi Rusiyanın Krasnodar şəhərinə köçdü. Bu ayrılıq darıxmağın nə olduğunu uşaqkən bizə hiss etdirdi. Tez-tez məktublaşırdıq, daim bir-birimizdən hal-əhval tuturduq.

1975-ci il avqust ayının sonlarında Maksimin yenidən bizim sinifdə oxuyacağı haqda xəbəri eşidəndə sevincimin həddi-hüdudu yox idi. Tezliklə biz görüşdük. Həmin il Maksimin valideynləri Krasnodar şəhərindən Azərbaycan SSR Qasım İsmayılov rayonunun Mixaylovka kəndinə köçmüşdülər və 9-cu sinifdə oxumaq üçün

onu doğma Güney kənd orta məktəbinə göndərmişdilər. Bu hər ikimizin ürəyincə idi. Həmişəki kimi yenidən boş vaxtlarımızda bir yerdə olmağa çalışır, qəm-qüssəni, sevinci bölüşdürürdük, lazım gələndə bir-birimizə faydalı məsləhətlər verirdik. Hər zaman yaranmış vəziyyətə digər, gözləmədiyimiz baxış bucağından baxmağa kömək edirdik. Uzun-uzadı səmimi söhbətlərimiz, "qəh-qəhi" gülüşlərimiz isə neqativ emosiyaların qalıqlarını silib yox edirdi.

Az keçmiş bizim həyat yollarımız yendən ayrıldı. Maksim valideynlərinin yanına qayıtdı və 10-cu sinfi orada oxudu. Mən isə əvvəlcə hərbi xidmətə, sonra isə ali təhsil almaq üçün Xabarovsk şəhərinə getdim. Əlaqələrimiz demək olar kəsildi. Uzun illər görüşə bilmədik. Ancaq bir-birimizdən imkan olanda həmişə hal-əhval tuturduq.

Böyük ürək sahibi, geniş dünyagörüşlü, hərtərəfli istedada malik Maksim Camal oğlu Güneydə doğulmuşdur. Orta məktəbi bitirənədək dörd dəfə məktəb dəyişmişdir. 1977-ci ildə Qasım İsmayılov rayonunun Ağamalı kənd orta məktəbini bitirərək Gəncə şəhərindəki 89 saylı texniki məktəbdə texniki avadanlıqların tənzimləyicisi ixtisasına yiyələnmişdir.

1980-ci ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırıldı. Belarusun Lipetsk şəhərində hərbi xidmətdə oldu. 1982-ci ildə hərbi xidmətini başa vuraraq Qasım İsmayılov rayonunun Xanlar adına kolxozunda kolxozçu kimi əmək fəaliyyətinə başladı. 1983-cü ildə ailəsi ilə birlikdə Krasnodar şəhərinə köçdü. 5 il orada yaşadıqdan sonra, 1987-ci ildə yenidən Goranboy rayonunun Mixaylovka kəndinə qayıtdı və kolxozda müxtəlif vəzifələrdə, o cümlədən Xanlar adına kolxozun mədəniyyət evinin bədii rəhbəri vəzifəsində çalışdı.

1993-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrində gizir rütbəsində hərbi xidmətə başladı.

2011-ci ildə mən ölkəyə qayıdandan sonra onunla görüşmək üçün hərbi hissəyə getdim. Buraxılış məntəqəsində Maksim Bağırovla görüşmək istədiyimi bildirdim. Növbətçi əsgər bir neçə dəqiqə gözləməyimi xahiş etdi. Onu gözləyənə qədər bu əsgərlə xeyli söhbət etdik. Əsgərin sözlərindən mənə aydın oldu ki, gizir Bağırov hərbi hissədə sevilib-seçilən, çox hörmətli, qayğıkeş, böyük mədəniyyət və əxlaqi dəyərlərə malik insan, çalışqanlığı ilə başqalarından fərqlənən bir hərbçi olaraq hamının hörmətini qazanmışdır. Sonradan onun komandirləri ilə görüşəndə də Maksimin necə çalışqan hərbçi olduğunun şahidi oldum. Qulluq etdiyi texnikanın həmişə döyüş vəziyyətinə hazır olması üçün bütün biliyini, qabiliyyətini, bacarığını işə salaraq gecə-gündüz zəhmət çəkməkdən yorulmur. Yüksək rütbəli zabitlərin, komandirlərin ona qarşı olan münasibətləri göstərdi ki, gizir Bağırov hərbi hissə heyətinin sevimlisidir, hörmət etdikləri ağsaqqalıdır, sayılıb seçilən mütəxəssisdir.

Bu görüşlərdən sonra bizim münasibətlərimiz daha da sıxlaşdı, tez-tez görüşürük, imkan olanda bu görüşlərimizdə ailə üzvləri də iştirak edirlər. Dostluğumuz, qardaşlığımız ailə arasında da kök atıb. Maksimlə daha yaxından təmasda olduqca, başa düşdüm ki, bu insan həyatda ucaldıqca sadələşmiş, qarşısına çıxan maneələri bir-bir aşdıqca möhkəmlənmiş, rastlaşdığı çətinliklərə dəyanətlə dözmüş, həyat yolunun enişli-yoxuşlu pillələrini zəhmətlə, bir-bir, aram-aram, qalxaraq kamillik zirvəsinə yüksəlmişdir.

Maksimin gözəl yol yoldaşlığı, güclü zarafatçılığı var, təbiətcə mülayimdir, verdiyi sözə sədaqəti və dəqiqliyi ilə başqalarından fərqlənir. Həyatda əqidəli və prinsipial mövqeyə malikdir. Qabiliyyətli təsərrüfatçılığı var. Ölkədə sayılıb-seçilən arıçılardan biridir. Keyfiyyətli və ləzzətli, müxtəlif çeşiddə şərablar hazırlaya bilir.

Maksim Camal oğlu 2011-ci ildə ordudan ehtiyata buraxılmışdır. Hazırda hərbi hissədə mülki vəzifədə çalışır. Hərbi xidməti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (1918-2008) 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley, 3-cü və 2-ci dərəcəli "Qüsursuz xidmətə görə" medallar ilə təltif edilmişdir.

Ailəlidir. Həyat yoldaşı Ülkər Rza qızı ilə Vasif və Rauf adlı iki oğul boya-başa çatdırıblar. Böyük oğlu Vasif də atasının yolu ilə gedərək hərbçi olmağı üstün tutdu. Kiçik oğlu Rauf isə ali təhsil aldıqdan sonra dövlət qurumunda çalışır. Övladlarının hər ikisi ailəlidir. Üç nəvəsi var. Göygöl şəhərində yaşayır.

PEŞƏKAR HƏKİMLƏRİMİZ

"Dərdlərin dərmanı, xəstələrin loğmanı Göyçədədir" xalq deyiminin son yüzillikdə Göyçəni dünyada məşhurlaşdıran, möcüzəkar loğman Hacı Nağının adı ilə bağlı olmasını bütün Oğuz elləri bilir. Xalq təbabətinin cövhəri Hacı Nağının sorağı bütün Güney Qafqazı, Arazın o tayını, Anadolunu dolanmışdır. Göyçənin əsrarəngiz təbiətindən yaşıl aptek kimi istifadə edən və güclü təbabət təhsili olan bu məşhur loğman dövrünün ən tanınmış isimlərindən biri olaraq Göyçə adını hər yerdə tanıtmışdır. Hacı Nağının şagirdi, haqqında yuxarıda söhbət açdığımız Hacı Rza Kərbəlayı Ramazan oğlu da Sədənağac kəndinin loğmanı kimi bütün mahalda məşhur olmuş, bizim əhalinin təbii artımını istəməyən çar hökumətinin Qafqazın türk əhalisini müasir səhiyyədən uzaq tutduğu zamanlarda bir həkim kimi uzun illər əhalinin sağlamlığının keşiyində durmuşdur.

Bu gün onların davamçıları, milli səhiyyə sistemində çalışan, əslən Sədənağaclı olan onlarca həkim bütün ölkənin tanınmışlarına çevrilmiş, xalqın hörmət və rəğbətini qazanmışlar.

Göyçə mahalında elə də böyük olmayan Sədənağac kəndinin bu gün ölkənin həkimləri cərgəsində tibb elmləri doktoru, professor Rizvan Möhsün oğlu Məmmədov, tibb elmləri üzrə fəlsəfə doktorları: Elmar Yəhya oğlu Şərifov, Kamran Sultan oğlu Qurbanov, Ruslan Aydın oğlu Məmmədov, Sahib Məcnun oğlu İbrahimov, Səbuhi Nəcəf oğlu Qurbanov, Telman Xanlar oğlu Rzayev və aşağıda haqqında söhbət açdığımız digər şöhrətli həkimləri çalışır.

ANAR ELDAR OĞLU ƏMRAH

(25 fevral 1978, Qanlı k.)



Ürək cərrahı. Cəmiyyətdə insana hörmət qazandıran, başucalığı gətirən keyfiyyətlərdən biri də Kamillikdir. Mütəfəkkir şair Nizami Gəncəvinin hələ XII əsrdə söylədiyi:

Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil bilәsən.

sözləri bir növ aforizmə çevrilsə də, insanları seçdikləri, talelərini bağladıqları sənətin sirlərini mükəmməl öyrənməyə çağıran sözlər olmaqla, daşıdığı mənaya görə zamandan asılı olmayaraq həmişə aktual olmuşdur. Gördüyü işi yaxşı bilən, əməlləri ilə xariqələr yaradan sənətkarlar həmişə sayılıb-seçilmişlər. Adətən sənətindən, peşəsindən asılı olmayaraq, gördüyü işlərin mükəmməlliyinə, qeyri-adi professionallığına, möcüzə təsiri bağışladığına və elmiliyinə görə bu insanlar haqqında "Əlləri qızıldır" deyirlər.

Mən sizə bu kiçicik yazıda, taleyini bağladığı sahədə kamillik zirvəsinə yüksələrək təkcə öz adını deyil, doğma Vətənimiz Azərbaycanı, onun gözəl bucaqlarından olan Ulu Göyçəmizi bütün dünyada şöhrətləndirən bir insan barəsində söhbət açmaq istəyirəm. Minlərlə xəstələri tərəfindən "Əlləri qızıl həkim" titulu qazanmış bu insan 2013-cü ildə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında ürək-damar cərrahı kimi fəaliyyətə başlayan və Ürək-Damar Mərkəzinə bu yaxınlara qədər rəhbərlik edən polkovnik-leytenant Anar Əmrahdır.

Mərkəzdə hər il uğurla keçirilən150-dən artıq açıq ürək əməliyyatının hər biri öz mürəkkəbliyinə görə fərqlənirdi. Belə əməliyyatlar arasında dünyada ilk dəfə olaraq tətbiq edilən əməliyyatlar da az deyildi. Ürəyin tac arteriyasından gücləndirilmiş ultrasəs dalğaları ilə trombun əridilməsi və anesteziya verilmədən, döş qəfəsi açılmadan aorta qapağının yerləşdirilməsi prosedurası dünyada ilk dəfə olaraq Anar Əmrahın birbaşa iştirakı ilə və rəhbərliyi altında icra edilib.

2018-ci ilin sonunda hərbi xidmət müddəti başa çatdığına görə polkovnik-leytenant Anar Eldar oğlu Əmrah ordudan ehtiyata buraxıldı və Respublika Müalicəvi Diaqnostika Mərkəzində (Bakı Ürək Mərkəzində) şöbə müdiri vəzifəsinə təyin edildi.

Qısa bir vaxtda bu tibb ocağında aparılan əməliyyatlar öz unikallığına görə bütün respublika mediasının gündəmində ən başlıca yer tutdu. Bu günlərdə Mərkəzdə Anar həkimin rəhbərliyi altında 72 yaşlı xəstənin döş qəfəsi açılmadan və anesteziya verilmədən qapalı üsulla ürək qapağı dəyişdirilib.

Qeyd etmək yerinə düşərdi ki, qapalı üsulla ürək qapağının dəyişdirilməsi tibbin ən müasir yeniliklərindən sayılır. Bu əməliyyat artıq 3-cü dəfədir ki, Anar Əmrahın rəhbərliyi ilə uğurla həyata keçirilir.

Onun ömür yolundan bəzi məqamlara qısa nəzər salsaq, hər yerdə onun uğurlarının arxasında gərgin çalışmaların, ağır zəhmətin olduğunu görürük.

Anar Eldar oğlu Əmrah 1984-cü ildə valideynləri ilə birlikdə Göygöl rayonunun Göyçəkənd (keçmiş Ayqestan) kəndinə köçdülər. Əvvəlcə kənd orta məktəbində, sonralar isə Bakı Kimya-Biologiya Fənn liseyində orta təhsil aldı. 1995-ci ildə liseyi bitirdikdən sonra Ankara Gülhanə Hərbi Tibb Akademiyasına daxil oldu. 2002-ci ildə Akademiyanı bitirərək Samsunda Səhra Səhiyyə Məktəbi və Ankara təcili tibbi yardım şöbəsində ümumi təcrübə həkimi olaraq çalışdı.

2003-2005-ci illərdə Bakıda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ixtisasına uyğun olaraq hərbi xidmət etdi. 2005-ci ildə GATA Ürək Damar Cərrahiyyəsi bölməsində uzmanlık (ixtisas) təhsilinə başladı, 2011-ci ildə təhsilini uğurla başa çatdırdı və Ürək-Damar Cərrahı ixtisası üzrə uzman olaraq məzun oldu.

2009-cu ilin mayında Avropada sinə assosiasiyasının ürək cərrahiyyəsi (EACTS), Bergamo (İtaliya) konfransında ürək cərrahiyyə kurslarında məşğul oldu. 2010-2011-ci illərdə Ankara Başkent Universiteti Ürək-Damar Cərrahiyyəsi Klinikasında Ürək Nəqli və Pediatrik Ürək Cərrahiyyəsi bölmələrində çalışdı.

2011-ci ilin aprelində Almaniyada Leypsiq Universiteti Ürək Cərrahiyyəsi Klinikasında Minimal İnvaziv Ürək Cərrahiyyəsi kursunu bitirdi. 2012-ci ilin fevralında Avropa Sinə Ürək Cərrahiyyəsi birliyinin (EACTS) Hollandiyada təşkil etdiyi Minimal İnvaziv Ürək Cərrahiyyəsi kurslarında ixtisasını artırdı.

2011-2013-cü illərdə Ankara GATA Ürək-Damar Cərrahiyyəsi Klinikasında çalışdı. 2014-cü ilin sentyabr ayında Amerika Birləşmiş Ştatlarında Uşaq Milli Tibb Mərkəzində və Clevelandik xəstəxanalarında kurslarda təhsilini artırdı.

Evlidir. Rəsul adlı oğlu var. Bakıda yaşayır.

Anar Əmrah yüksək ixtisaslı həkim olmaqla yanaşı, həm də qabiliyyətli və bacarıqlı şöbə rəisi olaraq işgüzar, çevik, yüksək tibbi təfəkkürə malik bir kollektiv yaratmışdır. Ölkə mediasında bu kollektiv, onun ayrı-ayrı üzvləri haqqında xoş arzularla dolu yazıları oxuduqca, iftixar hissinə qapılmamaq olmur. İndiyədək əməliyyata aldıqları pasiyentlərin, onların ailə üzvlərinin, qohum-əqrabalarının, bir sözlə, bütün ölkənin sevimlisinə çevrilən bu kollektivin hər bir üzvü, ayrı-ayrılıqda

fenomendir, loğmandır, ölkədə tibb sahəsinin avanqardıdır. Sutkada 24 saat qəbul vaxtı olan bu kollektiv millətin ümidgahına çevrilmişdir.

Atası Eldar müəllimin ilk həyat dərslərindən düzgünlüyü, qətiyyətliliyi, özünə inamı, çalışqanlığı, məntiqə uyğun hərəkət tərzini, gözəllik qanunları ilə qurub-yaratmağı, anası Minayə xanımdan mehribanlıq, xeyirxahlıq, qayğıkeşlik, gülərüzlük, yaxınlarını sevmək və yaxınları tərəfindən sevilməyi bacarmaq qabiliyyətini mənimsəyən Anar həkim indiyədək ona üz tutan, yanına gələn hər bir xəstəyə əlindən gələn köməyi əsirgəməmiş, şəfa vermişdir. Valideynlərinin, müəllimlərinin, doğmalarının ümidlərini doğrultmağa, Hippokrat andına sadiq qalmağa çalışmışdır. Sevdiyi həkimlik peşəsinin, xüsusən ürək-damar həkimi ixtisasının nüfuzunu saxlamaq onun ali məqsədinə çevrilmişdir.

Anar Əmrah tibbi praktika ilə yanaşı özünü təkmilləşdirməyə daimi diqqət yetirir. Azərbaycan Ürək-Damar Cərrahiyyəsi Cəmiyyətinin, Türkiyə Ürək-Damar Cərrahiyyəsi Cəmiyyətinin, Amerika Ürək Assosiasiyasının və Avropa Ürək Birliyinin üzvüdür. Tez-tez iştirak etdiyi beynəlxalq konfranslarda, simpoziumlarda məruzələrlə çıxış etmişdir. 20-dən artıq məqaləsi xarici elmi jurnallarda dərc olunmuşdur.

25 iyun 2018-ci ildə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən xüsusi xidmətlərinə görə polkovnik-leytenant, Ürək Cərrahı Anar Eldar oğlu Əmrah "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

ARİF VALEH OĞLU HACIYEV

(26 dekabr 1953, Güney)



Pediatr. 1968-ci ildə Güney kənd səkkizillik məktəbini, 1968-ci ildə rayonun Çaxırlı kənd orta məktəbində 9-cu sinfi, 1970-ci ildə Krasnoselo rayonunun Ardanış kənd orta məktəbinin 10-cu sinfini bitirərək uşaq həkimi olmaq arzusu ilə sənədlərini Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsinə verdi. Qəbul imtahanlarını uğurla verərək instituta qəbul edildi. Hələ orta məktəbdə oxuduğu illərdə uşaq həkimi olmaq qərarını verən Arif, tanınmış həkim və psixoloqların, alim və professorların mühazirələrini dinləməklə, məsləhətlərini eşitməklə, fasiləsiz olaraq nəzəri və praktiki cəhətdən zənginləşdi, yetkinləşdi. Təcrübəli, savadlı həkim olmaq

üçün vaxtını hədər keçirmədi, gecə-gündüz çalışdı. Tələbəlik illərində təkcə savad almaqla kifayətlənmədi, institutun ictimai həyatında fəal iştirak etdi, fakültə həmkarlar təşkilatının sədri kimi mühüm bir vəzifənin öhdəsindən bacarıqla gəldi.


1977-ci ildə İnstitutu bitirdikdən sonra Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında bir il internatura keçdi. Uşaqlara məhəbbəti, saf əqidəsi ilə 1978-ci ilin avqust ayından 1979-cu ilin avqust ayına qədər Şəmkir rayonunun Çənlibel (o vaxtlaar Çardaxlı) kənd xəstəxanasında uşaq həkimi kimi əmək fəaliyyətinə başladı. 1979-cu ilin avqust ayından 2016-cı ilə qədər Şəmkir rayon uşaq həkimi vəzifəsində çalışdı.

İşlədiyi illərdə ali təhsilinə təcrübəli iş yoldaşlarının məsləhətlərini, həkimləri təkmilləşdirmə və ixtisasartırma kurslarında aldığı bilik və savadı əlavə edərək pediatriyanın özünəməxsus, spesifik xüsusiyyətlərini bütün dərinlikləri ilə mənimsəyərək peşəsində kamilləşdi. Analarından başqa kimsəni tanımayan, danışmağı hələ bacarmayan çağaların rahatsızlığını müəyyənləşdirmək, müayinə və müalicəsini yoluna qoymaq kimi çətin və şərəfli, eyni zamanda məsuliyyətli bir işin öhdəsindən bacarıqla gəldi. Arif həkim 2016-cı ildən Şəmkir rayon Mərkəzi Xəstəxanasında baş pediatr işləyir.

Evlidir. Üç övladı, altı nəvəsi var. Şəmkirdə yaşayırlar.

ƏLƏMDAR MAHMUD OĞLU ƏMRAHOV

(12 iyun 1952, Basarkeçər r-nu Qanlı k.)



Terapevt. 1959-1967-ci illərdə Qanlı kənd 8 illik məktəbdə təhsil almışdır. 1969-cu ildə rayonun Çaxırlı kənd orta məktəbini bitirmişdir. 1971-1973-cü illərdə Sovet Ordusu sıralarında Rusiya Federasiyasının Qorki (indiki Nijni Novqorod) şəhərində hərbi xidmətdə olmuşdur.

Hərbi xidməti başa vurduqdan sonra Bakı şəhərinə gəlmişdir. 1974-cü ildə qəbul imtahanlarını uğurla verərək Azərbycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olundu. 1981-ci ildə institutu bitirdikdən sonra Kəlbəcər rayonundakı İstisu sanatoriyasına terapevt həkim təyin edildi. Müxtəlif zamanlarda "Naftalan", "Abşeron", "Bilgəh", "Günəşli" sanatoriyalarında həkim-terapevt vəzifəsində çalışdı. 1990-cı ildə Göygöl rayonunun Çaykənd kən-

dində baş həkim vəzifəsinə təyin edilmişdir. 1995-ci ildən bu günədək Yeni Zod kənd xəstəxanasının baş həkimi vəzifəsində çalışır.

Qanlı kəndindən Cumaya Əli qızı ilə ailə qurub. Vüsal adlı bir oğlu, Polad, Murad və Banu adlı üç nəvəsi var. Hal-hazırda Göygöl rayonunun Göyçəkənd kəndində yaşayır.

MAYIL QƏDİR OĞLU ƏLİYEV

(1 may 1955, Güney)



Otorinolarinqoloq. Bu gün ölkədə tibbin ən son nailiyyətlərindən, texnika və texnologiyalarından istifadə etməklə xalqımıza göstərilən tibbi xidmətin çeşidi çox genişdir. Beynəlxalq standartlara uyğun, müasir avadanlıqların tətbiqi ilə həyata keçirilən, LOR (otorinolarinqologiya) sahəsində xüsusi təcrübə tələb edən, mürəkkəb cərrahi əməliyyatlar aparan tanınmış həkimlər cərgəsindəki həkimlərdən biri də Mayıl Qədir oğlu Əliyevdir.

Mayıl həkim kənddə boya-başa çatmış, 1970-ci ildə Güney kənd səkkizillik məktəbini bitirmiş, onilliyi isə rayonun Nərimanlı kənd orta məktəbində tamamlamışdır. Həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. Həkimlik peşəsinə layiqincə yiyələnmək üçün, bəyaz xalatı geyinib, ümid gözləyənlərə vaxtında şəfa vermək üçün gecəli-gündüzlü çalışdı, vaxtını kitabxanalarda, laboratoriyalarda keçirdi. İnstitutu 1978-ci ildə müvəffəqiyyətlə bitirib internaturaya daxil oldu. 1979-cu ildə internaturanı bitirərək, həkimlik diplomu aldı və təyinatla Daşkəsən rayonuna göndərildi.

İlk vaxtlar Daşkəsən rayonunun Qabaqtəpə və Xoşbulaq kənd xəstəxanalarına həkim təyin edildi. Çox qısa bir vaxtda yeni təyin olunmuş gənc Mayıl həkim, dağların döşünə səpələnmiş bu dağ kəndlərində yağışa-qara baxmayaraq insanların imdadına tələsdi, rayon sakinlərinin böyük hörmət və məhəbbətini qazandı.

1984-cü ildə hərbi komissarlıq tərəfindən Qazaxıstanın Karaqanda vilayətinə göndərildi. Əvvəlcə Karaqanda, sonralar isə Temirtau şəhərlərində həkim işlədi.

1986-cı ildə yenidən Daşkəsənə qayıtdı. Rayon mərkəzi xəstəxanasında həkim otorinolarinqoloq vəzifəsində fəaliyyətə başladı.

Beş ildən sonra, 1991-ci ildə bu xəstəxananın baş həkimi vəzifəsinə təyin edildi.

1993-cü ildə Azərbaycan Milli Ordusunun Daşkəsən taborunda döyüşçü həkim kimi, torpaqlarımız uğrunda gedən döyüşlərdə yaxından iştirak etdi. 1994-cü ildə Müdafiə Nazirliyinin N saylı Gəncə hərbi hospitalında bölmə rəisi vəzifəsinə təyin edildi və 2004-cü ilə qədər burada xidmət etdi. 2004-cü ildə xidmətini başa vuraraq mayor rütbəsində ehtiyata buraxıldı. 2004-2010-cu illərdə Gəncə şəhər Uşaq xəstəxanasında burun-qulaq-boğaz şöbəsinin rəisi vəzifəsində çalışdı. 2010-cu ildən özəl xəstəxanalarda həkim otorinolarinqoloq işləyir.

Savadı, biliyi hər şeydən yüksək tutan atası Qədir kişinin nəsihətini heç vaxt yaddan çıxarmayan Mayıl Alıyev, işlədiyi illərdə ixtisasını artırmağı da unutmamışdı. 1984-cü ildə Almatı Tibb Universitetində, 2007-ci ildə Ankara Hacəttepe Universitetində, 2010-cu ildə İstanbul Tibb Mərkəzində, 2008-ci ildə Tehranda İmam Xomeyni xəstəxanasında, 2008 və 2010-cu illərdə Almaniyada Frankfurt xəstəxanasında, 2009-cu ildə İtaliyada ixtisasartırma kurslarında LOR (otorinolarinqologiya) sahəsi üzrə ixtisasını artırmaqla məşğul oldu.

İşlədiyi müddətdə LOR (otorinolarinqologiya) sahəsində dünya praktikasında tətbiq olunan, standart və müasir xüsusi təcrübə tələb edən bütün cərrahi əməliyyatların, LOR orqanlarda müxtəlif lazer cərrahi əməliyyatların icraçısıdır. Gənc mütəxəssislərin yetişdirilməsi və tədrisində aktiv iştirak edib. Onu demək kifayətdir ki, bu gün Mayıl həkimin qəbuluna düşmək istəyənlərin növbəsi bir neçə ay irəliyə müəyyənləşdirilir. Bu xalq arasında həkimə verilən önəmin göstəricisi olaraq, onun peşəkarlığını nişan verən bir indikatordur, yüksək ixtisas sahibi olmasının lakmus kağızıdır.

Yüksək dərəcəli, peşəkar həkim olmaqla yanaşı, Mayıl Qədir oğlu yaradıcı bir insandır. Hələ orta məktəbdə oxuduğu illərdə onun çəkdiyi yazıçı, alim portretləri bütün siniflərin, kabinetlərin yaraşığı idi. Yaratdığı rəsm əsərləri peşəkar rəssamların əsərlərindən heç də geridə qalmır, janr diapazonunun genişliyinə, ideya fəlsəfəsinin aliliyinə, rənglər kompozisiyasına görə bir sənət incisinə çevrilir.

Mayıl həkim asudə vaxtlarında şahmat oynamağı və ova çıxmağı çox sevir. Şahmat yarışlarında onunla rəqabət aparmaq çox çətindir. Ovda da qibtə ediləcək dərəcədə çevikliyi, cəldliyi ilə başqalarından fərqlənir. Piyada olaraq, dayanmadan kilometrlərlə yol getmək bacarığı möhkəm sağlamlığın və fiziki hazırlığın bəhrəsidir.

Mayıl həkimin əmək fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib.

"Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir.

Evlidir, iki qız övladı, dörd nəvəsi var. Gəncədə yaşayır.

SƏİDƏ NƏBİ QIZI PAŞAYEVA

(1 sentyabr 1979, Gəncə)



Uroloq. Bütün bilik və gücünü, istedad və bacarığını insanların sağlamlığının qorunmasına sərf edən, saysız-hesabsız müalicələri ilə uroloji xəstəliklərin qarşısını almağa çalışan həkimlər çərgəsində Səidə həkimin öz yeri var. Daxili dünyası mərhəmət duyğuları ilə zəngin olan bu nəcib insan vətəndaşlara tibbi yardım göstərmək üçün hər zaman hazır, sağlamlığını itirmiş insanlara qarşı diqqətli və qayğıkeşdir. Şəfa ümidi ilə ona pənah gətirən xəstələrin ümid yeridir. İnsanlara qarşı sevgi dolu geniş qəlbi, sadəliyi ilə seçilən, öz şəxsi keyfiyyətlərinə görə hamının rəğbətini qazanan, peşəsində az bir vaxtda qibtəediləsi uğurlara çatmış Səidə Nəbi qızı Paşayeva 1996-cı ildə Gəncə şəhər 7 saylı orta məktəbini bitirdikdən sonra Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbil olunmuşdur.

Tələbəlik illərində vaxtını boşa sərf etmədi, tibb elminin sirlərinə yiyələnmək, həkimlik sənətinin incəliklərini mənimsəmək üçün zəhmətdən qorxmadı, gecə-gündüz oxudu, öyrəndi. 2003-cü ildə bu ali təhsil ocağını fərqlənmə diplomu ilə bitirdikdən sonra ATİ nəzdindəki Urologiya kafedrasında ikiillik kliniki ordinaturda təhsilini davam etdirdi, institutda aldığı tibbi biliklərini təkmilləşdirdi, həkimlik təcrübəsini daha da inkişaf etdirdi.

2006-cı ildə Diaqnoz Tibb mərkəzində həkim-uroloq vəzifəsində işə başladı. Az bir vaxtda savadlı, bacarıqlı, qabiliyyətli həkim kimi özünə ad qazandı. Onun şəfalı əllərinə ehtiyacı olan hər bir şəxsin, qəbuluna gələn hər kəsin ürəyinə yol tapa bilir. Pasiyentləri diqqətlə müayinə edir, hərtərəfli araşdırmadan sonra dəqiq diaqnoz qoyur. Ağır vəziyyətdə olan xəstələr belə, Səidə həkimin qəbulundan sonra qısa bir müddətdə şəfa tapır, sağalır, normal həyata qayıdır.

Təcrübəli, sınanılmış uroloq həkimdən söhbət düşəndə nəinki Sədənağac kənd camaatı, eləcə də bütün Göyçəlilər ilk öncə böyük qürur hissi ilə, fəxrlə, həkim-uroloq Səidə Nəbi qızının adını çəkirlər. İlk vaxtlar mən bunu yerliçiliyin əlaməti kimi qiymətləndirirdim. Ancaq Səidə həkimin iş yerində - Diaqnoz Tibb mərkəzində onun qəbulunda olanda, fikrimdə yanıldığımı anladım. Qəbul otağının önündəki izdihamı görəndə bir anlığa çaşdım, arxada qəbul növbəsində duran ahıl bir kişidən

"burada nə baş verir, bu nə növbəsidir?" sualına aldığım, "Səidə həkimin qəbulunda həmişə çox adam olur" cavabı məni xeyli düşündürdü. Bir neçə dəqiqə növbədəki adamların arasında olmaq məni hər şeydən agah etdi. Vəzifəsindən, sosial statusundan, maddi vəziyyətindən, kim və nəçi olmasından asılı olmayaraq hər kəsə eyni yanaşma tərzi, hər kəsə mənəvi dayaq olmaq bacarığı həkimin əsas vəzifə borcu kimi Səidə həkim tərəfindən önə çəkilmişdir və bu da həkimin qəlb saflığının, dərin mənəviyyatının təzahürüdür.

Səidə xanım bu gün çalışdığı kollektivdə hamının sevimlisidir. Xarakterindəki yüksək keyfiyyətlərə, kamil peşəkarlığına görə ətrafındakı insanların böyük hörmətini qazanıb. Ona hamı böyük rəğbətlə yanaşır, sözünə, mövqeyinə böyük dəyər verir. Xəstənin mənafeyi tələb edəndə məsləhət üçün peşə yoldaşlarına müraciətdən çəkinmir.

Tibdə yeni texnologiyaları, müasir müalicə üsullarını tətbiq etmək üçün həkim həmişə öz üzərində çalışmalıdır. Səidə həkim bu məqsədlə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun urologiya kafedrasında təkmilləşmə kurslarında, Moskva Dövlət Urologiya İnstitutunda Endoskopik urologiya üzrə ixtisasartırma kurslarında olmuşdur.

Bu gün Səidə Nəbi qızının həkimlik təcrübəsində keçdiyi mürəkkəb, zəngin həyat yolu və tibb sahəsindəki xidmətləri, sağlam köklər üzərində, atası Nəbi Bayram oğlunun, anası Sarabəyim Mirtağı qızının mənəvi dünyasından, böyüyüb boya-başa çatdığ Göyçə - Sədənağac ailə ocağından gələn nəciblik, insanlara sevgi, şəfqət hissi üzərində qurulmuşdur. Bu ailədən, bu ocaqdan çıxmış övladların hər biri qəlbi saf, əlləri təmiz, niyyəti dürüst şəxsiyyətlər kimi formalaşıblar.

Səidə xanımın həyat yolunda qazandığı uğurlardan ən başlıcası, ən keyfiyyətlisi nümunəvi ailəsidir. Göyçə mahalının Sədənağac kəndinin qabiliyyətli, savadlı oğullarından biri, ömür-gün yoldaşı Əli Tahir oğlu ilə evlidir. Məhəmməd adlı oğulları, Xədicə adlı qızları var.

ÜMİD ZAMAN OĞLU İBRAHİMOV

(1 yanvar 1957, Şamaxı ş.)



Anesteziоloq-reanimatoloq. Bu gün anesteziоloq-reanimatoloq tibb sahəsində ən çətin və mürəkkəb peşələrdən biridir. Bilənlər bilir, müasir cərrahiyyənin elə bir sahəsi yoxdur ki, orada anesteziоloq-reanimatoloq həkimə ehtiyac olmasın. Cərrahi əməliyyatlar zamanı xəstəni cərrahi müdaxiləyə hazırlamaq, əməliyyatın ağrısız olmasını təmin etmək, həyat əhəmiyyətli orqanların fəaliyyətini tənzimləmək və cərrah üçün əməliyyatın tam həcmdə aparılmasına optimal şərait yaratmaq bu peşə sahibinin əsas vəzifələrindən biri olaraq ondan məsuliyyət, savad, dərin bilik tələb edir.

Əgər həkim həyatını, fəaliyyətini elinə, xalqına, vətəninə xidmətə həsr edirsə, bu kriteriyaları asanlıqla keçir. Peşəsinin ağır və məsuliyyətli, xarakteri etibarilə nəcib və ləyaqətli olması onun ömrünü də çətin, mənalı və şərəfli edir. Əgər çəkdiyi zəhməti xalq üçün, vətən üçün yönəldə bilirsə, öz xoşbəxtliyini, səadətini, varlığını vətənə, xalqa ləyaqətlə xidmətdə görürsə, başı həmişə el içində uca olur. Həmişə həkimlər cərgəsində arxa planda dursa da, xəstələrin gözündə Ulu Tanrının göydən yerə göndərdiyi "xilaskar" kimi görünür. Belə həkimləri xalqımızın, millətimizin mənəvi siması, genefondu hesab etmək olar. Tam məsuliyyət və qürurla deyə bilərik ki, belə həkimlərdən biri də sözün həqiqi mənasında, gözəl insan, Azərsutikinti xəstəxanasının, eləcə də Bakı Diaqnoz Tibb Mərkəzinin reanimasiya şöbəsinin müdiri, həkim anesteziоloq Ümid Zaman oğlu İbrahimovdur.

Onun rəhbərlik etdiyi şöbədə iş tibbi etika və deontologiyaya əməl etməklə, xəstəyə və onun yaxınlarına həssas və humanizm prinsiplərindən yanaşmaqla qurulmuşdur. Həmişə gülərüz, şən, baməzəliyi ilə böyük bir kollektivin sevimlisinə çevrilən Ümid həkim təmasda olduğu insanlar arasında dərin hörmətə malikdir. Yüzlərlə ağır xəstənin həyata qaytarılmasında, onların xoşbəxt səhərinin açılmasında gərgin əməyi, yuxusuz gecələri durur.

Ümid İbrahimov ziyalı ailəsində dünyaya göz açıb. Səkkizilliyi 1972-ci ildə Şamaxı şəhər 2 saylı orta məktəbdə bitirmişdir. Ailə vəziyyəti ilə əlaqədar olaraq 9-cu sinfi Basarkeçərin Kiçik Məzrə kənd orta məktəbində oxudu. Sonra yenidən Şamaxıya qayıdıblar və 1974-cü ildə Şamaxı şəhər 1 saylı orta məktəbi bitirmişdir.

Həkim olmaq arzusu ilə sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə verdi. İmtahanları uğurla verməsinə baxmayaraq müsabiqədən keçə bilmədi. Lakin həkim olmaq arzusundan əl çəkmədi, qəbul imtahanlarından keçərək 1976-cı ildə Leninqrad Pediatriya Tibb İnstitutunun 1-ci kursuna daxil oldu. 1982-ci ildə ali məktəbi bitirib, təyinatla Tümen şəhərinə göndərildi. 1982-1988-ci illərdə Tümen şəhərində həkin anesteziloq-reanimatoloq işlədi.

1988-ci ildə Azərbaycana qayıdan Ümid həkim Bakı neyrocərrahiyyə xəstəxanasında anesteziloq-reanimatoloq vəzifəsinə təyin edildi. 1989-cu ildən 2002-ci ilə qədər Azərsutikinti xəstəxanasında həkim anesteziloq kimi fəaliyyət göstərdi. 2002-2005-ci illərdə Səudiyyə Ərəbistanının Nasiran şəhərində Vəliəhd Xalid adına hospitalda anesteziloq-reanimatoloq həkim işlədi. 2005-ci ildən bu günə qədər Bakı şəhərində Azərsutikinti xəstəxanasında, eyni zamanda Bakı Diaqnoz Tibb Mərkəzində anesteziologiya-reanimasiya şöbəsinə rəhbərlik edir.

İşlədiyi müddətdə mütəmadi olaraq ixtisasartırma kurslarını keçmiş, bir çox beynəlxalq simpozium və konfranslarda iştirak etmişdir.

Hazırda Sankt-Peterburq şəhərində İ.İ.Meçnikov adına Şimal-Qərb Dövlət Tibb Universitetinin aspiranturasında elmlər namizədi elmi dərəcəsi almaq üçün dissertasiyasının müdafiəsinə hazırlaşır.

Ömür-gün yoldaşı Zeynəb xanımla həmkardır. İki qızları, üç nəvələri var.

ÖLKƏNİN İŞ ADAMLARI SIRASINDA

Çağdaş dünyada iş adamı olmaq bir çoxlarına asan gəlsə də, əslində çox ağır bir sənətdir, peşədir, vəzifədir. Daha obrazlı ifadə etsək, çox ağır bir yükdür, məsuliyyətdir. Bu yükü daşımaq insandan bir çox qabiliyyət, hərtərəfli bilik və bacarıq, çeviklik, uzaqgörənlik tələb edir. Biznes mühitində formalaşan, fəaliyyət göstərən insanlar bəzi xarakterik özəlliklərinə görə başqalarından fərqlənirlər.

Sovetlər dönəminin başlıca prinsiplərindən olan: orta məktəb-ali məktəb-"yaxşı" iş yeri-təqaüd kimi asan və sadə bir həyat yolu bu gün də bir çox insanlar üçün daha aktualdır. Bu kimi insanlar müzdlu əməklə məşğul olmağı daha asan və sadə bir yol bilirlər. Ona görə də bütün həyatı boyu "kiməsə" işləyir, qulluq edir, kiminsə tapşırığını yerinə yetirirlər. Qeyd etmək lazımdır ki, bir çoxları bu işi layiqincə görməyi də bacarır və buna bütün ömürlərini həsr edərək, nümunəvi işçilər sırasında hörmət sahibi olur, cəmiyyətdə özlərinə layiqincə yer tuta bilirlər. Ancaq bunun əksi olan (bələləri daha azdır) insanlar həyatlarını sahibkarlıq fəaliyyətilə bağlayır, pulu maaş şəklində kimdənsə almağı yox, özlərinin qazanmağını daha üstün tuturlar.

Məlumdur ki, sahibkarlıq həmişə cəmiyyətin inkişaf forması olaraq yeni iş yerləri yaradır, dövlət büdcəsinin bir hissəsinin ödənilməsində müstəsna rol oynayır və ölkənin inkişafında əsas qüvvələrdən biri olaraq cəmiyyətdə mühüm yer tutur.

Sahibkarlıqla məşğul olan insanların hamısını birləşdirən ümumi bir neçə cəhətin olduğu bəllidir.

Bizneslə məşğul olmaq insandan xüsusi istedad tələb edir. Bunlardan biri, deyə bilərəm ki, ən zərurisi biznesmenin mükəmməl idarəçi olmasıdır.

Biznesmenin rəhbərlik qabiliyyəti və təcrübəsi olmalıdır, işçilərinə düzgün istiqamət vermək üçün gördüyü işi mükəmməl bilməlidir. Ona görə də uğurlu biznesmenlərin əksəriyyəti təcrübəli, istedadlı və xüsusi ideyaları olan, mübarizə aparmağı bacaran insanlardır. Öz hədəflərinə çatmaq üçün bu insanlar gecə-gündüz, aram-aram, səbrlə, tələsmədən yollarına davam edirlər. Lazım gəldikdə seçdiyi strategiyaya uyğun olaraq taktikasını, düşüncələrini, konkret zaman kəsimində maraqlarını və məsələyə baxış bucağını dəyişə bilirlər.

Ümumi Sədənağac kökünün telləri ilə biri-birinə bağlı olan biznesmenlərin, iş adamlarının, dövlət qulluqçularının, bu kitabda, əlifba sırası ilə hər birinin ayrı-ayrılıqda, "fərdi portretinin" verilməsi bu insanların bilik və bacarığını göstərmək, onların iş təcrübəsi ilə, idarəçiliklə bağlı məsələlərin həllində atdığı mühüm addımlarla oxucularımızı tanış etmək, gənc, böyüməkdə olan nəslə nümunə kimi göstərmək məqsədi daşıyır.

ASİF RAMAZAN OĞLU İBRAHİMOV

(1 iyun 1969, Güney)



Hələ 1975-ci ildə Güney kənd orta məktəbinin birinci sinfinə gedən gündən dərslərinə "kişi" ciddiliyi ilə yanaşdı. Savada, elmə marağı, həvəsi ilə şagird yoldaşlarından seçildi. Davranışı və qabiliyyəti ilə müəllimlərinin dərin rəğbətini qazandı. Hər dəfə dərslərindən beş alanda, ən böyük arzusu tez evə qaçmaq, gündəliyindəki beşləri o zaman meşəbəyi işləyən atasına göstərmək, onun tərifli sözlərini eşitmək idi. Lakin taleyin amansız hökmü ilə bu bəxtiyarlığın ömrü qısa oldu. Asif 9 yaşında olarkən atası Ramazan əmi avtomobil qəzasında həyatını itirdi. Qıvrımsaç, məsum bir uşağın qayğısız, sevinclə dolu, atalı xoşbəxtlik dünyasına son qoyuldu. Bir anlıq sarsılsa da, büdrəsə də, tez özünü ələ ala bildi. Anası Müşavirə xanımın, bacıları Mahur və Pərinin qayğıkeşliyi, böyük qardaşı Əjdərin atalıq himayəsi onda yaxşı oxumaq həvəsini daha da gücləndirdi. Atasızlığını heç yerdə, heç kimin yanında büruzə verməməyə çalışdı, ata həsrətini, ata nisgilini qəlbinin dərin bir yerində gizlətdi, onun üstünü ata sevgisi ilə, ata arzuları ilə örtdü.

1985-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra, qəlbindəki böyük arzular 16 yaşında bu gənci ali təhsil almaq üçün Gəncə şəhərinə gətirdi. Məqsədi bu gözəl şəhərin gur, qaynar həyatına qoşulub, həm istehsalatda çalışmaq, həm də ali təhsil almaq idi. Orta məktəbdə yaxşı oxuması, çalışqan olması hər iki arzusunu reallaşdırmağa əlverişli zəmin yaratdı. Bu məqsədlə sənədlərini Azərbaycan Texnologiya İnstitutunun mexanika fakültəsinin axşam şöbəsinə verdi. Qəbul imtahanlarını müvəffəqiyyətlə verərək instituta qəbul olundu. Qısa bir müddətdən sonra Gəncə toxuculuq kombinatında usta köməkçisi kimi əmək fəaliyyətinə başladı. Gündüzlər əmək fəaliyyəti ilə məşğul olur, axşamlar isə oxuyurdu. İlk vaxtlar bir qədər çətin olsa

da, uşaqlıqdan zəhmətə, çətinliyə alışmış olan bu zirək gənc hər iki işin öhdəsindən asanlıqla gəldi. İşdə bacarıqlı usta köməkçisi, ali məktəbdə isə savadlı çalışqan tələbə kimi seçildi, hər iki kollektivdə hörmət qazandı, hamının sevimlisinə çevrildi.

1987-1989-cu illərdə keçmiş Sovet Ordusu sıralarında Çexoslovakiya Federasiyasının ərazisində hərbi xidmətdə oldu. Qulluq etdiyi dövrdə də Asif Ramazan oğlu öz fəallığı ilə seçildi, nümunəvi əsgər kimi dəfələrlə hərbi hissə komandirlərinin təşəkkürnamələrinə layiq görüldü. Orduda tank sürücüsü peşəsinə yiyələndi. Hərbi xidməti başa vurduqdan sonra doğma Gəncə şəhərinə qayıtdı, təhsilini və əmək fəaliyyətini davam etdirdi.

1989-cu ildə Gəncə rabitə sənayesi zavodunda iqtisadçı vəzifəsinə təyin edildi. Az bir müddətdə bacarıqlı mütəxəssis kimi tanındı, öz bacarığı və qabiliyyətinə, işə münasibətinə görə zavod rəhbərliyinin və bütün əmək kollektivinin dərin hörmətini qazandı.

Bu keyfiyyətlərinə görə də 1990-cı ildə zavodun maddi-texniki təchizat şöbəsinin rəisi vəzifəsinə irəli çəkildi.

Sovetlər İttifaqı dağıldıqdan sonra zavoddan ayrıldı, müstəqil iş yoluna qədəm qoydu. 1993-cü ildən biznesin müxtəlif sahələrində uğurla çalışır.

Təsisçisi və rəhbəri olduğu "Arena-İnşaat" MMC-nin 2005-ci ildən 2017-ci ilə qədər gördüyü əsas inşaat işlərinin siyahısına nəzər salsaq, Asif Ramazan oğlunun qabiliyyətinin, bacarığının, savadının dərinliyinə bir daha şahid olarıq:

2005-2006-cı illərdə Gəncə şəhərində "Jardin Royal" şokolad fabrikinin inşaat və quraşdırma işlərini 18 ay ərzində yerinə yetirərək istifadəyə vermişdir.

2006-2007-ci illərdə Göygöl şərab zavodunun yenidən qurulma layihəsini həyata keçirdi.

2007-2008-ci illərdə Gəncə şəhər Baş Polis İdarəsi binasının tikintisini həyata keçirərək, qısa bir müddətdə müasir tipli, gözəl memarlığa malik inzibati binanı istifadəyə verdi.

2009-2010-cu illərdə Quba şəhərində yerləşən Daxili Qoşunların hərbi hissəsinin tikinti-inşaat işlərini, mebel və avadanlıqla təchizatını təmin etdi.

2011-2012-ci illərdə Daxili Qoşunların Ali Hərbi Məktəbinin tamamilə yenidən qurulma layihəsini və tam maddi təchizatını həyata keçirdi.

2012-2013-cü illərdə DİN nəzdində Xəzri İstirahət Kompleksinin qismən tikinti işlərini və bütünlüklə mebel, avadanlıq və aksessuar təchizatını təmin etdi.

Bu obyektlərin hər birinin açılışında Prezident İlham Əliyev cənabları iştirak etmiş, görülən işləri yüksək qiymətləndirmişdir.

Bununla yanaşı "Arena-İnşaat" MMC şirkəti 2009-2010-cu illərdə Göygöl Şəhər Polis İdarəsinin, Samux Rayon Polis İdarəsinin və Tovuz Rayon Polis İdarəsinin, 2012-2013-cü illərdə Zaqatala Polis şöbəsinin, Qazax Rayon Polis İdarəsinin,

Kəpəz Rayon Polis İdarəsinin, Bakı şəhər Nizami Rayon Polis İdarəsinin inzibati binasının, Bərdə şəhərində Daxili Qoşunlara məxsus 6 mərtəbəli yaşayış binasının tikintilərini həyata keçirmişdir. Bu obyektlərin açılışında Daxili İşlər Naziri Ramil Usubov iştirak etmiş və görülən işləri yüksək qiymətləndirmişdir.

Bu gün ölkə hüdudlarında 110-dan çox inzibati və yaşayış binasının, ticarət obyektinin inşası "Arena-İnşaat" MMC tərəfindən Asif Ramazan oğlunun rəhbərliyi ilə yerinə yetirilmişdir.

Əfsanə Litvin qızı ilə evli olan Asif Ramazan oğlu qayğıkeş və mehriban ailə başçısıdır. Zaman məhdudiyyətinə baxmayaraq, üç övladına vaxt ayıra, onların təhsili ilə ciddi maraqlana bilir. Böyük oğlu Emil Bakı Dövlət Universiteti beynəlxalq əlaqələr fakültəsinin tələbəsidir. Qızı Aytən və kiçik oğlu Yunis orta məktəbdə təhsil alırlar. Anası Müşavirə xanım da onlarla birlikdə olmaqla, Bakıda yaşayırlar.

ƏJDƏR RAMAZAN OĞLU İBRAHİMOV

(18 noyabr 1959, Güney)



Nadir insani keyfiyyətləri, zəngin mənəvi dünyası, yüksək səviyyəli intellekti ilə nəinki yaşadığı Gəncə şəhərində, eləcə də bütün Gəncə ətrafı rayon və kəndlərdə kifayət qədər yaxşı tanınan, zəhmətsever, bacarıqlı iş adamı Əjdər Ramazan oğlu bu gün Ulu Tanrının ona bəxş etdiyi, heç də hamar olmayan ömür yolunun 60-cı baharında inamla kamilliyə doğru irəliləyir. Qarşısına çıxan maneələri addım-addım aşdıqca möhkəmlənir, üzləşdiyi çətinliklərlə dəyanətlə mübarizə aparır. Öz halal zəhməti ilə ucalan bu İnsan hədsiz dərəcədə təmkinli, ekstremal vəziyyətlərdə, çox gərgin anlarda səbirli, soyuqqanlı hərəkətləri ilə, müxtəlif təbiətli adamlarla dil tapır, ünsiyyət yaradır, yaranmış problemlərin səssiz-küysüz həllinə nail olur.

Hələ Güney kənd orta məktəbində oxuyarkən fizika-riyaziyyat müəllimi olmaq haqqında düşünürdü və bu fənləri sinfimizdə onun qədər dərindən oxuyan ikinci bir şagird yox idi. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra (1977), qəbul imtahanlarını uğurla verərək V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) fizika-riyaziyyat fakültəsinə qəbul olundu. 1981-ci ildə bu ali məktəbi

müvəffəqiyyətlə bitirərək müəllimlik ixtisası aldı və həmin ildə təyinatla Gəncə şəhərinə göndərilərək 38 saylı texniki-peşə məktəbinə müəllim təyin edildi. Təzəcə çiçəklənməyə başlamış gəncliyini pedaqoji fəaliyyətə bağladı, 1995-ci ilə qədər, 15 il, bu məktəbdə əvvəlcə bir neçə il fizika-riyaziyyat müəllimi, sonralar isə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışdı. Qısa vaxtda savadlı, yüksək intellektli, yenilikçi bir müəllim kimi pedaqoji ictimaiyyət arasında məşhurlaşdı, ad-san qazandı. Şəhərin tədrisə aid bütün tədbirlərində, pedaqoji müşavirələrdə və konfranslarda iştirak edərək dərs dediyi məktəbin nüfuzunun yüksək səviyyəyə qalxmasına nail ola bildi.

90-cı illərin əvvəllərində keçmiş Sovetlər birliyi dağıdıldıqdan sonra peşə məktəblərindəki təhsil sistemi tənəzzülə doğru gedirdi, tədris prosesində bir süstlük yaranmışdı. Dünyaya öz məxsusi baxışları, fərqli düşüncə tərzi, fərqli idealları və hədəfləri olduğundan, bir şəxsiyyət kimi bunu qəbul etmir, "yorğana bürünüb, elnən sürünmək" onun təbiətinə uyğun gəlmirdi. Yaranmış mühit onun mənəvi-intellektual varlığı ilə uyuşmadığından, onun başqa mühitə ehtiyacı yarandı. Məhz buna görə də, 1995-ci ildə pedaqoji fəaliyyətinə xitam verərək biznes aləminə üz tutdu.

"Ülvi" kiçik müəssisəsini təsis edərək biznesin müxtəlif sahələrində uğurla fəaliyyət göstərməyə başladı. Qısa bir vaxtda Gəncə şəhərində sayılıb-seçilən, tanınmış və hörmətli iş adamlarından birinə çevrildi. Şəhərdə aparılan bütün abadlıq və yenidənqurma işlərinin fəal iştirakçısı oldu. Bir səxavətli xeyriyyəçi kimi xüsusi ad qazandı, şəhər rəhbərliyi və əhali arasında dərin hörmət sahibi oldu.

Əjdər Ramazan oğlunun həyatda qazandığı bütün uğurlar şəxsi keyfiyyətləri ilə əlaqədardır. Dedi-qodu, qarayaxma kimi naqisliklər onun xarakterinə ziddir, sözünü açıq deməyi xoşlayır, gördüyü nöqsanları, narazı olduğu məqamları mərd-mərdanə üzə deməkdən çəkinmir. İlk görüşdən sərt adam təsiri bağışlamağına baxmayaraq, ürəkdən yanan, daxilən mehriban, zarafatcıl, gülərüz, güclü yumor hissinə malik bir insan olaraq qarşısındakı həmsöhbətində xoş emosiyalar yaradır, bəzən də onun gözləri yaşaranadək gülməsinə səbəb olur.

17 yaşından, bir bədbəxt təsadüfün nəticəsi olaraq atadan yetim qalan Əjdər Ramazan oğlu, genişürəkli, tolerant, cəmiyyətin fəal üzvlərindən biri olmağı bacardı, evin böyük oğlu kimi bacılarına, kiçik qardaşına atalıq, cavan yaşlarından tək qalmış anasına havadarlıq edə bildi. Həyatda onların möhkəm ayaq üstə durmaları üçün var gücü ilə çalışdı. Təkcə öz qardaş-bacılarına yox, bütün qohum-əqrabaya, kənd camaatına dayaq ola bildi, çətin məqamlarda arxalarında durdu, çiynini ağır işlərə verməkdən çəkinmədi.

Məşədi Hüseynlilər nəslinin görkəmli ağsaqqallarından biri, mərhum İbad Qəşəmoğlu yaxşı iş tutmaq, xeyirli fəaliyyət göstərmək bacarığına görə onu Nəsrəddin

Tusinin kəlamı ilə bulud arxasından çıxan günəşə bənzədirdi. Həyat onun nə qədər haqlı olduğunu hər gün sübut edir.

Əjdər müəllim gözəl ailə başçısıdır, ömür-gün yoldaşı Səhərnaz xanımla layiqli övladlar tərbiyə edib böyütmüşlər. Oğlu Ülvi də atasının tutduğu yolla - insanlara xidmət yolu ilə gedərək müqəddəs bir işlə, əhaliyə dərman satışı ilə məşğul olur. Qızı Ülviyyə müəllimə gözəl balalarının tərbiyəsi ilə məşğuldur.

Bir-birindən gözəl və yaraşıqlı beş nəvəsi ona gündəlik babalıq hissini yaşadır, bu zirvəyə çatmağın nə qədər şirin, nə qədər qiymətli bir nemət olduğunu başa salır.

Əjdər müəllimlə bizim münasibətlərimizin tarixi 60-cı illərin birinci yarısından başlayır. O zamanlar evlərimiz yaxın idi və yaşıd olduğumuzdan (deyilənlərə görə Əjdər məndən 10 gün qabaq doğulub), eyni zamanda əmiuşaqları (atamla doğma əmioğludurlar) kimi 3-4 yaşımızdan sonra günlərimiz bir yerdə keçirdi. Məktəbə də eyni ildə getdik, eyni sinifdə oxuduq. Bir il Bakı şəhərində fəhlə yataqxanasında bir otaqda yaşadıq, gəncliyimizin ən qaynar və çılğın illərini bir yerdə keçirdik. Həmişə məslək və əqidə yoldaşı kimi, gənclik illərinin sirdaşı kimi 30 illik ayrılığa baxmayaraq (mənim Rusiyada yaşadığım illər) əlaqələrimiz möhkəm və yaxın olub. İndi də bu dəyərli və qabiliyyətli insanla olduqca yaxın münasibətlərimiz var.

Əjdər müəllim bu gün mənim güvəndiyin dağdır, hər zaman arxasınca gedə biləcəyim, hər görüşümüzdə ən əziz adamım kimi bağrıma basdığım insandır. Sevincimə sevinən, dərdimə ortaq olandır. Yaxşı gündə də, yaman gündə də yanımda hiss etdiyim hənirdir, qəm-qüssəni unutduran sirdaşdır.

Bu kiçicik bir yazıda qısa da olsa Əjdər müəllimi oxuculara təqdim etdim, onun kimliyini azacıq da olsa göstərməyə çalışdım. Bu işi həvəslə, fərəflə, sevə-sevə gördüm, onun haqqında bir neçə kəlmə söz yazmağı özümə şərəf saydım!

ƏLİ ZEYNALABDI OĞLU SƏFƏROV

(25 noyabr 1959, Güney)

Konfutsiyə görə, hər bir insanın həyat yolunu onun mənəvi dünyası və xarakteri təyin edir. Hər kəs bilir ki, insanın mahiyyəti, mənəvi keyfiyyətləri həqiqətən də onun əməllərində, fəaliyyətində reallaşır, onun gördüyü işlərdə öz təcəssümünü tapır. Buna görə də insan ömrün kamillik zirvəsinə yetişmək, bu dünyada iz qoymaq xoşbəxtliyinə nəsib olmaq üçün xeyirxah və alicənab olmağa çalışır. Cəmiyyətdə, dostlar arasında, ailədə nəcib keyfiyyətlərini, zəngin mənəvi aləmini parlaq şəxsiyyətində və müdrik əməllərində göstərir. Ömür payının 59-cu ilini ləyaqətlə yola salmış, zəngin mənəviyyat sahibi, dəyərli iş adamlarından biri, sinif yoldaşım, yaxın dostum, hər zaman qürur duyduğum Əli Zeynalabdı oğlu Səfərov da belə insanlar cərgəsindədir.



Əli Zeynalabdı oğlu çoxuşaqlı ailədə doğulmuşdur. Doqquz uşaqdan Əli beşinci övlad idi. Atası Zeynalabdı kişi, anası Səməngül (Gülüş) xanım kolxozda (sonralar sovxozda) çalışaraq bu böyük ailənin normal yaşayışını təmin edirdilər. Arıçılıq fermasında arıçı kimi çalışan Zeynalabdı dayı bütün uşaqların sevimlisi idi. Həmişə bala qonaq edirdi.

Əli Zeynalabdı oğlu 1967-1976-cı illərdə Güney kənd orta məktəbində 9-cu sinfi, 1977-ci ildə isə rayonun Kiçik Məzrə kənd orta məktəbində 10-cu sinfi bitirərək, ali təhsil almaq üçün Bakı şəhərinə gəldi.

Həmin il qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun metallurgiya fakültəsnə qəbul olundu.

Hərbi xidmət borcunu 1978-80-ci illərdə Rusiyanın Xabarovsk şəhərində yerinə yetirdi. Tərxis olunduqdan sonra yenidən instituta qayıtdı və axşam şöbəsində təhsilini davam etdirdi. Təhsilini davam etdirməklə yanaşı, Bakı Baş Tikinti İdarəsinin 2 saylı evtikmə kombinatında işləyirdi.

1986-cı ildə ali təhsilini başa vurdu və 1993-cü ilə qədər kombinatda müxtəlif texniki işlərdə çalışdı.

1993-2002-ci illərdə Azərbaycan Korlar Cəmiyyətinin nəzdindəki Təmir-tikinti idarəsində iş icraçısı vəzifəsində çalışdı.

2002-ci ildən bu günə kimi özünün təşkil etdiyi ticarət biznesi ilə məşğuldur.

Xarakterindəki işgüzarlıq, qürur, ciddilik, dönməzlik, yeri gələndə sözü üzə demək və digər bu kimi keyfiyyətləri biznesdə ona uğur qazandıran cəhətlərdən biridir.

Deportasiyadan sonra ölkənin bütün rayonlarına səpələnmiş Sədənağac camaatının elə bir toy və yas mərasimi olmur ki, bir iş adamı kimi zaman məhdudiyyətinə baxmayaraq, Əli orada iştirak etməmiş olsun. Bu da onun öz doğma Göyçə torpağına, elinə-obasına, kökünə, qohum-əqrabasına bağlılığının təzahürüdür. Atası Zeynalabdı kişidən gələn bu istiqanlılığı Əli həyat amalına çevirmişdir və əməllərində yaşadır.

Sumqayıt şəhərindən Aida Cəlil qızı ilə ailə qurub. Nurlan adlı oğlu, Sevil adlı qızı var. Bakıda yaşayırlar.

GÜNDÜZ NİFTALI OĞLU ƏLİYEV

(30 iyun 1968, Güney)



Hələ kiçik yaşlarından musiqiyə, təsviri sənətə olan tükənməz həvəsi ilə öz yaşıdlarından tamamilə fərqlənərək, qısa bir vaxtda müstəqil olaraq, heç kimin köməyi olmadan, demək olar ki, bütün musiqi alətlərində ifa etməyi öyrəndi. Məlahətli, gözəl səsi ilə oxuduğu mahnılarla, dəfələrlə yerli musiqi festivallarının iştirakçısı və qalibi oldu. Altı yaşında olarkən çəkdiyi "Məktəbimiz" adlı rəsmi "Göyərçin" jurnalında dərc olundu. Orta məktəbdə oxuyarkən bir neçə dəfə o vaxtların populyar jurnalı olan "Pioner" jurnalında rəsmləri dərc olunmuşdu.

Gündüz Niftalı oğlu orta məktəbi əla qiymətlərlə bitirərək 1985-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsinə daxil oldu.

1986-1988-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə oldu. 1988-ci ildə hərbi xidmətini bitirərək təhsilinə davam etdi və 1992-ci ildə institutu müvəffəqiyyətlə başa vurdu.

İnstitutda təhsil aldığı illərdə yaradıcılıqla məşğul olaraq bir rəssam kimi yetkin, təsviri sənətimizin görkəmli təmsilçilərindən birinə çevrildi. Onun müxtəlif janrlarda yaratdığı əsərlər, karikaturalar hər zaman böyük marağa səbəb oldu. Naturadan çəkilmiş minlərlə portretin müəllifi kimi məşhurlaşdı, özünəməxsus və orijinal üslubu ilə təsviri sənətimizi yüksək mərhələyə qaldıran çox istedadlı bir rəssam kimi tanındı.

1989-92-ci illərdə o vaxtların ən geniş oxucu kütləsinə malik olan "Azadlıq" qəzetində karikaturaçı-rəssam kimi çalışaraq, güclü bədii təsir qüvvəsi olan yüzlərlə maraqlı karikaturalar, şarjlar və başqa qrafik əsərlər yaratdı. Həmin illərdə cəmiyyətdə baş verən siyasi dəyişikliklərlə bağlı neqativ halları öz karikaturalarında yaratdığı ümumiləşdirilmiş obrazlarla satira, gülüş hədəfinə çevirərək onların iç üzünü açmaqdan çəkinmirdi. "Pəncək", "Tankın kölgəsi", "Trio" kimi əsərlərində keçmiş partiya və sovet rəhbərliyi, deputat korpusu gülüş hədəfinə çevrilmişdir.

Gündüz Niftalı oğlu peyzaj, natürmort, portret və digər ənənəvi janrların demək olar əksəriyyətində fırçasını sınayıb, bir-birindən gözəl, dəyərli, yüksək bədii keyfiyyətli əsərlər yaradıb.

Gündüz Niftalı oğlu 1989-1996-cı illərdə müxtəlif mətbu orqanlarında, o cümlədən "Azadlıq", "Press-Fakt" qəzetlərində, Azərbaycan Radiosunda jurnalistika sahəsində

də fəaliyyət göstərmişdir. Bir müddət Milli Məclisin mətbu oranı olan "Azərbaycan" qəzetinin xüsusi müxbiri oldu. 1995-ci ildə Milli Məclisdə Humanitar Araşdırmalar və Proqnozlaşdırma Mərkəzində Mətbuat Şöbəsinin müdiri təyin olundu.

Gündüz Niftalı oğlu Əliyev 1996-cı ildə mətbuat fəaliyyətindən ayrılıb istehsal, ticarət və xidmətin müxtəlif sahələrində iş adamı kimi fəaliyyət göstərməyə başladı. Onun yaratdığı Elfim Professional Şahmat Mərkəzi iki filialı ilə bu gün ölkədə məşhur şahmat məktəblərindən biridir. Burada 600-ə yaxın uşaq şahmatın sirlərinə yiyələnir, ölkə miqyasında turnirlərin qalibi olurlar.

Ölkənin qabaqcıl iş adamları arasında Gündüzün xüsusi yeri var. Təsis və rəhbərlik etdiyi Elfim Auto firması dünyanın bir neçə ən məşhur ehtiyat hissələri istehsalçısını Azərbaycanda uğurla təmsil edir. Onların istehsal etdikləri məhsulları ölkə istehlakçılarına çatdırmaqdan ötrü, dövrün ən müasir və qabaqcıl metodlarından istifadə edən Elfim Auto firması, avto ehtiyat hissələrinin satışı üzrə bütün ölkədə tanınır.

Gündüz Niftalı oğlu nümunəvi ailə başçısıdır. Həyat yoldaşı Rəfiqə xanımla Eltun və Fidan adlı iki övlad böyüdürlər. Hazırda Eltun Polşanın Vroslav şəhərində Biotexnoloq ixtisası üzrə təhsil alır.

XASAY PİRVERDİ OĞLU MƏMMƏDOV

(1 iyul 1963, Güney)



Ötən əsrin sonlarına yaxın ölkəmizdə kənd təsərrüfatının bütün sahələrində olduğu kimi, quşçuluq sahəsi də intensiv inkişaf yoluna çıxdı. Buna görə də bu sahədə savadlı mütəxəssislərə, bacarıqlı işçilərə böyük ehtiyac yarandı. Xüsusən də, 80-ci illərin ortalarına doğru bu iş bir qədər də sürətləndi. Bunun da nəticəsi olaraq quşçuluq fabriklərində qabaqcıl texnika və texnologiyaların tətbiqi, istehsalın mexanikləşdirilməsi önə çəkildi. Həmin vaxtlardan bu sahədə çalışan ali təhsilli mütəxəssislərdən biri də Xasay Pirverdi oğlu idi.

1979-cu ildə Güney kənd orta məktəbini bitirən Xasay Məmmədov sənədlərini Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna vermiş, qəbul imtahanlarını müvəffəqiyyətlə verərək tələbə adını qazanmışdır. 1984-cü ildə institutun baytarlıq fakültəsini bitirdikdən sonra, Azərquşçuluq Sənaye Birliyinin Yeni Bakı broyler fabrikinin inkubator sexində briqadir vəzifəsində işə baş-

ladı. 1988-ci ildə həmin fabrikin dezinfeksiya briqadasının briqadiri vəzifəsinə təyin edildi. 1991-ci ilin oktyabrında Yeni Bakı broyler fabrikinin üç yeni müəssisəyə bölünməsi ilə əlaqədar olaraq, 1 saylı Yeni Bakı broyler fabrikində sex rəisinin müavini vəzifəsinə təyin edildi.

1993-cü ilin martında 1 saylı "Aqrartikinti" trestinin qazanxana təsərrüfatında mühəndis-iqtisadçı vəzifəsinə irəli çəkildi. 1997-ci ilin iyunundan isə həmin müəssisənin baş mühasibi vəzifəsinə təyin edildi.

1998-ci ildə yeni ali təhsil almaq məqsədilə qiyabi olaraq Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın hüquqi idarə olunması fakültəsinə qəbul olundu və 2001-ci ildə təhsilini başa vuraraq menecer diplomu aldı.

1999-cu ildən özəl sektorda çalışmağı qərara aldı. Bu sahədəki çətinliklərdən qorxmayaraq, qarşısına qoyduğu məqsədə çatmaq üçün gecə-gündüz çalışdı, bütün əziyyətlərə qatlaşdı. Bacarıqlı mütəxəssislərdən, qabiliyyətli, savadlı işçilərdən ibarət komandası ilə ancaq irəliyə doğru hərəkət etdi. Bunun da nəticəsi olaraq öz işini qurdu və böyük nailiyyətlər qazandı.

Xasay Pirverdi oğlu bu gün ölkəmizdə öz sözü, mövqeyi, yeri olan iş adamıdır. Həmişə sadəliyi, gülərüzlüyü, xeyirxahlığı ilə seçilib.

1988-ci il deportasiyasından sonra valideynlərini - atası Pirverdi kişini, anası Minayə xanımı öz yanına - Bakıya gətirdi, onların qaçqınlıq dərdinin azacıq da olsa unudulması üçün əlindən gələni əsirgəmədi. Atası Pirverdi kişi qəriblik dərdinə davam gətirə bilmirdi. 2008-ci ildə 76 yaşında dünyasını dəyişdi. Üç qardaş və iki bacıdan ibarət böyük bir ailənin idarə edilməsi, bir ağsaqqal kimi Xasay Pirverdi oğlunun öhdəsinə düşdü.

Göyçə mahalının Krasnoselo rayonunun Ağbulaq kəndindən Kəmalə Əjdər qızı ilə ailə qurmuşdur. Raul və Ruslan adlı iki oğlu var.

MAİS PİRVERDİ OĞLU MƏMMƏDOV

(2 may 1965, Güney)

Sadə, əməyə bağlı bir ailədə doğulmuşdur. 1982-ci ildə Güney kənd orta məktəbini bitirib. Əmək fəaliyyətinə Güney kənd heyvandarlıq sovxozunda fəhlə kimi başlayıb. 1983-1985-ci illərdə Xabarovsk şəhərində hərbi xidmətdə olub. 1986-cı ildə ali təhsil almaq məqsədilə Novosibirsk şəhərinə gəlib və müxtəlif sahələrdə çalışıb.

1994-1999-cu illərdə Sibir İstehlak Kooperasiyası Universitetində müəssisədə iqtisadiyyat və idarəetmə ixtisası üzrə ali təhsil aldı.

Mais Pirverdi oğlu 1996-cı ildə "Energetik" Gənclik yaşayış kompleksinin rəhbəri kimi tikinti sektorunda çalışmağa başladı. Zaman keçdikcə bu kompleks "İlk İnşaat fondu" sənaye-tikinti holdinqinə çevrildi.



"Birinci İnşaat fondu" yaşayış komplekslərinin və mikrorayonların tikintisi ilə məşğul olan bir neçə inşaat müəssisələrini (MMC "Energetik", MMC "Stroykom", MMC "SMPstroy") özündə birləşdirən çoxsahəli holdinq olaraq Novosibirsk şəhərinin müxtəlif rayonlarında fəaliyyət göstərir.

Mais Pirverdi oğlunun rəhbərliyi altında "Birinci İnşaat fondu" dinamik şəkildə inkişaf edir, hər il tikinti həcmini artırır, inşası başa çatmış, təhvil verilən mənzillərin sayına görə Novosibirsk şəhəri üzrə aparıcı yerlərdən birini tutur.

Mais savadlı iqtisadçı və təcrübəli rəhbər olaraq müəssisənin intensiv inkişafı üçün lazım olan hər şəraiti yaratmışdır.

Holdinqin strategiyası kərpic və beton istehsalından tutmuş tikinti obyektlərinin təhvilinə qədər bütün inşaat işlərinin öz gücü ilə aparılmasını, tikilən mənzillərin yüksək keyfiyyətli olmasını, maya dəyərinin və tikinti müddətinin aşağı salınmasını nəzərdə tutur.

Minlərlə ailənin köçdüyü onlarla ev, müasir dövrə uyğun abadlaşdırılmış ərazilər, mədəni-istirahət mərkəzləri və yeni inşaat meydançalarının yaradılması "Birinci İnşaat fondu"nun fəaliyyətinin əsas nəticələridir.

2009-cu ildə Novosibirsk şəhərində üzlük kərpic və beton bloklar istehsal edən "Likolor" zavodunu tikdi. Bu zavodun məhsulları bu gün Qərbi və Şərqi Sibirdə, Qazaxıstanda geniş yayılmışdır.

2015-ci ilin martında Novosibirsk vilayətinin ərazisində evtikmədə istifadə edilən iri beton panellər istehsal edən "Armaton" zavodu istifadəyə verildi. Bu irimiqyaslı layihənin həyata keçirilməsi panel evtikmə üçün istənilən həcmdə dəmir-beton bloklar istehsal etməyə imkan yaradır, Novosibirsk vilayəti və onun hüdudlarından kənarda müasir yüksək texnologiyaya uyğun onlarla yeni iş yerinin yaradılmasını təmin edir.

Mais vilayətin və şəhərin ictimai həyatında fəal iştirak edir. Novosibirsk Dövlət Memarlıq-İnşaat Universitetinin himayəçilik şurasının üzvüdür.

On ildən çoxdur ki, Novosibirsk şəhərində onun təşəbbüsü ilə yaradılmış "Regional İşgüzar inşaatçılar klubu " qeyri-kommersiya tərəfdaşlığına rəhbərlik edir.

2013-cü ildə Mais Pirverdi oğlunun təşəbbüsü və bilavasitə iştirakı ilə, Novosibirsk vilayətində "Rusiya-Azərbaycan evi" regional ictimai təşkilatı yaradılıb. Bu təşkilat millətlərarası dostluq əlaqələrinin möhkəmləndirilməsində, Rusiya və Azərbaycan millətlərarası mənəvi və iqtisadi inteqrasiyasında birgə layihələrin həyata

keçirilməsində, gənclərin beynəlmiləlçilik ruhunda tərbiyə edilməsində bu gün mühüm addımlar atır.

2013-cü ilin mayında "Yedinaya Rossiya" Ümumrusiya Siyasi Partiyasının siyahıları üzrə Mais Pirverdi oğlu Novosibirsk vilayəti Qanunvericilik Məclisinin deputat korpusunun tərkibinə daxil oldu. 2015-ci ilin sentyabrında isə Novosibirsk vilayətinin 6-cı çağırış regional parlamentinə Maslyaninsk və Çerepanovsk rayonlarından deputat seçilmişdir. Deputatlıq fəaliyyətində seçicilərlə fəal görüşlər keçirir, öz təcrübə və biliklərini, bacarığını rayonun inkişafında əsirgəmir.

2016-cı ildə Novosibirsk vilayəti Qanunvericilik Məclisinin tikinti, mənzil-kommunal və tariflər üzrə komitəsinin sədri seçilmişdir.

2015-ci ildə Rusiya Federasiyasının tikinti Nazirliyinin təşəkkürnaməsi ilə təltif edilmişdir.

Novosibirsk vilayətinin sosial-iqtisadi inkişafındakı töhfələrinə görə Rusiya Federal Məclisinin Federasiya Şurasının Fəxri Fərmanı ilə təltif edilmişdir.

Novosibirsk vilayəti Qubernatorunun Fəxri Fərmanı ilə, Novosibirsk vilayəti Qanunvericilik Məclisinin "İctimai tanınma" medalı ilə təltif edilib.

Ailəlidir. Anar adlı oğlu var.

MAQSUD ŞAMİL OĞLU RÜSTƏMOV

(1 yanvar 1969, Sədənağac)

Kənd yerində doğulub boya-başa çatmış, öz gücü, bacarığı, qabiliyyəti ilə həyatda şərəfli, ləyaqətli mövqe qazanan, elə-obaya baş ucalığı gətirən alicənab insan, vətəndaş, Maqsud Şamil oğlu ziyalı ailəsində dünyaya göz açıb. Hələ 1975-1985-ci illərdə kənd orta məktəbində oxuyarkən anası Alidə xanımın, atası Şamil müəllimin yolunu davam etdirmək - həkim olmaq arzusu ilə gələcəyini düşünürdü.

Bu arzu onu Bakı şəhərinə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna gətirdi. Qəbul imtahanlarını uğurla verərək müalicə-profilaktika fakültəsinə qəbul olundu. İki il oxuduqdan sonra, 1987-ci ildə hərbi xidmətə çağırıldı. Rusiyanın Kaliningrad səhərində xidmət etdi. 1989-cu ildə hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirmək üçün yenidən Bakıya qayıtdı.

1993-cü ildə Azərbaycan Tibb Universitetini bitirdi. Bir neçə ay Gəncə şəhərində A.Səhhət adına xəstəxanada infeksionist-həkim vəzifəsində çalışdı. Qısa bir vaxtdan sonra anladı ki, bu yolla irəliləyə bilməyəcək, seçdiyi peşə ona maraqlı deyil. Məhz buna görə də, bütün həyatını dəyişəcək bir addım atdı. İşdən çıxaraq Rusiyanın Uzaq Şərq Regionuna - Vladivostok şəhərinə dostlarının yanına yola düşdü.



Vladivostokda yaşadığı qısa bir zamanda biznesin müxtəlif sahələrində öz gücünü sınadı. Atdığı ilk addımların uğursuzluğundan, üzləşdiyi çətinliklərdən qorxmadı, ruhdan düşmədi. Gecə-gündüz çalışdı, zəhmət çəkdi. Güclü sahibkarlıq ruhu, ruhdan düşməmək, fürsəti görmək və ondan istifadə etmək qabiliyyəti, cəsarət, proaktivlik və digər müsbət keyfiyyətlərin cəmi, fikirləşdiyi və başladığı hər bir işdə uğur qazanması üçün zəmin yaratdı. Üzərinə götürdüyü öhdəliklərin tam və qeyd-şərtsiz yerinə yetirilməsi üçün bütün qabiliyyətini, bacarığını sərf edərək, qısa vaxtda, məsuliyyətli, sözübütöv iş adamı kimi regiondakı biznes-mühitdə tanındı. Qurduğu biznesdə yavaş-yavaş uğurlar qazandı. Biznesin bir sahəsində qazandığı uğurlardan ruhlanaraq çoxsahəli biznes planını həyata keçirməyə başladı.

Doğma el-obasına, xalqına, qohum-əqrabasına, valideynlərinə bağlılıq Maqsudu Azərbaycana qayıtmağa sövq etdi. 2003-cü ildə yenidən Bakı şəhərinə qayıtdı. Biznesdə atdığı bir çox addımları təzədən təkrarlayaraq iş qurdu, respublika biznes aləmində möhkəmləndi.

Bu gün ölkəmizin iş adamları arasında Maqsud Şamil oğlunun öz yeri və çəkisi var. Bunun bir səbəbi qurduğu biznesin idarə olunması, işgüzarlıq qabiliyyəti ilə bağlıdırsa, digər tərəfi də biznes aləmində çox önəmli olan özünün şəxsi keyfiyyətləri ilə əlaqədardır. O, genişürəkli, tolerantdır. Sözün əsl mənasında ziyalıdır. Sözünü açıq deməyi xoşlayır. Başqasının uğurlarına da özününkü qədər sevinir.

Biznesdəki uğurları ilə yanaşı, ailə həyatında da öz yolunu seçmişdir. Özü kimi, zəhmətsevər və qayğıkeş olan ömür-gün yoldaşı Aygün xanım və xaricdə ali təhsil almış Tural və Orxan adlı iki oğuldan ibarət xoşbəxt ailəsi var.

Maqsud Şamil oğlunun qarşısında çox ciddi, həyəcanlı və ümdə vəzifələr durur: subay olan hər iki oğlunu evləndirmək, toy etmək, gəlin gətirmək, gələcəkdə insanın ömrünə bahar təravəti gətirən nəvələrə sevimli baba olmaq, onlara nağıl danışmaq.... Bütün bunlar tanrının insana bəxş etdiyi xoşbəxtliyin tərkib hissəsidir. Bu səadətin zirvəsinə çatmağı Maqsuda arzu edirik!

MÜŞFİQ ZİRƏDDİN OĞLU BAĞIROV

(13 iyun 1970, Güney)



Hələ orta məktəbdə oxuyarkən kimyaçı olmaq istəyirdi, sonralar fikrini dəyişdi, həkim olmaq arzusuna düşdü. Amma bizə elə gəlirdi ki, hərtərəfli istedada malik bu insan aşıq olacaq, çünki ustad yanında qısa bir müddətdə aşıq sənətinin inceliklərinə yiyələndi, çox məlahətli saz çalmağı vardı. Amma orta məktəbi bitirdikdən sonra həyatını başqa bir sahəyə həsr etməyi qərara aldı. Söhbət, istedadına və şəxsiyyətinə dərin hörmət bəslədiyim, əvəzsiz, dəyəri ölçüyə sığmayan bir sərvət olan dostum, eloğlumuz Müşfiq Zirəddin oğlu Bağırovdan gedir.

Bu gün məşğul olduğu biznesin coğrafi miqyasına, sabitliyinə və iqtisadi dəyərinə görə Müşfiq Zirəddin oğlu ölkənin uğurlu iş adamlarının cərgəsində əzəmətlə dayanır, savadının və təfəkküründən istifadə edərək təşkil etdiyi biznesi uğurla irəli aparır. Ortaya çıxan problemləri ciddi analitik təhlil etmək qabiliyyəti, özünəməxsus işgüzar keyfiyyətləri, biznesdə üz-üzə gəldiyi, müxtəlif xarakterə və həyata baxışa malik insanlarla təmasda olmağa və ünsiyyət qurmağa rəvac verir.

İrəliyə doğru həmişə asta, lakin inam və təmkinlə addımlayan, insanlara qarşı dərin sevgisi, sadəliyi, eyni zamanda qayğıkeşliyi ilə fərqlənən Müşfiq Zirəddin oğlu fəhlə ailəsində doğulmuşdur. Güney kənd orta məktəbini 1987-ci ildə qızıl medalla bitirmişdir. 1988-ci ildə Gəncədə Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə qəbul olunmuşdur. 1993-cü ildə institutu qırmızı diplomla bitirərək Elmi-Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi təyin edilmişdir.

1993-cü ildə hərbi xidmətə çağırılmış və DİN Daxili Qoşunlarında leytenant rütbəsində xidmətə başlamışdır.

1997-ci ildə Azərbaycan Polis Akademiyasına daxil olmuş və 2001-ci ildə akademiyanı müvəffəqiyyətlə bitirərək 2005-ci ilə qədər hərbi xidmətini davam etdirmiş, kapitan rütbəsində təqaüdə çıxmışdır.

2005-ci ildən biznesin müxtəlif sahələrində çalışır.

Üç övlad atasıdır, Onur adlı körpə bir nəvəsi var. Sevil və Sevinc adlı iki qızı ali təhsilli iqtisadçı mütəxəssis olaraq, əmək fəaliyyəti ilə məşğuldurlar. Oğlu Orxan dünya səviyyəsində tanınmış idmançıdır. 2011-ci ildə Kiyevdə keçirilən yarışlarda

taekvondo üzrə gənclər arasında Dünya çempionu, 2014-cü ildə Kiprdə keçirilən yarışlarda isə həmin idman növü üzrə Avropa çempionu adına layiq görülüb. Azərbaycan İdman Akademiyasını bitirmişdir, hazırda hərbi xidmətdədir.

Müşfiq ailənin tək övladı olaraq böyüyüb, atası Zirəddin, anası Zümrüd ona fiziki sağlamlıqla yanaşı, elə sağlam mənəviyyat bəxş ediblər ki, tanış olduğu hər kəs onunla qardaş olur, dostluq edir. Ona görə də yaşadıqları böyük ev həmişə qonaq-qaralı olur. Həyat yoldaşı Kəmalə xanımın nemətlə dolu süfrələri gündə neçə dəfə dəyişir. Onlarca dostları bu evi özünə doğma hesab edir, onların övladları da Müşfiqin valideynlərini nənə-baba gözündə görürlər.

Müşfiq mülayim qəlbli, xoşxasiyyət, həddindən artıq təvazökar bir adamdır. Asta, həzin danışıq tonu var. Bərk hirslənəndə belə danışıq tonunu dəyişmir, əsəbiləşdiyi yalnız sifətindən hiss olunur. Çox sadə, anlaşıqlı dili var. Ancaq nə qədər sadə dildə danışsa da, söhbətlərində ardıcıllıq, elmilik var, hər şey konkret fakta əsaslanır. Bütün bunlarla yanaşı, işinə çox dəqiq, məsuliyyətli, tələbkar adamdır. Bu keyfiyyətləri onunla birlikdə çalışanlardan da tələb edir və belələrinə xüsusi hörmətlə yanaşır.

Hədsiz dərəcədə gözütox, olduqca səmimi və etibarlı olan bu insan heç kəsin ruzisinə göz dikmir, heç kəsə paxıllıq etmir. Onun öz yolu var, bu yolla da gedir, sakit, səssiz. Amma inamla. Mərd və kişi kimi. Uşaqla uşaq, böyüklə böyük kimi davranır. Sevincini bölüşdürür, tanıdıqlarının, yaxınlarının kədərinə şərik çıxır.

Müşfiqin iştirak etdiyi mühitdə heç vaxt gərginlik olmur. O öz sağlam mənəvi-psixoloji aləmi ilə ətrafındakıları ruhlandırmağı bacarır. Onun oturduğu masada həmişə şən zarafat, deyib-gülmək eşidilir. İnsanlara əvəzsiz yaxşılıq etmək və bununla da özünü xoşbəxt hiss etmək onun xarakteridir.

İnsanlara sevinc bəxş etmək asan məsələ deyil. Elə uşaqlıqdan bunu özünə amal seçən Müşfiq üçün bu adi işdir. Kin-küdurətdən uzaq, insanlara öz gücü çərçivəsində sevinc bəxş etməyə həsr olunan bir ömür alqışlara layiqdir! Onunla həmsöhbət olanda qəlbən rahatlıq tapırsan. İncə yumorlu zarafatları o qədər yerli-yerində olur ki, ürəkdən, gözün yaşarana qədər gülə bilirsən. Müşfiqlə yol yoldaşı olmağın, yaxud manqalın böyründə dayanıb quyruq kababı bişirməyin, hərdən də "əlli-əlli vurmağın" ayrı ləzzəti var!

Bu qısa yazıda heç də Müşfiqi tərifləmək məqsədini qarşıya qoymamışdım. Sadəcə olaraq onun haqqında yazdığım bu sətirlər ürəyimin dərinliyində yer almış xoşməramlı hisslərin təzahürüdür.

ORUC MƏSİ OĞLU HÜSEYNOV

(1 oktyabr 1947, Güney)



Mənəvi qidasını Göyçə gölündən, mahalın göz oxşayan təbiətindən alan ləyaqətli oğullardan biri, gözəl təşkilatçı, xeyirxah, təmənnasız əməlləri, həyatda əqidəli və prinsipial mövqeyi ilə seçilən, yorulmaq bilmədən işləyən, işin ağırlığından qorxmayan, əməksevər və müdrik ziyalı, Oruc Məsi oğlu 1956-1963-cü illərdə Güney kənd səkkizillik məktəbində oxumuşdur. Səkkiz yaşında atadan yetim qalan Oruc Məsi oğlu, ailənin ağır maddi vəziyyətinə baxmayaraq orta məktəb təhsili almış, gec də olsa, 1966-cı ildə Şişqaya kənd orta məktəbini bitirmişdir.

Orta məktəbi bitirdikdən sonra 1966-68-ci illərdə Belarusiyada hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra 1968-ci ildə anası Dilbər nənə başda olmaqla kiçik qardaşları Fərhad və Nizami ilə birlikdə Gəncə şəhərinə köçdü. 1968-ci ilin sonlarında Gəncə şəhər rabitə-sənaye zavodunda fəhlə kimi əmək fəaliyyətinə başladı. Çünki, böyük bir ailənin yükü bu gəncin üzərinə düşürdü, qardaşları balaca olduğundan ailənin yeganə işləyəni Oruc Məsi oğlu idi. Bütün bu problemlərə baxmayaraq, ali təhsil almaq fikrini bir an da olsun yaddan çıxarmadı. Gündüzlər zavodda çalışdı, gecələr qəbul imtahanlarına hazırlaşdı. 1969-cu ildə H.Zərdabi adına Gəncə Dövlət Redaqoji İnstitutunun kimya-biologiya fakültəsinin axşam şöbəsinə daxil oldu. Oxuduğu müddətdə əzablı, ağır çətinliklərlə üz-üzə gəldi, lakin heç vaxt müvazinətini itirmədi, düşdüyü vəziyyətdən asılı olmayaraq şəxsiyyətini, gənclik vüqarını və ləyaqətini qoruyub saxladı. 1973-cü ildə institutu əla qiymətlərlə bitirib ali təhsil diplomu aldı.

Zavodda işlədiyi az bir vaxtda kollektivin sevimlisinə çevrildi, xoş ünsiyyəti ilə həmkarlarının dərin hörmətini qazandı. Malik olduğu yüksək insani keyfiyyətlər, dəyərlər ona işlədiyi kollektivdə böyük hörmət və inam doğurdu.

İşgüzarlığı və səmimiliyi ilə başqalarından həmişə fərqlənirdi. Ona tapşırılan hər bir işi böyük həssaslıq və dəqiqliklə yerinə yetirirdi. İnsanlara müraciət forması, səsinin tonu, işlətdiyi ifadələr, heç kəsin xətrinə dəyməməsi, çöhrəsindəki daimi təbəssüm, müsahibini sona qədər dinləmək, fikrinə hörmətlə yanaşmaq, mədəni, tərbiyəvi söhbətləri, onunla təmasda olanları məmnun edir, razı salırdı.

Məhz bu keyfiyyətlərinə görə də az bir vaxtda fəhləlikdən sex rəisi vəzifəsinədək yüksəldi. Zavodda o dövrün aparıcı qüvvəsi hesab edilən ilk partiya təşkilatının katibi oldu. Bu vəzifələri Sovetlər ittifaqı dağılanadək ləyaqətlə yerinə yetirdi.

Yaşadığı dövrdə cəmiyyətdə baş verən ictimai-siyasi dəyişikliklərlə əlaqədar, öz həyat yolunu da dəyişməkdən qorxmadı, çəkinmədi. Zavodda tutduğu vəzifələrdən istefa verdi, müstəqil işgüzar fəaliyyət yolunu tutdu. Biznes aləminin qanunlarına yiyələndi. Öz işini qurmağa başladı. Azad sahibkarlıq nə qədər cətin olsa da, həqiqətə və layiq olduğu mərtəbəyə çatmaq üçün bütün biliyini, savadını işə saldı, çalışqanlığı ilə qarşısına qoyduğu məqsədlərə addım-addım yaxınlaşdı. Ailəsinin, övladlarının firavan yaşaması üçün bütün məhrumiyyətlərə, cavanlığında olduğu kimi, yenidən sinə gərdi və qalib gələ bildi.

Bu gün Gəncə şəhərinin tanınmış, hörmətli iş adamları cərgəsində mühüm yer tutan Oruc müəllim övladlarına da biznesin sirlərini öyrətmiş, onlara da sutkalarla çalışmaq qabiliyyətini aşılamışdır.

Qayğıkeş və mehriban ailə başçısı olan Oruc müəllim, sevimli həyat yoldaşı Nübubət Abbas qızı ilə birlikdə Namiq, Arif adlı iki oğul, Sevda və Almaz adlı iki qız böyüdüb ərsəyə çatdırıb, ev-eşik sahibi edib.

Bu gün nəvələrinin həyat yolunda şam kimi yanır, onların ürəklərini, şüurlarını işıqlandırır, necə yaşamağı, ülvi əməllər uğrunda necə mübarizə etməyi, vətən üçün faydalı vətəndaş olmağın yollarını onlara öyrədir. Mənəviyyatına hakim kəsilən digər nəcib keyfiyyətlərin: dost kimi sədaqətli, insan kimi kamil, ziyalı kimi alicənab, vətəndaş kimi xalqını, torpağını sevən, ağsaqqal kimi nüfuzlu olmağın və digər insani keyfiyyətlərin nəvələrinə aşılanmasını özünün ən ümdə vəzifəsi hesab edir və bu yolda da bütün bilik və qabiliyyətini, mənəvi və fiziki sağlamlığını səfərbər edir.

SAYƏDDİN GÜLALI OĞLU İBRAHİMOV

(18 yanvar 1966, Güney)

Bugünkü biznes mühitdə çatdığı səviyyənin yüksəkliyinə görə ölkədə yaxşı tanınan, sayılıb seçilən, xeyirxah əməlləri ilə ictimai rəğbət qazanan minlərlə iş adamı cərgəsində Sayəddin Gülalı oğlu İbrahimovu görməmək olmaz. Fədakar və gərgin əməyi sayəsində biznesdə böyük nailiyyətlər qazanmağı bacarmış bu gəncin həyat yolu ibrətamiz və maraqlıdır.

Sayəddin Cülalı oğlu beş qardaş və beş bacıdan ibarət çoxuşaqlı ailədə dünyaya göz açıb. İki yaşında -1968-ci ildə atası Gülalı Cəlil oğlunu, 7 yaşında - 1973-cü ildə isə anası Quşdar Əli qızını itirmişdir. Bacı və qardaşlarının himayəsində böyü-



yərək 1983-cü ildə Güney kənd orta məktəbini bitirib, ali təhsil dalınca Bakıya gəlmiş, həmin il Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) texnologiya fakültəsinə qəbul olunmuşdur.

1984-1986-cı illərdə Kemerova vilayətinin Yurqa şəhərində hərbi xidmətdə olmuşdur. 1986-cı ildə hərbi xidmətdən qayıtdıqdan sonra təhsilini davam etdirmiş, 1990-cı ildə institutu bitirərək ağac emalı ixtisası üzrə mühəndislik diplomu almışdır.

İnstitutu bitirdikdən sonra təyinatla Bakı Baş Tikinti İdarəsinə işə göndərilmişdir. Bir neçə müddət mühəndis vəzifəsində, sonralar isə istehsal şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

İdarə ləğv edildikdən sonra, 1999-cu ildən xalça biznesi ilə məşğuldur.

Həyatın enişli-yoxuşlu pillələrində dəfələrlə büdrəyib, çətinliklərə düşüb. Amma yıxılmayıb, zəhmətdən qorxmayıb, hər əziyyətə qatlaşıb, irəliyə doğru cəsarətlə addımlayıb. Hansı sahədə olursa-olsun: təhsildə, idarəçilikdə, biznesdə, o sahənin bütün sirlərinin üst qatlarına, ucalıqlarına çatmağı özünə şüar edib.

Təhsil illərindəki maddi çətinliklər onu dərin savad almaqdan, bilik zirvəsinə qalxmaqdan çəkindirməyib, "bir qarın ac, bir qarın tox" gecə-gündüz çalışıb, gündüzlər dərsə gedib, gecələr isə o vaxtlar geniş fəaliyyət göstərən Bakı kondisioner zavodunda fəhlələk edərək özünü dolandırıb. Ağır zəhmətə qatlaşıb seçdiyi sənətin bütün sirlərinə yiyələnməklə yanaşı, həm də həyatın sirlərini öyrənməyə çalışıb.

Müəyyən iş təcrübəsi topladıqdan sonra öz yolunu biznesdə görüb və bu yolla irəliləmək üçün qəti addımlar atıb. Hər an, hər saat, hər gün yaranan maddi çətinlikləri, "pul çatışmazlığını" bir-birinin ardınca dəf edərək irəliyə doğru hərəkətini bir an da olsun dayandırmayıb.

Biznesə başladığı ilk gündən xalça ticarəti ilə məşğul olmağı qərarlaşdırıb, bu gün də həmin işi davam etdirir. O vaxtlar xalq arasında "aeroport bazarı" deyilən ticarət kompleksində balaca bir dükan açaraq xalça ticarəti ilə məşğul olmağa başladı. Bir çox iş adamlarından fərqli olaraq, biznesin ağır vaxtlarında bu sahəni tərk etmədi, ora-bura "vurnuxmadı". Özünəxas təmkinlə yoluna davam etdi. Bu gün yüzlərlə adama iş verib, onlarla ailə onun sayəsində dolanır. Biznesinin coğrafiyası da dəyişib. Ölkənin bütün bölgələrində onun rəhbərliyi altında xalça dükanları fəaliyyət göstərir.

Hələ uşaqlıq illərindən tərbiyəli, ləyaqətli, hörmətcil, təvazökar, səmimi, sadə tanıdığımız Sayəddin Gülalı oğlu müsbət keyfiyyətlərinə bu gün də sadiq qalıb, on-

ları bir az da möhkəmlədib. Məişətdə də, idarədə də, səfərdə də özünəməxsus ənənə və əxlaq tərzi yaradıb. İdarəçiliyində olan bütün adamlarla münasibətində də bu ənənələr davam etdirilir.

Ali məktəbdə aldığı bir nəzəri biliyi praktik olaraq təsdiqlədi. Sübut etdi ki, insanın fəaliyyət sahəsi onun daxili harayına cavab verirsə, o insanda maraq oyadır, onun həyatda uğur qazanmasına zəmin yaradır. Peşə və sevimli məşğuliyyəti bir araya gətirmək üçün böyük miqdarda səy və əzmkarlıq tələb olunur, amma onlar bir qayda olaraq özünü doğruldur, öz qiymətini çıxarır, çünki insan məmnuniyyət əldə edir, işləmək istəyir və ən əsası da maliyyə stabilliyi qazanır.

Sayəddinin başqa bir cəhəti də onu digərlərindən fərqləndirir. Kənddən çıxmış, Bakıda məskunlaşmış elə bir adam tanımıram ki, Sayəddin qədər kiçik vətənə - doğma yurda, Ulu Göyçəyə bu qədər bağlı olsun, aşıq, saz-söz sənətinin bu qədər vurğunu olsun. Bilirəm, bir anlıq belə imkan yaransaydı, Sayəddin darıxdığı üçün yox, müqəddəs ziyarətgah hesab etdiyi üçün o doğma torpağı görməyə hamıdan öndə qaçardı.

Həyatı boyu çox ciddi məhrumiyyətlərlə üzləşsə də, biznesdəki uğurları ona gözəl məişət şərati yaratmaq imkanı da verdi. Bakı şəhərində ailəsinin ehtiyacına cavab verə biləcək mənzil və ev şəraiti yaradıb, bağ evi tikdirib.

Orta məktəbdə sinif yoldaşı, sonra isə həyat yoldaşı olmuş Rubabə xanımla iki övlad böyüdüb boya-başa çatdırıblar, hər ikisinin ali təhsilini təmin ediblər. Qızı Aysel xanım ailəlidir, valideynlərinə Selin xanım kimi bir nəvə bəxş edib. Oğlu Gülalı da bu yaxınlarda ailə qurub, atasının yolu ilə gedərək biznesdə onunla birlikdə çalışır.

VAQİF MÜZƏFFƏR OĞLU SƏFƏROV

(1958, Güney)

Güney kənd səkkizillik məktəbində oxumuş (1964-1972), orta təhsilini 1974-cü ildə Gədəbəyin Nərimanlı kəndində tamamlamışdır.1977-1979-cu illərdə Xabarovsk şəhərində hərbi xidmətdə olmuş, tərxis olunduqdan sonra doğma kəndə qayıtmışdır.

1979-cu ildə Moskva Kooperasiya İnstitutunun Bakı filialında mühasibat uçotu fakültəsinə qəbul olunmuş, 1981-ci ildə Güney kənd heyvandarlıq sovxozuna kassir təyin edilmişdir.

1984-cü ildə institutu bitirmiş, 1988-ci ilin dekabrınadək sovxosda işini davam etdirmişdir. Deportasiyadan sonra 1988-ci ilin sonlarında Bakı şəhərinə köçdü.



1989-cu ildə Bakı şəhər ticarət idarəsinin Əmircan qəsəbə universal mağazasının müdiri təyin edildi. 1996-cı ilə qədər ticarətin müxtəlif sahələrində çalışdı.

Hazırda biznesle məşğuldur. Ağır zəhmətə qatlaşaraq yaratdığı ticarət sahələrində əzmlə, yorulmadan çalışır, xarici şirkətlərlə qurduğu əlaqələrdə razılaşmaların dəqiq və vaxtında yerinə yetirilməsi üçün bütün gücünü sərf edir, dəqiqliyi ilə başqalarından fərqlənir. Bütün bu cəhətlər də onun uğurlarına səbəb olan amillərdəndir.

Gədəbəydən Fəranə Rəhim qızı ilə ailə qurub. Vüqar adlı oğlu, Könül, Günay adlı iki qızı, beş nəvəsi var.

ZƏFƏR NİFTALI OĞLU ƏLİYEV

(1967, Güney)



Hələ kənd orta məktəbində təhsil alarkən, Zəfərin ən böyük arzularından biri kənd təsərrüfatı üzrə ali təhsil almaq, bir mütəxəssis kimi, öz füsunkar və möcüzəli təbiəti, zəngin və məhsuldar əkin torpaqları ilə Göyçə mahalında məşhur olan, doğma Güney kəndinə qayıtmaq arzusu idi.

Bu arzularla 1974-1984-cü illərdə oxuduğu Güney kənd orta məktəbini bitirib Gəncə şəhərinə gəldi. 1984-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanikləşdirmə fakültəsinə daxil oldu.

1985-1987-ci illərdə Ukraynada hərbi xidmətdə oldu. Hərbi xidmətdən qayıtdıqdan sonra təhsilini davam etdirərək, 1991-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdi. Lakin bu onu qane etmədi. Zəhmətsevərliyi, ardıcıllığı, iri miqyaslı düşüncə qabiliyyəti ilə hələ orta məktəb şagirdi olduğu zaman bütün yoldaşlarından fərqlənən Zəfər Niftalı oğlu, elmin zirvəsinə qalxmaq amalı ilə 1992-1994-cü illərdə Kənd Təsərrüfatı İnstitutunun aspiranturasında təhsilini davam etdirdi və aspiranturanı uğurla başa vurdu.

1994-cü ildə ölkədə yaranan siyasi sabitlik, quruculuq motivasiyası, sahibkarlığın inkişafı, gələcəyi yaxşı görmək qabiliyyəti olan Zəfəri biznes aləminə atdı. Çoxlarına bu qəribə gələ bilərdi. Elm sahəsindəki uğurları ilə bəlkə də Zəfər daha yüksəklərə qalxa, daha böyük işlərə imza ata bilərdi. Ancaq o bunu etmədi. Biznesdə atdığı addımların qarşıya qoyduğu məqsədin reallaşma ehtimalını artırdığına, uğurlu gələcəyin açarı olacağına inanırdı.

Zəfər bilirdi ki, müxtəlif istiqamətlərdə çalışqanlıq dərəcəsilə uğur qazanmaq ehtimalı arasında birbaşa əlaqə mövcuddur. Ona görə də uğur qazanacağına qərar verdi və bu qətiyyətli fikrini reallaşdırmaq üçün gecə-gündüz, yorulmadan çalışmağa başladı, özü demişkən, sutkada "26" saat çalışdı, Bakı şəhərində istehsal, ticarət və xidmətin müxtəlif sahələrində fəaliyyət göstərdi.

Zəfər Niftalı oğlu bu gün biznes aləmində sayılıb-seçilən, nüfuzlu, hörmətli iş adamlarından biri kimi, sahibkarlıq ruhunun ən vacib amillərdən biri olduğunu, öz şüuru ilə fikirləşdiyi və inandığı hər şeyə nail ola bilmək qabiliyyətini bir daha sübut etdi. Onu bu müsbət nəticələrə gətirib çıxaran cəsarət, proaktivlik, əməksevərlik, ruhdan düşməmək, fürsəti görmək və ondan istifadə etmək qabiliyyəti və digər intellektual keyfiyyətləridir.

Onu səciyyələndirən keyfiyyətlərdən biri də daxilən zəngin, açıq və geniş qəlbə malik olması, torpağına, elinə-obasına bağlılığıdır. Böyüklərə hörmət və ehtiram, kiçiklərə qayğı və məhəbbət, ehtiyac üzündən əl açanlara daim dəstək olmaq onun amalıdır.

"Ulduz" jurnalının 2013-cü il 6-cı nömrəsində çap olunan, Ə. Əylislinin "Daş yuxular" əsərinə cavab olaraq yazdığı "Daş həqiqətlər" məqaləsində onun xarakteri, həyata baxışı, qiymətləndirdiyi bütün mənəvi dəyərlər tam qabarıqlığı ilə nəzərə çarpır, onun kimliyini bir daha təsdiqləyir.

Zəfər Niftalı oğlunun xarakterini səciyyələndirən cəhətlərdən biri də onun keçmişinə, nəslinə, kökünə bağlılığıdır. Bəlkə də yaşıdlarının arasında yeganə insandır ki, Qəhrəmanlılar tayfasının 200-illik şəcərəsini əzbərdən bilir. Bu kitabın yazılışında biz onun bilgilərindən istifadə etdik. Buna görə ona ayrıca minnətdarlıq edirik.

Zəfər qayğıkeş, mehriban bir ailə başçısıdır. Əslən Göyçə mahalının Yarpızlı kəndindən Leyla Qaçay qızı ilə evlidir. Ayxan adlı oğulları, Aytən və Akdəniz Universitetində təhsil alan Nigar adlı qızları var. Leyla xanım biznesdə Zəfərin ən yaxın köməkçisidir.

BU GÜN MƏSUL VƏZİFƏLƏRDƏ

ETİBAR ELDAR OĞLU ƏMRAHOV

(25 yanvar 1984, Qamışlı k.)



Ziyalı ailəsində doğulmuşdur. 1984-cü ilin aprel ayında ailəliklə Göygöl rayonunun (keçmiş Xanlar) Göyçəkənd (keçmiş Ayqestan) kəndinə köçmüşlər. Tam orta məktəbi burada 2001-ci ildə bitirmişdir.

2002-ci ildə Gəncə Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş və 2006-cı ildə ali təhsilini uğurla başa vurmuşdur.

2006-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətdən tərxis edildikdən sonra Göygöl rayonunun Quşçu kənd orta məktəbində tarix müəllimi olaraq pedaqoji fəaliyyətə başlamışdır. Həmin il İqtisad Universitetinin "Maliyyə-Kredit" fakültəsinə daxil olmuşdur. 2010-cu ildə təhsilini başa çatdırmış və ikinci ali təhsil almışdır.

2011-ci ildə Müdafiə Sənayesi Nazirliyində mühasib, 2012-ci ildən isə baş mühasibin müavini vəzifəsində çalışır.

Gülnarə Vahid qızı ilə evlidir, Eldar və Aysu adlı iki övladı var.

HAKİM MƏMMƏDRZA OĞLU MİRZƏYEV

(10 noyabr 1974, Güney)



Bütün bəşər tarixi boyunca insanlar qanunlara tabe olub, haqqa-ədalətə güvəniblər. İctimai quruluşdan və sosial şəraitdən, məkandan və zamandan asılı olmayaraq, bütün dövrlərdə qanunun keşiyində dayanan, onu mühafizə edən və düzgün tətbiqinə çalışan insanlar ədalətin, düzgünlüyün carçısı kimi qəbul ediliblər.

Bu gün ölkəmizdə qanunçuluğun zəfəri yolunda əzmlə çalışan hüquqçularımızdan biri, öz gücü, bacarığı, qabiliyyəti ilə gərgin zəhmət və mübarizələrlə dolu karyerasında, ictimai mövqesində şərəfli, ləyaqətli yer tutan, alicənab insan Hakim Məmmədrza oğlu Mirzəyev Güney kəndində zəhmətkeş bir ailədə dünyaya göz açdı.

Uşaqlıq illərini doğma kəndində keçirdi. Güney kənd orta məktəbində oxuduğu ilk günlərdən çalışqanlığı, elmə, biliyə olan həvəsilə nəzərə çarpdı, sinfin yaxşı oxuyanları arasında özünə layiqli yer tutdu, humanitar elmlərə olan həvəsi ilə başqa şagird yoldaşlarından fərqləndi.

1988-ci ilin acı qışı, onun da bəxtinə "didərginlik payı" əlavə edərək, minlərlə insan kimi, Hakimi də doğma yurdundan, isti ocağından, sevimli məktəbli partasından ayırdı. Ailəsi ilə birlikdə Tovuz rayonunun Düz Qırıxlı kəndinə köçməyə məcbur oldular. Orada yaşadıqları bir neçə ay ərzində Hakim kənd orta məktəbinin 8-ci sinfində təhsilini davam etdirdi. 1989-cu ildə Şamaxı rayonunun Mədrəsə kəndində ev alaraq ora köçdülər. 1992-ci ildə Mədrəsə kənd orta məktəbinin 11-ci sinfini bitirərək tam orta təhsil aldı.

Orta məktəbdə oxuduğu illərdə atası Məmmədrza Mahmud oğlu və anası Pakizə Süleyman qızının da istəyi ilə hüquqşünas olmağı qərara almışdı. Bu məqsədlə də 1992-ci ildə orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə verdi. Qəbul imtahanlarında müvəffəqiyyət qazanaraq hüquq fakültəsinin qiyabi şöbəsinə qəbul olundu.

Ailənin böyük oğlu olaraq valideynlərinə kömək məqsədi ilə əmək fəaliyyətinə başladı. 26 may 1992-ci il tarixdə "Azərkitab" Birliyinin 57 saylı mağazasına satıcı kimi işə düzəldi.

02 iyun 1993-cü ildən 09 may 1994-cü ilə qədər Bakı şəhəri Xətai rayonu 41 nömrəli mağazada satıcı işlədi.

26 may 1994-cü ildən 22 fevral 1996-cı ilə qədər Azərbaycan Gənclər İttifaqı Nizami rayon Komitəsində sədr müavini vəzifəsində çalışdı.

1997-ci ildə universiteti hüquqşünas ixtisası üzrə bitirdi. 1996-1998-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətdə oldu.

Hərbi xidmətdən sonra 1998-ci ilin mart ayından "S-Alfa" firmasında hüquqşünas vəzifəsində çalışdı.

2003-cü ilin fevral ayından 2011-ci ilin yanvar ayınadək Ağır Cinayətlərə Dair İşlər ürə Azərbaycan Respublikası Hərbi Məhkəməsində, 2011-ci ilin noyabrınadək Lənkəran Ağır Cinayətlər Məhkəməsində Məsləhətçi (məhkəmə iclas katibi) işlədi. 2011-ci ilin noyabrından 2012-ci ilin dekabrına qədər Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Aztelekom" İB-də hüquqşünas vəzifəsində çalışdı.

2012- ci ilin noyabrından 2015-ci ilin avqustuna qədər Ədliyyə Nazirliyinin Bakı şəhər Sabunçu rayon icra şöbəsi üzrə İcra məmuru vəzifəsinə təyin edildi.

12 iyul 2016-cı il tarixdən Ədliyyə Nazirliyi Siyəzən rayon Dövlət notariat kontorunun notarisu (rəisi) vəsifəsində fəaliyyət göstərir.

Bu qısa arayışda Hakim Məmmədrza oğlunun keçdiyi, heç də asan olmayan həyat yolunu tam işıqlandırmaq mümkün deyil. Sadəcə, tutduğu vəzifəsindən asılı olmayaraq, həmişə sadə, gülərüz, özünəməxsus iş üslubu və xarakterik xüsusiyyətləri ilə seçilən, alicənab insan, vətəndaş, elinə-obasına bağlı, bizim fəxrimizə layiq bir vətəndaşdır. Dünyaya fərd kimi gələn və bu gün bir şəxsiyyət kimi formalaşıb kamillik məqamına doğru addımlayan bu gənc eloğlunun keçdiyi həyat yolu digərlərinə nümunə olmalıdır.

Evlidir. Həyat yoldaşı Solmaz Hümbət qızıdır. Nicat, Nihat, Nurhan adlı üç oğul böyüdürlər.

RAUF YADİGAR OĞLU CAMALOV

(19 iyun 1971, Güney)

1988-ci ildə Güney kənd orta məktəbini bitirdikdən sonra valideynlərinin arzusu ilə sənədlərini Azərbaycan Tibb İnstitutuna verdi. Lakin bu cəhdi alınmadı. Doğma kəndinə qayıtdı. Həmin ilin dekabrında yaşanılan deportasiyadan sonra bütün Göyçəlilər kimi Rauf da doğma evini, Vətənini tərk etmək məcburiyyətində qaldı. Ailəsi ilə birlikdə Bakı şəhərində məskunlaşdılar.

1989-cu ildə hərbi xidmətə çağırıldı. Cilov adasında hərbi xidmətdə oldu və 1991-ci ildə hərbi xidmətini başa vurduqdan sonra Bakıya qayıtdı və ali təhsil almaq məqsədilə qəbul imtahanlarına hazırlaşdı.

1992-ci ildə Azərbaycan Milli Aviasiya Akademiyasının (Bu ali məktəb Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 iyun 1992-ci il tarixli, 337 saylı qərarı



ilə "Milli Aviasiya Mərkəzi" adı ilə yaradılmış və sonra Nazirlər Kabinetinin 24 fevral 1994-cü il tarixli, 81 saylı qərarı ilə Milli Aviasiya Akademiyasına çevrilmişdir) mühəndis-texnik fakültəsinə qəbul olundu.

1997-ci ildə Akademiyanı birinci buraxılış olaraq bitirdikdən sonra, Binə hava limanında avia texnik vəzifəsinə işə qəbul edildi.

2007-ci ildən "Silk Way Tekniks" aviaşirkətində mühəndis vəzifəsinə təyin edildi. Çox keçmədən bu şirkətdə növbə rəisi, aparıcı mühəndis vəzifələrinin daşıyıcısı oldu.

2009-cu ildən bu günə kimi "Silk Way" aviaşirkətinin Aviasiya Texnikasına Texniki xidmət və Təmir mərkəzi operativ və Vaxtaşırı Texniki Xidmət sexlərinin rəisi vəzifəsində çalışır.

Ailəlidir. Həyat yoldaşı Sevda Mikayıl qızı ilə Yadigar adlı oğul, Aysel adlı qız böyüdürlər.

SADİQ YAŞAR OĞLU ORUCOV

(30 sentyabr 1979, Güney)



1986-cı ildən Güney kənd orta məktəbində oxuyurdu. 1988-ci il deportasiyasından sonra ailəliklə Gəncə şəhərinə köçdülər.

Orta məktəbi bitirdikdən sonra 1996-cı ildə Azərbaycan İnşaat Mühəndisləri Universitetinə daxil oldu. 2000-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini fərqlənmə diplomu ilə başa vurdu. Təhsilini davam etdirərək 2002-ci ildə universitetin magistraturasını bitirdi.

2002-2003-cü illərdə hərbi xidmətdə oldu. Ordudan tərxis edildikdən sonra "Azərkəndtikinti" ASC-də fəhlə kimi əmək fəaliyyətinə başlayıb. Sonralar usta vəzifəsinə təyin edilib. Daha sonra iş icraçısı və sahə rəisi kimi fəaliyyət göstərib.

2005-ci ildən Abşeron MKTTİTB-nin Təmir-tikinti idarəsində baş mühəndis işləyib.

2011-ci ildən Azinşaat MMC-də mühəndis kimi işə başlayıb. Sonra plan istehsalat şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Hal-hazırda tikinti planlaşdırma departamentinin rəisi vəzifəsində çalışır.

Ailəlidir. Güney kəndindən, Məşədi Hüseynlilərdən Arzu Lütfiyar qızı Nəsibova ilə ailə qurub. Arzu xanım alman, ingilis, rus dilləri üzrə tərcüməçi kimi fəaliyyət göstərir. Emil adlı oğlu, Ayla adlı qızı var. Bakı şəhərində yaşayırlar.

SEYMUR NAMAZ OĞLU SƏFƏROV

(4 aprel 1981, Güney)



Güney kənd orta məktəbində oxuyurdu. 1988-ci il deportasiyasından sonra ailəliklə Gəncə şəhərində məskunlaşdılar və təhsilini 24 saylı orta məktəbdə davam etdirdi.

2000-ci ildə qəbul imtahanlarını uğurla verərək Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil oldu. 2004-cü ildə bakalavr pilləsi ilə hüquq fakültəsini bitirdi. 2005-2006-cı illərdə Daxili İşlər Nazirliyi Daxili qoşunlarda həqiqi hərbi xidmətdə oldu. 2008-ci ildə həmin Universitetin hüquq fakültəsini magistr dərəcəsi ilə bitirdi.

Əmək fəaliyyətinə 2007-ci ilin mart ayında Daxili İşlər Nazirliyində başlamış, həmin ilin iyul ayında isə Ədliyyə Nazirliyinin strukturunda işə keçərək Bakı şəhər Yasamal rayon icra şöbəsində işləmiş, Nazirliyin Appellyasiya Şurasının katibliyinin üzvü olmuşdur. Polis leytenantı və kicik ədliyyə müşaviri xüsusi rütbəsi var.

2018-ci ilin oktyabr ayından Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Aparat rəhbərinin müavini vəzifəsinə təyin edilmiş, eyni zamanda Bakı şəhəri 14 saylı vəkil bürosunun vəkilidir.

Ailələdir, həyat yoldaşı Günay Vaqif qızı ilə Ərtoğrul adlı bir oğul, Selcan adlı bir qız böyüdürlər. Bakı şəhərində yaşayır.

TELMAN İSƏ OĞLU ƏLƏSGƏROV

(5 yanvar 1958, Güney)



Deyir ki, Göyçəli olmaq onun vətəndaşlıq taleyinə yazılmışdır. Səkkizilliyi Güneydə oxumuş, hələ o vaxtlar kənddə orta məktəb olmadığından, orta təhsilini 1974-cü ildə rayonun Kiçik Məzrə kənd orta məktəbində tamamlamışdır.

1974-cü ildə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsinə daxil oldu, lakin birinci kursu bitirdikdən sonra institutun daşını atmaq qərarına gəldi, çünki seçdiyi ixtisası onu qane etmirdi. Sevmədiyi bir işin dalınca getmək isə onun xarakterinə zidd idi.

1977-1979-cu illərdə Estoniyanın Tartu şəhərində hava hücumundan müdafiə qoşunlarında həqiqi hərbi xidmətdə oldu.

Ordudan tərxis olunduqdan sonra Bakıya gəldi. Orta məktəbdən dəqiq elmləri, o cümlədən riyaziyyat və fizikanı yaxşı bildiyindən 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tikintinin təşkili və iqtisadiyyatı fakültəsinin axşam şöbəsinə qəbul olundu. Tələbəlik illərində təhsil almaqla yanaşı əmək fəaliyyətinə də qoşuldu.

1980-ci ildə 3 saylı evtikmə kombinatında fəhlə kimi işə başladı. Gərgin əməyin nəticəsində həmişə uğur qazandı. Bir çox insani keyfiyyətlərinə, bacarığına, işgüzarlığına görə az bir vaxtda işlədiyi kollektivin dərin hörmətini qazandı. İnstitutda aldığı nəzəri biliyi praktik işdə tətbiq edərək onlardan əməli nəticə götürə bildi. Təcrübəli mütəxəssis kimi irəli çəkildi. Usta, sex rəisi, mühəndis, baş mühəndis vəzifələrində çalışdı. 2002-ci ildə yaranmış iqtisadi böhranla bağlı olaraq kombinat öz fəaliyyətini dayandırdı.

